AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

OZAN-AŞIQ ENSİKLOPEDİYASI

(İki cilddə- II cild)

BAKI – 2020

İki cilddən ibarət olan "Ozan-aşıq ensiklopediyası" Azərbaycan Respublikasının Prezidenti möhtərəm İLHAM ƏLİYEV cənablarının Aşıqlar Birliyinin inkişafına dəstək məqsədi ilə ayırdığı vəsait hesabına nəşr olunur.

REDAKSİYA HEYƏTİ: ***MƏHƏRRƏM QASIMLI (baş redaktor), MAHMUD ALLAHMANLI (baş redaktorun müavini), İSA HƏBİBBƏYLİ, FİRƏNGİZ ƏLİZADƏ, FƏRHAD BƏDƏLBƏYLİ, RƏFAEL HÜSEYNOV, SƏYAVUŞ KƏRİMİ, NƏRİMAN HƏSƏNZADƏ, YAQUB MAHMUDOV, NİZAMİ CƏFƏROV, MUXTAR İMANOV, MÖVLUD SÜLEYMANLI, QƏZƏNFƏR PAŞAYEV, TARİYEL MƏMMƏDOV, İRADƏ KÖÇƏRLİ, KAMİLƏ DADAŞZADƏ, MAHMUD MƏMMƏDOV, ULDUZ QULİYEVA, ELXAN MƏMMƏDLİ, ALTAY MƏMMƏDLİ, AĞAMURAD ŞİRVANLI.***

YARADICI HEYƏT:

MƏHƏRRƏM QASIMLI
Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor;
MAHMUD ALLAHMANLI
filologiya üzrə elmlər doktoru, professor;
İRADƏ KÖÇƏRLİ
sənətşünaslıq üzrə elmlər doktoru, professor;
KAMİLƏ DADAŞZADƏ
Əməkdar incəsənət xadimi, professor

"Ozan-aşıq ensiklopediyası". (2 cilddə), Aşıqlar Birliyi, "Gənclik" nəşriyyatı, II cild, 432 səh., Bakı, 2020.

Ensiklopediyada ozan-aşıq yaradıcılığı ilə bağlı faktoloji bilgilər, sənətin mənşəyi, təşəkkülü, inkişaf tarixi, günümüzə qədərki mənzərəsi, ustad sənətkarların, el şairlərinin yığcam bioqrafiyası, sənət ənənəsi, dastançılıq və ifaçılıq xətləri, sinkretiklik, improvizasiya məsələləri, qopuz, saz, balaban, davul, nağara və s. barədə elmi-tarixi məlumatlar yer alır. Saz havalarının əsas səciyyəsi, melodik quruluşu və not yazıları əsasındakı təhlillərə xüsusi diqqət yetirilir. Türk şamançılığı, orta çağ təsəvvüf mədəniyyəti, ozan//aşıq keçidi və onun tarixi dinamikası ilə ilgili təhlillər də uyğun ölçüdə öz əksini tapır. Ozan//aşıq sənətinin elmi-nəzəri problemləri ilə məşğul olan folklorşünaslar, etnoqraflar, aşıqşünas və musiqişünaslar barəsində yığcam oçerklər təqdim olunur. Türk xalqlarında mövcud olan sənət ənənəsi və onun çağdaş mənzərəsi, eləcə də dünya xalqlarında ozan//aşıq sənətinə yaxın olan folklor sahələri haqqında da ensiklopedik bilgilər verilir.

QEYD: Ensiklopediyanın müəlliflik hüququ Azərbaycan Aşıqlar Birliyinə və yaradıcı heyətə aiddir.

ISBN:978-8020-1944-5-1

(Əvvəli 1-ci cilldə)

QAÇAQ DASTANLARI – Qəhrəmanlıq dastanlarının mühüm bir hissəsini təşkil edir. Qaçaq hərəkatı Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. XIX əsrin 60-cı illərindən başlamışdır. Folklorşünas B.Behcət bu hərəkatın XIX əsrin 40-cı illərindən başlandığını göstərir. Çarizmin yeritdiyi siyasət, ictimai-siyasi mühitdə baş verənlər, xalqın zülm və işgəncə altında saxlanması, çar məmurlarının və yerli çinovniklərin özbaşınalıqları, yerli əhaliyə verdikləri işgəncələr böyük narazılıqlara gətirib çıxarmışdı. Mövcud vəziyyətlə barışmayan əhali başqa çıxış yolu görə bilməmiş, zülmkarlara qarşı mübarizəyə başlamışdır. Xalq həmin cəsur insanların mübarizəsində özlərinin taleyini görmüş və dəstələr şəklində döyüşlər aparmışlar. Qaçaq hərəkatının ilk başlanğıcında Əbdülkərimin və qardaşlarının mübarizəsi durur. Əbdülkərim 1822-ci ildə Qazaxda anadan olmuşdur. Oradan qaçıb Qarabağa gəlmiş, Kür çayı sahilində Qazaxlar adında kənd salmışdır. Qarabağda bəylərin ona münasibəti, bir sıra məsələlərdə ona böhtanların atılması, incidilməsi onu qaçaqçılığa gətirib çıxarmışdı (1844). Bu hərəkat sonralar bütün Qafqazda yayılmışdı. Qaçaq Nəbi, Qaçaq Kərəm, Qandal Nağı, Qaçaq İsmayıl, Qaçaq Tanrıverdi, Qaçaq İsaxan, Səməd bəy və b. xalq qəhrəmanları müxtəlif səbəblər üzündən silaha sarılıb ölümdirim savaşına girmişlər. Rus çarizminin məmurları, yerli ağalar, bəylər xalqı əzab-əziyyət, zülm içində saxlayırdılar. Çar məmurları ilə yerli bəylərin birləşməsi nəticə etibarilə üsyanlara gətirib çıxarırdı. Həmin narazılıqların nəticəsi silaha sarılmaya, ayrı-ayrı məmurların öldürülməsi ilə nəticələnirdi. Molla Nur, Yarəli, Hacı Məhəmməd, Şəkili Məhəmməd Cavadoğlu, Adıgözəl, Dəli Alı və başqalarının etirazları, mübarizəsi qaçaq hərəkatı adı ilə tarixləşmişdir. Qaçaqlar xalq içərisindən çıxmış, xalqa kömək əli uzatmış el qəhrəmanlarıdır. Xalq arasında bu qəhrəmanlar haqqında müxtəlif nəğmələr qoşulmuş, hekayətlər, əhvalatlar, hadisələr söylənmişdir. Xalq onların qəhrəmanlığını özlərinin qəhrəmanlığı bilmiş, bütün vəziyyətlərdə onlarla bir olmuşlar. "Qaçağı el saxlar" məsəli də məhz xalqın qaçağa olan münasibətinin ifadəsidir. Qaçaqların apardığı mübarizə, göstərdikləri qəhrəmanlıqlar baş verdiyi vaxtdan eldə-obada danışılmış, bir növ xalqın arzularının ifadəsinə çevrilmişdir. Həmin qəhrəmanlar haqqında olan nəğmələr, hadisələr, hekayətlər son olaraq dastanlaşmaya doğru təbii proses keçmişdir. "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qandal Nağı", "Dəli Alı", "Qaçaq Tanrıverdi", "Qaçaq İsmayıl", "Qaçaq İsaxan", "Səməd bəy" və s. məhz belə bir təbii prosesdə yaranmışdır. Bir növ dastanlaşma prosesi keçirmişdir. Dastan ənənəsini öyrənmək üçün qaçaq dastanları ən yaxşı mənbədir. Qaçaq hərəkatı ilə bağlı XIX əsrin 90-cı illərindən etibarən nəğmə, hekayətlər mətbuat səhifələrində özünə yer tapır. XX əsrin ilk onilliklərində S.Mümtaz, H.Əlizadə, H.Zeynallı, B.Behcət, Ə.Tahirov, Ə.Axundov bu qəbildən olan müxtəlif nəğmələr toplamışlar. H.Əlizadənin ***"Aşıqlar"*** kitabında Qaçaq Nəbi, Həcər, Qaçaq Kərəm, Qandal Nağı, Dəli Alı ilə başlı nəğmələr verilmişdir. Folklorşünas alimlər həmin dövrü səciyyələndirərkən

bu nümunələrə istinad etmişlər. R.Əfəndiyev, H.Əlizadə, M.H.Təhmasib, F.Qasımzadə, H.Araslı, P.Əfəndiyev, M.Həkimov, S.Paşayev, İ.Abbaslı, R.Rüstəmzadə, M.Allahmanlı və başqaları qaçaq hərəkatı ilə bağlı nəğmə və dastanları təhlil etmiş, mülahizələr yürütmüşlər. R.Rüstəmzadə qaçaq hərəkatı ilə bağlı dastanların əsas tədqiqatçısıdır.

"QAÇAQ İSAXAN" DASTANI – qaçaq hərəkatı ilə bağlı yaranan xalq hekayətləri silsiləsinə daxildir. Hadisələr Qarayazı mahalının Dəmirçihasanlı kəndində baş verir. Bu kənd Kosalı və Nazarlı adları ilə tanınır. Bu dastan İsaxanın el qəhrəmanı kimi göstərdiyi igidlikləri, mübarizəni özündə əks etdirir. Dastanın mahiyyətində Qarayazı meşələrində çar çinovniklərinə, bolşevizmə, yerli zülmkarlara qarşı qaçaqların apardığı mübarizə dayanır. Dastan əvvəlcə əhvalat, hadisə, nəğmə şəklində xalq arasında yayılmağa başlamışdır. Aşıq Alxan bu dastandan müəyyən əhvalat və rəvayətləri öz repertuarında həmişə yaşatmışdır. Xalq arasında yaşayan bu əhvalatlar "Qaçaq İsaxan" dastanı adı ilə (Bakı, 2009) nəşr olunmuşdur. Dastan Zahid Ələmpaşalı tərəfindən işlənmişdir. "Borçalı folklor örnəkləri. Dastanlar" (II kitab, Bakı, 2013, səh. 328-365) adlı topluda da nəşr olunmuşdur. Zahid Ələmpaşalı bu dastanı xalq arasında yaşayan rəvayət və nəğmələr əsasında, Nağı Hacıbayramlının Türkiyədən göndərdiyi "Xatirələr"dən, Ulukişili Qaçaq Şəmistanın özündən eşitdiyi xatirələr əsasında düzüb qoşmuşdur. Dastanı yaradarkən Zahid Ələmpaşalının yaşı doxsanı haqlamışdı. Dastandakı hadisələr öz başlanğıcını 1929-cu ildə Hacıbayramlılardan Xozeyinin milis idarəsinə çağırılması və on illik Sibirə sürgün edilməsi məsələsindən götürür. İsaxan Xozeyinin əmisi oğludur. Bunu eşidən İsaxan belə qərara gəlir ki, yeganə çıxış yolu silaha sarılmaqdır. Ətraf kəndlərdən, Borçalıdan İsaxanın ətrafına cəsur oğlanlar qoşulur. Qarayazı meşələrində, Borçalıda onlar rus çinovniklərinə qarşı ölüm-dirim mübarizəsinə girirlər. Palıdlıdakı döyüş bu gün də el ağsaqqallarının dilində bir dastandır. Dastanda Xozeyinin Sibirdən qaçması ayrıca xətdir. Xozeyin burada qalmağın mümkünsüzlüyünü görüb rəisi öldürərək onun paltarını geyinib qaçır. "Qaçaq İsaxan" dastanında hadisələr daha çox tarixiliyə, tarixi faktlara əsaslanır. Dastanda qeyd olunan tarixlər də bunu göstərir. Dastanla bağlı folklorşünas E.Məmmədli, M.Allahmanlı təhlillər aparmışlar.

"QAÇAQ İSMAYIL" – qaçaq hərəkatı ilə bağlı yaranan dastanlar silsiləsinə aiddir. Qaçaq hərəkatı Azərbaycan xalqının qəhrəmanlıq tarixidir. Xalq qəhrəmanlarının igidliyi, cəsurluğu ilə bağlı formalaşmışdır. Onlar haqqında olan nəğmə, əhvalat, hadisə xalq arasında yayılmış, aşıqların dilinə düşmüş, hekayət kimi məclislərdə söylənmişdir. El qəhrəmanları haqqında dastanları elin anası olan aşıqlar yaratmış, bir tarix kimi yaşatmışlar. "Qaçaq İsmayıl" dastanı da həmin dastanlar silsiləsindəndir. Dastanı Zəminə Xınalı "Qaçaq İsmayıl" (Bakı, Adiloğlu, 2008) başlığı altında nəşr etdirmişdir. Dastanla bağlı professor M.Allahmanlı geniş elmi məqalə yazmışdır. Qaçaq İsmayılın kimliyi, Qaçaq Kərəmlə dostluğu, Qazax rayonunun

İncə dərəsində danışılan əhvalat və hadisələr bu təhlillərdə özünə yer almışdır. Qaçaq İsmayıl Qazax rayonunun Aslanbəyli kəndindəndir. O, cəmiyyətdə baş verən özbaşınalıqlarla barışa bilməyib qaçaq düşür, çarizmə, yerli çinovniklərə qarşı mübarizə aparır. Dastanda olan əhvalat və hadisələr tarixiliyi, mahiyyəti ilə xalqın qəhrəmanlıq tarixidir. Qaçaq İsmayıl İncə dərəsində Aslanbəyli kəndində Cəlil evindən olan Omar kişinin oğludur. Hadisələrin mühüm bir hissəsi tarix kimi xalqın yaddaşında yaşayanlardır. Qaçaq dastanlarının səciyyəvi xüsusiyyətlərindən biri onların yaxın tarixlə uzlaşması və reallığı əks etdirməsidir. "Qaçaq İsmayıl" dastanı, bütünlükdə qaçaq dastanları formalaşma dövrünü başa vurmamış dastanlardır.

"QAÇAQ KƏRƏM" – qaçaq hərəkatı ilə bağlı olan ən mükəmməl dastan nümunələrindəndir. Qaçaq Kərəmlə bağlı təkcə Azərbaycanda deyil, bütünlükdə

Qafqazda məlumatlar, əhvalatlar vardır. Gürcü, rus, Ukrayna və digər xalqların ədəbiyyat adamları bu və ya digər dərəcədə Qaçaq Kərəmlə bağlı fikir söyləmişlər, haqqında söhbət açmışlar. Gürcü ədibi Purtseladzenin "Qaçaq Kərəm" əsəri, Vano Mıçedlişvilinin "Qaçaq Kərəm" dramı, İlya Xonelinin "Qaçaq Kərəm" oçerki, V.Kazankovskinin "Qafqaz qaçaqları" əsəri, M.Qorkinin "Qafqazda qaçaqlar" əsəri, N.B.Vəzirovun "Keçmişdə qaçaqlar" pyesi, M.Hüseynin "Kərəm əfsanəsi" hekayəsi, Qul Vəlinin "Qaçaq Kərəmlə Zalı xan", Hüseyn Qəmlinin "Qaçaq Kərəm" dastanı və s. sənətkarların əsərləri buna nümunədir. Qafqazda, Moskvada, Peterburqda, Odessada, Kazanda və digər yerlərdə Qaçaq Kərəmlə bağlı çoxlu yazılar çap olunmuşdur. S.Vurğun, M.Hüseyn, M.Arif, M.İbrahimov, H.Araslı, M.H.Təhmasib, K.Talıbzadə, F.Fərhadov, V.Vəliyev, P.Əfəndiyev, R.Rüstəmzadə, M.Allahmanlı və başqaları Qaçaq Kərəmlə bağlı müxtəlif səpkili fikirlər söyləmişlər. Qaçaq Kərəm 1860-cı ildə Qazax rayonunun Qıraq Kəsəmən kəndində anadan olmuşdur. Atası Mollazaloğlu İsgəndər kasıb olsa da, dövrünün nüfuzlu, bacarıqlı adamlarından olmuşdur. Hökumətdən torpaq istəməsi üstündə yerli məmurlar onu tutdurmuşdu. Sürgündən qaçan İsgəndər Qazax-Borçalı tərəflərdə qaçaqlıq etmişdir. 1884-cü ildə düşmənlər tərəfindən öldürülmüşdür. Kərəmin qaçaqlığı bu hadisədən başlamışdır. Əvvəl Qazax, Borçalı, Gəncəbasar tərəflərdə, daha sonra isə İrəvan, İran, Türkiyə, Naxçıvan tərəflərdə qaçaqlıq etmişdir. Xalq ona böyük hörmət bəsləmiş, həmişə ona yardımçı olmuşdur. Daha çox Dilcan meşələrində qaçaq kimi fəaliyyət göstərmişdir. Qaçaq Kərəm haqqında daha

çox gürcü ədibləri əsər yazmışlar. Anton Purtseladzenin "Qaçaq Kərəm" adlı dördpərdəli əsəri buna nümunədir (1885). V.Y.Miçedlişvilinin "Qaçaq Kərəm" dramı Azərbaycan dilinə tərcümə edilərək Qazaxda, Naxçıvanda, Bakıda tamaşaya qoyulmuşdur. 1924-1925-ci illərdə O.Sarıvəlli S. Vurğunla birgə Qazaxda həmin tamaşaya baxdıqlarını qeyd edir. Qul Vəlinin "Kərəmlə Zalı xan" dastanından müəyyən hissəni H.Əlizadə "Aşıqlar" kitabında vermişdir. Dastanın ikinci variantı "El arxası Zalı xan" adlanır. Bu variant Basarkeçər rayonunun Haqqıxlı kəndində yaşayan 87 yaşlı Məhəmməd Həsən oğlundan toplanmışdır. "Kərəmxan sərtib" dastanı Qazax rayonunun Köçvəlli kəndində yaşayan Aşıq Əlidən toplanmışdır. Başqa bir variant isə Qazağın Ağköynək kəndində yaşayan Aşıq Məmmədyarın dilindən yazıya alınmışdır.

"QAÇAQ NƏBİ" – qəhrəmanlıq dastanları silsiləsinə daxildir. XX əsrin 30-cu illərindən toplanmağa başlamışdır. Dastan şəklinə düşənə qədər hadisə, əhvalat, hekayə, rəvayət kimi xalq arasında yaşamışdır. Qaçaq hərəkatı ilə bağlı yaranmışdır. Əvvəlcə mətbuat səhifələrində çap olunmuşdur. 1938-ci ildə ayrıca kitabça şəklində çıxmışdır. Dastanı ilk dəfə folklorşünas Ə.Axundov 1941, 1961-ci illərdə nəşr etdirmişdir. Başqa bir variantını H.Qasımov çapa hazırlamışdır (1960). A.Nəbiyev "Qaçaq Nəbi" dastanını yeni variantda təqdim etmişdir (1977). Bu variantlar bir-biri ilə müəyyən epik məqamlar, hadisə, epizod, şeir nümunələri ilə yaxınlaşır. Nəbi xalq qəhrəmanıdır. 1854-cü ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olmuşdur.

Aşağı və Yuxarı Mollu kəndləri mənşə etibarilə qədim türk tayfalarının məskəni olmuşdur. Nəbinin qəhrəmanlığı da məhz genetik hadisə kimi tarixin bizə yaxın olan bir zamanında özünü göstərmişdir. Atası yoxsul kəndli olmuş, muzdurluqla ailəsini dolandırmışdır. Anası çox tez vəfat etmişdir. Ondan elə də çox vaxt keçmir ki, atası vəfat edir. Nəbinin özündən kiçik qardaşı Mehdi və bacısı Zeynəb qalır. Atası və anası vəfat etdikdən sonra Nəbi evlənir. Həcərlə ailə qurur. Həcər Molla Xanalının qızıdır. Qardaşı Məhəmməd Molla Xanalı oğlu da Nəbi ilə qaçaqlıq etmişdir. Bacısı Mehri (Həcərin bacısı) də bu mübarizədən kənarda deyildi. Lakin Məhəmməd hökumət tərəfindən tutularaq on il katorqaya məhkum edilib gəlmişdi. Mehdi qardaşı Nəbi ilə birgə qaçmışdı. Çox cəsur, qorxmaz olmuşdu. Nəbinin qaçaqçılığının son dövründə (1894-cü il iyulun 20-də) Mehdi rus casusları tərəfindən Gircivan kəndində öldürülür. Həcər xanım bacısı Mehri ilə birlikdə

Çiçəkli kəndində həbs olunur. Gorusda qalada saxlanan Həcər bacısı ilə birgə 1895-ci il oktyabrın 28-də azad edilir. Mehdinin ölümündən sonra Nəbinin qüvvəsi zəifləyir. Nəbi İranda xəyanət nəticəsində silahdaşı Şahhüseyn tərəfindən öldürülür. Qaçaqlığa başlayanda onun otuz yaşı olmamışdı. Nəbi 46 illik ömrünün (1850-1896) böyük bir hissəsini Həcərlə (1860-1914) birlikdə haqsızlıqlara qarşı mübarizəyə həsr etmişdi. M.Ə.Rəsulzadə xalq qəhrəmanı Nəbinin 1896-cı il martın 12-də Kərbəladan qayıdarkən Türkiyə ilə İran arasında Larni kəndində rus casusları tərəfindən öldürüldüyünü qeyd edir. İsmayıl Hikmət Nəbini öz yoldaşı Mahmudun öldürdüyünü və Mahmudu da Həcərin öldürdüyünü yazır. B.Behcət görə isə, 1896-cı il may ayının 12-də Məşədi Paşa Nəbi ilə Şahhüseyni Dahvərdəyirman kəndinə qonaq çağırır. Gecədən xeyli keçmiş Nəbi (Şahhüseynlə birgə) Larni kəndinə qayıdarkən yolda Şahhüseyn tərəfindən arxadan vurulub öldürülür. Həcər gecəni səhərə qədər gözləyir. Səhər açılanda məlum olur ki, Nəbi öldürülmüşdür. Nəbi dəfn edilir. Həcərin qohumları Mollu kəndindən İrana gedir. Həcər onların köməkliyi ilə kəndlərinə qayıdır. B.Behcət Nəbinin atasının adının Alı olduğunu yazır və qeyd edir ki, kəndlərində onu "Alov" adlandırırdılar. Bir neçə il keçdikdən sonra Həcər Nəbinin Həmzə adlı qohumu ilə ailə qurur və Mollu kəndində yaşayır. Həcərin Həmzədən bir neçə övladı olur. Nəbidən isə övladı olmamışdır. Qaçaq Nəbidən əvvəl bu ərazilərdə Qazax rayonundan gəlmiş Əbdülkərim adlı bir nəfər qaçaqlıq etmişdi, lakin o da xəyanət nəticəsində tutulmuşdu. O, Şuşa qalasından məşhur Soltanbud təpəsinə aparılmış və orada asılmışdı. Əbdülkərim çar məmurları tərəfindən asılan ilk üsyançı idi. O, asılarkən xalq ağlayırmış. B.Behcət yazır ki, Nəbinin qaçaqlığı bütün mahiyyəti ilə Əbdülkərimin qaçaqlığının davamıdır. Nəbinin Bozatı, aynalısı bu gün də xalqın yaddaşında rəmzləşmişdir. Onun gücünü, qüvvəsini ifadə edir. "Qaçaq Nəbi" dastanında Aşıq Əhmədin adı tez-tez çəkilir. O sanki Nəbinin qəhrəmanlığını izləyir. Ona nəğmələr qoşur. Aşıq Əhməddən başqa, dastanda Aşıq Ata, Aşıq Abbas da vardır. Nəbinin və silahdaşlarının igidliyini tərənnüm edirlər. "Qaçaq Nəbi" dastanı ilə bağlı ilk toplamaları Muradxan Cahangirov aparmışdır (220 səhifə). Təəssüf ki, həmin mətn əldə yoxdur. B.Behcət, M.Ə.Rəsulzadə, İ.Hikmət, Ə.Tahirov, Ə.Axundov, M.H.Təhmasib, P.Əfəndiyev, İ.Abbaslı, R.Rüstəmzadə, M.Allahmanlı və başqaları "Qaçaq Nəbi" dastanı və qəhrəmanın şəxsiyyəti ilə bağlı fikirlər söyləmişlər.

"QAÇAQ TANRIVERDİ" – Aşıq Hüseyn Bozalqanlı tərəfindən yaradılmış qaçaq dastanı. Dastanın müxtəlif variantları vardır. "Qara Tanrıverdi", "Bozalqanlı Tanrıverdi", "Qaçaq Tanrıverdi" və s. İki variant - "Qara Tanrıverdi" və "Tanrıverdi" ayrıca kitab şəklində nəşr olunmuşdur. Qaçaq hərəkatı ilə bağlı yaranmış dastanlardandır. Xalqın qəhrəmanlıq tarixini ifadə edir. Tanrıverdi İsmayıl oğlu 1837-ci ildə Tovuz rayonunun Bozalqanlı kəndində yoxsul bir ailədə anadan olmuşdur. Allahqulular nəslindəndir. Ona Allahqulu oğlu Tanrıverdi də deyərmişlər. Tanrıverdi bir varlıya nökər verilir. On ilə yaxın nökərçilik edir, lakin ağası onun haqqını

vermir. Tanrıverdi əlinə fürsət düşən kimi onu öldürüb evlərinə qayıdır. Sonra Süleyman bəy adlı birisinə nökərçilik edir. Beş ildən artıq sürüsünü otarır. Süleyman bəy onun haqqını verib muzdurluqdan azad edəndə o, haqqını almayıb Gürcüstana qaçır. Gürcüstan dövlət arxivində onunla bağlı xeyli dövlət sənədləri vardır.

Xalq arasında Qaçaq Tanrıverdi ilə bağlı çoxlu rəvayətlər vardır. Hökumət onu təhlükəli qaçaq kimi axtarmış, hətta öldürülməsi üçün pul mükafatı da ayırmışdı. Qaçaq Tanrıverdi çar məmurlarına, yerli zülmkarlara qarşı mübarizə aparırdı. 1885-ci ildə o, Tiflis quberniya distansiyasının rəisi knyaz Vaqnadzeni öldürmüşdü. Qaçaq Kərəmlə Qaçaq Tanrıverdinin atası dost olmuşlar. Qaçaq Tanrıverdi 1885-ci ilin avqust ayında Ağdam yaxınlığında hökumətin böyük bir hərbi dəstəsi ilə qarşılaşır. Ağır döyüşdə düşmən ciddi itki verir. Qaçaq Tanrıverdi yaralanır və avqustun 13-də ölür. Yerli camaat onu orada dəfn edirlər. El sənətkarları onun qəhrəmanlığını dastanlaşdırmışlar. Qaraxanlı Aşıq Vəli "Tanrıverdinin Türkiyə səfəri", Aşıq Qəhrəman "Tanrıverdinin Qarabağ səfəri", Bozalqanlı Aşıq Hüseyn "Tanrıverdi" dastanını yaratmışdır. "Qara Tanrıverdi" dastanını Aşıq Hüseyn bolşeviklər inqilabından əvvəl yaratmışdır. Dastanın ilk toplayıcısı H.Zeynallıdır. Aşıq Qədirin ifasında 1966-cı ildə yazıya alınıb, 1967-ci ildə nəşr olunmuşdur.

QAFAROV ƏHMƏD (1907, Şəki şəhəri, Baş Layski kəndi – 1981) – Gözəl səsə malik ifaçı və yaradıcı aşıq. 1919-cu ildə ata-anasını itirmişdir. Qaxda bir neçə il muzdurluq, çobanlıq etmişdir. Erkən yaşlarından sənətə güclü marağı olmuşdur. Hətta qoyun otaran vaxtlarda onun şeirləri və oxuduğu mahnılar camaat arasında geniş yayılmaqda idi. Əhməd 30-cu illərdə savad kursuna getmişdir. Az da olsa təhsil almışdır. Saza olan marağı onu aşıqlığa gətirib çıxarmışdır. Artıq sənətin sirlərini öyrəndikdən sonra çobanlıqdan uzaqlaşmış və aşıqlığa başlamışdır. Zəngin musiqi və söz repertuarı ilə seçilmişdir. Molla Cumanın poetik irsinin dərin bilicisi kimi tanınmışdır. Molla Cumanın bir çox dastanlarını 1930-cu illərdə Bülbülün musiqi kabinetinin əməkdaşları Şəkidə ekspedisiyada olarkən onlara təqdim etmişdir. Şəki aşıq mühitinin istedadlı nümayəndələrindən biri olmuşdur.

QAFAROV VLADİMİR ƏBÜLƏZİM OĞLU (1935, Sabirabad rayonu – 2000, Bakı) – şair, tərcüməçi, AYB-nin üzvü (1957), Əməkdar mədəniyyət işçisi (1979), Əməkdar incəsənət xadimi (1989). BDU-nun filologiya fakültəsində təhsil almışdır (1952-1957). "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin redaktoru kimi əmək fəaliyyətinə başlamışdır (1952). "Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi (1960-1963), "Literaturnaya qazeta"nın Azərbaycan üzrə xüsusi müxbiri (1967) olmuşdur. "Gəlin", "İki qala", "Lermontov, 123", "Bürünc külək", "Küləkli alov" və s. kitabları vardır.

Azərbaycan el ədəbiyyatı, bayatılar və aşıq poeziyası nümunələrini rus dilinə tərcümə etmişdir. Qurbaninin, Sarı Aşığın, Abbas Tufarqanlının, Aşıq Ələsgərin və digər ustadların yaradıcılığı onun vasitəsilə rus dilində yayılmışdır.

QAFAROVA ZEMFİRA HƏSƏN QIZI (1942, Bakı) – musiqişünas, professor (1993). Əməkdar incəsənət xadimi (2002), Azərbaycan Bəstəkarlar İttifaqının katibi (2012). "Üzeyir Hacıbəyovun "Koroğlu" operası" (rus dilində, 1981) monoqrafiyasında və məqalələrində "Koroğlu" dastanı, onun opera librettosunda təfsiri ilə bağlı sanballı elmi təhlillərin müəllifidir. Ü.Hacıbəylinin musiqisində aşıq havalarının səciyyəvi inikası üzərində də diqqətçəkici araşdırmalar qələmə almışdır.

QAFİYƏ – Bax: Qoşma.

QAFQAZİYALI ƏLİ HACI OĞLU (1953, Türkiyə, Ərzurum) – folklorşünas, professor. Əslən azərbaycanlıdır. XX əsrin əvvəllərində ata-babası Qazaxdan Qarsa köçmüşdür. İlk təhsilini Qarsda almışdır. Bursada təhsilini davam etdirmişdir (1974). Qars, Ərzurum, Diyarbəkirdə müəllim kimi fəaliyyət göstərmişdir. Azərbaycan, İran, Gürcüstan, Dağıstanda aşıq ədəbiyyatı nümunələrinin toplanması və öyrənilməsi işi ilə ardıcıl şəkildə məşğul olmuşdur (1987). Atatürk Universitetinin Kazım Qarabəkir öyrətmə fakültəsinin dil tamamlama proqramına qatılaraq "Türk dili və ədəbiyyatı öyrətmənliyi" üzrə diplom alır (1990), Fransaya gedir (1990). Bakı Dövlət Universitetində magistraturada oxumuşdur (1993). Bakıda "Mikayıl Azaflının yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə etmişdir (1996). Ərzurum Universitetində, Atatürk Universitetində müəllim kimi fəaliyyət göstərmişdir. 2011-2013-cü illərdə Qazaxıstana gedərək Türküstan şəhərində Ə.Yasəvi İnstitutunda işləmişdir. 2012-ci ildən professordur. 1998-ci ildə İrana gedərək orada folklor nümunələri toplamağa başlamışdır. "İran türk ədəbiyyatı antologiyası"nı (6 cilddə) yaratmışdır. "İran türklərinin aşıq mühitləri" (2006), "İran türk aşıqları və milli kimlik" (2007), "İran türkləri" (2010), "İran coğrafiyasında türklər" (2011) və s. kitabları vardır. "Qafqaz qaçaqları" adlı romanın da müəllifidir (2018).

QAM-ŞAMAN – Qam-şaman mərasiminin müxtəlif tarixi mənbələrdə və folklor qaynaqlarında qeydə alınmış çoxçeşidli və çoxşəkilli mənzərəsi ilə tanışlıqdan sonra belə bir qənaətə gəlmək olur ki, həmin mərasimdəki digər aparıcı ünsürlərin (rəqs, alqış-dualar, qam-şamanın ruhlar aləmindən gətirdiyi xəbərlər və s.) özləri də musiqidən, onun mənəvi-estetik təkanlarından tam asılıdır. Musiqi-söz-rəqs magiyasının əsas

ifaçısı və təmsilçisi olan qam-şaman qəbilənin, tayfanın, ümumiyyətlə, toplu halında yaşayan ibtidai icmanın müşkülünü həll edən, dolaşığa düşmüş, çətin işini asana çevirən, gələcəkdən xəbər verən, mənsub olduğu toplumu, etnosu bəd ruhlardan, qorxu və bəlalardan qoruyan, şadlıq yığıncağını təşkil edən, xəstələrə şəfa verən bilici – yol göstərici, idarəedici, ruhani xadim idi. Bu qeyri-adi qabiliyyətləri özündə cəmləşdirməsi səbəbindən o, icmanın ali təbəqəsinə aid edilir və bir qayda olaraq, rəhbər-idarəedici özəkdə əsas yerlərdən birini alırdı. Tarixi qaynaqların verdiyi bilgiyə görə, qədim türklərin tayfa quruluşunda Kağanın xaqanın vəziri və ya baş məsləhətçisi qam-şaman olurdu. Bir sıra tayfaların başında hətta o özü dururdu. Hunlar başçı, hakim vəzifəsində duran şamana "Ata qam" deyirdilər. Türk dövlətçiliyinin əsasını qoymuş Asinanın da qam-şaman olduğu ehtimal edilir.

Oğuzlarda da tayfanın başında şamanın durması faktı folklor yaddaşında müşahidə olunur. "Kitabi-Dədə Qorqud" boylarından açıqca görünür ki, oğuz elinin başçısı Bayandır xan qam-şaman nəslindəndir: onun atası Qamğan-Qamkağandır. "Bir gün Qamğan oğlu xan Bayandır yerindən durmuşdu." Qam-şaman ilahi aləmlə, ruhlar dünyası ilə bağlı olduğu üçün tayfa-el başçısı olan Qamğan-padşah müqəddəs, toxunulmaz sayılırdı.

Qam-şamanın qədim türk cəmiyyət quruluşlarındakı tarixi funksiyası və Sibir-Altay bölgələrindəki çağdaş fəaliyyəti onu qüdrətli və bənzərsiz mənəviyyat qan yaddaşı daşıyıcısı, etnik mədəni sistem qurucusu və qoruyucusu kimi səciyyələndirir. İlkinliyə, soy-kökə məxsus mifoloji dünyaduyumun əsas axarları, tarixi genetik özümlüyün aparıcı, hərəkətverici impulsları, etnopsixologiyanın milli-spesifik keyfiyyətləri məhz qam-şaman dünyasında, onun ayin və mərasim strukturlarında, söz və magiya aləmində, hərəkət, davranış ölçülərində, gerçəkliyə münasibət biçimlərində bərqərardır.

Varlığın fəlsəfl dərki, gerçəkliyin estetik duyumu, müxtəlif sənət və yaradıcılıq sahələrinə təkan verən mənəvi-daxili tərpənişlər, daha sonra isə onların evolyusiyalı yüksəlişləri özünün ilkin-ibtidai, bununla belə həm də sağlam və güclü köklərini əski qam-şaman mədəniyyətinin münbit zəminində sancmışdır. Etnosun ayrı-ayrı qollarında tayfa və tayfa birliklərində, habelə müxtəlif təkamül mərhələlərində çeşidli adlarla – qam, oyun, oin, oyna, olonxoçu, baxşı, baksı, faksı, ozan, akın, şayır, qayçı, falbin, pərixan, cindar, cadugun, cadugər və s. dəyişkən tutumda – geniş şəbəkədə və ya dar çərçivədə fəaliyyət göstərməsindən asılı olmayaraq, qam-şaman hadisəsi türk mənəviyyatı üçün təkrarsız özünü ifadə və özünütəsdiq faktıdır. Maraqlıdır ki, türklüyün əsas çiçəklənmə epoxası sayılan VI-IX yüzilliklərdə qam-şamanın cəmiyyətdə tutduğu mövqe sonrakı dövr və mərhələlərdən qat-qat güclüdür. Bu mənada qam-şamanın, sadəcə, sənət tipi və ya folklor hadisəsi kimi qavranılması o qədər də dəqiq deyildir. Çoxçeşidli fəaliyyəti və hadisələrə dinamik nüfuzetmə imkanları baxımından qam-şaman folklor sənətkarından və ya ifaçısından daha çox mifologiya qurucusudur. Ən başlıcası isə yaratdığı mifoloji aləmin əsas hərəkətverici qüvvəsidir. Buna görə də o, folklor mətninə müra-

ciət edərkən adi bir söyləyici-ifaçı mövqeyində çərçivələnib qalmır – sözlərdən ruhlar dünyasına açar sala bilən magik qüvvə kimi istifadə edir: sehrli-melodik axarda söylədiyi alqış-dualardan ilahi aləmə yollanmaq üçün estetik güc alır. Bu baxımdan qam-şaman, həqiqi anlamda götürülərsə, sənətlər, etnik-mədəni hadisələr toplusunu əhatə edən, onları əlaqəli şəkildə özündə cəmləşdirən, vahid bir kompleks halına gətirən mədəni-tarixi sistemdir, etnosun mənəviyyat mərkəzidir. Ona görə də türklüyün ibtidai dövrdən sonrakı mərhələlərdə ortaya çıxan bütün sənət və yaradıcılıq sahələri tarixi-genetik baxımdan bu və ya digər formada həmin mənəviyyat mərkəzinə bağlanmış olur. Burada genetik başlanğıc və sonrakı diferensiasiya ilə əlaqədar məsələnin maraqlı bir cəhətinə də diqqət yetirmək lazım gəlir: qam-şaman ilkin mərhələdə mifoloji mərasim icraçılığı ilə folklor sənətkarlığını, habelə ifaçılığını bir qovuşuq halında özündə cəmləşdirir. Düzdür, yuxarıda qeyd olunduğu kimi, nisbətlə götürdükdə onun əsas funksiyası mifoloji mərasim ifaçılığı istiqamətinə daha çox yönəlmişdir. Amma bəllidir ki, indiki anlamdakı arxaik folklor mətnləri olmadan mərasim icrası tam bütövlüyü ilə baş tuta bilməz. Sadəcə olaraq, folklor sənətkarlığı şaman mərasimində öz potensial imkanlarının cüzi bir hissəsini gerçəkləşdirdiyindən evolyusiyanın sonrakı irəliləyişləri zamanı tədricən mövcud qəlibdəki məhdud çərçivədən qopub ayrılmağa başlamışdır. Çünki bəşər cəmiyyətinin ibtidaidən aliyə doğru inkişafı ilə bağlı bədii təxəyyül və obrazlı təfəkkürün imkanları böyüdüyü üçün insan mənəvi dünyasının getdikcə artan gücünün mifoloji mərasim hüdudlarına sığması qeyri-mümkün idi. Epik süjetlərin, qəhrəmanlar, bahadırlar haqqında söyləmə, hekayət-boy və eposların yaranıb sistemləşmə prosesi də folklor sənətkarlığının mifoloji mərasim icraçılığından ayrılmasını sürətləndirmişdir.

Bundan əlavə, evolyusiya irəliləyişləri şamanın cəmiyyətdəki həlledici mövqeyinin get-gedə azalması ilə səciyyəvi olduğu üçün folklor sənətkarlığı komponentinin sərbəst sənətkar atributuna çevrilməsinin mümkünlüyünə şəraitin tarixi prosesin özündə açıldığı aydın görünür. Beləliklə də, qeyd olunan evolyusion prosesin nəticəsi kimi bütövlükdə qədim türk etnik-mədəni sistemində, habelə onun ayrı-ayrı bölgələrində sırf mifoloji mərasim icraçısı qam, oyun, baksı, falbin, pərixan, cindar və s. ilə folklor sənətkarı qayçı, sarınqçı, olonxoçu, jırau, yırçı, şırşı, manasçı, şayır, alpamışçı-baxşı, akın, oğuznaməçi-ozan, aşıq və s. yavaş-yavaş bir-birilərindən aralanmışlar. Bununla belə, onların tarixi-genetik birliyini yaşadan bir çox əlamətlər hər iki tərəfdə qalmaqdadır. Məsələn, Sibir-Altayda və Türküstanda eyni coğrafi-etnik bölgə daxilində fəaliyyət göstərən mifoloji mərasim icraçısı ilə folklor sənətkarının hər ikisi bir çox halda musiqi aləti kimi qopuzdan və ya onun əvəzedicilərindən istifadə edir: altaylarda mifoloji mərasim icraçısı qamla folklor sənətkarının – qayçının, qırğızlarda həmin ikiliyi təmsil edən bakşı ilə jırçının musiqi aləti qopuzdur, yaxud da tanbur, dombra və ya davuldur. Türküstan, Qafqaz və Anadoluda qam-ozan mərhələsindən sonrakı mifoloji mərasim icraçılarının falbin, pərixan, baxıcı, cindar və s. musiqi alətindən az istifadə etmələri və ya istifadə etməmələri onların

uzun zaman islam zehniyyəti tərəfindən sıxışdırılması və təqib olunması ilə xeyli dərəcədə bağlıdır. İslamaqədərki inanış sistemi ilə əlaqəli olduğu üçün həmin ərazilərdəki mifoloji mərasim icraçıları bir növ gizlin fəaliyyət göstərmək məcburiyyətində qalmışlar. Təsadüfi deyil ki, onları "cadugər, cadugun" kimi mənfi obraz şəklində gözdən salmağa çalışmışlar. Belə bir şəraitdə mərasim ünsürlərinin hamısını qoruyub saxlamaq son dərəcə çətinləşdiyinə görə icraçılar – falbin, pərixan, baxıcı, cindar və s. bir qisim vasitələrdən – qam-şamana məxsus xüsusi geyim formalarından, ayin icra etmək üçün istifadə olunan əşyalardan imtina etməli olmuşlar. İslamın haram buyurduğu musiqi alətinin qopuz, tanbur və ya davulun xəlvət fəaliyyət zamanı saxlanması və istifadə edilməsi imkansız vəziyyətə düşdüyündən imtina olunan vasitələr sırasında onun da yer alması təbii idi. Orta yüzilliklərdən başlayaraq sözügedən ərazilərdə musiqi alətinin – qopuz, davul və ya tanbur-dombranın əvəzində falbin, pərixan və baxıcılar güzəşt variantı kimi təsbehdən islami ünsür kimi istifadə etməyə başlamışlar. Bununla belə, Türküstan, Qafqaz və Anadoluda mifoloji mərasim ifaçılarının mərasimkeçirmə qaydalarında gedən dəyişikliklərdə, o cümlədən də musiqi alətinin mərasimdən kənarlaşmasında islam amili ilə yanaşı olsun ki, Çin, hind, İran təsiri də müəyyən rol oynamışdır. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, cənub və cənub-qərb zolağı ilə müqayisədə şimal və şimal-şərq türkləri arasında qam-şaman mədəniyyətinin daha özümlü şəkildə və möhkəm qaydada duruş gətirməsinin başlıca səbəbi, bir tərəfdən onların xristianlığı xeyli gec – orta çağların ikinci yarısından sonra – XVIII əsrdən başlayaraq qəbul etməsidirsə, ikinci tərəfdən də xristianlığın həmin ərazilərdə yüksək nüfuza sahib ola bilməməsidir. Kilsə şamanların saçlarını qırxdırmaq və musiqi alətlərini əllərindən aldırmaq barədə göstəriş versə də, bu tədbir lazımi səviyyədə həyata keçirilməmişdir. Çünki xristianlaşma yuxarının göstərişi ilə dövlət tərəfindən formal qaydada aparılırdı. Bu iş çətin coğrafi iqlim şəraiti olan ərazilərdə – şimal ucqarlarında aparıldığından onunla yüksək səviyyəli din xadimləri məşğul olmurdular. Keşişlərin, kilsə nümayəndələrinin özlərini yüngül aparması, sadəlövh qara camaatı müxtəlif üsullarla tez-tez aldatması yeni qəbul edilmiş dinin şamançılığı sıradan çıxarmasına maneçilik törədirdi. Hətta belə bir tarixi fakt da məlumdur ki, 1894-cü ildə Yakutskda bir keşiş xəstələnmiş və müalicə olunmaq üçün xəlvətcə özü şamanın-oyunun yanına getmişdir. Bu və buna bənzər çoxsaylı hadisə və faktlar şimal və şimal-şərq türkləri arasında qam-şaman mədəniyyətinin daha çox saxlanmasında mühüm rol oynamışdır. Cənub və cənubi-qərb türklərinin üzbəüz qaldığı tarixi-siyasi şəraitdə isə bəllidir ki, belə bir imkan mövcud olmamışdır. Buddizm və İslamın qam-şaman mədəniyyətinin sıradan çıxarılması üçün çox böyük qüvvə sərf etmiş və ardıcıl sistemli tədbirlər planı həyata keçirmişlər.

Ayrı-ayrı sənət sahələrinin əski çağlara məxsus dərin qatlarında olduğu kimi, obrazlı düşüncə və bədii təxəyyülün ilkin ibtidai mərhələyə bağlı arxaik mif və folklor mətnləri də həm süjet tərkibi, həm də obraz sistemi baxımından qam-şaman mədəniyyətinə bağlıdır.

Məsələn, cin, div, pəri, göylər padşahı, göylər padşahının sarayı, yeraltı dünyadakı sehrli alma ağacı, can quşu, dirilik suyu, sehrli çubuq, sehrli daş və s. bu kimi çoxsaylı obrazlaşmalar məhz qamşaman dünyasından baş alıb gələrək mifoloji rəvayət, əfsanə, nağıl, epos və digər janrların strukturlarına yerimiş, hətta ibtidai mərhələdən sonrakı dövrlərdə də folklorun, o cümlədən də aşıq yaradıcılığının bütün məşhur süjetlərinin tərkibini təşkil edən aparıcı ünsürlər sırasında dayanmışdır. Bütün bunlar onu göstərir ki, qam-şaman kökünə bağlı olan sənət sahələri, təxəyyül istiqamətləri arasında nə qədər diferensiasiya və şaxələnmələr getsə də, bu sahə və istiqamətləri bir-biri ilə əlaqələndirən genetik başlanğıcın əlamətləri bir çox müştərək tarixi keyfiyyətləri qoruyub saxlaya bilir.

"QANDAL NAĞI" DASTANI – qaçaq hərəkatı ilə bağlı epik örnəklərdəndir. Qaçaq dastanları xalqın qəhrəmanlıq tarixidir. XIX əsrin 60-cı illərindən başlayaraq sadə xalq kütləsi arasında rus çarizminə, onun məmurlarına qarşı narazılıqlar başlayır. Qaçaqlar da həmin narazı xalqın nümayəndələri idi. Silaha sarılıb çar məmurlarına və yerli zülmkarlara qarşı mübarizəyə başlamışdılar. Qandal Nağı da həmin silaha sarılan xalq qəhrəmanlarından idi. Dastanda göstərilir ki, Hacı İsaxan Qandal Nağını o qədər işlədir ki, Nağı gecələr yata bilmir. Yemək üçün isə bir tikə çörək verir. Qandal Nağı dolanma ucbatından bütün narazılıqlara dözür. Hətta iş o yerə çatır ki, ağası onun aylıq haqqını belə vermək istəmir. İllər ötür, əlacı kəsilən Qandal Nağı əlinə fürsət düşən kimi Ceyrançöldə Hacı İsaxanın sürüsünü aparıb bazarda satır. Öz haqqını götürdükdən sonra qalanını kasıblara paylayır. Bundan sonra Nağı təqib olunur və qaçaqlığa başlayır. Qandal Nağı adı ilə məşhurlaşır. Haqqında əhvalatlar danışılır, nəğmələr qoşulur. Son olaraq haqqında "Qandal Nağı" dastanı yaranır. O, tarixi şəxsiyyət olmuş, 1864-cü ildə Tovuz rayonunun Qaraxanlı kəndində yoxsul ailədə anadan olmuşdur. Varlı yanında nökər işləmişdir. Ağasının təhqirinə dözməyib, ondan intiqam alan Nağını həbs edib sürgünə göndərirlər. Bir nəfər rus maşinistinin köməyi ilə əliqandallı sürgündən qaçır. Dərbəndə gəlir və oradan da öz kəndlərinə qayıdır. Ağır döyüşlərdə iştirak edir. 1916-cı ildə Gəncə ətrafında vuruşmada öldürülür. Aşıqlar onun qəhrəmanlığını əks etdirən nəğmələr qoşmuş, dastan yaratmışlar. Xəyyat Mirzənin Qandal Nağı ilə bağlı dastanı vardır. Başqa bir variant isə Aşıq Məhəmməd Rzayevdən yazıya alınmışdır.

"QARA QAFİYƏ" – aşıq havası. "Qafiyə" – qoşma şeir şəklinin qədim adlarından biridir. "Qara qafiyə" sadə, sıravi qoşma mətni üstündə oxunan hava. Hazırda əsasən Şirvan aşıq mühitində ifa olunan havadır. Qədim havalardan biri kimi dəyərləndirilir. Şah pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını qoşma təşkil edir. Dəqiq metr-ritmik ölçüyə malikdir. Vokal melodiya lirik ovqatlı, təsirli, ağır, ləng templidir. "Qara qafiyə"nin sazdan əlavə zurna və balabanda ən parlaq ifaçısı Əli Kərimov olmuşdur. Məqam-səs sistemi Şura uyğundur.

"QARA MƏLİK" – tarix etibarilə xeyli qədimlərlə səsləşən dastanlar-

dandır. Xalqın qəhrəmanlıq tarixini özündə əks etdirir. Tədqiqatlar hadisələrin XII əsrlə səslənməsini vurğulayır. Atabəy hökmdarı Məhəmməd Cahan Pəhləvanın oğlu Nüsrətəddin atasından dərs alaraq güclü pəhləvan olur. Atasının ölümündən sonra əmisi ona himayədarlıq edir. Şəhərin baş pəhləvanı olur. İldə bir dəfə şəhərin pəhləvanlarının yarışı təşkil edilir. Nüsrətəddin hamısını məğlub edir. Bir dəfə Nüsrətəddin güləşdən sonra qürrələnərkən üst-başı nimdaş bir gənc meydana çıxır. Güləşdən əvvəl şərt kəsilir ki, kim Məhəmməd Cahan Pəhləvanın kamanı ilə ox ata bilsə, həmin ox-kaman onun olacaq. Gənc bir neçə dəfə ox atır. Nüsrətəddin bundan pərt olur. Nüsrətəddinlə üç dəfə güləşir və gənc onu hər dəfə məğlub edir. Gəncin adı Məlik imiş. Qara olduğu üçün ona Qara Məlik deyirlərmiş. Körpə ikən atası vəfat etmiş, anası onu qulluqçuluqla saxlamışdı. On bir yaşından hamballıq etmişdir. Sonra Əhməd adlı bir tacirin yanında nökər olur. Onun qızı Rüxsarəni sevir. Tacirin qızı da Məliyi sevir. Təbrizdə pəhləvanların yarışı olur. Məlik də ora gedir. Bir qarı Nüsrətəddin pəhləvana xəbər verir ki, Qara Məlik təbrizli tacir Əhmədin qızı Rüxsarə xanımla sevişir. Nüsrətəddin Qara Məlikdən intiqam almağı düşünür. Əhmədə elçi göndərir və mehtəri Kərimə istəyir. Rüxsarə bunu Qara Məliyə xəbər verir. Qara Məlik öz dəstəsi ilə şəhərə daxil olur. Mehtər Kərimi öldürürlər. Nüsrətəddin qaçıb gizlənir. Qara Məlik anasını da, Rüxsarəni də şəhərdən çıxarır. Yoldaşları ilə Ocan dağına çəkilir. Düşmənləri Qara Məliyi izləyib arxadan vururlar. Qara Məlik də Nüsrətəddini vurur. Bu vaxt Nüsrətəddin onu tanıyır. Belə bir igidin ağır yaralanmasına heyifsilənir. "Qara Məlik" qəhrəmanlıq dastanıdır. Xalqın qəhrəmanlıq tarixinin bir hissəsi kimi dəyərlidir. M.H.Təhmasib, P.Əfəndiyev, R.Rüstəmzadə dastanla bağlı mülahizələr söyləmişlər.

"QARA MÜXƏMMƏS" – aşıq havası. "Müxəmməs" havalar silsiləsinə aiddir. Poetik mətnin əsasını klassik şeir forması olan "müxəmməs" təşkil edir (əsasən, Molla Cumanın məşhur "Pərim" rədifli zəncirləmə cığalı müxəmməsi əsasında oxunur). Həm havanı, həm də poetik mətni ifadə edən musiqili-poetik janrlar qrupuna aiddir. Baş pərdə kökündə oxunur. Məqam-səs sistemi Segaha uyğundur. Lirik ovqatlı, sevgi, aşiqlik mövzusundadır. İnstrumental giriş harmonik məqamın pillələri ətrafında inkişaf edir. Vokal melodiya müxəmməsin dörd melomisrasının ardıcıl səslənməsindən sonra melobəndə artırılmış "cığa" sayəsində daxilən genişlənmişdir. Cığa – 12 misradan ibarət, gəraylı səpkili bədii-poetik artırmalardır. Melodiyası əsas melomisralardan fərqlənmir, lakin cığanın təsiri altında daha yığcam və kəsik – pauzalarla qabardılmış musiqi ifadələri müşahidə olunur. V misranın – rədif misrasının səslənməsi ilə melobənd sona yetir. Rədif – "ayaq" xasiyyətlidir və hər üç melobənddə, əsasən, eynidir, tamamlayıcı funksiya daşıyır və melobəndlər arasında sıx bağlılıq yaradır. İnstrumental intermediyalar girişə nisbətən daha inkişaflıdır, yeni – daha yüksək pillələri əhatə edir və yeni mövzuların çalınması ilə yadda qalır. Havanın ümumi kulminasiya anı II intermediyanın son bölmələrində hazırlanır. İnstrumental çalğı kök pərdə zili

üzərində sürəkli şəkildə improvizə edərək, sanki orqan punktu hissini yaradır və həyəcanlı, gərgin ovqatla III melobəndi hazırlayır. III bəndin I misrası ilə oxunan reçitasiya gərgin, ehtiraslı boğaz qaynatmaları, gəzişmələr və tipik aşıq melizmlərinə keçir və uzun müddət (29 xanə) ekspressiv emosional hal-əhval saxlanılır. "Qara müxəmməs" rədif-ayaqla tamamlanır. N.Bağırov tərəfindən səs və f-no üçün nota salınmışdır.

QARA NAĞIL – çalıb-oxumadan hansısa əhvalatın, hekayətin, dastanın yığcam şəkildə danışılmasıdır. Dünya sinkretik sənətində qara nağıl məsələsi rapsodlarda da olmuşdur. Sonrakı mərhələlərdə onlar da müəyyən dastanı, əhvalatı danışarkən musiqidən bəhrələnmişlər. İlkin mərhələdə ancaq qara nağıletmə olmuşdur. Ustadlar da məclislərdə bəzən qara nağıl etmədən istifadə edirlər. Müəyyən əhvalat, hadisə, hekayət musiqi olmadan nəql edilir. Xalq arasında bu hal "qara nağıl" adlanır. Hətta Krım tatarlarının dastanlarının mühüm bir qismində şeir nümunələri olmadığı üçün onların təqdimində qara nağıletmə çoxluq təşkil edir.

QARA TƏCNİS –Bax: Təcnis

QARA VƏZİR – Azərbaycan dastanlarında sistemli şəkildə mənfiliklərə yüklənmiş, qəhrəmanların həyatına, arzu və istəyi uğrunda mübarizəsinə maneçiliklər törədən obrazdır. Azərbaycan xalqı qarşılaşdığı problemləri, rəhmsizlikləri, pisliklərı, insanların amansızlıqlarını, müxtəlif obrazlarda ümumiləşdirmişdir. Qara Vəzir onlardan biridir. Bütün qeyri-insani dəyərləri Qara Vəzirin şəxsində, fəaliyyətində ifadə etməyə çalışmışlar. Xalqın təsəvvüründə pisliklərlə yaşayan Qara Vəzir adı vardır. Əslində sarayın baş vəziri olan Qara Vəzir dastanların böyük əksəriyyətində eyni neqativ vəzifəni yerinə yetirir. Məsələn, "Qurbani-Pəri" dastanında Qara Vəzir burada da qara qüvvədir. O, Qurbaninin butası Pərini öz oğluna almaq, bununla da xanlığı ələ keçirmək istəyir. Xan bunu hiss edir, ancaq onun iradəsinə qarşı hərəkət edə bilmir. Qara Vəzir Qurbaninin başına minbir oyun açır, heç bir günahı olmadığı halda onu zindana salır, müxtəlif çətin sınaqlardan keçirir, sonda xanın ona rəğbətini görüb məsələni nərdlə həll etmək istəyir. Beləliklə, gənc və istedadlı bir aşığın həyatı, sözün həqiqi mənasında, qumara qoyulur. Vəzir bu təklifi xanı udacağını bildiyi üçün edir. Qara Vəzir oyunu udur və Qurbanini cəlladlara verir. Qurtuluş yolunu Pəri tapır. O, Qurbanini Şeyx oğlu Şahın yanına göndərir. Onun köməkliyi sayəsində Qurbani butasına çatır. "Əsli və Kərəm" dastanında da Qara Vəzir eyni funksiyada görünür. Bütün bunlar və bu kimi nümunələr Qara Vəzir obrazının xalq təsəvvüründə ümumiləşdirilmiş səciyyə daşıdığını göstərir.

QARABAĞ AŞIQ MÜHİTİ – Tarixi taleyi Dərbənd və Naxçıvan aşıq mühitlərinə bənzəyən Qarabağ aşıq mühiti də özünəməxsus sənət keyfiyyətləri ilə zəngin olan bir saz-söz bölgəsi kimi tanınmışdır. "Aşıq" adının Qarabağda toponim səviyyəsinə qalxması da (Beyləqanda "Aşıqlı" adında kənd vardır) mahalın tarixi keçmişində aşıq sənətinin mühüm yer tutmasına dəlalət edir. Bu mühitin sənət həyatı XVI-XVIII yüzil-

liklər arasında daha qaynar və canlı keçmişdir. Qaradağ və Qarabağ aşıq mühitlərinin yetirməsi olan Qurbani (XVI yüzillik), Lələ (XVII yüzillik), Abdalgülablı Valeh (XVIII yüzillik) kimi qüdrətli saz-söz ustalarının da göstərilən tarixi çevrədə yaşayıb-yaratması təsadüfi deyildir. Coğrafi məskunluq baxımından birbaşa Qarabağa bağlılığı olmasa da, XVII yüzilliyin görkəmli saz-söz ustadı Sarı Aşıq da Qarabağ və Qaradağ aşıq mühitləri çevrəsinə daxildir. Sözügedən yaradıcı ustadlardan əlavə, həmin mərhələdə bir çox güclü ifaçı aşıqlar da Qarabağ mühitini şöhrətləndirmişdir. Aşıq Valeh XVIII yüzillikdə özündən öncəki istedadlı saz-söz ifaçılarının məharətindən söz açaraq, onların ləyaqətli davamçısı olması ilə təsadüfən qürrələnmir:

Mənəm Aşıq Məhəmmədin novbatı,
Aşıq Cünun, Aşıq Güllü nabatı.
Aşıqlıqda hər kəsdənin övladı
Valeh ilə bərabərsə, de gəlsin.

Qarabağ mühitinin yetirməsi olan Aşıq Məhərrəmin öz ifaçılıq qabiliyyəti ilə Yaxın Şərq ölkələrinə səs saldığı, orada onun həsrətinin çəkildiyi də Valeh misralarında iz qoymuşdur:

Bu dünyada heç gəzməmişdi kəm,
Aşıq Əli oğlu Aşıq Məhərrəm.
Həsrətin çəkirdi Rum, həm də Əcəm,
Əlində tütəyi, balaban hanı?

Sənətin tarixi nüfuzunun nəticəsidir ki, Qarabağ aşıq mühitində yetişmiş sənətkarlardan ikisinin – Qurbaninin və Lələnin məzarları pir-ocaq səviyyəsində müqəddəsləşdirilmiş və ziyarətgaha çevrilmişdir. Cəbrayıl rayonunun Diri kəndində və Füzuli rayonunun Əhmədallar kəndində "Haqq aşığının qəbri" adı ilə məşhur olan həmin məzar-ziyarətgahlara yüzillər boyudur ki, müşkülləri asana çevirən, ağır dərdlərə əlac qılan, övlad həsrəti çəkənlərə övlad bəxş edən, xəstələrə şəfa verən bir ocaq kimi üz tutulur. Şübhəsiz ki, aşıq qəbri ilə bağlı müqəddəsləşdirmə düşüncəsinin, şəfakar ocaq sayaraq ona sığınma duyğusunun meydana gəlməsi haqq aşığının ilahi aləmlə əlaqəliliyi barədəki mifoloji-ürfani təsəvvürlə ilgilidir. Sözügedən təsəvvürün güclü olması və haqq aşığının qəbrini ocaq-ziyarətgah səviyyəsinə qaldırması bu duyum və düşüncə sisteminin orta çağ Qarabağ mühitində münbit zəmin üzərində dayandığından soraq verir. Bu həm də onu göstərir ki, Qarabağ aşıq mühiti təriqət axarında yaranmışdır və aşıqlığın ocağına söykənən qanadına daxildir. "Qurbani" dastanının rəmzi-ürfani səciyyə daşıması, Abdalgülablı Valeh yaradıcılığında təsəvvüf simvolikasının qabarıq yer alması mühitin tarixi mənzərəsindəki təkkə-təriqətin əhatəsi ilə birbaşa bağlıdır.

Qarabağ mühitində aşıqlığın dərin ürfani-estetik köklərə, xüsusən də təriqət ənənəsinə bağlılığı Valehin:

Adıma pay gəlir qadir mövladan,
Bu torpaqda aşıqlar binası var, –

misralarında öz dolğun ifadəsini tapmışdır. "Adıma pay gəlir qadir mövladan" misrası ilə Valeh özünün vergili aşıq-haqq aşığı olduğuna da işarə etmişdir. Aşığın göz açdığı kəndin adında (Abdalgülablı) təsəvvüf səciyyəsi daşıyan "abdal" sufi-dərviş kəlməsinin yer alması da orada aşıqlığa rəvac verən təriqət ocağının tarixi məskunluğunu

təsdiqləyir. "Valeh" təxəllüsündə təsəvvüfi səciyyənin (ilahi eşqə valeh-vurğun olmaq) qabarıq olması da onun söykəndiyi ənənənin tarixi məzmununda sufi-dərviş simvolikasının mühüm yer tutmasından xəbər verir.

Qarabağ aşıq mühiti coğrafi mövqeyinə və tarixi-siyasi vəziyyətinə görə Gəncəbasar, Göyçə və Qaradağ aşıq mühitləri ilə daha çox qarşılıqlı sənət münasibəti saxlamışdır. Maraqlıdır ki, rəvayətə görə, Qurbani əslən Qaradağ mahalındandır: şeirlərinin birində "Qaradağdan Qarabağa gəlmişəm" misrasını da, çox güman ki, bu səbəbdən işlətmişdir. Qurbaninin Gəncə səfərinin dastan yaddaşına keçməsi isə Qaradağ-Qarabağ-Gəncəbasar xətti boyundakı qarşılıqlı sənət münasibətlərinin tarixi axarını əks etdirən əlamət kimi səciyyəvidir. Aşıq Ələsgərin oğlu Aşıq Talıbın söylədiyinə görə, ta keçmişlərdən üzü bəri payız və qış aylarında Göyçə aşıqları aran Qarabağa enər, mahalın kəndlərində çalıb-çağırar, yaxşı da qazanarmışlar. Aşıq Ələsgərin özü də dəfələrlə Qarabağa səfər eyləmiş və hətta Valeh ocağı Abdalgülablıda çoxsaylı məclislər keçirmişdir. Onun bu kənddən olan Aşıq Abbasqulu və Aşıq Nəcəfqulu ilə qurduğu saz-söz yığnaqları şirin bir hekayət kimi dillər əzbərinə çevrilmişdir. Göyçə aşıqlarının Qarabağda çoxsaylı saz-söz məclisləri keçirməsi mahalın tarixən saza xüsusi həssaslıq göstərməsinin əlaməti olmaqla yanaşı, Qarabağ-Göyçə sənət əlaqələrinin dinamikliyini əks etdirmək baxımından da böyük əhəmiyyət kəsb edir. Çox ehtimal ki, "Aran gözəlləməsi" saz havası "Göyçə gözəlləməsi"nə qarşılıq olaraq (tutuşdur: "Göyçə"-"dağ" və "Aran"-Qarabağ") Qarabağda Göyçə-Qarabağ sənət əlaqəsinin nəticəsində yaranmışdır. Göyçə-Kəlbəcər-Tərtər-Bərdə-Beyləqan-Ağcabədi xətti boyundakı tarixi axar Göyçə və Qarabağ aşıq mühitləri arasında oxşar ifaçılıq və repertuar müştərəkliyinə səbəb olmuşdur. Yuxarıda adı çəkilən Qaradağ və Gəncəbasar aşıq mühitləri ilə də, demək olar ki, eynən belə bir sənət bağlılığı mövcud olmuşdur. Bu səbəbdən də Qarabağ aşıq mühitinin ifaçılığı həmin mühitlərdə olduğu kimi saz-balaban müştərəkliyinə əsaslanır. Dastançılığın və söz yaradıcılığının güclü olduğu bu mühitdə saz bəstəçiliyi də müəyyən yer almışdır: "Qarabağ dübeyti", "Qarabağ qaytağı", "Qarabağ qaytarması" saz havalarının adı, eləcə də Qurbani "Divani"ləri və Abdalgülablı Valeh barmaqlarına məxsusluğu söylənilən "Ayaq Sarıtel", "Orta Sarıtel", "Baş Sarıtel" silsilə havaları bunu söyləməyə əsas verir. Bu gün xanəndə repertuarına yerləşmiş "Sarı bülbül", "Naxşına qurban mən olum", "Ay qadası", "Qaçaq Nəbi", "Apardı sellər Saranı" sırasından olan onlarla mahnı məhz həmin havalarının xanəndə üslubuna uyğunlaşdırılmış şəklidir.

Qarabağ aşıq mühiti Şuşadan hərəkətlənən muğam-qəzəl üslubunun güclənməsi ilə XVIII yüzilliyin sonlarından etibarən zəifləməyə başlamışdır. XIX yüzillikdə Qarabağda əvvəlki ənənənin davamı olaraq Maralyanlı Aşıq Pəri kimi istedadlı saz-söz sənətkarı yetişsə də, artıq bu dövrdə mahalın sənət ovqatı sazqoşma biçimindən muğam-qəzəl üslubuna doğru xeyli aralanmışdı. XX yüzillikdə Qarabağ aşıq mühininin Göyçə-Kəlbəcər xəttinə söykənən hissəsində – Tərtər və Beyləqanda aşıq sənəti yaşamaqda davam etmişdir. İstisna hal kimi, Aşıq Abbasqulu və Nəcəfqulunun

simasında Abdalgülablı Valeh ocağında da sənət ənənəsi XX əsrin ortalarına qədər qorunub saxlanmışdır.

Folklorşünas Almara Nəbiyeva "Qarabağ aşıq mühiti" (BDU-2019) mövzusunda monoqrafiya nəşr etdirmişdir.

"QARABAĞ ŞƏRİLİSİ" – aşıq havası. Naxçıvan aşıq mühitində yaranmış "Şərili" ("Şərur" – coğrafi yer adından götürülmüşdür, Naxçıvan) havalar silsiləsinə aiddir. "Qarabağ şərilisi" "Şərili" havasının Qarabağ aşıq mühitində yaranmış variantdır.

"QARABAĞ ŞİKƏSTƏSİ" – 1. "Şikəstə" havalar silsiləsi bütövlükdə aşıq sənətinə aiddir. "Qarabağ şikəstəsi" də öz genetik başlanğıcını aşıq sənətindən – daha çox "Çoban bayatı"dan götürmüş və zərbi-muğam şəklinə Qarabağ xanəndələri tərəfindən salınmışdır. Segah məqamına əsaslanır. 4/2 ölçüsündədir. Poetik mətnin əsasını bayatı təşkil edir. Birhissəli, irihəcmli, silsiləvarı instrumental-vokal əsər. Dəqiq ölçülü rəngvarı instrumental və sərbəst ölçülü improvizasiyalı vokal hissələrin kontrast növbələşməsi əsasında yaranır. Ən özəl xüsusiyyəti vokal improvizasiyanın dəqiq ölçüyə malik instrumental müşayiətin fonunda səslənməsi və bununla bağlı olaraq, poliritmik, polimetrik, polifonik ünsürlərin üzə çıxmasıdır. Xanəndə yaradıcılığında muğam sənətinin təsiri nəticəsində genişlənmiş, məntiqi forma və quruluş əldə etmiş, zəngulələrlə zənginləşmişdir. Vokal melodiya Segah məqamına əsaslanaraq trixord intonasiyası (əsas tonun kvintası-mayənin üst aparıcı tonu-mayə) üzərində yaranmışdır. "Qarabağ şikəstəsi"nin melodik-intonasiya sistemi baş pərdə kökünə əsaslanan aşıq havalarına uyğundur və şikəstə havalar silsiləsinə aiddir: vokal melodiyanın trixord əsası (şah pərdə-orta pərdə-baş pərdə), improvizasiyanın inkişaf xətti, ənənəvi instrumental leytintonasiyalar və s. "Qarabağ şikəstəsi"nin vokal improvizasiyası aşıq havalarında bəndin sonuna daxil edilən yedək-sonluq zamanı oxunan bayatılarla (əsasən, kəmsətir bayatılarla) eyni melodik, məqam-intonasiya özəyini daşıyır. XVIII yüzillikdə yaşamış Qarabağ (Gülablı) aşığı Valehin adı ilə bağlı yaranması ehtimal olunur. Ü.Hacıbəyli, S.Rüstəmov, Ə.Bakıxanov, R.Zöhrabov tərəfindən nota salınmışdır. Ü.Hacıbəyli "Əsli və Kərəm", Qliyer "Şahsənəm" operalarında, S.Ələsgərov "Qarabağ təranələri" pyesində, V.Adıgözəlov "Qarabağ şikəstəsi" oratoriyasında, F.Əlizadə "İntizar" operasında "Qarabağ şikəstəsi"nin musiqisindən istifadə etmişlər. 2. Aşıq havası. İ.İmamverdiyev tərəfindən instrumental şəkildə nota salınmışdır.

QARACADAĞİ ƏLİ (XVIII əsr, Qaradağ mahalı) – Molla Pənah Vaqifin müasiri olmuşdur. Aşıq Əlinin M.P.Vaqiflə dostluq əlaqələri olmuşdur. Bizə gəlib çatan şeirlərindən və F.Köçərlinin qeydlərindən də bu aydınlaşır. Haqqında elə də geniş məlumat yoxdur. Günümüzə bir neçə şeiri gəlib çatmışdır. "Ayrılan" rədifli şeirində Kərəm və Qaracaoğlan təsiri duyulur. Aşıq Əlinin M.P.Vaqifə yazdığı qoşmasında "gövhər sözlərinin" aşıqlar arasında yayıldığı vurğulanır. Şeirlərində kədər motivləri daha çox nəzərə çarpır.

QARACADAĞİ ƏNDƏLİB (XVIII əsrin sonu, Cənubi Azərbaycan, Qaracadağ mahalı, Əhər qəsəbəsi) – şair, təzkirəçi. Xalq ədəbiyatının toplanmasında mühüm xidmətləri vardır. Onun 1804-cü ildə tərtib etdiyi əlyazma folklorşünaslığın tarixi üçün mühüm əhəmiyyət daşıyır. Həmin əlyazma Sankt-Peterburqda Şərqünaslıq institutunda saxlanılır. Azərbaycana fotosurəti gətirilmişdir. Ə.Qaracadağı haqqında S.Mümtaz, H.Səmədzadə, P.Əfəndiyev məlumat vermişlər. S.Mümtaz əlyazmadakı "Əsli və Kərəm" dastanına aid altı qoşmanı kiçik bir qeydlə "Ədəbiyyat qəzeti"ndə (1936, 31 iyul) çap etdirmişdir. Ə.Qaracadağinin əlyazmasında "Koroğlu" dastanına aid qoşmalar da vardır. Həmin qoşmalar "Koroğlu" dastanının 1956-cı il nəşrinə düşmüşdür. Xalq ədəbiyyatına aid Azərbaycan dilində əlimizə gəlib çatan ilk irihəcmli əlyazmadır. H.Səmədzadə əlyazma haqqında daha ətraflı məlumat vermişdir. Oradakı hekayətləri ("Fatma ilə Xosrovun hekayəti", "İbrahimin hekayəti", "Qələndərin hekayəti", "Yusifin hekayəti", "Abdullanın hekayəti") qeyd edir. S.Mümtaz onu "Əhərli şair" adı ilə vurğulayır.

QARACAƏMİRLİ QASIM HACI ƏLİ OĞLU (1840, Şəmkir rayonu, Qaracaəmirli kəndi – 1916) – Şəmkir aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Çox gənc yaşlarından aşıq sənətinə maraq göstərmişdir. Yaradıcı qabiliyyəti, sənətə marağı onu aşıqlığa gətirib çıxarmışdır. Aşıq Hüseyn Şəmkirlinin yanında şagird olmuşdur. Ondan aşıqlığı, ustadların yaradıcılığını, saz havalarını, dastanları öyrənmişdir. Aşıq Hüseyn Şəmkirli vəfat etdikdən sonra oğlu Çobandan sənəti öyrənmişdir. Hətta bir neçə il Aşıq Çobanla birlikdə məclislər də aparmışlar. Deyilənlərə görə, Çoban 45-ə qədər dastan bilirmiş. Gənc Qasım Aşıq Çobanın yanında sənəti dərindən öyrənmiş və ətraf bölgələrdə tezliklə tanınmağa başlamışdır. Qaracaəmirli Qasım yaradıcı aşıq olmuşdur. Aşıq şeiri üslubunda gözəl poetik örnəklər yaratmışdır.

QARACAOĞLAN (1606, Muş eli, Çukur obası (indiki Qaracaoğlan kəndi)–1679)– Anadolu aşığı. Aşıq şeiri üslubunda poetik örnəklər yaradan qüdrətli sənətkar olmuşdur. Heca vəznində qoşduğu qoşma və gəraylılar bu gün də ustad sənətkarların dilində, yaddaşında yaşamaqdadır. Haqqında çoxlu rəvayətlər, əhvalatlar, hekayətlər dolaşmaqdadır. Sayıloğlular nəslindəndir. Yayı Anadolu yaylalarında, qışı kəndlərində keçirmişdir. Yazıb-oxumağı bacaran şəxslərdən olmuşdur. Konya, Qaraman, İçel, Tokat, Hələb, Misir, Ankara, Adana, Diyarbəkr, Bursa, Sivas, Ərzurum və başqa yerlər onun gəzib dolaşdığı ərazilər olmuşdur. Çuxuroba onun daha çox məclislər apardığı yerdir. Qaracaoğlanın Azərbaycanla bağlılığı haqqında müxtəlif fikirlər də vardır. AMEA-nın Əlyazmalar İnstitutunda Qaracaoğlanın şeirlərindən nümunələr qorunub saxlanır. Həmin nümunələrdən biri 1636-cı ilə aid edilir. XIX əsrdə "Bir-birinə", "Demədimmi", "Mən

handa" qoşmaları yazıya alınmışdır. Təbrizli tacirin əlyazmasında (1721) Qaracaoğlanın şeirlərindən nümunələr vardır. S.Mümtazın, H.Əlizadənin topladığı nümunələr içərisində Qaracaoğlan şeirləri də özünə yer almışdır. S.Mümtaz "El şairləri" (1927-1928), H.Əlizadə "Aşıqlar" (1936) kitabında Qaracaoğlanın şeirlərini vermişdir. "Telli saz ustadları" kitabına (tərtib edəni Ə.Axundov) Qaracaoğlanın şeirləri daxil edilmişdir. Q.Namazov, R.Z.Xəndan, M.Aslan və başqaları Qaracaoğlanın həyat və yaradıcılığı ilə bağlı fikirlər söyləmişlər. "Turetskaya aşuqskaya poeziya" (Moskva, 1983) kitabında Qaracaoğlanın şeirlərindən nümunələr verilir. C.Öztelli Qaracaoğlanın həyatı, yaradıcılığı haqqında geniş araşdırmalar aparmışdır.

QARACAYEV HACI BABAKİŞİ OĞLU (1906, Qazax rayonu, Qaymaqlı kəndi – 1976) – Qazax mühitinin yetişdirdiyi el şairlərindəndir. Aşıq şeirinin çeşidli örnəklərində gözəl poetik incilər yaratmışdır. Dini təhsil almış, molla məktəbini bitirmişdir. Ərəb, fars dillərini bilmişdir. Sovet rejiminin qurbanlarından olmuşdur. Etirazlarına görə həbs olunmuşdur. Həyatının böyük bir hissəsi həbsxanalarda keçmişdir. Borsunlu Məzahirlə həbsxanada görüşmüşdür. Onunla möhkəm dostluq əlaqələri olmuşdur. "Dağ ceyrana, ceyran dağa yaraşır" şeirlər kitabı nəşr olunmuşdur (2008).

QARAÇÖP MUSA (1881, Borçalı mahalı, Qaraçöp bölgəsi, Qazlar kəndi – 1965) –Borçalı aşıq mühitinin yetişdirdiyi ustadlardandır. Aşıq sənətinə marağı, söz deyə bilmək qabiliyyəti onu sənətə gətirmişdir. Ustadların sənət yolunu uğurla davam etdirmişdir. El məclislərində ustadların qoşma, gəraylı, təcnis, divanilərini çalıb- oxumuş, dastanlarını söyləmişdir. Borçalı, Ağbaba, Qarayazı, Gəncəbasar tərəflərdə məclis aparmış, ustad aşıq kimi tanınmışdır. Onun şeirləri gənc yaşlarından məclislərə yol tapmış, aşıqların repertuarında səslənmişdir. Xalq arasında haqqında bu gün də maraqlı hekayətlər danışılır.

"QARADAĞ ŞİKƏSTƏSİ" – aşıq havası. Cənubi Azərbaycanın Qaradağ aşıq mühitinə aid olan hava. "Əsgi Qaytağı" adı ilə də tanınır. Şikəstə havalar silsiləsinə aiddir. Baş pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını qoşma xalq şeir forması təşkil edir. Variantlı kuplet formasındadır. Tez templi, oynaq ritmli, lirik ovqatlıdır. Rəqs xarakterli geniş instrumental girişlə başlayır. Başlanğıc impuls-səs olan şah pərdədən hərəkət götürür. Azərbaycan xalq rəqslərini xatırladır ("Tərəkəmə" və b.). Vokal melodiya kiçik diapazonludur (k3) və hər bir səsi vurğulanaraq melodik inkişafa uğrayan trixord intonasiyası üzərində yaranmışdır (şah pərdə-orta pərdə-baş pərdə). Dəqiq ölçülü "mahnıvarı" havalar qrupuna aiddir. Bəndin sonu şırğa tipli poetik mətn artırmaları vasitəsilə genişlənmişdir. Aşıq Çingiz Mehdipur tərəfindən nota köçürülmüşdür (səs və fortepiano üçün).

QARADAĞ-TƏBRİZ AŞIQ MÜHİTİ – Güneydəki aşıq mühitlərinin əhatə dairəsi və mədəni-tarixi zənginlik baxımından daha çox diqqət çəkəni Qaradağ-Təbriz aşıq mühitidir. Məşhur

Savalan və Səhənd dağları dövrəsindəki mahalları əhatə eləyən bu mühit tarixən olduğu kimi, çağdaş anlamda da güney aşıqlığının mərkəzi sayılır. Buraya Savalan dağı ətrafındakı Əhər, Kələyvər, Sərab, Şəbüstər mahalları və Səhənd dağı çevrəsindəki Marağa, Sərəskənd, Mərənd yaşayış məskənləri daxildir. Təbriz aralıq-keçid regionu kimi Savalan və Səhənd çevrələri arasında yerləşmişdir.

Adı çəkilən regionlardan aşıqlığa daha sıx bağlı olanları Təbriz, Əhər, Kələyvər, Şəbüstər, Meşkin və Sərəskəndir. Qaradağ-Təbriz aşıq mühiti tarixən bu bölgələrdən çıxan istedadlı sənətkarlarla şöhrətlənmişdir. Tufarqanlı Abbasın, Xəstə Qasımın burada yetişməsi, Qurbaninin, Sarı Aşığın əslən Qaradağlı olması, bir çox klassik xalq dastanlarının («Xəstə Qasım», «Abbas-Gülgəz», «Nəcəf-Pərizad», «Aşıq Qərib» və s.) yurd yerinin Qaradağa bağlanması Təbriz-Qaradağ aşıq mühitində saz-söz sənətkarlığının tarix boyu yüksək səviyyəsindən soraq verir.

Mühitin ənənəvi repertuarını 45-50 dastan təşkil edir. Digər mühitlərdə müşahidə olunanlarla yanaşı, «Qulam-Kəmtər», "Şikari", «Əlişah», «Xudadat», «Güneyli Nəcib usta», «Molla Əliynən Rafi», «Kəlbi-Səlbi», «Hatəm şah» kimi regional səciyyəli dastanlar da mövcuddur. Hətta «Əsli və Kərəm», «Abbas-Gülgəz», «Aşıq Qərib», «Xəstə Qasım», "Alıxan-Pərixanım", «Şah İsmayıl» sırasından olan bir çox dastanların da bu mühitdə olduqca kamil və tutumlu variantları vardır. Təbriz-Qaradağ aşıqları «Abbas-Gülgəz» dastanının üç həftə boyu (hər axşam üç saat olmaqla) söylənə biləcək tutumda olduğunu bildirirlər. Mühitin söz repertuarında «Koroğlu»

dastanının mühüm yer tutması (burada «Koroğlu»nun təqribən 14 qolu söylənilir) Təbriz-Qaradağın əsas «Koroğlu» ocaqlarından biri olduğunu da göstərir. Xatırladaq ki, XIX əsrdə yazıya alınmış "Koroğlu" nüsxələri («Xodzko» və «Tiflis» nüsxələri) də Təbriz-Qaradağ aşıq mühiti ilə birbaşa bağlıdır.

Söz repertuarındakı əlvanlıq və zənginlik eynilə musiqi repertuarında da öz əksini tapmışdır. Ənənəvi klassik saz havalarından əlavə, bu mühitə məxsus «Qaradağ şikəstəsi», "Təbriz dübeyti", "Qaradağ təcnisi", "Ceyranı Kərəm", «Doxabəyi», «Qürbəti», «Narıncı», «Qaytarma», «Şəqayiqi» kimi havalar burada saz bəstəçiliyinə xüsusi diqqət yetirildiyini təsdiqləyir. Aşıq Əziz Şahnazı bölgəsəl səciyyə daşıyan Təbriz-Qaradağ havalarının iyirmidən yuxarı olduğunu söylədi (1995-ci il). İfaçılıq və bəstəçiliyin yüksək səviyyədə olmasını səciyyələndirən əlamətlərdəndir ki, Təbriz-Qaradağda təkcə "Divani" havalarının beş növü («Şahxətai divanisi», "Sadə divani", «Qoca divani», «Urmani divani», «Osmanlı divanisi») vardır. Eyni çoxsaylılıq və rəngarənglilik «Koroğlu havaları», «Kərəm havaları», «Gözəlləmə» silsilələri üçün də səciyyəvidir.

XX yüzilliyin ortalarından etibarən Təbriz-Qaradağ aşıq mühitində Bakı radiosundan səsləndirilmiş aşıq havalarının təsiri özünü göstərmişdir. Aşıq Şakir, Aşıq Əkbər, Aşıq Kamandar və Ədalət Nəsibovun ifa tərzi Təbriz-Qaradağ aşıqlarında nəzərəçarpacaq iz buraxmışdır. Bunu yuxarıda sözügedən saz havalarının siyahısından da sezmək mümkündür. Əli Kafkasiyalı Təbriz-Qaradağ aşıq mühitində ifa olunan 142 saz havasının adını müəyyənləşdirmişdir.

Üçlük halında – saz, balaban, qaval müştərəkliyi ilə çalıb-oxuma ənənəsinə malik olan Təbriz-Qaradağ aşıqlarının həm Gəncəbasar və Göyçənin, həm də Şirvan və Dərbəndin çalğı və oxu tərzinə yaxınlığı qabarıqdır. İfa zamanı rəqsə və çevik gəzişmələrə üstünlük verilir. Zil və yüyrək oxu biçimi bu çevrənin aşıqları üçün daha səciyyəvidir.

Aşıqlıq professional sənət səciyyəsi daşıdığı üçün onun daimi fəaliyyətini təmin və təşkil edən mərkəz rolunu tarixən karvansara və mədəni-ticari mərkəzlərdəki çayçı-qəhvələr oynamışdır. Sovet dövründə Qafqazlarda və Orta Asiyada sıradan çıxarılmış həmin ənənə bir qədər məhdud şəkildə olmuş olsa da, İran və Anadoluda indi də yaşamaqdadır. Aşıqların professional səviyyələrini yüksəltmək və yaxud nümayiş etdirmək, eləcə də toy-düyünə getmək üçün müştəri cəlb etmək, qazanc əldə etmək məqsədilə toplaşdıqları "Aşıqlar qəhvəsi" ("Aşıq çayxanası") Təbriz-Qaradağ mühiti üçün də səciyyəvidir. İslam inqilabına qədər təkcə Təbrizdə doqquz-on "Aşıq qəhvəsi" fəaliyyət göstərmişdir. İndi onların sayı beşdir:

Aşıq İsmayıl Qəmbərinin çayçı-qəhvəsi;

«Gülüstan» çayçı-qəhvəsi;
Hacı Rəhimin çayçı-qəhvəsi;
Gəncəli çayçı-qəhvəsi;
Ayət Qəmbəri çayçı-qəhvəsi.

Bunlardan başqa, Əhər, Mərənd, Marağa və Sərabda da aşıqların toplaşdığı çayçı-qəhvələr olmuşdur.

Aşıqlığa yiyələnmə ustad-şagird

ənənəsinə söykənir. Təbriz-Qaradağ, eləcə də digər güney mühitlərində aşıq sənətinə kütləvi marağın nəticəsidir ki, iri yaşayış məskənlərində könüllülərdən ibarət saz sinifləri təşkil olunur və orada aşıq şagirdlərə çalmaq və oxumaq öyrədir. Bu üsul klassik ustad-şagird ənənəsi qədər effektli olmasa da, sazın və aşıq ifaçılığının geniş yayılmasında, kütləviləşməsində mühüm əhəmiyyətə malikdir.

Təkkə kökənli aşıq mühiti olduğu üçün təriqət məzmunu daşıyan poetik örnəklər Təbriz-Qaradağ aşıqlarının repertuarında əsas qatlardan birini təşkil edir. Quzey Azərbaycandakı aşıq mühitlərindən fərqli olaraq, Təbriz-Qaradağ aşıqları Nəsimi, Xətayi, Füzuli, Nəbati və Seyid Nigarinin təriqət şeirlərini də ifa edirlər.

Azərbaycan aşıq sənətinin əsas «haqq aşıq»larını yetirmiş Təbriz-Qaradağ mühiti təşəkküldən üzü bəri həm ifaçı, həm də yaradıcı mühit kimi fəaliyyət göstərmişdir. Ötən çağlarda olduğu kimi XX yüzillikdə də bu mühitdə qüdrətli sənətkarlar ortaya çıxmışdır. Şəbüstərli Aşıq Qəşəm, Aşıq Əli Təbrizli, Əziz Şahnazi, Rəsul Qurbani, Mərəndli Tağı, Kərkərli Məhəmməd, Həsən İsgəndərli, Qafar İbrahimi, Yədullah Şəkibi, İsmayıl Qəmbəri, Vəli Abdi, İman Daniş, Yaqub Binisli, Aşıq Polad, Çingiz Mehdipur, Çingiz Biriya, Məhbub Xəlili, Novruz Çəməni, Aşıq Fərhad təkcə mənsub olduqları Təbriz-Qaradağda deyil, Güney Azərbaycanın mahallarında da sayılıb seçilmişlər. Sonralar Gəncəbasar aşıq mühitində (Goranboy) fəaliyyət göstərsə də Aşıq Hüseyn Cavan da bu mühitin yetirməsi kimi şöhrətlənmişdir. XX yüzillikdə Güneyin ən qüdrətli aşığı sayılan Aşıq Qəşəmin sənət şəcərəsi Təbriz-Qaradağ aşıqlarının ana axarı kimi qəbul edilə bilər ki, bu da həmin şəcərənin Tikmədaşlı Xəstə Qasıma bağlanması ilə əlaqədardır:

Aşıq Qəşəm Güneyli (XX yüzillik)
↑
Aşıq Nəcəf Binisli (XIX-XX yüzillik)
↑
Aşıq Məhəmməd (XIX yüzillik)
↑
Aşıq Cəfər (XIX yüzillik)
↑
Aşıq Nemət (XVIII-XIX yüzillik)
↑
(XVIII yüzillik) *** ?
↑
Xəstə Qasım (XVIII yüzillik)

Son zamanların təqribi bilgisinə görə, Təbriz-Qaradağda çalıb-çağıran çağdaş aşıqların sayı beş yüz əllidən yuxarıdır.

Bu mühitə məxsus altmışa yaxın aşıq hazırda Tehranda və Kərəcdə sənət fəaliyyətini davam etdirir. Onların mənsub olduqları ana mühitlə daimi əlaqələri vardır. Toy-düyün aparmaq üçün tez-tez Təbriz və Qaradağa dəvət olunurlar. Bu səbəbdən də hələlik Tehran və Kərəcin ayrıca aşıq mühiti sayılması doğru deyildir.

Həm Tehranda, həm də Kərəcdə aşıqların toplaşdıqları çayçı-qəhvələr vardır. Bu çayçı-qəhvələrdə Təbriz-Qaradağ aşıqları say çoxluğu təşkil etsələr də, Urmiya, Zəncan aşıqları da müəyyən yer tuturlar. Tehran və Kərəcdən savayı, Urmiya, Zəncan aşıq mühitlərində fəaliyyət göstərən Təbriz-Qaradağ

aşıqları da orada mənsub olduqları mühitin ifaçılıq ənənəsini yaşadırlar.

"QARADAĞ TƏCNİSİ" – aşıq havası. Qaradağ aşıq mühitinə (Güney Azərbaycanı) aid olan hava. Digər mühitlərdə olan "Təcnis" havasından ritmik keyfiyyətinə görə bir qədər fərqlənir. "Qaytarma" saz havasının da müəyyən əlamətlərini daşıyır.

QARADAĞLI İBRAHİM ƏLİ OĞLU (1970, Əhər şəhəri) – Təbriz-Qaradağ aşıq mühitinə məxsus sənətkardır. Aşıq ailəsində dünyaya göz açmışdır. Atası aşıq olduğundan aşıqlıq sənətinə meyil göstərib. Birinci ustadı atası Əli Qaradağlı, ikinci ustadı aşıq Məhəmmədəli Emin oğlu olmuşdur.

Hal-hazırda Əhər şəhərində aşıq kimi məclislər aparır. Aşıq mahnılarını və dastanları özünəməxsus koloritlə ifa edir. İstedadlı sənətkar kimi mühitdə tanınmışdır.

QARAXANLI İSA ƏKBƏR OĞLU (1976, Təbriz şəhəri) – Təbriz-Qaradağ aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Ustadı Aşıq Hacı Qaraxanlı olmuşdur. Gənc yaşlarından saza-sözə maraq göstərmişdir. Bir

çox beynəlxalq tədbirlərdə, folklor festivallarında iştirak etmişdir. ADMİU-nun "Aşıq sənəti" ixtisasını bitirmişdir. Qələmə aldığı poetik örnəklər müxtəlif toplularda nəşr olunmuşdur. Zəngin dastan və havacat repertuarına malikdir. "İsa Qaraxanlı" imzası ilə tanınır.

QARAŞOV ƏDALƏT (ƏDALƏT DƏLİDAĞLI) HACIBALA OĞLU (1967, Kəlbəcər rayonu, Yellicə kəndi – Bakı) – Qəmkeş Allahverdinin yanında

sənətin sirlərini öyrənmişdir. "Ədalət Dəlidağlı" imzası ilə tanınır. Zəngin musiqi və söz repertuarına malikdir. Solo saz ifaçısı kimi də tanınmışdır. Özünəməxsus çalğı üslubuna malikdir. Birinci Beynəlxalq Aşıq Festivalında (2010) və İkinci Beynəlxalq Aşıq Festivalında (2014) sənəti ilə təmsil olunmuşdur. Azərbaycan Aşıqlarının V və VI qurultaylarının iştirakçısıdır. VI Aşıqlar Qurultayında idarə heyətinə üzv seçilmişdir. Aşıq Ədalət Nəsibov yolunun davamçısı kimi tanınır. Türkiyə, Rusiya, İran və başqa ölkələrdə konsertlər keçirmişdir. Xeytli sayda şagirdləri vardır. Əməkdar mədəniyyət işçisidir (2007).

QARAVƏLLİ (QƏRƏVƏLLİ) – xalq ədəbiyyatı janrı. Adından da göründüyü kimi, yumor səciyyəli əsərlərdir. Epik növün janrları silsiləsinə daxildir. Dastan söyləyən aşıqlar və yaxud da nağılçılar böyükhəcmli əsərləri dinlə-

yiciyə təqdim edəndə əvvəlcə qaravəllidən istifadə edirlər. Dinləyiciləri yormamaq, onların diqqətini özünə cəlb etmək məqsədilə ustadların çoxu bu formadan məqamına və yerinə görə bəhrələnmişlər. Sonra yenə də dastanın, nağılın davamına başlamışlar. Məhz bu əsərlər şən, əyləndirici, ürəkaçan səciyyəsi ilə həmişə seçilmiş, məclisin ümumi ahənginə xoş əhvali-ruhiyyə qatmışdır. "İsfahan keçəli", "Kərəm və Şeyx", "Qazı" və s. kimi qaravəllilər zaman-zaman xalqın yaddaşında yaşamışdır. Onu da əlavə edək ki, qaravəllilərin mahiyyətində (məzmun və formasında) nağıl və lətifə ünsürləri vardır. Qaravəllilər haqqında H.Zeynallı, Ə.Axundov, Ə.Mirəhmədov, V.Vəliyev, P.Əfəndiyev, T.Fərzəliyev, M.Allahverdiyev və başqaları müxtəlif səpkili mülahizələr yürütmüşlər. H.Zeynallı qaravəllilərin "məclisi güldürmək, məzəli olmaq" kimi xüsusiyyətlərini, M.Allahverdiyev "novella xarakterliliyini", Ə.Mirəhmədov "qismən intermediya səciyyəsi daşıdığını", P.Əfəndiyev "satirik nağılları xatırlatdığını" və s. vurğulayır. M.Arif qaravəllilərin "nağıl və dastanlardan sonra tamaşaçıların könlünü açmaq, "tragediya"nın ağır təsirini yüngülləşdirmək üçün söyləndiyini" vurğulayır. Türk Milli Folklor Yayınlarının nəşr etdiyi "Araşdırmalar"ın birinci cildində "Vəlli" hekayə anlamı daşıdığı, "Qara" isə "türküsüz, sadə" mənası bildirdiyi qeyd edilir.

"Qaravəlli" sözünün etimologiyası haqqında da müxtəlif mülahizələr vardır. Sənətşünas E.Aslanov türk oğuz qəbiləsinin (Qaraevli qəbiləsi) adından götürüldüyünü, M.Allahverdiyev ilkin variantda "Qarabəlli" olduğunu və günahı, çirkin əməli bəlli olan anlamı daşıdığını qeyd edir. Aşıq yaradıcılığında ustadlar dastan gecələrində qaravəllilərdən lazımı qədər istifadə etmişlər. Hüseyn Saraclı, Aşıq Soltan, Aşıq Hüseyn Xaloğlu, Aşıq Qədir İsmayılov, Çopur Ələsgər və b. ustadlar dastan söylərkən qaravəllilərlə məclisə bir şirinlik, xoş ovqat gətirmişlər.

QARAYEV BƏHMƏN (NƏRİMANLI) İBRAHİM OĞLU (1901, Göyçə mahalı, Nərimanlı kəndi (əvvəllər Hüseynquluağalı adlanmışdır) –

1980). Yoxsul bir ailədə anadan olmuşdur. Beş yaşında olarkən atasını itirmişdir. Çətinliklə dolu həyat yaşamışdır. Keçən əsrin 20-ci illərində yeni açılan məktəbdə bir neçə il təhsil almışdır. Lakin çətinliklər onu təhsilini yarımçıq qoymağa məcbur etmişdir. Mələhətli səsi, bacarığı aşıqlığa gətirib çıxarmışdır. Ustad yanında yetişməsə də, bacarığı, yaradıcı istedadı bir sənətkar kimi formalaşmasına yardımçı olmuşdur. 1928-ci ildən aşıqlığa başlamışdır. Aşıq Bəhmənin şəxsi həyatı da o qədər uğurlu olmamışdır. Onun həyat yoldaşı vaxtsız dünyasını dəyişmiş, iki körpəsi anasız qalmışdır. Aşıq Bəhmən öz istedadı, bacarığı ilə Azərbaycanda və ondan kənarda məşhurlaşmışdır. 1950-60-cı illərdə saz-söz aləmində böyük hörmət qazanmışdır. "Humay", "Ağ corab", "Əfqan-tufan" onun yaradıcılığının məhsuludur. Aşıq şeirinin, demək olar, bütün növlərində nümunələr yaratmışdır. Saz

havalarını özünəməxsus üslubu, əlavələri ilə zənginləşdirmişdir. Ayrı-ayrı toplularda, "Sazlı-sözlü Göyçə" kitabında həyatı haqqında məlumatlar verilmiş, şeirlərindən nümunələr getmişdir.

QARAYEV QARA ƏBÜLFƏZ OĞLU (1918, Bakı – 1982) – bəstəkar, pedaqoq, ictimai xadim. Azərbaycanın Xalq artisti (1958), SSRİ Xalq artisti (1959), Azərbaycan EA-nın akademiki



(1959), SSRİ Dövlət (1946, 1948), M.F.Axundov adına Respublika (1965) və Lenin (1967) mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı (1978), Q.Qarayev öz əsərlərində aşıq musiqisinin qanunauyğunluqlarının istifadəsi baxımından Ü.Hacıbəylinin ənənələrini davam etdirmiş və onların yeni tarixi mərhələdə inkişafına nail olmuşdur. Aşıq musiqisi şifahi ənənəli Azərbaycan musiqisinin digər janrları ilə yanaşı, üzvi şəkildə bəstəkarın fərdi üslubuna daxil olmuş və onun milli koloritini təyin etmişdir. Q.Qarayevin aşıq musiqisinə fərdi yaradıcı münasibəti tədricən formalaşmışdır. O, erkən yaradıcılıq dövründə aşıq musiqi üslubunu yaradıcı şəkildə mənimsəməyə başlamışdır. "Ürək mahnısı", "Xoşbəxtlik mahnısı", "Zamanın bayraqdarı" kantatalarının instrumental hissələrinin harmonik dilində aşıq musiqisindən irəli gələn kvarta-kvinta ahəngi, müxtəlif quruluşa malik akkord qarşılaşdırmaları mühüm rol oynayır. Kantataların məqam-intonasiya dilində aşıq musiqisinə xas intonasiya dönmələrinin, "plaqal tonika"nın, Şur məqamının üstünlüyü nəzərə çarpır. Kantataların musiqi dilinin metr-ritmik təşkilində dəqiq vəznə əsaslanan aşıq havalarının metr-ritm intonasiyalarından yaradıcı şəkildə istifadə edilmişdir. C.Hacıyevlə birlikdə yaratdığı "Vətən" operası bəstəkarın aşıq musiqisinin üslub xüsusiyyətlərinin təzahürü sahəsində səmərəli axtarışlarının bariz nümunəsidir. Operanın əsas qəhrəmanı Aslanın partiyası aşıq musiqisinin səciyyəvi xüsusiyyətlərinin inikası baxımından böyük maraq kəsb edir. Onun birinci pərdənin sonunda oxuduğu ariozonun reçitativ-deklamasiya üslubu, müşayiətin fakturası, məqam-harmonik və metr-ritmik intonasiyaları "Divani" aşıq havasının musiqi dilinə yaxındır. Aslanın ifa etdiyi digər nömrələrin musiqi dili üçün major-minor funksional sisteminin xalq məqamlarının ünsürləri ilə zənginləşdirilməsi, deklamasiyalılıq, akkord fakturasında kvarta-sekunda səs birləşmələri xasdır. Operanın digər qəhrəmanı olan Səlimin mahnılarında da aşıq musiqi üslubunun səciyyəvi cəhətləri öz təzahürünü tapmışdır. "Müəlliflərin aşıq obrazını operaya gətirməkdə məqsədi özlərinin bu musiqiyə fəal yaradıcı mü-

nasibətlərini, ondan istifadə bacarıqlarını daha qabarıq halda, daha geniş miqyasda nümayiş etdirməkdir. Doğrudan da, operanın heç bir epizodu aşıq mahnılarına faktura və kompozisiya oxşarlığı, əsas intonasiya elementlərinin inkişaf prinsiplərinin və ifaçılıq tərzinin yaxınlığı cəhətdən Səlimin birinci mahnısı ilə müqayisəyə gəlməz. Burada üslublaşdırma bütün komponentlərdə özünü göstərir" (T.Quluzadə). Səlimin oxuduğu mahnıların forma, struktur, üslub komponentlərində aşıq musiqisinin ayrı-ayrı ifadə vasitələrinin səciyyəvi xüsusiyyətləri sərbəst və geniş inkişafda təzahür edir. "Yeddi gözəl" baletinin musiqisində aşıq sənətinin səciyyəvi xüsusiyyətlərindən çox təsirli, milli koloritin çatdırılması baxımından parlaq bir vasitə kimi istifadə olunmuşdur. Baletin musiqisində aşıq musiqisinin özəllikləri şifahi ənənəli Azərbaycan musiqisinin digər janrları ilə sintez şəklində təzahür etmişdir. Baletin "Rəfiqələr" rəqsi, "Sənətkarların rəqsi" və digər nömrələrində intonasiya özəklərinin təkrarı və variant halında inkişafı, aksentlərin qeyri-sabitliyi, ostinat metr-ritmik fon, akkordların kvinta-kvarta, kvarta-sekunda quruluşu və s. aşıq musiqisindən gələn təsirin təzahürüdür. Q.Qarayevin fortepiano əsərləri aşıq musiqisinin instrumental sahəsi ilə daha çox səsləşir. Bəzi fortepiano əsərlərində (məsələn, Sonatinada, prelüdlərdə) fakturasında saz çalğısının arti-kulyasiya özəllikləri təqlid edilmiş, aşıq musiqisinin üslub xüsusiyyətləri öz təcəssümünü tapmışdır. Bəstəkarın simfoniyaları aşıq musiqisinin istifadə prinsiplərinin təkamülü baxımından böyük maraq kəsb edir. II simfoniyasının üçüncü hissəsində (Skertso) instrumental aşıq musiqisinin ritm və tembr intonasiyalarının təsiri duyulur. Bəstəkarın III simfoniyasının struktur və semantik cəhətləri aşıq musiqisinin sərhədsiz potensial imkanlarını bir daha sübut etmişdir. Əsərin ikinci hissəsində bəstəkar aşıq musiqisi qanunauyğunluqlarının XX əsr bəstəkarlıq texnikasının növlərindən biri olan dodekafoniya ilə bədii sintezinə nail olmuşdur. Bu hissənin musiqisində aşıq musiqisinin üslub xüsusiyyətləri, metr-ritm, intonasiya özəllikləri, sazın səslənmə tərzi böyük ustalıqla dodekafoniya prinsipləri ilə əlaqələndirilmişdir. Q.Qarayevin III simfoniyasının yaranması ilə Azərbaycan bəstəkarlarının folklora münasibəti köklü şəkildə dəyişmiş, ondan istifadə prinsipləri dərinləşmiş və xeyli dərəcədə zənginləşmişdir.

O, Ü.Hacıbəylinin "Aşıqsayağı" əsərinin kamera orkestri üçün transkripsiyasını etmişdir.

Q.Qarayevin Azərbaycan Dövlət Konservatoriyası nəzdində fəaliyyət göstərən Elmi-tədqiqat musiqi kabineti tərəfindən təşkil olunşmuş folklor ekspedisiyaları zamanı toplanılmış şifahi ənənəli musiqi nümunələrinin və o cümlədən də, aşıq havalarının nota salınmasında xidmətləri olmuşdur. C.Hacıyevin qeyd etdiyi kimi, Q.Qarayev xalq musiqi yaradıcılığının digər sahələri ilə müqayisədə aşıq havalarına daha çox meyil göstərmişdir. Bir çox aşıq havalarını nota salmışdır.

QARAYEV RAMİN (RAMİN OĞUZ) İSMİXAN OĞLU (1986, Borçalı mahalı, Sarvan eli, Təkəli kəndi) – Aşıq Kamandar Əfəndiyevin sənət ənənəsini davam etdirən aşıqlardandır. Sazsöz aləmində Ramin Oğuz adı ilə də

tanınır. Tovuz rayonunda keçirilən silsilə Ozan-aşıq müsabiqəsinin (2006) ilk qaliblərindəndir. Bakıda keçirilən I aşıq müsabiqəsinin (2007) mükafatçılarındandır. 2009-cu ildə Fransada UNESKO-nun xətti ilə keçirilən beynəlxalq festivalda iştirak etmişdir. Türkiyədə, Rusiyada, Qazaxıstanda, Gürcüstanda festivallarda iştirak etmiş və mükafatlar almışdır. Bynəlxalq ozan-aşıq festivalının diplomantıdır (2010). Zəngin havacat və söz repertuarına malikdir. ADMİU-nun Musiqi sənəti fakültəsində saz ixtisası üzrə təhsil alır. Gənc aşıqlar içərisində öz dastançılıq məharəti ilə seçilir. Çoxlu şagirdlər yetişdirmişdir.

QARDAŞƏLİ OĞLU RÜSTƏMƏLİ (1923, Zəncan mahalı, Gərətəpə kəndi – 2012) – Yaradıcı aşıq olmuşdur. Zəncan aşıq mühitində dastançı aşıq sayılmışdır. Aşıq Rəsulun yanında şagird olmuşdur. On səkkiz yaşından aşıqlığa başlamışdır. Altmış beş il məclislər aparmış, Zəncanda, ətraf bölgələrdə ustad kimi tanınmışdır. Zəncan və Xürrəmdərə bölgəsinə məxsus saz havalarının və bölgə dastanlarının ən mötəbər daşıyıcılarından biri olmuşdur.

QARI OBRAZI – xalq yaradıcılığında, dastan və nağıllarımızda tez-tez rast gəlinən obrazlardan biridir. Xalq düşüncəsində qarılar ikili səciyyə daşıyır. Daha çox mənfiliyə, pisliklərə xidmət edir, qəhrəmanın məqsədi, arzu və istəyi uğrunda mübarizəsinə mane olan qüvvələr sırasında nəzərə çarpır. Problemlər onun vasitəsilə yaradılır, pisliklər onun əlilə həyata keçirilir. Nağıl və dastanlarımızda bu ikili istiqamətin digər tərəfində qəhrəmana kömək, əl tutmaq, yardımçı olmaq funksiyası da qarılar vasitəsilə həyata keçirilir. Ona görə də xalq düşüncəsində "köpək qarı", "ipək qarı" ifadələri vardır.

Qarı obrazında bu ikili səciyyə bütünlükdə xalq düşüncəsini izləmişdir. Bütün müşküllərin həllində və yaradılmasında qarılardan istifadə edilmişdir. Məsələn, "Məsum" dastanında Xoca Əziz xəbəri Xanı qarı vasitəsilə çatdırır: "Sən qabağa get. Yəməndə Xanı qarı adlı bir ipək qarı var, onu tap, bizim gəldiyimizi ona söylə. O, Məsuma desin.

Bu adam bərkitdi çarıqların dabanın, qırdı yerin damarın, dərələrdən sel kimi, təpələrdən yel kimi gəlib Yəmənə çatdı. Axtarıb Xanı qarını tapdı, dedi:

– Ay qarı nənə, Xoca Əziz Məsumun nişanlısı Diləfruz xanımı gətirir. Deyirdi ki, Xanı Qarı Məsuma xəbər versin.

Xanı Qarı Xoca Əzizin xatirini çox istəyirdi. O saat durub Məsumun yanına getdi, ordan-burdan söhbət açdı, axırda gəldi mətləb üstünə, dedi:

– Ay Məsum, oğul, dərdin alım, niyə bikef-məlul oturubsan, dərdin nədi ki, qəmə mübtəla olubsan? Deyirlər, atan nişanlını gətiri, dur bir çölə çıx".

"Abdulla-Cahan" dastanında da buna oxşar vəziyyəti görürük. "Alıxan

və Pəri” dastanında oxuyuruq: “Uşağı verdilər Xanı qarıya saxlamağa. Üç gündən sonra uşağa ad qoymağa başladılar. Bütün qarıları yığdılar.

Qarılar cürbəcür olur. Pəricahan, Hürücahan, Zorcahan, Napak qarı, İpək qarı, Köpək qarı və s.

Xanı qarını gördü. Qarı Tapdığın halını soruşandan sonra dedi:

– Oğul, nə qayırırsan, bir şey əldə eləyibsənmi?

Tapdıq dedi:

– Qarı nənə, nə əldə eləyəcəyəm ki?

Qarı dedi:

– Necə nə əldə eləyəcəksən? Pəri sənin bacın ha deyil?”

Bu nümunələr xalq dastanlarında kifayət qədərdir. Qarıların xalq düşüncəsində ikili xarakterini ifadə edir.

QARYAĞDI OĞLU CABBAR (CABBAR MƏŞƏDİ İSMAYIL OĞLU) (1861, Şuşa – 1944, Bakı) – xanəndə, Xalq artisti (1935), “Şərəf nişanı” ordenli (1938), ictimai xadim. Geniş diapazonlu (iki oktava yarım), yüksək tessituralı güclü və məlahətli səsə, şaqraq zənglələrə malik, dramatik və lirik tenor tipli virtuoz ifaçı. Xanəndə ifaçılığı tarixində yeni iz açan, Azərbaycan milli musiqi mədəniyyətinə misilsiz töhfələr vermiş fitri istedada malik sənətkar. “Heyratı”, “Mənsuriyyə”, “Segah”, “Mahur” və s. muğamlarının ən gözəl təfsirçisi kimi tarixə daxil olmuşdur. İtalyan müğənnisi E.Karuzo ilə müqayisə edilmiş, “Şərq musiqisinin peyğəmbəri” (S.Yesenin) adlandırılmışdır. Azərbaycan milli musiqi mədəniyyətinin bütün qollarını – muğam və aşıq sənəti, xalq mahnı və rəqs yaradıcılığını (eləcə də, dini musiqini) bütün qanı və ruhu ilə

dərk edərək özündə cəmləməsi və gələcək nəsillərə ötürməsi Cabbar Qaryağdıoğlu fenomeninin əsas qayəsidir. Mütərəqqi, milli, türkçülük ideyaları ilə yaşamışdır. Savadlı, bilikli, fars-ərəb dillərini mükəmməl bilən, Firdovsi, Sədi, Hafiz, Xəyyam poeziyasına dərindən bələd olan Cabbar Qaryağdıoğlu doğma dilinə üstünlük vermiş, fars dilində qəzəl oxumaqdan imtina etmişdir. İlk dəfə olaraq muğamları Nizami, Füzuli, Zakir, Vaqif, S.Ə.Şirvani, Natəvan və M.Ə.Sabirin şeirlərini oxumuş, bununla da, qədim muğam sənətinin milli istiqamətdə inkişafına yol açmış, yeni dövrün başlanğıcını qoymuşdur. Şuşada Xarrat Qulu məktəbində dərs almışdır. 1897-ci ildə Ə.Haqverdiyevin rəhbərliyi ilə tamaşaya qoyulan “Məcnun Leylinin qəbri üstə” musiqili səhnəciyində Məcnun rolunda çıxış etmişdir. 18 yaşından məşhur tarzən Mirzə Sadıq Əsəd oğlu ilə, 1900-1905-ci illərdə tarzən Mirzə Fərəc və kamançaçı Məşədi Qulu ilə birlikdə çıxış etmişdir. 1905-ci ildə tarzən Qurban Pri-

mov və kamançaçı Saşa Oqanezaşvilidən ibarət üçlük yaratmış, birlikdə 20 il fəaliyyət göstərmişlər. 1906-cı ildə Azərbaycanda və bütün Şərqdə, ilk dəfə olaraq, səsi qrammafon valına yazılmışdır (Qrammafon" cəmiyyəti, Riqa). 1906-1914-cü illər ərzində Sport-rekord, Ekstrafon, "Qrammafon" səhmdar cəmiyyətləri tərəfindən Cabbar Qaryağdıoğlunun ifasında çoxlu sayda muğam, təsnif və xalq havaları qrammafon valına köçürülmüşdür. "Şərq konsertləri"nin fəal iştirakçısı olmuş, 1912-ci ildə Varşavadan qayıdarkən Moskvada konsertlər vermişdir (o cümlədən xeyriyyə konsertləri – Ü.Hacıbəylinin təhsili üçün vəsait toplanmışdır). 1916-cı ildə "Neft və milyonlar səltənəti" adlı ilk Azərbaycan kinofilmində H.Ərəblinski ilə yanaşı xanəndə rolunda çəkilmişdir. Azərbaycan Xalq Cümhuriyyətini (1918-1920) alqışlamış, bu hadisə münasibətilə Ə.Cavadın sözlərinə "Türkün gözəli" havasını bəstələmiş və ifa etmişdir:

Türk qızı oturub toxuyur xəli,
Aləmi gəz dolan, yoxdur bədəli.
Onu alan neynir altunu, ləli,
Türkün gözəli, türkün gözəli.

Sovet hakimiyyəti illərində konservatoriyada dərs demiş, ADK nəzdində ETMK-nın məsləhətçisi, ADF-nin solisti, RXYE-nin müşaviri olmuşdur.

Cabbar Qaryağdıoğlunu digərlərindən fərqləndirən cəhət onun muğam sənəti ilə yanaşı, aşıq və xalq musiqi yaradıcılığını dərindən bilməsi və bu keyfiyyətləri öz yaradıcılığında üzvi şəkildə birləşdirməsi idi. Musiqi folklorunun "canlı ensiklopediyası" olan, fenomenal yaddaşa malik Cabbar Qaryağdıoğlu muğam, təsniflərlə yanaşı, 300-ə yaxın el nəğmələri, aşıq havaları və aşıq dastanlarını lentə yazdırmışdır. Onun ifasından fonovalikə köçürülmüş 50 xalq mahnısı 1938-ci ildə "Azərbaycan xalq nəğmələri" başlığı altında çapdan çıxmışdır. Aşıq havalarını, "Qarabağ şikəstəsi", "Arazbarı", "Ovşarı", "Osmani" zərbi-muğamlarını gözəl ifa etmiş, xalq mahnılarını dəstgah tərkibində təsniflər əvəzi oxuyaraq xanəndə ifaçılığına daxil etmişdir. "Cabbar Qaryağdıoğlu yalnız xalq xanəndəsi, klassik musiqi və xalq mahnılarının ifaçısı olmayıb, eyni zamanda xalq aşığı idi". Cabbar Qaryağdıoğlu şair təbiətli olmuş, bir sıra qəzəllər, təsniflərə mətnlər, eləcə də başlıca olaraq, aşıq poetik dilindən istifadə edərək mahnılara söz yazmışdır: "Tiflisin yolları", "Naxçıvanın gədiyindən aşeydım", "Qalalıyam qalalı", "Qarabağda bir dənəsən", "Gəlin gedək Daşaltında gəzməyə", "Məni dövri-fələk", "İstəkanın deşilsin", "Ay ayağında məsi var", "Kaş ki bayram olmayaydı" və başqa mahnıları bəstələmişdir. Qafqazda, Orta Asiya ölkələrində, İranda, Türkiyədə, Rusiyada tanınmışdır. Ü.Hacıbəyli, R.Qliyer, Niyazi, F.Əmirov onun yaradıcılığından bəhrələnmişlər. Böyük musiqişünaslar, incəsənət və elm xadimləri – B.Asafyev, V.Vinoqradov, Y.Braudo, M.İppolitov-İvanov, Z.Paliaşvili, R.Qliyer, N.Qorusyuk, G.Xubov, V.Korqanov, R.Yektabəy, R.Xaleqi və b. onun yaradıcılığına yüksək qiymət vermişlər. O, 70 illik yaradıcılıq fəaliyyəti ilə əsl "sənətkar və vətəndaş" kimi xalqına, vətəninə xidmət etmiş, ecazkar səsi ilə insanlara ən yüksək bədii zövq aşılamışdır.

"QASIM" DASTANI – məhəbbət və qəhrəmanlıq hüdudlarında dayanan dastanlardandır. Folklorşünas Hümmət Əlizadə 1926-cı ildə Qazax rayonunda Aşıq Əlidən yazıya almışdır. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin xətti ilə 1929-cu ildə "Azərbaycan el ədəbiyyatı" kitabında nəşr etdirmişdir. Dastanda göstərilir ki, Herat şəhərində Fətəli şahın övladı olmur. Çox böyük narahatlıq var. Vəzir deyir ki, yeddi il camaatdan xərac almayacam. Qoy onlar sənə alqış etsinlər. Belə də edir. Günlərin birində Fətəli şahın bir oğlu olur. Onun adını Şahzadə Qasım qoyurlar. Tərbiyəsi ilə dayələr məşğul olur. Bacarığı, qabiliyyəti ilə seçilir. Bir dəfə eyvanda oturarkən ovdan gələnləri görür. Vəzir-vəkilə ova getmək istədiyini bildirir. Ovda böyük sücaət göstərir. Birdən bir ceyran onun başının üstündən atılıb qaçır. Şahzadə Qasım ceyranın arxasınca tək gedir. Bir çeşmənin başında yatır. Hind şahının qızı Əsmayıl Pəri bulağın başında onunla rastlaşır. Əsmayıl Pəri onu yuxudan oyada bilmir və yoluna davam edir. Qasım yuxudan oyananda Pərinin məktubu ilə rastlaşır. Və arxasınca gedir. Yolda ona çatır. Əsmayıl Pərini görən kimi bihuş olur. Şahzadə Qasım oyanıb yoluna davam edir. Yolda Gözəl xanımla qarşılaşır. O deyir ki, Əhməd Hərami məni almaq istəyirdi. Qardaşlarım razı olmadı. Müharibə etdi. İndi davadadır. Qasım Əhməd Həramiyə qarşı vuruşur və qələbə çalır. Qardaşlar bacısını Qasıma vermək istəyir. Qasım Hind ölkəsinə gedəcəyini söyləyir və gələndə Gözəli də özü ilə aparacağına vəd verir. Yolda Əhməd Cəlalı deyilən bir haraminin elinə gəlir. Əhməd Cəlalı qız idi. Qardaşının adı Əhməd olmuşdu. Qırx harami ilə qızları təhqir edib öldürürdü. Bacısı ondan bezmişdi. Hərəkətlərini qəbul edə bilmirdi. Qardaşını öz haramiləri ilə birlikdə gecə ikən öldürdü. Əhməd Cəlalı adı ilə yaşadı. Şahzadə Qasımla qarşılaşmada məğlub oldu və onunla birlikdə Hind elinə yollandı. Əsmayıl Pərini əmisi oğluna nişanlamışdılar. Şahzadə Qasım böyük çətinliklər hesabına Əsmayıl Pəriyə çatır. Onlar ailə qururlar. Qasım şah olur, rəiyyətini ədalətlə idarə edir.

QASIMLI MƏHƏRRƏM PAŞA OĞLU (1958, Tovuz rayonu, Alakol kəndi – Bakı şəhəri) – folklorşünas alim, filologiya elmləri doktoru (1997), professor (2003), Dövlət mükafatı laureatı (2010), Əməkdar elm xadimi (2015). "Şöhrət" ordenli (2018). Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999). Azərbaycan Aşıqlar Birliyinin sədri (2016). 2016-cı ildən Azərbaycan Respublikası Dövlət Mükafatı komissiyasının üzvü.

Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1975-1980). Siyəzəndə müəllim işləmişdir (1980-1983). EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir (1983-1986). "Xətayinin poetikası" mövzusunda namizədlik dissertasiyası (1987), "Aşıq sənəti: qaynaqları, təşəkkülü və mühitləri" mövzusunda doktorluq dissertasiyası (1997) müdafiə etmişdir. İnstitutun folklor şöbəsində elmi işçi (1986-1992), Xaricdə "Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri (1997-2002) olmuşdur. 1992-2017-ci illər arasında həmin institutda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. 2002-ci ildən "Şifahi xalq ədəbiyyatı" şöbəsinə

rəhbərlik edir. “Folklor və etnoqrafiya” beynəlxalq elmi jurnalının baş redaktoru (2004-cü ildən), Beynəlxalq Folklor Fondunun Azərbaycan təmsilçisidir (2003-cü ildən). “Azərbaycan ədəbiyyatı tarixi” (6 cilddə) adlı monumental çoxcildlikdə on beşdən çox oçerkin müəllifi, həm də birinci cildin məsul redaktoru olmuşdur (2004). 10 cildlik “Azərbaycan ədəbiyyatı tarixi”nin baş redaksiya heyətinin üzvü və yenidən işlənmiş I cildin məsul elmi redaktorudur (2018).

M.Qasımlı “Orxan Paşa” təxəllüsü ilə şeirlər də yazır. “Dedi” adlı ilk şeiri 1973-cü ildə Tovuzda çıxan “Həqiqət” qəzetində çap olunmuşdur. Daha sonra respublika mətbuatında şeirləri və ədəbi-publisistik yazıları ilə müntəzəm çıxış etmişdir. Hollandiya, Türkiyə, Gürcüstan və İranda şeirləri çap olunmuşdur. Bir neçə şeir kitabı da nəşr edilmişdir. İki yüz əllidən çox elmi və ədəbi-publisistik məqalə müəllifidir. Onlarla Beynəlxalq simpozium və konfransda iştirak etmişdir. Türkiyədə nəşr olunan “Milli folklor” və “Atatürk araşdırmaları” elmi toplularının redaksiya heyətinin üzvüdür. Folklor örnəklərinin toplanması və nəşrində xüsusi xidmətləri olmuşdur. “Naxçıvan folkloru” (1994), “Dərbənd folkloru” (2014), “Yuxuyozumlar (1992), “El düzgüləri və elat söyləmələri” (1993), “Yəhya bəy Dilqəm. Yarəb, o dünyada görüşərmola?!” (1994) “Aşıq ədəbiyyatı antologiyası” (3 cilddə – Bakı, 2016), “Xəstə Qasımın dastanı” (2018), “Növrəs İmanın dastan-hekayəti” (2019), “Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası” (2019) adlı folklor kitabları tərtib etmişdir. “Bizim ellər yerindəmi” (1993), “Vətən deyib gecə-gündüz ağlaram” (1993), “Aşıq sənəti” (1996), “Şah İsmayıl Xətayinin poeziyası” (2002), “Ozan-aşıq sənəti” (2003, 2007, 2011), “Sənə sözüm var” (2004), “Yağmur qoxusu” (2015), “Aşıq şeirinin poetik biçimləri və çeşidləri” (M.Allahmanlı ilə birgə) – (2018), “Azərbaycan aşıq ədəbiyyatı” (2019) “İzahlı aşıq ədəbiyyatı sözlüyü” (2019) adlı kitabları çap olunmuşdur. “Ozan-aşıq sənəti” monoqrafiyası Türkiyədə (2006) və İranda (2014) da nəşr edilmişdir. “Yağmur pıçıltısı” (Tiflis, 2017), “Taleyimdən və ürəyimdən keçənlər” (Təbriz, 2019) adlı bədii əsərləri xaricdə çap olunmuşdur. Aşıq sənətinə dair bir çox beynəlxalq layihələrin müəllifidir. “Ozan-aşıq ensiklopediyası”nın (2019) əsas müəlliflərdən biri və baş redaktorudur. 2019-cu ildə “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi” yubiley medalına layiq görülmüşdür.

QASIMOV HƏSƏN MƏMMƏD OĞLU (1912, Bakı şəhəri, Maştağa kəndi – 1977) – Bakı Pedaqoji texnikumunda oxumuşdur. Şəki, İsmayıllı,



Astraxanbazar rayonlarında, Bakının Mərdəkan və Maştağa kəndlərində müəllim, dərs hissə müdiri, direktor işləmişdir.

Xalq yaradıcılığı nümunələrinin toplanması, nəşri və tədqiqi ilə məşğul olmuşdur. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsində baş elmi işçi vəzifəsində işləmişdir. "Azərbaycan xalq ədəbiyyatında bayatıların mövqeyi" mövzusunda namizədlik dissertasiyası yazmışdır (1954). "Bayatılar" (1960), "Azərbaycan bayatıları" (Azərbaycan" jur., №8, 1970) və s. əsərləri vardır.

QASIMOV İLQAR ƏLİQULU OĞLU (1963, Salyan şəhəri – Ukrayna, Simferopol) – Orta təhsilini Ağdam rayonunun Qaradağlı kənd orta məktəbində almışdır (1981). Nizami adına Daşkənd Dövlət Pedaqoji İnstitutunun rus və Krım-tatar filologiyası fakültəsini bitirmişdir (1989). Daşkənddə "Lenin bayrağı" qəzetində müxbir (1989-1992), Bakıda "525-ci qəzet"də müxbir (1999-2000), AMEA-nın Folklor İnstitutunda Türk xalqları şöbəsində elmi işçi (2000-2005) kimi fəaliyyət göstərmişdir. Krım-tatar – Azərbaycan folklorunun müqayisəli tədqiqi ilə məşğuldur. "Krım-tatar dastanları" (2003), "Dərdli, ağrılı qardaşlarımız" (2005), "Koroğlu" (Özbək versiyası) (2009) kitabları vardır. Aşıq yaradıcılığı, Aşıq Ömərin ədəbi irsi, türk dastan yaradıcılığı ilə bağlı maraqlı araşdırmaların müəllifidir.



QASIMOV MEHBALI MEHRALI OĞLU (1937, Gədəbəy rayonu, Para kəndi) – Aşıq Pənahdan, Aşıq Kamandardan, Mikayıl Azaflıdan bəhrələnmişdir. Gədəbəy-Daşkəsən çevrəsinin sayılıb seçilən sənətkarlarındandır. Göyçə, Gəncəbasar, Şirvan və Borçalı bölgələrində məclislər aparmışdır. Dastançı aşıq kimi tanınmışdır. Repertuarında ustadların söz örnəkləri üstünlük təşkil edir. Poetik yaradıcılıqla yaxından məşğul olur. Sinədəftər söz sərrafı sayılır. "Bu dağların vurğunuyam", "Koroğlu timsallı Aşıq Mehvalı" kitabları nəşr olunmuşdur.

QASIMOV MƏQSƏD HÜSEYNALI OĞLU (1936, Akstafa rayonu, Tatlı kəndi). Erkən yaşlarından saza həvəs göstərmişdir. Dördüncü sinifdə oxuyarkən yüksək templi səsi, ifaçılığı ilə kənddəkilərin marağına səbəb olmuşdur. Bakıda gənclərin müsabiqəsində böyük alqışlarla qarşılanmış və xalq şairi S.Vurğun birincilik mükafatını ona vermişdir. Məqsəd saz çalmağı atasından öyrənmişdir. Zəngin səs tempi onu Qazax, Tovuz, Şəmkir, Gəncə və

digər rayonlarda çox tezliklə məşhurlaşdırmışdır. Sənətkarlıq qabiliyyətini yüksəltmək üçün bir neçə il Tovuz rayon mədəniyyət evinin aşıqlar ansamblında işləmişdir. Aşıq İmranın şagirdi olmuş, sənətin sirlərini ondan daha mükəmməlliklə öyrənmişdir. Bir neçə il də Aşıq Aslan Aslanova şagirdlik etmişdir. Aşıq Məqsəd Bakıda, Gəncədə və digər rayonlarda keçirilən tədbirlərdə fəal şəkildə təmsil olunmuş, istedadlı sənətkar kimi şöhrət qazanmışdır. Yüksək ifaçılıq qabiliyyətinə görə dəfələrlə mükafat qazanmışdır. Akstafa mədəniyyət evində "Dastan" ansamblının rəhbəridir.

QASIMOV MƏHƏMMƏD (ŞİRVANLI) CƏLAL OĞLU (1952, Ağsu rayonu, Ağalarbəyli kəndi-2019) – Ustad sənətkar. Orta məktəbi Ağsuda bitirmişdir (1969). Maliyyə-kredit texnikumunda təhsil almışdır (1970-1972). Aşıq sənətinə erkən yaşlarından həvəs göstərmişdir. Aşıq Əhməd Rüstəmovdan, Mikayıl Azaflıdan, Əzizxan Bəndəliyevdən sənətin sirlərini öyrənmişdir. 1971-ci ildən müstəqil aşıqlığa başlamışdır. Ağsu Mədəniyyət evində aşıqlar ansamblının rəhbəri olmuşdur (1987-2019). Beş şagird yetişdirmişdir. Yüksək ifaçılıq qabiliyyətinə görə Dağıstan Mədəniyyət Nazirliyinin fəxri fərmanına layiq görülmüşdür (1990). Beynəlxalq folklor festivalında fəxri musiqiçi diplomuna layiq görülmüşüdr (Tehran, 1994). Xalq şairi H.Arifin təşəbbüsü ilə yaranan Şirvan Aşıqlar Birliyinin rəhbəri olmuşdur (1990-2001). Ağsuda Aşıq muzeyi yaratmışdır (1990). "Dədə Qorqud" mükafatına layiq görülmüşdür (2014). 60 illik yubileyi respublika səviyyəsində keçirilmişdir. İranda, Ukraynada, Rusiyada və digər xarici ölkələrdə sazı-sözü ilə təmsil olunmuş, mükafatlara layiq görülmüşdür. "Şirvan şikəstəsi" aşıqlar ansamblının yaradıcısı olmuşdur (2001-2019). Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Fəxri mədəniyyət işçisi adına layiq görülmüşdür (2015).

QASIMOV NEMƏT YUSİF OĞLU (1972, Gədəbəy rayonu, Kiçik Qaramurad kəndi – Bakı şəhəri) – Gədəbəy aşıq ənənəsinin yetişdirdiyi sənətkarlardandır. Filologiya üzrə fəlsəfə doktorudur (2013). Ziyalı ailəsində anadan olmuşdur. 1979-1989-cu illərdə orta təhsil almışdır. Bakıda texniki peşə məktəbində təhsilini davam etdirmişdir. Azərbaycan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun mədəni-maarif fakültəsində rejissorluq ixtisasına yiyələnmişdir. Erkən yaşlarından saz çalmağa maraq göstərmişdir. Nemət Qasımov "Gənc istedadlar axtarırıq" müsabiqəsinin qalibi olmuş, laureat adı qazanmışdır (1996). Müsabiqələrdə ifa bacarığına görə fərqlənmişdir. Q.Qarayev adına 8 nömrəli musiqi məktəbində sazdan dərs deyir (1993-cü ildən). Gənc ifaçılardan ibarət sazçı qrupun rəhbəridir (2014).

ADMİU-da aşıq sənəti ixtisası üzrə müəllimdir. Beynəlxalq və respublika səviyyəli müsabiqələrdə mükafatlar qazanmışlar. UNESKO xətti ilə Paris, Strasburq, London, Seul, İstanbul və başqa mədəniyyət mərkəzlərində konsertlər vermişdir (2008-2019). Klassik saz havalarının mahir ifaçısıdır. Əməkdar mədəniyyət işçisidir (2011). Aşıqlar Birliyinin İdarə heyətinin üzvü və bədii şurasının həmsədridir.

QAŞKƏNDLİ ABDULLA (XIX əsr, Şamaxı qəzası, Bico kəndi) – Yaradıcı sənətkar olmuşdur. Şirvan aşıq mühitinin inkişafında rolu böyükdür. Usuflu tayfasındandır. El arasında Qaşkəndli Aşıq Abdulla kimi tanınmışdır. XVIII əsrdə Bico kəndində yaşamış Aşıq Sultanın nəvəsidir. Gəncliyindən hazırcavablığı, baş verən hadisələrə fəal münasibəti, yaradıcı təbiəti ilə seçilmişdir. Onun şeirlərində ictimai-siyasi hadisələrə fəal münasibət duyulur. Mövzu və forma baxımından yaradıcılığı zəngindir. "Gedibdir", "Hərami", "Qıjhaqıj" və s. şeirləri Aşıq Abdullanın istedadının göstəricisidir. Şirvanda, ətraf bölgələrdə məclislər aparmış, ustad kimi məşhurlaşmışdır.

QAŞQAY AŞIQ MÜHİTİ – Güney mühitləri arasında aşıqlığın təkkə kökənindən daha çox aşıqlaşmış ozanlar qanadına bağlı olan bir mühit mövcuddur: Qaşqay aşıq mühiti. Bu mühitdə aşıqlar, adətən, bir yerdə dayanaraq (çox zaman bardaş qurub otururaq) çalıb-oxuyurlar. Aşığın musiqi aləti setardır. Keçmiş aşıqlar "çaqur" çalarmış. Aşığı ney və dümbəkçalan müşayiət edir. Bir sıra müasir ifaçılar skripka və violadan da istifadə edirlər. Qaşqay setarları fars setarlarından fərqlidir. Zil köklərdədir, mizrabla çalınır. Onların repertuarında fəlsəfi-ürfani səciyyə daşıyan söz və musiqi yükü cüzi yer tutur. Bu mühitdə xalq mahnıları tərzində olan oynaq el nəğməçiliyi repertuarın aparıcı axarını təşkil edir. İndi də atlı həyat tərzi keçirən Qaşqay tayfalarının məskunlaşdığı geniş Qaşqay-Şiraz (burada dörd milyona yaxın qaşqay türkü məskundur) regionunda aşıq sənətinin saz bəstəsi üzərində el nəğməçiliyi olması etnik-mənəvi yaşam biçimindən irəli gələn təbii - tarixi qanunauyğunluqdur. Qaşqay aşıqlarının ifaçılıq baxımından Xorasan aşıqlarına və türkmən baxşılarına bənzərliyi çoxdur.

Qaşqay aşıqlarının repertuarında "Koroğlu" dastanı və "Koroğlu" havaları xüsusi yer tutur. Tərəkəmə-elat həyatı keçirən, cəsurluğu, bahadırlığı ilə məşhur olan qaşqayların ruhunda koroğluluğun olması oradakı aşıqlığa da təbii şəkildə sirayət etmişdir.

Savə aşıqlığının ərsəyə gətirdiyi "Telimxan və Şahsənəm" məhəbbət dastanı başda olmaqla, "Əsli və Kərəm", "Qərib-Sənəm", "Tahir-Zöhrə", "Şah İsmayıl-Gülzar" dastanları da qaşqay aşıq repertuarının əsas yüküdür.

Qaşqay aşıqlığı Davud Nəkisə ailə ocağından olan neçə-neçə ustad aşıqla şöhrətlənmişdir. Onlardan əlavə, Məmmədhüseyn Kəyani, Həbib Görkinpur, Məhəmməd Bəhməni, Allahqulu Görkinpur, Qulaməli Görginpur, Mustafa Görkinpur və başqa saz-söz ustaları sözügedən mühitdə sənət ənənəsini yaşatmaqdadırlar.

"QATAR-BAYATI" – kiçik həcmli muğam. «Qatar» və «Çoban bayatı» havasının birləşməsindən yaranmışdır. "Qatar-bayatı" aşıq havası olan «Çoban bayatı»nın kadensiyaları ilə tamamlanır.

QAYABAŞILI MUXTAR NƏSİR OĞLU (1980, Qaradağ mahalı, Böyük Qayabaşı kəndi) – Təbriz-Qaradağ aşıq

mühitinin nümayəndəsidir. Borçalı ifaçılıq məktəbinə məxsus oxu və çalğı ənənələrini ustalıqla daşıyır. Ustad sənətkar Sədaqət Gəncəyinin yanında şagird olmuşdur. On altı yaşından aşıqlığa başlamışdır. Təbriz-Bakı aşıqlarının birgə müsabiqəsinin diplomunu almışdır (2008). Beynəlxalq Folklor və Aşıq Festivallarında yüksək səviyyəli ifasına görə mükafatlandırılmışdır. Ustad aşıq Aslan Kosalının anadan olmasının 80 illiyində qızıl medala layiq görülmüşdür (2015). Zil, şaqraq səsə malikdir. Otuzdan çox dastan bilir və yetmişdən yuxarı saz havasını məharətlə ifa edir.

QAYDA – saz havalarına verilən arxaik adlardan biri. Yaxın keçmişə qədər ustadlar saz havalarını "qayda" termini ilə ifadə etmişlər. Məsələn, "Kərəm" qaydası, "Dilqəmi" qaydası, "Dübeyti" qaydası, "Ruhani" qaydası və s. Hazırda bu folklor deyimi arxaikləşmiş və onun yerini "hava" adı tutmuşdur. "Dilqəmi" havası, "Ruhani" havası", "Koroğlu" havası və s.

QAYIBOV HÜSEYN ƏFƏNDİ (1830, Qazax rayonu, Salahlı kəndi – 1917, Tiflis) –



Maarifçi ziyalı. 1881-ci ildən ömrünün sonuna qədər Zaqafqaziya müftisi olmuşdur. Dövrünün görkəmli maarifçiləri, o cümlədən M.F.Axundzadə, İ.Çavçavadze ilə dostluq əlaqələri varmış. Qori Müəllimlər seminariyasında Azərbaycan şöbəsinin açılmasının təşəbbüskarlarından olan H.Ə.Qayıbov bir müddət orada dərs demişdir. Dörd cilddən ibarət "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı antoloji toplu ədəbiyyat tarixini, klassik ədəbiyyatı öyrənmək üçün əsaslı mənbədir. Məcmuədə XVIII-XIX əsrlərdə yaşayıb- yaratmış yüzdən çox sənətkar haqqında məlumat verilir. Aşıq sənətinin XVIII əsrdə yaşamış nümayəndələri – Aşıq Valeh, Aşıq Qənbər və başqa sənətkarlar haqqında verilən məlumatlar, eləcə də xalq şeiri üslubunda yazan sənətkarlar haqqındakı informasiyalar, yaradıcılıqlarından təqdim edilən seçkin nümunələr aşıqşünaslıq üçün mühüm əhəmiyyət daşıyır.

QAYNATMA – aşıq musiqi termini (boğaz qaynatması). Aşığın oxuduğu trel tipli, davamlı şəkildə səslənən səciyyəvi ifa üsulu. Daha çox kulminasiya bölmələrində oxunur və bəzək elementi kimi istifadə olunur. Ustad aşıqların tez-tez diqqət önünə çəkdikləri "Səs gənzikdə qaynamalıdır" ifadəsi bu ifa üsuluna işarədir.

QEYBDƏN XƏBƏR VERƏN – "qeyri-adi qabiliyyətə malik olan, adi insanlardan fərqli olaraq baş verəcəklərdən xəbərdar ola bilən" anlamındadır. Xalq ədəbiyyatında, dastanlarda belə epizodlar lazımı qədər vardır. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarının müqəddiməsində Dədə Qorqudla bağlı təsvirlərdə qeybdən xəbər vermə bütün təfərrüatı ilə nəzərə çarpır. "Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə olardı, qayibdən dürlü xəbər söylərdi. Allahtaala onun könlünə ilham edərdi". Türk şamançılığında hadisələri önləmək, gələcək bəlaların qarşısını almaq da eyni xətdə dayanır. Aşıq yaradıcılığındakı çeşidli epik mətnlərdə, o cümlədən də məhəbbət dastanlarındakı buta motivində də bu keyfiyyət özünü göstərir. Məsələn, "Abbas və Gülgəz", "Aşıq Qərib", "Tahir və Zöhrə", "Əsli və Kərəm" dastanlarında qəhrəmanların buta alandan sonra düşdükləri vəziyyət, onların sınaqdan keçirilməsi zamanı hadisələri öncədən görüb qabaqlaya bilməsi bacarığında da bu cəhət özünü göstərir. Sufi şeyxlərində, pirlərdə də qeybdən xəbər vermə bacarığı olmuşdur. Bəsirət gözü ola bilmək anlamını daşıyır.

QƏDİROV BƏYLƏR RƏŞİD OĞLU (1914, Salyan rayonu, Çuxanlı kəndi – 1991) – Şirvan aşıq mühitinin ustad sənətkarlarındandır. Erkən yaşlarından şeirə, sənətə həvəs göstərmişdir. Bu maraq onu aşıqlığa gətirib çıxarmışdır. Aşıq Abbasqulu, Aşıq Mirzə Bilal, Aşıq Qurban Sadıqov kimi sənətkarların təsirində aşıqlığı öyrənmişdir. Keçən əsrin 30-cu illərinin əvvəllərində Şamaxılı Aşıq Abbas Söhbətovun yanında şagird olmuşdur. Saz havalarını,

klassik aşıqların yaradıcılığını, dastanları ustadından böyük məharətlə öyrənmişdir. Muğam sənətinin incəliklərinə də kifayət qədər dərindən bələd olmuşdur. Salyanda və Şirvanın, Muğanın oymaqlarında məclislər aparmış, çalıb-oxumuşdur. 1937-ci ildən Aşıq Bəylər özü də aşıq dəstəsi yaratmışdır. II Dünya müharibəsində iştirak etmiş və yaralanmışdır. Şirvan aşıq mühitinin zənginləşməsində mühüm xidmətləri olmuşdur. Şakir Hacıyev və Pənah Pənahovla birlikdə beynəlxalq tədbirlərdə uğurlu çıxışlar etmişdir. "Peyvənd şikəstə", "Kərəmi", "Peşrov", "Gəraylı" və s. aşıq havalarının mahir ifaçısı olmuşdur. "Bəylər gözəlləməsi" ("Kəndimiz") havasının bəstəçisidir. Aşıq sənətinin sirlərini şagirdlərinə öyrətməyə çalışmışdır. Rza Məmmədov, Mirzəli Şirvanlı, Aslan Muğanlı, Vahab Ağababa onun şagirdləri olmuşlar. Azərbaycan radiosunun qızıl fondunda unudulmaz ifaları qorunur. Aşıqların II və III qurultaylarının iştirakçısı olmuşdur.

QƏHRƏMAN – dastan obrazı kimi aparıcı mövqedə dayanır. Bütün hadisələr onun ətrafında baş verir. Xalq dastanları qəhrəman baxımından kifayət qədər zəngindir. Qəhrəmanların simasında xalqın mübarizliyi, vətən, torpaq,

yurd sevgisi, gücü, qüdrəti, mənəvi dəyərləri, yenilməzliyi ümumiləşir. Məhz dastanlar öz strukturu, mahiyyəti, forma ünsürləri, bütünlükdə komponentləri ilə həmin düşüncəyə yüklənir. Azərbaycan ədəbiyyatında (həm şifahi, həm yazılı ədəbiyyat nəzərdə tutulur) qəhrəman bir obraz kimi əsərin bütünlükdə ideyasının daşıyıcısı, hadisələrə istiqamət verən, məsələləri öz keyfiyyət dəyərləri ilə hamıdan daha yaxşı, daha düz edə bilən, ən yaxşı variantı seçə biləndir. Qəhrəmanlıq və məhəbbət dastanlarımız dastan qəhrəmanlarının mahiyyətini açmaq baxımından kifayət qədər zəngindir. "Oğuz Kağan", "Manas", "Alpamış" "Kitabi-Dədə Qorqud", "Corabatır" ,"Edige", "Koroğlu", "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Aşıq Qərib", "Valeh və Zərnigar" və s. müxtəlif müstəvilərdə qəhrəman problemini izləmək üçün əsas verir.

Dastanlar üçün xarakterik və ənənəvi görünən xüsusiyyət dastan adlarının qəhrəmanların adına bağlı olmasıdır. Göründüyü kimi, yuxarıda adlarını qeyd etdiyimiz dastanlar qəhrəmanların adı ilə adlanır. Ona görə də dastan ənənəsində qəhrəmanların həyatı və bütünlükdə fəaliyyəti bir bütöv kimi təqdim edilir. Onların bir növ həyatı amal və məqsədləri fonunda axıra qədər izlənir. Məhəbbət dastanlarında bir bütövlük var və bu bütövlük qəhrəmanın anadan olub ailə qurması, toyuna qədər olanları əks etdirir. Qəhrəmanlıq dastanlarında qəhrəmanın bütövlüyü bütünlükdə qəhrəmanın həyatını izləyir. Ona görə də dastan ənənəsində qəhrəman problemi kifayət qədər ciddi, həm də əhatəlidir.

QƏHRƏMANIN DOĞULUŞU – qəhrəmanın dünyaya gəlişi hadisəsidir. Şifahi düşüncədə, dastan yaradıcılığında, eləcə də digər epik təhkiyədə mühüm məsələlərdəndir. "Kitabi-Dədə Qorqud", "Əsli və Kərəm", "Tahir-Zöhrə", "Şah İsmayıl və Gülzar", "Novruz və Qəndab" və s. dastanlarda qəhrəmanın doğuluşu bir motiv kimi bənzər əlamətlərlə təzahür edir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarında "Dirsə xan oğlu Buğacın boyu"nda Dirsə xanın övladı olmur. Bayındır Xanın məclisində onu qara otaqda oturdurlar. Dirsə Xan arvadı Xan qızının yanına gəlir və övladsızlığının səbəbini ondan soruşur: "Tanrıtaala bizə bir yetman oğul verməz. Nədəndir?

Dirsə xanın xatununa qəhər gəldi, söyləmiş, görəlim, xanım, nə söyləmiş:

– Mənə qəzəb etmə! İncinib acı sözlər söyləmə! Yerindən uru durğıl! Ala çadırın yer üzündə dikdirgil! Atdan ayğır, dəvədən buğra, qoyundan qoç öldürgil! İç Oğuzun, Daş Oğuzun bəylərin üstünə yığnaq etgil! Ac gördün, doyurğıl, yalıncıq gördün, donatğıl! Borcluyu borcundan qurtargil! Ulu toy eylə! Hacət dilə! Ola kim, bir ağzı dualının alqışı ilə Tanrı bizə bir yetman əyal verə". Dastanlardan göründüyü kimi, qəhrəmanın doğuluşu nəzir-niyazla, borclunu borcundan qurtarmaqla, ac qarınlar doydurmaqla baş verir. "Baybura oğlu Bamsı Beyrək boyu"nda da eyni mənzərənin şahidi oluruq. Dastanlarımızda övladsızlıq, nəzir-niyazla qəhrəmanın doğuluşu bir xətt kimi qəhrəmanlıq və məhəbbət dastanlarında özünü göstərir. Məsələn, "Novruz və Qəndab" dastanında deyilir: "Diyarbəkirdə Kərim adlı bir paşa var idi. Paşanın varı, dövləti həddən

ziyadə idi. Amma sinni keçmişdi, hələ bir övladı yoxdu. Kərim paşa mahalın ağsaqqal, qarasaqqalının tədbirinə görə dövlətinin yarısını fağır-füqəraya payladı ki, bəlkə, Tanrının ona rəhmi gəlib bir övlad verə. Günlər, aylar keçdi, Paşanın bir qəşəng, göyçək oğlu oldu". Bütün bunlar, qəhrəmanın nəzir-niyazla dünyaya gəlişi onların fərqli həyatından, böyük çətinliklərdən keçməklə uğurlara imza atmasından xəbər verir. Nəzir-niyazla doğuluş qəhrəmanın fərqli həyatının xəbərdarlıq motividir.

QƏHRƏMANLIQ DASTANLARI – igidlik, qəhrəmanlıq mövzusunda xalqların yaratdığı epik hekayətlərdir. Qəhrəmanlıq dastanları xalqın müxtəlif dövrlərdə azadlıq, vətən uğrunda apardığı mübarizəsi, qəhrəmanlığı, azad sevgi uğrundakı əzabları ilə bağlı yaranıb formalaşmışdır. Türkdilli xalqlarda dastan yaradıcılığının qədim və zəngin ənənələri olmuşdur. Hələ islamdan qabaqkı dövrlərdə türkdilli xalqlar «Əfrasiyab», «Şu», «Göy türk», «Oğuz Kağan», «Boz qurd», «Törəyiş», «Köç» və s kimi dastanlar yaratmışlar. Bu qədim bahadırlıq dastanlarında alp-ərənlərin müharibələrdə iştirakı, göstərdikləri rəşadət vəsf olunmuşdur. Əfrasiyabın türk adı Alp Ər Tonqadır. Xalq içərisindən çıxmış qəhrəmanların göstərdiyi igidlik və şücaət, doğma vətəni qorumaq üçün yadelli işğalçılara, yerli istismarçılara qarşı mübarizə qəhrəmanlıq dastanlarının başlıca ideyasını təşkil edir. «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Molla Nur», «Qaçaq Nəbi», «Qaçaq Kərəm», «Səttarxan» və s. dastanlarımız buna yaxşı nümunədir. Bu dastanların hər birində Azərbaycan xalqının tarixinin bu və ya digər dövrü özünəməxsus şəkildə öz bədii əksini tapmışdır. Məsələn, «Kitabi-Dədə Qorqud»da VI-VIII əsrlərin, «Koroğlu»da XVI-XVII, «Səttarxan», "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qandal Nağı", «Səməd bəy» dastanlarında isə XIX əsrin sonu XX əsrin əvvəllərində xalqımızın tarixində baş verən hadisələr dastançılıq ənənələrinə uyğun şəkildə təsvir edilmişdir. Qəhrəmanlıq dastanlarında xalqın həyatı, ailəməişəti, sevgisi, məhəbbəti və s. geniş bədii lövhələrdə əks olunur. Bu cəhətdən «Kitabi-Dədə Qorqud» və «Koroğlu» dastanları dəyərli tarixi, elmi, etnoqrafik əhəmiyyətə malikdir.

Azərbaycan xalqının zəngin dastan yaradıcılığı müəyyən dərəcədə tədqiq olunmuşdur. Diqqət edilərsə, bu tədqiqatlarda əsas yer orta əsrlərə verilmişdir. Türk epos yaradıcılığını əsas üç mərhələyə bölmək olar: qədim bahadırlıq dastanları, orta əsr dastan yaradıcılığı və nəhayət, yeni dastanlar. Qədim türk dastanlarının tədqiqi çox çətindir. Ona görə ki, çox qədim dövrə aid olduğu üçün onlar, demək olar ki, əldə edilməmiş, bir sıra dastanlar tamamilə unudulmuş, bəzi dastanların isə yalnız hissəcikləri qalmışdır. Ancaq unutmaq olmaz ki, bahadırlıq dastanları kökdür, özüldür, əsasdır. Onlar nə qədər tapılıb üzə çıxarılacaqsa, bir o qədər də bahadırlıq ənənələri aşkarlanacaq və onların sonrakı inkişafı daha dəqiq izlənəcəkdir. Dedik ki, bahadırlıq dastanları çox az gəlib bizə çatıb, bəzilərinin adları var, özlərindən hissələr isə yoxdur. Məsələn, Böyük Turan oğlu Əfrasiyaba həsr olunan dastanın özü gəlib bizə çatmamışdır. Onun ölümünə xalqın oxuduğu ağılar isə Mahmud Kaşğarinin «Divani-lüğət-it-türk»

əsərində saxlanmışdır. Dastan haqqında məlumatı isə Firdovsi «Şahnamə» əsərində nəql eləmişdir. Əlbəttə, Əfrasiyab haqqında olan dastanın özü yox, Firdovsinin poemasında nəqli bizə gəlib çatmışdır. Bu, qədim türk bahadırlıq dastanlarının tarixlə əlaqəsidir. Çox zaman ayırd etmək olmur ki, bu, dastandır, yoxsa tarixi hadisələr nəql edilir. Bu cəhəti biz «Şu», «Əfrasiyab», «Köç», «Törəyiş» və başqa dastanların məzmununda da görməkdəyik. Bu onu göstərir ki, ümumiyyətlə, türk dastan yaradıcılığı nə dərəcədə tarixi hadisələrlə bağlıdır. Əlbəttə, qəhrəmanlıq dastanlarını nəzərdə tuturuq. Hələlik bizə aşağıda adları çəkilən türk bahadırlıq dastanları məlumdur: «Şu», «Alp Ər Tonqa» (Əfrasiyab), «Oğuz Kağan», «Boz qurd», «Törəyiş», «Köç» və başqa dastanlar. Əlbəttə, bizim folklorşünaslığımızda bu dastanlar öyrənilməmişdir. Heç qəhrəmanlıq dastanlarımızla müqayisə edilməmişdir. Bir də ona görə ki, əlimizdə olmamışdır. Elə bil, həmin dastanların müəyyən hissəcikləri müxtəlif kitab və lüğətlərə düşmüşdür. Məsələn, «Oğuz Kağan» dastanı, «Oğuznamə»lərdə, xüsusilə uyğurların «Oğuznamə»sində saxlanmışdır.

Azərbaycan dastanının çiçəkləndiyi dövr orta əsrlərdir. Orta əsrlərin ilk dövrü «Kitabi-Dədə Qorqud»un formalaşdığı bir zamandır. Xüsusilə XVI-XVIII əsrlər Azərbaycan dastanının ən çox inkişaf etdiyi, şaxələndiyi bir dövrdür. Həm qəhrəmanlıq və həm də məhəbbət dastanları çox geniş surətdə və sürətlə yayılır. İbrətamizdir ki, həm yeni-yeni dastanlar meydana gəlir və həm də müxtəlif dastanlar yeniləşir, dövrün hadisələrinə uyğunlaşdırılırdı. Əlbəttə, orta əsrlər Azərbaycan dastan yaradıcılığının inkişafını şərtləndirən cəhətlərdən birisi və birincisi aşıq sənətinin çiçəklənməsilə bağlı idi. Vaxtilə ozanlar çoxlu bahadırlıq dastanları düzəltmişdilər. Alplar, qəhrəmanlar, Ərənlər tarixin səhifələrindən götürülüb bədii boyalarla şöhrətlənir, vəsf olunurdu. Orta əsrlərin sonrakı dövrlərində ozanlar aşıqlarla əvəz olunur, aşıq sənəti çiçəklənir, onun məşhur nümayəndələri yetişir. Əlbəttə, aşıqların içərisində keçmişdə boy boylayan, söz söyləyən ozanların ənənələrini yeni dövrdə inkişaf etdirən sənətkarlar var idi. Bunlar dastançı aşıqlar idi. Həmin dastançı aşıqlar aşıq şeirinin digər şəkillərilə bərabər dastanlar da düzüb qoşurdular. Həmin dastanlar isə tam mənası ilə qədim türk dastançılıq ənənələri üzərində boya-başa çatırdı. Doğrudur, bizim qədim dastanların orta əsrlərdə ifası haqqında hələlik məlumatımız yoxdur. Ancaq orta əsr dastanları üzərində aparılan ilkin müşahidələr göstərir ki, onlar qədim türk dastanlarının ənənələri üzərində nəşət tapırdı. Sözün həqiqi mənasında, ən çox tədqiq olunan, araşdırılan məhz orta əsrlər dastanlarıdır. Həm toplanma, həm nəşr və həm də öyrənilməsi sahəsində son illər çox böyük işlər görülmüşdür. Azərbaycan dastan yaradıcılığının üçüncü mərhələsi yeni dövrdür. Bu dövr XIX əsri, XX əsrin əvvəlləri və müasir dövrü əhatə edir. Eramızdan əvvəl başlayan Azərbaycan dastan yaradıcılığı müasir dövrümüzdə də davam etməkdədir. Bu, həm qəhrəmanlıq və həm də məhəbbət dastanlarına aiddir. XIX əsrdə qəhrəmanlıq dastanlarımız xüsusi bir mərhələyə düşüb. Tarixi hadisələrlə əlaqədar olaraq qəhrəmanlıq dastanları da yaranıb yaşamağa başlayır. XIX əsrdə Azərbay-

canda tarixi şəraitlə bağlı olaraq «qaçaq» nəğmələri yaranır. Bu nəğmələr çar zülmünə və yerli xan və bəylərin özbaşınalığına qarşı çevrilən xalq etirazlarının bədii ifadəsi kimi meydana gəlmişdi. Kəndli kütlələri içərisindən el qəhrəmanları çıxır, onlar başına adamlar toplayaraq dağlara çəkilir və partizan mübarizəsi aparırlar. Belə qaçaqlar bütün XIX əsr boyu fəaliyyət göstərmişlər. Adıgözəl, Yarəli, Qandal Nağı, Dəli Alı, Şəkili Məmməd, Qaçaq Tanrıverdi, Kərəm, Nəbi və başqaları, onların mübarizəsi haqqında ilkin meydana gələn mahnılar və nəğmələr sonralar dastana qədər inkişaf edir. Belə dastanlardan: «Qaçaq Tanrıverdı», «Qandal Nağı», «Qaçaq Kərəm», «Qaçaq Nəbi» və başqaları xalq içərisindən toplanıb bir neçə dəfə çap edilmişdir.

QƏHRƏMANOV CƏLAL MƏHƏMMƏD OĞLU (1928, Qazax rayonu, Kəmərli kəndi – 1978) – Yaradıcı

aşıq olmuşdur. Orta təhsil almışdır. Aşıq sənətinə böyük həvəs göstərmişdir. Aşıqlığın sirlərini də İncə dərəsində ustad sənətkar Aşıq Avdı Qaymaqlıdan öyrənmişdir. Aşıq şeirinin müxtəlif şəkillərində qoşma, gəraylı, divani, təcnisləri vardır. "Calaloğlu" saz havasını da yaradıcısı Aşıq Cəlal Qəhrəmanovdur. Aşıqların III Qurultayının iştirakçısı olmuşdur (1961). "Sədəfli saz, məni dindir" adlı şeirlər kitabı çıxmışdır (1992). Qazax, Borçalı, Tovuz, Şəmkir, Gəncə və digər bölgələrdə məclislər aparmış, bir ustad kimi şöhrətlənmişdir. Özünəməxsus ifa tərzi, xüsusi üsluba malik çalğısı ilə həmişə diqqət mərkəzində olmuşdur. Aşıq Avdı, Aşıq Kamandar, Aşıq Sadıq Avdı oğlu kimi ustad sənətkarlarla deyişmələri vardır. Aşıq Cəlal Qəhrəmanovun həyat və yaradıcılığının mühüm bir hissəsini əks etdirən "Qaratel və Aşıq Calal" dastanı yaranmışdır. Aşıq Avdı Qaymaqlı onun istedadını, sənət qüdrətini "bu saray bir də yapılmaz" deyə qiymətləndirirdi. M.Allahmanlı, A.Rüstəmli, İ.Qəsəbova, A.İmranqızı onun həyat və yaradıcılığını əks etdirən məqalələr yazmışdır. Aşıqlar Birliyi onun 90 illik yubileyini keçirmiş və bu münasibətlə haqqında "Aşığın sənət yolu" kitabı (2018) nəşr olunmuşdur.

QƏHRƏMANOV İLHAM (İLHAM QƏHRƏMAN) UMUD OĞLU (1959, Laçın rayonu, Sus kəndi-Bakı) – Sarı Aşıq və Qızılvəngli Aşıq Alı ədəbi risinin toplayıcısı. Şair, publisist. Azərbaycan Yazıçılar Birliyinin üzvü. Bakı maliyyə-kredit texnikumunu bitirib (1983). Aşıq şeiri üslubunda çeşidli poetik nümunələri vardır. "Gülüm yarpıza döndü" (1999), "Ağlama, qu quşu" (2002), "Ey dil" (2006), "Ağlama, qələm eşidir" (2018) şeir kitabları nəşr olunmuşdur. Laçın folklorunun toplanması və nəşri sahəsində də gərəkli işləri vardır. "Laçın folkloru" (2009), "Laçın lətifələri" (2013) adlı topla-



ma-tərtibləri çapdan çıxmışdır. Sarı Aşıq ədəbi irsinin toplayıcısı kimi daha çox tanınır. "Gül dəstəsi" (2011, 2018) toplusunda Sarı Aşığın bayatıları, müxtəlif ölçülü şeir örnəkləri, bağlama-qıfılbəndləri, haqqında el arasında yayılan rəvayətlər toplanıb nəşr edilmişdir.

QƏHRƏMANOV ŞÖHRƏT CƏLAL OĞLU (1954, Qazax rayonu, Kəmərli kəndi – 2014) – Şöhrət Cəlaloğlu

adı ilə tanınır. Ustad sənətkar Aşıq Cəlal Qəhrəmanovun ailəsində anadan olmuşdur. Kəmərli kənd orta məktəbində təhsil almışdır. ADU- nu bitirmişdir (1976). Erkən yaşlarından saza, sənətə həvəs göstərmişdir. Atası Aşıq Cəlal Qəhrəmanovun vəfatından sonra (1978) onun sənət yolunu davam etdirmişdir. Türk xalqlarının Gəncədə keçirilmiş III Dastan müsabiqəsinin qalibi olmuşdur (1995). "Bizim ellər yerindəmi" (1998), "Yurd yerində axtar məni" (2003), "Bir ömür yaşadım" (2013) kitablarının müəllifidir. "Mən aşıq İncədənəm" (1998), "Sədəfli saz, məni dindir" (1992) kitablarının tərtibçisidir. Xəstə Qasım, İbrahim ağa Məsum, Aşıq Ələsgər və başqa sənətkarların ictimaiyyətə məlum olmayan bir neçə şeirini toplayıb çap etdirmişdir. Qaçaq Kərəmlə, İncəli İsmayılla bağlı xalq arasında yaşayan hadisə və əhvalatları toplamışdır. Aşıqların IV və V qurultaylarında iştirak etmişdir. Aşıqlar Birliyinin və Yazıçılar Birliyinin üzvü olmuşdur. Şeirlər kitabı nəşr olunmuşdur (1998).

QƏMBƏR GÜLABLI (XVIII əsrin sonu, Ağdam rayonu, Gülablı kəndi – XIX əsrin birinci yarısı) – Qarabağ aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Abdalgülablı Aşıq Valehin şagirdi olmuşdur. Ustadı Aşıq Valehlə deyişmələri vardır. Mənbələrin qeyd etdiyinə görə, hətta Aşıq Valehin qohumu olmuşdur. Aşıq Valehin Kərbəla ziyarətinə getməsini əks etdirən "Kərbəlayi müəllanı gördünmü" misralı şeirini yazmışdır. Xalq şeiri üslubunda, klassik üslubda şeirləri vardır. F.Köçərli, M.M.Nəvvab, M.Müctəhidzadə, M.Allahmanlı Aşıq Qənbərin həyatı və sənəti haqqında fikirlər söyləmiş, şeirlərini mühit səviyyəsində təhlil etmişlər.

QƏNBƏRİ AYƏT İBRAHİM OĞLU (1966, Qaradağ mahalı, Əhər, Git kəndi – Təbriz) – Təbriz-Qaradağ

aşıq mühitinin nümayəndəsidir. 17 yaşından aşıqlıq edir. Bir neçə ustaddan faydalanıb. Əsas ustadı qardaşı Aşıq İsmayıl Qənbəri və Çingiz Mehdipur olmuşdur. Onlardan aşıq sənətinin sirlərini, ustadların yaradıcılığını öyrənmişdir. Təbrizdə yaşayır. Orada aşıqların toplaşdığı və onun adına bağlı "Ayət Qənbəri çayçısı" vardır. Bu çayçı Təbrizdə əsas saz-söz məclislərindən biri kimi tanınır. Ayət Qəmbəri Azərbaycan aşıqlarının V Qurultayına

fəxri qonaq kimi dəvət olunmuşdur (2008). Çağdaş güney aşıqlığında tanınmış saz-söz sənətkarlarındandır.

QƏNİYEV RZA HÜSEYN OĞLU (1907, Borçalı mahalı, Böyük Muğanlı kəndi – 1964) – Borçalı aşıq mühitinin yetişdirdiyi ustadlardandır. Əmisi oğlu ustad Aşıq Xındı Məmməddən sənəti öyrənmişdir. Şair Ağacanın yanında da şagird olmuşdur (1944-1946). Bir sənətkar kimi formalaşdıqdan sonra müstəqil aşıqlığa başlamışdır. Borçalıda, Qazaxda, Tovuzda məclislər keçirmiş, istedadlı sənətkar kimi tanınmışdır. "Şair Ağacan" dastan-rəvayətinin yayılmasında onun söyləmələrinin mühüm rolu olmuşdur. Dastan ifaçısı kimi şöhrətlənmişdir.

QƏNİYEV SEYFƏDDİN HƏMZƏ OĞLU (1952, Şamaxı rayonu, Dağ Kolanı kəndi-Bakı) – ADPU-nun filologiya fakültəsində təhsil almışdır (1970-1974). Şamaxı rayonunun Göylər kəndində müəllim işləmişdir. ADPU-nun aspiranturasında təhsil almışdır. "M.F.Axundovun "Kəmalüddövlə məktubları" əsərinin bədii metod və janr xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1992). Müəllimlər İnstitutunun Şamaxı filialında Dilçilik və ədəbiyyat tarixi kafedrasının müdiri, prorektor işləmişdir. AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisidir. "Aşıqlar və el şairləri" (1993), "Şirvan aşıqları" (1993), "Şirvan şairləri" (1994), "Bu yol Şirvan yoludur" (1994), "Şirvan folklor antologiyası" (1994), "Övliyalar, ziyarətgahlar, müqəddəslər və din xadimləri" (1995), "Şirvanın qadın şairləri" (1996), "Şirvan folklor mühiti" (1997), "XX əsr Şirvan aşıqları" (1997), "Şirvanın 350 şairi" (1999), "Adım Aşıq Şakir, mahalım Şirvan" (2001), "Şirvanlı Aşıq Mirzə Bilal" (2003), "Şirvanlı Aşıq Musa" (2004) və s. toplu və tədqiqləri vardır. "Şirvan folklor mühiti" (1997), "XX əsr Şirvan aşıqları" (1997), "Aşıq şeirinin poetikası (1999), "Dağ Kolanı – elim mənim" (2001), "Şirvanlı Aşıq Mirzə Bilal" (2003), "Şirvanlı Aşıq Xanmusa" (2004), "Şirvanlı Aşıq Hacalı" (2005) və s. tədqiqat əsərlərinin müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999), Azərbaycan Aşıqlar Birliyinin üzvü (1999), filologiya elmləri doktoru (2000), Qabaqcıl maarif xadimidir (1992) . Şirvan aşıq mühitinin tədqiqatçısıdır.

"QƏRİBİ" – aşıq havası. "Aşıq Qərib" dastanı ilə bağlı olaraq yaranmışdır. Baş pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını "Gəraylı" xalq şeir forması təşkil edir. Ağır kədər və hüzn ovqatlı lirik havadır. Dəqiq metr-ritmik ölçüyə malikdir və "mahnıvarı" havalar qrupuna aiddir. Geniş instrumental girişlə başlayır. İmpuls-səs olan şah pərdədən başlanğıc götürür. İki əsas mövzu-

dan ibarət olaraq harmonik məqamın pillələri üzərində inkişaf edir. Vokal melodiya kiçik həcmli olaraq ənənəvi trixord intonasiyası üzərində yaranmışdır – şah pərdə-orta pərdə-baş pərdə. Məqam-səs-sistemi Segaha uyğundur. Misralar qoşa şəkildə ifa olunaraq araçalğılarla bir-birindən ayrılır. Son melomisra təkrarlar və yardımçı ifadələr vasitəsilə genişlənir. İnstrumental intermediyalar daha qısahəcmli olaraq girişin mövzularının güzgülü səslənməsi əsasında yaranır. III melobənd havanın kulminasiya nöqtəsini özündə daşıyır və artıq instrumental musiqidə səslənərək əldə edilən kök pərdə zilinə istinad edir. N.Bağırov tərəfindən saz və f-no üçün nota yazılmışdır. Yazıda poetik mətnin melodeklamasiya bölmələri də qeyd olunmuşdur.

QƏRİBLİK MOTİVİ – folklor düşüncəsində özünə geniş yer almış motivlərdəndir. Qəhrəman hadisələrin gedişində qərib ölkələrə düşür. Öz amalının, məqsədinin, butasının arxasınca uzaq səfərlərə çıxmaq məcburiyyətində qalır. Dünya dastan ənənəsində qəribliklə bağlı kifayət qədər nümunələr vardır. Məsələn, Homerin "Odisseya" əsərində, "Kitabi- Dədə Qorqud" dastanlarında, "Aşıq Qərib" dastanında əsərin əsas ideyası qəribliyə hesablanır. "Kitabi-Dədə Qorqud" dastanında Oğuz elinin qəhrəmanı Boz atlı Beyrəyin on altı il qəriblik həyatı yaşaması ciddi xalq ümumiləşdirmələrinin nümunəsidir. Qəriblikdə bəzirganlarla qarşılaşan Beyrəyə bəzirganların cavabı qəriblik motivini bütün təfərrüatı ilə özündə ifadə edir. "Sağmısan, əsənmisən, canım Beyrək?! On altı ilin həsrəti bəyim Bamsı". Bamsının Oğuz bəylərini (Qazan xanı, Dəli Dondarı, Qara Budağı atasını, anasını, bacılarını, sevgilisini xəbər alması qəribliyin ifadəsi idi. "Koroğlu" dastanında Koroğlunun "Göynən gedən beş durnalar, bizim ellər yerindəmi" sorğusu da həmin qəribliyin ifadəsidi. "Aşıq Qərib" dastanında Qərib sırf qəriblik motivinə yüklənmiş və xalq tərəfindən mükəmməlliklə yaradılmış nümunədir. Qəriblik motivi bayatılarımızda ("burada bir qərib ölüb, göy kişnər, bulud ağlar"), nağıllarımızda, dastanlarımızda, əfsanə və rəvayətlərimizdə olduqca güclüdür. Bu, xalqın, xalq ədəbiyyatının taleyindən keçən hadisədir.

Qəriblik motivi divan və aşıq ədəbiyyatında ***təsəvvüf simvolikasını*** əks etdirir. Vəhdəti-vücud fəlsəfəsinə görə, zərrə və küll münasibətlərində küll – bütöv olan Allahdır. Ondan qopan, ayrılan isə zərrələr – insanlardır. Bu anlamda küll-bütöv olan Allah-Vücud insanın vətənidir. Vücuddan-Allahdan qopan - zərrə - insan fənaya düşür və qərib olur. İnsan – zərrə Vücudla-Bütövlə - Küllə - Allahla qovuşduqdan sonra yenidən Vətəninə dönür və qəriblikdən qurtarır. Klassik aşıq ədəbiyyatında bu məsələ çox geniş yer almışdır.

QƏRİBLİ ƏHMƏD MUSA OĞLU (1921, Borçalı mahalı, Bolnisi rayonu, Saraclı kəndi –1997) – Borçalı aşıq mühitinin yetişdirdiyi ustadlardandır. Aşıq sənətini həmkəndlisi Aşıq İsmayıldan öyrənmişdir. İkinci Dünya

müharibəsində iştirak etmişdir. Yaralanıb qayıtdıqdan sonra yenidən aşıqlığını davam etdirmişdir. Ustadların yaradıcılığını, dastanları, saz havalarını mükəmməlliklə mənimsəmiş və sazı-sözü ilə Borçalıda, digər ətraf bölgələrdə tanınmışdır.

Borçalı Sarı Nəbi, Sair Ağacan və Xındı Məmməd portik irsinin dərin bilicisi olmuşdur. "Koroqlu" və "Kərəm" havalarının ustad ifaçısı sayılmışdır.

QƏSƏBOVA İLHAMƏ CƏLAL QIZI (İlhamə Cəlal) (1974, Qazax rayonu, Çaylı kəndi – Bakı) – folklorşünas, filologiya üzrə fəlsəfə doktoru. Bakı Dövlət Universitetində ali təhsil almışdır. 1998-2014-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında baş müəllim kimi fəaliyyət göstərmişdir. 2014-cü ildən AMEA Folklor İnstitutunda çalışır. "XX əsr Qazax aşıq mühiti" mövzusunda dissertasiya müdafiə etmişdir (2014). "XX əsr Qazax aşıqları və el şairləri" (2009) kitabını toplayıb tərtib etmişdir. "XX əsr Qazax aşıq mühiti" (2015) və "Aşıq Cəlalın sənət yolu" (2018) monoqrafiyalarının müəllifidir. "Məni də apar..." adlı romanı vardır.

QƏZƏL – klassik ədəbiyyatın formalarındandır. Şərq ədəbiyyatında qəzəl bir forma kimi işlək olmuşdur. Tarixi xeyli qədimlərə bağlanan bu formada məhəbbət və gözəllik aparıcı mövzudur. Demək olar, qəzəlin mahiyyətində məhəbbət dayanır. Qədim Şərq musiqisi olan muğamatla möhkəm bağlılıqları vardır. Qəzəl, adətən, 5, 7, 9 və daha çox beytdən ibarət olur. Birinci beyt həmqafiyə olur: aa, ba, ca və s. Axırıncı beytdə müəllif öz təxəllüsünü verir. Klassik Şərq ədəbiyyatında N.Gəncəvi, İ.Nəsimi, H.Şirazi, S.Şirazi, Ş.İ.Xətayi, M.Füzuli, M.P.Vaqif, S.Ə.Şirvani və başqaları bu formadan lazımınca bəhrələnmiş və klassik sənət nümunələri yaratmışlar. XX yüzillikdə qəzəldən bir forma kimi Ələgə Vahid yaradıcı şəkildə istifadə etmişdir. A.Şaiq, S.Vurğun, M.Şəhriyar, S.Rüstəm, M.M.Seyidzadə və başqaları qəzəldən bir forma kimi bəhrələnmişlər. Aşıq yaradıcılığının görkəmli nümayəndələri də öz yaradıcılıqlarında qəzələ də müəyyən qədər müraciət etmişlər. Xəstə Qasım, Aşıq Valeh, Aşıq Ələsgər, Molla Cuma, Aşıq Şəmşir, Mikayıl Azaflı və başqalarının maraqlı qəzəlləri indi də dillərdə əzbərdir.

QIFILBƏND – Bax Bağlama.

QIPÇAQLAR – qədim türk tayfalarındandır. Miladdan öncə 203-cü ilə aid Çin mənbələrində də qıpçaqlar barədə məlumat verilir. VI-VII əsrlərdə Orxon və İrtış çayları hövzələrinə köçmüşlər. Qıpçaq etnonimi ilk dəfə VIII əsrdə Selengin kitabəsində qeyd edilmişdir. IX-X əsrlərdə Tyanşan ətəklərindən Volqa və Dunay ərazilərinə qədər yayılmışlar. Bu ərazilər Dəşti-Qıpçaq adlanmışdır. Onların məşğuliyyəti köçəri maldarlıq olmuşdur. Orta əsrlərdə qıpçaqlar ağqıpçaq, qaraqıpçaq, sarıqıpçaq adı ilə bölünmüşlər. Qazax, qırğız, qaraqalpaq, özbək, tatar, başqırd, Altay, noqay, Qaraçay, başqırd və qumuq xalq-

larının təşəkkülündə qıpçaqların böyük təsiri olmuşdur. Azərbaycan xalqının etnogenezində də onların mühüm rolu vardır. Xəzərlərin tərkibində Zaqafqaziyaya gələn qıpçaqlar (VIII əsr) 722-723-cü illərdə Arranda və Ermənistanda, 765-ci ildə Gürcüstanda ərəblərə qarşı vuruşmuşlar. IX-XI əsrlərdə Dəryal dərəsindən və Dərbənd keçidindən Zaqafqaziyaya gəlmiş türkdilli tayfaların tərkibində qıpçaqlar çoxluq təşkil etmişlər. IV David 1118-1120-ci illərdə 45 minlik süvari ordusu olan 225 min qıpçağı Şimali Qafqazdan Şərqi Gürcüstana köçürmüşdür. Burada onlar gürcülər və səlcuq oğuzları ilə oturaq həyat yaşamışlar. XI-XIII əsrlərdə həmin ərazi Böyük Türk obası adlanmışdır. Avropa mənbələrində "poloves", "kuman" kimi adlanan qıpçaqların sayı getdikcə artmaqda idi. Volqa, Don, Ural çayı hövzələri boyu yayılmışdılar. 1061-ci ildə onların rus torpaqlarına ciddi yürüşləri başlamışdı. Batı xanın hücumundan sonra (1240) qıpçaqların bir qismi monqollarla, digər bir qismi isə Macarıstana gedib yerli əhali ilə qaynayıb qarışmışdır. Qıpçaq dili türk dillərinin qıpçaq-oğuz yarımqrupuna daxildir. Qıpçaq sözlərinə M.Kaşğarinin "Divani-lüğət-it-türk", "İqor polku haqqında dastan", Misirdə tərtib edilmiş (1245) türkcə-ərəbcə lüğətdə rast gəlinir. Qıpçaq dilinin ən böyük ədəbi abidəsi latınca- fars- ca-qıpçaqca lüğət olan "Kodeks komanikus" əsəridir (XIII əsr). Qıpçaq dilinə aid son nümunə Podolskda yazılmış hüquqi sənədlərdir (XVI əsr). Sənətin, musiqinin, milli-mənəvi düşüncənin, o cümlədən də ozan, baxşı və aşıq sənətlərinin formalaşmasında qıpçaqların mühüm rolu olmuşdur.

QIRAT – "Koroğlu" dastanında Koroğlunun atının adıdır. Dərya atı cinsindəndir. Mifoloji səciyyə daşıyır. "Qırat"ın bir termin kimi etimologiyası ilə bağlı müxtəlif fikirlər yürüdülmüşdür. Daha geniş yayılmış mülahizələrə görə, "bozat", "çöl atı" anlamlarını ifadə edir. Koroğlunun atası Alı kişinin gözləri məhz bu atlara (Qırat və Dürata) görə çıxarılmışdır. Qıratla Dürat onun iki gözünə qiymət edilmişdir. Alı kişi "mənim gözlərim bu dayların üstündə çıxarılıb, bu dayların üstündə də gərək mənim qisasım alına". Alı kişi dastanda müdrik qoca, xalqı təmsil edən ağsaqqal funksiyasında görünür və Qıratı da xalq Alı kişi vasitəsilə Koroğluya verir. "Həmzənin Qıratı aparması" qolunda Koroğlu Qırat haqqında "Qırat mənim iki gözüm" deyir. Əlavə edərək Qıratın dəyərini söyləyir:

Əylən deyim Qıratın qiymətini,
Səksən min sərkərdə mala da vermə!
Səksən min ağ tüklü qəmər öyəcə,
Səksən min xəzinə pula da vermə!

Səksən min ilxıya, səksən min ata,
Səksən min mahaldan gələn barata,
Səksən min kotana, səksən min cütə,
Səksən min kotanlı kala da vermə!

Koroğlu dövlətin endirsin düzə,
Say, götür hamısın səksən min yüzə.
Səksən min gəlinə, səksən min qıza,
Səksən min əryənə, dula da vermə!

Bu, Koroğlunun Qıratı qiymətləndirməsidir. Koroğlu "at igidin qardaşıdır" deməklə atın xalq düşüncəsindəki təsəvvürlərini ifadə edir. Məhz Qırat da bu böyük dəyərləri ilə Koroğlu qəhrəmanlığını tamamlayır.

QIRX AŞIQ BAĞLAMAQ – dastanlarda, xüsusilə məhəbbət dastanlarında tez-tez təsadüf olunan epizoddur. Aşıq deyişmələri, aşıq qarşılaşmaları ilə bağlı çoxluğu, çox aşıq bağlamaq düşüncəsini əks etdirən folklor hadisəsidir. Deyişmələr aşıq yaradıcılığı üçün mühüm məsələlərdəndir. Ustad sənətkarlar sənətin nüfuzunu qorumaq üçün deyişmələrdən bir forma kimi istifadə etmişlər. Ənənəyə görə, əgər hansı aşıq məğlub olsa o, sazını qalib gələnə verir və bir də aşıqlıq etmir. Dastanlarda isə istedadlı, bacarıqlı, sənətini kamil bilən sənətkarların otuz doqquz aşıq bağladığının şahidi oluruq. Qırxıncı aşığın bağlanması ənənəvi olaraq görünmür. Məsələn, "Valeh-Zərnigar" dastanında oxuyuruq: "Xacə Yəqub car çəkdirdi, çömçəsini götürən aşıq, söz qoşan şair Dərbəndə gəldi. Zərnigarla deyişməyə başladılar. Zərnigar otuz səkkiz aşıq bağlayıb yola saldı". Otuz doqquzuncu bağlanan aşıq Aşıq Valehin şəyirdi Səmənd olur. Zərnigar xanım Valehlə qarşılaşmasında da otuz doqquz aşıq bağladığını deyir:

Bahar əyyamıdı, işrət çağıdı,
Gəşt eləyib mən havalı gəzirəm.
Otuz doqquz aşıq bəndə salmışam,
Götürüb vüzr-vəbalı gəzirəm.

"Qırx gün, qırx gecə", "qırxlar piri" ifadəsində də həddbildirmə, sakrallığın əlamət funksiyası var. Ona görə də qırx özlüyündə sonluğu işarələyir. Aşıq yaradıcılığında da "qırx aşıq bağlamaq" düşüncəsi bir meyar, ölçü kimi görünür.

QIRXLAR PİRİ – təsəvvüf simvolikasına bağlı rəmzi-məcazi obrazdır. Qırxlar – mifoloji-mistik dona bürünmüş sakral qırx müqəddəslər barəsində xalq inamlarında, təsəvvürlərində özünə geniş yer tapmışdır. Qırxların kimlərdən ibarət olması müəyyən deyildir. Məcazlaşmış bir təsəvvür hadisəsi olaraq yaddaşlarda özünə yer tapmışdır. Daha çox isə təsəvvüf simvolikasına bağlanır. Aşıq yaradıcılığında, təriqət ədəbiyyatında da qırxlar mahiyyət etibarilə təsəvvüfi düşüncəni ifadə edir. İslam dinində qırxlar piri müqəddəsliyi, xalqın inanc yerini işarələyir. Sakral düşüncənin hadisəsidir. Qırx terminin ifadə etdiyi mənaya bağlanır. Real mahiyyətində qırxların kim olduğu müəyyən deyildir. Ancaq özündə dinin müqəddəsliyini, dini müqəddəsləri ifadə edir. Şah İsmayıl Xətayidə də qırxlar piri vurğulanır.

Qırxlar meydanına vardım,
Gəl bəri, ey can, dedilər.
İzzət ilə salam verdim,
Gəl işdə meydan dedilər.

Ustad aşıqların yaradıcılığında da "qırxlar piri" bir termin kimi işləkdir. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgərdə, məhəbbət dastanlarında "qırxlar piri" müqəddəsliyi, ilahi qüvvənin köməkliyi təsəvvürünü yaradır. Xalq rəvayətlərində, əfsanə və əsatirlərdə də "qırxlar piri" obrazı özünə yer alır. Dərbənd şəhərində, Quba rayonunun Xınalıq kəndində "Qırxlar piri" deyilən ocaq-ziyarətgahlar da vardır.

QIRTLAQ SƏSİ – bəzi hallarda aşığın vokal ifa zamanı istifadə etdiyi səs ştrixi. Arxaik, erkən intonasiya edilmə xüsusiyyətləri ilə bağlıdır. Son dövrlər yalnız bəzək elementi kimi istifadə olu-

nur. ***Bax: Erkən folklor intonasiya edilməsi.***

QİSSƏ – hekayə, əhvalat, hadisə, nağıl anlamını verir. Yaxın Şərq, Orta və Cənub Şərq ədəbiyyatında tarixi-qəhrəmanlıq və məhəbbət mövzusunda janrdır. "Qisseyi-Əbu Müslüm", "Qisseyi-Cəmşid", "Qisseyi-Əmir Həmzə" və s. Azərbaycan ədəbiyyatında Qul Əlinin "Qisseyi-Yusif", Məhcur Şirvaninin "Qisseyi-Şirzad" əsərləri buna nümunədir. Bir növ dastanları səciyyələndirir. Hətta dastanı bir forma kimi şərh edərkən terminlər sırasına qissə də əlavə edilir. Əndəlib Qaracadağidə də qissə bir termin kimi qeyd edilir. Orta əsr ədəbiyyatında "qissə" termin olaraq daha çox xatırlanır. Hətta əsər daxilində müəyyən epizodların da qissə kimi verilməsi vardır. Mahiyyətində bir istiqamətdə forma kimi dastanı işarələyir. Aşıqlar arasında da orta əsrə aid mənbələrdə məhəbbət və qəhrəmanlıq dastanları "qissə" kimi qeyd edilir.

QLİSSANDO – 1. Çalğı alətlərində istifadə olunan ifaçılıq üsullarından biri. Bir və ya iki barmağı simlərin üstündə sürüşdürmək nəticəsində alınan və bir səsdən digərinə keçən boyalı səs axını. Aşıqlar sazda bu ifa üsulundan müntəzəm olaraq istifadə edirlər. Bu ifa ştrixinə "vıyıltı", "sürüşdürmə" deyilir. 2.Arxaik intonasiya edilmə üsullarından biri. Aşıq vokal ifaçılığında tez-tez rast gəlinən intonasiyalardan biri. Xüsusilə aşağı enən qlissando tipli intonasiya edilmə xüsusiyyəti aşıq havaları üçün səciyyəvidir. Nəfəs alma və nəfəs vermə ilə bağlı olaraq yaranması ehtimal olunur. ***Bax: Erkən intonasiya edilmə.***

QLİYER REYNQOLD MORİTSEVİÇ (1875-1956) – bəstəkar, dirijor, pedaqoq, musiqi xadimi. Azərbaycan Xalq artisti (1934), SSRİ Xalq artisti (1938), SSRİ Dövlət mükafatı laureatı (1946, 1948, 1950), sənətşünaslıq doktoru (1941). R.Qliyer 1923-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığının dəvəti ilə Bakıya gəlmiş, "Aşıq Qərib" dastanı əsasında "Şahsənəm" (1925, tamaşası 1927, 2-ci redaksiyası 1934) operasını bəstələmişdir. Azərbaycan dastan yaradıcılığını yüksək qiymətləndirən R.Qliyer qeyd edirdi: "Şərq həmişə dastanların beşiyi olub. Şərq dünyasının zahiri əlamətlərini yox, onun mahiyyətini dərk etmək istəyənlər üçün öz süjet bitkinliyi, üslub rəngarəngliyi və ictimai məzmunu ilə seçilən bu dastanlar əsl tapıntıdır". Operanın ilk librettosu Qalperinə, 2-ci redaksiyası isə C.Cabbarlıya məxsusdur. "Şahsənəm" operası rus oriyentalizmi üslubunda yazılmış əsərdir. Operanın Azərbaycan musiqisinin inkişafında rolunu səciyyələndirən Ü.Hacıbəyli qeyd edirdi: "R.M.Qliyerin təcrübəsi Azərbaycan musiqisinə simfoniya üslubu gətirmək, Azərbaycan musiqi mövzuları əsasında mürəkkəb formalar yaratmaq sahəsində çox böyük rol oynamışdır". Operanın yazılışı ərəfəsində Qliyer xanəndə Cabbar Qaryağdıoğlu və tarzən Qurban Pirimovun vasitəsilə Azərbaycan şifahi ənənəli musiqi nümunələri ilə tanış olmuşdur. Operada 30-a yaxın xalq melodiyasından və o cümlədən mənşə



etibarilə aşıq musiqisi ilə bağlı "Kərəmi", "Qarabağ şikəstə"si, "Arazbarı" zərbi-muğamlarından istifadə olunmuşdur. Operada Qəribin partiyasının yuxarı registrdə – zildə yazılması aşıq vokal sənətinin özəlliklərindən irəli gəlir. Operanın dramaturji inkişafında mühüm rol oynayan 2-ci pərdənin ikinci səhnəsində aşıq deyişməsinin ənənələri təzahür etmişdir. Bütün səhnə boyu səslənən "Kərəmi" havası burada refren funksiyasını yerinə yetirir. B.Zeydmanın qeyd etdiyi kimi, "hər aşığın çıxışından əvvəl orkestrin ifasında saz alətinin səslənməsini təqlid edən giriş çalınır. Sonra aşıq musiqisinə xas olan ostinat ritmik formulun fonunda solistlərin improvizasiya üzərində qurulan partiyası səslənir. Bəstəkar sazın köklənməsindən irəli gələn kvarta intonasiyasını və aşıq musiqisinin səciyyəvi ritmik formulunu həssaslıqla duymuş və onu əks etdirmişdir".

Beləliklə, operanın "Deyişmə" səhnəsində aşağı registrdə səslənən surdinalı valtornaların və simli alətlərin pissikato çalğı üsulu vasitəsilə sazın tembr-intonasiyası, aşıq musiqisinin səciyyəvi harmonik və metr-ritmik xüsusiyyətləri öz təcəssümünü tapmışdır.

R.M.Qliyerin "Şahsənəm" operası "Aşıq Qərib" dastanının beynəlxalq aləmdə tanıdılmasında mühüm rol oynamışdır.

"QOBUSTAN ŞİKƏSTƏSİ" – aşıq havası. "Şikəstə" havalar silsiləsinə aiddir. Şirvan aşıq mühitində yaranmışdır. ***Bax: Şikəstə.***

"QOCAMAN ŞİKƏSTƏ" – aşıq havası. "Şikəstə" havalar silsiləsinə aiddir. "Cığdançıxmaz" (yəni zəif səsli, "qocasayağı") adı ilə də adlandırılır. Vokal melodiyanın kiçik diapazonlu olması və aşağı registrdə oxunması ilə əlaqələndirilir. Segah məqamı üzərində ifa olunur. Vokal melodiya improvizasiyalıdır, monoton, reçitativ-deklamasiya xasiyyətlidir, trixord intonasiyası – VI-V-IV pillə üzərində, yəni şikəstə-mayənin üst aparıcısı-mayə pillələri əsasında inkişaf edir. "Dilqəmi" havasının Şirvan variantı hesab olunur. İnstrumental çalğıda "Kəsmə şikəstə" və "Qarabağ şikəstəsi"nin oxşar melodik elementləri müşahidə olunur. Qoşma qəlibi üzərində oxunur. Bir çox məqamlarda digər şikəstə havalarının uyğun meloelementləri ilə yaxından səsləşir. Az ifa olunan arxaik şikəstə havalarından biridir.

QOCAYEV İXTİYAR ŞƏMƏM OĞLU (1970, Göyçə mahalı Çəmbərək rayonu - Şamaxı) – Aşıq Hacı Bayramovdan sənət dərsi almışdır. Yeniyetmə vaxtlarından saza, sözə həvəs göstərmişdir. Ustadların yaradıcılığını, dastanları sinədəftər etmişdir. Özü də aşıq şeiri üslubunda gəraylı, qoşma və s. örnəkləri düzüb qoşur. Şeirləri müxtəlif qəzet-jurnallarda və poetik toplularda çap olunmuşdur. 1989-cu ildən Şamaxı rayonunda yaşayır. Şirvan ifaçılıq ənənəsinə də yaxından bələddir. Şirvan saz-söz məclislərində də fəal iştirak edir. Azərbaycan aşıqlarının V və VI qurultaylarının iştirakçısı olmuşdur.



QOCAYEV MƏHƏMMƏD (ŞIXLI) RƏHİM OĞLU (1905, Qazax rayonu, II Şıxlı kəndi – 1989) – Yaradıcı aşıq olmuşdur. Qazax mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. "Şıxlı Məhəmməd", "Dərya Məhəmməd" adı ilə tanınmışdır. İlk ibtidai təhsilini anadan olduğu kənddə almışdır. 1919-cu ildə atası Rəhim daşnaklar tərəfindən öldürülmüşdür. 1921-1922-ci illərdə Qazax müəllimlər seminariyasında oxumuşdur. Ailə vəziyyəti ilə əlaqədar seminariyanı yarımçıq qoymuşdur. Yaxşı səsi, gözəl şeir demək bacarığı olmuşdur. Şıxlıda Aşıq Səmədin yanında şagird durmuşdur. Daha sonra Sadıq Sultanovun şagirdi olmuş və ondan aşıqlığın sirlərini öyrənmişdir. 30-cu illərdən aşıqlığa başlamışdır. Güclü şairlik istedadı onun nəinki aşıqlar arasında, hətta bütövlükdə cəmiyyətdə bir sənətkar kimi tanınıb sevilməsinə səbəb olmuşdur. Məhz bu səbəbdən də ona "Dərya Məhəmməd" demişlər. Şıxlı Məhəmməd ustad kimi yanında çoxsaylı şagirdlər saxlamış və sənətini onlara öyrətmişdir. Aşıq Kamandar Əfəndiyev (Borçalı), Aşıq Əlyar (Borçalı, Təkləli), Aşıq Rəşid (Qaçağanlı), Aşıq Yaqub (Şıxlı) ondan sənətin sirlərini öyrənmişlər.

Azərbayca aşıqlarının üçüncü (1961) və dördüncü (1984) qurultaylarının nümayəndəsi olmuşdur. "Yurd yerindədir" (2016) şeirlər kitabı nəşr edilmişdir.

QOCAYEV ŞƏMŞİR QURBAN OĞLU (1893, Kəlbəcər rayonu, Dəmirçidam kəndi – 1980) – Kəlbəcər aşıq ənənəsinin yetişdirdiyi ustad sənətkar. Mənsub olduğu Miskin Abdal ocağının kəramətindən mənəvi güc alan, Aşıq Ələsgər, Hüseyn Bozalqanlı, Növrəs İman, Ağdabanlı Qurban kimi canlı klassikləri öz gözləri ilə görən, onların sənət bulağından su içib xeyir-duaları ilə pərvazlanan Dədə Şəmşir sələflərinin yolunu ləyaqətlə davam etdirərək yüksək səviyyəli ifaçılıq məharəti və zəngin yaradıcılığı ilə özü də sazın-sözün urvatlı bir ocağına çevrilmişdir.

Sazın-sözün əzəli beşiklərindən olan ulu Kəlbəcərin Dəmirçidam kəndində şair Qurbanın ailəsində doğulan balaca Şəmşir gözünü açıb söz-hikmət cazibəsinə düşmüşdü: atası Ağdabanlı Qurban güclü ruhani və ədəbi biliyə malik mötəbər bir şəxs kimi təkcə Kəlbəcərdə – öz el-obasında deyil, ətraf mahallarda da dərin söz-hikmət bilicisi və istedad sahibi kimi böyük nüfuza sahib idi. Orası da ayrıca vurğulanmalıdır ki, Ağdabanlı şair Qurban təkcə folklor, aşıq ədəbiyyatı bilicisi sayılmırdı. O, ərəb və fars dillərinin, o cümlədən də Şərq poetikasının incəliklərindən xəbərdar olan bir söz sərrafı idi. Ailə daxilində mənəvi-ruhani təlim və şeiriyyət-sənət dərsi alan gənc Şəmşir atası Qurban kişinin yaxın dostu Göyçəli Aşıq Ələsgər saz-sözünün hikmətini də elə yeniyetməlik, ilk gənclik çağlarından mükəmməl şəkildə mənimsəməyi bacarmışdı. Yeri gəlmişkən, burada bir mətləbi qeyd etmək gərəklidir. Aşıq Ələsgər ifaçılığını öz gözləri ilə görmüş yaşlı adamlardan iyirminci yüzilliyin 70-80-ci illərində dəfələrlə eşidilmişdir ki, Dədə Şəmşirin ləmsi,

yəni oxu və çalğı tərzi Aşıq Ələsgər ləmsini olduqca çox xatırladır. Bunu hətta Aşıq Ələsgərin oğlu Aşıq Talıb da etiraf etmişdir.

Ağdabanlı Qurban ocağının pərvazlandırdığı Aşıq Şəmşir ömrünün erkən çağlarından püxtə, yetkin sənətkar kimi saz-söz aləmində ad qazanmışdır.



Aşığın yüksək ifaçılıq qabiliyyətinə, zəngin söz və havacat re- pertuarına malik olması onun şöhrətini doğma Kəlbəcərin hüdudlarından çox-çox uzaqlara aparmışdır: Göyçədən Borçalıya, Gəncəbasardan Şirvana, Dərbənddən Mərəndə, Təbriz-Qaradağdan Zəncana, Urmiyaya, Qarabağdan Naxçıvanacan Azərbaycanımızın hər mahalında, saza-sözə bağlı hər sənət ocağında «Dədə Şəmşir» adı böyük bir ehtiram ünvanına çevrilmişdir. Sorağı XX yüzilliyin birinci yarısında Azərbaycan poeziyasının simvoluna çevrilmiş olan böyük Səməd Vurğuna çatan Aşıq Şəmşir istedadının parlamasında Vurğun qayğısı və himayəsinin tarixi dəyərini də qədirşünaslıqla xatırlamaq lazım gəlir. 1955-ci ilin avqustunda cənnət Kəlbəcərin ecazkar guşəsində – İstisuda bulaq başında üz-üzə durub. Səməd Vurğunun:

Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə
Saz tutub, söz qoşub yadda sal məni.

Aşıq Şəmşirin:

Qoşqarla yanaşı duran adın var,
Bizim el tanıyır uca dağ səni.
Yanır yolumuzda sənət çırağın,
Bilirik şeirdə bir mayaq səni –

şeirləşməsi dillər əzbərinə çevrilib, saz-söz məclislərini bəzəyəndən sonra Səməd Vurğun – Aşıq Şəmşir münasibətləri barədə çoxsaylı xatirə-rəvayətlər Azərbaycan aşıqlarının repertuarında fəal yer tutdu. Şəmşirin Vurğuna həsr etdiyi «Xoş gəlib», «Bir də gəl», «Səni», «Gəlib», «Vurğunun», «Səni», «Ağlar», «Axtarır» və s. şeirləri Səməd Vurğunlu günlərin unudulmaz poetik təəssüratından, dərin nisgilindən, göynərtili duyğularından doğmuşdur.

Aşıq Şəmşir tək-tək saz-söz ustalarındandır ki, təkcə aşıqlar, el şairləri ilə deyil, həmçinin Bakıda – mərkəzdə gedən ədəbi həyatla yaxından əlaqə saxlamış, tanınmış şair və yazıçılarla ünsiyyətdə olmuşdur. Osman Sarıvəlli, Hüseyn Arif, Nəriman Həsənzadə, Zəlimxan Yaqub, Məmməd Aslan, Hüseyn Kürdoğlu, Adil Cəmil, Müzəffər Şükür və onlarla başqa şairin Aşıq Şəmşirə ünvanlanmış şeirləri sözügedən səmimi münasibətin ifadəsidir.

Azərbaycan Yazıçılar İttifaqının üzvü olmaq, Əməkdar incəsənət xadimi adını almaq, «Şərəf nişanı» ordeni ilə

təltif olunmaq kimi fəxri mərtəbələrə yüksələn böyük el ozanının qazandığı ən böyük mükafat əslində xalqın ona olan məhəbbəti və tükənməz sevgisi idi. Ardıcıl və sistemli şəkildə etnoqrafik həyatın içərisində – toy-düyün yığnaqlarından, çal-çağır məclislərindən tutmuş müxtəlif məsələlərlə bağlı gündəlik söhbətləşmə-dərdləşmə, hal-əhvallaşmaya qədər hər bir məqamda el-oba ilə bir yerdə olmaq kimi şərəfli bir vəzifəni o əsl el aşığı, el sənətkarı, el ağsaqqalı statusunda yerinə yetirir və arxadan gələnlər üçün Dədə Şəmşir ucalığını bir öyüd-örnək yeri səviyyəsinə qaldırırdı.

Bu, Dədə Şəmşir poeziyasının fəlsəfi-didaktik istiqamətdəki ana axarının əsas göstəricisidir. Həmin göstəricinin Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Abdalgülablı Valeh, Yəhya bəy Dilqəm, Hüseyn Şəmkirli, Aşıq Ələsgər poetik ruhu ilə üst-üstə düşməsi təbii bir qanunauyğunluqdur. Ozan-aşıq sənətinin və ümumən türk-oğuz folklor mədəniyyətinin tarixi təcrübəsi, özü də birbaşa, ibrətamiz həyati təcrübəsi onun şeirlərinin ustad öyüdü – ustadnamə mərtəbəsinə yüksəlməsində mühüm amil kimi çıxış edir.

Aşıq Şəmşir dağlar oğluydu. Yurdumuzun dilbər guşələri, axar-baxarlı yaylaqları, durnagözlü bulaqları, könül oxşayan əsrarəngiz təbiəti onun qürur yeri və tükənməz ilham qaynağıydı. O öz şair-aşıq qürurunun poetik ünvanını saz sinəsindən böyük şövqlə dalğalandırırdı.

Aşıq Şəmşirin poetik irsi yüzlərlə şeiri, bir neçə dastanı çevrələyir. Aşıq şeirinin əksər şəkillərindən (qoşma, gəraylı, təcnis, divani, müxəmməs və s.) böyük məharətlə istifadə edən görkəmli sənətkar sözün çəkisinə xüsusi diqqət yetirən, hər misraya, hər kəlməyə zərgər dəqiqliyi ilə yanaşan bir sərraf idi. Fikrin obrazlı ifadəsinə, təsvir və təqdimin bədii boyalarla süslənməsinə, dilə və qəlbə yatımlı üslubi manera ilə çatdırılmasına əsil şair həssaslığı ilə diqqət yetirirdi. Şeirlərində rədif və qafiyə sisteminin poetik harmoniyasına, misradaxili bölgülərlə saz havasındakı melodik ölçülərin, ritm və intonasiyanın üzvü şəkildə uyum-ahəng yaratmasına çox ciddi fikir verdiyindəndir ki, «Şəmşir» möhürlü sözlər aşıqların repertuarında, eləcə də bütövlükdə şeirsevərlərin dilində-ürəyində öz təravətli yerini qoruyub saxlayır.

Aşıq Şəmşir saz-havacat elminin sirlərinə də vaqif olan bir ustad olduğundan aşıq musiqisini ifa və təqdim etməkdə özünəməxsus dəst-xətt nümayiş etdirmişdir. Aşıq musiqisinin görkəmli araşdırıcısı Əminə Eldarovanın XX əsrin ortalarında onun repertuarından yazıya aldığı səksəndən yuxarı saz havası ustad sənətkarın repertuar zənginliyi və ifa məharəti barədə dolğun təsəvvür yaradır. Aşığın öz bəstələri olan «Şəmşiri», «Qaragözü», «Şəmşir müxəmməsi» kimi havalar melodik zənginliyə malik sənət incilərindir.

Saz havalarının, klassik dastanların, ümumən aşıq yaradıcılığının misilsiz bilicisi və daşıyıcısı olan Aşıq Şəmşir ustad-şagird ənənəsinin inkişafında da mühüm xidmətlərə malikdir. Belə ki o, aşıqlıq elminin sirlərini otuzdan yuxarı şagirdə öyrədərək onlara ustad xeyir-duası vermişdir. Burada altını cızaraq bir məsələni ayrıca vurğulamaq lazımdır: XX yüzilliyin ikinci yarısında Kəlbəcərdə və onun çevrəsində qaynar saz-söz mühitinin yaranması və onun indiyədək diqqətçəkici bir axarla davam etməsi

istisnasız olaraq Aşıq Şəmşirin ifaçılıq və yaradıcılıq qüdrəti ilə bağlıdır. Bu mənada Dədə Şəmşir sənətinin ustadlığı – yol göstəriciliyi bu gün də davam etməkdədir.

QOL (dastanda) – aşıq yaradıcılığında boy, qol, məclis və s. terminləri var. Qəhrəmanlıq dastanlarında, daha çox epos səciyyəli əsərlərdə "qol", "boy", "məclis" anlayışları işlənir. Hətta yazılı ədəbiyyat nümunələrində əsərin məclislər şəklində qurulması hadisəsi var. Məsələn, "Dastani-Əhməd Hərami" və s. "Kitabi-Dədə Qorqud"da hadisələr, qəhrəmanların səfərləri boylar şəklindədir. "Canqar"da məclislər formasındadır. "Koroğlu" dastanında isə qollar şəklindədir. "Koroğlu" dastanında hər bir qol öz spesifikası, mahiyyəti, təfsilatı ilə bütövdür. Aşıqlar məclislərdə həmin qolları ayrılıqda da danışa bilirlər. Bu dastanın məzmun və mahiyyətinə xələl gətirmir. "Koroğlu" dastanında qolların birləşən və ayrılan tərəfləri kifayət qədərdir. Bu qollar mahiyyəti ilə Koroğlunun ayrı-ayrı səfərləridir və Koroğlu qəhrəmanlığını, dəlilərin igidliyini, bahadırlığın açımını özündə ifadə edir. "Qol" anlayışı bir termin, forma kimi daha çox "Koroğlu" dastanında sabitləşmişdir.

QOL – sazın quruluşunun əsas hissələrindən biri (uzunluğu 400-650 mm, hündürlüyü və eni 35-40 mm, kəlləyə yaxın ölçülər azalır). Çanaq və kəllə arasında yerləşir. Qoz, fıstıq, fındıq, xurma, armud, tut və cökə ağaclarından hazırlanır. Üz tərəfdən yastı, arxa tərəfdən dəyirmidir. Qola pərdələr bağlanır. Pərdələr əvvəllər heyvan bağırsağından, halhazırda isə kapron iplərdən hazırlanır.

QOL XƏRƏYİ – Bax: Kiçik xərək.

QOL PƏRDƏLƏRİ – sazın qol hissəsinə bağlanan pərdələr (12 pərdə). Qol və çanağı birləşdirən analıq ("beçə") hissəyə bağlanan pərdələr – beçə pərdələr (4 pərdə), sinə üzərinə bağlanan pərdələr isə sinə pərdələri (3 pərdə) adlanır. Əvvəllər sazın pərdələrinin sayı az olmuşdur. Hal-hazırda isə 15-20-dir. Bunlardan başqa, qol xərəyinin (kiçik xərək) arxasında daha bir köməkçi pərdə – bağ pərdə yerləşir ki, onun da vəzifəsi simlərin sabitliyini təmin etməkdir. Hər pərdənin öz adı vardır. Sazın kök quruluşunu nizama salmaq üçün pərdələr bir qədər yuxarı və aşağı hərəkət etdirilə bilər. ***Bax: Pərdə.***

QOLTUQ SAZI – ənənəvi sazdır. M.Həkimov ustad-şagird ənənəsində

sazla bağlı vurğulayır ki, üç-beşsimli cürə saz, yeddisimli qoltuq sazı, on bir simli tavar – ana saz mövcuddur". Ustadlar ənənəvi məclislərdə, adi halda işlətdikləri saza "qoltuq saz" demişlər. Qoltuq sazın ölçüləri simlərin sayı və uzunluğu etibarilə cürə və tavar sazlardan fərqlənmişdir. Məsələn, on bir simli tavar sazda burmacların sayı on bir olduğu halda, qoltuq sazlarda burmacların sayı beş-yeddidir. Qoltuq saz sənətkarlar arasında daha çox işlək olmuşdur.

QOPUZ – qam-ozan-baxşı üçlüyünün vahid bir sistem olduğunu və bu sis-

temin türk etnik-mənəvi bütövlüyünün özülündə dayandığını şərtləndirən əsas amillər sırasında qopuz ənənəsinin xüsusi mövqe kəsb etməsi onun tarixi-coğrafi məskunluğunun irimiqyaslı hüdudlarında da görünür. Akademik V.V.Bartold "qopuz" sözünə uyğur və şorlardan – türklüyün şərq hüdudundan başlamış krım-tatarları və karaimlərəcən – türklüyün qərb hüdudunacan əksər türk dillərinin leksik tərkibində rast gəlindiyini qeyd edir. Bu onu göstərir ki, türk xalqlarının əksəriyyətinin folklor və musiqi mədəniyyəti tarixi baxımdan, istisnasız olaraq, müştərəkdir və vahid bir başlanğıcdan təkan götürür. Uzunmüddətli tarixi-siyasi proseslərdən, eləcə də coğrafi şəraitdən doğan fərqlənmə və aralanmalar qopuzun adının çoxvariantlılığına – qopuz, qopız, qobuz, qobis, kabaş, kabas, qomus, xomus, xomıs, kumuz, komuz, qomuz, qopis, qomis, qaus, qouz, qous, qos, qus və s. funksiyasının isə çoxyönlülüyünə səbəb olsa da, onun ilkin ibtidai mərhələdəki özünəməxsusluğuna o qədər də xələl gətirə bilməmişdir. Qopuz və onun təmsil etdiyi mədəniyyət irimiqyaslı coğrafi genişliyi əhatələyən türk çərçivəsindən dışarıda da güclü təsirə malik olmuşdur. Polyak və ukraynalıların musiqi alətinə kobza və musiqiçi-nəğməkara verdikləri ad – "kobzar" sırf qopuz ənənəsinin təsiridir. Özü də bu təsir təkcə linqvistik planda deyil, çalğı alətinin quruluşu, musiqi və söz-mahnı repertuarının oxşarlığı, bəzən isə eyniliyi ilə ən müxtəlif səviyyə və məqamlarda da üzə çıxaraq bütöv bir mədəni sistemin başqa bir etnik mühitdəki əks-sədası kimi çıxış edir. Bu cür güclü əks-səda digər yabançı etnik mədəni çərçivələrdə daha qabarıq tərzdə duyulur.

Bəllidir ki, ilkin-ibtidai mərhələdə ruhlar aləmi ilə əlaqə yaratmaq, onlarla xoş münasibətdə olmaq, beləliklə də, özünün əmin-amanlığını, təhlükəsizliyini, yaxşı yaşayışını təmin etmək, xəstəlikdən, qorxunc təbii fəlakətdən, qara qüvvələrdən, mənfiliklərdən qorunmaq qədim insanın maraq dairəsində olan əsas məsələlərdən biri idi. O biri dünya – ruhlar aləmi ilə əlaqə vasitəsi kimi musiqiyə və musiqi alətinə xüsusi üstünlük verən, onda qeyri-adi qüvvənin, magik gücün mövcudluğuna inanan mifik təfəkkür bu yöndə öz təxəyyül imkanlarına uyğun rəvayətlər qururdu. Buna görə də qopuzdan və qopuz havalarından da ruhlar aləmi ilə əlaqə yaratmaq vasitəsi kimi istifadə edildi- yindən qopuzun yaranışı, o cümlədən qopuz musiqisinin mahiyyətini qeyri-adiliklə, ilahi aləmlə, ruhlar dünyası ilə bağlayan mifoloji rəvayətlərin meydana gəlməsi təbii bir zərurətin nəticəsi idi. Musiqinin sehrli-magik qüvvəyə malikliyi barədə mifik təsəvvürə görə, belə bir alət, burada konkret olaraq, qopuz adi insan tərəfindən yaradıla bilməz. Türküstan ərazisində gəzib dolaşan çoxsaylı rəvayətlər qopuzun Dədə Qorqud tərəfindən yaradıldığını söyləyir. Dədə Qorqudun müqəddəslər cərgəsinə aid ol- duğunu, ruhlar aləminə bağlılığı

fikrini nəzərdə saxlasaq, qopuzun yaranışında qeyri-adilik amilinin oynadığı rola mifik təfəkkürün xüsusi diqqət yetirdiyi aydınlaşır. Olsun ki, qopuzun ruhlar aləmi ilə bağlılığı xəttinə inamı gücləndirmək məqsədilə mifik təfəkkür Dədə Qorqudun həmin aləmin nümayəndələrinin köməyi ilə qopuz icad etdiyini rəvayətləşdirmişdir. Türküstan ərazisindəki rəvayətlərdən birində deyilir ki, musiqinin ölməzlik gətirəcəyindən xəbərdar olan Dədə Qorqud ormanları gəzib dolaşaraq sehrli səsə malik musiqi aləti – qopuz düzəltmək niyyətinə düşmüşdü. Ancaq o, nə qədər əlləşirdisə, düzəltdiyi alətlərdən musiqi alınmırdı. Müxtəlif ağaclardan ayrı-ayrı ölçü və formalarda alətlər hazırlayırdısa da, zəhməti boşa çıxırdı, musiqi aləti düzəltməyin sirrindən agah ola bilmirdi ki, bilmirdi. Bir gün o, yenə də ağacların arasında götür-qoy eləyə-eləyə gəzib dolaşırdı. Birdən qabağına şeytanlar çıxdı. Şeytanlar ondan nə axtardığını soruşdular. Qorqud qopuz düzəltmək istədiyini, ancaq məqsədinə nail ola bilmədiyini söylədi. Şeytanlar gülüşüb uzaqlaşdılar. Qorqud ağacların arasında gizlənib onları izləməyə başladı. Qorqudun çıxıb getdiyini güman edən şeytanlar bir-birinə dedilər: "Qorqud özünə havayı yerə əziyyət verir. O, qopuzu icad edə bilməz. Çünki Qorqud bilmir ki, qopuz hər ağacdan düzəldilməz".

Şeytanlar qopuzu hansı ağacdan və necə düzəltməyi, onun çanağına dəvə dərisindən necə üzlük çəkməyi, at quyruğunun tükündən necə tel hazırlayıb bağlamağı yerli-yerində bir-birinə danışmağa başladılar. Onlar danışdıqca Dədə Qorqud hər bir şeyi incəliyinə qədər yadında saxladı. Sonra o, gedib qopuz düzəltmək üçün lazım olan ağacı kəsdi, şeytanların göstərdiyi üsulla qopuz düzəltdi. Bu, həqiqətən, sehrli səsə malik bir musiqi aləti oldu. Qopuzun Dədə Qorqud tərəfindən icad olunduğuna inam "Kitabi-Dədə Qorqud"dakı "Mərə kafir, Dədəm Qorqud qopuzı hörmətinə çalmadım, – dedi" – cümləsində də mövcuddur.

Qopuzun ruhlar dünyası, ilahi aləmlə bağlılığı yerinə yetirdiyi tarixi funksiyalardan da görünür. O, hər əvvəl, qam-baxşı və ozanın mərasim icrasında istifadə etdiyi müqəddəs alətdir. Bu səbəbdən də əski çağlarda qopuz və onun musiqisinə əyləncədən daha çox ibadət vasitəsi kimi baxılmışdır.

Qam-baxşı və ozanlar hər türlü havanı ibadət edər kimi çalırmışlar. Xəstəni sağaltmaq istəyərkən və ya qaranlıq bir məsələ ilə bağlı baxıcılıq etməyə hazırlaşarkən Altay qamlarının və qırğız baxşılarının mərasim icrasına qopuza üz tutan alqış-dualarla, yalvarışlarla başlamaları və buna bir statik ənənə kimi dəqiqliyi ilə əməl etmələri həmin prosesin-qopuz qarşısındakı alqış-dua, yalvarış mərhələsinin xüsusi ibadət tipi olduğunu göstərir. Qopuz və onun musiqisinə ibadət vasitəsi kimi baxıldığının əlamətidir ki, qopuz çalmaq qədim türk cəmiyyətində hamının yerinə yetirməli olduğu normativ bir ənənə şəklində qəbul edilmişdir. "Kitabi-Dədə Qorqud"dakı mənzərədən aydın olur ki, oğuzlarda qopuzu, demək olar ki, hamı çala bilir. Qazan xan, Dirsə xan, Beyrək, Səgrək, Əgrək, Qanturalı və onun qırx yoldaşının qopuz çalması dastanın müxtəlif boylarında təsvir olunur. Tarixi qaynaqların verdiyi məlumatlardan bəlli olur ki, IX-X yüzilliklərdə uyğur türkləri hətta çöldə gəzərkən və səfərə yollanar-

kən də musiqi alətlərini (yəqin ki, qopuzu) yanlarında saxlayırmışlar. Görkəmli qazax alimi A.Jubanovun verdiyi məlumata görə, ta qədim çağlardan XX yüzilliyin ortalarına qədər qazaxlarda nadir hallarda elə bir yurda – ev-çadıra rast gələrdin ki, onun divarından ikisimli dombra – qopuzun variantı asılmasın. Bu cəhətin oğuzlarda da müşahidə olunması onu göstərir ki, musiqi alətinə türk etnoslarının əksəriyyəti eyni münasibəti bəsləmişlər. Etnosun kütləvi şəkildə musiqi aləti – qopuz saxlaması və onu öz yanında gəzdirməsi ruhlar aləminin təmsilçisinə ibadət etməklə – qopuz çalmaqla onların nəzər-diqqətini öz üzərində saxlamaq məqsədi daşımışdır. Bahadırların yaraq-silahla bərabər musiqi aləti götürmələri də etnik norma kimi Dədə Qorqud qəhrəmanlarının səfərlərində açıq şəkildə ortaya çıxır. Əslində, Koroğlunun qılınc-qalxanla yanaşı, sazla da gəzib-dolaşması həmin ənənənin davamıdır.

Bahadır və qopuz münasibətlərinin mifoloji-estetik səciyyəsi "Kitabi-Dədə Qorqud"un "Qanlı qoca oğlu Qanturalı boyını bəyan edər, xanım hey-hey..." boyunda daha qabarıqdır. Sevgilisi Selcan xatunun naminə ağır sınaqlardan keçməli olan Qanturalı hər sınaq mərhələsindən öncə deyir: "Hey, qırq eşim, qırq yoldaşım, niyə ağlarsınız? Quruluca qopuzım götürün, ögün məni". Qırx yoldaşı qopuz çalaraq onu öyür və coşdururlar. Bundan sonra Qanturalı növbə ilə vəhşi buğanı, aslanı və qızmış dəvəni öldürüb bütün sınaqlardan üzü ağ çıxır. Bahadırın öz qopuzuyla öyülməsi iki keyfiyyəti cəmləşdirir:

a) musiqi və coşdurucu sözlər (onların həm də alqış-dua səciyyəsi var) psixoloji vasitədir: bahadırın əhvalını yüksəldir, onda qələbə ovqatı yaradır.

b) qopuzun magik gücə malik olması – Dədə Qorqudla, ruhlar aləmi ilə bağlılığı bu ağır sınaq məqamında xilaskar-qoruyucu funksiyası yerinə yetirir. Qopuz vasitəsilə qoruyucu-xilaskar, həm də himayəçi-qüvvətverici ruhlar köməyə çağırılmış olur.

Qopuzun magik gücə malik olması, güc-qüvvət bəxş etməsi, uğur, bərəkət, xeyir, qələbə gətirməsi türk mühitindən kənarda – qonşuluqdakı yabançılar arasında da qəbul edilmişdir. Qazan xanı həbs edən kafirlər onu bir şərtlə azad etməyə razılıq verirlər ki, oğuz bahadırı qopuz çalıb onları tərifləsin, oğuzu sındırsın. Qazan xan qopuzu əlinə alıb tamamilə tərsinə hərəkət edir: özünü və oğuzu öyür, kafiri alçaldır, sındırır. Burada qopuzun qeyri-adi musiqi aləti kimi yad etnik mühit tərəfindən də etirafı son dərəcə qiymətlidir. Çünki bu etiraf qopuzun tədricən həmin mühitdə də yayılacağına perspektiv zəmin hazırlayır. Həqiqətən də, qopuz və onun təmsil etdiyi sənət dünyasının türk çevrəsinin qonşuluğundakı yabançı etnik mühitlər tərəfindən mənimsənilməsi gerçək bir mədəni-tarixi prosesə çevrilmişdir.

Qopuzun yayılma coğrafiyasını izləyən görkəmli araşdırıcı Əhməd Cəfəroğlu onun yabançı etnik mühitlərdə tutduğu mövqeyin miqyas genişliyindən söz açarkən çox böyük hüdudları göz önünə gətirir: "Türk xalq şeirlərinin və zəfərləri tərənnüm edən qopuzun hun türklərinin dövründən etibarən macarlar, çexlər, polyaklar, litvalılar, almanlar, ruslar, ukraynalılar, finlər, Afrikada yaşayan yerli əhali və nəhayət, bütün Balkan millətləri tərəfindən mənimsənilməsi və

istifadə olunması iddia edilən təsiri bütün gücü ilə göstərməkdədir".

Qopuz etnoqrafik mərasimlərin icrasında – toy-düyün, şadlıq yığnaqlarında da istifadə olunan musiqi alətidir. "Kitabi-Dədə Qorqud"da "Dədəm Qorqud gəlübən şadlıq çaldı"– cümləsinin dəfələrlə, demək olar ki, bütün boyların sonunda təkrarlanması xoş əhvallı məclislərin qopuz havalarıyla süsləndiyindən xəbər verir.

Qopuz havalarında rəqs ahəngi və oynaq ritmlər də mühüm yer tutmuşdur. Qopuz havasına rəqs etməyin mümkünlüyü Bamsı Beyrəyin "ərə varan qız qalqa, qol saluban oynaya, mən qopuz çalam" – istəyindən də bəlli olur. Qopuzun oynaq ritmli, qan qaynadan, ilhamlandıncı havalarından yalnız birinin adı "Kitabi-Dədə Qorqud"da xatırlanır: "Qanturalıyla qızı götürüb gərdəkə qoydılar. Ozan gəldi, yelətmə çaldı". "Yelətmə" – yelləndirmə, coşdurma məzmu- nu verir. Bu havanın gəlinköçürmə, yaxud da gəlin gərdəyə salma mərasimində çalındığını güman etmək olar. Ola da bilər ki, "Atlandırma" – "Vağzalı" rəqsinin melodiyası qopuzun "Yelətmə" havasından gəlir.

"Qopuz" adı ilkin-ibtidai mərhələdə türk arealında, ümumiyyətlə, musiqi aləti məfhumunu ifadə etmişdir. Dağıstanda yaşayan noqaylar arasında bu tarixi təsəvvür bu günün özündə də qalmaqdadır. Noqaylar xalq musiqi alətlərinin hamısını "qomus" adlandırırlar. Bundan əlavə, qazaxların simli musiqi alətindən başqa bir sıra ağızla çalınan nəfəsli alətləri "qopuz", "ağız qomusu" adı ilə çağırması da məhz həmin səbəbdəndir.

Əski mifik təsəvvürə görə, musiqi ilahi aləmlə, ruhlar dünyası ilə bağlı olduğundan, təbii ki, musiqi alətinə verilən adda həmin tarixi-semantik məzmunun müəyyən cizgiləri əks olunmalı idi. Bu mənada qopuz adı bir qədər mürəkkəbləşmiş tərkib kimi götürülməlidir. "Qop"-"uz" hissələrindən ibarət olan adın birinci tərəfi, yəni "qop" komponenti ucalıq, yüksəklik, müqəddəslik anlamı verir. Ən uca, yüksək dağa "Qaf dağı" deyilməsi də "qop"-"qop"-"qab"-"qaf" sözünün qədim türkcədə ucalıq, yüksəklik, göylər-ruhlar aləminə, Tanrı dünyasına yaxınlıq məzmunu əks etdirdiyini göstərir. "Uz" və ya "oz" komponentinin isə qədim türkcədə nəğmə, musiqi, avazlı səs bildirdiyini nəzərə alsaq, onda qopuzun ucalıqla, göylər – ruhlar aləmi ilə, müqəddəs Tanrı dünyası ilə bağlı nasiqilər, avazlı, ahəngli sehrli-melodik səslər toplusu anlamı verdiyi qənaətinə gəlmək olar. Deməli, ibtidai təsəvvür musiqi alətini ilahi aləmlə, ruhlar dünyası ilə bağlı sehrli-melodik səslərin – musiqilərin toplusunu özündə cəmləşdirən magik vasitə saymış və ona ilkin ibtidai mərhələdə yerinə yetirdiyi funksiyasına və tarixi-semantik məzmuna uyğun olaraq "qopuz" adı vermişdir.

Ozan sənətinin səyyar səciyyə kəsb etdiyini nəzərə alaraq, qopuzun bir musiqi aləti kimi, quruluş baxımından dinamikliyə – hərəkət və yürüşə uyğun bir formada olması təsəvvürünə gəlmək mümkündür. Mənbələrdə qopuzun iki tipi qeyd olunur:

c) Kamança şəklində olan qopuz.

d) Hazırkı saz qəlibinin ibtidai formasını xatırladan qopuz.

Kamança şəklində olan qopuz oğuzlara məxsus deyildir. "Qıl kıyaq" və "təmir komuz" adları ilə də tanınan bu qopuz növü, əsasən, xakaslar, şorlar, qırğız və qazaxlar arasında yayılmışdır. Maraqlıdır ki, həmin ərazilərdə kamançayabənzər qopuzla yanaşı, sazabənzər qopuzdan da istifadə olunmuşdur. Görünür, bu qopuz növlərinin hərəsinin özünəməxsus tarixi funksiyaları vardır. Kamançayabənzər qopuzlar yalnız mifoloji mərasimlərdə – baxıcılıq, qamlama proseslərində çalınmışdır. Atlı həyat tərzi üçün istifadəsi imkansız olan bu musiqi aləti dinamik türk etnoqrafik mərasimlərində, xüsusən də yürüşlərdə əl vermədiyindən geniş yayılmamışdır.

QOPUZ RUMI **–** XIV yüzillikdə yaşamış dahi Azərbaycan musiqişünas-alimi Əbdülqadir Marağainin "Favaid əşərə" risaləsində adı çəkilən musiqi aləti. Əsərdə bu alətlə yanaşı, Ozan, Şıdırğu, Sazi-dolab kimi alətlərin və instrumental ritmik musiqi olan "Pişrov" və başqa janrların adı çəkilmişdir. "Favaid əşərə" risaləsində aşıq sənəti, qopuz alətinin quruluşu ilə bağlı məlumatları alətlər və janrlar bölmələrindən almaq mümkündür. İlk dəfə musiqişünas S.Ağayeva tərəfindən tədqiq edilmişdir.

QORDLEVSKİ VLADİMİR ALEKSANDROVİÇ (1876, Sveaborq – 1956, Moskva) – sovet şərqşünası, türkoloq, türk dili, ədəbiyyatı, folkloru və Türkiyə tarixi mütəxəssisi. SSRİ EA-nın akademiki (1946), Lazarev adına Şərq dilləri İnstitutunu (1899), Moskva Universitetinin tarix-filologiya fakültəsini (1904) bitirmişdir. 1907-ci ildə Lazarev adına İnstitutda, sonra Moskva Şərqşünaslıq İnstitutunda işləmiş, 1918-1948-ci illərdə həmin universitetin professoru olmuşdur. Türkiyənin tarixi, ədəbiyyatı, etnoqrafiyası, arxeologiyasına dair əsərlərin müəllifidir. "Kiçik Asiyada Səlcuqlar dövləti" (1941), "Yeni Osmanlı ədəbiyyatına dair oçerklər" (1912), "Türk dilinin qrammatikası" (1928) və s. əsərləri vardır. Rus-türk ədəbi əlaqələrinin ilk tədqiqatçısıdır. Əsərlərində Azərbaycan ədəbiyyatı, folkloru, etnoqrafiyası, tarixi bir hissədir. Qaraqoyunlular haqqında əsər yazmış və ilk dəfə Bakıda çap olunmuşdur (1927). Aşıq yaradıcılığı, "aşıq" sözünün etimologiyası və s. haqqında mülahizələri vardır.



"QORQUDU" SAZ HAVASI – ustad aşıq Gülarə Azaflı bəstələmişdir. Lirik-fəlsəfi səciyyəli havadır. Son dövrlərdə yaranmış havalara aiddir.

QOŞABULAQ – "Koroğlu" dastanında mifoloji-sakral səciyyə daşıyan bulağın adıdır. "Alı kişi" qolunda Qoşa-

bulağın mahiyyəti, qəhrəmanın taleyində oynadığı rol bütün tərəfləri ilə görünür. "Alı kişi" qolunda Zümrüd bulağın da adı qeyd olunur. Rövşən atasının göstərişi və tapşırığı ilə Qırata və Dürata tövlə düzəldərək, qırx günlük görünməz yerdə saxlayarkən Zümrüd bulaqdan su çəkir. Qoşabulaq Çənlibeldədir. Rövşən atası ilə Çənlibelə gəlib çıxdıqdan sonra atası deyir ki, "Oğul, burada cavanlığımda çox olmuşam. Mənim axtardığım yer buradır". Qoşabulaq haqqında da ilk məlumatı Alı kişidən eşidirik. "Oğul, buradakı dağların birində bir cüt bulaq var, adına Qoşabulaq deyirlər. Yeddi ildən yeddi ilə cümə axşamı məşriq tərəfdən bir ulduz, məğrib tərəfdən də bir ulduz doğar. Bu ulduzlar gəlib göyün ortasında toqquşarlar. Onlar toqquşanda Qoşabulaqdan nur tökülər, köpüklənib daşar. Hər kim Qoşabulağın o köpüyündə çimsə, elə qüvvətli bir igid olar ki, dünyada misli-bərabəri tapılmaz. Hər kim Qoşabulağın suyundan içsə, aşıq olar. Özünün də səsi elə güclü olar ki, nərəsindən meşədə aslanlar ürkər, quşlar qanad salar, atlar, qatırlar dırnaq tökər". Bu sözlər Alı kişinin dilindən dastanda deyilir. Böyük həyat təcrübəsi olan, dünyanın yaxşısını-pisini görən bir qoca tərəfindən səsləndirilir. Doğurdan da, dastanda Koroğlunun misli-bərabəri olmaması, aşıq kimi dəyərlərə yiyələnməsi, dəli nərəsi, səsi məhz Qoşabulaq tərəfindən verilir. Bir növ Qoşabulaq xalqın öz qəhrəmanına içirtdiyi qeyri-adilik badəsidir. Qəhrəmanın isə bu dəyərlərə çatmasının yolu ata, müdrik qoca funksiyası daşıyan Alı kişi tərəfindən göstərilir. Qoşabulaq Koroğlu qəhrəmanlığının şərtidir. Məhəbbət dastanlarımızda dərvişlərin içirtdiyi badə ilə bu və ya digər dərəcədə qəhrəmanlıq müstəvisində birləşir.

QOŞAYARPAQ QOŞMA – aşıq şeiri biçimidir. Qoşmanın qoşayarpaq, güllü yarpaq, güllü qoşma, qoşma-müstəzad, ayaqlı qoşma kimi şəkilləri vardır. Aşıq ədəbiyyatında xüsusi sənətkalrlıq tələb edən formalardan biri də qoşayarpaq qoşmadır. Aşıqlar arasında bu şeir biçimi ilə bağlı "daxili beyt", "çarpaz qafiyə" terminləri də işlədilir. Gəraylı, divani, müxəmməs və s. şeir formalarında da qoşayarpaq, haçabeyt nümunələri vardır. Qoşayarpaq qoşmalarda misralar, beytlər, bəndlər bir-biri ilə çarpaz qafiyələnir. Yəni ayrı-ayrı misralar öz aralarında qafiyələnir. Bu qafiyələnmə beytlər və bəndlər arasında da gözlənilir. Qoşayarpaq şeirin bu forması XIX əsrdə Dərbənd tərəflərdə yaşamış və Kor aşıq adı ilə tanınmış Aşıq Rəcəbin "Məndədi", Aşıq Ələsgərin "Düşdü", Hüseyn Cavanın "Yar üzmə-üzmə" rədifli şeirlərində özünü göstərir.

Qoşayarpaq:

Bir zülfü ənbərə, qaşı peykərə,
Bir gözü xumara canım peşkəşdir.
Bir yanaq əhmərə, üzü qəmərə,
Bir dişi gövhərə canım peşkəşdir.

Qoşayarpaq şeirin digər formalardan fərqi onun oynaqlığı, daha poetik, saz havasına daha şirin oxunmasındadır. Hər misranın oxunuşunda, deyilişində pauza, nəfəs dərmək, ifadənin incəliyini, lirizmini oxucu və dinləyiciyə dəqiq çatdırmaq qüvvətlidir. Şeirin oxunuşu və deyilişində ağızda hava axını maneəsizdir. Poeziya üçün isə bu, əsas şərtdir.

QOŞMA – aşıq poeziyasının ən çox yayılmış poetik biçimidir. Əsasən, 3, 5 bənddən ibarət olur. Hər misrada hecaların sayı on birdir. Qafiyə sistemi birinci bənddə a-b-d-b; sonrakı bənddə c-c-c-b, e-e-e-b şəklindədir. Qoşma XIV əsrdən yazılı ədəbiyyatımızda da işlənməkdədir. Qoşmanın ən gözəl nümunələrini yazılı ədəbiyyatımızda XVIII əsrdə Molla Pənah Vaqifin yaradıcılığında görürük. Vaqif ədəbi məktəbinin XIX əsrdə davamçılarından Ə.Nəbatinin, Q. Zakirin yaradıcılığında qoşma şəraitlə əlaqədar məzmunca daha da yeniləşmişdir. XX əsr Azərbaycan ədəbiyyatında da qoşmanın gözəl nümunələri yaranmışdır. S.Vurğunun, O.Sarıvəllinin, H.Arifin, M.Günərin, M.Aslanın, M.İsmayılın, Z.Yaqubun və başqalarının qoşmaları buna misal ola bilər. Aşıq ədəbiyyatında qoşma ən işlək formalardandır. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli, Aşıq Hüseyn Bozalqanlı, Molla Cuma, Aşıq Şəmşir, Mikayıl Azaflı və başqaları qoşmaların klassik nümunələrini yaratmışlar.

Qoşmaların özünəməxsus qafiyələnmə, bölgü prinsipi vardır. Heca bölgüsü: 6 + 5 = 11; 4 + 4 + 3 = 11 şəklində olur. M.P.Vaqif öz şeirlərində qoşmalarını "qafiyə" adlandırır. Məsələn, "Bir qafiyə qayır, göndər ol yara", "Şirin qafiyəsindən, xoş qəzəlindən", "Qafiyə, qəzəldən çox çıxa başı" və s. Molla Cumada da qoşma "qafiyə" kimi işlədilir:

İsmi pünhan köçdü fani dünyadan,
Qarışdı torpağa, göz hayıf oldu.
Xudanın tədbiri beləymiş bizə,
Soldu yanaqları, üz hayıf oldu.
Əcəl çatıb nəfəs sana düzüldü,
Qəm hicran tapdadı, bağrım üzüldü.
Yenə sevdiyimdən əlim üzüldü,
İxtilat tükəndi, söz hayıf oldu.

Bu yazıq Cumanın dönübdü baxtı,
Əsdi əcəl yeli, sərvimi yıxdı,
Dedim ki, şad ollam bu bahar vaxtı,
Töküldü burnumdan yaz, hayıf oldu.

Qoşmanın qoşayarpaq, güllü yarpaq, güllü qoşma, qoşma-müstəzad, ayaqlı qoşma və s. kimi çeşidləri vardır.

"QUBA ŞİKƏSTƏSİ–Bax: Şikəstə.

QUBADOV SOLTANMURAD TƏRLANBƏY OĞLU (1922, Şamaxı rayonu, Sündi kəndi – 1961) – Şirvan



aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Aşıq sənətinə çox gənc yaşlarından həvəs göstərmişdir. Sənətin sirlərini ilk dəfə Aşıq Nizamdan və balabançı Xanışdan öyrənmişdir. Bir neçə il Aşıq Abbas Söhbətovun yanında şagird olmuşdur. Ustadların yaradıcılığını, saz havalarını, dastanları mükəmməl mənimsədikdən sonra müstəqil aşıqlığa başlamışdır (1939). Anadan olduğu kənddə, Şamaxıda məclislər aparmışdır. Ətraf rayonlarda istedadlı aşıq kimi tanınmışdır. Şirvan aşıq mühitinin ifaçılıq baxımından zənginləşməsində onun xüsusi əməyi vardır.

QUL – sufi terminologiyasına aid

sözlərdəndir. Dərviş, miskin, səfil, fəqir sözləri ilə eyni sırada durur. Təsəvvüfdə bütün insanlar Allahın qulu sayılır. Aşıq yaradıcılığında da ustadlar bu termindən müxtəlif səviyyələrdə məqsədli olaraq istifadə edirlər. Həmin sözlər bir istiqamətdə onların ruhunu, düşüncələrini ifadə edirsə, digər istiqamətdə təriqət ideyaları ilə bağlılıqlarını göstərir. Bu terminlərin işləkliyi həm də rəngarəngliklə nəzərə çarpır. Daha doğrusu, təxəllüs olmadan halın bəyanına qədər gedib çıxır. Qul Allahqulu, Qul Abbas, Qul Nəsib və b. Onlar mahiyyətində sırf ilkin mənada başa düşülən mənanı ifadə etmir. Burada qul-tanrı sevgisi, ilahiyə sevgi ürfani bir dəyərdir. Haqqın qulu olmanı, Haqq aşiqliyini özündə ehtiva edir.

QUL ALLAHQULU (təxminən XVIII əsr, Borçalı mahalı) – Yaradıcı aşıq olmuşdur. Əlimizə gəlib çatan şeirləri və haqqında danışılan rəvayətlər onun kifayət qədər istedadlı olduğunu göstərir. Həyatı haqqında əlimizdə elə də dəqiq məlumatlar yoxdur. "Dan ulduzu" (1926) jurnalında onun "Qaldı" rədifli məşhur ustadnaməsi verilmişdir. Ustadlar bu şeiri dastan söyləyərkən dərin məzmunlu ustadnamələr sırasında tez-tez istifadə edirlər. Ayrı-ayrı toplularda şeirlərindən nümunələr verilmişdir.

QUL QƏNBƏR – Həzrət Əliyə sədaqətinə görə ona Qul Qənbər adı verilmişdir. Düldülün mehtəri olmuşdur. Rəvayətlərdə vurğulanır ki, Həzrət Əlinin atı Düldül ancaq Qul Qənbəri yaxına buraxarmışdır. Aşıqlıqda əhəmiyyətli obrazdır. Ustadların yaradıcılığında Qul Qənbər adına-tez-tez rast gəlinir. Türkman baxşıları onu dütarın yaradıcısı hesab edirlər.

QUL MAHMUD (təxminən XVI əsrin ortaları – təxminən 1605) – Anadan olma tarixi mübahisəlidir. Hətta tədqiqatçılar Qul Mahmudun XV – XVII əsrlər arasında yaşamasını da ehtimal edirlər. Qul Mahmud (Məmmədpaşa Aydınlı), ehtimala görə, Üveys Paşanın oğludur. Aydın sancağında vergi məmuru olmuşdur. Cəlali üsyanının yatırılmasında iştirakına və fəallığına görə bu rütbə verilmişdir. Mahmud şeirlərini "Qul" təxəllüsü ilə yazmışdır. Bir el şairi kimi məşhur olmuşdur. Xalq şeiri üslubunda yazıb yaratdığı aydınlaşır. "Mahmud və Nigar" dastanı Azərbaycanda geniş yayılmışdır. Şeirləri "Aşıqlar" kitabının 1935, 1938-ci il nəşrlərində getmişdir. Dövrünün bu istedadlı sənətkarının şeirləri xalq arasında geniş yayılmış və aşıqların repertuarında yaşayaraq günümüzə qədər gəlib çatmışdır. Qul Mahmudun şeirləri "Mahmud və Nigar" dastanının ayrı-ayrı variantlarında qorunur. Ayrı-ayrı toplularda Qul Mahmudun şeirlərindən nümunələr vardır.

QUL YUNİS (1912, Göyçə mahalı, Zod kəndi – 1943, İkinci Dünya müharibəsi) – Göyçə mühitinin yetişdirdiyi sənətkarlardandır. Dövrünün təhsil almış ziyalılarından olmuşdur. Qul Yunis Cahanbaxış Göyçə mühitinin saz-söz ənənələrini kifayət qədər mükəmməlliklə öyrənə bilmişdir. Aşıq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır. Onun xalq arasında, aşıqların repertuarında bir sıra şeirləri gəlib günümüzə çatmışdır. Bu şeirlər ruhu, məzmunu, ifadə imkanları baxımından Növrəs İmanın şeirləri ilə yaxınlaşır. Ümumiyyətlə,

Qul Yunis ruhu etibarilə Növrəs İmanla, bütünlükdə Göyçə mühiti ilə eyni xətdə dayanır. "Hayıf", "Üstdədir" şeirləri onun istedadının nümunəsidir.

QULİYEV ADİL (ADİL CƏFAKEŞ) ZİYADXAN OĞLU (1966, Laçın rayonu, Şeylanlı kəndi) – Azərbaycan Aşıqlar Birliyinin (1993), Azərbaycan Yazıçılar Birliyinin (2008) üzvüdür. Laçın mühitinin yetişdirdiyi saz-söz bilicilərindəndir. "Sarı Aşıq" adına ədəbi məclisin təsisçisi və rəhbəridir. Laçın rayon Şəlvə kənd Uşaq Musiqi məktəbində saz müəllimi işləyir. Aşıq Təşəkkül, Aşıq Seymur və başqaları onun istedadlı yetirmələridir. "Bir ağı de, ay ana" (2000), "Yolçu, hara gedirsən" (2004), "Ağam Alıdı" (2018), "Azmışam öz içimdə" (2019) şeir kitabları nəşr olunmuşdur. Mükəmməl təcnisləri vardır. "Cəfakeşi", "Adil gözəlləməsi", "Üç yarpaq", "Adil müxəmməsi" saz havalarının bəstəçisidir. Aşıq repertuarında az təsadüf edilən "Dərbəndi", "Ağbaba gülü", "Dərvişi", "Sarıtorpaq", "Zəngəzur gözəlləməsi" havalarının mahir ifaçısıdır.

QULİYEV AKİF NÜSRƏT OĞLU (1954) – musiqişünas, sənətşünaslıq namizədi (1998), Əməkdar incəsənət xadimi (2008). "Saz məktəbi" (2008) dərsliyinin həmmüəlliflərindən biri. "Koroğlu" operasında aşıq musiqisi elementlərindən istifadə edilməsi", "Aşıq musiqisinin bəzi mühüm xüsusiyyətləri haqqında", "Aşıq sənəti tədqiqinə yeni töhfə", "Azərbaycan professional musiqi təhsilində saz alətinin tədrisinə dair" məqalə və məruzələrində aşıq musiqisinin üslub xüsusiyyətləri, bəstəkarlıq yaradıcılığında təzahürü məsələləri, saz alətinin tədrisi problemləri işıqlandırılmışdır. Azərbaycan Milli Konservatoriyasının professorudur.

QULİYEV ASİF ƏLİŞ OĞLU (1971, Kəlbəcər rayonu – Gəncə) – Aşıq-sazbənd Əliş Quliyevin ailəsində anadan olmuşdur. Kəlbəcərdə orta məktəbi bitirmişdir (1988). Orta məktəbdə oxumaqla yanaşı, həm də Kəlbəcər musiqi məktəbinin tar üzrə birinci sinfinə daxil olmuş (1982) və həmin ixtisas üzrə beşinci sinfi bitirmişdir (1987). Kəlbəcərin işğalından sonra Gəncədə məskunlaşmışdır. Qəmbər Hüseynli adına musiqi məktəbində təhsil almışdır (1992-1997). Hazırda incəsənət məktəbində tar müəllimi işləyir. Atası Əliş kişinin düzəltdiyi sazlara Azərbaycanın bütün bölgələrində rast gəlmək olur. Asif Quliyev də atasından sazbəndliyi öyrənmiş və sazbənd kimi də tanınmışdır. Hazırda Asif Quliyevin Gəncədə sazbənd emalatxanası vardır. Gəncədə və ətraf bölgələrdə sazbənd kimi tanınır.

QULİYEV CAHANGİR SƏNAN OĞLU (1960, Gədəbəy rayonu, Çay Rəsullu kəndi – Bakı) –Atası Sənan da aşıq olmuşdur. Cahangir aşıq sənətini ata-

sından öyrənmişdir. Borçalı aşıqlarının ifaçılığına xüsusi həvəs göstərmişdir. Aşıq Kamandar Əfəndiyevin yanına getmiş və uzun müddət ondan sənətin sirlərini öyrənmişdir. Aşıq Cahangir Quliyev Borçalı aşıq mühitinin ifaçılıq ənənələrinə lazımi qədər bələd olan aşıqlardandır. Bir neçə il Aşıq Mahmudun da yanında (Tovuz rayonunda) şagird olmuşdur. Aşıqların V və VI qurultaylarının nümayəndəsidir. Birinci (2010) və ikinci (2014) Beynəlxalq Aşıq Festivallarında uğurlu ifası ilə diqqət çəkmişdir. Yaradıcı aşıqdır, şeirləri və saz bəstələri vardır. Dastançı aşıq kimi 20-dən yuxarı dastanı təqdim etməyi bacarır. Xeyli şagirdləri vardır. Aşıq Cahangirin sənət yolunu övladları da davam etdirir.

QULİYEV CAVANŞİR RƏHİM OĞLU (1950, Şəki) – bəstəkar, Əməkdar incəsənt xadimi (1992), professor (2008), ADKnın bəstəkarlıq fakültəsində (C.Hacıyevin sinfi, 1975) təhsil almışdır. 1 balet (“Oğuznamə”), iki operetta (“Məhəbbət oyunu”, “Yeddi məhbusə”), 4 simfoniya, iki kvartet (1 – simli alətlər, 2 – nəfəs alətləri üçün), Simfonik orkestr və zurna üçün Uvertüra, Piano üçün “Muğam səs sıralarında yeddi pyes”, “Karvan” triosu, bir sıra kamera-instrumental əsərlər, kinofilmlərə və dram tamaşalarına musiqi və çoxlu sayda mahnıların müəllifidir. Musiqi təhsilini tar sinfi üzrə başlayan Cavanşir Quliyev həm muğam, həm də aşıq sənətini dərindən mənimsəmişdir. Musiqi dilinin orijinallığı, əsas obraz və mövzuların bədii həllinin yeniliyi ilə fərqlənən əsərləri milli musiqi janrları və intonasiyalarından qaynaqlanır. Azərbaycan professional musiqisində saz üçün yazılmış yeni səpkili musiqi əsərlərinin müəllifidir və saz alətinin səslənməsinə böyük önəm verən bəstəkardır. Onun yazdığı əsərlərdən biri saz və skripka üçün “Sonata”dır. “Sonata“ ikihissəlidir: I hissə – “Gəzişmə”, II hissə – “Deyişmə” adlanır. Bəstəkar mövzunu klassik sonata janrı çərçivəsində həyata keçirmişdir. Əsər orijinallığı ilə diqqəti cəlb etmiş və Ümumdünya Yeni Musiqi Günlərinin proqramına daxil edilmişdir (1992, Varşava). Bəstəkarın Yo-Yo-Manın “İpək yolu” layihəsi çərçivəsində yazdığı fleyta, violonçel və saz üçün “Karvan” triosunda saz aləti, “onun səslənməsi, saz havalarının məxsusi ritmikası bizi türk dünyasına qovuşdurur, birləşdirir” (Z.Dadaşzadə, 2001) C.Quliyev “Aşıq Qərib” dastanı üzrə çəkilmiş eyniadlı filmə musiqi yazmışdır. Bəstəkar Aşıq Ələsgərin sözlərinə kapella üçün “Miniatürlər”, eyni zamanda aşıq intonasiyaları ilə zəngin olan “Bura Vətəndir” və b. mahnıların müəllifidir. 12 boydan ibarət “Dədə Qorqud” baleti hazırlamışdır. O, uzun müddət “Yuğ” teatrı ilə əməkdaşlıq etmiş, bir sıra tamaşalara musiqi bəstələmişdir. Əsər-

ləri ABŞ, Almaniya, İsveçrə, Hollandiya, Fransa, Türkiyə, Rusiya, Şimali Kipr və digər ölkələrdə səslənmişdir.

QULİYEV ƏLİ (URFAN ƏLİ) ABUZƏR OĞLU (1949, Tovuz rayonu, Əlimərdanlı kəndi) –

Kifayət qədər istedadlı yaradıcı aşıqdır. Tovuz mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Solo saz ifaçılığının nadir simalarından biridir. Səkkiz yaşından saz çalmağa başlamışdır. Ədalət Nəsibov və Cavan Səməddən aşıq sənətinin sirlərini öyrəndikdən sonra 25 yaşından müstəqil aşıqlıq etmişdir. Azərbaycan İnşaat Mühəndisləri Universitetinin memarlıq fakültəsini bitirmişdir (1972). Hüseyn Bozalqanlı adına Aşıqlar Muzeyinin ilk direktoru olmuşdur (1984). On səkkiz il oraya rəhbərlik etmişdir.

Televiziya və radioda dəfələrlə çıxışları olmuşdur. "Dilqəmi", "Ruhani", "Meydan divanisi" saz havaları onun ifasında dövlət televiziyası və radiosunun "Qızıl fondu"na salınmışdır. Haqqında "Etnoqrafik etüdlər", "Tanrı payım – telli sazım", "Qalalı dağlar" sənədli televiziya filmləri çəkilmişdir. 60 illik yubileyi 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyi və Aşıqlar Birliyi tərəfindən keçirilmişdir.

Otuz beş şagird yetişdirmişdir. İran, İraq, Türkiyə, Hollandiya, Belçika və digər xarici ölkələrdə sənəti ilə təmsil olunmuşdur. "Sözdən pənah gətirmişəm" (2000), "Sazlı-sözlü dünyam" (2004), "Tanrı payım – telli sazım" (2007), "Qəm daşıyan dərviş oldum" (2012) "Sazdan ötrü ölmürəmmi" (2018) adlı şeir kitabları vardır. "Urfan Əli" imzası ilə tanınır. İstedadlı şair Akif Səməd "Aldı görək nə dedi" ("Şərq" qəzeti) məqaləsində Əli Quliyevin yaradıcılığını təhlil etmiş və onu "Urfan Əli" adlandırmışdır. Həmin vaxtdan Əli Quliyev "Urfan Əli" adı ilə tanınmış və bu imza ilə də yazıb-yaratmışdır. Çoxsaylı mükafatlar almışdır. Zəngin musiqi və söz repertuarına malikdir. "Əmrah" dastanı onun ifasında yazıya alınıb, Az.TV-nin qızıl fondunda saxlanılır (2016). Əməkdar mədəniyyət işçisidir (2008).

QULİYEV ƏLİ TAPDIQ OĞLU (1988, Bakı, Qaradağ rayonu, Qobustan qəsəbəsi) – istedadlı ifaçı aşıqdır.

Aşıq Xanmusa Musayevin şagirdi olmuşdur. Sənətin sirlərini ondan öyrənmişdir. Kazan Mədəniyyət Universitetində təhsil almışdır (2019). Doqquz yaşından aşıqlığa maraq göstərmişdir. İraqda Babil festivalında (2000, 2001), Türkiyədə (2005), Fransada (2010, 2013), Özbəkistanda (2011), Belarusda (2012), Ta-

tarıstanda (2014), Xorvatiyada (2016), Litvada (2017) keçirilən beynəlxalq festivallarda iştirak etmiş, mükafatlar almışdır. 2007-ci ildə keçirilən I Ozan-aşıq müsabiqəsinin qaliblərindən biri olmuşdur. 2019-cu ildə Özbəkistanda keçirilən Beynəlxalq baxşı-aşıq müsabiqəsində ən yüksək mükafata layiq görülmüşdür. Güclü səs imkanlarına və özünəməxsus tembrə malik aşıqdır. Yüksək dastançı-aktyor keyfiyyəti və xoreoqrafik-rəqs bacarığı ilə seçilir. "Qobustan" aşıqlar ansanblının rəhbəridir (2011). Aşıq sənəti ilə yanaşı muğamlara da dərindən bələdliyi ilə seçilir.

QULİYEV ƏSGƏR CƏFƏR OĞLU (1859, Gədəbəy rayonu, Kərimli kəndi – 1984) – Gədəbəy aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Erkən yaşlarından aşıqlığa meyil göstərmişdir. Sənətin sirlərini Göyçə və Gəncəbasar aşıqlarından mükəmməlliklə mənimsəyərək Gədəbəyin tanınmış aşıqlarından biri olmuşdur. Aşıq Ələsgər Gədəbəyin Arıqıran və Əyrivəng kəndlərinə toya gedərkən Əsgər Quliyev onunla birgə məclisdə çıxış etmişdir. Olduqca zil səsi olmuşdur. Hətta zurna ilə də oxuyarmış. Aşıq Əsgərin ocağı sənətkarlar ocağı olmuşdur. Oğlu Hidayət və Firudin onun yolunu davam etdirmişlər. Qızı Ulduz Sönməz bu gün tanınmış ustad aşıqlardandır. Aşıq Əsgər Gədəbəydə, ətraf bölgələrdə məclislər keçirmiş, ustad sənətkar kimi tanınmışdır.



QULİYEV İLHAM ƏSGƏR OĞLU (1967, Tovuz rayonu, Sofular kəndi – Bakı)– Saz ifaçısı və opera müğənnisi. "İlham Əsgəroğlu" imzası ilə Azərbaycanda və Türkiyədə tanınır. Kirən kənd orta məktəbini bitirib (1985) Azərbaycan Dövlət İncəsənət Universitetinin musiqili teatr aktyorluğu fakültəsində təhsilini davam etdirmişdir. 1992-ci ildə Dövlət Musiqili Komediya Teatrında və Dövlət Flarmoniyasında solist olaraq çalışmışdır. 1997-2000-ci illərdə Tiflis Konservatoriyasında vokal təcrübəsi keçmişdir. Ankarada Türk dünyası muzik topluluğu solisti olaraq 10 il çalışmış və bir çox ölkələrdə səfərdə olmuşdur. Atatürk Mərkəzi tərəfindən ona "Türk dünyasının Dərvişi" fəxri adı verilmişdir.

QULİYEV QOCA QURBAN OĞLU (1896, Tovuz rayonu, Bozalqanlı kəndi – 1957) – On üç yaşında atasını itirmişdir. Ailənin bütün ağırlığı onun üzərinə düşmüşdür. Bir müddət dərzi yanında şagirdlik etmişdir. 1918-ci ildə isə anasını itirmişdir. Cümhuriyyət dövrü torpaq paylanışında iştirakçı idi. Bütün bunlara baxmayaraq, o, Aşıq Hüseyn Bozalqanlıdan aşıq sənətinin sirlərini öyrənməyə çalışmışdır. Aşıq sənətinə sonsuz həvəs və fitri istedadı onun bir sənətkar kimi formalaşmasına səbəb olmuşdur. Bir aşıq kimi sənəti öyrənib müstəqil aşıqlığa başlamışdır. Tovuzda, bütünlükdə Gəncəbasarda ustad aşıq kimi məşhurlaşmışdır. Qoşma, gəraylı və təcnisləri vardır. Aşıqların II və III qurultaylarında iştirak etmişdir.

QULİYEV MƏMMƏD MEHDİ OĞLU (1936, Göyçay–2001,Bakı)– bəstəkar, Əməkdar incəsənət xadimi (1992). Bakı Musiqi Texnikumunu tar sinfi üzrə bitirmişdir (1958). ADK-da bəstəkarlıq fakültəsində (Q.Qarayevin sinfi) təhsil almışdır (1958-1963). 1 opera (“Aldanmış ulduzlar”), 7 simfoniya, “Simfoniya-rekviyem”, “Rekviyem” əsərinin, ka- merainstrumental əsərlərin (“Muğamsayağı”), “Şəbi-hicran” vokal poemasının, “Üç portret” vokal silsiləsinin, fortepiano və b. əsərlərin müəllifidir. Musiqi tarixinə özünəməxsus dəst-xətti olan, istedadlı simfoniya ustası kimi daxil olmuşdur. M.Quliyevin musiqi dili milliliyi, yüksək professionallığı, müasir yazı texnikası, müraciət etdiyi mövzuların əhəmiyyəti və genişliyi, yaşadığı təzadlı dövrün dramatik və əzəmətli təcəssümü ilə seçilir. O, yaradıcılığında aşıq musiqisinə də böyük önəm vermişdir. IV simfoniyasına (“Muğam”) “Yanıq Kərəmi” aşıq havasını (o cümlədən, “Şalaxo” rəqs havasını) daxil etmiş, bununla da musiqinin ümumi-dramaturji inkişaf xəttində kontrastlılığı və janrvarı başlanğıcı gücləndirmişdir. Azərbaycan milli simfonizminin ən gözəl səhifələrindən biri hesab olunan V simfoniyanın II hissəsində də bəstəkar aşıq intonasiyaları və rəqs melodiyalarının (“Tərəkəmə”) ritmik xüsusiyyətlərindən istifadə etmişdir. F.Qocanın sözlərinə “Dədə Qorqud diyarı” adlı birhissəli kantatasını (xor və orkestr üçün), “Aşıqsayağı” əsərini, saz və orkestr üçün yazılmış “7 Azərbaycan xalq mahnısı”nı (“Süsən sünbül”, “Yaxan düymələ”, “Dəli ceyran” və b.) bəstələmişdir.

QULİYEV MUSTAFA ZƏKƏRİYYƏ OĞLU (1893, Şəki – 1938) – tənqidçi, publisist, ictimai xadim. 1913-cü ildə Kiyev universitetinə daxil olmuşdur. Tələbə ikən inqilabi hərəkata qoşulmuşdur. Kommunist partiyasının Kiyev komitəsi müsəlman bölməsinin sədri seçilmişdir. 1919-cu ildə Bakıya qayıtmışdır. Bolşeviklərin gizli fəaliyyətlərində fəal iştirak etmişdir. Lənkəran qəza inqilabi komitənin sədri (1920), Azərbaycan SSR xalq maarif komissarı (1922-1928) işləmişdir, Çimkənd şəhər partiya komitəsinin katibi, Odessa vilayət partiya komitəsinin şöbə müdiri işləmişdir. Azərbaycan ədəbi-nəzəri fikrinin inkişafında mühüm xidmətləri olmuşdur. Klassik və müasir Azərbaycan ədəbiyyatına dair məqalələri, “Oktyabr və türk ədəbiyyatı” (1930) adlı kitabı vardır. “Maarif və mədəniyyət” (1923- 1926), “İnqilab və mədəniyyət” (1929-1931) jurnallarının redaktoru olmuşdur.

Aşıq musiqisinin tədris olunmasını vacib saymış, bu barədə çıxışlar etmiş, məqalələr yazmışdır. Aşıq yaradıcılığının tədqiqi və təbliğinə qayğı göstərmişdir.

1938-ci ildə repressiya qurbanı olmuşdur.

QULİYEV MÜSEYİB MƏHƏRRƏM OĞLU (1916, Kəlbəcər rayonu, Kilsəli kəndi – 1981) – Kəlbəcər mühitinin yetişdirdiyi sənətkarlardandır. Uşaq yaşlarında qoyun-quzu otarmaqla ailənin dolanışığına kömək etmişdir. Yaxşı səsi olmuşdur. Çobanlıq etdiyi vaxtlarda da oxumağa üstünlük verirmiş. Saza uşaqlıqdan böyük həvəsi olmuşdur. Göyçənin Zərzibil kəndinə Aşıq İdrisin (Məhərrəmli) yanına gəlmiş (1933) və ona şagird olmuşdur. Bir neçə il ondan sənətin sirlərini, havaları, dastanları öyrənmişdir. Sonra kəndlərinə qayıtmış və müstəqil aşıqlığa başlamışdır. Aşıq Şəmşir onun ifaçılıq və dastançılıq qabiliyyətinə yüksək qiymət vermişdir. Aşıq Müseyib Kəlbəcər rayonunun adlı-sanlı aşığı kimi tanınmışdır.

QULİYEV NAZİM BAHADUR OĞLU (1978, Gədəbəy rayonu, Arabaçı kəndi) – Aşıqlar Birliyinin üzvü (2016).

Zəngin söz və musiqi repertuarı vardır. Ustad aşıqların sənət ənənəsini uğurla davam etdirir. Aşıq Əkbər Cəfərov və Aşıq Səyyad Pənahovdan sənətin sirlərini mənimsəmişdir. Məlahətli və şaqraq səs keyfiyyətləri ilə diqqəti çəkir. Türkiyə, İran, Orta Asiya və başqa məmləkətlərdə də öz gözəl ifası ilə yadda qalmışdır. Beynəlxalq səviyyəli festivalların iştirakçısıdır. Açıqların VI qurultayının nümayəndəsi olmuşdur (2018).

QULİYEV ŞAHNİYAR HÜMBƏT OĞLU (1944, Gədəbəy rayonu, Çayrəsullu kəndi – 2017, Bakı)– Musiqiçi ailəsində doğulmuş, zərb və nəfəs alətlərinin mahir ifaçısı kimi tanınmışdır. Balaban və zurnada ifa etdiyi xalq havaları özünəməxsus üslubu ilə seçilmişdir. İsfəndiyar Rüstəmov, Səyyad Pənahov, Musa Şınıxlı, Altay Məmmədli, Aşıq Sənan kimi ustad aşıqları muşayiət etmişdir. Zəngin musiqi repertuarına malik ustad balabançı olmuşdur. Mədəniyyət Nazirliyinin "Fəxri Mədəniyyət işçisi" adına layiq görülmüşdür (2017).



QULİYEVA PAKİZƏ (MUSAKÖYLÜ) İSRAFİL QIZI (1948, Qazax rayonu, Musaköy kəndi – Bakı) – "Musaköylü Pakizə" kimi tanınmışdır. 1955-1965-ci illərdə kənddə orta təhsil almışdır. Pakizə erkən yaşlarından saza maraq göstərmişdir. Aşıq sənətinin sirlərini öyrənmiş və bir sənətkar kimi formalaşmışdır. Aşıq Pəri məclisinin fəal üzvü olmuşdur (1985). Zil, şaqraq səsi ilə dinləyicilərin marağına səbəb olmuşdur. "Koroğlu" havalarının mahir ifaçısı sayılır. Respublukada keçirilən mədəni tədbirlərdə tez-tez iştirak edir. Qadın aşıqların tanınmış nümayəndələrindəndir.

Q***ULİYEVA ULDUZ (SÖNMƏZ) ƏSGƏR QIZI (1945, Gədəbəy rayonu, Kərimli kəndi – Bakı)*** – Aşıq ailəsində anadan olmuşdur. Atası Aşıq Əsgər Gədəbəydə ustad sənətkar kimi tanınmışdır. A.Zeynallı adına Musiqi texnikumunun muğam sinfini bitirmişdir (1968). Sum-

qayıt şəhər metallurqlarının C.Cabbarlı adına mədəniyyət evində Xalq Çalğı Alətləri Ansamblının bədii rəhbəri işləmişdir (1967-1968). Sumqayıt şəhər radio studiyasında solist olmuşdur. Şəhər tədbirlərində fəal iştirak etmişdir. ADF-də solist olmuşdur (1972-1988). Aşıq Pəri məclisinin ilk üzvlərindəndir. Bir çox fəxri fərmanlar almışdır. Aşıq sənətinə aid saz sinfinin yaradılmasında və onun ilk proqramının hazırlanmasında xüsusi rolu vardır. Dörd dəfə ümumittifaq festivalının laureatı olmuşdur. Mədəniyyət nazirliyinin və Vətən cəmiyyətinin xətti ilə Amerika, Almaniya, İsveç, Türkiyə, İraq və bir çox ölkələrdə olmuşdur. 2000-ci ildə "Ulduz" sənət birliyini yaratmışdır. "Qopuz" jurnalının təsisçisi və baş redaktorudur (2001). "Saz demirmi bəs" (2001) və "Mən belə yaşadım" (2017) adlı kitabları nəşr olunmuşdur. Ömür və sənət yoluna həsr olunmuş kitablar da yazılmışdır. Ustad İmran Həsənovla görüşmə və deyişmələrinə həsr olunmuş dastan yaratmışdır. Zil, şaqraq səsə malikdir. "Koroğlu" havalarının bənzərsiz ifaçılarından biri sayılır. Əməkdar mədəniyyət işçisi (2008), Prezident təqaüdçüsüdür (2016). 2008-ci ildən Aşıqlar Birliyi idarə heyətinin üzvüdür.

QULU OĞLU CABBAR (1971, Qaradağ mahalı, Əhər, Çölqışlağı kəndi – Təbriz) –Təbriz-Qaradağ aşıq mühitinin istedadlı nümayəndəsidir. Uşaqlıqdan saz sənətinə və aşıqlığa meyil göstərib. Ustad Aşıq Fərrux Mehdipurun "Qopuz" məktəbində oxumuşdur. Orada istedadlı aşıq kimi yetişmişdir. Hal-hazırda məclislərdə, el şənliklərində çıxışlar edir. Aşıq tədbirlərində sazı-sözü ilə təmsil olunur. Zəngin musiqi və söz repertuarına malikdir. "Əsli və Kərəm", "Qurbani", "Şikari" və s. dastanları mükəmməl bilir. Məclislərdə onların söylənməsinə üstünlük verir. Dastançı aşıq kimi tanınır.

QULUZADƏ TUTUXANIM NÜSRƏT QIZI (1953) – musiqişünas, sənətşünaslıq namizədi (2004). "Üzeyir Hacıbəyli və Qara Qarayevin yaradıcılığında aşıq musiqisinin təzahür xüsusiyyətləri" dərs vəsaitinin müəllifidir. Tədqiqat işində belə qənaətə gəlmişdir ki, aşıq musiqi üslubunun bəstəkarlıq təcrübəsində mənimsənilməsi və fərdi keyfiyyətlərlə əlaqələndirilməsi bəzi ümumi qanunauyğunluqlara əsaslanmış və müəyyən inkişaf yolu keçmişdir. Azərbaycan bəstəkarlarının yaradıcılığını təhlil edərkən "aşıqvarılıq" anlayışını tətbiq etmiş və onun təkamülünü izləmişdir. Onun qənaətinə görə, aşıq musiqisinə yaradıcı münasibətin formalaşmasında və müvafiq bədii priyomların işlənmə-

sində Ü.Hacıbəylinin bədii kəşfləri müstəsna rol oynamışdır. Aşıq musiqisi elementləri Ü.Hacıbəylinin fərdi yaradıcılıq üslubu daxilində yeni bədii keyfiyyət əldə etmişdir. Q.Qarayevin yaradıcılığını tədqiq edərkən belə qənaətə gəlmişdir ki, "aşıq musiqisinin daha səmərəli tətbiqinə yönələn yeni bədii vasitə və priyomların tapılmasında dahi bəstəkar Qara Qarayevin əməyi xüsusilə yüksək qiymətləndirilməlidir".

QURBAN MƏLİKBALLI (1790, Göyçay qəzası, Məlikbalı kəndi – 1865) – XIX əsr Azərbaycan şairidir. Mədrəsə təhsili almışdır. Aşıq şeiri üslubunda şeirlər yazmışdır. S.Mümtaz "El şairləri" kitabında Məlikballı Qurbanın qoşma, müxəmməs, təcnis və s. formalı şeirlərini vermişdir. F.Qasımzadə onu həm xalq şeiri, həm də klassik üslubda yazan sənətkar kimi təhlil etmişdir. XIX əsrdə xalq şeiri üslubunda yazıb-yaradan şairlər sırasında daha çox təhlil olunur. Şeirləri "Azərbaycan aşıqları və el şairləri" kitabında və digər toplularda verilmişdir.



Onun məhşur "Vücudnaməsi" aşıqlar arasında geniş yayaılmışdır.

QURBAN OĞLU MÜSƏLLİM (1880, Qazax rayonu, Canallı kəndi – 1954) – Ustad sənətkar olmuşdur. Erkən yaşlarından saza, sənətə maraq göstərmişdir. Ancaq aşıq sənətinə gəlişi təxminən qırx yaşlarında baş vermişdir. Qırx yaşında Ağköynəkdən ustad aşıq Məhəmmədyara şagird olmuş, onun yanında sənətin sirlərini öyrənmişdir. Ustadların yaradıcılığını, saz havalarını, dastanları mükəmməlliklə öyrənə bilmişdir. Dastançı aşıq kimi məşhur olmuşdur. "Qurbani", "Abbas və Gülgəz", "Tahir və Zöhrə", "Əsli və Kərəm", "Valeh və Zərnigar" kimi məhəbbət dastanlarını, "Koroğlu" dastanının ayrı-ayrı qollarını böyük ustalıqla məclislərdə danışarmış. Aşıq havalarını çalmaqda xüsusi məharət göstərmişdir.

QURBANƏLİ (1893, Borçalı mahalı, Gorarxı (Meçidli Gorarxı) kəndi – 1979) – Borçalı aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Aşıq Alı Dərəçiçəklinin yanında bir neçə il şagird olmuşdur. Aşıq sənətinin sirlərini ondan öyrənmiş və müstəqil aşıqlığa başlamışdır. Sinəsində otuzdan yuxarı dastan gəzdirmiş, "Koroğlu" və "Kərəm" havalarının klassik meyarlar daxilində ifa etmişdir. On üç şagird yetişdirmişdir. Borçalıda, Qazaxda və digər bölgələrdə məclislər aparmışdır. İstedadlı sənətkar kimi tanınmışdır.

QURBANİ (XVI əsr, Cəbrayıl rayonu, Diri kəndi) – XVI əsr Azərbaycan aşıq şeirinin bizə məlum olan ilk nümayəndələrindəndir. Şah İsmayıl Xətayinin hakimiyyəti illərində (1501-1524) daha çox məşhurlaşmışdır. Hətta o, bir müddət Şah İsmayılın sarayında da olmuşdur. «Qurbani», «Dirili Qurban» adları ilə aşıq sənətinin tarixində şöhrət tapmışdır. Cəbrayıl rayonunda aşığın ana-

dan olmasının 500 illiyi münasibətilə «Qurbani saz bayramı» keçirilmişdir. Qurbani haqqında ilk məlumatı Salman Mümtaz vermişdir. «El şairi Qurban» («Qızıl Şərq» jurnalı, 1923, №2-3) adlı məqaləsində aşığın yaradıcılığına yüksək qiymət vermiş və şeirlərindən nümunələr gətirmişdir. Qurbani Şah İsmayıl Xətayiyə bir neçə şeir həsr etmişdir. Bu şeirlər aşığın yaşadığı dövrü və Ş.İ.Xətayi ilə əlaqəsini dəqiqləşdirməyə imkan verir. S.Mümtaz, H.Araslı, M.H.Təhmasib, Əzizağa Məmmədov, Məhərrəm Qasımlı, Qəzənfər Kazımov, Tarıyel Abbaslı və başqalarının bu barədə maraqlı elmi qənaətləri vardır. Qurbaninin Xətayi ilə bağlı «Şah sarayı», «Şah yuxusu», «Şah durğuzanı» və «Şər Xətayi divani» havalarını yaratması haqqında fikirlər də vardır. "Baş divani" və "Meydan divanisi" də bu qəbildəndir. Şeirlərindən aydın olur ki, Qurbani Ş.İ.Xətayinin bəzi səfərlərində də iştirak etmişdir. Şah İsmayıln 1514-cü ildə Çaldıran yaxınlığında məğlubiyyətindən sonra Türkixyəyə aparılan sənətkarlar içərisində Qurbaninin də olduğu ehtimal edilir. "Fələk, sənlə əlləşməyə bir belə meydan ola" məşhur divanisinin Ş.İ.Xətayinin ölümünə yazılması haqqında qənaətlər vardır.



Salman Mümtaz Qurbaninin poetik irsinə çox böyük qiymət vermişdir. Aşığın həyat və yaradıcılığı haqqında «Qurbani» dastanı vardır. Hələ 1936-cı ildə «Ədəbiyyat» qəzetində «Çoban» imzası ilə «Qurbani» dastanı haqqında bir məqalə çap olunmuşdur. Ancaq orada şeirlərindən istifadə olunmamışdı.

«Qurbani» dastanının bir neçə variantı toplanıb çap olunmuşdur. Bu dastanın ilk dəfə geniş şəkildə tədqiqilə professor M.H.Təhmasib məşğul olmuşdur. S.Mümtaz, H.Əlizadə, S.Rüstəm, M.Rahim, M.H.Təhmasib, Ə.Axundov, A.Dadaşzadə, P.Əfəndiyev, M.Həkimov, Q.Kazımov, T.Abbaslı, M.Allahmanlı və başqaları Dirili Qurbaninin şeirlərinin toplanması, nəşri, tədqiqi sahəsində müəyyən işlər görmüşlər. Ə.Axundov "Qurbani" dastanını toplayıb çap etdirmişdir ("Xalq dastanları". I cild, 1961, səh. 122-199). Sonra "Azərbaycan dastanları" (beş cilddə, I c., 1966), "Azərbaycan məhəbbət dastanları" (1979) kitablarında verilmişdir. "Qurbani. 55 şeir" (toplayıb tərtib edəni A.Dadaşzadə, 1972), "Qurbani" (tərtibçi, ön söz, qeyd və izahların müəllifi Q.Kazımov, 1990) şeirlər kitabı çap olunmuşdur. Q.Kazımovun "Qurbani və poetikası" (1996), T.Abbaslının "XVI əsr aşıq yaradıcılığı və Aşıq Qurbani yaradıcılığı" (2002) monoqrafiyaları çap olunmuşdur. T.Abbaslı "Qurbaninin poetik irsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (2006).

Bakıda "Qurbani məclisi" adlı saz-söz məclisi fəaliyyət göstərir (1996).

QURBANİ RƏSUL ABDULLA OĞLU (1930, Qaradağ – 2017, Təbriz) – Cənubi Azərbaycan aşıq sənətinin yetişdirdiyi ustad sənətkarlardandır. Təbriz-Qaradağ aşıq mühitinin nümayəndəsidir. Koroğluxan aşıqlardan sayılır. Zəngin musiqi və söz repertuarına malik olmuşdur. Təbriz-Qaradağ aşıq mühitində kifayət qədər tanınmış ustadlardandır. Klassik havaların və dastanların mahir bilicilərindən olmuşdur. Qırxa yaxın dastanı məclislərdə söyləmişdir. Dörd yüzə yaxın aşıq şerini çevrələyən "Abbas-Gülgəz" dastanını Təbriz radiozunda söyləmişdir (1979). Mühitin istedadlı sənətkarlarının böyük əksəriyyəti ondan dərs almışdır. İyirmidən yuxarı şagird yetişdirmişdir. 2010-cu ildə UNESCO onun ayrıca diskini buraxmışdır. Dəfələrlə Azərbaycan, Türkiyə və başqa ölkələrdə konsertləri olmuşdur. Az.TV-nin qızıl fondunda bir neçə ifası qorunur.

QURBANOV BABƏK OSMAN OĞLU (1939, Bakı-2019, Qazax) – fəlsəfə elmləri doktoru (1982), professor (1985). Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası adlanır) nəzdindəki musiqi təmayüllü məktəbdə təhsil almışdır. Kiçik yaşarından kaman, pianino və digər musiqi alətləri üzrə dərs almışdır. 1962-ci ildə konservatoriyanı bitirmişdir. "Musiqi ilə ədəbiyyatın qarşılıqlı əlaqəsi" (1967) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. SSRİ Elmlər Akademiyası Fəlsəfə İnstitutunda "Proqramlı musiqinin estetik prinsipləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1981). AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda etika və estetika şöbəsinin müdiri olmuşdur (1981-1988). Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Mədəniyyət tarixi və nəzəriyyəsi" kafedrasına rəhbərlik etmişdir. (1988-1992). Atatürk Universitetində çalışmışdir (1992-2008). Qaziantep Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasında işləmişdir (2008-2018). Moskva, Peterburq, Tiflis, Kiyev, Daşkənd, Tallin, Vilnüs, Stokholm və digər şəhərlərdə beynəlxalq konfransların iştirakçısı olmuşdur.

İyirmidən çox kitab müəllifidir. "Musiqi ilə ədəbiyyatın qarşılıqlı əlaqəsi", "Sənətin sosial funksiyası" , "Musiqinin estetik prinsipləri" və s. kitabları vardır.

Aşıq sənəti, Aşıq Ələsgər, Dədə Şəmşir, Mikayıl Azaflı kimi ustad sənətkarların həyatı və yaradıcılığı ilə bağlı araşdırmaların müəllifidir.

QURBANOV BƏXTİYAR RAHİM OĞLU (1990, Gədəbəy rayonu, Daryurd kəndi – Bakı) – İstedadlı solo-saz ifaçısı. Aşıqlar Birliyinin üzvü (2016). "Misri" sazçı qrupunun ən fəal üzvlərindən biri olmuşdur (2010-2017). Əmisi Ədalət Qurbanovdan sənət dərsi almışdır. Azərbaycan Dövlət Mədəniyyət və



İncəsənət Universitetinin musiqi sənəti fakültəsində təhsil almışdır (2011-2015). Zəngilan rayon uşaq musiqi məktəbində 2015-ci ildən saz müəllimi işləyir.

"Dilqəmi", "Ruhanı", "El havası", "Misiri" və s. havalar repertuarında üstünlük təşkil edir.

QURBANOV CAMOY CAMOY OĞLU (1954, Qazax rayonu, Çaylı kəndi). Ustad sənətkardır. Çaylı kəndində

orta məktəbi bitirmişdir (1971). Bakı Neft Texnikumunda oxumuşdur ((1971-1974). Aşıq sənətinə erkən yaşlarından həvəs göstərmişdir. Aşıq Əsəd Rzayevin bacısı oğlu Aşıq Cəfər Eyvazovun şagirdi olmuşdur. Dastanları, ustadların yaradıcılığını, sənəti onun yanında mənimsəmişdir. 1980-ci ildən müstəqil aşıqlığa başlamışdır. Qazaxda, ətraf bölgələrdə məclislər aparmış, istedadlı sənətkar kimi tanınmışdır. Festivallarda mükafat və diplomlar almışdır. 1993-cü ildən Qazax musiqi məktəbində saz müəllimi işləyir. 1998-ci ildən Aşıqlar Birliyinin Qazax-Ağstafa bölməsinə rəhbərlik edir. Dastançı aşıq kimi tanınır. Aşıqların IV və V qurultaylarının nümayəndəsidir. Azərbaycan Aşıqlar Birliyi idarə heyyətinin üzvüdür. 2008-ci ildən Qazax Aşıqlar ansamblının rəhbəridir. Poetik yaradıcılıqla məşğul olur.

QURBANOV ƏLİ ABDULLA OĞLU (1928, Göyçə mahalı, Basarkeçər rayonu, Ağkilsə kəndi – 2004, Bakı) – şair, folklorçu, Aşıqlar Birliyinin (1985) və AYB-nin üzvü (1993). Xalq arasında "Dastançı Əli" adı ilə məşhur olmuşdur. Ağkilsə kəndində ibtidai məktəbdə oxumuşdur. Dörd il çobanlıq etmişdir. Daha sonra Zod kənd orta məktəbində təhsil almışdır. Gəncə Dövlət Pedaqoji İnstitutunda oxumuşdur (1949-1953). Kəlbəcər rayon maarif şöbəsində metodist-təlimatçı işləmişdir (1953-1979). "Azərbaycan" jurnalında, "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi" və s. mətbuat orqanlarında mütəmadi çıxışlar etmişdir. Göyçə-Kəlbəcər aşıqlıq ənənəsinin dərin bilicilərindən biri olmuşdur. "Koroğlu" dastanının "Mərcan xanımın Çənlibelə gəlməyi" qolunun müəllifidir. "Yetim Hüseyn" (1982), "Səməd ağa dastanı" (1995), "Deyişmələr-dərdləşmələr" (1996), "Beş dastan" (1996), "Çıraqqala dastanı" (1999), "Dəli Alı dastanı" (2002) və s. folklor kitablarını toplayıb nəşr etdirmişdir.



QURBANOV QƏNBƏR ŞƏMŞİR OĞLU (1933, Kəlbəcər rayonu, Ağdaban kəndi – Bakı) –

İstedadlı şair, nasir, folklorçu və ictimai xadim. Azərbaycan Yazıçılar Birliyinin üzvü (2006), Aşıqlar Birliyinin üzvü (2016). "Qızıl qələm" mükafatı laureatı, ictimai xadim. Aşıq Şəmşir Mədəniyyət Ocağı İctimai Birliyinin sədridir. Aşıq Şəmşirin ailəsində anadan olmuşdur. Yanşaq kəndində orta məktəbi bitirmişdir (1950). Ağdam Dövlət Müəllimlər İnstitutunun (ikiillik) Azərbaycan dili və ədəbiyyat fakültəsində təhsil almışdır (1951-1953). Kəlbəcər rayon Ağdaban kənd yeddiillik məktəbində müəllim (1953-1957), məktəb direktoru (1957-ci ildən), Kəlbəcər rayon partiya komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri (1957-1958) olmuşdur. ADPİ-ni qiyabi bitirmiş (1961), Ali partiya məktəbini başa vurmuşdur (1964). Ağdaban kənd məktəbində direktor (1960-1966), Kəlbəcər qəsəbə orta məktəbində direktor (1966-1971), Kəlbəcər rayon partiya komitəsində ikinci katib (1971-1974), rayon icraiyyə komitəsinin sədri (1974-1988), Gədəbəy rayon icraiyyə komitəsinin sədri (1989-1991), Gədəbəy rayon icra hakimiyyətinin başçısı (1991-1992), Kəlbəcər rayon icra hakimiyyətinin başçısı (1993-1994) vəzifələrində işləmişdir. "Şərəf nişanı" ordeni, "Tərəqqi" medalı ilə təltif edilmişdir. Aşıq şeiri üslubunda gözəl şeirlər müəllifidir. Əsərlərini Qənbər Şəmşiroğlu imzası ilə qələmə alır. İyirmiyə yaxın kitabı vardır. "Gədəbəy xatirələri" (2001), "Axtarıb Şəmşiri görmək istəsən" (2004), "Oğul gərək oğul olsun" (2006), "Tale oxşarlığı" (2009), "Bir də görüşərik" (2012), "Hələ vurur ürəyim" (2013) və s. kitabları çap olunmuşdur. Babası Ağdabanlı Qurbanın və atası Aşıq Şəmşirin poetik irsinin toplanması və nəşrində dəyərli xidmətləri vardır. Dədə Şəmşirin "Əsərləri"nin beş cildliyini hazırlayıb nəşr etdirmişdir.

Qəmbər Şəmşiroğlunun yeddi cildən ibarət "Seçilmiş əsərləri" çap olunmuşdur.

QURBANOV HƏVƏSKAR NURƏDDİN OĞLU (1966, Borçalı mahalı, Qasımlı kəndi) – Həvəskar aşıq sənətini çox erkən yaşlarından öyrənməyə başlamışdır. Atası Aşıq Nurəddin Borçalının ustad sənətkarlarından olmuşdur. Aşıq sənətinin sirlərini də Həvəskar atasından öyrənmişdir. Atasının sayəsində aşıq sənətinə yiyələnmiş, ustadların yaradıcılığını, saz havalarını, dastanları lazımınca mənimsəyə bilmişdir. Borçalı aşıqlar ənənəsinin tarixi yolunu uğurla davam etdirən Aşıq Həvəskar indi istedadlı sənətkar kimi mühitdə

tanınmışdır. Anadan olduğu Qasımlı kəndindəki mədəniyyət evində bədii rəhbər kimi çalışır. Sənətə yeni gələn ifaçıların bilik və bacarığını artırmaq üçün çox çalışır. "Dol Hicrani", "Məmmədbağırı", "Misiri", "İbrahimi" kimi az ifa olunan saz havalarına repertuarında geniş yer verir. Borçalı havalarının mahir bilicisi və ustad ifaçısıdır.

QURBANOV KAMANDAR LƏTİF OĞLU (1982, Borçalı mahalı, Başkeçid rayonu, Məmişlilər kəndi) - Orta

məktəbi Borçalının Yuxarı Qarabulaq kəndində bitirib (1999). Saza 12-13 yaşlarından maraq göstərmişdir. Yuxarı Qarabulaq kəndində Aşıq Haqverdi Orucovdan sənət dərsi almışdır. Daha sonra iki il Gülabı Xındı Məmmədoğlunun yanında şəyird durmuşdur. TİKA-nın 2007-ci ildə Sarvanda keçirdiyi gənc aşıqların müsabiqəsində ikinci mükafata layiq görülmüşdür. Kamandar Əfındiyev ifaçılıq məktəbinin ləyqətli davamçısıdır. Borçalının ünlü aşıqlarından Məhəmməd Sadaxlı, Əhməd Sadaxlı, Aşıq Novruz və digərləri ilə yaxın sənət bağlantıları olmuşdur. Mahalın üzdə olan, hər yerdə hörmətlə qarşılanan, şirin avazı və bənzərsiz ifasıyla seçilən sənətkarlarından hesab edilir.

QURBANOV NURƏDDİN YUSİF OĞLU (1939, Borçalı mahalı, Sarvan eli, Qasımlı kəndi – 2010) – Borçalı aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Orta məktəbi anadan olduğu kənddə bitirmişdir (1957). Hərbi xidmətdə olmuşdur (1958-1961). Aşıq sənətinə gənc yaşlarından həvəs göstərmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra Aşıq Hüseyn Saraclının yanında şagird olmuşdur. Moskvada keçirilən Beynəlxalq folklor festivalında (1967) laureat olmuşdur. Yüksək ifa qabiliyyəti, zəngulələri ilə həmişə böyük rəğbət qazanmışdır. Xalq yaradıcılığı festivalında (1985) ikinci dəfə bu ada layiq görülmüşdür. Aşıq Nurəddin Borçalı mahalında Aşıq Əmrah, Aşıq Hüseyn Saraclı, Aşıq Əhməd Sadaxlı, Aşıq Kamandarla birgə müxtəlif məclislərdə, dövlət səviyyəli tədbirlərdə iştirak etmişdir. Aşıq Nurəddin sənətini gələcək nəslə çatdırmağın da qayğısına qalmışdır. Öz oğlu Həvəskar Qurbanov da daxil olmaqla beş şagird yetişdirmişdir.

QURBANOV OSMAN (SARIVƏLLİ) ABDULLA OĞLU (1905, Qazax rayonu, İkinci Şıxlı (Sarıvəlli) kəndi – 1990, Bakı) – xalq şairi, folklorşünas. Qazax müəllimlər seminariyasında təhsil almışdır. Göyçay rayonunun Qaraməryəm və Bığır kənd məktəblərində müəllim işləmişdir (1926-1929). İkinci Moskva Dövlət Universitetinin filologi-



ya fakültəsində təhsilini davam etdirmişdir (1929-1932). Bakı Pedaqoji texnikumunda müəllim (1932-1935), Bakı Teatr texnikumunda müdir (1939-1940), Təbrizdə çıxan "Vətən yolunda" qəzetində məsul katib (1941-1942), MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda direktor müavini, "Ədəbiyyat" qəzetinin redaktoru, "Uşaqgəncnəşr"də redaktor, Azərbaycan Yazıçılar İttifaqında şeir üzrə məsləhətçi işləmişdir. SSRİ Yazıçılar İttifaqının III Qurultayında, Daşkənddə keçirilən Asiya-Afrika yazıçılarının konfransında nümayəndə kimi iştirak etmişdir. Türkiyə, İtaliya, Yunanıstan, Seneqal, Mərakeş və d. ölkələrə səfər etmişdir. Ədəbi fəaliyyətə 1928-ci ildə "Gənc işçi" qəzetində çıxan "Ayaqsıza" şeiri ilə başlamışdır. X.Şirvaninin "Töhfətül-İraqeyn" əsərini tərcümə etmişdir.

O.Sarıvəlli aşıq yaradıcılığının tədqiqi və öyrənilməsi işində də mühüm xidmətləri olan ziyalılardandır. "Qüdrətli şair, ustad sənətkar" (1971), "Aşıq ürəkli şair, şair ürəkli aşıq" (1973) adlı monoqrafiyaları və bir çox məqalələri vardır. Aşıq Ələsgər, Aşıq Şəmşir və digər ustadlarla bağlı geniş araşdırmalar aparmış, ciddi nəzəri fikirlər söyləmişdir. Şeirlərində də aşıq yaradıcılığından, xalq ədəbiyyatından gələn motivlər üstünlük təşkil etmişdir. Aşıq yaradıcılığının dərin bilicilərindən biri olmuşdur.

QURBANOV PƏNAH ABDULLA OĞLU (1940, Göyçə mahalı, Ağkilsə kəndi – 2011, Bakı) – Göyçə mühitinin yetişdirdiyi sənətkarlardandır. Ailəsi ilə birlikdə Gəncəyə köçmüşdür (1948). Orta məktəbi Gəncədə bitirmiş və H.Zərdabi adına Pedaqoji İnstituta (indiki GDPU) daxil olmuşdur. Kimya-biologiya fakültəsini bitirmişdir (1963). Azərbaycan Dövlət Neft Akademiyasının aspiranturasına daxil olmuşdur. Namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişdir. 1995-ci ilə kimi ADNA-da pedaqoji fəaliyyət göstərmişdir. Bədii yaradıcılıqla da məşğuldur. "Göyçə – gözüm işığı" (1991) şeirlər kitabı çap olunmuşdur. Pənah Qurbanovun fəaliyyətinin mühüm bir hissəsini sazbəndlik təşkil etmişdir. Onun hazırladığı sədəfli sazlar İngiltərə, Almaniya və Türkiyə muzeylərində qiymətli eksponat kimi qorunur.

QURBANOV RİZVAN ŞAHMALI OĞLU (1959, Göyçə mahalı, Nərimanlı kəndi – Bakı) – Göyçə mühitinin yetişdirdiyi sənətkarlardandır. Sazbənddir. Anadan olduğu kənddə orta məktəbi bitirmişdir. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanizasiya fakültəsində oxumuşdur. İnstitutu 1986-cı ildə bitirmişdir. Ermənilərin Göyçəni işğalından sonra (1988) Bakıya köçmüşdür. Bakıda sazbənd Pənah Qurbanovla rastlaşmış və onun məsləhəti ilə sazbəndliyə başlamışdır. R.Qurbanov az vaxtda mahir sazbənd kimi məşhurlaş-

mışdır. Onun düzəltdiyi sazlar Azərbaycanla yanaşı Türkiyədə, Orta Asiyada, İranda, Uyğurustanda, Gürcüstanda və başqa yerlərdə yayılmışdır.

QURBANOV SAKİT (SAKİT KÖÇƏRİ) MAHMUD OĞLU (1946, Dağıstan Respublikası, Axtı rayonu, Xnov kəndi – Şəki rayonu, 2008) – Azərbaycan Dövlət İncəsənət Universitetini bitirmişdir (1979-1984). S.Qurbanov aşıq sənətini Aşıq Şəmşirdən öyrənmişdir. O, Aşıq Şəmşirin xeyli sayda şeirlərini öz yaddaşı əsasında yazıya alaraq ayrıca kitab halında çap etdirmişdir (2008). Dağıstan Dövlət Mahnı və Rəqs ansamblında işləmişdir (1970-1971). Moskvada keçirilən Dağıstan Ədəbiyyat və İncəsənət ongünlüyündə (1970) fəal iştirak etdiyinə görə fərqlənmə diplomu almışdır. 1984-cü ildən ömrünün sonuna kimi Şəki rayon mədəniyyət evinin direktoru vəzifəsində çalışmışdır. Aşıq Sakit "Molla Cuma" aşıqlar dəstəsinə rəhbərlik etmişdir. Bir çox beynəlxalq folklor festivallarında diploma layiq görülmüşdür. Azərbaycan aşıq sənətinin Dağıstan xalqları arasında yayılmasında böyük əmək sərf etmişdir. Azərbaycan aşıqlarının IV Qurultayının iştirakçısı olmuşdur (1984). Azərbaycan Aşıqlar Birliyinin Şəki-Zaqatala bölməsinə rəhbərlik etmişdir (1986-2008).

QURBANOV TEYMUR ƏLİ OĞLU (1906, Borçalı mahalı, Qaraçöp bölgəsi, Düzəyrəm kəndi – 1978) – Borçalı aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Tiflisdə pedaqoji texnikumu bitirib müəllim kimi fəaliyyət göstərmişdir. Uşaqlıqdan aşıqlığa həvəsi olmuşdur. Borçalıda, Qaraçöp bölgəsində məclislər aparmışdır. "Qaraçöp Teymur" imzası ilə tanınçışdır. Bir çox el şairləri və aşıqlarla deyişmələri vardır. Antoloji folklor nəşrlərində şeirləri getmişdir.

QURBANZADƏ BƏHMƏN NƏRİMAN OĞLU (1971, Kəleybər mahalı, Mülük kəndi – Təbriz) – Qaradağ-Təbriz aşıq mühitinin istedadlı nümayəndəsidir. 1993-cü ildə Təbrizə köçmüşdür. Erkən yaşlarından saza həvəs göstərmişdir. 11 yaşından aşıq sənətinin sirlərini öyrənməyə başlamışdır. Aşıq Tapdıq Nəsiri Miyandərəq onun ilk ustadıdır. Aşıq Bəhmənin bir sənətkar kimi yetişməsində Aşıq Himmət Meherpərvərin də xüsusi əməyi olmuşdur. Beş ilə yaxın şagirdlik etdikdən sonra 20 yaşında aşıqlığa başlamışdır. "Qərib və Şahsənəm", "Əsli və Kərəm", "Məsum və Diləfruz", "Xançoban", "Əli-Rafi" və s. dastanlar onun repertuarında mühüm yer tutur. Mühitin tanınmış aşıqlarındandır. "Qaradağ təcnisi", "Qaradağ şikəstəsi", "Qarakəhəri" və s. saz havalarının mükəmməl ifaçı-

sıdır. 2012-ci ildə Təbrizdə keçirilən aşıqlar müsabiqəsində ikinci yerə layiq görülmüşdür. Bakıda keçirilən Beynəlxalq Aşıq Festivalının (2010) iştirakçısıdır.

QURULUCA QOPUZ – qurulmuş, köklənmiş qopuz deməkdir. "Kitabi-Dədə Qorqud" dastanlarında "quruluca qopuz" bir termin kimi işlənir. Əski türk milli çalğı alətidir. Hal-hazırda qırğızlar, altaylar arasında yaşamaqdadır. Qəhrəmanlıq nəğmələri, dastanları ifa edərkən, şənlik məclislərində bu qədim alətlərdən istifadə edilmişdir. Simli musiqi alətidir. M.Kaşğari qopuzu udabənzər alət kimi verir. Ozanların, baxşıların, akınların istifadə etdiyi alət müəyyən kiçik fərqliliklərlə nəzərə çarpır. Qopuz quyruq, çanaq, qol və başdan ibarətdir. Qopuzun telləri at quyruğundakı qıldan idi. Əsasən, "yay" adlanan köməkçi alətlə çalınmışdır. Yaylı qopuz Altay, xakas, uyğur və şorlarda yayılmışdır.

QURTARACAQ PƏRDƏ – sazın pərdələrinin açıq sim üzərində yaratdığı səs sırası üzərində sonuncu pərdə (sol2 – 15 pilləli sazda). Ayaq pərdənin zilinə verilən ad.

"QÜRBƏTİ KƏRƏMİ" – "Əsli və Kərəm" dastanı ilə bağlı yaranmış "Kərəmi" havalar silsiləsinə daxil olan aşıq havasıdır. Daha çox Borçalı aşıqları tərəfindən ifa olunur. Obraz – emosional məzmununa görə improvizə üslubuna əsaslanan və "ağı" intonema ilə zəngin olan qəm-qüssəli havalar qrupuna aiddir. Məqam-intonasiya məzmunu baş pərdəyə istinad edir. Baş pərdə kökündə ifa olunur. Havanın ümumi intonasiya məzmunu beçə pərdədən açıq simə qədər ambitusda inkişaf edir. Əsasən, ayaq divani-şah-orta-baş pərdələr üzərində qurulan məqam-intonasiya özəyi Segah məqamı ilə üst-üstə düşür. Havanın məqam-intonasiya inkişafı baş pərdə kökündə ifa olunan "Kərəmi" havalarının ("Yanıq Kərəmi", "Sallama Kərəmi") intonasiya məzmununa yaxındır. "Qürbəti Kərəmi" havasının intonasiya inkişafı üçün tetraxord həcmində məqam dayaqlarının davamlı şəkildə çalarlanması xasdır. Melodikası pilləvarı enən hərəkətin üstünlüyü ilə səciyyələnir. İkihissəli formaya malik instrumental girişi müstəqil xarakter daşıyır. Onun improvizə ifa üslubu qeyri-müntəzəm vəzndə təcəssüm olunur. Burdon tipli polifonik üsulların tətbiqi instrumental girişin səciyyəvi xüsusiyyətlərindəndir. Poetik mətnin əsasını qoşma təşkil edir. Vokal melodiyası reçitativ-deklamasiya üslubundadır. Melosətirlərin klauzulasında hecaların oxunması müşahidə olunur. Melobənddə təkrar prinsipi mühüm formaqurucu və semantik funksiyalar yerinə yetirir. İkinci beytin təkrarı melobəndin həcminin genişlənməsi ilə nəticələnir. Hər beytdən sonra səslənən melopoetik əlavələr havanın ekspressiv təsirini xeyli gücləndirir. Hava etnomusiqişünaslar K.Dadaş-zadə və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

L

"LAÇINI" – aşıq havasıdır. Bəzi hallarda "Laçını Koroğlu" da adlanır. Obraz-emosional məzmununa görə lirik havalar qrupuna daxildir. "Laçını" havası orta pərdə kökündə ifa olunur. Məqam-intonasiya məzmunu orta pərdəyə istinad edir və Rast məqamı ilə üst-üstə düşür. İntonasiya özəyi divani-şah-ortabaş pərdələrə əsaslanır. "Laçını" havasının melodikasına motiv özəklərinin təkrarı, onların variantlılığı xasdır. Ambitusu beçə pərdədən açıq simə qədər məsafəni əhatə edir. Ambitusun genişlənməsi havanın qaytarma hissəsində müşahidə olunur. Üçüncü melobəndi zildən oxunur, intonasiya inkişafının istinad pərdəsi yuxarı köçürülür. "Laçını" havasının metr-ritmik əsasını 3/4 ölçü təşkil edir. Vokal partiyanın metr-ritmik

təşkilində ritm-intonasiya kompleksi aparıcı rol oynayır. Havanın ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Eyni zamanda hər melobəndin intonasiya inkişafında üçhissəli formanın da müəyyən ünsürlərini müşahidə etmək mümkündür. Poetik mətnin əsasını gəraylı təşkil edir. Havanın melosətirləri iki heca qrupuna bölünür (4 + 4). Melobəndin quruluşunda təkrar prinsipi mühüm formaqurucu əhəmiyyətə malikdir. Havanın kompozisiyası musiqi cümlələri və motivlərinin təkrarı (qaytarması) üzərində qurulmuşdur. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

LERMONTOV MİXAİL YURİYEVİÇ (1814, Moskva – 1841, Pyatiqorsk) – rus şairi. Ehtiyatda olan kapitan ailəsində anadan olmuşdur. Erkən yaşlarından valideynlərini itirmiş, ana nənəsi Y.A.Arsenyev onu böyütmüşdür. Uşaqlığı ana nənəsinin malikanəsində (Tarxanı kəndi – indiki Penza vilayətinin



Lermontovo kəndi) keçmişdir. Qohumları ilə Qafqaza səfərləri (1818, 1820, 1825) onun yaddaşında silinməz izlər buraxmışdır. "Çərkəzlər" (1928), "Dəniz qulduru" (1928), "Qafqaz əsiri" (1928), "Cani" (1929), "Demon" (1929) və bir çox lirik şeirləri burada yaranmışdır. Moskva universitetində təhsil almışdır (1830-1832). Toqquşmalarda iştirakına görə universitetdən çıxarılmışdır. Peterburqda hərbi məktəbə girmiş və zabit rütbəsi almışdır. "İsmayıl bəy" (1932), "Hacı Abrek" (1833-1834) poemalarını, "Qəribə adam" (1931) dramını yazmışdır. A.S.Puşkinin ölümünə həsr etdiyi "Şairin ölümünə" (1837) şeiri Rusiyada sürətlə yayılmış və çarın əmri ilə o, Qafqaza, dağlılarla vuruşan Nijeqorodsk polkuna göndərilmişdi. Şimali və Cənubi Qafqazın bir çox şəhər və kəndlərində, Qubada, Şamaxıda, Qusarda, Teymurxanşurada və digər yerlərdə olmuşdur. Azərbaycan dilini öyrənməyə başlamışdır. Avropada fransız dili kimi, Asiyada da Azərbaycan dilinə böyük ehtiyacın olduğunu söyləmişdir. "Aşıq Qərib" dastanını bəzi dəyişikliklərlə yazıya almışdır. I Niko-

layın göstərişi ilə Lermontov ikinci dəfə 1840-cı ildə Qafqaza sürgün edilir. Pyatiqorska gələrkən düşmənləri onunla N.S.Martınovun duelini təşkil edirlər. Dueldə öldürülür və Tarxan kəndinə gətirilib orada dəfn edilir. M.Y.Lermontovun yaradıcılığında Azərbaycan şifahi xalq ədəbiyyatına maraq özünü aydınlıqla göstərir. "Aşıq Qərib" dastanı əsasında özünün "Aşıq Qərib" əsərini yazmışdır. (Bu əsər "Aşıq Qərib" dastanının Şamaxı variantına daha çox uyğun gəlir.)

LEYTMOTİV (alman: leitmotiv – aparıcı motiv) – bütün əsər boyu dəfələrlə səslənən kiçik motiv və ya melodiya. Azərbaycan bəstəkarlarının bəzi əsərlərində aşıq havaları leytmotivin əsasını təşkil edir. Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasında Kərəmin, M.Maqomayevin "Şah İsmayıl" operasında Ərəbzənginin leytmotivinin əsasında "Atlı Kərəmi" aşıq havası durur. Ü.Hacıbəylinin "Koroğlu" operasında mühüm dramaturji əhəmiyyətə malik olan bəzi leytmotivlər (üsyan etmiş xalqın mövzusu, məhəbbət və s.) genetik baxımdan aşıq havaları ilə bağlıdır.

LƏBDƏYMƏZ –Bax: Dodaqdəyməz

LƏQƏB – sənətkara, hər hansı bir şəxsə onun öz adından əlavə verilən addır. Ləqəb yazıçıya, sənətkara hər hansı xarakterinə, səciyyəvi olan xüsusiyyətinə uyğun olaraq verilir. Nəsli, atababası, sənəti, peşəsi ilə uyğun olaraq da ləqəb verilməsi hallarına təsadüf edilir. Məsələn, "Şahnamə" əsərinin müəllifinin təxəllüsü Firdovsi, ləqəbi Əbülqasımdır, adı isə məlum deyildir. Və yaxud da Dövlətşah Səmərqəndinin adı Həsən ibn İshaq ibn Şərəfşah olmuşdur. M.Ə.Sabir – Hophop, M.S.Ordubadu – Hərdəmxəyal, Ö.F.Nemanzadə – Ümidvar, Bayraməli Abbaszadə – Hammal, S.Mümtaz – Xortdan bəy ləqəbləri (imzaları) ilə çıxışlar etmişlər. Bəzən ləqəblər sənətlə, peşə ilə də bağlı olmuşdur. Məsələn, Usta Abdulla, Usta Xudu, Dəmirçi Abbas və b. Təxəllüs və ləqəbin işlənməsində fərqlilik vardır. Təxəllüs daha geniş dairəni əhatə edir. Ləqəb isə məhdud səciyyəlidir.

LƏLƏ (XVII əsr). Bayatı ustadı, el şairi kimi tanınmışdır. Həyatı haqqında yazılı məlumatlar bizə gəlib çatmamışdır. Folklorşünas alimlər S.Mümtaz, M.Həkimov, S.Paşayev, P.Əfəndiyev, İ.Abbaslı və başqaları Lələnin bayatılarından çıxış etməklə mülahizələr yürütmüşlər. İlyas Museqin "Nəğmələr" kitabında Lələ bayatılarından nümunələr verilmişdir. Matendaranda Lələnin 60-a yaxın bayatısı əlyazma şəklində saxlanılır. "Lələ" bayatı ustadının təxəllüsüdür. Onun əsl adı, harada yaşaması və s. haqqında konkret məlumat yoxdur. F.X.Qurbanov "El şairi Lələnin poetik irsi və Azərbaycan folklorunda Lələ obrazı" mövzusunda dissertasiya işi yazmışdır (2014). "Qarabulaq (Füzuli folkloru antologiyası"nda (Bakı, 2010) Lələnin bayatıları (səh. 241-252) verilmişdir. Xalq arasında Lələ ilə bağlı çoxlu rəvayətlər də vardır. Lələnin bayatıları əsasında "Lələ dastanı" yaranmışdır. Dastan ayrı-ayrı toplularda, "Qarabulaq (Füzuli folkloru antologiyası"nda (Bakı, 2010, səh. 340-366) verilmişdir. Qarabağ bölgəsindəki məşhur Lələtəpə toponimi onun adı ilə bağlıdır.

"LƏTİF ŞAH" – Ustad Aşıq Şenlik Çıldırlının yaratdığı məhəbbət dastanlarındandır. Yəmən şəhərində Dərdli şah olur. Onun övladı olmur. Qoca Lələ adlı vəzir deyir ki, yeddi yol ayrıcında bir ocaq tikdir. Oradan kimsəsizlər yarınsınlar. Allah da sizə kömək olar. Lələ ilə padşah ova çıxırlar. Onlar ocağa gəlirlər, qulluqçular şahı və Lələni yedizdirirlər. Dua oxuyurlar. Bağa gəzməyə çıxırlar, bir nurani dərviş onlara rast gəlir. Şaha bir alma verir və "xudanın izni ilə sizin oğlunuz olar" deyir. Amma mən gəlməmiş ona ad qoymayın. Padşah arvadı Xanım Soltanla almanı bölür. Aradan xeyli vaxt keçəndən sonra padşahın oğlu olur. Oğlana arvadın təhriki ilə adqoyma keçirirlər. Dərvişi gözləyirlər. Arvad ad qoyulmasını istəyir. Bir yaşıl libaslı dərviş məclisə gəlib "oğlanın adını Lətif şah qoyuram" deyir. Lətif şah böyüyür. Bir gün dərs zamanı atlılar görünür. Lətif şah onlarla ova getmək istədiyini bildirir. Ov zamanı Hindistan şahının qızı Mehriban Soltan ona buta verir. Əhvalatı yoldaşlarına danışır. Evlərinə gəlib ata-anasından çətinliklə razılıq alıb butasının arxasınca gedir. Fars padşahı da Mehriban Soltanla evlənmək istəyirdi, ancaq hind padşahı elçilərə yox deyirdi. Fars padşahının İsfəndiyar adlı pəhləvanı vardı. Hindistan padşahlığından onun qabağında duran yox idi. Lətif şah onunla vuruşur və onu öldürür. Padşah bu qəhrəmanın kim olduğunu öyrənmək istəyir. Məlum olur ki, bu Lətif şahdır. Lətif şah qayıqla gəzməyə çıxır. Fırtına onu aparır. Fars padşahı Lətif şahın etdiklərini bilib qoşun çəkir. Lətif şah qayıqda dəryanın ortasında idi. Onu fars padşahının adamı tutur. Fars padşahı Lətif şahı asdırmaq istəyir. Fars padşahının bacısı Əsma xanım ona kömək edir, zindandan qurtarır. Hindistan padşahı Lətif şahı öz vətəninə yola salır. Əsma, Mehriban Soltan, Lələ Yəmənə gəlirlər. Yəmən padşahı qırx gün, qırx gecə toy edir. Dastan "Xalq dastanları" (B., 1961) kitabında nəşr olunmuşdur.

LƏTİFƏ – şifahi xalq ədəbiyyatında kəsərli və yaxud da ibrətamiz sonluqla bitən qısa-lakonik epik gülməcə mətnləridir. İctimai həyatdakı, məişətdəki mənfilikləri, gülünc hadisələri yığcamlıqla əks etdirmək lətifələrin əsas xüsusiyyətlərindəndir. Məzhəkə səciyyəlidir. Onları hamı bilir, yadda saxlayır və danışır. Lətifələr nağıl, tapmaca, atalar sözü, bayatı, mahnı qədər çox yayılan və xalqın məişətinə daxil olan janrdır. Özü də bunlar yığcam olduğu üçün tez bir zamanda müxtəlif dövrün hadisələrinə, insanlarına aid oluna bilər.

Aşıqların repertuarında da lətifələr mühüm yer tutur. Adətən, yeri gəldikcə ustad aşıqlar məclisin əhvalını daha da yüksəltmək üçün lətifə və qaravəllilərdən istifadə edirlər.

Lətifələrin sonu çox ibrətamiz olur. Elə bir lətifə olmaz ki, orada müəyyən bir əxlaqi, əqli, ictimai nəticə verilməmiş olsun. Çox zaman fikir bircə cümlə ilə ifadə edilir ki, o da lətifənin ideyasını təşkil edir. Həmin lakonik ifadəyə, aforizmə görə də lətifə yadda qalır. Bu cəhətdən lətifələr xalq məsəllərinə yaxınlaşır.

Məlumdur ki, bir çox lətifələrdən çıxan nəticələr xalq içərisində məsəl kimi işlənir və yaşayır. Xalq öz həyatındakı hadisələri, təcrübəsini müşahi-

dələrlə ümumiləşdirmişdir. Buna görə də lətifələrin həm də təcrübi əhəmiyyəti vardır.

Azərbaycanda lətifə janrı çox qədim tarixə malikdir. Bunlar müxtəlif dövrlərdə, müxtəlif şəxslərin adları ilə əlaqələndirilmişdir. Bəzən bir şəxsin adı yaddan çıxmış, lətifə digər bir şəxsin adına bağlanmış və yaşamışdır. Lətifələr Azərbaycanda ən çox iki nəfərin – Bəhlul Danəndə və Molla Nəsrəddinin adı ilə bağlıdır.

Lətifələr aşıqların söz repertuarında da müəyyən yer alır. Ustad aşıqlar məclisə xoş ovqat, yüksək əhval gətirmək üçün yeri gəldikcə dastan, yaxud da məclis gedişatında lətifə və ya lətifəvari əhvalatlardan da məqsədyönlü şəkildə istifadə edirlər.

LƏZGİ ƏHMƏD (XVII əsrin sonu, Dağıstan, Axtı rayonu, Miqrağ kəndi – XVIII əsrin ortaları) – Dərbənd mühitinin yetişdirdiyi sənətkarlardandır. Azərbaycan və ləzgi dillərində aşıq şeirləri yaratmışdır. Ustad aşıq kimi tanınmışdır. Xəstə Qasımla deyişmələri, hərbə-zorbaları ilə yaddaşlarda qalmışdır. S.Mümtaz "El şairləri", H.Əlizadə "Aşıqlar" kitabında onun Xəstə Qasımla deyişmələrini vermişdir. Hər iki ustad sənətkar dövrünün tanınmış aşıqlarından olmuşdur. Haqqında təfərrüatlı məlumat yoxdur. Xəstə Qasımın dastanı (Bakı, Aşıqlar Birliyi, 2018) informativ və tarixi bilgi baxımından ən dəyərli qaynaqdır. S.Mümtaz, H.Əlizadə, P.Əfəndiyev, V.Vəliyev, M.Həkimov, S.Paşayev, M.Allahmanlı onun yaradıcılığı haqqında müəyyən fikirlər söyləmişlər.

LİBRETTO (italyan: libretto – kitabça) – opera, operetta, balet və s. irihəcmli musiqi əsərlərinin ədəbi mətnidir. Opera janrında yazılmış bir sıra əsərlərin librettosu Azərbaycan dastanlarının əsasında bəstələnmişdir. Ü.Hacıbəylinin "Əsli və Kərəm", "Koroğlu", Z.Hacıbəyovun "Aşıq Qərib", M.Maqomayevin "Şah İsmayıl", R.Qliyerin "Şahsənəm" operalarının ədəbi əsasını dastanlar təşkil etmişdir. Bu operaların librettolarında dastan diskursunun özəllikləri, onun mətnyaranma mexanizminin xüsusiyyətləri yaradıcı şəkildə öz ifadəsini tapmışdır. Semiotika nöqteyi-nəzərindən həmin prosesi desiqnatın, yəni dastanın əsasında duran sabitləşmiş işarələr sisteminin yeni təfsiri kimi izah etmək olar. Dastanlar əsasında yaranmış librettonun ərsəyə gəlməsini, həmçinin "təsvir edilən hadisələrin artıq auditoriyanın bələd olduğu oturuşmuş "qayda"lar sistemini, digər tərəfdən isə özünü improvizasiyada və müəyyən mövzu ətrafında saysız variasiyalarda ifadə edən formanı" (Y.Lotman) öyrənən "eynilik estetikası" kontekstində də təfsir etmək mümkündür.

LİRİKA – bədii ədəbiyyatın üç əsas növündən biridir. Nəsrdən, dramatik növdən fərqli olaraq lirika həyatı bu və ya başqa şəraitin təsiri ilə sənətkar mənəviyyatından doğan hiss, həyəcan və düşüncələrlə əks etdirir. Lirikada yaradıcının həyata, dünyaya münasibəti fonunda mühit qiymətləndirilir. Onun tarixi isə epik və dramatik növə nisbətən daha qədimdir. Əski xalq mahnıları, dastanlarda nəsrlə nəzmin növbələşməsi, aşıq yaradıcılığı lirikanın mükəmməllik

nümunələridir. Klassik poeziyanın əsas janrları qəzəl, qəsidə, qitə, rübai, müxəmməs, müsəddəs, mürəbbe də lirikanın formal faktlarıdır. Hətta epik poeziyanın bədii dərinliyi də lirikanın imkanları əsasında gücləndirilir və tamamlanır.

Lirikanın ən qədim nümunələri nəğmələrdir. Türk xalqlarının bədii düşüncəsində lirikanın yeri müstəsnadır. Qəhrəmanlıq nəğmələri, əmək nəğmələri, laylalar, oxşamalar, həyatın, məişətin müxtəlif tərəflərinin ifadəsinə həsr olunan lirik mətnlər məhz hissin, düşüncənin ifadəsi kimi dəyər kəsb edir. Lirika xalqın ürəyi, bəşəriyyətin qəlbinin tarixidir. Ən qədim dövrlərin mahnıları olan əmək nəğmələri, məişət və mövsüm mərasimləri ilə bağlı söylənən mahnılar, qəhrəmanlıq və məhəbbət dastanlarında, əfsanə və əsatirlərdə rast gəlinən lirik nümunələr Azərbaycan ədəbiyyatında lirikanın tarixini izləmək, lirika haqqında bütöv təsəvvür yaratmaq üçün geniş imkanlar verir.

Aşıq yaradıcılığı bütün tərəfləri ilə lirikanın daşıyıcısıdır. Ustadlar öz hiss və duyğularını, düşüncələrini, həyat və dünya haqqında təsəvvürlərini ifadə etmək üçün lirikaya üstünlük vermişlər. Dastanlar da lirikanın imkanlarını müəyyənləşdirmək üçün mühüm əhəmiyyət kəsb edir.

LOĞMAN – Yaxın Şərqdə, bütünlükdə türk xalqlarının düşüncəsində rəmzi-ümumiləşdirilmiş bir surətdir. Bütün xəstəlik və bəlalara əlac edən, onların çarəsini bilən filosof həkim və mütəfəkkirdir. Şifahi və yazılı ədəbiyyatda, klassiklərin yaradıcılığında Loğman bir obraz kimi həm ümumiləşdirilmiş, həm də fərdiləşdirilmişdir. Hətta islamaqədərki Şərq ədəbiyyatında onu peyğəmbər və şair təbiətli hökmdar kimi təsvir etmişlər. Quranda da (31-ci surə) adı qeyd olunur. Loğmanın qədim yunanların qəhrəmanı Hippokratın prototipi olması da ehtimal edilir. Azərbaycan ədəbiyyatının klassiklərindən N.Gəncəvinin, M.Füzulinin, A.Ərdəbilinin, Ə.Təbrizinin və başqalarının əsərlərində, "Dastan-Əhməd Hərami"də Loğman adı qeyd olunur. Şifahi ədəbiyyatda Loğmanla bağlı çeşidli əfsanə və rəvayətlər dolaşmaqdadır. Onların hamısı Loğmanın bacarığını, qabiliyyətini, qeyri-adi ağlını, hər şeyə əlac tapa bilmə səriştəsini göstərir.

Aşıq yaradıcılığında, deyişmələrdə, dastanlarda müxtəlif məqamlarda Loğman adına sıx-sıx rast gəlinir. Loğman ağıllı, bacarıqlı, hikmətli kəlamlar müəllifi, eləcə də sağalmaz dərdlərə, ağır yara və xəstəliklərə şəfa verən qüdrətli bir həkim kimi obrazlaşdırılmışdır.

M

"MADAY KARA" DASTANI – türk xalqlarının qəhrəmanlıq dastanları silsiləsinə daxildir. Ozan-aşıq mədəniyyətinə məxsus alplıq-qəhrəmanlıq eposları ilə sıx əlaqələrə, genetik baglantılara malikdir.

"Maday Kara" dastanı 1948-ci ildə Sazon Saymoviç Surazakov tərəfindən altaylı el sənətkarı Aleksey Qriqoryeviç Kalkindən yazıya alınıb. Sonradan bu dastan 1963-cü ildə həmin el sənətkarından təkrarən yazıya alınır. 7739 misradan ibarət olan bu mətn 1973-cü ildə "Altayskiy qeroiçeskiy epos" adı ilə Moskvada nəşr olunur. Professor Bilgə xanım Seyidoğlu, professor Əminə Gürsoy-Naskalı, professor Mahmud Allahmanlı, Salaheddin Bekki dastanla bağlı geniş araşdırmalar aparmışlar. Altay türklərinin dastanları ilə bağlı araşdırmalar XIX əsrin ortalarından başlayır. V.V.Radlovun, A.Krımskinin, Y.E.Bertelsin, V.A.Qordlevskinin və başqalarının fəaliyyətləri buna nümunədir. 1859-cu ildən 1871-ci ilə qədər Altay türkləri arasında qalmış olan V.V.Radlov çox böyük işlər yerinə yetirmiş, xalq arasından müxtəlif folklor nümunələrini toplayaraq nəşr etdirmişdir. On cildən ibarət olan bu əsər almancadan türkcəyə tərcümə olunaraq yayımlanmışdır. Altay türklərinə aid dastanlar isə onun birinci cildində yer alıb. Ən geniş külliyyat isə on bir cilddə S.S.Surazakov tərəfindən hazırlanmışdır. Bu dastanların öyrənilməsi işinə Türkiyədə 1990-cı ildən sonra başlanmışdır. Bundan əvvəl isə Abdulqadir İnan, Bahəddin Ögel, Mustafa Necati Səbətçioğlu, Şükrü Elçin və başqaları Altay türklərinin folkloru ilə bağlı fikirlər söyləmişlər. Altay türklərinin dastan yaradıcılığı ilə bağlı ilk kitab Metin Ergin tərəfindən 1997-ci ildə Altay türklərinin qəhrəmanlıq dastanı Alp Manas" Konyada çap olunmuşdur. İkinci nəşri 1998-ci ildə Ankarada həya-

ta keçirilmişdir. "Maday Kara" dastanının toplanması haqqında məlumat verən tədqiqatçı S.S.Surazakovdur. O yazır: "A.G.Kalkin ilk dəfə yeddi yaşında babası – o da ünlü bir kayçıdır – G.İ.Kalkindən dinlədiyi "Maday-Kara" dastanını ancaq on yeddi yaşında usta bir kayçı olaraq kaylamaya başlamışdır". (Dastan söyləyicisinə "kayçı" deyilir, "kaylamaq" ifadəsi də dastan söyləmək anlamına gəlir.) Tədqiqatçı burada maraqlı bir əfsanəyə diqqət yetirir. Bu, musiqi alətinin düzəldilməsi ilə bağlıdır. "Kayçı adı verilən anlatıcılar dastanları "topşuur" deyilən bir saz vasitəsilə anladırlar". "Maday-Kara" ingiliscə İtaliyada 1986-cı ildə, almanca 1995-ci ildə, Türkiyədə 1999-cu ildə çap olunmuşdur. "Maday-Kara" dastanında Maday – Karanın oğlu Kögüdey-Mergenin qarşısına Erlikin oğlu Kuvakayçı çıxır. Qəhrəman Erlikin ətrafını yendikdən sonra onun özü ilə savaşır və qələdə çalır. Altay dastanlarında qəhrəmanın kənardan evlənməsi məsələsi ilə yanaşı öz elindən evlənməsi hadisəsi də bir xətt kimi nəzərə çarpır. Hətta aparıcı xətdə görünür. "Maday-Kara"da Kögüdey-Mergen atasının (Kara Kula Kağan) ölümündən sonra dünyaya gəlir. Atasının düşmənlərini uzun müddət bilmir. Kimsəsiz olduğu üçün onu quşlar, atlar, ilahi varlıqlar himayə edir. Qəhrəman burada röya vasitəsilə ata-anasının düşmənlərini atdan öyrənir. Hansı ki, həmin at sonralar onun yardımçısına çevrilir. Əsir edilmiş xalqını əsirlikdən qurtarır. Maday-Kara soyun banisidir. Dastan da onun adına yaranmışdır. "Maday-Kara" dastanında hadisələr iki bölümdə ümumiləşdirilir. İlk hissədə Kara-Kulanın yaşlı bahadır Maday-Kara üzərinə hücumu, ailəsini, elini əsir edib aparmasından bəhs edilir. İkinci hissədə isə Maday-Karanın oğlu Kögüdey-Mergenin babasını və xalqını qurtarmaq üçün müharibə aparmasından bəhs edilir. Bu savaşda ona bilgi verən atı olur. O, düşmənə qalib gəlmək üçün onun ruhunu ələ keçirməyin gərəkliyini öyrənir. Burada Kögüdey-Mergen şaman təsiri də bağışlayır. Düşmən ruhunu ələ keçirdikdən sonra bahadır atasını, elini xilas edir. İkinci səfər evlənmə ilə bağlıdır. Kögüdey-Mergen burada da çox sınaqlardan çıxır. Altun-Küsküyü alaraq evinə dönür. Xoş və firavan həyat sürən bahadırın atası Maday-Kara və anası Altun-Tarğa vəfat edir. Kögüdey-Mergen üçüncü dəfə səfərə çıxır. Bu dəfə o, Erliki, yeraltı dünyanın hakimini öldürmək üçün gedir. Bu bir növ ölümsüzlüyə çatma təsiri də bağışlayır. Maday-Karanın atının adı Kara Kaltar, Kögüdey-Mergeninki Köktorboro, Kara-Kula Kağanınkı isə Karasuridir. Dastanın sonunda bahadır və xanımı ulduz olub göylərə yüksəlirlər.

MAHMUDBƏYOV MAHMUDBƏY (1849, Şamaxı qəzası –1923, Bakı)



folklorşünas, pedaqoq, ictimai xadim. Qori Müəllimlər seminariyasında təhsil almışdır. Müəllimlik etmişdir. Bakıda dördüncü rus-tatar (rus-Azərbaycan) məktəbinin müdiri olmuşdur (1898-1918). "İlk qiraət" (1908), "Birinci il" (1909), "İkinci il" (1909) C.Əbdürrəhmanzadə ilə birlikdə), "Yeni məktəb" (üçüncü sinif üçün, 1909,

A.Səhhətlə birlikdə) və s. dərsliklərin müəllifidir. "Rəhbər" adlı pedaqoji jurnal nəşr etdirmişdir (1905-1907). Ana dilinin saflığı uğrunda yorulmadan mübarizə aparmışdır. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra Xalq Maarifi Komissarlığında işləmişdir. Yeni tipli məktəblərin yaradılmasında fəallıq göstərmişdir. Xalq ədəbiyyatının toplanması sahəsində folklorşünas kimi xüsusi xidmətləri olmuşdur. Aşıq yaradıcılığının toplanması isə onun folklorşünaslıq fəaliyyətinin mühüm bir hissəsini təşkil edir. "Aşıq Qərib", "Molla Qasım", "Abbas və Gülgəz" dastanlarının toplanması və nəşrində mühüm əməyi vardır. M.Mahmudbəyov topladığı nümunələri rus dilinə tərcüməsi ilə birlikdə nəşr etdirmişdir. Xalq ifadələrinə, idiomatik məfhumlara, rəvayətlərə, dini istilahlara maraqlı şərhlər yazmışdır. Xalq poeziyası ilə bağlı maraqlı qənaətləri olmuşdur. Hekayə və şeirin növbələşməsi ilə səciyyələnən külli miqdarda nümunələrin olduğunu göstərir. Onlarda xalqın dünyagörüşünün, fəlsəfəsinin qərarlaşdığını vurğulayır. M.Mahmudbəyov aşıq sənəti, dastanlar haqqında da diqqətçəkən mülahizələr yürütmüşdür. Aşıqları improvizator, peşəkar olmaqla, iki yerə ayırmışdır. "Koroğlu" dastanı ilə bağlı mülahizələri özünün elmi dəyəri ilə böyük əhəmiyyət daşıyır. "Qaçaq Kərəm" dastanını "Koroğlu"nun təsiri altında yaranmış dastan hesab edir və Qazax-Borçalı tərəflərdə "Koroğlu" dastanı qədər məşhur olduğunu vurğulayır.

MAHMUDOV AYDIN XUDAVERDİ (XUDU) OĞLU (1968, Tovuz rayonu, Yanıqlı kəndi – Bakı) – Sazbənd və solo saz ifaçısı. Məşhur sazbənd Usta Xudunun ailəsində dünyaya gəlmişdir. 1975- 1985-ci illərdə orta məktəbdə oxumuşdur. Aşıqlar Birliyinin Gəncə şöbəsinin nəzdində təhsil alaraq solo-saz ifaçılığına yiyələnmişdir. Aydın sazbənd kimi tanınmışdır. Qardaşı Fərmanla birlikdə sazbəndliklə məşğul olur. Düzəltdiyi sazlar Azərbaycanla yanaşı Türkiyə, İran və Gürcüstanda gheniş yayılmışdır. Atası Usta Xudunun sazbəndlik sənətini ləyaqətlə davam etdirir. Üç yüzə yaxın saz düzəltmişdir.

MAHMUDOV EMİN SABİT OĞLU (1937, Bakı – 2000) – bəstəkar, Əməkdar incəsənət xadimi (1978), Xalq artisti (2000), Dövlət mükafatı laureatı (1987). "Şöhrət" ordeni ilə təltif olunmuşdur (1997). Ü.Hacıbəyli adına ADK-nın bəstəkarlıq sinfində (Q.Qarayev) oxumuşdur (1954-1956). P.Çaykovski adına MDK-nın bəstəkarlıq sinfini (Y.Şaporin) bitirmişdir (1956-1961). "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru (1961-1967), ADF-nin bədii rəhbəri (1967-1968) olmuşdur. 60-cı illərin axırlarından ömrünün sonunadək ADK-da əvvəlcə Q.Qarayevin assistenti, sonralar müəllim, dosent (1979) və professor

(1994) vəzifəsində çalışmışdır. O, iki simfoniya, 2 kantata, 9 musiqili komediya yazmış, 22 tammetrajlı filmə (“Bizim Cəbiş müəllim”, “Gün keçdi”, “İstintaq”, “Yaramaz", “Təhminə", “Bəyin oğurlanması”, “Həm ziyarət, həm ticarət”, “Ad günü”, “Qaçaq Nəbi” və s.), televiziya və dram tamaşalarına musiqi bəstələmişdir. 700-dən artıq mahnı yazmış, yaradıcılığında milli melosu estrada musiqisi, caz musiqisi ünsürləri ilə ustalıqla birləşdirmiş və Azərbaycan musiqi tarixinə ilhamlı, sevilən mahnıların müəllifi kimi daxil olmuşdur. “Dərələr”, “Sənin üçün”, “Ağ çiçək”, “Bəlkə”, “Çay”, “Bakı, sabahın xeyir’, “Uzaq, yaşıl ada”, “Can Azərbaycan”, “Kəpənək”, “Şükriyyə”, “Neyləyim”, “Əlvida”, “Bu gecə”, “Sən olmuşam”, “Bağışla” və b. Mahnıları, ilk növbədə, gözəl melodiyası ilə fərqlənir, milli mahnı irsinin ən parlaq nümunələri sırasındandır.

Bəstəkarın “Dədə Qorqud” filminə yazdığı musiqi onun dərin köklərlə xalq musiqi mənbələrinə, aşıq yaradıcılığına bağlılığını ifadə edir. Burada səslənən mahnı nikbin, səmimi, yaddaqalan melodiyası ilə hadisələrin baş verdiyi dövrün, mühitin ilıq əks-sədası kimi filmin leytmövzusuna çevrilmişdir və filmin ideya-dramaturji konsepsiyasının tənzimləyicisi, başlıca emosional qüvvəsi funksiyasını daşıyır. Ə.Cavadın sözlərinə yazdığı oynaq, nikbin ovqatlı “Gəncədən gəlirəm”, “Aşığın arzuları” televiziya tamaşasına yazılmış, canlı, şirin aşıq ritm-intonasiyalarından qaynaqlanan “Aşıq Gəncəli dağlar” (bayatılar əsasında) kimi musiqi nümunələri “xalq mahnısı” statusu almış mahnılar sırasındandır. Qeyd edək ki, bəstəkarın əsərləri siyahısında “Aşıq Dilqəm” kantatası (4 hissəli) xüsusi yer tutur.

MAHMUDOV XALIQVERDİ HƏMİD OĞLU (1928, Kəlbəcər rayonu, Zivel kəndi – 2018, Goranboy rayonu) – Aşıq Şəmşirin ilk şagirdlərindən

olmuşdur. “Xalıqverdi Həmidoğlu” imzası ilə yazıb yaratmışdır. Dastançı aşıq kimi tanınmışdır. “Qurbani”, “Aşıq Qərib”, “Abbas və Gülgəz”, “Əsli və Kərəm”, “Çoban Məhəmməd və Səlbi Xuraman” və s. dastanlar repertuarında daha çox yer almışdır. Klassik saz havalarının dərin biliçilərindən sayılmışdır. Kəlbəcər rayon Aşıq Şəmşir adına Mədəniyyət Evində çalışmışdır. Bənzərsiz dastançılıq məharəti ilə seçilmişdir. Yaradıcı aşıq olmuşdur. Aşıq şeiri tərzində yazdığı örnəklər müxtəlif toplularda getmiş, “Oyandım ki, oba köşüb, el köçüb” şeirlər kitabı nəşr olunmuşdur (2010). Aşıq Xalıqverdinin atası Həmid də saz şairi kimi poetik örnəklər yaratmış və “Həmid Bağırlı” imzası ilə yaddaşlarda qalmışdır.

MAHMUDOV XUDAVERDİ (XUDU) YUSİF OĞLU (1932, Tovuz rayonu, Yanıqlı kəndi – 2004)– Tovuz mühitinin yetişdirdiyi nadir istedad sahibi olan sənətkarlardandır. Atası da dövrünün tanınmış taxta-ağac ustalarından olmuşdur. Gəncə Dövlət Pedaqoji İnsti-



tutunda oxumuşdur. Ali təhsilini başa vurduqdan sonra anadan olduğu kənddə müəllimlik etmişdir. Ağac ustalığına meyil onda 1950-ci ildən yaranmışdır. Bu həvəs onu sazbəndliyə gətirib çıxarmışdır. Az bir müddət ərzində Azərbaycanda və ondan kənarda, sazbənd kimi məşhurlaşmışdır. Saz düzəltməkdə ona ilk köməkliyi qonşu Tatar kəndində Aşıq Nuru göstərmişdir. Tovuz, Şəmkir, Gəncə, Qazax, Gədəbəy, Borçalı və digər regionlarda sənətkarlar onun düzəltdiyi sazdan istifadəyə həmişə üstünlük vermişlər. Türkiyədə, İranda, Orta Asiyada onun düzəltdiyi sazlar unikal sənət nümunələri kimi qorunur. Usta Xudunun oğlu Fərmanla düzəltdiyi saz 1990-cı ildə o zamankı Türkiyə prezidenti Turqut Özala hədiyyə verilmişdir.

Usta Xudu sazbənd kimi adını saz sənəti tarixinə qızıl hərflərlə yazmışdır. Bu gün sazbəndlər və aşıqlar arasında "Xudu sazı" xüsusi sənət çəkisinə malik bir musiqi aləti kimi qəbul olunur.

MAHMUDOV FƏRMAN XUDAVERDİ (XUDU) OĞLU (1965, Tovuz rayonu, Yanıqlı kəndi-Bakı) – Solo saz ifaçısı və sazbənd. Usta Xudunun ailəsində dünyaya gəlmişdir. Uşaqlıqdan

saza-sözə böyük maraq göstərmişdir. Solo saz ifaçılıq yolunda Ədalət Nəsibov məktəbini umurla davam etdirir. Atasının yanında sazbəndlik sənətinin sirlərini də dərindən öyrənmişdir. Usta Xudu dünyasını dəyişdikdən sonra bu sənəti davam etdirir. Minə yaxın saz düzəltmişdir. Əlindən çıxan sazlar Türkiyə, İran, Gürcüstan, Fransa və Rusiyada da böyük şöhrət qazanmışdır. O həm də istedadlı solo-saz ifaçısı kimi tanınır.

MAHNI – lirik şeirin ən qədim növlərindəndir. Mahnı xalqın qəlbidir, mənəviyyatı, daxili aləmi, fikri, hissi, düşüncələri, iztirabları, sevinc və kədəridir, mahnı xalqın özüdür. Mahnılarına görə xalqın həyat tərzini, toyunu, yasını, mübarizəsini müəyyənləşdirmək mümkündür.

Saz, söz, mahnı – bunların tərcümanı olan sənətkar qədimdən bəri Azərbaycanda müqəddəs sayılıb. Oğuzlardan aman diləmək üçün düşmən son anda əlinə qopuz götürərmiş. Ən böyük qəhrəmanlar belə sazın, sözün təsirini qılıncdan kəsərli, toppuzdan zərbəli hesab etmişlər. Ozan, ağsaqqal, dədə, söy söyləyən, boy boylayan Qorqud eyni zamanda sərkərdə olmuşdur. Şah İsmayıl Xətayi, Koroğlu mahnıları ilə qılıncdan daha çox iş görmüşlər.

Mahnı xalqın həyata baxışıdır, dünyagörüşü və psixologiyasıdır. Xalq mahnı ilə dostu qarşılamış, düşmənləri ana yurdundan qovub çıxarmışdır. Bu baxımdan xalq mahnılarının folklorun digər janrları içərisində mühüm mövqeyi qeyd edilməlidir. Şübhəsiz, hər bir xalqın mahnıları mövzu etibarilə rəngarəngdir. Mahnı həmişə və hər dövrdə musiqi ilə sıx əlaqədə olmuşdur. Həm sözlər,

həm də hava bir-birilə qarşılıqlı inkişaf etmişdir.

Mahnılar, çox ehtimal ki, xalqın ilk yaradıcılıq nümunələridir. Onlar əsrlər boyu müəyyən inkişaf mərhələləri keçmişdir. Mahnıları mövzulara görə müxtəlif qruplara bölmək olar. Məlumdur ki, hələ çox qədim zamanlarda azərbaycanlılar əmək prosesində, yaxud müxtəlif mərasimlərlə əlaqədar mahnılar oxumuşlar. Bundan başqa, tarixi hadisə və şəxsiyyətlərlə əlaqədar mahnılar da vardır.

Mahnı xalqın qəlbindən qopub gələn əks-səda olmaq etibarilə onun gündəlik həyatında, əmək və mübarizəsində mühüm rol oynayan ən çevik folklor janrlarından biridir. Ü.Hacıbəyli göstərir ki, «El mahnıları Azərbaycan xalqının əhvali-ruhiyyəsini şərh, zövq musiqisini bəyan, şeir və musiqidəki yaradıcılıq qabiliyyətinin dərəcəsini təyin edə bilən böyük bir material olduğundan onun istər maddi, istər ədəbi, istər psixoloji, istər etnoqrafik əhəmiyyəti çox böyükdür».

Bülbül Məmmədovun təşəbbüsü ilə xalq nəğmələrindən ibarət mahnılar kitabçaları (1936, 1956, 1958) çap olunmuşdur. Sonralar «Xalq mahnıları» (1961), «Mahnılar» (1967) «Azərbaycan xalq mahnıları» və s. kitablar çap olunmuşdur. Son illərdə nəşr edilən «Azərbaycan folkloru antologiyası»nı çoxcildliyini (1994-2015) və on cildlikdən ibarət "Azərbaycan musiqi antologiyası"nı (2009-2011) xüsusi qeyd etmək lazımdır. Bu nəşrlərdə xeyli sayda aşıq mahnısı yer almışdır.

Naibə Rzayeva "Azərbaycan xalq mahnılarının poetik xüsusiyyətləri" mövzusunda (2007) dissertasiya işi müdafiə etmiş və monoqrafiya buraxmışdır (2009).

MAQOMAYEV ƏBDÜLMÜSLÜM MƏHƏMMƏD OĞLU (1875, Qroznı – 1937, Bakı) – Azərbaycan bəstəkarı, dirijor, ictimai xadim. Opera teatrının direktoru, bədii rəhbəri və dirijoru olmuşdur. (1924-1929). Azərbaycan professional musiqi sənətinin formalaşması və inkişafı yolunda Ü.Hacıbəyli ilə yanaşı addımlamışdır. "Şah İsmayıl" və "Nərgiz" operalarının, kinofilmlərə, dram tamaşalarına musiqinin, kütləvi mahnıların, orkestr əsərlərinin müəllifidir. Bütün opera tamaşalarına dirijorluq etmişdir. Qori Müəllimlər seminariyasında oxuyarkən Azərbaycan xalq havalarını toplamağa, nota köçürməyə başlamış, xor üçün işləmiş, 1927-ci ildə isə ən yaxın dostu və məsləkdaşı Ü.Hacıbəyli ilə birlikdə "Azərbaycan türk el nəğmələri" toplusunu nəşr etdirmişdir. "Həştərxana gedən", "Gəl-gəl", "Bağçadan gələn", "Qalalıyam" və b. el nəğmələrini nota salmışdır. M.Maqomayev ustad aşıq İslam Yusifovun ifasından yazıya alıdığı "Şah İsmayıl" dastanı əsasında yaratdığı eyni adlı (1916, yeni redaktələr – 1925, 1930) operasının III pərdəsinin I şəklində "Atlı Kərəmi" aşıq havasından istifadə etmişdir. Aşıq havası orkestr girişinin əsas mövzusunu təşkil

edərək döyüşçü qadın Ərəbzənginin obrazı ilə bağlıdır. "Kərəmi" havası pərdənin musiqisi toxumasında mərkəzi yer tutaraq sonradan obrazın əsas leytmotivinə çevrilir. Operada bəstəkar "Gözəllər gözəli" xalq mahnısından da istifadə etmişdir (II pərdə). İlk orkestr musiqi nümunələrindən biri olan "Azərbaycan çöllərində" rapsodiyasının (3 müstəqil bölmədən ibarət) I bölməsində "Kəsmə şikəstə"nin metr-ritmik strukturundan istifadə edərək sekvensiya xasiyyətli marşvarı musiqi lövhələri yaratmağa nail olmuşdur.

MANAS" – həcminə görə dünyada nəzm halında olan ən böyük folklor abidəsi. Dastan bütünlüklə şeir formasındadır. Ayrı-ayrı hissələri yaranmasından xeyli sonra – XIX əsrdə ilk dəfə Ç.Vəlixanov və V.Radlov tərəfindən yazıya alınmışdır. Lakin epos bütöv halda sovet hakimiyyəti dövrlərində toplanıb nəşr edilmişdir. Bu da özlüyündə sonrakı əsrlərdə dastana bəzi əlavələrin edilməsinə gətirib çıxarmışdır. Belə ki, dastanın məzmunu ilə tanışlıq nəticəsində XVIII və XIX əsrlərə aid müəyyən ictimai-siyasi hadisələrin «Manas» nəğmələrində özünə yer tapır.

«Manas» xüsusi istedadı olan yomokçular tərəfindən ifa olunmuşdur. Dastan variantlarını əzbər söyləmək iqtidarında olan bu şəxslər «manas»çı adlanır. Əsrimizin 50-ci illərində, təxmini hesablamalara görə, Qırğızıstanda 100-ə yaxın manasçı olduğu söylənilirdi. Lakin bunlar içərisində Sayakbəy Karalayevin və Saqımbəy Orozbakovun adı xüsusi qeyd olunmuşdur. Hətta bu iki nadir manasçının yaradıcılıqları qarşılaşdırılarkən tədqiqatçılar birinci şəxsə – Sayakbəy Karalayevə üstünlük vermiş, onun söylədiyi variantı «Manas»ın ən mükəmməl nümunəsi hesab etmişlər. 1885-ci ildə dastanın Radlov tərəfindən ilk nəşrini nəzərə almasaq, «Manas»ın, əsasən, toplanması, nəşri və tədqiqi 20-ci yüzilliyin payına düşür.

Dastan üç əsas qoldan ibarətdir. Manas, onun oğlu Semetey və nəvəsi Setkeyin həyatını, qəhrəmanlıqlarla dolu mübarizələrini özündə əks etdirən bu üç qol dastanın bütün məzmun və ideya çalarlarını əhatə edir. Hər üç bölümdə köçəri və müsəlman qırğız türklərinin çinlilərlə, buddist kalmıklarla, bəzən də türk tayfaları ilə mübarizələri, döyüşləri özünə yer tapır. Lakin birinci bölümdə bu mübarizənin başında Manas, ikinci bölümdə Semetey, üçüncü bölümdə Setkey dayanır.

Ayrı-ayrı «manas» çıların ifa etdikləri variantlarda (məsələn, Saqımbəy Orazbakovun) dastan qəhrəmanı Manasın dövründən əvvəlki əsrlərdə bir neçə

qırğız xanlarının adı çəkilir. Manasın şəcərəsi haqqında məlumat verilir. Bu hal oxucuda, dinləyicidə qəhrəman Manas haqqında kifayət qədər hərtərəfli məlumat əldə etməkdə böyük rol oynayır. Biz həmin hissədə Manasın babalarının, atasının yaşadığı mühitlə tanış olur, özünün dünyaya gəlməsi, uşaqlıq çağları barədə geniş epik təfsilatla üzləşirik.

Orta əsr qəhrəmanlıq dastanlarının xüsusiyyəti kimi, əsərdə bəzi əsatiri, əfsanəvi süjetlər də mövcuddur. Lakin bunlar şərti, rəmzi və ötəri xarakter daşıyır. Daha doğrusu, dastan qəhrəmanının bütün fəaliyyət tarixi gerçəklik, real həyati hadisələr düzümündə əks etdirilir. Ona görə də Manasın qırx çiltənlə rastlaşması, qeyri-adiliyi ilə fərqlənən at və qılınca sahib olması və s. təfərrüatlar onun adilikdə qəhrəmanlaşması və dünyəvi şəxsiyyət olması ehtimallarına ciddi əks-təsir göstərə bilmir. Nəticədə Manasın Kalmık elinə hücumu, onun Çin yürüşü və s. döyüşləri azadlıq uğrunda mübarizələrin, ədalət və zəfər yolunda çarpışmaların real təcəssümünə çevrilir.

Dastanda Manasın xarakteri hadisələr və obrazlar əhatəsində açılır. Eposda Almambet, Kanıkey, Çubak, Bakay, Sırqay, Koşoy, Semetey, Gülçöhrə və b. daha geniş planda Manasla əlaqələndirilir. O cümlədən qırğız elinin Altaydan Ala-Tooqa gəlişi, onların doğma yurd həsrətləri, Manasın atasından ayrılıb Fərqanəyə köçməsi, onun Çin yürüşü zamanı xarüqələr göstərməsi və s. məsələlər Manasın sərkərdə yox, həm də ədalətli, xeyirxah təsiri bağışlamasına gətirib çıxarır.

Manas öz qohumlarının – atası və qardaşlarının da zorakılığına dözə bilmir. Belə xeyirxahlığına və mətanətinə görə camaat Manasın ətrafına toplaşır, onu özünə sərkərdə, Xan qəbul edir. Aclıq illərində Manasdan vaxtilə kömək görən adam minnətdarlığını bildirmək üçün öz atını ona bağışlayır. Qoca bir kişi Manasa "Ağ Kəltə" deyilən silah hədiyyə gətirir. Buxara xanının qəhrəman qızı Kanıkey Manası sevib ona ərə gedir. Xalqa arxalanan Manas başına toplanmış qırx pəhləvanın köməyi ilə Kalmık xanı Alookeni öldürür, vətənini kalmık və Əfqanıstan işğalçılarından azad edir.

Manasın oğlu Semetey on dörd yaşına çatanda Buxaradan Talasa gəlir, əmilərinin müqavimətini qıraraq hakimiyyəti ələ keçirir. Xalq Semeteyin timsalında özünün yeni müdafiəçisini tapır. Semeteyin qohumları onu yıxmaq üçün hər cür hiyləyə əl atırlar. Nəhayət, İlyas xan onu öldürüb, arvadı Açurəyə evlənir. Semeteyin oğlu Setkey gənclik yaşına dolduqca atasının intiqamını alır, babası Manasdan qalma ağ qalxanı, "Ağ Kəltə" deyilən tüfəngi ələ keçirir və nəhayət, Kanıkeyi əsirlikdən qurtarır.

«Manas» dünyada nəzm halında olan ən böyük dastan nümunəsidir. Orada qədim qırğız poeziyasının başlıca nümunələri və janrlarına təsadüf olunur. Çokan Vəlixanovun dediyi kimi, «Manas» dastanı bütün qırğız əsatirini, nağılını, rəvayətini bir zaman daxilində cəmləşdirən bir qəhrəmanın – Manasın ətrafında qruplaşdırılan ensiklopedik bir məcmuədir. Bu bir növ səhra «İlia-da»sıdır. Qırğızların həyat tərzi, adətləri, xasiyyəti, coğrafiyası, dini və tibbi görüşləri və beynəlxalq əlaqələri bu nəhəng epopeyada öz əksini tapmışdır».

1995-ci ildə “Manas”ın 1000 illik

yubileyi beynəlxalq səviyyədə keçirilmiş və Bişkek şəhərində təntənə ilə qeyd edilmişdir.

MANİ (OSMANİ) – zərbi-muğam. "Osmani" adının qısaldılmış variantıdır. "Şur" muğam ailəsinə aid edilir. Zərbi-muğamlara xas olan cəhət – sərbəst ölçülü, improvizasiyalı vokal melodiya və dəqiq ölçülü instrumental musiqinin müntəzəm zərb altında birləşərək səslənməsi və kontrast növbələşməsi havanın özəl xüsusiyyətlərindəndir. Maninin instrumental musiqisi gümrah, marşvarı mövzular əsasında yaranır. Bütün hava boyu bir neçə rəngarəng, coşqun, bayram ovqatlı yeni mövzular bir-birini əvəz edir və yüksələn xətlə inkişaf edir. Vokal melodiya zil pillələrdə improvizasiya olunur və yanıqlı, təsirli ah-nalə intonasiyaları yaradır. Mani zərbi-muğamı "Heydəri" aşıq havasından qaynaqlanmışdır. Hər iki havanın instrumental giriş mövzusu, eləcə də vokal melodiyanın başlanğıc özəyi eynidir. "Heydəri" havası şah pərdə kökündə ifa olunur, instrumental və vokal melodiya kök pərdə zilindən başlanğıc götürür və ona da istinad edir. Mani zərbi-muğamı da eyni melodik-intonasiya, metr-ritmik özəklərdən qaynaqlanır. Xanəndə yaradıcılığında inkişaf etdirilərək genişlənmiş və yeni forma və quruluş əldə etmiş, muğam zəngulələri ilə zənginləşərək təkmilləşmişdir. Ə.Bakıxanov tərəfindən instrumental şəkildə nota salınmışdır. ***Bax: Heydəri.***

"MANSIRI" ("MƏNSURİ") – Obraz-emosional məzmununa görə psixoloji çalarlar ilə zəngin olan qəmgin havalar qrupuna daxildir. Semantik məzmununda "ağı" intoneması önəmli rol oynayır. Daha çox Urmiya və Borçalı aşıqları tərəfindən ifa olunur. Sazda şah pərdə kökündə ifa olunur. İstinad pillələrini yarımpərdə və şah pərdə təşkil edir. "Mansırı" havasının instrumental girişində özək mövzusunun şərhi ritmik cəhətdən sərbəst şəkildə verilir (rubato), sonra isə tempo giusto tərzində variant dəyişiklikləri edilir. Çalğıdakı vəzn "hüceyrələri", ən kiçik ritm-intonasiya formulları kompozisiyanın bütün quruluşunu təşkil edən invariant vahidlərdir. Melobəndin intonasiya məzmunu, əsasən, trixord (f – es – d) üzərində inkişaf edir. "Mansırı" havasının "kvarta diatonikasının kəsişmə nöqtəsində – oxumada müstəqil əksildilmiş məqam əmələ gəlir ki, onun mühüm nişanələrindən əksildilmiş kvarta, məqamın yüksək dərəcədə mərkəzləşməsi və son bəm pərdəsinin intonasiya edilməsi qeyd olunmalıdır. 2-ci növ əksildilmiş məqam quruluşça "Şüştər"in tetraxordu ilə eynidir" (T.Məmmədov). Yığcam ambitusa malik olan melodikası reçitativ-deklamasiya üslubundadır. Vokal hissəsinin metr-ritmik əsasını qeyri-müntəzəm (tempo rubato) vəzn təşkil edir. Havanın ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Melobəndin quruluşunda təkrar prinsipi mühüm formaqurucu əhəmiyyətə malikdir. Havanın kompozisiyası musiqi cümlələri və motivlərinin təkrarı üzərində qurulmuşdur. Havanın melosətirlərinin heca-ritmik təşkilində sezura məqamı qeyri-sabitliyi ilə seçilir. "Mansırı" havasında melopoetik əlavələr mühüm formaqurucu və semantik funksiyalar yerinə yetirir. Hər melobəndin başlanğıcında, melosətirlərin ortasında və sonunda melopoetik

əlavələr səslənir. Mətndənkənar seqmentlərin əsas funksiyası havanın semantik məzmununu əlavə kədərli, həsrətli çalarlarla zənginləşdirməkdən ibarətdir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

MARAĞİ ƏBDÜLQADİR (XACƏ ƏBDÜLQADİR İBN QEYBİ ƏL-HAFİZ ƏL MARAĞİ) (1353, Marağa –1435, Herat) – Azərbaycan musiqişünas alimi, bəstəkar, müğənni, ud ifaçısı, şair. "Came əl-Əlhan", "Məqasid əl-əlhan", "Şərh-əl Ədvar", "Favaid əşərə", "Kənz əl-əlhan" (Musiqi əsərləri (təsniflər) toplusu – itmiş hesab olunur) və b. risalələrin müəllifidir. Fərabi, İbn Sina, Səfiəddin Urməvinin musiqi nəzəriyyəsi sahəsindəki elmi fikirlərini inkişaf etdirmişdir. İlk dəfə olaraq, 12 əsas məqamdan törəmə 24 şöbə sistemini elmi cəhətdən əsaslandırmış, musiqi alətləri, formaları, ritmik üsullar haqqında yeni fikirlər söyləmişdir. Ə.Marağainin risalələrində ozan-aşıq sənəti haqqında qiymətli məlumatlar vardır. ("Melodiyaların məqsədi") əsərində qopuz aləti və onun iki növünün adı çəkilmişdir. I – "ozan" adı ilə tanınan çalğı aləti: üçsimli, çanağı (kasası) başqa alətlərlə müqayisədə daha uzun və üzünün altıda dörd hissəsinə dəri çəkilmiş, qalan hissəsi isə ağacdan düzəldilmiş alət: "Ozanların qopuzu ayrı-ayrılıqda bağlanan üç simdən ibarətdir. Aşağı simlə orta sim kvarta (zil-

ərbəa), orta simlə yuxarı sim isə bir ton (tanini) əmələ gətirir. Bəzi hallarda bir qısa sim də əlavə olunur. Onun çanağı digər simli alətlərin çanaqlarından daha uzundur. Mizrabı ağacdandır. Bu alətin müşayiəti ilə nəsrlə ifa olunan türk dastanları və ritmik melodiyalar çalınır". Ə.Marağai qopuzun II növünü "rum qopuzu" adlandırmışdır (qopuzi-rumi – yəni Anadolu qopuzu). Bu növ qopuz udabənzər olmuş, qoluna beş sim bağlanmışdır. Ə.Marağai yaradıcılığının ilk tədqiqatçısı musiqişünas S.Ağayeva "Əbdülqadir Marağai" əsərində "Favaid əşərə" risaləsinə istinadən saz alətinin öz quruluşuna görə (kvarta-kvinta əsası) "Kitabi-Dədə Qorqud" eposundakı qopuzla (qopuzun prototipi) bilavasitə əlaqəli olmasını üzə çıxarmışdır. Marağainin "Favaid əşərə" risaləsində aşıq sənəti ilə bağlı məlumatlar "Alətlər və janrlar" bölmələrində əks olunmuşdur. Əsərdə qopuzi-rumi, ozanla yanaşı, şıdırğu, sazi-dolab kimi alətlərin və instrumental ritmik musiqi olan "Pişrov" və başqa janrların adı çəkilmişdir.

MANSUROV MİKAYIL ALMƏMMƏD OĞLU (1908, Goranboy rayonu, Cinli-Borsunlu kəndi – 1981) – Yaradıcı aşıq olmuşdur. Atası Alməmməd kasıb bir həyat keçirmişdir. Varlıların

torpaqlarını əkib-becərməklə ailəsini dolandırmışdır. Mikayıl 1931-ci ildə atasını itirmişdir. Kənddə açılan məktəbdə dörd il təhsil almışdır. Aşıqlığa maraq göstərmiş və oxuduğu illərdə aşıq məclislərinə getməyə üstünlük vermişdir. Ustadların yaradıcılığını, saz havalarını məclislər yolu ilə öyrənməyə başlamışdır. 1928-ci ildən məclislər aparmışdır. Qoşma, gəraylı və təcnisləri dillər əzbəri olmuşdur. Göranboyda, Gəncəbasar tərəflərdə ustad sənətkar kimi tanınmışdır. III Aşıqlar Qurultayının iştirakçısı olmuşdur (1961).

MARŞ (fransız: marche – addlımlamaq, irəli hərəkət etmək) – kollektiv yürüşü müşayiət etmək üçün yaranmış musiqi janrıdır. Aşıq musiqisində marş xarakterli nümunələr mənşə etibarilə "Koroğlu" eposuna aid olan havalar silsiləsinə daxildir. Şirvan aşıq mühitinə xas olan "Eyvazı" eləcə də qocaman Tovuz aşıqları tərəfindən ifa olunan "Osmanlı Koroğlu" havaları musiqi üslubu baxımından marş janrına aiddir.

MEHDİPUR ÇİNGİZ HƏBİB OĞLU (1961, Qaradağ mahalı, Xudafərin rayonu, Şeyx Hüseynli kəndi–Təbriz) – Təbriz-Qaradağ aşıqlıq ənənəsinin yetişdirdiyi istedadlı solo-saz ifaçısı və musiqişünasdır. İlk təhsilini Vinə kəndində almışdır. Kəleybərdə, Təbrizdə təhsilini davam etdirmişdir. Sonra Tehranda musiqi təhsili almışdır (1983). Aşıq sənətinə böyük maraq göstərmişdir. Dövrünün ustad sənətkarlarından olan əmisi Aşıq Eynullanın yanında şagird durmuşdur. Aşıq sənətinin sirlərini, dastanları, saz havalarını ondan öyrənmiş və müstəqil aşıqlığa başlamışdır. Tehranda Hüseyn Əsədinin də yanında şagird olmuşdur (1981). Hüseyn Əsəddən həm aşıqlığın sirlərini, həm də sazbəndliyi öyrənmişdir. 1976-cı ildən aşıqlığa başlamışdır. Beynəlxalq miqyasda böyük şöhrət qazanan "Dalğa" qrupunu yaratmışdır (1990). Azərbaycan, Türkiyə, Gürcüstan, Orta Asiya, Yaponiya, Çin, Almaniya, Hollandiya və digər ölkələrdə konsertlər vermişdir. 2011-ci ildə Bakıda H.Əliyev Sarayında "Dalğa" qrupunun 20 illiyi münasibətilə böyük hesabat konserti olmuşdur. 2016-cı ildə H.Əliyev sarayında Azərbaycan Aşıqlar Birliyinin dəstəyi ilə "Dalğa" qrupunun 25 illiyi Bakı və Təbriz aşıqlarının birgə konserti ilə qeyd edilmişdir. Eyni üslubda konserti 2019-cu ildə də təkrar etmişdir.

Cənubi Azərbaycanda ilk dəfə saz havalarını nota almışdır. "Qopuz məktəbi" (Təbriz, 1999), "Saz məktəbi" (Bakı, 2012) kitabları çap olun- muşdur.

MEHDİYEV CƏMİL İSGƏNDƏR OĞLU (1907, Gəncə, Bağmanlar qəsəbəsi – 1979) – Gəncəbasar aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. 1915-1923-cü illər arasında Bağmanlar məktəbində oxumuşdur. Aşıqlığa erkən yaşlarından marağı olmuşdur. Ustadların

yaradıcılığını, dastanları mükəmməlliklə öyrənmişdir. 1923-cü ildən aşıqlığa başlamışdır. Atası İsgəndər də dövrünün tanınmış aşıqlarından olmuşdur. Sənətin sirlərini ailədə atasından öyrənmişdir. 1928-ci ilə qədər atasının yanında şagird kimi fəaliyyət göstərmişdir. Sonra müstəqil aşıqlığa başlamış, Gəncəbasarda istedadlı sənətkar kimi tanınmışdır.



Ustad sənətkar İslamYusifovun Gəncədə yaratdığı aşıqlar ansamblının üzvü olmuşdur (1951-1963). Yumsaq, məlahətli səsi ilə seçilmişdir. III Aşıqlar qurultayının nümayəndəsi olmuşdur (1961).

MEHDİYEV ELMAN (ELMAN TALISTANLI) MƏLİK MƏMMƏD OĞLU (1966, İsmayıllı rayonu, Talıstan kəndi) – Bakı Mədəni-Maarif texnikomunu bitirmişdir. Ustad sənətkar Aşıq Yanvar Bədəlovdan sənət dərsi almışdır. "Elman Talıstanlı" imzası ilə tanınır. Özünəməxsus ifa tərzi vardır. Zil və şaqraq səsə malikdir. "Koroğlu" havalarının gözəl ifaçısıdır. Şirvan dastanlarının dəyərli bilicisidir. Xoreoqrafik-rəqs keyfiyyətləri ilə seçilir. Aşıq şeirinin müxtəlif şəkillərində poetik örnəklər yaradır. Ayrı-ayrı toplularda şeirləri çap olunmuşdur. Bir çox beynəlxalq festivalların iştirakçısıdır. Aşqıların VI Qurultayının nümayəndəsidir (2018).

MEHDİYEV ƏLİ MƏHƏRRƏM OĞLU (1901, Borçalı mahalı, Gorarxı, Təzəkənd kəndi – 1992) –Borçalı aşıq mühitinin yetişdirdiyi sənətkarlar- dandır. Dərəçiçəkli Aşıq Alının yanında beş il şagird olmuşdur. Onun köməkliyi ilə aşıqlığın sirlərini, saz havalarını, ustadların yaradıcılığını, dastanları mənimsəmişdir. Bir aşıq kimi sənətə bələd olduqdan sonra müstəqil aşıqlıq fəaliyyətinə başlamışdır. Klassik dastanların dərin bilicisi kimi ad çıxartmışdır. Sazı, sözü ilə Borçalıda, ondan kənarda məşhurlaşmışdır. Dövrünün tanınmış aşıqlarından sayılmışdır. Çoxsaylı şagirdlər yetişdirmişdir.

MEHDİYEV HƏMZƏ QƏLƏNDƏR OĞLU (1908, Tovuz rayonu, Bozalqanlı kəndi – 1981) – Əmisinin himayəsində yaşamışdır. Xeyli çətin həyat sürmüşdür. Gəncliyindən aşıq sənətinə həvəs göstərmişdir. Onun həvəsi, musiqi duyumu, səsi sənətə gəlməsinə səbəb olmuşdur. Bozalqanlı Aşıq Qədirə şagird olmuşdur. Aşıq sənətinin sirlərini ustadından və digər tanınmış Tovuz aşıqlarından mənimsəmişdir. Tovuz aşıq mühitində ifaçı sənətkar kimi tanınmışdır. Qədim saz havalarını, dastanları mükəmməl bilmişdir. III Aşıq qurultayının iştirakçısı olmuşdur (1961). Ustad sənətkar kimi Gəncəbasarda tanınmışdır.



MEHDİYEV QARDAŞXAN MUSA OĞLU (1935, Kəlbəcər, Zar kəndi – 2015 Bərdə) – Aşıq Şəmşirə qulluq edərək sənətin sirlərini ustadından mükəmməlliklə öyrənmişdir. Kəlbəcər mühitinin yetişdirdiyi unudulmaz ustadlardandır. Orta təhsilli olmuşdur. 18 yaşından aşıqlığa başlamışdır. Zil, şaqraq və məlahətli səsi ilə şöhrət qazanmışdır. Göyçə, Kəlbəcər, Qarabağ və Gəncəbasar mahallarında Aşıq Qardaşxan çal-çağırına yüksək dəyər verilmişdir. "Koroğlu" havalarının mahir ifaçısı sayılmışdır. Dastançı aşıq kimi böyük şöhrət qazanmışdır. "Abbas və Gülgəz", "Valeh və Zərnigar", "Qurbani", "Tahir və Zöhrə", "Aşıq Qərib" kimi dastanlar repertuarında daha çox yer almışdır. Gəncəli Əkbərov, Yaşar İbadov, Əhliman Məmmədov və başqa sənətkarlar ondan aşıqlığın sirlərini öyrənmişlər. Dövlət tədbirlərində və beynəlxalq festivallarda iştirak etmiş, çoxlu mükafatlar almışdır. Kəlbəcər aşıqlar ansamblının ən fəal üzvlərindən biri olmuşdur. Aşıqlarının IV Qurultayının iştirakçısı olmuşdur (1984). "Dağlar gözləsin məni" adlı şeirlər kitabı çıxmışdır (2011).

MEHDİYEV MANSIR ZEYNALABDİN OĞLU (1939, Tovuz rayonu, İbrahim Hacılı kəndi – 2006) – Tovuz aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. İkinci Dünya müharibəsindən sonra orta məktəbdə təhsil almışdır. Aşıq sənətinə xüsusi maraq göstərmişdir. Sənətin sirlərini öyrənmək üçün Şəmkirdə ustad Aşıq Murad Niyazlıya şagird olmuşdur. Mansır on il Aşıq Muradın yanında klassiklərin yaradıcılığını, dastanları, saz havalarını öyrənmişdir. Aşıq Mansır gözəl səsə malik ifaçı aşıq kimi Gəncəbasarda mühitində tanınmışdır. Gəncəbasarda toy məclislərində, el şənliklərində, dövlət tədbirlərində həmişə diqqət mərkəzində olmuşdur. Aşıqların III və IV qrultaylarına nümayində seçilmişdir. Sənəti övladları tərəfindən uğurla davam etdirilir.

MEHDİYEV MEHDİ ATƏŞ OĞLU (1923, Zəngibasar mahalı – 1992, Tərtər) – Anadan olduğu Zəngibasarda orta təhsil almışdır. Naxçıvanda ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. 1941-ci ildən müəllimliyə başlamışdır. İkinci Dünya müharibəsində iştirak etmiş (1942-1943) və yaralanıb geri qayıtmışdır. Aşıq Mehdi erkən yaşlarından saza həvəs göstərmiş, dayısı Aşıq Fətulla Allahverdiyevdən aşıqlığı öyrənmişdir. 1950-ci ildən aşıq kimi tanınmağa başlamışdır. Aşıq Mehdi Tərtər rayonuna köçmüş və müəllimliklə yanaşı, aşıqlığı da davam etdirmişdir. Özünəməxsus şirin, səsi, koloritli dastan təhkiyəsi ilə seçilmişdir. Xalq arasında istedadlı yaradıcı aşıq kimi tanınmışdır. Koloritli, dərin məzmunlu şeirləri aşıqlar və el-camaat arasında geniş yayılmışdır.



Şeirləri kitab şəklində bir neçə dəfə çap olunmuşdur. Aşıqların IV Qurultayının iştirakçısıdır (1984).

MEHDİYEV SƏMƏD (CAVAN) İSGƏNDƏR OĞLU (1927, Tovuz rayonu, Köhnəqala kəndi – 1998) – Tovuz

aşıq məktəbinin yetişdirdiyi ustad sənətkarlardandır. Anadan olduğu kənddə səkkizillik təhsil almışdır. Aşıqlığa erkən yaşlarından marağı olmuşdur. Səmədin marağını nəzərə alan atası onu ustad sənətkar Mirzə Bayramovun yanına aparmışdır. Aşıq Mirzənin yanında Səməd ustadların yaradıcılığını, aşıq sənətinin sirlərini mənimsəmişdir. Gəncəbasar mahalında məclislər aparmış və istedadlı bir aşıq kimi tanınmağa başlamışdır. Güclü Koroğluxan səsi və şaqraq oxu qabiliyyəti ilə el-camaatın qəlbinə yol açmışdır. Aşıq şeiri üslubunda qoşma, gəraylı və təcnislər yazmışdır. Şeirlərində "Cavan Səməd" təxəllüsünü işlətmişdir. Zəngin poetik irsə sahibdir. Tovuz aşıqlar ansamblında fəaliyyət göstərmişdir. Rayon və respublika səviyyəli tədbirlərdə fəal iştirak etmişdir. İfası dəfələrlə mükafatlandırılmışdır. Zil, şaqraq, zəngüləli səsi olmuşdur. "Kərəmi" havalarının, xüsusən də "Quba Kərəmi" havasının misilsiz ifaçısı kimi yadda qalmışdır. İfaları Azərbaycan radiosunun "qızıl fondu"nda qorunur. Aşıqların III və IV qurultaylarının iştirakçısı olmuşdur.

MEHDİYEVA KƏMALƏ (KƏMALƏ QUBADLI) MƏHYƏDDİN QIZI (1978, Bakı) – Müasir Azərbaycan aşıq sənətinin öndə gedən qadın sənətkarlarındandır. Uşaqlıqdan sənətə maraq göstərmişdir. Sumqayıtda N.Nərimanov adına mədəniyyət evində saz sinfində oxumuşdur. Aşıq Sədi Abbasov, Bəkir Əhmədov ona sənətin sirlərini, ustadların yaradıcılığını mənimsətmişdir. Cövdət Hacıyev adına Musiqi Texnikumunun saz şöbəsində təhsilini davam etdirmişdir. Orada Aşıq Ulduz Sönməzin tələbəsi olmuşdur. Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsində oxumuşdur (1998- 2002). Daha

sonra həmin universitetdə magistratura pilləsində təhsilini davam etdirmişdir (2002-2004). Aşıq Pəri Məclisinin fəallarındandır. 1997-ci ildən Aşıqlar Birliyinin üzvüdür. Türkiyə, İran, Rusiya, Ukrayna və başqa xarici ölkələrdə folklor festivallarında iştirak etmiş və fəxri mükafatlara layiq görülmüşdür. Yeddi şagirdi vardır. Azərbaycan aşıqlarının V və VI qurultaylarının nümayəndəsidir.

MEHDİYEVA NARGİLƏ (TİNATİN) NƏBİ QIZI 1980, Gürcüstan, Msxeta rayonu, Ksani kəndi-Tiflis) – İstedadlı qadın aşıqlardandır. Altıncı sinfə qədər gürcü dilində təhsil almışdır. 90-cı illərinin əvvəllərində Nargilənin ailəsi Bakıya köçmüşdür. İlqar İmamverdiyevdən saz ifaçılığının sirlərini öyrən-

mişdir. Daha sonra aşıq Tərmeyxan Qurbanovdan Borçalı üslubunda oxumağın incəliklərini mənimsəyib. 1997-ci ildə nənəsi Həmayil xanımın təkidi ilə yenidən Gürcüstana qayıdıblar və burada Nargilə xanımın aşıq kimi püxtələşməsində məşhur solo-saz ifaçısı Gülabı Xındı Məmmədoğlunun böyük təsiri olub. Hazırda Tiflis şəhərində yaşayıb fəaliyyət göstərən Nargilə xanım həm vətəndaşı olduğu Gürcüstan respublikasında, həm də doğma Azərbaycanda Borçalı ifaçılıq ənənəsini ləyaqətlə təmsil edir. Türkiyə, Rusiya, İngiltərə və Almaniyada maraqlı konsert proqramları ilə çıxışlar etmişdir. Tiflis şəhərində azərbaycanlı və gürcü uşaqlara sazın sirlərini öyrədir. Gürcüstanın dövlət televiziyasında "Xəzinə" adlı verilişin aparıcısıdır. Zəngin söz və havacat biliyi vardır. Qzdim Borçalı havalarını ("Mansırı", "İbrahimi", "Sallama gəraylı", "Hicrani" və s.) ustalıqla ifa edir. Gur, şaqraq səsi və çalğı özünəməxsusluğu ilə seçilir. Beynəlxalq festivalların laureatıdır.

MELİZM – melodiyanı bəzəyən kiçik melodik səs hərəkətləri (dönmələri). Azərbaycan musiqisi milli melizmlərlə zəngindir və bu, milli melosun özəl xüsusiyyətidir. XIV yüzillikdə yaşayıb-yaratmış Azərbaycan musiqişünas-alimi Ə.Marağai "Fəvaid əşərə" risaləsində ifaçılar tərəfindən istifadə olunan "təhrirat" (trel) və "mərğulə" (qlissandolu trel) haqqında məlumat vermişdir. Melizm ənənəvi Azərbaycan musiqisinin improvizasiya xasiyyətli olmasından qaynaqlanır. Aşıq vokal musiqisində müxtəlif səpkili melizm formulları qəlibləmişdir: forşlaq tipli bəzək intonasiyası – daha iri ölçülərdə alt və üst aparıcı ton vasitəsilə; üst tersiya vasitəsilə (çox vaxt sekvensiya tipli); qısa forşlaq tipli; müxtəlif mordent, qruppettolar; trel tipli qaynatmalar, iki səs arasında iri ritmik ölçülərdə qlissando tipli eydirmələr, muğam zəngulələrinə bənzər melizmlər və s. Saz ifasında əsasən eyni tip melizmlərdən istifadə olunur.

MELODEKLAMASİYA – musiqi ilə müşayiət olunan ifadəli qiraət. İki müxtəlif ifadə tipinin – musiqi və nitqin birləşməsi. Melodeklamasiya sözün və musiqi səsinin qovuşuğu, ifadəli nitqin musiqi toxumalarına daxil olması və qarşılıqlı təsiri, insanın nitqi ilə söylədiyi sözün "musiqili" qiraətə çevrilməsi deməkdir. Melodeklamasiya bütün Şərq mədəniyyəti, eləcə də Azərbaycan mədəniyyətinə xas olan səciyyəvi cəhətdir (qəzəllərin və ya digər şeir formalarının instrumental musiqinin müşayiəti altında bədii şəkildə söylənilməsi və s.). Melodeklamasiya əsas ifadə üsullarından biri kimi, əsas ideyanın açılması prosesində mühüm bədii priyom kimi, aşıq ifaçılığında müntəzəm olaraq istifadə olunur və hadisələrin inkişaf dinamikasına kontrastlılıq daxil edir, havanın təsir gücünü artırır. Xüsusilə dastan ifaçılığında, eləcə də ənənəvi havaların ifası zamanı poetik mətnin melodeklamasiyası vokal-instrumental ifa ilə növbələşərək təqdim olunur. Aşıq Əsəd Rzayev, İmran Həsənov, Murad Niyazlı, Kaman-

dar Əfəndiyev kimi ustad aşıqlar melodeklamasiya ustası kimi tanınmışlar. ***Bax: Deklamasiya***.

MERACNAMƏ – klassik ədəbiyyatda, xalq poeziyasında Məhəmməd peyğəmbərin merac səfəri ilə bağlı yazılmış şeirlərdir. Merac, mirac – "yüksəlmə", "qalxma" deməkdir. Leylət əl-Merac – Məhəmməd peyğəmbərin merac etdiyi gecə (Qəməri təqvimi ilə 7-ci ay – Rəcəbin 27-si) dini bayram kimi İslamda qeyd edilir. Ona Rəcəb bayramı deyilir. Dini rəvayətə görə, həmin gecə Məhəmməd peyğəmbər göyün üzü ilə Qüdsə əfsanəvi səyahət etmişdir. Oradan isə "nur pilləkəni" ilə qalxaraq Allahla görüşüb söhbət etmişdir. Meraca bəzən "pilləkən gecəsi" də deyirlər. Şərq, eləcə də türk xalqlarının ədəbiyyatında məhz meracla bağlı şeirlər yaranmışdır ki, bu silsilədən yaranan nümunələri meracnamələr kimi bir anlamda təhlil etmişlər. Yunis Əmrənin "Ya Rəbbi Səttarül-Eyyub, səndən dilərəm ümmətim" və s. bu silsiləyə daxildir.

Merac mövzusu aşıq yaradıcılığında da tez-tez xatırlanır. Məhəmməd peyğəmbərin meraca getməsinin təəssüratları (hansı atı minməsi, hansı gündə səfərə çıxması, kimlərlə rastlaşması və s.) müxtəlif aşıq deyişmələrində sorğu mövzusu olmuşdur.

MEY – badə, şərab, piyalə sözləri kimi sufi terminologiyasına aid rəmzi-məcazi sözdür. Ustadların yaradıcılığında, dastanlarda bir rəmzi obraz kimi tez-tez xatırlanır. Həqiqi mənada mey insanı məstliyə düçar edən, ağlı aparan mayedir. Sufi terminologiyasında meyin mahiyyəti daha geniş anlamdadır. Təsəvvüfdə mərifət elmi, ilahi hikmət, Haqq vergisi alma funksiyasında görünür. Vacibül-vücuda bəslənilən məhəbbət və eşqdir. Məhz dastan qəhrəmanlarımızın buta alması, badə qaldırması, qeyri-adiliklərə sahib olması mey vasitəsilə həyata keçirilir. Meydə ilahi duyğunun tədricən təlqin olunması var. Tanrı varlığının dərkindən və ona olan eşqdən məstlik və xumarlıq yaranır. Yəni Tanrı varlığının dərki və ondan doğan sevinc, son olaraq vəcd – əvəzedilməz mənəvi meydir, şərabdır.

MEYDAN AŞIĞI – koroğluxanlara, öz səsi, avazı ilə seçilən, yüksək səsə malik sənətkarlara deyilmişdir. Ü.Hacıbəyli onlara "xan aşıqlar" demişdir. Aşıq Əsəd, Aşıq Musa, Aşıq Mirzə, Aşıq İmran, Aşıq Aslan, Aşıq Şakir, Aşıq Müseyib, Aşıq Əkbər, Aşıq İsfəndiyar və başqa sənətkarlar meydan aşığı kimi şöhrətlənmişlər. Onlar daha çox "Koroğlu" dastanına, qəhrəmanlıqla bağlı dastanların söylənməsinə üstünlük vermişlər. Onlar meydanda-məclislərdə öz çalçağırlarının gurluğu, əzəməti və hərəkətlərinin çevikliyi ilə seçilmişlər.

"MEYDAN KOROĞLU" – "Koroğlu" silsiləsinə daxil olan aşıq havasıdır. Obraz-emosional məzmununa görə qəhrəmanlıq, cəngi havalar qrupuna daxildir. Sazda "Şah pərdə" kökündə ifa olunur. İntonasiya məzmunu kök pərdədən açıq simə qədər ambitusda inkişaf edir. "Meydan Koroğlu" havasının instrumental girişi "Koroğlu havaları" silsiləsi üçün səciyyəvi olan intonemadan – sazın kök pərdəsindən təkan alan və yüksək registrdə səslənən sintaqmadan başlayır. "Meydan Koroğlu" havasının

instrumental girişi 6/8 vəznə əsaslanan rəngarəng ritm-intonasiya komplekslərindən ibarətdir. Epik melodikanın parlaq təzahür forması olan vokal hissəsi qeyri-müntəzəm (tempo rubato) vəzn üzərində qurulmuşdur. Melobəndinin ilk sintaqması sazın kök və ayaq divanin pərdələri üzərində bərqərar olur. Yüksək tessiturada ifa olunan və sazın aşağı hissəsində səslənən instrumental partiya ilə müşayiət olunan başlanğıc seqment emosional gərginliyi ilə səciyyələnir. Havanın məqam-intonasiya inkişafı "Koroğlu" havaları üçün səciyyəvi olan və erkən məqamyaratma prosesində mühüm rol oynayan müxtəlif intonasiya kompleksləri (məsələn, kök pərdə-ayaq divani pərdə-şah pərdə) üzərində qurulur. "Meydan Koroğlu" havasının ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Poetik mətninin əsasını qoşma təşkil edir. Reçitativ-deklamasiya tərzində ifa olunan melosətirlərin klauzula hissəsində hecaların davamlı oxunması müşahidə olunur. Hər melobəndin sonunda melopoetik əlavələrdən sonra qaytarma (son beytin təkrarı) səslənir. Havanın vokal partiyasında qəhrəmanlıq semantikası ilə bağlı olan çoxsaylı çağırış intonemalar, gərgin qlissando, çalğıda isə tremolo və artikulyasiyanın digər növlərindən istifadə edilir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

MEYXANA – meykədə, təkkə, zaviyə, xanəgah, ürfan ocağı, mərifət öyrənilən məkan, ilahi sevginin öyrədildiyi yer anlamını verir. Sufi terminologiyasına aid sözdür. Meyxana son dövr ədəbi-nəzəri fikirdə müxtəlif istiqamətlərdə şərh edilir. "Bədihə" anlamında lüğətlərdə izahı verilir. Bədihə – hazırcavablılıqla, düşünülmədən, birdən-birə deyilən şeir "bədyə»dir. Onları söyləyənlərə isə bədihəxanlar demişlər. Meyxana bir termin kimi bədihəni özündə ehtiva etmir. Meyxana «bu şeirlərin söyləndiyi məclisdir. Şeirin janrının adı deyildir. Meyxanalarda müxtəlif janrlara aid şeirlər söylənmişdir. Amma bunlara bədahətən məclisdə söyləndiyi üçün "bədihə" və ya "bədiyə" də nisbətən uyğun gəlir.

Divan ədəbiyyatı və aşıq yaradıcılığında "meyxana" sırf təsəvvüf səciyyəsi daşıyır və rəmzi-məcazi məna kəsb edir.

Meyxanalar, bədihələr, aşıq deyişmələri hazırcavablıq, sinədən söz demək anlamında eyni düşüncəni sərgiləyir. Aşıq yaradıcılığında deyişmə mahiyyət etibarilə tamamilə başqa səpkilidir. Yəni təkcə hazırcavablığı, qafiyə və söz anlamında fikri çatdırmağı əks etdirmir. Burada aşıqlığın çəkisi, nüfuzu anlamında dini və dünyəvi elmlərə bələdlik, musiqili-poetik sorğu-sual aparma qabiliyyətinə malik olmaq da mühümdür.

"MƏCLİS DİVANİSİ" – Bax: Baş divani.

MƏDHİYYƏ – klassik poeziya və aşıq ədəbiyyatındakı şeir növlərindən biridir. Qədim və orta əsrlərdə şairlərin hökmdarları, onun ailə üzvlərini, yaxınlarını tərifləyən şeirlər mədhiyyənin bir forma kimi yaranmasına səbəb olmuşdur. Bu formadakı şeirlərdə dəbdəbəli ifadələr, süni tərifllər, olduğundan daha çox, hətta layiq olmadığı şəkildə uca tutmalar özünə yer tapır. Ona görə də bu tip

nümunələrdə ilham, fikrin poetik ifadəsi elə də sənətkarlıq hadisəsi səviyyəsində görünmür. Sovetlər dönəmində və ondan əvvəlki dönəmlərdə bu tip şeirlərə tez-tez rast gəlinir. Azərbaycan ədəbiyyatında mədhiyyə nümunələrinə bütün dövrlərdə təsadüf olunur. Klassik Şərq ədəbiyyatında, dünya ədəbiyyatında da mədhiyyələr kifayət qədərdir. Azərbaycan ədəbiyyatında mədhiyyələr, əsasən, qəsidə və məsnəvi formasında yazılmışdır. Mədhiyyəçilik aşıq yaradıcılığında da özünü göstərir. Lakin sənətkarlıq hadisəsi kimi klassik nümunəyə çevrilə bilmir.

MƏFTUN ƏZİZ HƏSƏN OĞLU (1936, Tovuz rayonu, Mülkülü kəndi – 1978) – Tanınmış el şairi Həsən Mülkülünün oğludur. Aşıq şeiri üslubunda yazıb-yaratmış istedadlı el şairidir. Kifayət qədər təbli sənətkar olmuşdur. Məcnunvarı həyat yaşamışdır. Onu çox vaxt zəmanəmizin Məcnunu hesab etmişlər. Orta məktəbin ilk siniflərini anadan olduğu kənddə, daha sonra isə Tovuz şəhərində oxumuşdur. Onuncu sinifdə oxuyarkən sinif yoldaşı Leyla adlı bir qızı sevmişdir. Bu sevgiyə Leylanın anası razılıq verməmişdir. Əziz Leylanı qaçırmış və anası onların xoşbəxtliyinə imkan verməmişdir. Qız Əzizin əlindən alınmış, bədbəxt aşıq isə həbs olunmuşdur. Leylanın anası qızını başqası ilə zorla evləndirmişdir. Bu hadisədən sonra Əziz özünə "Məftun" təxəllüsünü götürmüş və havalanaraq Məcnunsayağı həyat keçirmişdir. Haqqında "Məftun-Leyla" dastanı yaranmışdır. Şeirləri xalq arasında geniş yayılmışdır.

MƏHƏBBƏT DASTANLARI – başqa sözlə desək, xalq romanları, folklorumuzun böyük bir qolunu təşkil edir. Əgər qəhrəmanlıq dastanları ən çox qəhrəmanlıqla, özü də vətən, xalq, azadlıq, istiqlaliyyət uğrunda döyüşlərlə əlaqədardırsa, xalq romanları nisbətən dinc yaşayış dövrünün məhsuludur. Burada vəfa, sədaqət, təmiz eşq, mənəvi saflıq, dostluq, yoldaşlıq, humanizm, məhəbbət uğrunda qəhrəmanlıq və s. mövzular əsas yer tutur. Xalqımızın məhəbbət dastanları olduqca çoxdur. Bunlar hamısı nəşr edilməmiş, çoxusu da yarımçıq toplandığı üçün üzə çıxarılmamışdır.

Xalq romanlarında qəhrəmanlar, əsasən, iki nəfərdən: aşiq və məşuqədən ibarət olurlar. Əsərdə bunların sevgisi, məhəbbəti, öz arzularına çatmaq yolunda düşdükləri çətinliklərdən danışılır. «Bizim məhəbbət dastanlarımızın, demək olar ki, hamısının, «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi qəhrəmanlıq dastanlarımızın isə bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir». M.H.Təhmasib qəhrəmanların dastanda həmin mübarizəsini, başqa sözlə, macəralarını ümumi şəkildə dörd mərhələyə ayırır.

Qəhrəmanların bu macəraları, mübarizələri yollarında da xalq özünün bir sıra mülahizələrini irəli sürür. Hər bir dastan vasitəsilə Azərbaycan xalqı bir fikir, arzu, məqsəd irəli sürmüşdür. Bu fikirlər uzun əsrlərin həyat və məişət

tərzindən, mübarizə tarixindən, keşməkeşindən keçib gələn arzulardır. Bu idealların carçıları isə dastanların qəhrəmanlarıdır. Maraqlıdır ki, bu qəhrəmanlar xalqın dərdi, həsrəti ilə əlaqədar müxtəlif vəziyyətlərə düşür, hətta bu vəziyyətlərlə əlaqədar ad, ləqəb də qəbul edirlər: Qeys (Məcnun), Mahmud (Kərəm), Rəsul (Qərib), Qurbani (Qurban) və b. Buraya Rövşən (Koroğlu), Qorqud (Dədə) və b. əlavələr də edə bilərik. Bunların hamısında – Koroğluda, Kərəmdə, Qərib və Şah İsmayılda, Abbas və başqalarının şəxsində xalqın epik qəhrəmanlığı, ağlı, gücü, gözəlliyi, sənəti, insaniyyəti, vəfa və sədaqəti cəmləşdirilmişdir. Bunların tərbiyəvi təsiri də elə bundan doğur.

Məhəbbət dastanları forma cəhətdən də diqqəti cəlb edir. Bu dastanlar ustadnamələrlə başlanır. Hər bir dastanın əvvəlində, adətən, üç ustadnamə verilir. Əlbəttə, burada əsas məqsəd dinləyicilərə gözəl insani keyfiyyətlər aşılamaqdan ibarətdir. O biri tərəfdən isə aşıqlar bunun vasitəsilə öz keçmiş ustadlarını yad edir, onların xatirələrini əbədiləşdirirlər.

Məhəbbət dastanlarında aşıqlar xalq dilinin zənginliklərindən bacarıqla istifadə edir, gözəl ifadə, ibarə, bənzətmə, müqayisələrlə dastanı şirinləşdirir, maraqlı təhkiyə üsulu yaradırlar. Məsələn, «Dəryalar mürəkkəb olsa idi, meşələr qələm, onun dövlətini hesablamaq olmazdı», özünə yeddi qələm ilə zinət verib on dörd gecəlik ay kimi şəfəqləndi, onun qabağına çıxdı», «Qüdrətin kərəmi cuşa gəlib, gözəllik paylayanda ilk qələmi bu qıza çəkib», «Başdan geyindi, ayaqdan qıfıllandı, ayaqdan geyindi, başdan qıfıllandı» və s. Məhəbbət dastanlarımızda qafiyəli nəsrin gözəl nümunələrinə də rast gəlirik: «Gördü ki, bu çadırda bir qız əyləşib, nə təhər əyləşib? Qız, nə qız? Firişteyi – kirdar, ürək basan, sarfa kəsən, gözünü süzən, canlar üzən, düymə düzən, qonca dəhan, gülü reyhan, süzgün baxan, gəl məni gör, dərdimdən öl, əlini vurma, geridə dur!» və s.

Məhəbbət dastanları duvaqqapma ilə tamamlanır. Duvaqqapma sevgililərin öz arzularına çatıb xoşbəxt olması münasibətilə toya gələn aşıqların oxuduqları müxəmməslərdir. Əsasən, çox şən, şux, könülaçan bir məzmuna malik olur. Duvaqqapmaların özləri də ustad aşıqların müxəmməsləridir. Duvaqqapma çox zaman dastanı yaradan, düzüb qoşan aşığın, dastançının adı ilə əlaqədar olur.

Məhəbbət dastanlarımız müxtəlif yollarla yaranmışdır. Bir sıra xalq romanlarımız öz mənşəyini çox qədim zamanların rəvayət, hekayə, əfsanə və qis-sələrindən almışdır. Bunlara misal olaraq, «Leyli və Məcnun», «Fərhad və Şirin», «Şah İsmayıl», «Əsli və Kərəm», «Novruz» və s. dastanları göstərmək olar.

Bir çox məhəbbət dastanları xalq nağılları əsasında düzəldilmişdir. Xüsusilə sehrli nağıllar dastanlar üçün çox material vermişdir. Məsələ burasındadır ki, dastan yaratmaq istəyən aşıqlar – dastançılar hələ müasir hadisələri qavrayıb, dərk edib sənətə çevirənə qədər xalqın keçmiş yaradıcılıq xəzinəsinə nəzər salır, mövzu, forma, ideya baxımından yarayan nağılları işləyib dastana çevirirdilər. M.H.Təhmasib bu barədə yazır: «Dastançı zəngin xalq nağıllarının xəzinəsindən onun mövzusuna uyğun olanı götürür və çox zaman nağıl motivlərini mənalandıraraq bütöv bir dastan, yaxud epizod düzəldir».

V.M.Jirmunski və H.Zərifov da özbək xalq dastanlarından danışarkən onun böyük bir hissəsinin məhz xalqın sehrli nağılları əsasında işləndiyini qeyd edirlər. Bütün bunlara görə də bir sıra xalq romanlarımız gah nağıl, gah da dastan adlanır. Nağıllardan düzələn dastanlara misal olaraq «Alı xan və Pəri xanım», «Şahzadə Seyfəlmülük», «Şahzadə Əbülfəz», «İbrahim», «Məhəmməd və Hürnisə», «Məhəmməd və Güləndam» və başqalarını göstərə bilərik.

Məhəbbət dastanlarının bir çoxunun yaranması və formalaşması bilavasitə aşıqlar, onların həyat və fəaliyyəti ilə əlaqədardır. Hələlik adı məlum olan ilk Azərbaycan aşığı Qurbanidən sonra yaşayan bir sıra görkəmli, ustad aşıqların haqqında dastanlar vardır. Bunları "aşıq dastanları" adlandırmaq olar. Aşıq dastanların yaranması iki yolla getmişdir. Əvvələn, hər bir məşhur ustad aşıq özü haqqında dastan düzəltmişdir. Buraya onun həyatının əsas faktları və şeirləri daxil edilmişdir. İkincisi isə ustad aşıqların ölümündən sonra digər aşıqların yaratdığı dastanlardır. Bu dastanlar da yenə həmin aşıqlara həsr olunmuş, orada ustadların ən yaxşı əsərləri toplanmışdır. Lakin qədimdən bəri yaranan belə dastanlar şifahi halda yaşamış, dövrləri, əsrləri keçib gəlmiş, heç şübhəsiz, aşıqlar müxtəlif tarixi-ictimai şəraitdə bu dastanları zamanın tələbi, xalqın zövqü əsasında işləmiş, cilalamış, təkmilləşdirmiş, beləliklə, həm ideya, həm də forma cəhətdən inkişaf etdirmişlər. Aşıq dastanları da sonralar başqa məhəbbət dastanlarının sırasına daxil olmuşdur. «Qurbani», «Abbas və Gülgəz», «Sarı Aşıq və Yaxşı», «Xəstə Qasım», «Abdulla və Cahan», «Valeh və Zərnigar», «Hüseyn və Keşiş qızı Reyhan», «Dilqəm» və başqa dastanları buna misal göstərmək olar.

MƏHƏMMƏD BAĞBAN (təxminən 1835, Cəbrayıl rayonu, Şərikan kəndi – 1914) – el şairidir. Kifayət qədər güclü təbə, yaradıcı qabiliyyətə malik olmuşdur. Yoxsul həyat sürmüşdür. Naxırçılıq etmiş, bağ-bostanla məşğul olmuşdur. Şeirlərinin ümumi ruhu, sənətkarlıq keyfiyyətləri Bağban Məhəmmədin elmə, ədəbiyyata bələdliyindən xəbər verir. Güman etmək olar ki, bu dəyərli sənətkar yazıb-oxumağı bacarmış, klassik ədəbiyyata bələd olmuşdur. Şeirlərində M.P.Vaqifin təsiri duyulur. "Oynasın" rədifli şeiri də bunu göstərir. "Azərbaycan aşıqları və el şairləri" kitabında onun yaradıcılığından nümunələr vardır. "Nədi", "Gözəl", "Səfər", "Necə oldu" şeirləri xalq arasında, ustadların repertuarında bu gün də yaşamaqdadır. "Necə oldu" şeiri onun həyatının müəyyən məqamlarını əks etdirir. Bu şeirdən məlum olur ki, Bağbanın ailəsində müəyyən faciəli hadisələr baş vermişdir. Arvadı Həcər vaxtsız vəfat etmiş, oğlanları Məhərrəmlə Cavad yetim qalmışdır. Bağban Məhəmməd haqqında mənbələrdən çox az məlumat gəlib çatmışdır.

MƏHƏMMƏD ƏMANİ (Təbriz, 1536-1610) – Azərbaycan şairidir. Klassik üslubda və aşıq şeiri üslubunda yazıb-yaratmış sənətkarlardandır. Füzuli ədəbi məktəbinin davamçılarından olmuşdur. Şah Təhmasib və I Şah Abbas hakimiyyəti dövründə qızılbaş əmirlərindən olmuşdur. Şah Abbasın hərbi yürüşlərində iştirak etmişdir. Yəzd vila-

yətinin hakimi olmuşdur. Azərbaycan və fars dilində divanları Britaniya muzeyində saxlanılır. Mənzum hekayələri ilə məşhurdur. Ş.İ.Xətayidən və M.Füzulidən sonra Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan sənətkar M.Əmanidir. Hərbi yürüşlərdə fəallıq göstərmişdir. Mərvin (1599), Təbrizin (1604), Bəlxin alınmasında iştirak etmişdir. B.Azəroğlu Məhəmməd Əmani haqqında monoqrafiya yazmışdır (1977). Ə.Səfərli M.Əmaninin əsərlərini çap etdirmişdir (1983). Mənzum hekayələri "Dəvəsi ölmüş qarı", "Hatəm Tai və qərib", "Tiryəkçi" mövzu və ruhu etibarilə xalq yaradıcılığı ənənələrinə əsaslanır. M.Əmaninin bayatı, gəraylı və qoşmaları onun aşıq ədəbiyyatı üslubunda kifayət qədər gözəl nümunələr yaratmasından xəbər verir. Ruhu etibarilə xalq yaradıcılığına, aşıq şeirinə bağlılığını göstərir.

MƏHƏRRƏM OĞLU BAYRAM (SARVAN BAYRAM) FAXRALI (1891, Borçalı mahalı, Faxralı kəndi – 1956) – Borçalı mühitinin yetirdiyi saz-söz ustadı. Zəngin yaddaşı, iti hafizəsi və yüksək sənət bacarığı ilə sayılıb seçilmişdir. Hüseyn Saraclı, Aşıq Müsəllim bu böyük ustaddan sənət dərsi almışlar. Sarvan Bayram ondan çox şagirdə sənəti öyrədib, aşıqlıq fəaliyyətləri üçün xeyir-dua vermişdir. Dastanların, klassik havaların bilicisi kimi ad-san qazanmışdır. Klassik Borçalı saz havalarının ("Masırı", "Borçalı dübeyti", "Bağdad dübeyti", "Kəvəri", Qələndəri", "Güllü qafiyə", Qara qafiyə" və s.) əvəzsiz ifaçısı olmuşdur. Borçalı ifaçılıq yolunun formalaşmasında dəyərli xidmətləri olmuş ustadlardandır.

MƏHƏMMƏD OĞLU ŞİRSOLTAN (1924, Şamaxı rayonu, Nabur kəndi – 1988) – Şirvan aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Erkən yaşlarından sənətə maraq göstərmişdir. Ustadların yaradıcılığını, saz havalarını, dastanları mükəmməl öyrənə bilmişdir. Muğamların da ustad bilicisi kimi tanınmışdır. Dövrünün tanınmış aşıqlarından olmuşdur. "Şikəstə" havalarının mahir ifaçısı sayılmışdır. Otuz ilə yaxın aşıqlıq etmişdir.

Beş şagird yetişdirmişdir. Aşıqların III və IV qurultaylarında nümayəndə kimi iştirak etmişdir.

"MƏHƏMMƏD VƏ GÜLƏNDAM" – 1927-ci ildə Qazaxda Hüseyn Həsən oğlundan toplanmışdır. "Məlik Məhəmmədin nağılı" adı ilə çap olunmuş ("Azərbaycan el ədəbiyyatı", toplayanı H.Əlizadə, II hissə, "Azərbaycanı öyrənmə cəmiyyəti", 1929, səh. 87-97) dastanın qəhrəmanları da Məlik Məhəmməd və Güləndamdır. Məlik Məhəmməd Həmədan şəhərində yaşayan tacir Allahverdinin oğludur. Atası vaxtsız rəhmətə gedir və o, anası Şəhrəbanı ilə tək qalır. Var-dövlətləri əllərindən çıxır. Məlik Məhəmməd atasının dostları ilə

Hindistana gedir. Tacirliklə məşğul olur. Olan pulunu verib bir qul alır. Qul isə Yəmən şahının qızı Güləndam olur. Güləndam və Məlik Məhəmməd başlarına gələn əhvalatı bir-birlərinə danışırlar. Bir-birlərini sevirlər. Birgə ticarətlə məşğul olurlar. Həmədan şahı Xətayi də Güləndama vurulur. Onu əldə etmək üçün hiyləyə əl atır. Şəhrəbanının dili ilə Məlik Məhəmmədə məktub yazdırıb bildirir ki, Güləndam pis əməllərlə məşğuldur. Məhəmməd bu xəbəri eşidib Həmədana qayıdır. Güləndamı xəncərlə vurur. Qız ölmür, dərvişlərin köməyi ilə sağalıb Herat şəhərinə gəlir. Şahlıq quşu qızın başına qonur. Onu taxtda oturdurlar. Güləndam Xətayi ilə vəzirdən intiqamını alır. Məlik Məhəmmədə qovuşur. "Məhəmməd-Güləndam" dastanının digər bir variantı (tamamilə fərqli) 1940-cı ildə Şəmkir rayonunun Cəlilli kəndində yaşayan Aşıq Qasım Həbib oğlundan yazıya alınmışdır. "Azərbaycan xalq dastanları"nın II cildində (1961, səh. 255-287) verilmişdir. Dastanın bir başqa variantı Gəncəli Aşıq Meydandan toplanmışdır. "Azərbaycan dastanları" beşcildliyinin II cildində (1966, səh. 345-388) getmişdir. "Azərbaycan məhəbbət dastanları"nda "Məhəmməd və Güləndam" dastanı (Bakı, Elm, 1978, səh. 408-438) çap olunmuşdur. Ustadnamələr Aşıq Hüseyn Şəmkirliyə məxsusdur. Bu variantda hadisələr İsfahan şəhərində baş verir. Uşaqlar mollaxanada yolun qırağında oynayarkən görürlər ki, toz dumana qarışıb. Məhəmməd yoldaşlarına deyir ki, bu, Şah Abbasın qoşunudur. Gəlin onları ehtiramla qarşılayaq. Məhəmməd Şah Abbas ovdan qayıdarkən ona ədəb-ərkanla salam verir. Şah onun kim olduğunu soruşur. Məhəmməd mollaxana uşaqları olduğunu söyləyir. Şah Abbas uşaqlara xərclik verir və Məhəmmədi özü ilə aparır. Şah Abbas Məhəmmədin kimsəsiz bir qarının nəvəsi olduğunu öyrənir. Bir dəfə Məhəmməd şahla şikara gedir. Şikarda Məhəmməd mahir idi. Bir dəfə uzaqda bir dağ görür. Məhəmməd orada bir qızla qarşılaşır. Qız Kişmir şəhərində Məhəmməd xanın qızı imiş. Məhəmmədin başını Güləndam Əlvan dağında yaralamışdı. Məhəmməd nənəsindən, şahdan izin alıb Güləndamın arxasınca gedir. Yolda çoxlu çətinliklərlə, qara divlə qarşılaşır. Güləndamı əmisi oğlu Heydər bəyə verirlər. Məhəmməd Güləndamın nökəri vasitəsilə məsələni öyrənir. Məhəmmədlə Güləndam, Nağı ilə Gözəl evlənirlər. Toy duvaqqapma ilə yekunlaşır.

MƏHƏMMƏDİ ABBAS TƏRLAN OĞLU (1974, Qaradağ mahalı, Gərməduz, Seyidlər kəndi – Təbriz) –

Təbriz-Qaradağ aşıq mühitinin nümayəndəsidir. Aşıq ailəsində dünyaya göz açmışdır. İlk ustadı atası aşıq Tərlan olmuş, ondan aşıqlığın sirlərini öyrənmişdir. Sonrakı dönəmdə ustadları Aşıq Əbdüləli Nuri, Həsən İsgəndəri və Əziz Şəhnazi olmuşdur. Zəngin musiqi və repertuarına malikdir. Tşbriz-Qaradağa məxsus regional dastanların ("Əliynən Rəfi", "Qulam Heydər", "Şikarı" və s.) bilicisi sayılır. Mühitin istedadlı aşıqlarındandır. Məlahətli və koloritli ifa tərzi ilə seçilir. Təbriz-Qaradağ havalarının və klassik dastanların mahir ifaçısı

kimi tanınır. Aşıq şeirinin çeşidli şəkillərində şeirlər qələmə alır.

Azərbaycan, Türkiyə, Gürcüstan və İranda beynəlxalq folklor festivallarında iştirak etmiş və mükafatlar almışdır.

MƏHƏMMƏDİ HƏSƏN BEHBUD OĞLU (1983, Dizmar mahalı, Məzrə kəndi– Təbriz) – Aşıq Sədaqət Gənceyinin şagirdidir. Aşıq Ayət Qənbəri, Aşıq İsmayıl Qənbəri, Sirus Kiyani, Səxavət Məhəmmədi, Həsən İsgəndəri kimi aşıqlardan sənəti öyrənmiş, onlarla birgə çalıb-oxumuşdur. Ustad yanında yeddi ilə yaxın şagird olmuşdur. "Valeh-Zərnigar", "Şah İsmayıl", "Qurbani", "Mir Mahmud", "Gərgərli Məhəmməd" kimi dastanların mükəmməl bilicisi və söyləyicisidir. Meydangir aşıqlardan sayılır.

MƏHƏMMƏDZADƏ HƏSƏN LƏTİF OĞLU (1961, Əhər mahalı, Havay kəndi) – Təbriz-Qaradağ aşıq mühitinin nümayəndəsidir. 1974-cü ildən balaban çalmağa başlamışdır. Beş il atasından dərs almış, sənətin sirlərinə yiyələnmişdir. Milli nəfəs alətlərinin mahir ifaçısıdır. Daha çox balaban və zurna ifaçılığında tanınmışdır. Solo balaban ifaçılığında öz istedadı ilə seçilir. Aşıq havalarından başqa "Sarı gəlin", "Sona bülbüllər", Qaragilə", "Çalpapaq" xalq mahnılarını da ustalıqla ifa etməyi bacarır. Bir çox müsabiqələrdə fəxri yer tutmuş və beynəlxalq folklor festivallarında iştirak etmişdir.

MƏHƏRRƏMİ CAVAD (PƏRVİZXANLI) DÜNYAMALI OĞLU (1979, Qaradağ mahalı, Dilbilməz kəndi – Təbriz) – Təbriz-Qaradağ aşıq mühitinin istedadlı nümayəndəsidir. Erkən yaşlarından aşıqlığa maraq göstərmişdir. Aşıq Ayət Qənbərinin (Təbriz), Səyad Pənahovun (Gədəbəy) şagirdi olub, sənətin sirlərini onlardan mənimsəmişdir. İki ilə yaxın ustad yanında şagird olmuşdur. İyirmi iki yaşından aşıqlığa başlamışdır.

"Koroğlu", "Əsli və Kərəm", "Valeh və Zərnigar" dastanlarına repertuarında daha çox yer verir. "Heydəri", "Baş Sarıtel", "Ruhani", "Qəhrəmani", "Kərəm gözəlləməsi", "Qara Kəhəri" kimi əski havaları yüksək ustalıqla ifa edir. Zil, şaqraq səsi var. Koroğlu havalarının mahir ifaçısıdır. Təbriz-Qaradağ çevrəsində ən güclü Koroğluxan aşıqlardan biri sayılır. 2011-ci ildə Təbrizdə keçirilən aşıqlar müsabiqəsində birinci yeri tutmuşdur. 2010-cu ildə Bakıda keçirilən Birinci Beynəlxalq Aşıqlar festivalında xüsusi diplioma layiq görülmüşdür.

2010-2016-cı illər arasında "Dalğa" sazçı qrupunun salisti olmuşdur. Türkiyə, Azərbayzan, Fransa və Kanadada konsertlər keçirmişdir.

MƏHƏRRƏMİ YUSİF TƏRLAN OĞLU (1978, Təbriz) – İstedadlı balabançıdır. Digər milli nəfəs alətlərini-zurna, tütək və neyi də məharətlə çala bilir. Erkən yaşlarından sənətə böyük həvəs göstərmişdir. Ustad sənətkarlarla bir çox məclislər keçirmişdir. Sənətin sirlərini ustad balabançı Hüseyn Baxşıdan öyrənmişdir. Repertuarı qədim havalarla zəngindir. Yüzə yaxın aşıq havası ifa edir. Xalq mahnılarının da usta ifaçısıdır. Avropa və Asiya ölkələrində keçirilən beynəlxalq folklor festivallarında dəfələrlə iştirak etmiş, onun yüksək səviyyəli ifaçılığı diplom və mükafatlara layiq görülmüşdür. Bakı şəhərində keçirilən I Ozan-aşıq Beynəlxalq festivalının diplomantı olmuşdur (2010).

MƏHƏRRƏMOV AZƏR XANLAR OĞLU (1983, Tovuz rayonu, Əlimərdanlı kəndi – 2018, Bakı) – İstedadlı solo-ifaçısı olmuşdur. Aşıq Xanlar Məhərrəmovun ailəsində dünyaya göz açmışdır. Uşaq vaxtlarından atası Aşıq Xanlardan sənətin sirlərini öyrənmiş, saz havalarının incəliklərini mükəmməlliklə mənimsəmişdir. Saz, muğam, bəstəkar havalarının təkrarsız ifaçısı kimi şöhrətlənmişdir. Beynəlxalq festivallarda iştirak etmiş, mükafatlar almışdır. Türkiyə, İran, Rusiya, Gürcüstan və s. xarici ölkələrdə sənəti ilə təmsil olunmuşdur. UNESKO xətti ilə London, Paris və Strasburqda dəfələrlə konsertlər vermişdir (2010-2011). 2007-ci ildə Bakıda keçirilən Birinci Ozan-aşıq müsabiqəsinin qaliblərindəndir. V Aşıq qurultayının nümayəndəsi olmuş və Aşıqlar Birliyi İdarə heyətinin üzvü seçilmişdir (2008).

MƏHƏRRƏMOV XANLAR ƏHMƏD OĞLU (1950, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1998, Bakı) –

Tovuz aşıq mühitinin yetişdirdiyi nadir istedada malik ustad sənətkarlardandır. Solo-saz ifaçılığında misilsiz qabiliyyəti ilə seçilmişdir. Anadan olduğu kənddə orta məktəbi bitirmişdir (1967). Hərbi xidmətdə olmuşdur (1969-1971). Dünyaya göz açdığı Əlimərdanlı kəndi bir aşıq ocağı olaraq Aşıq Zülfüqarı, Aşıq Nəcəfi, Aşıq Zeynəbi yetişdirmişdir. Aşıq Xanlar da bu ənənə üzərində sənətə gəlmiş, aşıqlığın sirlərini ustalıqla mənimsəmişdir. Mikayıl Azaflıdan, Əmrah Gülməmmədovdan, Aşıq Ədalət Nəsibovdan bir neçə il aşıqlığı öyrənmişdir. Mahir solo saz ifaçısı və özünəməxsus səs tembri olan ustad ifaçı kimi tanınmışdır. Özünəməxsus barmaq gəziş-

mələri və ləmsi ilə "Xanlar Məhərrəmov üslubunu" yaratmışdır. Beynəlxalq və respublika səviyyəli festivallarda çıxışlarına görə fəxri adlar, qızıl medallar almışdır. Radio və televiziya verilişlərində dəfələrlə ifası lentə alınaraq "Qızıl fonda" daxil edilmişdir.

IV Aşıq qurultayının nümayəndəsi olmuşdur (1984).

MƏHƏRRƏMOV İDRİS ŞİRİN OĞLU (1894, Göyçə mahalı, Zərzibil kəndi – 1944, İkinci Dünya müharibəsi) – Göyçə aşıq mühitinin yetirməsidir. Aşıq Şirinin oğludur. Şirin 1847-ci ildə Göyçə mahalının Zərzibil (Zərkənd) kəndində tanınmış xeyriyyəçi Göyçəli Məhərrəmin ailəsində dünyaya gəlmişdir. Aşıq Şirin 1940-cı ildə Göyçə mahalının Zərkənd kəndində 90 yaşında vəfat etmişdir. İdris aşıq sənətinə çox erkən yaşlarından həvəs göstərmişdir. On iki yaşından aşıqlığı öyrənməyə başlamış, atası Şirinin sayəsində aşıq sənətinin sirlərini mənimsəmişdir. Sonralar Aşıq Ələsgərdən, Aşıq Musadan da sənətin incəliklərini öyrənmişdir. Məlahətli zil səsi olmuşdur. Otuzdan artıq dastanı mükəmməl bilmiş, məclislərdə danışmışdır. Basarkeçər rayonunda aşıqlara rəhbərlik etmişdir (1938-1941). Vala köçürülmüş mahnıları var. Aşıqların I və II qurultaylarının iştirakçısı olmuşdur.



MƏHƏRRƏMOV MƏHƏMMƏDƏLİ ABBASQULU OĞLU (1893, Naxçıvan, Şərur rayonu, Qorçulu kəndi – 1972, Qazax rayonu) – mahir sazbənd. Çox erkən yaşlarından valideynlərini itirmişdir. 1918-1920-ci illərdə ermənilərin törətdiyi faciələr zamanı kiçik qardaşı və bir neçə yaxın qohumu ilə Qazax rayonuna köçmüşlər. Sazbəndliyə olan marağı 30-40-cı illərdə onu regionda bir sənətkar kimi məşhurlaşdırmışdır. Həm qardaşı, həm də özü İkinci Dünya müharibəsinə yollanmışlar. Qardaşı qayıtmamış, özü isə yaşı çox olduğu üçün ehtiyatda olan hərbçi kimi xidmət göstərmişdir. Müharibədən sonra ailə həyatı qurmuşdur (1945). Borçalıda, Göyçədə, Qazaxda sazbənd kimi tanınmış, Əmrah Gülməmmədov, Aşıq Hüseyn Saraclı, Aşıq Kamandar, Xındı Məmməd, Məhəmməd Sadaxlı, Cəlal Qəhrəmanov, Məhəmməd Şıxlı və başqaları onun düzəltdiyi sazla çalıb-oxumuşlar. Qazaxda milli adət-ənənələrimizlə bağlı çəkilən qısametrajlı filmdə Məhəmmədəli Məhərrəmov haqqında da məlumatlar verilmişdir (1986). Sazbənd kimi onun haqqında indi də xalq arasında xoş söhbətlər gəzib-dolaşmaqdadır.

MƏHƏRRƏMOV YAŞAR MƏHƏR OĞLU (1978, Kəlbəcər rayonu, Zəylik kəndi-Daşkəsən) – Kiçik yaşlarından ustad aşıqların ifalarını həvəslə dinləmiş, saza-sözə xüsusi maraq göstərmişdir. Dədə Şəmşiri,

Ədalət Nəsibovu özünün mənəvi ustadları hesab edir. 100-dən çox aşıq havasını mükəmməl şəkildə çalıb oxuyur. Bir neçə saz havasının və aşıq mahnısının yaradıcısıdır. Bir çox festivalların diplomantı və aşıq müsabiqələrinin qalibidir. Zəngin musiqi və söz repertuarına malikdir. Aşıqların V və VI qurultaylarının iştirakçısı olmuşdur. Hazırda Daşkəsəndə yaşayır.

MƏHƏRRƏMOV YOLÇU QASIM OĞLU (1936, Tovuz rayonu, Quşçu kəndi – 2001) – Tovuz aşıq məktəbinin yetişdirdiyi sənətkarlardandır. Mikayıl Azaflıya şagirdlik etmiş, sənətin sirlərini ondan öyrənmişdir. Aşıq Əkbər Cəfərovun da Yolçunun bir sənətkar kimi yetişməsində xidmətləri vardır. Ustadların yaradıcılığını, dastanları, saz havalarını mükəmməl öyrənmişdir. El şənliklərində, rəsmi tədbirlərdə bir sənətkar kimi təmsil olunmuşdur. Azərbaycan aşıqlarının III və IV qurultaylarında iştirak etmişdir.

Tovuz aşıqlar ansamblının üzvü olmuşdur (1975-1986). Azərbaycan radiosunun qızıl fondunda xeyli sayda ifaları qorunur.

MƏHƏRRƏMOV ZAMAN HÜMMƏT OĞLU (1933, Göyçə mahalı, Qoşabulaq kəndi – 1994) – Göyçə aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Aşıq Hümmətin ailəsində anadan olmuşdur. Atası Aşıq Hümmət dövrünün tanınmış sənətkarlarındandır. Zaman da çox erkən yaşlarından atasının təsiri ilə saza maraq göstərmişdir. Aşıqlığın sirlərini öyrənmiş və bir sənətkar kimi yetişmişdir. Atası ilə məclislərə getmiş, xalq arasında sənətkar kimi tanınmışdır. Xalq dastanlarını, qaravəlliləri, nağılları çox yaxşı bilən Aşıq Behbudun da onun bir sənətkar kimi formalaşmasında mühüm rolu olmuşdur. Aşıqlıqla yanaşı, dülgərliklə də məşğul olmuşdur. Ermənilərin Göyçəni işğalından sonra Gəncəyə köçmüş və orada yaşayıb-yaratmışdır.

MƏHƏRRƏMOV ZİYƏDDİN HƏMİL OĞLU (1947, Göyçə mahalı, Basarkeçər rayonu, Qoşabulaq kəndi – Bakı) – Qoşabulaq kəndində yeddiillik məktəbi (1960), Daşkənd kənd orta məktəbini (1964) bitirmişdir. ADPU-nun filologiya fakültəsini (1969), Bakı Ali Partiya məktəbini (1985) bitirmişdir. Anadan olduğu Qoşabulaq kəndində müəllim işləmişdir (1971-1973). "Vardenis" rayon qəzetində ədəbi işçi işləmişdir. Şuşa şəhər yerli radio verilişləri redaksiyasında müxbir, Kitabsevərlər cəmiyyəti rayon təşkilatının məsul katibi vəzifəsində çalışmışdır. Xızı Rayon İcra hakimiyyətində məsləhətçi və başçının köməkçisi olmuşdur (1992). 1999-cu ildən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Xarici dillər kafedrasının dosentidir. Aşıq yaradıcılığının tədqiqatçısıdır. "XX əsr Göyçə aşıq mühiti" mövzusunda namizədlik (1998), "İrəvan ədəbi mühiti" (2018) adlı doktorluq dissertasiyaları müdafiə etmişdir. "Qızıl qələm" mükafatı laureatıdır (2013). AJB-nin (1998), AYB-nin (2007) üzvüdür. "XX əsr Göyçə aşıq

mühiti (1920-1950-ci illər)" (1997), "Sözün yaddaşı əbədidir" (2003), "Unudulmaz sazlı-sözlü yurdumuz" (2001) adlı kitabların müəllifidir.

MƏQAM – musiqi səslərinin qarşılıqlı əlaqələri, səslər arasında ahəngdar uyğunluq sistemi. Səslər arasındakı qarşılıqlı əlaqələrə tabe olan müəyyən səsqatarı. Aşıq havacatında məqam baxımından iki təbəqə özünü göstərir. Vokal hissənin monodik məqamı və instrumental hissənin harmonik məqamı (***Bax: T.Məmmədov***). Monodik məqam birsəsli melodik səsqatarı şəklindədir və müəyyən dayaq tonuna malikdir. Dayaq tonu güclü cazibə qüvvəsinə malik olaraq digərlərini də özünə tabe edir və mərkəzi ağırlıq nöqtəsi funksiyasını daşıyır. Aşıq havalarının melodiyası monodik məqam üzərində formalaşır. Harmonik məqam həmahəng səslər toplusudur – üç səsdən ibarət akkorddur. Həmin akkordlar sazın köklənmə sistemi ilə bağlı olaraq yaranır (***Bax: Kök***). Aşıq havalarında monodik və harmonik məqamlar sıx əlaqəlidir və birlikdə aşıq havacatının vahid məqam-səs sistemini təşkil edir. Hər bir vokal aşıq melodiyası instrumental hissənin bu və ya digər harmonik məqamı üzərində səslənir və ahəngdar qarşılıqlı əlaqələr çərçivəsində inkişaf edir. Azərbaycan məqam-səs sisteminin əsas müddəaları Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" elmi-nəzəri əsərində öz əksini tapmışdır. Bu müddəalar Azərbaycan musiqisi üçün universal əhəmiyyət daşıyaraq aşıq havacatının səsdüzümləri ilə də üst-üstə düşür. Aşıq havalarının məqam-intonasiya sistemi, əsasən, Rast, Şur, Segah kimi qohum məqamlara (və digər məqamlara) uyğun gəlir: Baş pərdə kökü – Segah, şah pərdə kökü – Şur, Orta pərdə kökü – Rast məqamları ilə uzlaşır. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının minilliklər, yüzilliklər boyu yaratdığı məqam-intonasiya toplusu formalaşmışdır ki, onlar musiqi yaradıcılığının bütün sahələrində özünü göstərir və ümumi səciyyə daşıyır. Saz alətində pərdələrin açıq sim üzərində yaratdığı diatonik səs düzümü və Şur məqamının səsqatarı arasında ümumilik özünü göstərir. Aşıq havalarının musiqisində angemitonika və beşpilləli məqam – qədim pentatonika cizgiləri də müşahidə olunur.

MƏLİKOV HƏSƏN BƏY (ZƏRDABİ) SƏLİMBƏY OĞLU (1842, Zərdab şəhəri – 1907, Bakı) – maarifçi, publisist, ictimai xadim, pedaqoq. Maarifpərvər bir ailədə doğulmuşdur. Tiflis qəza gimnaziyasını (1861), Moskva universitetinin fizika-riyaziyyat fakültəsinin təbiiyyət şöbəsini bitirmişdir (1865). Bir müddət Tiflisdə, Bakı Quberniya idarəsində, Quba da məhkəmədə işləmişdir. 1869-cu ildə Bakı realnı gimnaziyasında təbiiyyət tarixi müəllimi təyin olunmuşdur. Çar məmurlarının təzyiqi nəticəsində müəllimlikdən əl çəkmişdir. H.Zərdabi Azərbaycanda profesional teatrın yaradıcılarındandır. N.Vəzirov Ə.Gorani ilə birgə M.F.Axun-

dovun "Hacı Qara" əsərini tamaşaya qoymuşdur. Azərbaycan mətbuatının banisidir. "Əkinçi" qəzeti (1875-1877) onun redaktorluğu ilə çıxmışdır. Qəzet bağlandıqdan sonra 1896-cı ilədək işsiz qalmış, Zərdaba köçüb orada yaşamışdır. 1896-cı ildən ömrünün axırına qədər Bakıda yaşamışdır. "Əkinçi" qəzetinin ətrafına qabaqcıl ziyalıları M.F.Axundovu, S.Ə.Şirvanini, N.Vəzirovu və başqalarını toplaya bilmişdir. "Əkinçi" bağlandıqdan sonra "Kaspi" qəzetinin redaktoru olmuşdur. "Həyat", "Dəbistan", "Novoye obozreniye" və s. mətbuat orqanlarında fəaliyyət göstərmişdir.

Ədəbiyyatın, mədəni mühitin problemləri ilə bağlı məqalələr yazmışdır. Xalq ədəbiyyatı, aşıq yaradıcılığı haqqında maraqlı fikirlər söyləmişdir. Xalqın aşığa olan məhəbbətindən danışarkən H.Zərdabi deyir: "Bir baxın bizim aşıqlar toylarda oxuyanda qulaq asanlara. Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki, bə istilahi türk, ətini kəssən də xəbəri olmaz. Elə ki sonra toy qurtardı, aşıqlar evinə getdi, beş-on gün uşaqlar gecə və gündüz küçələrdə gəzəndə aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzirlər". Böyük maarifçinin "Bizim nəğmələrimiz" məqaləsi bu gün də aktuallığını saxlayır.

***MƏMİŞOV BARAT (ŞİRVANLI BARAT) ƏHMƏD OĞLU (1918, Cəyirli kəndi – 1997*) –** Yaradıcı aşıq olmuşdur. Şirvan aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Erkən yaşlarından aşıqlığa həvəs göstərmişdir. Şirvanlı Barat kimi də tanınmışdır. Aşıq Soltanmuradın yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişdir. Bir sənətkar kimi yetişdikdən, ustadından



xeyir-dua aldıqdan sonra (1953) müstəqil aşıqlığa başlamışdır. El şənliklərində, dövlət tədbirlərində təmsil olunmuşdur. Şirvan aşıqları ilə birgə beynəlxalq folklor festivallarında çıxışlar etmişdir. Mükafatlar almışdır. Aşıqlar Birliyinin üzvü (1989) olmuşdur. Aşıqların III və IV qurultaylarında iştirak etmişdir.

MƏMMƏD XINDI GÜLABI OĞLU (1896, Borçalı, Böyük Muğanlı (Qaş Muğanlı) – 1968)–

Borçalı aşıq mühitinin yetişdirdiyi nəhəng ustadlardandır. Uşaqlıqdan məlahətli səsi olmuşdur. Onun istedadını nəzərə alan dayısı Söyün Qoca oğlu Xındı Məmmədi Şair Ağacanın yanına gətirmişdir (1914). Şair Ağacanın yanında bir müddət sənətin sirlərini öyrənmiş və sonra Məsim Bəyazidlinin yanında şagirdlik etmişdir. Fitri istedadı, yaradıcı qabiliyyəti onun tezliklə tanın-

masına səbəb olmuşdur. Dastan, qaravəlli, bağlamaların gözəl bilicisi və söyləyicisi kimi tanınmışdır. Bənzərsiz ifa tərzi ilə mühitdə seçilmişdir. Yaradıcı sənətkar kimi məşhurlaşmışdır. Divani, gəraylı, təcnis, müxəmməsləri xalq arasında tezliklə yayılmışdır. Şair Ağacan, Şair Nəbi, Bəyazidli Məsim və bir sıra başqa sənətkarlarla şeirləşmişdir. "Borçalı bülbülü" kimi şərəfli ad qazanmışdır. "Pantürkist" adı ilə keçən əsrin 30-cu illərində həbs olunmuşdur. Bir müddət Tiflisdə Metex qalasında yatmışdır. İkinci Dünya müharibəsində iştirak etmişdir. Müharibədən qayıtdıqdan sonra aşıqlığını davam etdirmişdir. Borçalıda, Qazaxda, Tovuzda, Şəmkirdə, Gəncədə, Azərbaycanın ayrı-ayrı bölgələrində ona bir ustad kimi yüksək dəyər verilmişdir. Oğlu Gülabı Xındı Məmməd oğlu Azərbaycan solo saz ifaçılığının görkəmli nümayəndələrindən biri olmuşdur.

MƏMMƏD OĞLU GÜLABI (1950, Borçalı mahalı, Sarvan eli, Böyük Muğanlı kəndi – 2012, Bakı) – Borçalı aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Özünəməxsus çalğı üslubu olan solo-saz ifaçısıdır. Məşhur ustad Xındı Məmmədin oğludur. Sənətin sirlərini atasından öyrənmişdir. Borçalının məşhur sənətkarları Əmrah Gülməmmədovun, Hüseyn Saraclının, Kamandar Əfəndiyevin onun bir sənətkar kimi formalaşmasında mühüm təsiri olmuşdur. S.Vurğunun anadan olmasının yetmiş illiyinə həsr olunmuş müsabiqədə (1976) birinci yeri tutmuşdur. "Gözəlləmə" və "Sarıtel", "Sazın-sözün sehrində" verilişlərində Aşıq Gülabı dəfələrlə iştirak etmişdir. Şeir yaradıcılığına 1991-1992-ci illərdən başlamışdır. Di-

vaniləri, gəraylı, qoşma və s. şeirləri onun bir sənətkar kimi yaradıcı imkanlarını göstərir. "Mən olmayanda" (Bakı, Elm və təhsil, 2013) şeirlər kitabı çıxmışdır. Folklorşünas E.Məmmədli onunla bağlı "Sazın Gülabısı, sözün sərrafı" adlı kitab yazmışdır.

"MƏMMƏDBAĞIRI" – aşıq havasıdır. Bəzi hallarda "Şəqayi" də adlanır. Daha çox Borçalı aşıqları tərəfindən ifa olunur. "Məmmədbağırı" havası şah pərdə kökündə ifa olunur. Məqam-intonasiya məzmunu şah pərdəyə istinad edir. İntonasiya özəyi şah-orta-yarım pərdələrə əsaslanır. "Məmmədbağırı" havasının melodikası üçün motiv özəklərinin təkrarı, onların variantlılığı xasdır. Melobəndinin intonasiya məzmunu əsas hissədə trixord (Rast məqamının intonasiya kompleksinə uyğundur), yedək bölməsində isə tetraxord (Segah məqamının intonasiya özəyi ilə üst-üstə düşür) üzərində inkişaf edir. "Məmmədbağırı" havasının instrumental girişi ritmik cəhətdən sərbəst şəkildə (rubato) verilən özəklərin dəqiq metr-ritmik təşkilə malik komplekslərinin uzlaşmasından ibarətdir. Epik melodikanın parlaq təzahür forması olan vokal hissəsi qeyri-müntəzəm (tempo rubato) vəzn

Nümunə professor T.Məmmədova məxsus not yazısının foto surətidir

üzərində qurulmuşdur. Yığcam ambitusa malik olan melodikası reçitativ-deklamasiya üslubundadır. Melobəndin quruluşunda təkrar prinsipi mühüm formaqurucu əhəmiyyətə malikdir. Havanın kompozisiyası musiqi cümlələri və motivlərinin təkrarı üzərində qurulmuşdur. Havanın ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Poetik mətnin əsasını qoşma təşkil edir. Melobəndin sonunda havanın emosional təsirini gücləndirən yedək səslənir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

"MƏMMƏDHÜSEYNİ" – bax. Heydəri.

MƏMMƏDLİ ELXAN HÜSEYNQULU OĞLU (1946, Borçalı mahalı, Faxralı kəndi – Bakı) – Filologiya üzrə fəlsəfə doktoru (1994), Əməkdar mədəniyyət işçisi (2010). Aşıqlar Birliyi idarə heyətinin üzvü. Aşıq yaradıcılığının dəyərli tədqiqatçısıdır. Faxralı kənd orta məktəbində təhsil almışdır (1953-1962). Ailəsi ilə Bakıya köçmüşdür (1962). Bakının Əmircan kəndindəki 23 nömrəli fəhlə-gənclər məktəbində təhsilini davam etdirmişdir. BDU-nun filologiya fakültəsində oxumuşdur (1965-1971). 1976-cı ildə 8 nömrəli Respublika musiqi təmayüllü internat məktəbində tərbiyəçi müəllim, baş tərbiyəçi işləmişdir. Azərbaycan Pedaqoji Elmi-Tədqiqat İnstitutunda çalışmışdır (1976-1979). AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur (1979). İnstitutun elmi şurasının qərarı ilə Folklor Elmi-Mədəni mərkəzinə böyük elmi işçi vəzifəsinə keçirilmişdir (1994). Folklor Elmi-Mədəni mərkəzi 2003-cü ilin aprelindən Folklor İnstitutu adı ilə adlanmışdır. Folklor İnstitutunda Aşıq yaradıcılığı şöbəsinin müdiri

təyin edilmişdir (2000). Elxan Məmmədli 1969-cu ildən Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində "Bulaq", "Ustadnamə", "Sazın-sözün sehrində", "Sarıtel", "Gözəlləmə" kimi verilişlərin əsas müəlliflərindən biri və aparıcısı olmuşdur. "Azərbaycan aşıq şeirində təcnis" mövzusunda namizədlik dissertasiyası yazmışdır. "Təcnis sənətkarlığı" (1998), "Şair Nəbi Borçalı: həyatı, mühiti, sənəti" (2014) monoqrafiyaları, "Ölməz sənətkar", "Təcnis Alı deyərlərmiş", "Alının sənət dünyası", "Aşıq poeziyasında təcnisin yeri" və s kimi araşdırmaların müəllifidir. "Azərbaycan bayatıları" (1983), "Cinaslar" (1985), "Azərbaycan ədəbiyyatı inciləri. Bayatı, qoşma, təcnis" (1988), "Borçalı nəğməkarı Şair Nəbi" (1991), "Borçalı folkloru örnəkləri" (1994), "Borçalı Şair Nəbi. Eləsi də var" (2003), Aşıq Kamandar. "Bənövşə" (2004), "Azərbaycan folklor külliyyatı. Dastanlar", XX kitab, 2012), "Borçalı folklor örnəkləri", I kitab, (2013), "Borçalı folklor örnəkləri. Dastanlar", II kitab, (2013) və s. kimi kitabların toplayıcısı, tərtibçisi, ön söz və qeydlərin müəllifidir. Anadan olmasının 60 və 70 illiyi ilə bağlı yubiley kitabları nəşr edilmişdir. Azərbaycan aşıqlarının IV, V və VI qurultaylarının nümayəndəsi olmuşdur.

MƏMMƏDLİ ALTAY ƏLƏDDİN OĞLU (1972, Gədəbəy rayonu, Düzrəsullu kəndi – Bakı) – Azərbaycan Aşıqlar Birliyi sədrinin müavini (2018), filologiya üzrə fəlsəfə dktoru (2017). Gəncəbasar aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Orta məktəbi anadan olduğu kənddə bitirmişdir (1990). Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Bədii yaradıcılıq fakültəsində təhsil almışdır. Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1994-cü ilə qədər Çayrəsullu kəndində musiqi müəllimi olmuşdur. Erkən yaşlarından aşıq yaradıcılığına maraq göstərmişdir. Mikayıl Azaflı, Əkbər Cəfərov, İmran Həsənov, İsfəndiyar Rüstəmov sənətinin təsiri altında formalaşmışdır. Məlahətli səsə malikdir. Əkbər Cəfərov ifaçılıq məktəbinə mənsubdur. 2009-cu ildə ifası UNESKO-da lentə alınaraq ayrıca diskdə buraxılmışdır. Aşıq şeiri üslubunda müxtəlif məzmunlu qoşma, gəraylı, təcnisləri vardır. ADMİU-da "Aşıq sənəti" kafedrasının dosentidir. "Göyçəli Aşıq Nəcəfin yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə etmişdir. Aşıqların V və VI qurultaylarının iştirakçısıdır. Aşıqlar Birliyi idarə heyətinin üzvüdür. Beynəlxalq festivalların (Türkiyə, Fransa, Qazaxıstan, Qırğızıstan, Sloveniya, Ukrayna) diplomantıdır. Aşıq dastanlarının və poetik örnəklərinin toplanması və nəşri sahəsində dəyərli xidmətləri vardır.

MƏMMƏDLİ İSMAYIL ORUC OĞLU (1946, Göyçə mahalı, Sədaxanac kəndi – Bakı) – dilçi, aşıqşünas, AAB-nin üzvü (2008), AYB-nin üzvü (2004), AJB-nin üzvü (1993), filologiya elmləri doktoru (1993), professor (2008). Ustad sənətkar Aşıq Oruc Əhmədovun ailəsində anadan olmuşdur. 1948-ci ildə Göyçədən azərbaycanlıların deportasiyası zamanı ailəsi ilə birgə Gədəbəy rayonunun Zəhmət kəndinə köçmüşdür. M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun alman-Azərbaycan dilləri şöbəsində təhsil almışdır (1962-1967). Azərbaycan Ensiklopediyası Baş redaksiyasında transkripsiyaçı-redaktor, böyük elmi redaktor vəzifələrində çalışmışdır (1967-1970). Ordu sıralarında xidmət etmişdir (1968-1969). Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasında təhsil almışdır. Orada kiçik elmi işçi, elmi işçi vəzifələrində çalışmışdır (1974-1988). Lüğət və terminologiya şöbəsinin müdiridir (1989-cu ildən). "Azərbaycan dilinin etnoqrafik leksikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1993). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri şirkətində "Azərbaycan dili" və "Dil xalqın mənəvi sərvətidir" verilişinin aparıcısı olmuşdur (1981-1989). Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Dil Komissiyasının üzvüdür (2000-ci ildən). "Azərbaycan dilinin izahlı lüğəti" (1997), "Azərbaycan dilinin etnoqrafik leksikası" (2009),

"Aşıq Ələsgərin şeirlərində etnoqrafik sözlərin üslubi mövqeyi" (2012), "Aşıq Şəmşirin dil sənətkarlığı" (2013) və s. əsərlərin müəllifidir. "Tərəqqi" medalı ilə təltif olunmuşdur (2013). Aşıq sənətinə dair çoxlu araşdırmaların müəllifidir.

MƏMMƏDLİ ELMƏDDİN MAHİR OĞLU (1982, Tovuz rayonu, Əhmədabad kəndi – Sumqayıt şəhəri) – İstedadlı ifaçı aşıqdır. Orta məktəbi Sumqayıtda bitirmişdir (1999). Sumqayıt şəhərində N.Nərimanov adına Mədəniyyət evində ustad sənətkar Aşıq Bəkir Əhmədovun şagirdi olmuşdur. ADMİU-da aşıq sənəti ixtisası üzrə təhsil almışdır (1999-2003). Zəngin söz və musiqi repertuarına malikdir. Sumqayıt şəhərində N.Nərimanov adına Mədəniyyət evində və Bakıda 1 nömrəli uşaq incəsənət məktəbində saz müəllimi işləyir. Sumqayıt şəhərində fəaliyyət göstərən "Pöhrə" sazçı uşaq ansamblının rəhbəridir. Qazaxıstanda "Xəzər dostluq dənizidir" festivalında iştirak etmiş və mükafatlandırılmışdır. Türkiyədə keçirilən folklor festivalında (2012) mükafata layiq görülmüşdür. Azərbaycan aşıqlarının V və VI qurultaylarının nümayəndəsidir.

MƏMMƏDLİ SƏRDAR QƏLƏNDƏR OĞLU (1963, Gədəbəy rayonu, Arıqıran kəndi – Bakı). Balabançı və aşıq. Əməkdar mədəniyyət işçisi (2016). Sənəti qardaşı Abbasəlidən öyrənmişdir. Görkəmli balaban ustası Abbas İsmayılovun da onun bir sənətkar kimi yetişməsində xüsusi rolu olmuşdur. Aşıq Əkbər Cəfərov, Aşıq İmran Həsənov, Murad Niyazlı, İsfəndiyar Rüstəmov, Səyyad Pənahov, Mahmud Məmmədov, Əlixan Niftəliyev və başqaları ilə məclislər aparıbdır. Aşıq şeiri üslubunda qələmə aldığı poetik örnəkləri vardır. Azərbaycan aşıqlarının IV, V və VI qurultaylarının nümayəndəsi olmuşdur. Aşıqlar Birliyinin üzvüdür. Bir çox beynəlxalq festivallarda iştirak etmiş və mükafatlar almışdır.

MƏMMƏDOV AVTANDİL İSRAFİL OĞLU (1955, Ağbaba mahalı, Amasiya rayonu, Balıqlı kəndi – Sumqayıt şəhəri) – folklorşünas alimdir. Filologiya elmləri doktorudur. "Avtandil Ağbaba" imzası ilə çıxış edir. Təpəgöy məktəbində orta təhsil almışdır. BDU-nun filologiya fakültəsinə daxil olmuşdur (1973). Ordu sıralarında xidmət etmişdir (1974-1976). Universitetdə təhsilini qiyabi yolla davam etdirib 1981-ci ildə bitirmişdir. Balıqlı kəndində klub müdiri, Öksüz kənd səkkizillik məktəbində müəllim, tədris hissə müdiri işləmişdir (1976-1988). Sumqayıtda 11 nömrəli

məktəbdə müəllim (1988-1999), 25 nömrəli orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini (1999) işləmişdir. "Ulu Göyçə" qəzetində xüsusi müxbir olmuşdur (1993). SDU-nun filologiya fakültəsində müəllim, baş müəllim (2000-2004) vəzifəsində çalışmışdır. Aşıq sənəti və dastan yaradıcılığına dair çoxsaylı tədqiqatları vardır. "Ağbabaya gedən yollar" (1993), "Qaçaq Yusif" (1994), "Ağbaba şəhidləri" (1998), "Oğuz yurdu Güllübulaq (2001), "Folklorumuz – taleyimiz" (2007), "Aşıq Nəsibin sənət dünyası" (2008), "Duman, gedər olsan bizim ellərə" (2009), "Ağbaba-Çıldır aşıq mühiti" (2012) və s. adlı monoqrafiya, tərtib və toplamaları, kitabları var.

SDU-nun "Azərbaycan və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiridir (2009). AAB-nin (2016), AJB-nin (1995) və AYB-nin üzvüdür (1999). Əməkdar jurnalistdir (2012).

MƏMMƏDOV BİNNƏT HÜMBƏT OĞLU (1926, Goranboy rayonu, Balakürd kəndi – 1998) – Ustad balabançı. 1945-ci ildən balabançı kimi tanınmağa başlamışdır. Tanınmış sənətkar balabançı Quludan sənəti öyrənmiş, onun yanında şagird olmuşdur. Xalq məclislərində, rəsmi tədbirlərdə balabançı kimi iştirak etmişdir. Yüzə yaxın aşıq havasını ustalıqla ifa etmişdir. Zurna və tütək kimi alətlərində də öz məharətini göstərə bilmişdir. Aşıqların III və IV qurultaylarının iştirakçısı olmuşdur.

MƏMMƏDOV CƏLAL MİRZAĞA OĞLU (1964, Biləsuvar rayonu, Bəydili kəndi – Bakı) – folklorşünas, filologiya elmləri doktoru (2008). "Cəlal Bəydilli" imzaşı ilə mətbuat səhifələrində çıxış edir. Kənd səkkizillik məktəbini, sonra şəhər internat orta məktəbini bitirmişdir. BDU-nun filologiya fakültəsini qurtarmışdır (1989). AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda əmək fəaliyyətinə başlamışdır. "Türk epik ənənəsində

Dədə Qorqud" mövzusunda namizədlik dissertasiyası yazmışdır (1995). Azərbaycanda və Türkiyədə folklorla bağlı keçirilən konfranslarda fəal iştirak etmiş, diplom və mükafatlar almışdır. AMEA-nın Folklor İnstitutunda baş elmi işçi işləmişdir. 2001-ci ildən Azərbaycan Respublikasının Prezident Aparatının humanitar siyasət şöbəsində işləyir. Xalq ədəbiyyatının müxtəlif problemləri ilə bağlı tədqiqatların müəllifidir. "Türk mifoloji sözlüyü" (2003), "Şaman əfsanələri və sözlüyü" (1993), "Qorqud Ata bir mifoloji varlıq kimi" ("Kitabi-Dədə Qorqud" toplusu, Bakı, 1999), "Mifoloji rəvayətlərə dair" (AŞXƏDT, VIII, Bakı, 1999), "Qorqud Atanın advermə funksiyası" (AŞXƏDT, Bakı, X, 2000) və s. araşdırmaları vardır.

MƏMMƏDOV ƏFQAN ƏVƏZ OĞLU (1975, Kəlbəcər rayonu, Yellicə kəndi – Gəncə) – Aşıq ailəsində anadan olmuşdur. Qardaşı Aşıq Cəmil mühitin tanınmış sənətkarlarındandır. Digər qardaşı Şahmirzə istedadlı balabançıdır. Əfqan Məmmədov Şəmkir rayon Nərimanlı kənd orta məktəbini bitirmişdir. Aqrar Ekologiya İnstitutunda təhsil

almışdır (1997-2001). Aşıqlığa gənc yaşlarından həvəs göstərmişdir. Ustadı

Qəmkeş Allahverdi, Aşıq Qardaşxan Mehdiyev, Aşıq Ədalət Dəlidağlı olmuşdur. Klassik aşıq havalarının ustad ifaçısıdır. Ağdam rayonunda keçirilən (1989) Gənclər festivalında birinci yerə layiq görülmüşdür. Gəncədə Gənclər festivalının laureatı olmuşdur (1994). Təbriz şəhərində təşkil olunan aşıq müsabiqəsində mükafata layiq görülmüşdür (2008). Azərbaycan aşıqlarının V və VI qurultaylarının nümayən- dəsidir.

MƏMMƏDOV GÖYCƏ MƏHƏMMƏD OĞLU (1930, Borçalı mahalı, Qaçağan kəndi – 1996) – Borçalı aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Atası əslən Qazaxdandır. 1920-ci illərdə Borçalı mahalına köçmüşdür. Saza, sənətə böyük marağı olan Məhəmməd oğluna məhz bu səbəbdən də Göycə adını qoymuşdur. Göycə yavaş-yavaş görmə qabiliyyətini itirmiş, günəş işığına həsrət qalmışdır. Borçalının tanınmış aşıqları Aşıq Sadığı, Xındı Məmmədi, Ağacanı özünə müəllim seçmişdir. Onların söz xəzinəsini, sənət sirlərini mükəmməlliklə öyrənmişdir. Otuzdan yuxarı dastanı, səksənə yaxın saz havasını sinəsində gəzdirmişdir. Böyük qardaşı Musa saz sənətinə bütün varlığı ilə bağlı olan Göycəyə kömək etmək məqsədilə əlindən gələni əsirgəməmişdir. Açıq Göycə Qaçağanda tikilmiş mədəniyyət evində fəaliyyət göstərmişdir. Klassik dastanların və saz havalarının mahir bilicisi olmuşdur. Yeniyetmələrdən ibarət aşıq dəstəsi düzəltmişdir. Aşıq Göycənin anadan olmasının altmış illiyi Borçalıda (1990) böyük təntənə ilə keçirilmişdir. Oğlu Şahbaz Göycəoğlu atasının sənət yolunu uğurla davam etdirir.

MƏMMƏDOV HÜSEYN HEYDƏR OĞLU (1907, Gəncə – 1978) – Xalq nəfəs alətlərinin istedadlı ifaçısı. Məhşur balaban ustası. Orta təhsil almışdır. Musiqiyə erkən yaşlarından həvəs göstərmişdir. Bacarığını nəzərə alıb Gəncə aşıqları ona ney və balaban çalmağı məsləhət görmüşlər. 1932-ci ildən artıq neyçi və balabançı kimi tanınmağa başlamışdır. Gəncədə ustad İslam Yusifovun yaratdığı aşıqlar dəstəsində neyçi kimi iştirak etmişdir. İkinci Dünya müharibəsində 1942-1945-ci illərdə iştirak etmişdir. Müharibədən qayıtdıqdan sonra yenə sənətini davam etdirmişdir. Aşıqların III qrultayında iştirak etmişdir (1961).

MƏMMƏDOV İBRAHİM ƏSGƏR OĞLU (1909, Gəncə – 1983) – Aşıq İslam Yusi- fovun şagirdi olmuşdur. Onun yanında sənətin sirlərini öyrənmiş, bir sənətkar kimi formalaşmışdır. 1950-cu ildən sərbəst aşıqlığa başlamışdır. Aşıq İslamın keçirdiyi aşıq məclis-

lərinin iştirakçısı olmuşdur. Klassik aşıq havalarının mahir ifaçısı sayılmışdır. Solo saz ifaçılığında da özünəməxsus məharət nümayiş etdirmişdir. Dastançı aşıq kimi tanınmışdır.

MƏMMƏDOV İSLAM RZA OĞLU (1978, Bakı şəhəri – 2013) –

Aşıq Rza Qobustanlının ailəsində anadan olmuşdur. Qobustan qəsəbəsindəki 223 nömrəli orta məktəbi bitirmişdir. Erkən yaşlarından sənətə həvəs göstərmiş, atasından və anasından aşıqlığın sirlərini öyrənmişdir. Bakı Musiqi Akademiyasında təhsil almışdır (1998-2002). Xalq artisti Arif Babayevin sinfində muğam dərsi almışdır. R.Behbudov adına Dövlət Mahnı Teatrında solist kimi fəaliyyət göstərmişdir. Yüksək səviyyəli ifaçılıq qabiliyyətinə malik olmuşdur. Zəngin musiqi və söz repertuarı ilə diqqəti çəkmişdir. Müsabiqələrdə iştirak etmiş və mükafatlar almışdır. Dövlət tədbirlərində sazı-sözü ilə təmsil olunmuşdur. Yaradıcılığının çiçəkləndiyi dövrdə avtomobil qəzasında həlak olmuşdur. T.Abdullayev onun ömür və sənət yolu barədə "Aşıq İslam dünyası" (2014) adlı kitab yazmışdır. Az.TV-nin "qızıl fondu"nda unudulmaz lent yazıları qorunur.

MƏMMƏDOV İSMAYIL (BOZALQANLI İSMAYIL) İBRAHİM OĞLU (1951, Tovuz rayonu, Bozalqanlı kəndi) –

Aşıq mahnılarının və muğamların mahir ifaçısıdır. "Yetim İsmayıl" adı ilə tanınmışdır. ADMİU-nu bitirmişdir. Musiqi təhsili vardır. Sənət yolunun müəyyənləşməsində ustad aşıq Əkbər Cəfərovun böyük rolu olmuşdur. Tovuzun əsas aşıq ocaqlarından biri olan Bozalqanlıda aşıq sənətinin incəliklərinə yiyələnmişdir. Məlahətli və zəngüləli səsə malikdir. Zəngin repertuarı ilə saz-söz bilicilərinin diqqətini çəkmişdir. Bir çox festivalların laureatıdır.

MƏMMƏDOV QARA QOCA OĞLU (1911, Göyçə mahalı, Basarkeçər – 1986) – Erməni təqiblərindən Gəncəyə köçmüşdür. Orta təhsillidir.



Aşıq sənətinə həvəs onu aşıqlığa gətirmişdir. Bir neçə il Aşıq Əsədin və Aşıq Rəhimin yanında şagird olmuşdur. Sənətin sirlərini onlardan öyrənmişdir. 1932-ci ildən müstəqil aşıqlığa başlamışdır. Klassik aşıq havalarını ustalıqla çalmış və dövrünün tanınmış aşıqlarından biri olmuşdur. "Yetim Hüseyn", "Nəcəf şah", "Muğumşah" dastanlarını məclislərdə söyləməyə üstünlük vermişdir.

MƏMMƏDOV QƏMBƏR HƏSƏN OĞLU (1872, Şəmkir rayonu, Hüseynalı kəndi – 1952) – Şəmkir mühitinin yetişdirdiyi sənətkarlardandır. Dəmir yolunda işləyən atası Həsən kişi qatarın altında qalıb ölmüşdür. Atası öləndə Qəmbərin on bir yaşı olmuşdur. Çox erkən yaşlarından saza meyil göstərmişdir. Güclü hafizəsi olmuşdur. Morul kəndində Aşıq Əhmədə şagird olmuşdur. Ustadların yaradıcılığını, saz havalarını, Şəmkirdə geniş yayılmış "Koroğlu" dastanının qollarını mükəmməl mənimsəmişdir. Kəndin savadlı adamlarından yazmağı öyrənmişdir. Şagirdlərinin dediyinə görə, Qəmbər çox məlumatlı adamlardan imiş. Xeyli aşıq yetişdirmiş, aşıq sənətinin müxtəlif çətinliklərini sənətkarlara öyrətməyə çalışmışdır. Aşıq Alı Müseyib oğlu (Şəmkir), Aşıq Oruc Mehdi oğlu (Şəmkir), Aşıq Cəlil Mahmudov (Şəmkir), Aşıq Oruc Bağırov (Şəmkir), Aşıq Abbas Cəbrayılov (Gəncə) Aşıq Qəmbərdən aşıqlığı mənimsəmişlər.

MƏMMƏDOV MAHMUD QASIM OĞLU (1935, Göyçə mahalı, Ağbulaq kəndi –Bakı) – ustad Koroğluxan aşıq. Prezident təqaüdçüsü (2008). Əməkdar mədəniyyət işçisi (2018). 1948-ci il repressiyası zamanı ailəsi ilə birgə Tovuz rayonuna köçməli olmuşdur. Tovuzda orta təhsil almışdır. Aşıq İmran Həsənov 1950-ci ildə onun zil səsini, saza həvəsini nəzərə alıb yanına şagird götürmüşdür. Tovuzda aşıq sənətinin sirlərini ustadın yanında mənimsəmiş, bir sənətkar kimi formalaşmışdır. Ayrı-ayrı bölgələrdə məclislər aparmış, istedadlı aşıq kimi tanınmışdır. Rayon və respublika səviyyəli tədbirlərdə iştirak etmiş, müxtəlif müsabiqə və festivalların qalibi olmuşdur. Moskvada keçirilən Beynəlxalq folklor festivalında laureat adını

qazanmışdır. Fransa, Almaniya, Türkiyə və başqa ölkələrdə konsert vermişdir. Aşıq Mahmud dövlət tədbirlərində, xarici ölkələrdə keçirilən incəsənət görüşlərində fəal iştirak etmiş, gözəl ifaçılığına görə Respublika Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşdur (1985). Aşıqların III, IV, V və VI qurultaylarının iştirakçısı olmuşdur. Onun söylədiyi "Koroğlu" və "Abbas və Gülgəz" dastanları Azərbaycan televiziyasının "Qızıl fondu"nda saxlanılır. Anadan olmasının 70, 75 və 80 illiyi təntənəli şəkildə qeyd edilmişdir. Aşıqlar Birliyi İdarə Heyətinin üzvüdür. Bir neçə kitabı nəşr olunmuşdur.

MƏMMƏDOV MEHMAN (ZƏKƏRİYYƏ MEHMAN) MƏHƏMMƏD OĞLU (1928, Qazax rayonu, Aslanbəyli kəndi – 1999) –



Qazax mühitinin yetişdirdiyi sənətkarlardandır. "Mehman Zəkəriyyə" təxəllüsü ilə tanınmışdır. Bakıda Statistika texnikumunda təhsil almışdır (1957-1959). Aslanbəyli kəndində mühasib müavini vəzifəsində çalışmışdır. Aşıq sənətinə erkən yaşların-

dan həvəs göstərmişdir. 1968-ci ildə Borçalı mahalında Aşıq Göycənin şagirdi olmuşdur. Ustadları, dastan yaradıcılığını, saz havalarını ondan öyrənib bir sənətkar kimi yetişmişdir. Gəraylı, qoşma, təcnis, cığalı təcnis, müxəmməs və divaniləri vardır.

Qazax-İncədərəsi çevrəsindəki aşıqların repertuarında onun poetik irsi xeyli yer tutur.

MƏMMƏDOV MƏHƏMMƏD ÇOVDAR OĞLU (1922, Tovuz – 2015) – Tovuz mühitinin yetişdirdiyi ustad sənətkarlarındandır. "Çovdaroğlu Məhəmməd" adı ilə şöhrət qazanmışdır. Kənddə müxtəlif fasilələrlə (1930-1942) orta təhsil almışdır. İkinci Dünya müharibəsində (1942-1945) iştirak etmişdir. Aşıq sənətinə güclü marağı olmuşdur. Zəngin yaddaşı, istedadı onu bu sənətə gətirmişdir. Aşıq Əsəd Rzayevin şagirdi olmuşdur (1946-1950). Aşıq sənətini mükəmməl öyrənən Çovdaroğlu Məhəmməd keçən əsrin əllinci illərindən aşıqlığa başlamış, məclislər aparmışdır. Təcnis və aşıq müəmmalarının mahiyyətini açmaqda misilsiz keyfiyyətlər nümayiş etdirmişdir. Dastanların usta söyləyicisi olan Çovdaroğlu Məhəmməd klassik Koroğlu havalarının da əvəzsiz ifaçılarından biri olmuşdur.

Əbcad hesabı və ərəb hürufatının rəmzi simmollarını dərindən bilmişdir.

MƏMMƏDOV MƏHƏMMƏD MAHMUD OĞLU (1934, Qazax rayonu, Kəmərli kəndi) – Qazax mühitinin yetişdirdiyi sənətkarlardandır. Kəmərli kənd orta məktəbində oxumuşdur (1944-1954). Aşıqlığa böyük maraq göstərmişdir. Aşıq Cəlal Qəhrəmanovun yanında şagird olmuşdur (1957). Ustadından sənətin sirlərini öyrənmiş və onunla birgə məclislər aparmışdır. Ayrı-ayrı toplularda şeirləri dərc olunmuşdur. "Ürək açan ozanlar var İncədə" (2001) adlı şeirlər kitabı çıxmışdır.

MƏMMƏDOV MƏHƏMMƏD (SADAXLI MƏHƏMMƏD) (1930, Borçalı mahalı, Mollaoğlu kəndi – 2016) –Borçalı mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Aşıq sənətinin sirlərini əllinci illərdə Xındı Məmməddən öyrənmişdir. Hüseyn Saraclı, Əhməd Sadaxlı ilə sənət yoldaşı olmuşdur. Bir sənətkar kimi formalaşdıqdan sonra aşıqlığa başlamışdır. Borçalıda, Qazaxda, Tovuzda məclislər keçirmiş, sazı, sözü ilə tanınmışdır. Beş dastan yaratmışdır. Borçalı aşıq ifaçılıq ənənəsini on beşə yaxın gəncə mənimsətmişdir. Üç yüzdən yuxarı qoşma, gəraylı, təcnis, divani və müxəmməs düzüb qoşmuşdur. Azərbaycan və Gürcüstan telearxivlərində çoxsaylı ifaları qorunur. Gürcüstan Respublikasının "Şərəf" medalına layiq görülmüşüdr (2010). Aşıqların III və IV qurultaylarında iştirak etmişdir.

MƏMMƏDOV MƏLİK ORUC OĞLU (1947, Gədəbəy rayonu, Arıqıran kəndi – 2006) – Orta təhsil almışdır (1954-1964). Aşıq İsfəndiyarın şagirdi olmuşdur (1968-1977). Gədəbəydə "Xalq aşığı" ansamblının üzvü olmuş-

dur. Özünəməxsus səs tembri ilə seçilmişdir. "Koroğlu havaları"nın yüksək səviyyəli ifaçılarından sayılmışdır. Rayonda və respublika səviyyəsində keçirilən tədbirlərdə fəallığı ilə seçilmişdir. Festivallarda mükafatlar qazanmışdır (1975). Aşıqların IV Qurultayının iştirakçısı olmuşdur.

MƏMMƏDOV MUĞUM (1903, Göyçə mahalı, Zağalı kəndi – 1978, Şəki, Cəfərabad kəndi) – Daşnakların 1917-ci ildə törətdiyi faciələr zamanı ailəsi Göycədən Gəncəyə köçmüş, burada fəhlə kimi çalışmaqla yanaşı aşıqlıq da etmişdir. Aşıq Muğum 1919-cu ildə Şəkinin Göybulaq kəndinə gəlmişdir. Altı ay burada qaldıqdan sonra Kiçik Dəhnə kəndinə köçmüşdür. 1926-cı ilə qədər burada fəaliyyət göstərmişdir. 1927-ci ildən ömrünün sonuns qədər Cəfərabad kəndində yaşamışdır. Taleyini həmişəlik saza bağlamışdır. Aşıq kimi Şəki - Balakən bölgəsində böyük hörmət və nüfuz sahibi olmuşdur. III Aşıq qurultayının iştirakçısı olmuşdur (1961).



MƏMMƏDOV RZA (RZA QOBUSTANLI) ƏLİSA OĞLU (1944, Şamaxı rayonu, Təhlə kəndi – 1989, Qobustan) – Əməkdar mədəniyyət işçisi (1984). Şirvan aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Gəncliyində ailəsi ilə Qobustana köçmüşdür. Aşıq sənətinə erkən yaşlarından marağı olmuş-

dur. Sənətin sirlərini Şirvanın ustad aşıqları Bəylər Qədirovdan, Şakir Hacıyevdən, Məmmədağa Babayevdən öyrənmişdir. 1960-cı ildən müstəqil aşıqlığa başlamışdır. "Rza gözəlləməsi" adlı aşıq havası yaratmışdır. Aşıq şeirinin müxtəlif şəkillərində yazıb-yaratmışdır. Qobustan qəsəbə Mədəniyyət evində uzun müddət bədii rəhbər vəzifəsində çalışmışdır. Azərbaycan aşıqlarının III və IV qurultaylarının nümayəndəsi olmuşdur. Beynəlxalq folklor festivalında (1970) laureat adını qazanmışdır. Mədəniyyət nazirliyinin diplom və fəxri fərmanlarına layiq görülmüşdür.

Mahnıları dövlət tədbirlərində radio və televiziya verilişlərində, bədii filmlərdə geniş yer almışdır. Ailə ocağında saz-söz səsnəti ilə bağlı ənənə uğurla davam etdirilir.

MƏMMƏDOV RZA BURCALI OĞLU (1976, Şamaxı rayonu, Quşçu kəndi) – "Rza Şamaxılı" və ya "Quşçulu Rza" imzası ilə tanınır. Quşçu kənd tam orta məktəbində oxumuşdur. Şamaxı rayon Nəsimi adına 1 saylı musiqi mək-

təbinin qarmon şöbəsini bitirmişdir. 4 il Quşçu kəndində musiqi müəllimi işləmişdir. Aşıq yaradıcılığına olan maraq onu bu sənətə gətirmişdir. 2005-ci ildən aşıqlıq edir. Sənətin sirlərini Aşıq Mahmud, Aşıq Abbas, Aşıq Əvəz, Aşıq Şərbət və Aşıq Ağamuraddan öyrənmişdir. Şirvan aşıqlığının istedadlı nümayəndələrindəndir. Özünəməxsus avazı, çalğı üslubu vardır. "Qurbani", "Abbas və Gülgəz", "Alı xan və Pəri xanım", "Adıgözəl və Aslan Şah", "Seydi və Pərixanım" dastanları onun repertuarında daha çox yer alır. Aşıqlar Birliyinin üzvüdür (2016). Şamaxı rayonunun mədəniyyət tədbirlərində fəal iştirak edir. Mədrəsə qəsəbə Diyarşünastlıq klubunun müdiridir.

MƏMMƏDOV SABİT İSMAYIL OĞLU (1958, Qazax rayonu, Kosalar kəndi) – Qazax mühitinin yetişdirdiyi sənətkarlardandır. Orta məktəbi bitirib Sumqayıt Politexnik texnikumunda təhsilini davam etdirmişdir. Sazbəndliyi bir sənət kimi öyrənmişdir. Atası İsmayıl oğlunu dövrünün görkəmli saz ustası Məmmədəlinin yanına şagird qoymuşdur. Həmin vaxtlar Məmmədəli çox qoca olmuş, Sabitin əl qabiliyyətini görüb ona xeyir-duasını vermişdir. Sabit artıq sazbənd kimi Qazaxda, ətraf bölgələrdə məşhurlaşmışdır. Beş yüzdən çox saz düzəltmişdir.

MƏMMƏDOV ŞAHBAZ GÖYCƏ OĞLU (1968, Borçalı mahalı, Saral rayonu, Qaçağan kəndi) - Aşıq Göycə Məmmədovun ailəsində dünyaya gəlib. Sənətin sirlərini atasından öyrənmişdir. Mühitdə "Şahbaz Göycə oğlu" imzası ilə tanınır. Klassik saz havalarını özünəməxsus ustalıqla çalıb-oxuyur. Repertuarında mühüm bir hissəni dastanlar tutur. Borçalı aşıq mühitinin layiqli nümayəndələrindən biridir və bu məktəbin ənənələrini uğurla davam etdirir. Çağdaş dövrün Koroğluxan aşıqlarından sayılır. Türkiyə, Rusiya, İran və Ukrayna, Orta Asiya respublikalarında keçirilən folklor festivallarında aşıq sənətini ləyaqətlə təmsil etmiş və mükafatlar almışdır.



Şair Ağacanın poetik irsinin əsas daşıyıcılarından biri sayılır. Zəngin saz və musiqi repertuarı ilə seçilir.

Türkiyədə, Azərbaycanda və Gürcüstanda keçirilən bir çox folklor festivallarında yüksək ifasına görə mükafatlar almışdır.

MƏMMƏDOV TARİYEL AYDIN OĞLU (1949) – etnomusiqişünas, pedaqoq, naşir. Sənətşünaslıq doktoru (1989), prof. (2005), Əməkdar incəsənət xadimi (2007). Bəstəkarlar İttifaqı (1989) və Aşıqlar Birliyinin (2010) üzvü. Müasir elmi paradiqmaya xas olan metodoloji üsulları tətbiq edərək Azərbaycan musiqi eposşünaslığının inkişafına təkan vermişdir. "Koroğlu havaları" (rus dilində,1984) tədqiqat əsə-

rində "Koroğlu" eposu ilə bağlı problemlər kompleks şəklində təqdim edilmişdir. "Koroğlu" dastanının yaranması və tarixi inkişafı, onun variantları, eposla genetik şəkildə bağlı olan havaların tipologiyası, Azərbaycan instrumental musiqisində Koroğlu qəhrəmanlıq havaları haqqında məlumat verilmişdir. "Azərbaycan aşıqlarının ənənəvi havaları" (rus dilində, 1988) kitabında, "Azərbaycan klassik aşıq havaları" (2009) antologiyasında Azərbaycan aşıq sənətində əsrlərdən bəri formalaşmış ənənəvi havalar toplusu dolğun şəkildə təcəssüm etdirilmiş, klassik aşıq havaları ən görkəmli aşıqların (Şəmşir Qocayev, Hüseyn Saraclı, İmran Həsənov, Əkbər Cəfərov və d.) ifasında yazıya alınmışdır. "Koroğlu" aşıq havaları" (2009) və "Türk xalqlarının "Koroğlu" epik havaları" (ingilis dilində, 2013) əsərlərində müqayisəli-tipoloji təhlil üsulları tətbiq edilərək Azərbaycan, türk, türkmən və qazax Koroğlu epik havaları tədqiq olunmuş, onların not və audio yazıları (CD) təqdim edilmişdir. "Aşıq sənəti" fənni üzrə bir sıra dərslik və metodik vəsaitlərin müəllifidir. "Azərbaycan xalq-professional musiqisi: aşıq sənəti" dərs vəsaitində (2002), "Azərbaycan aşıq yaradıcılığı" dərsliyində (2011) şifahi ənənəli Azərbaycan musiqi sistemində aşıq sənətinin yeri müəyyənləşdirilmiş, bu sənətin özəllikləri kommunikasiya nəzəriyyəsi nöqteyi-nəzərindən araşdırılmış, aşıq havalarının not yazıları və s. məsələlər haqqında məlumat verilmişdir. "Aşıq" sözünün etimologiyası, aşıq yaradıcılığına dair tarixi məlumat, ustad-şagird ənənəsi, şifahi ənənəli təlim üsulları, aşıq sənətinin müxtəlif mühitləri və rəngarəng üslub axınları işıqlandırılmışdır. Burada aşıq havalarının uzun təkamül yolu keçmiş musiqi dili müxtəlif rakurslardan – məqam, melodiya, metr-ritm, polifoniya və s. tədqiq edilmişdir. Etnomusiqişünaslığın müxtəlif problemlərinə dair 100-ə yaxın məqalənin müəllifidir. Bir sıra Beynəlxalq konfranslarda etnomusiqişünaslığın aktual problemlərinə dair məruzələrlə çıxış etmişdir. Azərbaycan aşıqlarının V və VI qurultaylarının nümayəndəsidir. Aşıqlar Brliyi idarə heyətinin üzvüdür (2018).

MƏMMƏDOV VƏLİ (QARAXANLI VƏLİ) KƏRİM OĞLU (1902, Tovuz rayonu, Qaraxanlı kəndi –1992) – Tovuz aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Dini təhsil almış, ərəb və fars dillərini mükəmməl bilmişdir. Bu onun yaradıcılığında da özünü göstərmişdir. Aşıq sənətinin sirlərini Aşıq Hüseyn Bozalqanlı və Əlimərdanlı Aşıq Nəcəfdən öyrənmişdir. Tovuzda, Qazaxda, Gəncədə və digər bölgə- lərdə məclislər aparmış, ustad sənətkar kimi tanınmışdır. "Şair Vəli" təxəllüsü ilə dəyərli poetik nümunələr yaratmışdır. Klassik ustad aşıqlara aid bir çox qıfılbənd və müəmmaları açа bilmişdir. Respublika səviyyəli tədbirlərdə təmsil olunmuşdur. Tovuz aşıqlar ansamblının üzvü olmuşdur (1950-1963).

II və III Aşıq qurultaylarında iştirak etmişdir.

MƏMMƏDOV YƏHYA MUSA OĞLU (1931, Qazax rayonu, Qaymaqlı kəndi – 1994) – Aşıqlığa 1947-ci ildən başlamışdır. Aşıq Avdının yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişdir. Məlahətli səsə, yüksək avaza malik olmuşdur. Dastançı aşıq kimi tanınmışdır. Qazaxda, Gəncədə, Şəmkirdə, Tovuzda, Borçalıda məclislər aparmışdır.

MƏMMƏDOV ZAHİD BAXIŞ OĞLU (1959, Şamaxı rayonu, Ərəbqədim – Göytəpə kəndi) – "Zahid Ərəboğlu" imzası ilə tanınır. Şirvan aşıqlığının istedadlı nümayəndələrindəndir. Erkən yaşlarından sənətə həvəs göstərmişdir. İbtidai təhsilini Göytəpədə alıb. Şamaxı şəhər Mədəniyyət evində ustad tarzən Qurban Cavadovdan dərs almışdır (1968). Bakıda 8 saylı musiqi təmayüllü internat məktəbinin tar sinfində təhsilini davam etdirmişdir (1970-1976). Şamaxı rayon Gəmgəmli kəndində musiqi müəllimi işləmişdir (1976). Azərbaycan Dövlət Pedaqoji Universitetində ali təhsil almışdır (1981-1985). Təyinatla Şamaxı rayon Mərəzə qəsəbə musiqi məktəbinə tar müəllimi göndərilmişdir. 1992-ci ildə məktəbin direktoru olmuşdur. Şirvan aşıq məktəbində sazın solo ifasını yaradıb. Mərəzə musiqi məktəbində saz sinfi yaratmışdır (1992). Türkiyədə, İranda, Rusiyada sənəti ilə təmsil olunmuşdur. Ərzurumda keçirilən türkdilli xalqların festivalında (2007) ödül alıb və Türk dünyası aşıqlar birliyinə üzv seçilmişdir. Şirvan, Gəncəbasar və Təbriz-Qaradağ aşıqlığına dair musiqi repertuarının dərin bilicisidir.

MƏMMƏDOV ZAMƏDDİN BİNNƏT OĞLU (1950, Goranboy rayonu, Balakürd kəndi - 2018) – milli nəfəs alətlərinin mahir ifaçısı, ustad balabançı. Orta məktəbi anadan olduğu kənddə bitirmişdir (1967). İnşaat texnikumunda oxumuşdur (1967-1970). Erkən yaşlarından sənətə həvəs göstərmişdir. Atası Binnət kişi dövrünün tanınmış balabançılarından olmuşdur. Sənəti də atasından öyrənmişdir. On beş yaşından Zaməddin məclislərə getmişdir. Hüseyn Cavan, Ədalət Nəsibov, İsfəndiyar Rüstəmov, Mais Gəncəli və digər sənətkarlarla birgə məclislər aparmışdır. Yüksək səviyyəli professional ifaçılığı ilə ustad sənətkar kimi tanınmışdır. Hollandiyada, Belçikada, Polşada, Türkiyədə, İranda sənəti ilə təmsil olunmuşdur. Ümumittifaq və dünya festivallarında mükafatlar almışdır. Azərbaycan aşıqlarının IV və V qurultaylarının iştirakçısı olmuşdur. "Elxan Binnətoğlu" təxəllüsü ilə aşıq üslubunda şeirləri vardır.

MƏMMƏDOV ZEYNAL MUXTAR OĞLU (1924, Gəncə – 1986) – Aşıq sənətinə az yaşlarından maraq göstərmişdir. Dövrün görkəmli saz-söz ustadı Qaraçıoğlu İbrahimin şagirdi olmuşdur. Sənətin sirlərini ondan öyrən-

mişdir. 1941-1944-cü illərdə İkinci Dünya müharibəsində iştirak etmişdir. Yaralanıb qayıtmışdır. Gəncədə toylarda, şənliklərdə, rəsmi tədbirlərdə həmişə unudulmaz çıxışlar etmişdir. Dastançı aşıq kimi tanınmışdır. Festivallarda mükafatlar qazanmışdır. Mahir saz-söz bilicisi sayılmışdır. Çoxsaylı şagirdlər yetişdirmişdir. Aşıqların III-IV qurultaylarının nümayəndəsi olmuşdur.



MƏMMƏDOVA LƏTİFƏ MÜSLÜM QIZI (1970, Tovuz rayonu, Çeşməli kəndi) – "Lətifə Çeşməli" təxəllüsü ilə tanınır. Sənətin incəliklərini Gülarə Azaflıdan öyrənmişdir. Zil, şaqraq səsə malikdir. "Koroğlu havaları"nın istedadlı ifaçısı sayılır. Aşıq şeiri üslübunda yaratdığı poetik örnəklər ayrı-ayrı toplularda nəşr olunmuşdur. Azərbaycan aşıqlarının V və VI qurultaylarının iştirakçısı olmuşdur. Aşıqlar Birliyinin (2016) və Aşıq Pəri Məclisinin üzvüdür (1995).

MƏMMƏDOVA SƏNƏM (BALAKƏNLİ SƏNƏM) HACI QIZI (1887, Balakən rayonu, Gülüzən kəndi – 1978) – tambur ustadı, haylaçı. Xalq arasında Balakənli Sənəm, Haylaçı Sənəm adları ilə tanınmışdır. Balakən damburçuları arasında xüsusi yerə və sanbala malik olmuşdur. Kədərli bir həyat yaşamışdır. Nakam sevgi ağrıları haylalarında əks olunmuşdur. Birinci Aşıqlar Qurultayının (1928) qadın iştirakçılarındandır. Qurultayda Aşıq Mirzə Bilalla birgə oxumuşdur. Əzizə Cəfərzadə ondan 213 hayla yazıya alıb çap etdirmişdir. Xalq arasında Sənəmin oxuduğu haylalar və taleyi ilə bağlı müxtəlif rəvayətlər bu gün də dolaşmaqdadır. "Çay daşı, çaylaq daşı", "Yerli hava", "Qərib hava" və s. tambur mahnılarının mahir ifaçısı sayılır. Akif Məmmədli "Haylalarda yaşayan tariximiz" (2013) kitabında Balakənli Sənəm haqqında söhbət açmış və haylalarından örnəklər vermişdir.

MƏMMƏDOVA SVETLANA ƏLABBAS QIZI (1946, Bakı) – filoloq, folklorşünas, tərcümə mütəxəssisi. Filologiya üzrə fəlsəfə doktoru (2000). Dosent (2014). Universitet təhsili almışdır (1967-1972). 2003-cü ildən AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda çalışır. "Şifahi xalq ədəbiyyatı və yazılı abidələr" şöbəsinin aparıcı elmi işçisi-

dir. Aşıq poeziyası və xalq dastanlarının rus dilinə tərcüməsi problemlərini araşdırır. "Vladimir Qafarov aşıq poeziyasının rus dilinə tərcüməçisi kimi" (2008) və "Azərbaycan xalq poeziyası rus tərcümələrində" (2014) monoqrafiyalarının müəllifidir. Aşıq Ələsgər, Mirzə Bilal, Mikayıl Azaflı irsinin tədqiqinə dair maraqlı elmi məqalələri vardır. Azərbaycan qadın aşıqları və el şairləri ilə bağlı elmi araşdırmalar aparmışdır. Azərbaycan aşıqlarının VI Qurultayına nümayəndə seçilmişdir (2018).

MƏMMƏDOVA NAZİLƏ ALI QIZI (1952, Qazax rayonu, Fərəhli kəndi–Bakı)–folklorşünas, aşıq yaradıcılığının tədqiqatçısı. AAB-ın üzvü (1984). Orta təhsilini Tovuz rayonundakı A.S.Puşkin adına məktəbdə almışdır. BDU-nun filologiya fakültəsində təhsil almışdır (1970-1974). Universiteti bitirdikdən sonra M.F.Axundov adına kitabxanada işləmişdir. "Aşıq Hüseyn Şəmkirlinin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1993). ADPU-nun Dədə Qorqud adına elmi mərkəzində elmi işçi kimi fəaliyyət göstərmişdir (1995-2011). "Aşıq poeziyasının mövzu və janr əhatəsi (Aşıq Hüseyn Şəmkirlinin yaradıcılığı əsasında)" (1999) monoqrafiyası nəşr olunmuşdur. Aşıq yaradıcılığının müxtəlif problemləri ilə bağlı araşdırmaları vardır. Yunus Əmrə, S.Vurğun, O.Sarıvəlli, H.Arif yaradıcılığının folklor qaynaqları ilə bağlı maraqlı tədqiqatların müəllifidir. Beynəlxalq konfrans və simpoziumlarda aşıq yaradıcılığının aktual problemləri ilə bağlı məruzələr oxumuşdur.

MƏMMƏDOVA TİNATİN İSABALI QIZI (1964, Borçalı, Qızılkilsə kəndi – Bakı). Aşıqşünas. Azərbaycan Aşıqlar Birliyinin üzvü (2017). A.S.Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunda oxumuşdur (1981-1986). Sumqayıt "Təbiət Elmləri gimnaziyası"nda müəllim işləmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun "Şifahi xalq ədəbiyyatı və yazılı abidələr" şöbəsində elmi işçi vəzifəsində fəaliyyətə başlamış (2003), hazırda orada aparıcı elmi işçidir. "Borçalı aşıq mühiti" mövzusunda namizədlik dissertasiyası müdafiə (2001) etmişdir. "Borçalı aşıq mühiti" və "Türk folklor söyləyicisi" kitabları vardır. "Milli dastançılıq ənənəsi postmodern təfəkkürdə", "Turkmən baxşıları", "İ.Əfəndiyevin "Hökmdar və qızı" pyesində tarix və müasirlik problemlərinin inikası", "Hüseyn Arifin yaradıcılığında ustadnamə ənənələri", "Hüseyn Arif yaradıcılığında "saz" obrazı", "Borçalı aşıq ocaqları", "Osman Sarıvəlli və aşıq sənəti", "Ulu dastançılar" və s. məqalələri dərc olunmuşdur.



Azərbaycan aşıqlarının VI qurultayının nümayəndəsidir (2018).

MƏNSUR HƏLLAC İBN HÜSEYN (858, Beyza – 922) – Sufi mütəfəkkir olmuşdur. Babası Mühəmma atəşpərəstliyə sitayiş etmişdir. Xorasan,

Mavəraünnəhr, Hindistan, 913-cü ildən Bağdadda yaşamışdır. Həllac Mənsurun "Ədalət və tövhid", "Siyasi xəlifələr və əmirlər", "Bəqa və fəna elmi", "Nurun nuru", "Səmimiyyət və qurtuluş" və s. əsərləri vardır. Həllac Mənsur İslama etinasız qalmış, Qurana adi əsər kimi baxmış və " mən də eləsini yazaram" demişdi. Hüluliyyə təlimini qəbul etmişdir. Hülulilik "daxil olma" sözündəndir. İlahinin insanda təcəssüm olması anlamını verir. Dini-fəlsəfi təlimdir. Xürrəmilikdə, sufilikdə və başqa cərəyanlarda özünəməxsus şəkildə təbliğ olunmuşdur. Bu təlimə görə, Allah ardıcıl surətdə bütün peyğəmbərlərdə, bu və ya digər bir şəxsdə büruzə verir. Hülulilіyə görə, Allah-taala hər bir məkanda mövcuddur, hər bir adamda zahirdir. Bu cəhət sufilər üçün səciyyəvi idi. Mənsur Həllacın fikrincə, kim öz nəfsini islah edərək, həzzin və şəhvətin məhrumiyyətinə dözüb yüksək məqama çatarsa, insani keyfiyyətdən arınar, ilahinin ruhu onda təcəssüm edər. H.Mənsur özünün belə bir mərtəbəyə çatdığını söyləyir. "Mən Haqqam" deyir. O bu iddiasına görə həbs edilərək öldürülmüşdür. Dövrünün alimlərinin böyük bir qismi onu kafirlikdə təqsirləndirmiş, bəziləri isə haqq qazandırmışlar.

Azərbaycan mütəfəkkirlərindən Baba Kuhi Bakuvi "Həllacın tərcümeyihalı" adlı əsər yazmışdır. Nəimi, Nəsimi də onun yolu ilə getmiş, öz təlimlərini yaratmışlar.

Aşıq ədəbiyyatında Həllac Mənsur obrazlaşmışdır. Ustad aşıqlar öz yaradıcılığında, dastanlarda "Həllac" adına bu və ya digər dərəcədə müraciət etmişlər. Bu obraz daha çox "dardan, edamdan qorxmamaq", "əqidəsindən dönməmək" məzmununu təqdim etmək üçün diqqət önünə çəkilir.

MƏRASİM – xalqın həyatı, məişəti, dünyagörüşü, inancları, etiqadları ilə bağlı təşkil olunmuş aktdır. Tədrici və tarixi prosesdə ənənəviləşmişdir. Qədim zamanlardan insanlar öz dünyagörüşlərinə uyğun ayinlər düzəldir, səhnəciklər təşkil edir, oynayır, mahnılar oxuyur, şənlənirdilər. Bunlar hamısı müxtəlif zaman kəsiyində, müxtəlif məqsədlərlə yerinə yetirilirdi. Dünya xalqlarının hamısında mərasim özünəməxsusluqları xalqların təsəvvürlər sistemini ifadə edir. Daşlaşmış mədəniyyət hadisəsi kimi müəyyən dəyişiklik və əlavələrlə təkrarlanır. Azərbaycan xalqının da zəngin mərasimləri vardır. Bu mərasimlər bir istiqamətdə türk dünyası ilə bağlanırsa,

digər istiqamətdə islam mədəniyyətilə qovuşur.

Aşıqların da iştirak etdiyi etnoqrafik mərasimlər (toy mərasimi) ritual funksiyası daşıyır və tayfa, xalq, millət üçün kodlaşır. Zaman, məkan baxımından da mərasimlərdə qəlibləşmə prosesi gedir. Yəni bir qrup mərasimlər məişət xarakterli olduğu halda, digər bir qrup mövsümi səciyyə daşıyır. Dini mərasimlərin özündə də zaman hadisəsi kimi qəlibləşmə vardır. Ona görə də mərasimlər məişət və mövsüm mərasimləri adı ilə iki qrupa ayrılır. Mərasimlərin təşkili, eləcə də ondakı qəlibləşmiş komponentlərin heç biri təsadüfi səciyyə daşımır. Hər bir komponent xalqın həyat, dünya haqqında təsəvvürlərini, müəyyənləşmiş nizamı əks etdirir. Ona görə də həmin mərasimlər ritual hadisəsi olaraq hansı zamanda baş verməsindən, amal, məqsədindən asılı olmayaraq hamı tərəfindən qəbul olunur və ənənəvi şəkildə keçirilir.

MƏRASİM HAVALARI – müəyyən mərasimlərlə bağlı yaranmış havalar silsiləsi. 1. Ayin, etiqad və mərasimlərlə bağlı havalar (ovsun, sınama, alqış, qarğış, fal). 2. Qış, yay mövsüm mərasimləri ilə bağlı havalar (Yağış və Günəşi çağırma mərasimləri). 3. Xalq mərasimləri ilə bağlı havalar (doğum, toy, yas mərasimləri). Rəqs, musiqi və poeziyanın mərasim sinkretizmindən yarandığını təsdiq edən elmi nəzəriyyə kifayət qədərdir. Bu əsərlərdə incəsənətin yaranması, onun mənşəyi magiya (ovsunçuluq) mərasimləri ilə əlaqələndirilir, hər bir musiqili "ifadənin" rituala (ayinlərə), həyat tərzinə, hətta ictimai birliyin mədəniyyətinə aid edilməsi, ritualın sonradan mərasimə çevrilməsi fikri üstünlük təşkil edir. Musiqi məişət xaricində – məişətin müəyyən tipləşmiş situasiyasından kənarda praktiki surətdə mövcud olmamışdır. Musiqi, musiqili bir yaradıcılıq nümunəsi – mahnı, rəqs, ritmik hərəkət və s. həyatın axarı və silsiləviliyilə, kollektivin fəaliyyəti ilə sıx funksional əlaqədə olmuşdur. İlk başlanğıcdan kütləvi mərasim tamaşasının mərkəzində ritual prosesi yönəldən, enerjisi ilə bütün dinləyiciləri və iştirakçıları özünə cəlb edən, yaradıcılıq aktını həyata keçirən qam-şaman və ya ozan dayanırdı. O, çalıb-oxuduğu havalarla sözlə deyə bilmədiyi fikirləri ifadə edir, hal-əhval yaradır, hadisələrin axarının emosional təsirini gücləndirirdi. Mövcud ədəbiyyatda ən qədim mərasimlərdən biri hesab olunan "yuğ" tamaşa-mərasimləri haqqında da məlumatlar verilərək qeyd olunur ki, "Qədim Azərbaycanda ölən böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəmanın ölüm günü camaatı bir yerə toplayırdılar. Bu toplantıya "yuğ" deyərdilər (Yuğlamaq – "ağlamaq" sözündəndir). Xüsusi dəvət olunmuş yuğçular ("ağıçılar") ikisimli qopuz çalıb oynayardılar. Yuğçu əvvəlcə qəhrəmanın igidliklərini danışıb onu tərifləyirdi. Sonra isə kədərli qədim havalara keçib şanlı qəhrəman üçün ağı deyərdi" (Ə.Haqverdiyev, 1957). Təsadüfi deyildir ki, kökləri Azərbaycan xalqının tarixi yaddaşının dərinliklərində itibbatan aşıqlıq mədəniyyəti ibtidai yaşayış sisteminin ayrılmaz hissəsi olmuş, qam-şamançılıq mərhələsindən keçərək mərasim havalarının yaranması və formalaşmasında tarixi rolunu oynamışdır.

MƏRDANOV MƏMMƏD (CANALLI MƏMMƏD) MƏRDAN OĞLU (1880, Qazax rayonu, Canallı kəndi – 1937) – "Canallı Məmməd" kimi tanınmışdır. Dövrünün tanınmış ustadlarındandır. Təhsil almamışdır. Ancaq kifayət qədər güclü yaradıcı aşıq olmuşdur. Bədahətən söz deyə bilmək qabiliyyəti haqqında indi də rəvayətlər söylənməkdədir. Klassik aşıq yaradıcılığını, dastanlarımızı mükəmməlliklə öyrənə bilmişdir. Dastançı aşıq kimi məşhur olmuşdur.

H.Əlizadə və V.Xuluflu onun repertuarından bir neçə dastanı ("Nəcəf və Pərizad", Alı xan və Pəri xanım", "Abdulla və Cahan") yazıya alaraq XX əsrin otuzuncu illərində nəşr olunan dastan antologiyalarına daxil etmişlər. Aşıqların I qrultayının nümayəndəsi olmuşdur (1928).

MƏRƏNDİ ƏLƏSGƏR RƏHMAN OĞLU (1940, Mərənd – Təbriz) –Təbriz-Qaradağ aşıq mühitinin görkəmli nümayəndəsidir. Uşaqlıqdan aşıq sənətinə güclü meyil göstərmişdir. O, Aşıq Məhəmməd Mərəndi, Aşıq Qulu Türkədari, Aşıq Qəşəm Güneylidən dərs almış, onların məclislərində aşıq sənətinin sirlərinə yiyələnmişdir. Saz havalarının və dastanların mahir bilicisidir. Sinəsində 30-dan yuxarı dastan gəzdirir. Bir sıra aşıq festivallarında və tədbirlərində iştirak et- mişdir. İstedadlı sənətkar kimi Təbriz-Qaradağda tanınmışdır. Gözəl məclis aparmaq qabiliyyətinə və dastançılıq məharətinə malikdir. "Xəstə Qasım dastanını və onun poetik irsinin incilərinə dərindən bələddir. Əbcəd hesabı və əlifləmə sisteminin usta bilicilərindən biridir. Saz-söz sənətinin sirlərini xeyli sayda gənc aşığa öyrətmişdir. Hal-hazırda Təbriz şəhərində yaşayır.

"MƏRYƏMOĞLU ŞİKƏSTƏSİ" – Bax: Şikəstə.

MƏSUM ƏFƏNDİ (XVIII əsr, Dərbənd) – Dərbənd mühitinin yetişdirdiyi klassik saz-söz sənətkarıdır. Həyatı haqqında ətraflı məlumat yoxdur. Aşıq Valehlə deyişmələrindən və "Valeh və Zərnigar" dastanından haqqında müəyyən bilgilər almaq olur. Dastandan aydınlaşır ki, Valeh Dağıstana səfər edərkən yolda Məsum Əfəndinin qonağı olur. Dastandan o da məlum olur ki, Məsum Əfəndi Aşıq Valehlə qarşılaşanda ahıl yaşlarında olmuşdur. Hətta ona "oğlum" deyə müraciət etmişdir. Əlimizdə Məsum Əfəndinin Valehlə deyişmələrindən başqa, bir də özü tərəfindən yaradılmış "Məsum və Diləfruz" kimi mükəmməl aşıq dastanı vardır. Həm Aşıq Valehlə deyişməsindəki poetik mətnlərdən, həm də "Məsum və Diləfruz" dastanındakı şeirlərdən bu böyük sənətkarın mükəmməl savad və istedad sahibi olduğu açıq şəkildə nəzərə çarpır.

MƏSİMOV MEHDİ MÜSTƏCƏB OĞLU (1973, Kəlbəcər rayonu, Mollabayramlı kəndi – Bərdə)–İstedadlı ifaçı aşıqdır. Orta məktəbi Bərdədə bitirmişdir. Maliyyə-iqtisad kollecində oxumuşdur. Aşıqlığa erkən yaşlarından həvəs göstərmişdir. Sənətin sirlərini əvvəlcə ustad sənətkarlar olan Aşıq Qardaşxan Mehdiyevdən, sonra Hacı Bayramovdan öyrənmişdir. Aşıq Şəmşir ifaçılıq məktəbini uğurla davam etdirir. "Xarı bülbül" beynəlxalq festivalının qalibi olmuşdur (1988). Birinci aşıqlar müsabiqəsinin (2007) mükafatçılarındandır. İranda, Rusiyada, Qazaxıstanda festivallarda iştirak etmişdir. Beynəlxalq ozan-aşıq festivalının diplomantıdır (2010). Zəngin havacat repertuarına və ürəyəyatan səs imkanlarına malikdir.

"MƏSUM VƏ DİLƏFRUZ" – məhəbbət dastanıdır. XVIII əsrin Dərbənd sənətkarı Məsum Əfəndi tərəfindən yaradılmışdır. "Dastanlar və nağıllar" kitabında (1937), "Xalq dastanları"nda (II cilddə, I, c., 1961), "Azərbaycan dastanları"nda (V cilddə, II c., 1966) nəşr olunmuşdur. Axırıncı variant 1944-cü ildə Aşıq Hüseyn Seyfəllidən toplanmışdır.

Hadisələr Yəmən şəhərində Xoca Əziz adlı bir tacirin evində baş verir. Bu tacir olduqca varlı idi. Məsum adlı övladından başqa kimsəsi yox idi. Günlərin birində Xoca Əziz Çin padşahının ölkəsinə ticarətə gedir. Çin padşahının gözəl bir qızı varmış. Ona gözəl bir imarət tikilibmiş. Bu tikili Xoca Əzizin xoşuna gəlir. Xoca Əziz vətəninə qayıdıb həmin quruluşda oğluna imarət tikdirir. Soltan Süleymanın (Süleyman şahın) bir gün dişləri ağrıyırmış. Əlac tapa bilmirlərmiş. Bir gün yaxınlarından biri ona deyir ki, səni elə yerə apaparam ki, bütün ağrıların gedər. Şah gəlib imarəti gördü və xoşuna gəldi. Dedi ki, görəsən bu oğlana layiq gözəl varmı. Dedilər ki, Çin padşahının qızı. Şah əmr elədi, qızı gedib Məsumun otağına gətirdilər. Qız üzərinə Diləfruz yazılmış üzüyünü oğlana verdi. Dedi ki, mən buradan gedəndən sonra özümü lallığa vuracam. Sən həkim libasında gəl, üzüyü göstər, mən danışacam. Fəriştələr onu yenə öz imarətinə apardılar. Qız lal oldu. Çin şahı hər yana adam göndərib həkim gətirtdi. Məsum da öz elində xəstələndi. Atası molla gətirdi. Kömək olmadı. Xoca Əziz vəziyyəti bilib Çin padşahının imarətinə gedir. Ora onu yaxın buraxmadılar. Xoca Əziz namə yazdı ki, mən bir varlı tacirəm. Qocalmışam, icazə ver, sənin məmləkətində yaşayım, varım-dövlətim də sənə qalsın. Xoca Əziz Çin padşahının məmləkətində malını satır və padşaha deyir ki, mən həkiməm, qızını sağaldaram. Xoca Əziz Diləfruzun otağına buraxılır. Onlar söhbət edirlər. Üzüyün üzərindəki Diləfruz sözünü qız görür. Padşah Xoca Əzizə sən məndən nə istəyirsən, deyəndə Xoca Əziz qızı dedi. Və aydınlaşdı ki o, qızı oğlu Məsuma istəyir. Padşah əhvalatdan halı olub qızı Məsuma verməyə razı oldu. Diləfruz Məsumun imarətinə gətirilir. Məsum dərddən saralıb solurdu. Düləfruzu görən kimi ayağa durur. Bir-birinə olanları danışırlar. Toy başlayır, onlar evlənirlər. Dastan duvaqqapma ilə bitir.

MİF – (mitos) yunan mənşəli sözdür. "Sözlə söylənən mətn" və "dünya haqqında təsəvvür sistemi" anlamını özündə ifadə edir. Daha doğrusu, dünyanın mifoloji mənzərəsi anlamına gəlir. Mif bəşər təfəkkürünün müəyyən mərhələsinin hadisəsidir. Dünyanın dərkidir. İnsanın təbiət və cəmiyyət hadisələrilə təması onun şüurunun inkişafı üçün əsas olmuşdur. Mif zaman keçdikcə insanın bədii təfəkkürünün inikasına çevrilmişdir. Çox qədim zamanlardan ətraf hadisələrə münasibət bildirən insanlar sonralar təbiət və cəmiyyətin bədii dərkinə və şərhinə başlayırlar. Uzun zaman ətraf hadisələrdən heyrətə gələn qədim insan onun bədii dərkinə şüurunun inkişafının müəyyən mərhələsində gəlib çıxmışdır. İnsan təfəkkürünün bədii sənətə doğru inkişafı müəyyən mərhələlər keçmişdir: animizm, totemizm, fetişizm, antropomorfizm. Dünya hadisələrinin mifoloji dərki bunlardan sonra başlayır. Ətraf hadisələr tədricən qədim insanda daha aydın təsəvvürlər yaradır. Mifologiya bəşər övladının ən gözəl yaradıcılıq dünyasıdır, kövrək, zərif yaradıcılığıdır. Mif bəşəriyyətin uşaqlıq dövrünün bədii salnaməsidir. O, əsrlərin çətin sınaqlarından çıxmış, ağır həyati qayğılardan xilas olmuş, həyatın mənasını dərk etməyə başlamış insanların dünyagörüşüdür. Mif, sözün həqiqi mənasında, fantaziya, xəyal və möcüzələr aləmidir. Mif indi də elmi-texniki tərəqqi dövrünün əsəb gərginlyi içində çabalayan insanları öz sehrinə salıb apara bilən möcüzəli bir yaradıcılıq dünyasıdır. Məşhur Azərbaycan dilçi alimi, böyük şərqşünas Mirzə Kazım bəyin (1802-1870) dediyi kimi, mifologiya «xalqın müqəddəsidir». Dünya xalqlarında miflərə maraq əsas etibarilə XIX əsrin əvvəllərindən başlanmışdır. Bəşəriyyətin dilinin, təfəkküründün inkişaf mərhələlərini öyrənən alimlər möcüzəli bir aləmlə, əsatirlər aləmi ilə qarşılaşmış və tezliklə onun sehrinə düşmüşlər. Miflərlə xalqın gözəl bir yaradıcılıq sahəsi də kəşf edilmişdir. Tədqiqatçılar bu möcüzəli aləm qarşısında baş əymişlər. Dünya ədəbiyyatında romantizmin meydana gəlməsi ilə əsatirə maraq daha da artmış, romantiklərin sənət aləmi ilə əsatirlərin möcüzələri arasında bir yaxınlıq, qohumluq tapılmışdır. Deməli, mif qədim insanların təbiət, cəmiyyət sirləri qarşısında heyrətinin bədii ifadəsidir, özü də kortəbii, qeyri-şüuri ifadəsidir. Aşıq deyişmələrində, divanilərdə, cahannamələrdə, təcnislərdə, vücudnamələrdə, dastanlarda mif bir istiqamət kimi daha geniş və qabarıq görünür. Ustadlar öz yaradıcılığında mif elementlərindən kifayət qədər bəhrələnmişlər.

MİFİK TƏSƏVVÜR – mifik şüur qədim dünyanın dərki sistemidir. Mifoloji mətnlərdə daha çox görünən və müəyyənləşə bilən anlamdadır. Mifoloji təsəvvürün əsas əlaməti insan və təbiət, obyekt və subyekt, məkan və zaman, səbəb və nəticə, əşya və söz münasibətində təzahür edir. Bunların nəticəsində fetişizm, animizm, totemizm, mifoloji simvolizm və onun yaranması müstəvisində antropomorfizm meydana gəlir. Mifoloji şüurun prinsipial metaforikliyi daha çox bura ilə bağlanır. Abstrakt anlayışların zəif inkişafı yüksək simvolikləşmə dərəcəsi ilə kompensasiya olunur. Qədim dünyanın, dünya hadisələrinin dərki və anlamı sistemidir. Mifik təsəvvürdə bütün olanların qədim zaman üçün öz yeri və məqamı vardır. İnsanlar həyat, dünya, zaman haqqında bilgilərini bir

istiqamətdə mifik təsəvvür vasitəsi ilə sistemləşdirmiş, dərk və ifadə etməyə çalışmışlar.

Mifik təsəvvür mifik dünyanın bilgilər sistemi olub, qədim insanların o dövr üçün və bütün zamanlar üçün müəyyən olunmuş dünyanı dərk və anlam sistemidir. İnsanlar onunla özlərinin təbii proseslərə münasibətini, həyata, həyat hadisələrinə sabitləşmiş qənaətini ifadə etməyə çalışmışlar.

Aşıq ədəbiyyatında, xüsusən də dastan poetikasında türk düşüncəsini ifadə edən mifik təsəvvür sistemi geniş yer alır.

MİFOLOGİYA – bir neçə mənada ifadə olunan anlayış kimi şərh olunma zərurətində görünür: a) bir mədəni –tarixi ənənəyə məxsus miflərin məcmusu; b) dünya dərkinin xüsusi forması; c) mifləri və mifoloji sistemi öyrənən elm. Məlum olduğu kimi, əsatir çox az bir müddətdə bütün dünyada məşhurlaşmışdır. Əsatirin möcüzə sirrindən ibarət olan məzmununda qədim insanların etiqadları əks olunmuşdur. Mifologiyada təbiətlə üz-üzə gələn, çox zaman kor kimi qalan insanların qəlb çırpıntıları eşidilir. Mifologiya dünyası nəhayətsiz bir xəzinədir. Bəlkə də, bu xəzinənin cüzi bir hissəsi insanların hafizəsindən toplana bilib, əsas hissəsi isə əsrlərin qaranlığında solğunlaşıb öz keyfiyyətini itirmişdir. Mifologiya həm də digər sənət nümunələrinin tərkibində, müxtəlif biçimlərdə gəlib bizə çatmışdır. Mifologiya, hər şeydən əvvəl, qədim insanın təbiət və cəmiyyət hadisələrinə münasibəti kimi öyrənilməlidir. İbtidai insanı hər şey maraqlandırmışdır. Onun şüuru artdıqca maraq dairəsi də genişlənmişdir. Buna görə də mifologiya həyatın çox müxtəlif sahələrini əhatə edir. Bu mənada mifologiyanın təsnifi də demək olar ki, şərtidir: qısa da olsa, burada bir sıra mifoloji süjetlərin adlarını çəkmək olar: heyvanlar haqqında, Göy cisimləri haqqında, dünyanın yaranması (yaranış haqqında), canlının, o cümlədən insanın ölümü, qiyamət haqqında və s. Ən çox yayılmış miflərdən biri ölümün mənşəyi, meydana gəlməsi haqqındadır. Elə bir xalq yoxdur ki, ölüm haqqında bu və ya digər formada, məzmunda mifologiya yaratmamış olsun. Miflə-rin çoxunda təsvir olunur ki, əvvəllər ölüm yox idi, sonralar hansısa bir səbəb gətirib ölümə çıxarmışdır. Ölümün səbəbi də müxtəlif xalqların miflərində müxtəlif şəkildə təsvir edilir. İnsanın doğulması kimi, ölümü də qədim insanlara möcüzə, sirr kimi görünüb. Qədimdə birisi öləndə insanlar gözləmişlər ki, o, diriləcək, necə ki, hər il bahar gəlir, təbiət dirilir. Yaxud, ilan hər il qabığını dəyişir, təzələyir. Belə miflərin bəzilərində göstərilir ki, insan ölmür, onun ruhu ayrılır və başqa bir yerdə yaşamağa başlayır. Yaxud, böyük tufan – axır zaman haqqında olan miflər. Belə miflərdə deyilir ki, qədim zamanlarda yer üzü su ilə örtülmüşdü, bütün canlılar ölmüşdü, qalan bəzi insanlardan isə yeni bəşəriyyət meydana gəlmişdir. Dünyanın əsas yerlərində və xalqlarında bu miflər yaranıb yayılmışdır. Bəzi tədqiqatçıların fikrinə görə, ən qədim mif Vavilonda meydana gəlib, başqa xalqlara da oradan yayılıb.

Nuh peyğəmbərin gəmisi haqqında Azərbaycanda da miflər var. Nuh gəmi qayırır, bütün heyvanlardan bir cüt götürüb onları xilas etmək istəyir. Suyun dərin yerində gəmi deşilir, heç kəs oranı bağlayıb suyu kəsə bilmir. Çox səciyyəvidir ki, həmin mifdə gəminin sınan yerini İlan öz bədəni ilə örtür və bütün canlıları xilas edə bilir. Bu tipdə olan

miflər çox zaman həqiqi, təbii hadisələrdən doğub yaranır.

Qeyd etmək lazımdır ki, miflər və mifoloji motivlərin yer aldığı əsas qaynaqlar sırasında aşıq yaradıcılığının, xüsusən də dastanların özünəməxsus yeri vardır. "Dədə Qorqud", "Koroğlu", "Aşıq Qərib", "Əsli və Kərəm" kimi dastanlar bu baxımdan daha diqqətçəkicidir.

Aşıq yaradıcılığında miflərin öyrənilməsində də xeyli gərəkli addımlar atılmışdır. Son dövr Azərbaycan folklorşünaslığı aşıq yaradıcılığında miflərin, mifoloji düşüncənin, mifik elementlərin açılması istiqamətində ciddi araşdırmalara üstünlük verirlər.

MİKAYILOV AĞALAR MİRZƏ BİLAL OĞLU (1913, Şamaxı rayonu, Qəşəd kəndi – 1979) – Şirvan aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Böyük saz-söz ustadı Mirzə Bilalın ailəsində dünyaya gəlmişdir. Aşıq sənətinin sirlərini də atasından öyrənmişdir. Aşıq Mirzə Bilal 1937-ci ildə represiya olunaraq güllələndikdən sonra Ağalar atasının sənətini davam etdirmişdir. Bir sənətkar kimi qırxıncı illərdən tanınmağa başlamışdır. Aşıq Ağalar təkcə ifaçı aşıq kimi deyil, yaradıcı ustad sənətkar kimi də mühitdə böyük şöhrət qazanmışdır. Aşıq havaları ilə yanaşı, Azərbaycan muğamlarının bilicisi və məharətli ifaçısı kimi də tanınmışdır. Şirvanda, ondan kənarda məclislər aparmış, rəsmi tədbirlərdə çıxışlar etmişdir. Şeirləri ayrı-ayrı toplularda getmişdir. AYB-nin üzvü (1961), aşıqların III Qurultayının iştirakçısı olmuşdur. Bir neçə şeir kitabı nəşr edilmişdir. 2013-cü ildə anadan olmasının 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilmişdir.



"MİXƏYİ" – aşıq havasıdır. Baş pərdə kökündə ifa olunur. Məqam-intonasiya məzmunu baş pərdəyə istinad edir. Əsasən, şah-orta-baş pərdələr üzərində qurulan məqam-intonasiya özəyi Segah məqamı ilə üst-üstə düşür. "Mixəyi" havasının intonasiya inkişafı üçün tetraxord həcmində məqam dayaqlarının davamlı şəkildə çalarlanması xasdır. Havanın leytintonasiyası (Segah məqamında əsas tonun kvintası, mayənin üst aparıcı tonu, mayə) milli intonasiya edilmənin ən səciyyəvi ünsürlərindən birini təşkil edir. Melodikası pilləvarı enən hərəkətin üstünlüyü ilə səciyyələnir. Havanın instrumental və vokal partiyaları eyni musiqi materialına əsaslanır. "Mixəyi" havasının metr-ritmik əsasını 6/8 ölçü təşkil edir. Lakin əsas ritmik modus sərbəst şəkildə təfsir edilərək improvizasiya zamanı müxtəlif dəyişikliklərə məruz qalır. "Mixəyi" havasının ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Poetik mətninin əsasını qoşma təşkil edir. Melobənddə təkrar prinsipi mühüm formaqurucu və semantik funksiyalar yerinə yetirir. Hər beytdən sonra səslənən melopoetik əlavələr havanın ekspressiv təsirini gücləndirir. "Mixəyi" havası aşıq musiqisində reçitativ-deklamasiya üslubunun kantilena prinsipi ilə uzlaşması baxımından böyük maraq kəsb edir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

Nümunə professor T.Məmmədova məxsus not yazısının foto surətidir

MİKAYILOV BİLAL (MİRZƏ BİLAL) MUSTAFA OĞLU (1872, Şamaxı rayonu, Qəşəd kəndi – 1937) – Yaradıcı ustad aşıq olmuşdur. Şirvan aşıqlarının atası sayılır. Səkkiz yaşında atası vəfat etmişdir. Muzdurluqla yaşamışdır. Fitri istedadını, zəngin hafizəsini görən atasının dostlarından olan Molla Veys ona oxuyub-yazmağı öyrətmişdir. Sonra Seyid Əzim Şivaninin məktəbində oxumuşdur. Bilal burada oxuya-oxuya saza həvəs göstərmiş, o dövrün məşhur saz-söz sənətkarı olan Aşıq İbrahim Əngərəxanlının yanında şagird olmuşdur. Sənətin sirlərini orada mükəmməl öyrənmiş və ustadı ilə Şirvanda məclislər aparmışdır. Şirvanda, ondan kənarda (İran, Dağıstan, Orta Asiya, Gürcüstan, İrəvan və s.) ustad sənətkar kimi tanınmağa başlamışdır. Mirzə Bilal sazla muğamı bir-birinə bağlayan elementlərin istifadəsinə öz ifaçılığında daha çox üstünlük vermiş və bu xətti inkişaf etdirmişdir. "Şirvan şikəstəsi", "Şirvan gəraylısı", "Qobustan şikəstəsi", "Döymə Kərəmi" kimi saz havalarına yeni xallar vurmuşdur. "Bilal peşrovu" havasının yaradıcısıdır.

Mirzə Bilal S.M.Qənizadə, M.Ə.Sabir, A.Səhhət və başqaları ilə bir məktəbdə oxuması onun yaddaşına, düşüncəsinə təsir etmişdir. Ərəb, fars dillərini mükəmməl bilmiş, klassik poeziyaya dərindən bələd olmuşdur. "Beytüs-Səfa" və Mahmud ağanın musiqi məclisi onun sənətkar kimi formalaşmasına öz təsirini göstərmişdir. Aşıq İbrahimlə də Mahmud ağanın sənət məclisində tanış olmuşdur. Muğamın sirlərini "Şirvan bülbülü" Mirzə Məhəmmədhəsəndən öyrənmişdir.

Mirzə Bilal aşıq yaradıcılığının inkişafı və yeni sənətkarların yetişməsi qayğısına da qalmışdır. Şamaxıda Aşıq Abbas, İsmayıllıda Aşıq Şamil, Ucarda Aşıq Soltan, Salyanda Aşıq Qurbanxan və başqaları ondan aşıq sənətinin sirlərini öyrənmişlər. Mirzə Bilalın öz oğlu Aşıq Ağaların da bir sənətkar kimi yetişməsində mühüm rolu olmuşdur. Aşıq şeirinin müxtəlif formalarında nümunələr yaratmışdır. Aşıqların I Qurultayında iştirak etmiş, həm də aşıqlar adından qurultaya təbrik söyləmişdir. İki ustad – Aşıq Mirzə Bilalla Aşıq Hüseyn Bozalqanlı həmin qurultayda görüşmüşlər. Mirzə Bilalın şeirlərinin bir qismini 1960-cı ildə Səttar Axundov nəşr etdirmişdir. Daha sonra Mürsəl Mürsəlov 1982-ci ildə "İlk baharım, gəl görüm" adı ilə ayrıca kitabını buraxdırmışdır. M.Mürsəlov "Mirzə Bilalın həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası yazmışdır (1974). Böyük sənətkarın ömür və sənət yolu barədə R,Hüseynov, M.Qasımlı, S.Qəniyev, Q.Sayılov və başqalarının dəyərli araşdırmaları vardır. Aşıq Mirzə Bilal 1937-ci il iyunun 17-də müsavatçı və pantür-

kist kimi həbs olunmuş, noyabrın 26-da xalq düşməni kimi güllələnmişdir. Azərbaycan Respublikası Prokurorluğunun 28 oktyabr 1993-cü il qərarı ilə bəraət almışdır. Şirvan aşıq və muğam ifaçılığının yüksəlişində müstəsna xidmətlərə malikdir.

MİKAYILOV FAMİL ƏHLİMAN OĞLU (1977, Laçın rayonu, Qoşasu kəndi - Bakı) – Laçın rayonunun Qoşasu kəndində orta təhsil almışdır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini bitirmişdir. On beş yaşından saza-sözə bağlanmışdır. 2011-2012-ci illərdə Abşeron rayon Mədəniyyət Mərkəzinin direktoru vəzifəsində çalışmışdır. Hal-hazırda Ceyranbatan qəsəbə folklor evində bədii rəhbərdir. Aşıq şeirinin müxtəlif şəkillərində poetik örnəklər yaradır. Özünəməxsus çalğı və oxu üslubu vardır.

MİKAYILOV RÜSTƏM AĞACAN OĞLU (1936, Ağsu rayonu, Gəzəli kəndi – 2007) – Şirvan aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Erkən yaşlarından saza həvəs göstərmişdir. Aşıq Şərbətin şagirdi olmuşdur. Onun yanında ustadların yaradıcılığını, dastanları, saz havalarını öyrənmiş və bir sənətkar kimi formalaşmışdır. Ağsuda, Şamaxıda və İsmayıllı rayonlarında məclislər keçirmiş, tanınmışdır. 1965-1982-ci illərdə Ağsu rayon mədəniyyət evində çalışmışdır. Rayon və respublika səviyyəsində tədbirlərdə iştirak etmiş, fəxri diplom və mükafatlara layiq görülmüşdür. Aşıqların IV qrultayına nümayəndə seçilmişdir.



"MİLLİ FOLKLOR" DƏRGİSİ – Türkiyədə nəşr olunur. Türk xalqlarının folklorunu, milli-mənəvi mədəniyyətini öyrənmək sahəsində çox gərəkli addımlar atır.

Dərgidə aşıq sənəti ilə bağlı xeyli sayda məqalə nəşr olunmuşdur. Uluslararası kültür araşdırmaları dərgisidir. Yaradıcısı doktor, professor Ocal Oğuz və doktor Türkeş Eroğludur. 1989-cu ildən çıxır. İndiyə qədər 123 sayı nəşr olunmuşdur.

Beynəlxalq elmi arenada böyük nüfuz sahibi olan jurnalın Azərbaycan təmsilçisi Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlıdır.

MİKROALTERASİYA – not yazısında yarım tondan kiçik səs hissəciklərini bildirən işarə. Etnomusiqişünaslıq elmində xalq musiqi örnəklərini nota salma sahəsinin ən aktual problemlə-

rindən biri. Bu problem Şərq xalqlarının, o cümlədən Azərbaycan ənənəvi musiqisinin nota salınması zamanı üzə çıxır. Son dövrlər müxtəlif ölkələrdə müntəzəm temperasiyalı quruluşda istifadə olunan alterasiya işarələrindən fərqlənən və mikroalterasiya yüksəkliyini bildirən işarələr sistemi yaradılır və not yazısına tətbiq edilir. S.Çudçev, İ.Matsiyevski, E.Alekseyev və s. alimlər tərəfindən təklif olunmuş işarələr sistemi də mövcuddur. İ.Matsiyevski "mikroalterasiyanın universal işarəsi" ideyasını, E.Alekseyev notun önündə yazılan və səsi 1/6 həcmində yüksəldən və ya azaldan şaquli ox işarəsini təklif edir. Artıq Azərbaycanda da bu təcrübə var: bəzi not yazılarında "koron" – yarıbemollu, "sori –yarıdiyezli (V.Belyayev) və d. alterasiya işarələrindən istifadə olunur. «Rast» muğamının not yazısında (N.Məmmədov, 1978) bir və üçxətli diyezlərdən (1/4, ¾ ton yuxarı), tərs qara və tərs yanaşı bemollardan (1/4, 3/4 ton aşağı) istifadə olunmuşdur. "Saz məktəbi" dərsliyində sazın pərdələrinin düzülüşünü bildirən sxemdə re gül – tərs bemolla işarələnmişdir. Qeyd edək ki, artıq uzun müddətdir ki, türk musiqisinin not yazısında kommaları bildirən xüsusi işarələr sistemi tətbiq olunur.

"MİNA GƏRAYLI" – Bax: Sallama gəraylı.

MİNİATÜR (***fransız: miniature*** – rəsm üçün istifadə olunan əlvan rənglər) – qədim əlyazmalarda və kitabələrdə mətnlə bağlanan, onu aydınlaşdırmağa yönələn, yaxud səhifələrini bəzəyən kiçik rəngli illüstrasiyalardır. Klassik ədəbiyyata, onun ayrı-ayrı görkəmli sənətkarlarının əsərlərinə aid kifayət qədər maraqlı illüstrasiyalar vardır. Bir növ bunlar əsərə gözəllik vermək, sənətkarın hiss və duyğularına əlavələr etmək, ona canlılıq gətirmək məqsədi daşımışdır. İllüstrasiyalar təsiredicilik hadisəsidir. Orta əsrlərdə klassiklərin əsərlərinə çəkilən illüstrasiyalar bədii təsir gücünün artırmaq üçün tətbiq edilmiçdir. Ə.Firdovsinin, N.Gəncəvinin, S.Şirazinin, H.Şirazinin, Ə.Caminin, M.Füzulinin əsərlərindəki illüstrasiyalar həmin dövrün düşüncəsini ifadə edir. Miniatür özü bir ifadə formasıdır. Ədəbiyyatda bəzən kiçikhəcmli hekayələrə, pyeslərə, şeirlərə də miniatür deyilir. M.Ə.Sabirin şeirlərinin çoxu satirik miniatürlərdir.

Azərbaycan mədəniyyət tarixində xüsusi miniatür məktəbləri olmuşdur. Təbriz miniatür məktəbi buna nümunədir. Soltan Məhəmməd, Mirzə Əli, Məhəmmədi, Mir Müsəvvir, Mir Seyid Əli və b. onun istedadlı nümayəndələridir. K.Behzad, Ağa Mirək, Qasıməli həmin məktəbin yetirmələridir. Miniatürlərdə musiqi məclislərinin, bir çox alətlərin ansambl ifası, rəqs və s. təsvirləri vardır. Onlar arasında qopuz, saz, təmbur alətləri və ifaçıları da yer almışdır. Teatrşünaslıqda "miniatür teatr" ifadəsi işlənir. Kiçik pyeslər, birpərdəli səhnə əsərləri elmi ədəbiyyatda miniatür kimi göstərilir.

Aşıq yaradıcılığında ustad sənətkarlar müxtəlif təsvir və tərənnüm məqamlarında miniatür yaratmağa meyilli görünürlər. Qurbani, Abbas Tufarqanlı, Aşıq Alı, Molla Cuma, Aşıq Ələsgər, Aşıq Şəmşir yaradıcılığı buna nümunədir.

MİNNEZİNGER (alman: minnesinger – sevgi müğənnisi) – alman şairi, müğənnisi, ifaçısı, bəstəkarı. Kurtuaz ədəbiyyatında minnezingerlər bir yaradıcı, sənətkar kimi mühüm rol oynamışlar. Minnezingerlər Avropada almanlarla bağlı məsələdir. İspanların vaqantları, fransızların trubadurları ilə eyni sırada durur. Sinkretik sənətin nümayəndələridir. Tarix etibarilə minnezingerlərin, trubadurların, vaqantların fəaliyyəti elə də uzunmüddətli olmamışdır. Daha doğrusu, ikiyüzillik (XII-XIV) zamanla müqayisə olunur. Ümumi mahiyyətində zadəganların, aristokrat təbəqənin hərbi yürüşlərini, mübarizələrini, sevgi macəralarını əks etdirmək, tərənnüm etmək məqsədi daşıyırdı. Ona görə də minnezingerlərin fəaliyyəti, bir yaradıcılıq sahəsi kimi yaşaması uzun sürmədi. Sənət baxımından minnezingerlər ozan-aşıq yaradıcılığına bənzəyir. Aşıq yaradıcılığındakı sinkretiklik, bədahətən söz demək onlarda da olmuşdur. Ancaq aşıq yaradıcılığında xalqın ruhunu, məişətini özündə əks etdirib yaşatması bu sənətin uzunömürlülüyünə, səbəb olmuşdur. Minnezingerlər təkcə poetik mətni deyil, həm də musiqini də yaradırdılar. Henrik Fon Fel Dens, Fridrix Fon Hauzen, Valter fon der Fogelneyde və b. minnezingerlərin ən tanınmış nümayəndələri olmuşlar.

MİR MÖHSÜN NƏVVAB HACI SEYİD ƏHMƏD OĞLU QARABAĞİ (1833, Şuşa – 1918) – Azərbaycan şairi, ədəbiyyatşünas, maarifçi, musiqişünas, rəssam, xəttat. "Kəşfül-həqiqeyi məsnəvi", Qarabağ şairləri və onların şeirləri haqıqında "Təz-kireyi-Nəvvab" və bir sıra digər əsərlərin müəllifidir. Muzeydə qorunan "Quşlar", "Güllər", "Teymurun portreti" adlı rəsm əsərləri və kitablara illüstrasiyalar çəkmiş, nəqqaş kimi fəaliyyət göstərmişdir (Böyük məsçidin, şəxsi evinin və məktəbin divarları). Musiqi tarixinə "Məclisi fərəmuşan" adlı ədəbi-musiqili məclisin təşkilatçısı və rəhbəri kimi və ilk çap olunmuş elmi musiqi əsəri olan məşhur "Vüzuhül-ərqam dər elmi musiqi" risaləsinin müəllifi kimi daxil olmuşdur. Adı çəkilən əsərində Mir Möhsün Nəvvab muğamların bu sənətə məxsus şöbələrin, guşələrin və avazların adını çəkmiş və 5 cədvəl tərtib etmişdir. Bu adlar içərisində aşıq havaları ilə səsləşən nümunələr də vardır: Əfşarı, Bayatı, Osmani, Qarabağı, İbrahimi, Şah Xətayi, Kərəmi, Şikəsteyi-Şirvan, Koroğlu və s.



"Vüzuhül-ərqam" risaləsinin "Musiqi alətləri" bölməsində M.M.Nəvvab musiqi alətlərini simli və nəfəs alətlərinə bölmüş, onların arasında saz, təmbur və başqalarının adını çəkmişdir.

MİRZALIYEV XASPOLAD SALMAN OĞLU (1919, Ağdam rayonu, Ab-

dal kəndi – 1990) – Qarabağ aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. İbtidai təhsilini Abdalda, orta təhsilini Gülablı kəndində almışdır. 14-15 yaşlarından saz çalıb-oxumağa başlamışdır. Gülablı kənd mədəniyyət evinin müdiri vəzifəsində çalışmışdır. "Nənə qızlar ansamblı"nı yaratmışdır. Azərbaycan aşıqlarının III və IV qurultaylarının iştirakçısı olmuşdur. Aşıq yaradıcılığı ilə bağlı festivallarda mükafata layiq görülmüşdür. "Zeynəb və Səməd", "Valeh və Taleh", "Taleh və Həqiqət", "Mahir və Həsrət", "Bəxtiyar və Lətafət" kimi maraqlı dastanları vardır. "Qəlbimdə nisgilli hekayətim var" adlı (1999) şeirlər kitabı çıxmışdır.

"MİRZƏ HÜSEYN SEGAHI" – Segah ailəsinə daxil olan muğam dəstgahı. Segah muğamının variantlarından biri. Lya mayəli Segah məqamına əsaslanır. XVIII yüzillikdə yaşayıb-yaratmış Azərbaycan xanəndəsi Mirzə Hüseynin adı ilə bağlıdır. "Qarabağ şikəstəsi" və "Kəsmə şikəstəsi" havaları ilə ortaq cəhətlərə malikdir. Tar alətinin "Mirzə Hüseyn segahı" kökündə ifa olunur.

Qeyd edək ki, tarın "Mirzə Hüseyn segahı" kökü və sazın baş pərdə kökü arasında müəyyən eyniliklər vardır. Bu səbəbdən şikəstələri tar kökündə oxumaq mümkün olmuşdur. Baş pərdə kökünə aid olan aşıq havalarının səs-intonasiya sistemi Segah məqamına, daha dəqiq desək, Şikəstə ("Şikəsteyi-fars" bölməsi) əlavə məqamına uyğun gəlir. Aşağıda sazın baş pərdə kökü nümunə verilmiş və daha sonra müqayisə üçün şərti olaraq lya Segaha köçürülmüşdür.



Göründüyü kimi, tar alətinin "Mirzə Hüseyn segahı"nın muğam kökündə II qrup simlər daimi kök olan sol tonunu, III qrup və IV qrup simlər mayə (lya) və əsas tonu (fa) əhatə edir. Saz alətinin baş pərdə kökündə zil simlər sol tonunu, bəm simlər (kökü dəyişdirən) mayəni (lya), dəm simlər (dəyişməz) isə əsas tonu (fa) əhatə edir. Hər iki kökü müqayisə edərkən eyni tonları bir qədər fərqli interval düzülüşünə malik quruluşda müşahidə etmək mümkündür.

"MİRZƏ DÜBEYTİ" – "Dübeyt" tipinin aşıq Mirzə Bayramov tərəfindən təfsir edilmiş variantıdır. Havanın arxetipi "Baş dübeyt"dir. "Mirzəcanı dübeyti" havasının fərqləndirici xüsusiyyəti onun geniş diapazonu ilə bağlıdır. Ümumi şəkildə ambitusu ayaq divani pərdədən baş pərdəyə qədər məsafəni əhatə edir. Sonuncu bənd ənənəvi olaraq daha yüksək registrdə oxunur. Havanın harmonik əsası baş pərdə kökünə, məqam-intonasiya məzmunu isə baş pərdəyə istinad edir. Əsasən, şah-orta-baş pərdələr üzərində qurulan məqam-intonasiya özəyi Segah məqamı ilə üst-üstə düşür. Poetik mətninin əsasını gəraylı təşkil edir.



Nümunə professor T.Məmmədova məxsus not yazısının foto surətidir

MİRZƏ SADIQ ƏSƏD OĞLU (1846, Şuşa – 1902) – tarzən. Müasir Azərbaycan tarını yaradan reformator. Virtuoz tar ifaçısı, muğam bilicisi, yeni muğam və şöbələrin, təsnif, rəng və mahnıların müəllifi kimi şöhrət qazanmışdır. Ustadı – məşhur musiqiçi Əli Ələsgər Qarabağı olmuşdur. Xalq arasında hörmət və məhəbbət əlaməti olaraq "Sadıxcan" adı ilə çağırılmışdır. O, məşhur xanəndələri – Hacı Hüsü, Məşədi İsi, Keştazlı Haşım, Əbdülbaqi, C.Qaryağdıoğlunu tarda müşayiət etmişdir. 1897-ci ildə Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" tamaşasının musiqi tərtibatçısı olmuş, "Şərq konsertlərində" (1901) iştirak etmiş, ilk dəfə tarda "Mahur" muğamını solo ifa etmişdir. Zərbi-muğamların yaranması Mirzə Sadıq Əsəd oğlunun adı ilə bağlıdır. İlk dəfə "Mənsuriyyə" ("Çahargah") və "Simayi şəms" ("Şur") şöbələri onun təşəbbüsü ilə zərbin müşayiəti altında oxunmuşdur. Azərbaycan milli musiqi mədəniyyəti tarixinə tar alətinin yenilikçisi kimi daxil olmuşdur. 1. Beşsimli tarı 11 simli etmişdir (əlavə 6 sim): a) I qoşa ağ sim və qoşa sarı simin hərəsindən bir oktava yuxarı zil səslənən iki cüt "cingənə" simi əlavə etmişdir; b) tarın rezonansını artırmaq üçün sarı simdən bir oktava aşağı, yəni bəm səslənən bir qalın boş sim artırmışdır. 2. Tarın qolunun yuxarı hissəsində – kəlləyə yaxın hissəyə əlavə pərdə bağlamışdır. 3. "Lal barmaq", "xun" (vibrasiya effekti), "Sadıxcan mizrabı" və s. kimi yeni ifa üsullarını icad etmişdir (kiçik çanaqla böyük çanaq arasına dayaq məqsədi daşıyan kiçik ağac parçasının əlavə edilməsi ilə). 4. Tarın qolunun çanağa birləşdiyi hissədə dəyişiklik etmişdir. 5. Diz üstündə çalınan tarı yüngülləşdirmiş, kiçiltmiş və sinəyə qaldırmışdır (üzünün diametri genişləndiril- miş, oval forma almışdır). 6. Pərdələrin sayını azaldaraq 17-sini saxlamış, pərdələrin düzümünü dəyişdirmişdir. Pərdələrin düzümünün dəyişməsi ilə əlaqədar tarda digərləri ilə yanaşı, 384 sentdən ibarət böyük major tersiyası intervalı yaranmışdır. (5\4 – 384 sent) (do-mi – 1 və 6-cı pərdələr arasındakı interval münasibəti). "Mirzə Sadıq Əsəd oğlu yeni tarda beşsimli tardakı böyük tersiya ucalığını (348 sent) qəbul etməmiş və həmin pərdəni bir qədər irəli çəkərək böyük tersiya ucalığını 384 sentə (6-cı pərdə) çatdırmışdır. Bununla, Mirzə Sadıq "Segah" tonikasının mövqeyini tamamilə düzgün və həm də "Segah"ın ("Xaric segah" – "Orta segah" – "Mirzə Hüseyn segahı") məhz Azərbaycanda nə sayaq səslənməsi və nə üslubda ifa olunması prinsipini nəzərdə tutaraq təyin etməyi bacarmışdır" (V.Əbülqasımov, 1989). Bu pərdənin tara daxil edilməsində saz alətinin səslənməsi və pərdə düzülüşü həlledici amillərdən biri olmuşdur. Saz alətinin pərdələrinin sentlərlə ölçüləri

göstərir ki, səs sırasında böyük tersiyalardan biri – do-mi arasında ölçü 384 sentdir. Beləliklə də, tar və sazın əsas pərdələrinin səs düzümü və səslənməsi bərabərləşmişdir. Sadıxcanın tar üzərində apardığı dəyişikliklərin iki mühüm əhəmiyyəti vardır: I – tarın fiziki-akustik səslənməsi güclənmiş, genişlənmiş, gözəlləşmiş, bədii və texniki imkanları artmış, "müşayiətçi alət"dən "solo alət" səviyyəsinə qalxmışdır. II – Azərbaycan milli intonasiyasının saflaşmasına xidmət etmiş, dürüst səslənmə əldə edilmişdir. Alətin milli "mənliyini" – özəlliyini, səciyyəsini üzə çıxarmışdır. Azərbaycan tarına daxil edilən məhz bu yenilik milli musiqinin düzgün istiqamətə yönəlməsində tarixi rolunu oynamışdır.

Mirzə Sadıq Əsəd oğlunun reforması müəyyən zəruri səbəblərdən yaranmışdır. İlk növbədə, beşsimli tarda Azərbaycan musiqisinin milli intonasiya səciyyəsini tam şəkildə ifadə etmək böyük çətinlik törədirdi. Sadıxcanın yaşadığı mühitdə – Qarabağda, ümumiyyətlə, bütün Azərbaycanda muğam sənəti ilə yanaşı, aşıq musiqisi, saz ifaçılığı da geniş yayılmışdı. Azərbaycan musiqisinin iki möhtəşəm qolu – muğam sənəti və aşıq yaradıcılığının qarşılıqlı təsiri nəticəsində zənginləşməsi prosesi güclənirdi. Xalq tərəfindən sevilən, geniş yayılmış bir sıra aşıq havaları xanəndə yaradıcılığına sirayət edir və xanəndələr tərəfindən oxunurdu. Qarabağ hələ də böyük ustad Aşıq Valehin təsiri altında yaşayırdı. Mənbələrə görə, "Qarabağ şikəstəsi", "Qarabağ kərəmisi", "Qarabağ dübeytisi", "Arazbarı" və s. havaları da məhz Aşıq Valeh yaratmışdı. Belə bir mühitdə – aşıq mühiti ilə sıx təmasda yaşayan Sadıxcan sinədə çalınan sazı görüb-eşitmişdi, onun səsi və havacatı ilə böyümüşdü, tarı da saz kimi, sinəyə qaldırıb çalmaq istəyi buradan qaynaqlanmışdı. Sadıxcanın reformasının həyata keçirilməsinin başqa bir səbəbi mövcud tarixi-ictimai mühit idi. XIX əsrin II yarısından başlayaraq Azərbaycanda milli ideyalar baş qaldırmışdı. Xalqın mütərəqqi alim və şairləri yaranır, xalqın maariflənməsi ideyaları, türkçülük meyilləri güclənirdi. Musiqili-ədəbi məclislər, şeir-söz məclisləri, eyni zamanda ictimai fikrin formalaşmasına, millilik ideyalarının artmasına gətirib çıxarırdı. Qasım bəy Zakir, M.F.Axundov, F.Köçərli, M.M.Nəvvab və başqaları bu ideyalarla yaşayırdılar. M.F.Axundov 1850-ci illərdən başlayaraq Azərbaycan dili məsələləri haqqında yeni fikirlər – ərəb əlifbasının Azərbaycan dilinin fonetik və qrammatik, leksik xüsusiyyətlərini düzgün ifadə edə bilməməsi haqqında fikirlər söyləyir və ərəb əlifbasına dəyişikliklərin edilməsi məsələsini irəli sürürdü (ərəb dilində 3 sait, Azərbaycan dilində isə 9 sait vardı). Əsas məqsəd Azərbaycan dilinin özəl xüsusiyyətlərini üzə çıxarmaq və milli çərçivədə inkişaf etdirmək idi. Sadıxcanın tar üzərində etdiyi dəyişikliklər isə Axundovun gördüyü işin musiqi sahəsində aparılmasının təzahürü idi. O, çox ehtimal ki, M.F.Axundovla şəxsən tanış olmuş, "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşasının fasilələrində (1886, Tiflis) tar çalmışdır. Böyük istedada malik, mütərəqqi fikirli şəxsiyyət olan Sadıxcan öz ideyasını həyata keçirərək alətin milliləşməsinə, onun xalq alətinə çevrilməsinə, Azərbaycan muğamının xalq musiqisi ilə qovuşmasına, daha zəngin və parlaq milli çalarlar əldə etməsinə, milli məqam-intonasiya məzmununun üzə çıxmasına

nail olmuşdur. Eyni zamanda, "Segah" muğamının inkişaf etməsi, yeni növlərinin yaranması, məqam-səs sisteminin cilalanması, "Segah"ın əksər muğamlara nüfuz etməsi prosesi güclənmişdir. "Qarabağ şikəstəsi"nin və digər şikəstələrin, eləcə də "Segah", "Şur" muğamlarının, xalq havalarının tarda ifası dəqiqləşmiş, milli intonasiyaları daha düzgün ifadə etmək mümkün olmuşdur. Bununla da, milli musiqi təfəkküründə daşıyıcısı olan Mirzə Sadıq Əsəd oğlu adını Azərbaycan mədəniyyəti tarixinə qızıl hərflərlə yazmışdır.

"MİRZƏ LƏTİF ŞAH" DASTANI – Bax: "Lətif şah" dastanı.

"MİRZƏCANİ ŞİKƏSTƏSİ" – Bax: "Mirzəcani".

MİRZƏYEV ASLAN (ASLAN KOSALI) MUSA OĞLU (1929, Borçalı mahalı, Qarayazı, Kosalı kəndi – 2015)

– Borçalı aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Orta təhsil almışdır (1937-1948). Ordu sıralarında xidmət etmişdir. Ordudan qayıtdıqdan sonra sazasözə marağı onu aşıqlığa gətirib çıxarmışdır. Gözəl səsi, güclü yaddaşı onun bir aşıq kimi yetişməsində mühüm rol oynamışdır. On üç yaşından aşıqlığa meyil göstərmişdir. Sənətin sirlərini öyrənmək üçün Qarayazılı Aşıq Əlixanın yanında şagird durmuşdur. Ondan ustadların yaradıcılığını, saz havalarını mükəmməlliklə öyrənmişdir. 1950-ci ildən müstəqil aşıqlığa başlamışdır. Dastançı aşıq kimi məşhur olmuşdur. Son dövrlərdə onun repertuarından "Koroğlu" dastanının "Ağcaquzu" qolu, "Aşıq Qərib", "Abbas və Gülgəz" və bir neçə dastan yazıya alınmışdır. Azərbaycan televiziyası və radiosunun qızıl fondunda bir çox havaları qorunub saxlanılır. Aşıq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır. Gürcüstanda, Azərbaycanda məclislər aparmış, bir ustad kimi tanınmışdır. Azərbaycan aşıqlarının V Qurultayında iştirak etmişdir (2008). Gürcüstan Respublikasının "Şərəf" medalına layiq görülmüşdür.

"MİRZƏCANI" – aşıq havası. Şah pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını xalq şeir forması qoşma təşkil edir. Variantlı kuplet formasındadır. Lirik, həyəcanlı, sevgi ovqatlıdır. Kiçik instrumental girişlə başlayır. Şah pərdədən impuls-başlanğıc götürür. Vokal melodiya yuxarı registrdə (kök pərdə zili – impuls-səs) başlayaraq tədricən aşağı istiqamətdə əsas dayaq tonuna (baş pərdə) doğru hərəkət edir. Misralar qoşa şəkildə oxunur və instrumental araçalğılarla bir-birindən ayrılır. Hər bəndin son misrası qafiyələr, yardımçı söz və ifadələrin köməyi ilə genişlənərək təkrar olunur və havanın quruluşuna əsaslı təsir göstərir. Havanın məqam-intonasiya sistemi Segaha uyğundur. Vokal melodiyanın başlanğıc hissəsində sazın məhz üst simləri "dəm" saxlayır. Bu, kök pərdədir, həmin pərdə isə Segahın əsas tonuna bərabərdir. I instrumental intermediyada səslənən yeni mövzu girişin refren əhəmiyyətli mövzuları ilə çərçivələnir və kök pərdə zilinədək qalxır. II intermediyada I-nin yeni mövzusu inkişaf edərək daha yüksək pilləni – açıq pərdə zilini əhatə edir. Hava əsas dayaq tonunu qeyd edərək kök pərdə zilində tamamlanır.

Nümunə professor T.Məmmədova məxsus not yazısının foto surətidir

MİRZƏYEV ATABALA XANBALA OĞLU (1929, Şamaxı rayonu, Şamlı kəndi – 2014) – Şirvan aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Aşıq ailəsində doğulmuşdur. Atası Xanbala da dövrünün tanınmış aşıqlarından olmuşdur. Ondan saz sənətinin sirlərini, ustadların yaradıcılığını öyrənmişdir. 1953-cü ildən müstəqil aşıqlığa başlamışdır. Xalq arasında istedadlı sənətkar kimi tanınıb sevilmişdir. Şamaxıda və ətraf bölgələrdə məclislər keçirmişdir. Rəsmi tədbirlərdə bir sənətkar kimi fəal iştirak etmişdir. Aşıqların III və IV qurultaylarının iştirakçısı olmuşdur.

MİRZƏYEV FEYZİ ƏDİL OĞLU (1896, Şamaxı rayonu, Çağan kəndi – 1964) – Şirvan aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. 17 yaşından aşıqlığa başlamışdır. Mollalar onun aşıqlığına mane olmağa çalışmışlar. Hətta sazını da qırmışlar. 1918-1920-ci illərdə müstəqil respublikanın ordusunda xidmət etmişdir. Ordudan qayıtdıqdan sonra yenə aşıqlığını davam etdirmişdir. Klassik Şirvan dastanlarının ("Göyçək Rza", "Xəstə Qasım", "Mələksima", "Adlgözəl" və s. ustad bilicisi olmuşdur.

Aşıqların II və III qurultaylarında iştirak etmişdir.

MİRZƏYEV HƏSƏN İBRAHİM OĞLU (1927, Dərələyəz mahal;, Qovuşuq kəndi – 2015, Bakı) – dilçi, türkoloq, aşıqşünas. Filologiya elmləri doktoru, professor. AYB-nin üzvü (2002). Qovuşuq kənd orta məktəbini bitirmişdir. Naxçıvan Dövlət Müəllimlər İnstitutunda (1948-1950), ADPİ-də təhsil almışdır (1950-1955). ADPİ-də müəllim, baş müəllim, dekan müavini işləmişdir. Müasir Azərbaycan dili kafedrasının müdiri olmuşdur. Aşıq sənəti ilə bağlı "Aşıq yaradıcılığında yaşayan adlarımız və tariximiz" (1997), "Hanı o səndəki el, Dərələyəz?", "Mən necə unudum belə dərdimi" (2004), "Qərbi Azərbaycanın Dərələyəz mahalı" (2004) kimi dəyərli kitabları vardır. Milli Məclisin üzvü olmuşdur. "Şöhrət" ordeni və bir sıra fəxri fərmanlarla təltif olunmuşdur. Aşıq şeiri üslubunda poetik nümunələr qələmə almışdır.

MİRZƏYEV ZEYNAL MUSEYİB OĞLU (1930, Yevlax rayonu, Nurallan kəndi) – Aşıq Müseyibin ailəsində anadan olmuşdur. Uşaqlıqdan saza həvəs göstərmişdir. İkinci Dünya müharibəsində yeddiillik təhsil almışdır. Müharibədən sonra atası ilə el şənliklərinə, toylara getmişdir. Sənətin sirlərinə dərindən yiyələndikdən sonra müstəqil aşıqlığa başlamışdır. Bakıda respublika festivalında (1957) üçüncü dərəcəli diploma layiq görülmüşdür. 1958-ci ildə ifaçılığına görə fərqlənmə diplomu almışdır. Yevlax şəhərinə köçmüşdür (1993). Altı şagird yetişdirmişdir.

MİRZƏZADƏ SƏYYAD AYDIN OĞLU (1981, Abşeron rayonu, Mehdiabad qəsəbəsi) – "Səyyad Aydınoğlu" imzası ilə tanınır. Ustad sənətkar Aydın Çobanoğlunun ailəsində dünyaya göz açmışdır. Atasının yaratdığı "Sayadı" havası onun adına bağlıdır. Mehdiabad

musiqi məktəbində tar sinfini qurtarıb. Odlar Yurdu Universitetində ali təhsil almışdır (1998-2002). Yaradıcı aşıqdır. Aşıq şeirinin müxtəlif çeşidlərində poetik örnəklər yaradır. Musiqi bəstələri də vardır. Azərbaycan və Anadolu aşıq mahnılarını böyük məharətlə ifa edir. Az. TV-nin qızıl fondunda Aşıq Mahmudla söylədiyi "Abbas və Gülgəz" dastanı qorunur. Aşıqlar Birliyinin üzvüdür (2016).

MİSKİN – lüğəti mənası "yoxsul", "fağır", "aciz" deməkdir. Lakin ürfani təsəvvürdə onun kəsb etdiyi yoxsulluq, fağırlıq, kasıblıq tamamilə başqadır. Ürfani təsəvvürlərlə bağlı bu termin özündə daha böyük mahiyyət daşıyır, "xəstə", "qul" sözləri ilə eyni sırada dayanır. Ədəbiyyatın bir sıra qüdrətli nümayəndələrinin adının yanında işlənir. Məsələn, Qul Abbas, Qul Heydər, Qul Abbasqulu, Xəstə Qasım, Xəstə Həsən, Xəstə Bayraməli və b. Bu onların həqiqi mənada xəstəliyini və yaxud da miskinliyini ifadə etmir, Ulu Yaradana münasibətinin ifadəsini işarələyir. Ona can atmağın, ona cəhdin faktı kimi anlam daşıyır. Lüğəvi mənasından fərqli olaraq, ürfani düşüncə ilə bağlı ədəbiyyatı, ədəbi düşüncəni izləyir. Miskin Yunis, Miskin Abdal, Miskin Vəli, Miskin Həsən, Miskin Məhəmməd və s. adlar vardır ki, məhz həqiqi mənadan uzaqlaşaraq ürfani mənaya yüklənmişlər. "Miskinli dərəsi" termininin özündə də bu duyulur. "Miskin" sözü də məhz "Allahın miskini, qulu" anlamını özündə ehtiva edir.

"MİSRİ" ("MİSRİ KOROĞLU") – Epik havalar silsiləsinə daxil olan aşıq havasıdır. Obraz-emosional məzmununa görə qəhrəmanlıq, cəngi havalar qrupuna daxildir. Sazda şah pərdə kökündə ifa olunur. "Misri" havasının instrumental girişi sabit, dəyişməz, dəqiq vəznə (2/4) malik olduğu halda, vokal partiyası sərbəst improvizə üslubunda inkişaf edir. İkitəbəqəli ritmika "Misri" havasına daxili dinamizm gətirən əsas amillərdən biridir. Havanın quruluşunda nizam kəmiyyəti kimi çıxış edən əsas metr-ritmik formulu aşağıdakı kimi ümumiləşdirmək olar:

Göstərilən metr-ritmik seqment vokal periodun sərbəst vəznə malik olan melosətirləri arasında səslənərkən müəyyən təşkiledici funksiyanı yerinə yetirir. "Misri" havası aşıq yaradıcılığında məqam-intonasiya məzmunu Bayatı-Şiraz məqamına əsaslanan nadir nümunələr sırasına daxildir. Əsas məqamının mayəsi fəal intonasiya əlaqələri ilə seçilir. Havanın məhz bu pərdə ilə başlanması, onun üst və alt aparıcı tonlarla qarşılıqlı əlaqələri, bu pilləyə doğru tonikanın alt kvartası, alt mediantası və üst tersiyasından olan sıçrayışlar onun mühüm funksional əhəmiyyətindən xəbər verir. İnstrumental girişin məqam-intonasiya və metr-ritm səviyyələri arasında mövcud olan sinergetik effektlər də məhz bu pərdənin qabardılmasına xidmət edir.

Nümunə professor T.Məmmədova məxsus not yazısının foto surətidir

Belə ki, Bayatı-Şiraz məqamının tonikası, bir qayda olaraq, havanın sintaktik quruluşu üçün səciyyəvi olan ikixanəli sintaqmanın güclü vurğusuna təsadüf edir. "Misri" havasının vokal periodunun sintaktik və heca-ritmik səviyyələrində türk epik yaradıcılığının erkən mərhələsinin bəzi əlamətləri qorunub saxlanılmışdır. Məsələn, melobəndin özündə iki poetik sətri cəmləşdirən və birbirindən instrumental interlüdiya ilə ayrılan iki melosətrə bölünməsi "Kitabi-Dədə Qorqud"un sintaktik quruluşu ilə müəyyən paralellər yaradır. Hər melodik misranın müxtəlif ifadə vasitələrinin (pauza, metr, əlavə sözlər və s.) tətbiqi nəticəsində sezura ilə iki seqmentə bölünməsi də epik musiqinin səciyyəvi əlamətlərindəndir. Vokal periodun hər yarımbəndi kvarta ambitusuna malik olan avazdan ibarətdir. Başlanğıc yarımbəndin tərkibində müəyyən fluktuasiyalar nəticəsində tonikanın üst tersiyasının xromatik yerdəyişməsi (sol – sol bemol) Bayatı-Şiraz məqamına xas olan alterasiya növlərindəndir. Melobəndin sonunda Şur məqamına keçid nəzərə çarpır ki, bu da, məlum olduğu kimi, aşıq musiqi yaradıcılığının səciyyəvi üslub xüsusiyyətlərindən biridir. Maraqlıdır ki, modulyasiya kvarta ambitusuna malik olan avazın daxilində baş tutur. Ümumiyyətlə, melobəndin intonasiya inkişafının özəllikləri bir daha təsdiqləyir ki, "epik havalarda monodik ladın əsasını qeyri-oktavalı işlək səs sırası – kvartalı diatonika təşkil edir ki, bu da elə əvvəldən havanın melodik şəklinin və lad pillələrinin vəhdətini səciyyələndirir. İşlək səs sırası bir tondan digərinə rəvan keçid üçün imkan yaradır. Bu rakursda monodik lad daim fəaliyyətdə olan sistem əhəmiyyəti daşıyır" (T.Məmmədov). Poetik mətnin əsasını qoşma təşkil edir. Havanın ifasında qəhrəmanlıq semantikası ilə bağlı olan çoxsaylı çağırış intonemalar, gərgin qlissando və artikulyasiyanın digər növlərindən istifadə edilir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

MİSRİ QILINC – "Koroğlu" dastanının qəhrəmanı Koroğlunun qılıncıdır. Koroğlu qəhrəmanlığının qeyri-adiliyində, onun gücünün, qabiliyyətinin ifadəsində görünüşündə fərqli bir tərəf, göstərici kimi, Misri qılıncın mühüm yeri vardır. Xalq öz qəhrəmanını qeyri-adiliklərlə, heç kəsdə olmayan qabiliyyət, güc, qüvvət, at, qılınc, səsdəki nərə ilə silahlandırıb mübarizəyə yola salmışdı. Bütün mübarizələrdə, müharibələrdə o, hamıdan ağıllı, hamıdan güclü görünür. Koroğlu qeyri-adiliyinin bir istiqaməti dəryadan Qırat vasitəsilə gəlir. Bütün vəziyyətlərdə Qırat Koroğluya arxadır. Onu ən ağır məqamlarda ən çətin vəziyyətlərdən çıxarır. İkincisi, dağdan, göydə məğrib və məşriq tərəfdən ulduzların toqquşması nəticəsində coşub-daşan Qoşabulaqdan gəlir. Qoşabulaq Koroğluya qeyri-adi güc, qüvvət və səs verir. Onun dəli nərəsi bunun nümunəsidir. Dəmirçioğluna, Qurdoğluna bu dəli nərə vasitəsilə qalib gəlmişdi. Misri qılıncı Rövşənə Alı kişi verir və əlavə edir ki: "Oğul, bu qılınc digər qılınclara bənzəməz. Bu qılınca "ildırım qılınc" deyərlər. Bu elə bir qılıncdır ki, qabağında heç nə dayanmaz. Hər nəyə vursan, kəsər, tökər. Bu qılınc ilə müxənnətlər, namərdlər sənin əlindən dad çəkəcəklər. Bu qılınc ilə sən qalalar sındıracaqsan, sədlər dağı-

dacaqsan. Bundan sonra bunun adını Misri qılınc deyəcəksən". Baybura oğlu Bamsı Beyrəyin yayı, oxu, Qaçaq Nəbinin aynalısı olduğu kimi, Koroğlunun da qılıncı (Misri qılınc), Qıratı, dəli nərəsi onun qəhrəmanlıq, qələbə göstəricisidir. Koroğlu Misri qılıncla qələbədən-qələbəyə gedir. İldırım parçasından olması onun keyfiyyət, kəsər göstəricisi ilə yanaşı mifoloji mənşəli ilahi aləmlə bağlı olması anlamını ifadə edir. Xalq öz qəhrəmanını bu cür qeyri-adiliklərlə silahlandırıb döyüşə, vətənə (Çənlibelə) sahib olmağa göndərir. Bu gün xalqın qəhrəmanlığının, qəhrəmanlıq tarixinin ifadəsi kimi "Misri qılınc" ifadəsi yaddaşlarda daşlaşmışdır.

MİSRİ PƏRDƏ – sazın pərdələrinin açıq sim üzərində yaratdığı səs düzümündə Vp. (mi) – əlavə pərdə. "Misri" havası bu pərdə ilə bağlı olduğundan həmin adla adlandırılır.

MİSTİKA – yunan sözü olub, "sirli, sehrli mərasimlər, adətlər" anlamını verir. İnsanın fövqəltəbii qüvvələr, qismən də ilahi aləmlə ünsiyyətini ifadə edir. Mistikanın əsasında insanın Allahı dərki dayanır. Bu dərkdə isə ona imkan yaradan fövqəltəbii qüvvələr olur. Mistikanın geniş anlamda mahiyyətində insan və onun ilahi aləmlə əlaqələri durur. İnsan vəhy, qeybdən səda vasitəsilə, ekstaz yolu ilə Allahla, fövqəltəbii qüvvələrlə qovuşa bilir, onun sirlərini dərk edir. Mistika Qədim Şərqdə insanı axirət qüvvələrilə qovuşduran dini ayinlərə bağlanır. Sufizmdə və müridizmdə mistika bütün tərəfləri ilə öz ifadəsini tapır.

Aşıq yaradıcılığında da mistik elementlər, fövqəltəbii qüvvələrə inam və onun dərkinə cəhd vardır. Dastanlardakı bir çox mistik səciyyəli epizodlar, aşıq deyişmələri, divani, meracnamə və vücudnamələr buna nümunədir.

MODULYASİYA – bir tonallıqdan digərinə keçid. Modulyasiya iki şəkildə olur: məqam modulyasiyası və tonal modulyasiya. Aşıq musiqisində bir məqamdan digərinə keçid hallarına – modulyasiyaya tez-tez rast gəlmək mümkündür. Bu növ keçidlər Avropa musiqi nəzəriyyəsində formalaşmış modulyasiya anlayışından müəyyən xüsusiyyətlərinə görə fərqlənir. Bir məqamdan digərinə keçərkən müxtəlif harmonik akkordların məntiqi ardıcıllığından istifadə olunmur. Keçid havanın əsas kökü – yeganə harmonik məqam çərçivəsində baş tutur. Bu baxımdan, aşıq havalarında baş verən məqam dəyişikliyini məqam modulyasiyası adlandırmaq mümkündür. Avropa musiqi mədəniyyətinə xas olan modulyasiyalardan fərqli olaraq aşıq musiqisində bir hava çərçivəsində yalnız bir məqam keçidi mümkün sayıla bilər: a) havanın tamamlayıcı anında instrumental modulyasiya baş verir və hava ənənəvi Şur ayağı ilə bitir (məsələn, baş pərdə kökündə (Segah) "Kərəm gözəlləməsi", orta pərdə kökündə "İncəgülü"). Bir çox aşıq havalarının bu səciyyəvi xüsusiyyəti havanın harmonik məqamı ilə bağlı olaraq, əsasən, sazın açıq simlərinə keçməklə yaranır; b) bəzi aşıq havalarında melodik xətt daxilində məqam çərçivəsində baş tutan modulyasiyalar özünü göstərir. "Təcnis" havasında vokal melodiya 8 xanə boyu ilk dayaq tonu olan orta pərdəyə istinad edir (Rast), qoşmanın son misrası və onun inkişaf etmiş təkrarı zamanı yeni

dayaq tonu – baş pərdə – olan məqam-səs qatına modulyasiya baş verir (Segah, 13 xanə); c) bir qisim havalara "yedək" formasında bayatıların əlavə edilməsi məqam modulyasiyası çərçivəsində həyata keçir. Şah pərdə kökündə (Şur) ifa olunan "Məmmədbağırı" havasında poetik mətnə əlavə olunan bayatı (kəmsətir bayatı) oxunarkən dayaq tonu baş pərdə olan yeni səs sisteminə (Segah) modulyasiya baş verir. Onu da qeyd edək ki, bütün yedək-bayatılar melodik-intonasiya cəhətdən baş pərdəyə istinad edir və Segah məqam-səs sisteminə uyğundur. Modulyasiya aşıq havalarının musiqisini yeni rəng çalarları ilə zənginləşdirir, melodiyanın emosional, dinamik inkişafına təsir edir, məzmun və ovqat müxtəlifliyi gətirir.

MOLLA CUMA (1854, Şəki rayonu, Layski kəndi – 1920) – Azərbaycan aşıq sənətinin inkişafında həm ifaçılıq qabiliyyətinə, həm də yaradıcılıq keyfiyyətinə görə misilsiz rol oynamış ustadlardan biri. Onun şeirlərində özü və nəsil-nəcabəti barədə zəngin bioqrafik bilgi vardır. Aşığın yer-yurdu:

Mahalım Göynükdür, şəhərim Şəki,
Layski kəndinin binasıyam mən.

Əsil-kökü və kimliyi:

Binəm Layskiyə düşübdü mehman,
Pədərim Salahdır, madərim Reyhan.
Vələdim Həsəndir, əxim Süleyman,
Familim–Molla Oruc ədnasıyam mən.

Molla Cumanın mənsub olduğu ailə ocağının dədə-babadan yazı-oxu ənənəsinə sahib olması onun nəslinin «molloruclu» adlanmasından da görünməkdədir. Ailə ənənəsinə uyğun olaraq Cuma kiçik yaşlarından Şərq üslubunda təhsil-təlim almış, ərəb-fars dillərini öyrənmiş, Quran və şəriəti, islam qayda-qanunlarını dərindən mənimsəmişdir. O, heç bir zaman dini-ruhani vəzifə icra etməmişdir, sadəcə olaraq, savadlı və təhsilli olduğuna görə el arasında «Molla Cuma» adı ilə çağırılmış, şeirlərində də bu təxəllüsü işlətmişdir.

Uşaqlıqdan saza-sözə xüsusi maraq göstərən Cuma təqribən on beş-on altı yaşlarından saz çalmağa başlamış, el arasında söyləndiyinə görə, elə həmin yaşlarda da ona vergi verilmiş, yuxuda aşıqlıq badəsi içirilmişdir. Bundan sonra o, peşəkar aşıqlığa başlamış, Şəki-Zaqatala-Balakən bölgəsi və Dərbənd-Dağıstanda el-oba məclislərində öz saz-sözü ilə ad çıxarmışdır. Sözügedən coğrafi məkanda XIX yüzilliyin sonları və XX yüzilliyin birinci yarısı arasında aşıqlığın xüsusi vüsət tapması, əslində, həmin regionda Molla Cumanın yaratdığı sənət iqlimi ilə bağlıdır. Təsadüfi deyildir ki, XX əsr Şəki-Zaqatala və Dərbənd-Dağıstan aşıqlarının repertuarında Molla Cuma irsi mühüm yer tutmuşdur. İrsin yayılıb repertuarda möhkəmlənməsində əvvəlcə Molla Cumanın özü, daha sonra isə onun müxtəlif bölgələrdə aşıqlıq edən şagirdləri əsas rol oynamışdır.

Molla Cuma ortabab güzəran keçirmiş, el-camaat arasında nüfuz və xətir-hörmətə sahib olmuşdur. 1920-ci il may ayının axırlarında Sovet həkimiyyəti qurmaq adı altında Şəkidə əməliyyat aparan silahlı erməni-rus dəstələri bölgənin ziyalı və dini-ruhani xadimlərini, el-ulus başçılarını aradan götürmüşlər.

Onların arasında böyük el sənətkarı Molla Cuma və onun arvadı da olmuşdur. Gecə ilə silahlı bolşeviklər tərəfindən evindən aparılan Molla Cuma və arvadı güllələnmiş meyitləri səhərisi gün kəndin kənarındakı Göynük yolunun qırağında tapılmışdır. El-camaat onları elə orada da dəfn etmişdir. Aşığın qəbri indi də Göynük yolunun qırağındadır.

Poetik istedad vergisinə sahibliyi, bununla yanaşı, həm də təhsil və savadı sayəsində klassik ədəbi-bədii məxəzlər və dini-ürfani qaynaqlardan xəbərdar olması Molla Cumanı şeir-sənət aləmində yenilməz bir sənətkara çevirmişdir. O, folklor ruhu, ovqatı üstündə köklənmiş bir söz sənətkarı olsa da, klassik poeziya ənənələrinin də kamil bilicisi kimi Şərq poetikasının incəliklərini geniş miqyasda aşıq poeziyasına tətbiq etməyə səy göstərmişdir. Ustad sənətkar şeirlərini toy-düyündə, şadlıq yığnağında, söz-sənət meydanında, deyişmə məclisində bədahətən söylədiyi kimi, təhsili olması səbəbindən kağız üzərində də yazmışdır. Bu, onun sənətkar statusundakı fərdi özünəməxsusluqdur. «Şeir söyləmək» dən başqa «şeir yazmaq» ənənəsinə də əməl etməsi Molla Cuma yaradıcılığının müəyyən məqamlarda yazılı ədəbiyyat səciyyəsi daşıdığını göstərir. Onun şeir dəftərindəki minacat, qəsidə, surə və qəzəllər sırf yazılı ədəbiyyat örnəkləridir. Həmin nümunələr, əsasən, dini-ruhani məramsimlərdə oxunmuşdur. Bununla belə, onlar Molla Cuma irsinin az hissəsini təşkil edir. Yaradıcılığın ana axarı folklor üslubundadır.

Aşığın poetik irsi zəngin və çoxşaxəlidir. Beş hecalıdan tutmuş on altı hecalıyadək elə bir aşıq şeiri şəkli yoxdur ki, Molla Cuma ondan istifadə etməsin. Özünəqədərki bəlli aşıq şeiri şəkillərindən əlavə o, bir çox yeni biçimlərdə şeirlər yaratmışdır. Onun gəraylı, qoşma, təcnis, divani və müxəmməs kimi biçimlər üzərində apardığı yeniləşmələr klassik Şərq poetikasına məxsus fiqur və qaydaların aşıq şeiri şəkillərinə tətbiq edilməsi nəticəsində baş vermişdir. Məsələn, nöqtəsiz təcnis (bu təcnisdə ərəb əlifbasının nöqtəli hərfləri olmayan sözlər işlədilir), hərf üstündə qoşma, təcnis, divani, müxəmməs (şeir şəklinin hər misrası eyni hərfli sözlə başlayır və bitir), eyni rədif üstündə bir şeir kimi qoşma və təcnis, yaxud "Bayatılı qoşma", "Qoşma-münazirə", "Sallama gəraylı" və s. biçimlər bu sıradandır. Əslində, bu biçimlər formal-texniki baxımından o qədər çətindir ki, onlarda şeir yaratmaq hər sənətkarın hünəri deyildir. Adı çəkilən formalara xüsusi savad və təhsil hazırlığı olmayan, Şərq poetikasının incəliklərini bilməyən bir kəs yaxın dura bilməz. Folklor şeirində bu biçimləri qurmaq və onların

kamil örnəklərini ortaya qoymaq Molla Cumanın şairlik istedadı və bilik dairəsi ilə bağlıdır. Hərf üstündə şeir söyləmək, ümumiyyətlə, çətin bir iş olduğu halda, Molla Cuma daha çətin bir variantı seçərək hərf üstündə təcnislər də qoşmuşdur.

Molla Cuma şeirinin könül həmdəmi İsmi Pünhandır. Aşığın şeirlərindəki bilgilərdən aydın olur ki, «İsmi Pünhan» onun sevgilisinin gizli, rəmzi adıdır. Əslində, elə «İsmi Pünhan» «adı gizlin» deməkdir. Söylənildiyinə görə, Molla Cuma ilk gənclik çağlarında bir qıza (deyilənə görə, bu onun yanında dərs aldığı mollanın qızıymış) vurulmuş, aralarında olan əhd-peymana görə onun adını dilə gətirməmişdir. Aşıq öz şeirlərində sıx-sıx işlətdiyi, bəzən də şeirin başlanğıcında müraciət – xitab yerində saxladığı «İsmi Pünhan» ifadəsi ilə həmin qıza işarə edir. İsmi Pünhan gənc yaşlarında qəflətən vəfat etmiş və bu hadisə Molla Cumanı dərindən sarsıtmışdır.

Molla Cumanın dini – mənqəbəvi şeirləri də dolayısı ilə fəlsəfi-didaktik mahiyyət daşıyır. Belə ki həmin şeirlərində də insan oğlunun haqqa tapınması, islam dəyərlərinə sığınaraq gözünü-könlünü saflaşdırması, Quran və Məhəmməd nuru sayəsində ruhən arınıb-durulması təbliğ və təlqin olunur.

Molla Cuma yaradıcılığı həm də elat həyat tərzini, xəlqi-etnoqrafik ənənələri, el-camaatın gündəlik gün-güzəran qayğılarını geniş miqyasda inikas etməsi ilə səciyyəvidir. Onun şeirləri həyatın birbaşa özündən gəlir, burada əkin-biçin üstünün söz-söhbətlərindən tutmuş, toy-düyün mərasimlərinin çal-çağırına qədər ən müxtəlif folklor koloriti cəmləşmişdir.

Molla Cumanın söz-sənət irsi içərisində onun özü tərəfindən yaradılmış dastanları da müəyyən yer alır. Aşığın təqribən yeddi dastan yaratdığı söylənilsə də, onların üçü aşıq repertuarında nəzərə çarpır. Əsasən, Şəki-Balakən və Dərbənd-Dağıstan aşıqlarının repertuarında yer alan Molla Cuma dastanları ənənəvi məhəbbət dastanlarındandır. «Səyyad və Səyalı», «Baxış bəy və Leyla xanım» dastanlarının süjet xəttindəki ənənəvi məhəbbət mərhələləri və uğurlu sonluq klassik dastançılıq standartları səviyyəsindədir. Molla Cuma bu dastanların yurd yerini nağıl özülü əsasında hazırlamış, uyğun məqamlara şeirlər, deyişmələr yerləşdirmişdir. «Cuma və Könül» dastanı isə daha çox Molla Cuma ilə onun öz lirik məni – aşıq-şair könlu arasındakı söz-sənət söhbətləri ilə əlaqədar rəvayətlər toplusudur. Bu dastan həm ideya-estetik səciyyəsinə, həm də struktur-semantik tutumuna görə unikal epik örnəklərdən biri sayıla bilər.

Molla Cuma Azərbaycan aşıq ədəbiyyatı tarixinə yenilikçi aşıq-şair kimi daxil olmuşdur. Onun aşıq şeiri şəkilləri üzərində apardığı yeniləşmə-təkmilləşmələr həm çağdaşı olan sənətkarlar, həm də sonrakı dövr saz-söz ustadları tərəfindən rəğbətlə qarşılanaraq davam etdirilmişdir. Böyük sənətkarın poetik irsinin əsas hissəsi indi də aşıqların söz-havacat repertuarında öz fəallığını qoruyub saxlamaqdadır.

MOLLA PƏNAH VAQİF MEHDİ AĞA OĞLU (1717, Qazax rayonu, Qıraq Salahlı kəndi – 1797, Qarabağ, Şuşa) – klassik üslubda və aşıq tərzində şeirlər yazan görkəmli şair, ictimai xadim. Daşsalahlı kəndində Şəfi əfəndidən

təhsil almışdır. Mükəmməl təhsil görmüş şəxsdir. 1759-cu ildə Gürcüstanla sərhəddə baş verən qarışıqlıq nəticəsində Qazağı ailəsi ilə birlikdə tərk etmişdir. Qarabağ xanlığında əvvəlcə eşik ağası (xarici işlər naziri), sonra vəzir olmuşdur. 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Qarabağa hücum edəndə xanlığın müdafiəsində mühüm rol oynamışdır. 1797-ci ildə Ağa Məhəmməd şah Qacarın ölümündən sonra M.P.Vaqif oğlu Əliağa ilə birlikdə Məhəmməd bəy Cavanşir tərəfindən edam olunmuşdur. Edam olunarkən əsərləri də məhv edilmişdir. Sonradan onun şeirləri xalqın yaddaşından toplanmış, ayrı-ayrı təzkirə və cüngləərdə verilmişdir. Onun əsərlərini ilk dəfə Mirzə Yusif Nersesov toplayıb (1828) Teymurxanşurada "Kitabi-məcmueyi divani-Vaqif və digər müasirini" adı ilə nəşr etdirmişdir (1856). A.Berje "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarinədir" (1868) adlı bir kitab nəşr etdirir ki, burada da Vaqifin əlli şeiri verilmişdir. M.P.Vaqifin yaradıcılığının toplanması və nəşri M.F.Axundovun da diqqətində olmuş, bu istiqamətdə iş görməyə çalışmışdır. H.Ə.Qaibov da M.P.Vaqifin şeirlərinin toplanması sahəsində mühüm işlər görmüşdür. "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" əsərində M.P.Vaqifin şeirlərini vermişdir. H.Vəzirov M.P.Vaqifin şeirlərini kitab şəklində çap etdirmişdir (1925, 1937). S.Mümtaz, F.Köçərli, H.Araslı, M.İbrahimov, M.Quluzadə, A.Dadaşzadə, M.Allahmanlı və başqaları M.P.Vaqif yaradıcılığı ilə bağlı ciddi mülahizələr yürütmüşlər. M.P.Vaqif həm əruz, həm də heca vəznində yazıb yaradan böyük istedad sahiblərindəndir. O, XVIII əsrdə türk şeir ənənəsini M.V.Vidadi ilə birgə yeni mərhələyə qaldırdı.

Azərbaycan ədəbiyyatında bir mərhələdir. Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatında XVIII əsri Vaqif mərhələsi adlandırırlar. M.P.Vaqif şeirlərində qoşma "qafiyə" adı ilə qeyd edilir. Məsələn, "Bir qafiyə qayır, göndər ol yara", "Qafiyə, qəzəldən çox çıxa başı", "Şirin qafiyəsindən, xoş qəzəlindən" və s. M.P.Vaqif istedadı, xalq şeiri ruhunda yazıb-yaratması ilə ədəbiyyata istiqamət verdi. Heca vəznində poeziyanın yeni, aparıcı xətdə çıxmasının əsasını qoydu. XVIII əsrdə Aşıq Valeh, Aşıq Əli və s. sənətkarlar ona müraciətlə şeirlər qoşdular. S.Vurğun "Vaqif" dramını yazdı. Aşıq şeirində M.P.Vaqif təsiri kifayət qədərdir. Ustad aşıqlar onun şeirlərinin, qafiyələrinin təsiri altında saysız-hesabsız nümunələr yaratmışlar. "Vaqifi", "Vaqif gözəlləməsi" saz havası vardır. Haqqında "Vaqif" dastanı yaradılmışdır.

MOLLA VƏLİ VİDADİ MƏHƏMMƏD AĞA OĞLU (1709, Şəmkir – 1809, Qazax rayonu, Şıxlı kəndi) – aşıq şeiri və klassik şeir üslubunda yazan şair. Atası Məhəmməd ağa dövrünün savadlı



ziyalılarından olmuşdur. M.V.Vidadi uşaqlıqdan mükəmməl təhsil görmüşdür. Atası Şəkidən qayıdarkən yolda öldürülmüşdür. Bu hadisədən sonra Vidadi Şəmkiri tərk edib Qazağa, Şıxlı kəndinə köçmüşdür. Qıraq Salahlı kəndində Molla Cəbrayılın qızı Pəri xanımla evlənmişdir. Təzkirələrin verdiyi məlumata görə, bir müddət Qarabağda Gülüstan sarayında, sonra Gürcüstanda II İraklinin sarayında yaşamışdır. Ağqız oğlu Pirinin, M.P.Vaqifin məktub-şeirlərində də bu məsələlər aydınlıqla qeyd olunur. 1781-ci ildə II İraklinin oğlu Levanın ölümünə mərsiyə yazması ona və onun saraya münasibətini ifadə edir. Naməlum səbəbə görə, Vidadi orada həbs edilmişdir. "Könül həsrət, can müntəzir, göz yolda" şeiri məhz həmin vəziyyətin ifadəsi kimi yaranmışdır. Bu şeir öz ruhu, məzmunu etibarilə M.P.Vaqifin son şeirləri ilə səsləşir. M.V.Vidadi xalq şeiri ənənəsində yazan və bu ruhu kifayət qədər aparıcı xəttə çıxarmaq imkanında olan sənətkarlardandır. M.P.Vaqiflə məşhur "Deyişməsi", "Durnalar", "Ağlarsan", "Könlümü" və s. şeirləri Azərbaycan ədəbiyyatının mükəmməl nümunələrindəndir. Bunların böyük bir qismi aşıq yaradıcılığından, sənətdən, türk şeir ənənəsinin əvəzsizliyindən irəli gəlir.

M.V.Vidadi ruhu xalqın, xalq şeirinin ruhudur. Şairin yaradıcılığı təzkirələrdə, cünglərdə gəlib çatmışdır. M.Y.Nersesov, A.Berje, H.Ə.Qaibov, M.M.Nəvvab, M.Müctəhidzadə, F.Köçərli onun şeirlərinin toplanması, nəşri sahəsində mühüm addımlar atmışlar. Şeirləri kitab şəklində 1939-cu ildə nəşr olunmuşdur. H.Araslı M.V.Vidadinin əsərlərini giriş sözü, lüğət və şərhlərlə 1977-ci ildə nəşr etdirmişdir. F.Köçərli, H.Araslı, M.Seyidov, X.Yusifov, Ə.Səfərli, M.Allahmanlı şairin yaradıcılığı haqqında maraqlı fikir və mülahizələr yürütmüşlər. Aşıq şeir ruhu onun yaradıcılığının əsasını təşkil edir. M.V.Vidadi yaradıcılığının təsiri aşıq yaradıcılığında, ustadların qoşqularında kifayət qədər görünür.

MONODİK MƏQAM – aşıq havalarında vokal oxumanı müəyyən edən melodik səs sırasından ibarət məqam. Aşıq musiqisində məqam baxımından iki təbəqə özünü göstərir: vokal melodiyanın monodik məqamı və çalğının harmonik məqamı. Monodik məqamda, bütün səs sıralarında olduğu kimi, müəyyən bir ton (səs) dayaq səsi və ya sabit məqam səsi vəzifəsini müstəqil şəkildə yerinə yetirir. Harmonik məqam – hava boyu daimi səslənən, üç səsdən ibarət

həmahəng səslər toplusu – akkorddur. Harmonik akkord havanın dayaq səsləri toplusudur və saz alətinin kök sistemi ilə bağlıdır. Hər iki məqam təbəqəsi bir-birilə sıx şəkildə bağlıdır və biri digərini tamamlayır. Bu tip məqam xüsusiyyəti, bir çox hallarda, aşıq havalarında polimməqam ünsürlərini (Məsələn, "Segah-Şur" münasibətləri) üzə çıxarır. Monodik məqam sazın "zil" simləri – melodik simləri və həmin sim üzərində yerləşən pərdələrlə sıx bağlıdır və onlara əsasən müəyyən olunur. İlk dəfə etnomusiqişünas T.Məmmədov tərəfindən müəyyən edilmiş nəzəri müddəadır.

MOTİV – 1. Musiqi formasının ən kiçik elementi. 2. Melodiyanın parlaq və aydın musiqi məzmununa malik ən kiçik hissəsi. Aşıq musiqisində motivlərin yeri və rolu çox böyükdür. Xüsusilə instrumental motivlər havanın quruluşunda həm məqam-intonasiya, həm melodik-ritmik özək, həm formayaradıcı, həm də mətnyaradıcı ünsür kimi əhəmiyyətli yer tutur. Məsələn, a) Baş pərdə kökündə ifa olunan havaların hər birinin instrumental hissələrində müşahidə olunan kiçik motiv vardır. Bu, baş pərdə-boş pərdə-kök pərdə üzrə hərəkət edən trixord və kvinta intervalından ibarətdir (kök pərdə-şah pərdə). Bu motiv müntəzəm olaraq təkrar olunur və bütün quruluşu bir-birinə bağlayır, havanın ümumi məqam-səs axınını tənzimləyir; b) hava müəyyən xarakterik instrumental motivlə başlayır: "Baş sarıtel" havasının birxanəli ritmik başlanğıc motivi. "Yanıq Kərəmi" havasının yaddaqalan, mobil, kiçik diapazonlu, davamlı inkişafa meyilli instrumental motivi və s. Dastan yaradıcılığında motivin rolu daha qabarıqdır. Dünyanın ən nüfuzlu alimləri – folklorçular, ədəbiyyatşünaslar, dilçilər əsərlərində epik süjetlərdə əsas, başlanğıc formulların – motivlərin mövçud olduğunu, epik motivin bəzi xüsusiyyətlərini – inkişafa meyilliyini, məhsuldarlığını və s. keyfiyyətləri qeyd etmişlər. Əsas başlanğıc motiv sanki "cücərərək" çoxalma xüsusiyyətlərinə malikdir, variantlı transformasiyalara uğraya bilir, məna dəyişkənliyinə, mənanın böyüməsinə və ya inkişafına meyillidir: "Motiv inkişaf edərək süjetə çevrilir" (A.N.Veselovski). Motivdən bütöv formaya gedən yol yeni sistemin yaradılması anlamını daşıyır. Yeni sistem isə öz növbəsində, ona xas olan qanunauyğunluqların, yeni keyfiyyətlərin yaranması deməkdir.

MÖCÜZƏLİ DOĞULUŞ – nağıllarda, dastanlarda, bütünlükdə xalq ədəbiyyatında tez-tez rast gəlinən övladsızlıq məsələsidir. Qəhrəmanların simasında ümumiləşir. "Kitabi-Dədə Qorqud"da, "Manas"da, "Əsli və Kərəm"də, "Səyyad və Sədət"də, "Leyli və Məcnun"da və s. dastanlarımızda möcüzəli doğuluş bir formul kimi dastanın mahiyyətində dayanır. Bu motivdə nəzir-niyaz, alqışla dünyaya gəlmə başlıca xətt kimi götürülür. Möcüzəli doğuluş özlüyündə, sadəcə olaraq, övladsızlıq məsələsini həll etmir. Burada həm də fərqləndirici keyfiyyətlər, adi olanlardan fərqli həyat yaşamaq, cəmiyyətin müşküllərini, problemlərini həll etmək, fərqli həyat tərzi, düşüncə ilə cəmiyyətlə münasibətdə olmaq halları özünü göstərir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarında "Dirsə xan oğlu Buğacın boyu"nda Buğacın, "Baybura oğlu Bamsı Beyrək"də

Bamsı Beyrəyin, "Basatın Təpəgözü öldürməsi" boyunda Təpəgözün dünyaya gəlişi möcüzəli doğuluşun nümunəsidir. Onların cəmiyyətdə rolu və yeri də sonrakı mərhələlərdə filahi aləmi, ruhlar dünyasını təmsil etmək keyfiyyəti ilə təzahür edir.

MÖVLA – müxtəlif mənalarda işlənir. İxtiyar sahibi, bəndə, azad olmuş, azad edən, qonşu, həmpeyman, şərik, nemət yetirən, dost, yardımçı və s. "Mövla" kəlməsini təriqət alimləri daha çox "dost" kimi işlətmişlər. Məsələn, "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" fikrini "mən kimin dostuyamsa, Əli də onun dostudur" kimi şərh edirlər. Qurani-Kərimdə "Duxan" surəsində mövla-qohum, "Muhəmməd" surəsində dost, "Nisa" surəsində – həmpeyman, "Əhzab" surəsində azad etmiş mənalarını bildirir. Mövlanın mahiyyətində ixtiyar sahibi olma anlamı da vardır. Ömər ibn Xəttab "mənim mövlam hər bir kişi və qadının mövlasıdır" demişdir. Lüğətlərdə mövla: a) ağa, böyük; b) müqəddəs şəxs; c) Allah, Yaradan kimi şərh edilir. Bütün bu terminlər özlüyündə Şərq düşüncəsində mövlanın bir termin kimi işləkliyini, təsəvvüf terminologiyasına daxil olduğunu daha çox söyləməyə əsas verir. Ürfan fəlsəfəsində "mövla" geniş mahiyyətlidir. Mövləvilik də, bir təriqət kimi, həmin ideyalarla yüklənmişdir. Aşıq yaradıcılığında ustadlar "mövla" terminindən gen-bol bəhrələnmişlər. Məsələn, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Molla Cuma və Hüseyn Bozalqanlıda "mövla" kəlməsi daha çox "Allah" anlamı kəsb edir.

MÖVLAYEV QARA İMAMVERDİ OĞLU (1894, Göyçə mahalı, Kiçik Məzrə kəndi – 1965, Gəncə) – Yaradıcı ustad aşıq olmuşdur. Göyçə aşıq mühitinin yetişdirdiyi nadir istedada malik sənətkarlardandır. Atası əkinçiliklə məşğul olmuşdur. Qaranın erkən yaşlarından aşıqlığa həvəsi olmuşdur. 12 yaşı olarkən Aşıq Məhərrəmə (Qafarlı kəndi) və Aşıq Ələsgərə on il şagirdlik etmişdir. 1918-ci ildə daşnakların törətdiyi qırğın nəticəsində Qaranın ailəsi dədə-baba yurdunu tərk etməli olur. Tovuza köçürlər. 1924-cü ildən isə Gəncədə yaşamışlar. Aşıq Qara Gəncədə ustad aşıq kimi sazı və sözü ilə tez bir zamanda məşhurlaşmışdır. Yüksək və şirin ifa qabiliyyəti olmuşdur. Bülbülün rəhbərlik etdiyi Muğam Elmi-Tədqiqat Kabinetində onun ifası dəfələrlə lentə alınmışdır. Dastanları, ustadların yaradıcılığını mükəmməl bilməsi onu xalqın sevimlisinə çevirmişdir. Aşıq şeirinin müxtəlif şəkillərində qələmini sınamışdır. Təəssüf ki, şeirləri vaxtında yazıya alınmamışdır. Aşıqların I və II qurultaylarının iştirakçısı olmuşdur. Əməkdar Mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür (1939).



MÖVSÜM NƏĞMƏLƏRİ – mövsümlə, mövsüm mərasimləri ilə bağlıdır. Qədim insanların etiqadı, təbiət hadisələrinə münasibəti, əmək fəaliyəti ilə əlaqədar yaranmışdır. Əkinçilik, maldar-

lıq, ovçuluq, balıqçılıq və başqa məşğuliyyətlərlə də bağlı olaraq mərasimlər təşkil edilmişdir. Qədim adətənənələr əsrlərin sınağından çıxmış, xalqın düşüncəsinin formalaşmasında, mənən zənginləşməsində mühüm rol oynamışdır. Adət-ənənə, mərasimlər, bayramlar xalqın mənəviyyatı, xalqın simasıdır, onun soykökü ilə bağlı olan və onunla birlikdə doğub inkişaf edən amillərdəndir. Mövsüm mərasimləri içərisində Novruz bayramı xüsusi yer tutur. Novruz bayramının tarixi, mənşəyi barədə müxtəlif mülahizələr söylənmişdir. Bəzi mənbələrdə Novruzu çox qədimlərə aparmaq, müqəddəsləşdirmək meyilləri görünür. Guya Tanrı bütün varlığı məhz bu gün yaratmağa başlamış, ona görə o gün yeni gün, Novruz adlandırılmışdır. Bəziləri isə onu əfsanəvi padşahların icad etdiyini göstərmişlər. Novruzun məhz Azərbaycanda təsis olunması barədə rəvayətlər də dolaşmışdır.

Novruz qədər insanların arzu-istəkləri, etiqadlarını nümayiş etdirəcək ikinci bir bayram, bəlkə də, olmamışdır. Xalq böyük intizarla, həyəcanla, diqqətlə Novruzun məhz necə gələcəyini gözləyir. Novruz gərək xoş gəlsin. Novruz bahardır, yazdır, yeni əhvali-ruhiyyədir. Ona görə də Novruzun gəlişi, doğrudan da, xoşdur, toy-bayramdır. Bununla bərabər, etiqada görə, Novruzun məhz necə gəlməsi insanların bütün bir ilinin necə keçəcəyi ilə əlaqədardır. Novruzun xoş gəlişi əkinin, təsərrüfatın, mal-qaranın taleyi ilə çox bağlıdır. Ona görə də Novruz xoş gəldiyi kimi, həm də gərək dolu gəlsin, bol gəlsin, bar-bəhər gətirsin, əkinə, biçinə, maldarlığa, ümumiyyətlə, havaya xoş təsiri ilə gəlsin. Novruz gərək özü ilə bərabər yağış, leysan gətirsin. Ona görə də xalq onun məhz «sulu» gəlməsini arzulayır. Bu baxımdan mərasimlərlə əlaqədar mahnıların yalnız bədii-estetik deyil, etnoqrafik əhəmiyyəti də qeyd edilməlidir. Novruz mərasimində oxunan mahnılar çox, özü də müxtəlifdir. Bu mahnılarda xalq böyük bir lövhə yaradır.

Mərasimlə bağlı yaranmış nəğmələrdə aşıq şeirinin təsiri özünü daha çox göstərir. Aşıqlar bu mərasimlərdə həmişə sazı-sözü ilə təmsil olunmuşlar.

MÖVSÜMOV İBRAHİM MUSA OĞLU (1909, Tovuz rayonu, Qaradaş kəndi – 1978) – Tovuz mühitinin yetişdirdiyi sənətkarlardandır. 1913-cü ildə İbrahim atasını itirmişdir. İbrahim bir müddət mal-qara otarmış, muzdurluqla məşğul olmuşdur. Muzdur olan vaxtlarda cürə saz alıb, aşıqlığı öyrənməyə başlamışdır. Aşıq Əsədin yanında şagird olmuşdur. Bir neçə il Aşıq Əsəddən sənətin sirlərini öyrənmişdir. Sonra Əsədin qardaşı Aşıq Məhəmmədlə uzun illər birgə məclislər keçirmişdir. Aşıq Ələsgərin poetik irsini sinəsində gəzdirən sinədəftər aşıqlardan olmuşdur. İbrahim Mövsümov ifaçı aşıq kimi məşhur olmuşdur. Dastanların və saz havalarının mükəmməl bilicisi kimi tanınmışdır.

Aşıqların qrultayının nümayəndəsi olmuşdur (1961).

MUĞAM – Azərbaycan musiqi yaradıcılığında şifahi ənənəli professional musiqi sənəti. İrihəcmli, çoxhissəli, silsiləvi vokal-instrumental janr. Muğam Azərbaycan xalqının musiqi yaradıcılığının möhtəşəm canlı abidəsi, bədii irsinin, mənəvi dünyasının ayrılmaz tərkib hissəsidir. Aşıq sənəti və muğam sənəti

və aşıq sənəti Azərbaycan xalqının bədii təfəkküründə iki monumental şaxəsidir. Onlar arasında əsaslı fərqlərlə yanaşı, ümumi, ortaq tərəfləri də müşahidə etmək mümkündür. Bu həm də səs-məqam, forma və struktur, dramaturji konsepsiya, improvizasiya quruluşu, poetik mətn və musiqi əlaqələri və başqa sahələrdə də izlənilir. Bunlar aşağıdakılardır: Aşıq havaları və muğamlar – 1. İnstrumental hava ilə başlayır, vokal oxuma ilə sona yetir. 2. Dəqiq metro-ritmikaya malik instrumental hava ilə başlayır (əksər havalarda), sərbəst ölçülü improvizasiya ilə tamamlanır. 3. Aşıq havalarının instumental girişinin əksəriyyəti havanın mövzu və məqam-intonasiya özəyinin əsasını özündə daşıyır və bu baxımdan muğam dəramədlərini xatırladır. 3. Aşıq havalarının ümumi inkişaf prosesində zilə doğru yüksəliş xətti özünü göstərir: a) aşıq havalarında üçüncü melobənd (və bəndöncəsi səslənən instrumental intermediya) dramaturji inkişafın kulminasiya funksiyasını özündə daşıyır və yeni keyfiyyət dəyişikliklərinin əldə edilməsi ilə nəticələnir; b) muğamın kulminasiya bölməsində mayənin bir oktava yuxarı tonuna istinad edilirsə, aşıq havalarında harmonik akkordun səslərindən birinə – əsasən, bəmlərin və ya dəmlərin zilinə qaxmaq xüsusiyyəti izlənilir. 4. Aşıq havalarının bəndlərarası instrumental bölmələrinin bir çoxu inkişaflıdır, bitkin formaya malikdir və rəng xasiyyəti daşıyır. 5. Aşıq havaları üç melobənddən yaranır, forma və quruluş baxımından üçhissəlidir (variantlı kuplet forması ilə yanaşı). Muğam dəstgahlarında strukturun üç mərhələyə bölünməsi xüsusiyyəti – üç mikrosilsilə: mayə, şöbələr, zil şöbələr (ayaq) – təzahür edir. Aşıq havalarının səs-məqam quruluşunda aşağıdakı inkişaf mərhələləri özünü göstərir: a) məqam-intonasiya komplekslərinin təsdiq olunması; b) mayə ilə bağlı (əsas dayaq tonu) intonasiya komplekslərinin tədricən genişlənməsi və inkişaf elementlərinin daxil edilməsi (bu mərhələ aşıq havalarında daha yığcamdır və muğamda olduğu kimi, bir neçə yeni və daha yüksək istinad pillələrinin əldə edilərək təsdiq olunması halları müşahidə olunmur); c) zil-kulminasiya; d) əsas dayaq tonuna qayıtma. 6. Reçitativ-reklamasiya tipli aşıq havalarında musiqi mövzusunun yaranma prosesi muğamlarda olduğu kimidir. Mövzunun əsasında kiçik melodik-intonasiya özəyi dayanır. Aşığın bu özək üzərində interpretasiyaları çoxsaylı variantların törəməsinə səbəb olur və aşıq havasının musiqi mövzusunun təşkil olunaraq yaranması ilə nəticələnir. 7. Dayaq tonunun əhatə olunaraq oxunması, melodikada eyni erkən folklor intonasiya edilmə xüsusiyyətləri müşahidə olunur. 8. Eyni transpozisiya edilmə prinsipi özünü göstərir (kvarta, kvinta, zil-oktava nisbətən). 9. Poetik mətndə klassik şeir formalarına müraciət edilməsi (divani, müxəmməs, qəzəl). 10. Poetik mətnin strukturunda rədiflərin dramaturji funksiyasının başlıca əhəmiyyəti. Kadensiya-ayaq prinsipinin identikliyi. 11. Aşıq havaları içərisində sırf improvizasiya quruluşlu – həm instrumental, həm də vokal bölmələri gəzişmədən yaranan improvizasiya quruluşlu havaların mövcudluğu və s. Beləliklə, demək mümkündür ki, Azərbaycan xalqının uzun əsrlər boyu formalaşan milli yaradıcılıq təfəkkürü, düşüncə və yanaşma tərzi – milli intonasiya-səs, melodik-ritmik for-

mullar toplusu, ifaçılıq ənənələri və s. mövcuddur. Bunlar milli özünəməxsusluğu, milli özəlliyi şərtləndirən əsas amillərdir və bütünlükdə milli musiqi yaradıcılığına xas olan ümumi cəhətlərdir.

MURAD DƏLLƏK (XVII əsrin ikinci yarısı, Göyçay rayonu, Xəlilli kəndi – XVIII əsrin birinci yarısı) – Atası dəllək olmuşdur. Murad da bu sənəti atası vasitəsilə öyrənmişdir. Ona görə də "Dəllək Murad" demişlər. Kəndin bəyi ilə aralarında narazılıq yaranmış və onu öldürmüşdür. Bu hadisədən sonra Dəllək Murad Göyçay rayonunun Ləkçıraq kəndinə köçmüşdür. Ləkçıraq kəndində onun adını daşıyan məhəllə də vardır. Dəllək Murad aşıqlıq etməmişdir. Aşıq şeiri üslubunda yüksək sənət nümunələri yaratmışdır. Onun şeirləri daha çox nəsihətamiz səciyyəli olduğu üçün tezliklə yayılmış, aşıq məclislərinə ustadnamə kimi yol tapmışdır. Dastanların əvvəlində ustadnamə kimi onun şeirlərinə daha çox müraciət edilir.

MURAD OĞLU ƏLİXAN (1898, Zaqatala rayonu, Yengiyan kəndi – 1982) – Yaradıcı aşıq olmuşdur. Aşıq ailəsində dünyaya gəlmişdir. Atası Aşıq Murad dövrünün tanınmış ustadlarından olmuşdur. Böyük qardaşı Sərhəd də aşıqlıq etmişdir. Saz çalmağı atası Muraddan və böyük qardaşı Sərhəddən öyrənmişdir. Bir aşıq kimi sənətin sirlərini öyrənmiş və ustadların yaradıcılığını mükəmməl şəkildə mənimsəmişdir. Gözəl səsə, şirin danışıq qabiliyyətinə malik olmuşdur. Aşıqların dediyinə görə, xalq dastanlarının böyük bir hissəsini də Aşıq Əlixan əsil aktyor məharəti ilə canlandırmağı bacarmışdır. Aşıq şeiri üslubunda gəraylı, qoşma və təcnislər yaratmışdır.

MUSAYEV AVDI TELMAN OĞLU (1974, Qazax rayonu, I Şıxlı kəndi – Sumqayıt) – Saza-sözə meyilli olan bir ailədə dünyaya gəlmişdir. Sənəti də atasından, əmisindən öyrənmişdir. Tovuz rayonunda keçirilən ozan-aşıq müsabiqəsinin (2006) ilk qaliblərindəndir. 2017-ci ildə Bakıda təşkil olunan Birinci ozan-aşıq müsabiqəsində də qalib olmuşdur. İfaçı aşıqdır. Gur və şaqraq səsə malikdir. Türkiyədə, Rusiyada, Gürcüstanda keçirilən festivallarda mükafatlara layiq görülmüş, sənəti ləyaqətlə təmsil etmişdir. Ustad sənətkar Kamandar Əfəndiyev sənətinin ifaçılıq ənənəsini ləyaqətlə davam etdirir. AAB-ın üzvü (2016). VI aşıq qurultayının nümayəndəsi olmuşdur (2018).

MUSAYEV AYDIN (AYDIN ÇOBANOĞLU) ÇOBAN OĞLU (1951, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1993, Bakı) – Tovuz aşıq ənənəsinin yetişdirdiyi ustad sənətkarlardandır. Atası aşıq olmuş, "Aşıq Çoban" adı ilə tanınmışdır. Orta məktəbdə oxuduğu illərdən aşıq sənətinə maraq göstərmiş, atasından aşıqlığı öyrənmişdir. Bakı Dövlət Universitetinin filologiya fakültəsində oxumuşdur (1974-1980). Həmin illərdə artıq Aydın Çobanoğlu bir aşıq kimi məclislər aparıb kifayət qədər tanınmışdır.

Böyük salonlarda konsertlər vermişdir. Aşıq Aydın keçən əsrin 80-ci illərindən Bakıda, Azərbaycanın ayrı-ayrı rayonlarında, keçmiş SSRİ-nin müxtəlif şəhərlərində, Moskvada, bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirak etmişdir. Almaniya, Hindistan, Türkiyə, İsveçrə, Orta Asiya və Zaqafqaziya respublikalarında keçirilən festivallarda və qastrol səfərlərində maraqlı çıxışlar etmişdir. Türkiyənin Konya şəhərində keçirilən aşıqlar festivalında (1991) qızıl medal almışdır. Gənc aşıqların respublika müsabiqələrinin (1977-1979), Polşada keçirilən XI Beynəlxalq folklor festivalının (1984), II Ümumittifaq xalq yaradıcılığı festivalının (1987) mükafatçısı olmuşdur. Leninqradda (indiki Sankt-Peterburqda) keçirilən 16-cı "Folklor və gənclik" ümumittifaq elmi-təcrübi konfransında məruzə etmişdir. Aşıq Aydın Çobanoğlu "Abşeron" və "Günay" ailə ansamblları yaratmışdır. "İncəgülü" aşıqlar ansamblının yaradıcısı da Aşıq Aydın Çobanoğlu olmuşdur. Aşıqlar Birliyinin sədr müavini (1984-1993) kimi dəyərli işlər görmüşdür. Aşıqlarla bağlı tədbirlərin, yığıncaqların, konsertlərin keçirilməsində mühüm əməyi olmuşdur. Qoşma, gəraylı və digər formalarda yazdığı şeirlər onun istedadlı, həm də yaradıcı aşıq olduğunu göstərir. "Sayadı" saz havasının bəstəçisidir.

MUSAYEV BƏKİR ORUC OĞLU (1940, Borçalı mahalı, Qasımlı kəndi – 2009) – Borçalı aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Erkən yaşlarından saza həvəs göstərmişdir. Aşıq sənətini yaxın qohumu Sədi Qurbanovdan öyrənmişdir. Ustadların yaradıcılığını, havaları mənimsəyərək mühitdə aşıq kimi tanınmağa başlamışdır. Gəncə Pedaqoji İnstitutunda təhsil almışdır (1964-1969). Pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı, həm də aşıq kimi eldə-obada məclislər aparmışdır. Çoxsaylı şagirdlər yetişdirmişdir. Borçalı aşıq mühitində sənətkar kimi tanınmışdır.



MUSAYEV ƏBÜLFƏZ ŞÜKÜR OĞLU (1910, Göyçay rayonu, Şəkər kəndi – 1989) – Aşıq Xasməmmədin şagirdi olmuşdur. Aşıq sənətinin sirlərini ondan öyrənmiş, saz havalarını, ustadların yaradıcılığını, dastanları mənimsəmişdir. Əbülfəzin atası Şükür də aşıq olmuşdur. Aşıqlığa maraq da elə ailədən başlamışdır. Atası ona sənəti öyrən-

məkdə, aşıq kimi yetişməkdə həmişə yardımçı olmuşdur. Aşıq dastanlarının yaxşı ifaçısı və söyləyicisi olmuşdur. Saz havalarını dəqiqliklə çala bilmək qabiliyyəti varmış. "Nigar-Mahmud", "Ordubadlı Kərim" dastanlarının mükəmməl variantları onun dilindən yazıya alınmışdır. Aşıq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır.

MUSAYEV XANMUSA MUSA-XAN OĞLU (1924, Şamaxı rayonu, Şamlı kəndi – 2017, Qobustan) –

Ustad aşıq. Əməkdar mədəniyyət işçisi (2016). Aşıq ailəsində anadan olmuşdur. Atası Aşıq Musaxandan, əmisi Aşıq Cənnətalıdan muğam və aşıq sənətinin sirlərini öyrənmişdir. 1938-1946-cı illərdə orta məktəbdə oxumuşdur. Erkən yaşlarından saza həvəs göstərmişdir. Sonralar Şamlıda Aşıq Xanbalanın yanında sənət dərsi almışdır. Cəyirli Aşıq Abbasın da onun bir sənətkar kimi yetişməsində mühüm xidmətləri olmuşdur. Aşıq Xanmusa yaradıcı aşıq kimi tanınmışdır. Ondan çox şagirdə aşıqlıq sənətinin sirlərini öyrətmişdir. Aşıq şeirinin müxtəlif formalarında yazıb-yaratmışdır. Bir neçə şeir kitabı işıq üzü görmüşdür. Sənət yolu barədə kitablar yazılmışdır. 1954-cü ildə Qaradağ rayonunun Qobustan qəsəbəsinə köçmüş və orada yaşamışdır. Bakıda, Qobustanda, Şamaxıda məclislər aparmış, müxtəlif dövlət tədbirlərində iştirak etmişdir. Respublika və ümumittifaq festivallarında mükafat və diplomlar almışdır. Qobustan mədəniyyət evində uzun illər aşıqlar ansamblının rəhbəri olmuşdur (1961-1999). Şirvan dastançılıq ənənəsinin unikal daşıyıcılarından biri kimi tanınmışdır.

III və IV aşıq qurultayının nümayəndəsi olmuşdur. Ondan yuxarı şagird yetişdirmişdir.

MUSAYEV KƏRƏM MƏHƏMMƏD OĞLU (1899, Qərbi Azərbaycan Vedi mahalı, Göyalsor kəndi – 1974, Ağstafa rayonu, Səməd Vurğun qəsəbəsi) – Soydaşlarımızın kütləvi şəkildə dədə-baba yurdlarından köçürülməsi zamanı Qazax rayonuna pənah gətirmişdir. Deyilənə görə, usta Kərəmin atası Məhəmməd də sazbənd olmuşdur. Sazbəndliyi də atasından öyrənmişdir. Usta Kərəm sazı, əsasən, qoz ağacından düzəltməyə üstünlük vermişdir. Hətta bütöv saz düzəltməsi haqqında da xalq arasında söhbətlər vardır. Ona "oyma saz" deyirlər. Onun düzəltdiyi iki oyma saz nəvəsi Bayram tərəfindən yadigar kimi qorunur. Ənənəvi sazın və oyma sazın sirlərini usta Kərəm oğlu Yunisə öyrətmişdir. Usta Yunis bacarıqlı sazbənd kimi xalq arasında tanınır.

MUSAYEV TAHİR (TAHİR TALIBLI) İSLAM OĞLU (1948, Dağ Borçalı, Cəlaloğlu rayonu, Evli kəndi – Bakı) –şair, publisist. Əməkdar jurnalist (2011). Orta məktəbi anadan olduğu kənddə bitirib Azərbaycan Dövlət Peda-

qoji İnstitutunda ali təhsil almışdır (1968-1972). Dağ Borçalının Evli kəndində dil-ədəbiyyat müəllimi (1974), dərs hissə müdiri (1975-1980), direktor (1980-1988) işləmişdir. "Yeni fikir" qəzetinin baş redaktoru olmuşdur (1992-1993). Şeirləri 70-ci illərdən mətbuat orqanlarında çap olunur. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində "Xalq yaradıcılığı" şöbəsinin müdiridir. "Bulaq", "Gündoğandan günbatana", "Yazıya pozu yoxmuş", "Xeyrə qənşər", "İlmə", "Qərib axşamlar", "Dastan saatı", "Yurd yeri" verilişlərində xalq mənəvi mədəniyyətinin təbliği ilə bağlı gərəkli işlər görmüşdür. "At igidin qardaşıdır" (2002), "Aşıq Məhəmməd Sadaxlı" (2003) və s. sənədli filmlərin müəllifidir. "Bizi yurd saxlar" (1992), "Qurdu qəmgin, quşu qərib" (2013), "Vaxt vaxtında gəlir" (2017) və s. kitabları çap olunmuşdur.

"MUSİQİ DÜNYASI" – Bakı şəhərində nəşr olunan ilk Beynəlxalq elmi- pedaqoji, tənqidi-publisistik və mədəni-maarif musiqi jurnalı. 1999-cu ildən çap olunur. Təsisçiləri ABİ və BMA-dır. Baş redaktoru və naşiri sənətşünaslıq doktoru, Əməkdar incəsənət xadimi, professor T.Məmmədovdur. Redaksiya heyətinə Azərbaycanın və Rusiyanın görkəmli musiqişünas alimləri və incəsənət xadimləri daxildir. "Musiqi dünyası" oxuculara üç formatda təqdim olunan yeganə jurnaldır: çap şəklində, elektron variantda (İnternet şəbəkəsində) və radio jurnalı (AzTR ilə birlikdə) şəklində. Jurnal "Musiqişünaslığın aktual problemləri", "Üzeyirşünaslıq", "Məxəzşünaslıq", "Kulturoloji məsələlər", "Musiqi təhsili və maarifçiliyi", "Portretlər", "Ustadlarımızın xatirəsinə", eləcə də "Etnomusiqişünaslıq" rubrikalarına bölünür. Azərbaycanın görkəmli aşıqşünas alimləri, eyni zamanda gənc mütəxəssisləri jurnalın "Etnomusiqişünaslıq" rubrikası altında vaxtaşırı məqalə və oçerklərlə çıxış edir, musiqi həyatında baş verən mühüm hadisələri, aşıq sənəti qarşısında duran əsas məsələləri və elmi-nəzəri nailiyyətləri işıqlandırırlar.

"Musiqi dünyası***" (www.http:// musigi-dunya.az)*** Azərbaycan Beynəlxalq Elektron Elmi Musiqi Jurnalı, "Saz məktəbi" – elektron dərslik ***(http://saz. musigi-dunya.az)***, "Kitabi-Dədə Qorqud" – elektron ensiklopediyası ***(http:// dede. musigi-dunya.az)***, Əfrasiyab Bədəlbəyli "İzahlı musiqi monoqrafik lüğəti" – elektron lüğəti ***(http://lugat. musigi-dunya.az)***, Azərbaycan ənənəvi musiqisi atlası – elektron atlas ***(http:/at-***

las.musigi-dunya.az) yaradıb. Jurnalın fəaliyyəti dövründə 5000-ə yaxın elmi məqalə nəşr olunub və didaktik material kimi 100-dən çox CD disk tərtib edilib. Burada dastanlar, ustad aşıqların ifalarında ənənəvi havalar öz əksini tapıb.

MUSİQİ EPOSŞÜNASLIĞI – epik əsərlərin musiqi dilini tədqiq edən elm sahəsidir. Azərbaycanda musiqi eposşünaslığının təşəkkülü Ü.Hacıbəylinin adı ilə bağlıdır. Hacıbəylinin aşıq yaradıcılığına dair nəzəri baxışlar sistemi böyük tarixi əhəmiyyətə malikdir. Bəstəkarın elmi axtarışlarının nəticəsində ilk dəfə olaraq Azərbaycan şifahi ənənəli musiqi janrları sistemində aşıq sənətinin yeri təyin edilmiş, onun əsas musiqi-üslub xüsusiyyətləri xarakterizə olunmuş və ən başlıcası isə musiqi eposşünaslığının perspektiv istiqamətləri müəyyənləşdirilmişdir. Ü.Hacıbəylinin məqalələrində və məruzələrində aşıq sənətinin genezisi, sazın morfologiyası, ifa üslubunun xüsusiyyətləri, havaların janr sistemi və s. bu kimi məsələlər işıqlandırılmışdır. Hacıbəyli aşıqların repertuarına dair bir sıra maraqlı mülahizələr irəli sürmüşdür. Azərbaycanda musiqi epoeşünaslığının təşəkkülü və inkişafında müstəsna xidmətləri olmuş alimlərdən biri Əminə Eldarovadır. Ə.Eldarovanın elmi araşdırmaları nəticəsində etnomusiqişünaslıqda ilk dəfə olaraq aşıq sənəti şifahi ənənəli Azərbaycan professional musiqisinin özünəməxsus bədii sistemə malik olan müstəqil qolu kimi təqdim edilmişdir. Eldarovanın tədqiqat əsərlərinin elmi problematikası çoxşaxəlidir. Onun elmi yaradıcılığında aşıqşünaslığın musiqi-tarixi, musiqi-nəzəri, etnoorqanoloji, metodoloji və s. problemləri öz şərhini tapmışdır. Sənətşünaslıq doktoru, professor Tariyel Məmmədov müasir elmi paradiqmaya xas olan metodoloji üsulları tətbiq edərək Azərbaycanda musiqi eposşünaslığının inkişafına təkan vermişdir. T.Məmmədovun tədqiqat əsərlərində Azərbaycan aşıq sənətində əsrlərdən bəri formalaşmış ənənəvi havalar toplusu dolğun şəkildə təcəssüm etdirilmiş, onların musiqi dili müxtəlif rakurslardan – məqam, melodiya, metr-ritm, polifoniya və s. tədqiq edilmişdir. Azərbaycan musiqi eposşünaslığının inkişafında T.Məmmədov, A.O.Kərimli, İ.Köçərli, İ.İmamverdiyev, K.Dadaşzadə və s. tədqiqatçıların rolu olmuşdur.

MUSİQİ QORQUDŞÜNASLIĞI – musiqi eposşünaslığında "Kitabi-Dədə Qorqud" eposunun musiqi poetikası problemlərini öyrənən istiqamət. Azərbaycan musiqişünasları tərəfindən "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmış çalğı alətləri, musiqi janrları, ozan sənətinin səciyyəvi xüsusiyyətləri, oğuznamələrin musiqi dilinin bəzi özəllikləri araşdırılmışdır. Z.Səfərovanın "Azərbaycan musiqi tarixi" kitabının (2012) bir fəslində, "Dədə Qorqud"un musiqi dünyası" (rus dilində) və digər məqalələrində "Kitabi-Dədə Qorqud" eposunda musiqi mədəniyyəti ilə bağlı məsələlər işıqlandırılmışdır. F.Xalıqzadənin "Kitabi-Dədə Qorqud"un musiqi sözlüyü", "Kitabi-Dədə Qorqud" və musiqi poetikasının bəzi məsələləri", "Kitabi-Dədə Qorqud" eposunun öyrənilməsinin musiqi aspektləri" (Almatı, 2011) və s. məqalələrində "Kitabi-Dədə Qorqud" eposunun musiqi poetikasının bəzi xüsusiyyətləri araşdırılır. K.Dadaşzadənin "Musiqi qorqudşünaslığının

bəzi problemləri haqqında", "Musiqi qorqudşünaslığı: reallıq və perspektivlər" (rus dilində, Moskva, 2002) məqalələrində "Kitabi-Dədə Qorqud" eposunun musiqi dili haqqında bəzi mülahizələr irəli sürülmüşdür.

"MUSİQİ SƏNƏTİ HAQQINDA" – Bülbülün 1961-ci ildə Azərbaycan Aşıqlarının III Qurultayında məruzəsi. Redaktə edilmiş variantda "Bülbül. Seçilmiş məqalə və məruzələri" (Bakı, 1968) kitabına daxil edilmişdir. Geniş və dolğun məruzədə müəllif aşıqlar, aşıq janrı və formaları, aşıq ifaçılığına xas olan gözəl boya və bəzəklər (səs oynatması, gəzişmə, səs işlətmək qanunları, özünəməxsus "zəngulə" vurma qaydaları və s.) haqqında danışır, bir sıra aşıq havalarının ("Arazbarı", "Mani", "Kərəmi", "Şikəstə", "Bayatı", "Ovşarı", "Şərili") xanəndələr tərəfindən muğam sənətinə daxil edilməsi, hər iki sənət qolunun bir-birinə təsiri və s. haqqında fikirlər söyləyir. Məruzədə aşıq sənətinin elmi baxımdan öyrənilməsi, toplanılması, nəşri məsələlərinə diqqət çəkilir. Bülbül 1959-cu ildə Azərbaycan SSR EA tərəfindən çap olunmuş "Koroğlu" dastanının nəşr olunmasını yüksək qiymətləndirir və H.Araslının, M.H.Təhmasibin adını çəkir. Aşıq yaradıcılığının ədəbi irsinin öyrənilməsi ilə yanaşı, araşdırmaların "sintetik aşıq sənətinin əsas ana xəttindən, yəni saz, söz, şeir, nəğmə, rəqsdən başlanılması" məsələsini ortaya çəkir, Koroğlu havalarının bir qismini sadalayır, dastanda Aşıq Cünun obrazının iştirakı, Koroğlu və onun bütün dəlilərinin sazda çalması faktını (Bəlli Əhməd, Dəli Həsən, Bolu bəy, Eyvaz, Dəmirçi oğlu) vurğulayır və bu istiqamətdə elmi işlərin aparılmasını vacib hesab edir. Bülbül Azərbaycan bəstəkarlarının aşıq musiqisindən bəhrələnərək orijinal əsərlər yaratdığını böyük ruh yüksəkliyi ilə söyləyir, bu işin gələcəkdə də davam etdirməsinin vacib olduğunu qeyd edir, "səhnələşmiş dastanlar" olan "Əsli və Kərəm", "Aşıq Qərib", "Şah İsmayıl", "Şahsənəm", "Koroğlu" operalarını misal çəkir. Simfonik muğamların böyük uğurundan danışan Bülbül aşıq havalarının simfonikləşdirilməsi məsələsinin vacibliyini və başqa məsələləri ortaya qoyur.

MUSİQİ TƏHSİLİ – musiqi üzrə peşəkar bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi. Ümumi və xüsusi musiqi təhsili anlayışları mövcuddur. Ümumi musiqi təhsili həvəskar musiqiçilər üçün və ya musiqi tərbiyəsi üçün nəzərdə tutulur. Bu vəzifəni ümumtəhsil məktəbləri, uşaq yaradıcılıq evləri, musiqi dərnəkləri və b. yerinə yetirir. Xüsusi musiqi təhsili isə professional fəaliyyət üçün musiqiçilər – bəstəkar, ifaçı, musiqişünas, müəllim və s. hazırlamağa xidmət edir. Bu növ musiqi təhsili üç səviyyədə aparılır: ibtidai (musiqi məktəbləri), orta ixtisas (kollec) və ali (konservatoriya və s.) Azərbaycanda uzun əsrlik milli ənənələrə söykənən xalq təhsili məktəbi sistemi mövcud olmuşdur. Muğam sənətinin təlimi ilə bağlı olan Xarrat Qulu məktəbi, Kor Xəlifə məktəbi, Molla İbrahim məktəbi və s. Aşıq sənətinin öyrənilməsi də formalaşmış təhsil prosesi – "ustad-şagird" sistemi üzrə aparılmışdır. Hər bir gənc aşıq təqribən 15 il ərzində ustad yanında çalışmış, müxtəlif təhsil mərhələlərindən keçmiş, əvvəlcə ritm üzrə təlimlər almış,

bunun üçün zərb alətlərində çalmağı öyrənmiş, bəziləri balabanda çalmış, poetik forma və janrlar üzrə biliklər almış, ustad yanında məclislərdə iştirak edərək "məclis aparma", "dastan söyləmə" təcrübəsini əldə etmiş, ustad sazını daşımışdır. Sonrakı mərhələdə sazda çalmaq və oxumaq vərdişlərini mənimsəmişdir. Yalnız illər uzunu püxtələşib lazımi bilik, bacarıq, vərdiş və təcrübə qazandıqdan sonra ustadın "köynəyindən keçib", müstəqil peşəkar fəaliyyətə qədəm qoymuşdur. Ustad-şagird ənənəsinin mərhələvi xarakterini səciyyələndirərək Ə.Eldarova qeyd edir: "Aşıq Ələsgər şagirdlərlə birinci məşğələni saz çalmaqdan başlayırdı. Məşğələni yüngülləşdirmək və asanlaşdırmaq üçün o, saza 9 sim əvəzinə 7 sim çəkirdi. Aşıq Ələsgər şagirdlərlə məşğələlərində səsin və nəfəsin püxtələşib yoluna düşməsinə böyük diqqət yetirirdi. Səsi püxtələşdirməkdə o, konsentrik metoddan istifadə edirdi. Məlum məsələdir ki, orijinal sənət prinsiplərinə əsaslanan ustad aşıq bu zaman "etüdlərə", "vokalizlərə" müraciət etməyib, ənənəvi aşıq mahnılarından istifadə edirdi. Həmin mahnıları o, get-gedə artan çətinlik dərəcəsi üzrə qruplaşdırır, sadədən mürəkkəbə gedirdi. Məşğələlərin əvvəlində səsin natural tonunda, dəqiq ölçü-ritmikaya malik olan sadə vokal partiyalı havalar götürülürdü. Bu havalar aşağıdakılardan ibarət idi: 1. "Əfşarı". 2. "Şahsevəni". 3. "Baş sarıtel". Onların ifasıda müəyyən ardıcıllıq gözlənilirdi. Havanı müəyyən hissələrə böldükdən sonra (instrumental giriş, melodiya, intermediya, sonluq) Aşıq Ələsgər əvvəlcə havanı özü ifa edir, şagird isə onun ardınca çalırdı. Yuxarıda adı çəkilən mahnılar öyrənildikdən sonra vokal partiyanın improvizasiyası baxımından bir qədər mürəkkəb olan "Qaraçı" havasının öyrənilməsinə keçirdilər. Böyük hazırlıq tələb edən "Təcnis" və "Ayaq divani" kimi havaların öyrənilməsinə ən axırda başlayırdılar". Bu təhsil qayda-qanunları XX yüzilliyin sonlarınadək davam etmişdir. Həmin dövrlərdə bəzi musiqi rayon və kənd musiqi məktəblərində "Aşıq sənəti" ixtisası açılmış, ixtisasla yanaşı, vacib olan musiqi fənləri də tədris olunmuşdur. 1990-cı illərdən başlayaraq, Sumqayıt orta ixtisas musiqi texnikumunda "Aşıq sənəti" ixtisası tədris olunmağa başlamışdır. Azərbaycanda aşıq sənətini tədris edən ilk ali təhsil müəssisəsi isə ADMİU-dur (2001). Hal-hazırda "Musiqi sənəti" fakültəsinin "Aşıq sənəti" kafedrası nəzdində "İxtisas" fənni şifahi ənənə əsasında (muğam ixtisası üzrə tədris metodikası təcrübəsinə uyğun olaraq) vokal-instrumental və instrumental şəkildə tədris olunur. Bu ixtisas üzrə təhsil alan tələbələrə, sənətin sintetik xüsusiyyətlərini nəzərə alaraq, musiqi, ədəbi və teatr sənəti üzrə fənlər tədris edilir. Qarşıya qoyulan əsas vəzifə milli musiqi mədəniyyətinin bu qədim qolunu yaşatmaq, aşıq sənətinin əvəzsiz incilərini qoruyub saxlamaq, inkişaf səviyyəsini qaldıraraq müasir dövrün tələbləri ilə uzlaşdırmaq, yüksək ixtisaslı mütəxəssislər yetişdirmək, dastan ifaçılığı ənənələrinin yeni səviyyədə bərpasına və saz ifaçılığının not sistemi üzrə keçilməsinə nail olmaqdır. 2012-ci ildə Gədəbəy rayonunda "Aşıq məktəbi" mərkəzi açılmışdır.

MUSTAFA (QUL MUSTAFA) (təxminən XVI əsr) – El şairidir. Harada, nə

vaxt anadan olduğu məlum deyil. Matenadaranda Qul Mustafanın şeirləri XVII əsrin əlyazmaları sırasında saxlanılır. İ.Abbaslı bir neçə məqaləsində Qul Mustafa haqqında danışmış, şeirlərindən nümunələr vermişdir.

MUSTAFAYEV BƏHLUL ŞİRƏLİ OĞLU (1910, Göyçə mahalı, Yarpızlı kəndi – 1995, Gədəbəy rayonu, Zəhmət kəndi) – Göyçə aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. 1948-ci ildə erməni deportasiyası zamanı Gədəbəy rayonunun Zəhmət kəndinə köçmüşdür. Balabançı kimi məşhur olmuşdur. Ustad sənətkar Eyyub Fərzəliyevin yanında şagird olmuşdur. Aşıq Vəlinin, Aşıq Məhəmmədin, Aşıq İbrahim Çovdaroğlunun yanında balaban çalmışdır. Otuz ilə yaxın Aşıq Oruc Əhmədovla birgə məclislər keçirmiş, balabançısı olmuşdur. Sənətini gənc nəslə öyrətməyin qayğısına qalmış, Balaməzrəli Ələddinə, Rəşidə və başqalarına balabanı öyrətmişdir. Azərbaycan aşıqlarının II və III qurultaylarının iştirakçısı olmuşdur.

MUSTAFAYEV İMAMVERDİ MƏHƏMMƏD OĞLU (1952, Gədəbəy rayonu, Leşkər kəndi) – Ustad aşıq və saz sairi. Gədəbəy rayonunda folklor evinin rəhbəridir (2015). Atası da aşıq olmuşdur. Oğlunu erkən yaşlarından saza həvəsləndirmiş və bir sənətkar kimi formalaşdırmağa çalışmışdır. Mədəni-

maarif texnikumunda oxumuşdur. Texnikumu bitirdikdən sonra da bu sənəti öyrənməyə çalışmış, məclislərə getmiş, sənətkar kimi formalaşmışdır. Rayon və respublika səviyyəli tədbirlərdə çıxışlar etmişdir. Gədəbəy xalq aşıqlar kollektivinin fəal üzvlərindən biri olmuşdur (1980-2015). Aşıq Alının 180 illik yubileyində (1982) təmsil olunmuşdur. Festivallarda dəfələrlə mükafatlandırılmışdır. Aşıqların IV, V və VI qurultaylarının iştirakçısı olmuşdur. Əməkdar mədəniyyət işçisi (2009) fəxri adı almışdır. Şeirlərindən ibarət kitabı işıq üzü görmüşdür.

MUSTAFAYEV MƏHƏMMƏD MUSTAFA OĞLU (1910, Gədəbəy rayonu, Leşkər kəndi – 1978) – Gədəbəy aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. İbtidai təhsil almışdır. Çox gənc yaşlarından aşıqlığa həvəs göstərmişdir. Onun sənətkar kimi formalaşmasına Gədəbəy və Göyçə aşıqlarının güclü təsiri olmuşdur. Qədim aşıq havalarını, klassik dastanları mükəmməl bilən sənətkar kimi tanınmışdır. Aşıq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır.



Aşıqlıq ənənəsi ailə üzvləri tərəfindən davam etdirilir.

MUSTAFAYEVA PƏRVANƏ (PƏRVANƏ ZƏNGƏZURLU) HÜSÜ QIZI (1958, Qafan rayonu, Acıbac kəndi – Bakı) - "Aşıq Pəri" məclisinin

sədri, şairə, "Qızıl qələm" mükafatı laureatı. 1980-ci ildə M.Ə. Sabir adına Bakı Pedaqoji Texnikumunu (indiki Azərbaycan Dövlət Pedaqoji Kolleci) bitirib. 25 il Fatmayi kənd orta məktəbində müəllim işləmişdir. Yaradıcılığa gənc yaşlarından başlayıb. 2000-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 2008-ci ildən Aşıqlar Birliyinin, 2002-ci ildən "Aşıq Pəri" məclisinin, 2003-cü ildən "Məhsəti" məclisinin üzvüdür. 2013-cü ildən "Aşıq Pəri" Məclisinin rəhbəridir. "Qayıt gəl" (2000), "Dağlar yuxuma girir" (2002), "Zəngəzur həsrəti" (2003), “Tanrım, məni başdan yarat" (2005), "Lal haraylar" (2005), "Vətən qürbətdə qaldı" (2006), "Çoxala-çoxala azalan ömrüm" (2009), “Yarı yolda qoyma məni" (2013), “Gələmməsəm, dağlar, məndən incimə” ((2018) və s. kitabları çap olunmuşdur.

MÜCTƏHİDZADƏ MƏMMƏD AĞA MİRZƏ SƏDRAY OĞLU (təxminən 1875, Şuşa – 1956, Bakı) – təzkiräçi, şair. Qarabağ şairlərindən bəhs edən “Riyazül-aşiqin” adlı təzkirəsi vardır. Birinci hissəsi 1910-cu ildə İstambulda nəşr olunmuşdur. “Məclisiüns” ədəbi məclisinin üzvü olmuşdur. “Müştəri” təxəllüsü ilə şeirlər yazmışdır. Ü.Hacıbəyova həsr edilmiş poeması vardır. Əsərlərinin əlyazması AMEA-nın Əlyazmalar fondunda saxlanılır. M.Müctəhidzadə aşıq şeiri üslubunda yazan sənətkarların şeirlərinə öz təzkirəsində yer ayırmışdır. Məcmuədə Aşıq Valeh və Aşıq Qənbərlə bağlı nümunələr və avtobioqrafik məlumatlar da vardır.

MÜƏMMA – klassik Şərq ədəbiyyatında geniş yayılmış formalardandır. Müəmmanı "mənzum tapmaca" da adlandırırlar. Məlum olduğu kimi, müəmmalardan bir çoxu əbcəd hesabı əsasında yazılır. Belə ki, bəzən rəqəm söylənilir, onun müqabili olan hərf nəzərdə tutulur, bəzən də hərf söylənilir, onun müqabili olan rəqəm nəzərdə tutulur. Divan ədəbiyyatında İ.Nəsimi, M.Füzuli və Nəbatinin müəmmaları daha məşhurdur. Müəmmalarda şair fikrini müxtəlif sözlər, təşbehlər içərisində bir növ gizlədib ifadə edir. Müəmmalarda əsas fikri, mətləbi tapmaq üçün fikirləşmək lazımdır.

Aşıq yaradıcılığında, xüsusən də deyişmələrdə müəmmalardan geniş istifadə olunmuşdur. Xəstə Qasım, Aşıq Ələsgər, Növrəs İman və Molla Cumanın müəmmaları məşhurdur. Ustadlar müəmmalardan müxtəlif məqsədlərlə istifadə etmişlər.

MÜHLİS OĞLU PAŞA (Aşıq Paşa 1272-1333) – Ozanlıqdan sonra aşıq adı ilə tanıdığımız ilk sənətkarlardan biri Aşıq Paşadır. “Aşıq” adı ilə tanınsa da, aşıqlıq etməmiş, bu adı rəmzi-məcazi mənada daşımışdır. Türk dünyasının qüdrətli ozan şairi kimi Yaxın Şərqdə məşhur olmuşdur. Qul Mustafa şeirlərinin birində Aşıq Paşanın adını çəkir

və “Aşıq Paşa dirilməzmi” söyləyir. Aşıq Paşa Xorasanda Baba İlyasın nəslindəndir. Atası Mühlis Paşa Osman bəyin yanında yaşamışdır. Oğlunun adını da Paşa qoymuşdur. Aşıq Paşa Osman bəyin yanında ərəb-fars dillərində mükəmməl təhsil almışdır. Lakin türk xalq poeziyasına və aşıq sənətinə onda sonsuz həvəs olmuşdur. Aşıq şeiri üslubunda yazıb-yaratmışdır. Ömrünün çoxunu Yaxın Şərq ölkələrində, Qafqazda, Anadoluda, Azərbaycanda keçirmişdir. Səfər təəssüratları “Qəribnamə” dastanında əksini tapmışdır. Anadilli poeziyanın inkişafında Yunis Əmrə və başqaları ilə birlikdə Aşıq Paşanın da böyük rolu olmuşdur.

MÜXƏMMƏS – orta əsr Şərq ədəbiyyatında işlənən şeir formalarındandır. Ərəb dilindəki “xəms” (beşlik) kökündən yaranan bu şeir biçimi çeşidli mövzuları çevrələyir. Son bənddəki misraların birində müəllif özünün adını çəkir. Qafiyə quruluşu: ***aaaaa; bbbba; cccca*** və s. Həm yazılı ədəbiyyatda, həm də aşıq ədəbiyyatında sənətkarlar bundan bir forma kimi istifadə edirlər. Klassik ədəbiyyatda M.Füzuli, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir və başqaları onun yüksək səviyyəli nümunələrini yaratmışlar. Aşıq ədəbiyyatında ustad sənətkarlar bu formadan istifadə etməklə yüksək sənət nümunələri yaratmışlar. Bu, XVIII əsrdən başlayaraq ustad aşıqların – Aşıq Valeh, Ağ Aşıq, Aşıq Alı, Varxiyanlı Aşıq Məhəmməd, Aşıq Ələsgər, Molla Cuma, Bozalqanlı Hüseyn, Şair Vəli, Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir, Mikayıl Azaflı və başqalarının yaradıcılığında tez-tez rast gəlinir. Sənətkarlar müxəmməsdən bir forma kimi istifadə etmişlər. Müxəmməsdə hər bənd beş misra, hər misra on altı hecadan ibarət olur. Müxəmməs 3, 5, 7, 9, 11 və s. bənddən ibarət olur. Misralarda heca bölgüsü 4 + 4 + 5 + 3 = 16; 3 + 5 + 5 + 3 = 16 və yaxud da 4 + 4 + 3 + 5 = 16 şəklində nizamlanır. Aşıq ifaçılığında bu misraları birnəfəsə oxumağın çətinliyi olur. Ona görə də ustadlar onu formal bölgüyə, yəni misraları ikiyə bölməklə ifa edirlər. Məsələn, 4 + 4 = 8; 5 + 3 = 8 və ya əksinə, 3 + 5 = 8; 5 + 3 = 8 tərzində oxuyurlar. Məsələn, Aşıq Ələsgərin “Mələk” rədifli müxəmməsindən bunu aydın görmək olur:

Mən səni bənzətmişəm
Huriyə, qılmana, Mələk!
Gözlərin canlar alır,
Qəmzən çəkir qana, Mələk!
Qaşın qüdrətdən çəkilib,
Oxşayır kamana, Mələk!
Xalının bir dənəsin
Vermərəm cahana, Mələk!
Üzün görüb ayrı düşən
Qalar yana-yana, Mələk!

Belə bölgü şeirin oxunuşunu, ifaçılığı axıcı edir, oynaq bir ritm yaradır. Müxəmməslərin müxtəlif növləri vardır. Ustadlar öz yaradıcılığında onlardan istifadə etmiş və klassik nümunələrini yaratmışlar. Məsələn, aşıqların müraciət etdikləri qoşayarpaq müxəmməs çarpaz qafiyəli olmaqla, saz melodiyasına oxunuşda və ifaçılıq məqamında təsirlilik hadisəsinə çevrilir. Birinci bənddə bütün misralar rədifdən əvvəl gələn sözlər hesabına qafiyələnir. Sonrakı bəndlərdə beşinci misra birinci bəndin rədifdən əvvəlki sözü ilə həmqafiyə olur. Digər aşıq şeirlərindəki kimi müxəmməsdə də

cığa dördüncü misra ilə beşinci misranın arasına təsnif və yaxud da bayatı şəklində əlavə edilir. Aşıq sənətində "Müxəmməs" saz havası da vardır. "Müxəmməs" saz havası ilə müxəmməs şeir forması özlüyündə bir eyniyyəti ifadə edir. Klassik ədəbiyyatın müxəmməs formasından əlavə, aşıq sənətində bu forma saz havasının ruhuna köklənmiş olur.

MÜQƏDDİMƏ – struktur hadisəsi kimi klassik ədəbiyyatda, eləcə də xalq ədəbiyyatının böyükhəcmli nümunələrində nəzərə çarpır. Hətta elmi əsərlərdə də müqəddimə formal struktur kimi özünə geniş yer qazanmaqdadır. Klassik ədəbiyyatda əsərin əsas hadisəsinə keçincəyə qədər olan hissəsini də müqəddimə kimi təqdim edirlər. Aşıq yaradıcılığında isə müqəddimə dastanlarla bağlanır. "Kitabi-Dədə Qorqud" dastanının həm Drezden, həm də Vatikan nüsxəsində müqəddimə bir struktur hadisəsi kimi görünür. Müqəddimə adından da göründüyü kimi, "başlanğıc, giriş sözü" anlamına gəlir. Dastanlardakı ustadnamələr mahiyyəti etibarilə müqəddiməyə yüklənir. Məhəbbət dastanlarında əvvəldə verilən üç ustadnamə bir forma kimi sabitləşmişdir. Ustadlar həmin ustadnaməni təsadüfi deyil, əksinə məqsədli olaraq seçmişlər. Çünki oradakı öyüd-nəsihət, misraların fikir yükü birbaşa və ya dolayısı ilə mətndəki məzmunu ifadə edir. Onu çatdırma məqsədi daşıyır. "Kitabi-Dədə Qorqud" dastanındakı müqədimə ədəbi düşüncə üçün mükəmməllik hadisəsidir. Orada verilən hər bir cümlə, abzas bütünlükdə dastanı, dastanın mahiyyətini ifadə edir. Dastan haqqında bütöv təsəvvür yaradır. Aşıq yaradıcılığı ilə bağlı araşdırmalara yazılan müqəddimələr də məhz bu məqsədə xidmət edir. Giriş sözü, ön söz kimi ümumi məlumat vermək səciyyəsi daşıyır.

MÜNŞİ İSGƏNDƏR (İSGƏNDƏR BƏY TÜRKMAN MƏHƏMMƏD YUSİF MÜVƏRRİX) (1560/61-1634) – Səfəvi tarixçisi, şair, xəttat. Gəncliyində Məhəmməd Xudavəndinin (1578-1587) divan katibi, sonralar I Şah Abbasın (1587-1629) böyük katiblərindən biri və saray tarixçisi olmuşdur. I Şah Abbasın sarayında maliyyə işlərinə də baxırdı. İ.Münşi vəzifəsi ilə əlaqədar I Şah Abbasın səfərlərində, hərbi yürüşlərində iştirak etmişdir. Təxminən 1630-cu ildə "Tarixi-aləm arayi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") kitabını yazmışdır. Kitabda Azərbaycanın tarixinə (qızılbaş tayfaları, Şah İsmayıl Xətayi tərəfindən Gülüstan qalasının mühasirəsi (1500), səfəvilərin hakimiyyətə gəlmələri, cəlalilər hərəkatı, Şirvan, Təbriz, Qəzvin, Talış, Urmiya üsyanları, I şah Abbasın hərbi islahatları, Səfəvi-Osmanlı müharibələri, Krım tatarlarının Azərbaycana yürüşləri, İrəvan, Culfa, Naxçıvandan əhalinin köçürülməsi və s. məsələlər vardır. Mədəni məsələlər də kitabda yer almışdır. M.F.Axundov "Aldanmış kəvakib" əsərini İ.Münşinin əsərinin motivləri əsasında yazmışdır. Tarixi hadisələr əsərdə hakim sülalə mövqeyindən şərh edilmişdir. Aşıq yaradıcılığının öyrənilməsində, Səfəvilər dövrünə məxsus mənəvi mədəniyyətin araşdırılmasında bu salnamə dəyərli bir mənbədir.

MÜNTƏZƏM TEMPERASİYALI QURULUŞ – musiqi səs düzümünün pilləri arasında interval münasibətlərinin bərabərləşdirilməsi. Oktavanın bərabər yarımtonlara bölünməsi nəticəsində yaranmışdır. Əvvəllər mövcud olan qeyri-bərabər temperasiyalı musiqi sisteminin köklü reforması nəticəsində XVIII əsrin sonlarından etibarən bərqərar olmuşdur. Musiqiçilər tərəfindən universal quruluş kimi qəbul olunmuş və Avropa professional musiqisində aparıcı yer tutmuşdur. Azərbaycan professional musiqisi də müntəzəm temperasiyalı quruluşa əsaslanır. Aşıq havaları və digər musiqi nümunələri də bu quruluş əsasında nota salınmışdır. Müntəzəm temperasiyalı quruluş yarımtondan kiçik olan bütün səs hissəciklərinin itməsinə səbəb olmuşdur. Azərbaycan musiqisi bütün Şərq musiqisinə xas olan komma, limma kimi, kiçik intervallarla zəngindir. Son dövrlər Azərbaycanda "milli musiqiyə mikrointervalların qaytarılması", "tar (və digər alətlərin) alətinin yeni (və ya itirilmiş) pərdələrlə zənginləşməsi" kimi məsələlər qaldırılır, uyğun olaraq, onların not üzərində dəqiq qeyd edilməsi üçün mikroalterasiya işarələri üzrə axtarışlar aparılır. ***Bax: Komma.***

MÜRƏBBE – orta əsr Şərq ədəbiyyatında işlənən şeir şəkillərindən biri. 5, 7 və s. bənddən ibarət olur. Hər bənd dörd misradır. "Mürəbbe" ərəb mənşəli sözdür, anlamı "dördlük"dür. Klassik ədəbiyyatın görkəmli nümayəndələri M.Füzuli, S.Təbrizi, Q.Təbrizi, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, S.Ə.Şirvani və başqaları öz yaradıcılıqlarında bu formadan bəhrələnmişlər. Son bənddə müəllif öz imzasını qeyd edir. Bəndlərin axırıncı misrası nəqərat xarakterlidir. Mövzu dairəsi kifayət qədər zəngindir. Qafiyə quruluşu: ***aaaa, bbba, ccca*** və s. şəklində olur. Aşıq yaradıcılığında bu formadan ustad sənətkarlar yeri gəldikcə bəhrələnmişlər. XVIII əsrin ustad sənətkarı Aşıq Valeh mürəbbeyə müraciət etmişdir.

MÜRSƏLOV MÜRSƏL MƏCİD OĞLU (1922, Şamaxı rayonu, Qəşəd kəndi – 1983, Ağsu rayonu) – folklorşünas, filologiya elmləri namizədi (1973). Anadan olduğu kənddə orta məktəbi bitirmişdir. Şamaxı pedaqoji texnikumunda oxumuşdur. İki il müəllim işləmiş və 1942-ci ildə II Dünya müharibəsinə yola düşmüşdür. Müharibədə ağır yaralanıb ayaqlarını itirmiş, şücaətinə görə "Qırmızı ulduz", "Qırmızı bayraq" ordenləri ilə təltif olunmuşdur. ADPU-nu bitirmişdir. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda xalq ədəbiyyatı şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır. "Şirvanlı Aşıq Bilalın həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1973). II Dünya müharibəsində həlak olan həmyerlilərinin xatirəsinə Qəşəd kəndində öz hesabına abidə ucaltdırmışdır. Şeyx Dursun qəbiristanlığında dəfn olunmuşdur.

"MÜSEYİBİ" – aşıq Müseyib Nəsibovun ifa etdiyi "Göyçəgülü" havasının fərdi ifa variantıdır. ***Bax: "Göyçəgülü"***.

MÜSƏDDƏS – divan ədəbiyyatında işlənən şeir şəkillərindən biri. Aşıq ədəbiyyatına divan şeirindən adlamışdır. Klassik ədəbiyyatın görkəmli nümayəndələri Həbibi, M.Füzuli, S.Təbrizi, M.V.Vidadi, Q.Zakir, S.Ə.Şirvani və başqaları öz yaradıcılıqlarında bu formadan istifadə etmişlər. Müsəddəs – "altılıq" deməkdir. Yəni müsəddəsdə hər bənd altı misradan ibarət olur. Son bənddə misraların birində müəllifin təxəllüsü verilir. Müxtəlif mövzularda olur. Daha çox gözəllik və məhəbbət səciyyəsi daşıyır. Aşıq Valeh, Molla Cuma və s. ustadlar müsəddəsdən bir forma kimi bəhrələnmiş, onun gözəl nümunələrini yaratmışlar. XVIII əsrin sonu, XIX əsrin əvvəllərindən müsəddəs bir forma kimi aşıq yaradıcılığında istifadə olunmağa başlayır. Misraların heca sayı, adətən, divanidə olduğu kimi, 15 olur. Aşıq ədəbiyyatında müsəddəslərin bənd sayı 3, 5, 7, 9, 11 və daha çox ola bilir. Ustad və peşəkar aşıqlar oxuyarkən misraları formal olaraq iki yerə bölürlər. Qafiyə quruluşu: ***aaaaaa; bbbbba; ccccca*** və s. şəklində olur. Müsəddəs başqa şeir forması kimi cığalı və cığasız olur.

Bəxtəvərsən, ey könül,
nə eyləmiş dövran sənə,
Dərdin artmış dəryadan,
etməz əlac loğman sənə.
Yanğılısan ol qədər,
kar eləməz ümman sənə,
Ah çəkib ağlagilən,
gəlibdir bir mehman sənə.
Şirindən olsun əmin,
vacibdir yüz qurban sənə,
Bixəbərsən, ey könül,
nə eyləmiş dövran sənə?!
Molla Cuma

MÜTRÜB (MÜTRİB) – Müxtəlif mənalarda işlənmişdir. Çalıb-oynayan, xanəndə, şövq verən, şənləndirən, fərəh gətirən anlamlarını verir. Xalq arasında müəyyən vaxtlarda, XIX əsrdə və XX əsrin əvvəllərində çox işlək olsa da, son dövrlərdə az işlənir və bəzən ironik çalarlar da kəsb edir.

N

NABIRLI BADAM (təxminən XIX əsrin 80-ci illəri, Şamaxı qəzası, Nabır kəndi – 1964, Şamaxı rayonu, Şorsulu kəndi) – Erkən yaşlarından hazırcavablığı ilə maraq doğurmuşdur. Savadsız olmuşdur. Aşıq şeiri üslubunda qoşma, gəraylı və s. yaratmışdır. Nabırlı Badam kimi Şirvan bölgəsində tanınmışdır. Ucaboylu, buğdayı bir qadın olmuşdur. Yaxşı əl qabiliyyəti ilə də maraq doğurmuşdur. Şorsulu kəndindən Əhməd adlı bir nəfərlə ailə qurmuşdur. Nabırlı Badam Aşıq Canəli, Aşıq Şakir, Aşıq Hümmət, Qubalı Aşıq İsgəndər, Aşıq Məhəmməd, Aşıq Bilal və başqaları ilə deyişmişdir. Nabırlı Badamın şeirləri məzmun və forma mükəmməlliyi, dövrün hadisələrini ifadə etmək baxımından da mühüm əhəmiyyət daşıyır. Ayrı-ayrı toplularda şeirlərindən nümunələr verilmişdir. Ə.Cəfərzadə, S.Qəniyev, Q.Namazov və başqaları Nabırlı Badam haqqında fikir söyləmişlər.

NAĞARA – Silindr formasında olub, iki üzünə dəri çəkilir. Üç növü

vardır: böyük nağara, cürə nağara, qoltuq nağara. "Nəqarə" ərəb mənşəli sözdür, anlamı "əllə vurulan" deməkdir. Əllə və barmaqlarla ifa olunur. Böyük nağara isə iki ağac toxmağı vasitəsilə hər iki üzə zərbə vurmaqla çalınır. Əsasən, zurnaçılar dəstəsində istifadə olunur. Yaxın keçmişdə aşıqlar, toy məclislərində, bayram və şənliklərdə, böyük nağaranın daxil olduğu zurnaçılar dəstəsi ilə birlikdə iştirak etmişlər. "Cəngi", "Yallı" və b. rəqsləri ifa etmək üçün nağaradan istifadə olunmuşdur. Şirvan aşıq mühitində aşıq havaları nağara, qoşanağara və dəfin daxil olduğu ansamblın müşayiəti ilə ifa olunur. Böyük şair S.Ə.Şirvani (habelə, çar Rusiyasının dövlət müşaviri Volınskininin şotlandlı həkimi Bel) Şamaxı yaxınlığında, dağ yüksəkliyində yerləşən, çalğısı ilə xalqa xəbərlər yayan "Nağaraxana"ların olması barədə yazmışdır. Türk arealının bəzi bölgələrində buna "davul" və ya "dəf" də deyirlər. Nağara aləti öz tarixi etibarilə ən qədim musiqi alətlərindən biridir. Bunun Azərbaycanda ilk insan düşərgələrindən biri olan Qobustandakı Qavaldaş da sübut edir. Ehtimal etmək olar ki, insanlar zərb alətlərindən rəqs edərkən, yaşayış məskənlərində səs siqnalı kimi, ova çıxmazdan öncə fiziki və psixoloji – ruhi cəhətdən özlərini səfərbər etmək, ov zamanı isə heyvanları hürküdərək müəyyən istiqamətlərə yönəltmək üçün istifadə etmişlər.

NAĞIL – folklorun epik növünə daxil olan janrlardandır. Rəvayət, qaravəlli, lətifə, bəzən bir sıra məhəbbət dastanları, əfsanə və əsatir də çox zaman nağıl qrupuna daxil edilmişdir. Doğrudur, bu janrların oxşar, yaxın əla-

mətləri çoxdur. Ancaq bunları heç bir zaman eyniləşdirmək və qarışdırmaq olmaz. Epik janrlar içərisində nağıllar öz əlamətlərinə görə seçilir. Nağıl bütün dünya xalqları içərisində geniş yayılmış epik janrdır. Azərbaycan aşıqları XX əsrin əvvəllərinə qədər məhəbbət dastanlarına da "nağıl" demişlər. Dastanların sadəcə olaraq nəql olunmasına indinin özündə də ustad aşıqlar "qara nağıl" adı verirlər.

Nağılların xüsusiyyətləri haqqında bir çox folklorşünaslar fikir söyləmişlər. V.Q.Belinski sehr, cadu, əfsun, tilsim, div, əjdaha, fantastika və s. nağılların, əsas əlamətlərindən saymışdır. Y.V.Çəmənzəminliyə görə, nağıllarda əsas cəhət haqqın nahaq üzərində qələbəsindən ibarətdir. F.Köçərli göstərmişdir ki, bütün nağılların sonunda nağılçı gülümsəyərək üzünü dinləyicilərə tutub deyir: «Onlar yedilər, içdilər, yerə keçdilər, siz də yeyin, için, dövrə keçin» və s. Əşya və təbiət hadisələrinin canlandırılması, insanlara məxsus xasiyyət və keyfiyyətlərin əşya və heyvanlar üzərinə köçürülməsi, cəmiyyətdə, təbiətdə çox adi görü-nən hadisələrin fantastik şəklə salınması, fövqəladə hadisələrlə qaynayıb-qarışdırılması, gələcəyə nikbin münasibət, inam, xoş əhvali-ruhiyyə, geniş epik lövhələrin, macəra və mürəkkəb hadisələrin bolluğu və s. nağıllara xas olan xüsusiyyətlərdir. Bütün bunlara görə də nağıl çox qədim dövrlərdən başlayaraq dünyanın ən böyük sənətkarlarının diqqətini özünə cəlb etmişdir. Bu sənətkarlar bir sıra gözəl və məşhur əsərlərinin mövzusunu xalq nağıllarından götürmüşlər.

Azərbaycan nağıllarında xalqın milli xüsusiyyətləri, adət-ənənələri, məişət tərzi təsvir olunur. Bu nağıllar müxtəlif dövrlərdə xalqın dünyagörüşünü, həyata münasibətini, gələcək haqqında arzularını, azadlıq, müstəqillik uğrunda xarici işğalçılara, yerli zalımlara qarşı mübarizəsini, onun öz qüvvəsinə, gələcəyə inamını bədii boyalarla əks etdirir.

Nağıllar bədii cəhətdən kamil əsərlərdir. Geniş xalq kütlələri əsrlər boyu bu nümunələri zamanın ən sərt sınaqlarından çıxarmış, onları yalnız ideya və məzmunca deyil, forma, dil və bədii ifadə vasitələrinin zənginliyi cəhətdən də yüksək səviyyəyə qaldırmışlar. Azərbaycanda nağılları düzəldən, yaddaşında qoruyub saxlayan və çox cazibəli bir dildə danışan xüsusi sənətkarlar olmuşdur ki, onlara naqqal deyilmişdir. Qədim azərbaycanlılar uzun gecələri nağıllarla keçirmişdir. Azərbaycan nağıllarının özünəməxsus forma xüsusiyyətləri vardır. Xalq sənətkarlarının əsrlər boyu seçib, cilalayıb kamilləşdirdiyi bu forma xüsusiyyətləri nağılların bədii-emosional təsirini artırmaq, yaddaşlarda daha asan həkk olunmasını təmin etmək məqsədini daşımışdır. Nağıllarda əsrlər boyu sabitləşən, kamilləşən ənənəvi forma komponentləri vardır. Nağıllar, bir qayda olaraq, müqəddimə ilə başlayır, buna pişrov deyirlər. Xalq sənətkarları bacardıqca müqəddiməni maraqlı qurur, çox təsirli sözlər, ifadə vasitələri, idiomlar seçirlər. Həm də müqəddimə, əsasən, nağılların ümumi məzmunu ilə bağlı olmur. Məsələn: «Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər, köhnə hamam içində, hamamçının tası yox, baltaçının baltası yox, orda bir tazı gördüm, onun da xaltası yox. Qarışqa şıllaq atdı, dəvənin budu batdı, milçək mindim Kür keçdim, yabaynan dovğa

içdim. Heç belə yalan görməmişdim. Nağıl-mağıl bilmərəm, bilsəm də söyləmərəm, xandan gələn nökərəm, dinmə, böyrün sökərəm» və s. Çox zaman sənətkarlar bu müqəddimənin həcmini bir-birilə əlaqəsi olmayan bu cür ifadələrlə daha da artırırlar.

Müqəddimədən sonra giriş, başlanğıc gəlir. «Biri var idi, biri yox idi», «Günlərin bir günündə, Məhəmməd nəsir tinində, göy imamın belində» və s. Bunlardan başqa, nağıllarda sonluq – final da verilir. Burada da çox maraqlı xalq kəlamları işlədilir. Məsələn, onlar yedilər, içdilər, yerə keçdilər, siz də yeyin, için, dövrə keçin. Göydən üç alma düşdü: biri mənim, biri qulaq asanların, biri də bacadan baxanların. Siz yüz yaşayın, mən iki əlli, hansı çoxdur, onu siz götürün, yerdə qalanı mənim. Onlar yeddi gün, yeddi gecə toy eləyib murad hasil elədilər, siz də muradınıza çatasız".

Nağıl danışanlar müxtəlif hadisə və əhvalatların təsvirində məşhur ənənəvi ifadələrdən, cümlə və kəlamlardan istifadə edirlər: «Çəkib çarığının dabanını, qırıb yerin damarını, günə bir mənzil teyyi-mənazil, nağıllarda mənzil olmaz: az getdi, üz getdi, dərə-təpə düz getdi, iynə yarım yol getdi, gəlib bir bağa yetişdi»; «Başdan geyindi, ayaqdan qıfıllandı, ayaqdan geyindi, başdan qıfıllandı»; «Orada ayla, illə, burada müxtəsər dillə»; «Dərələrdən sel kimi, təpələrdən yel kimi, badi-sərsər kimi»; «Acı biyabanlıq, yaşıl xiyabanlıq»; «Dağların dabanıynan, yolların kənarıynan, ayaq üzəngidə, diz qabırğada, gethaget, gedib çıxdı bir qalaçaya» və s. Bu kimi ifadələrlə yanaşı, xalq sənətkarları na-ğıllarda bağlama, bayatı və digər şeir parçalarından da istifadə etmişlər. Nağıl motivlərindən ustad sənətkarlar da bu və ya digər dərəcədə bəhrələnmişlər. "Tahir və Zöhrə", "Şahzadə Mütalib", "Seyfəlmülük","Alıxan və Pəri" dastanları nağıl motivləri əsasında yaranmışdır.

NAĞIYEV İSMAYIL (İSMAYIL MAHİR) BAHAN OĞLU (1925, Göyçə mahalı, İnəkdağı kəndi – 1995, Gəncə) – Göyçə mühitinin yetişdirdiyi sənətkarlardandır. El arasında sinədəftər aşıq, el şairi, mahir sazbənd kimi tanınmışdır. Uşaq ikən ata-anasını itirmişdir. Gəncədə yaşayan bacısı Zibərin himayəsində böyümüşdür. On yeddi yaşında yenidən Göyçəyə qayıtmışdır. Aşıq Talıbdan və Aşıq Nəcəfdən dərs almışdır. Ustadları onu yüksək qiymətləndirmiş və "Mahir" təxəllüsünü vermişlər. İsmayıl Mahir yaradıcı sənətkar olmuşdur. Aşıq şeirinin poetik biçimlərində dəyərli örnəklər düzüb qoşmuşdur. "İsmayıl və Qəmzə" dastanını da o yaratmışdır. Gəncədə və ətraf bölgələrdə istedadlı sazbənd kimi tanınmışdır.

NAĞIYEV NƏBİ ƏZİZ OĞLU (1979, Gədəbəy rayonu, Mormor kəndi)

– Bölgənin ustad aşıqlarından sənət dərsi almışdır. Saza-sözə olan həvəs onun bir sənətkar kimi yetişməsində əsaslı rol oynamışdır. Aşıq İsfəndiyar Rüsəmovun və Aşıq Mahmud Məmmədovun xeyir-duası ilə aşıqlığa başlamışdır. Zil, şaqraq və zəngüləli səsə malikdir. Çağdaş Koroğluxan aşıqlardan

sayılır. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (2000). Müxtəlif tədbirlərdə sənəti layiqincə təmsil edir. Bölgənin sənət ənənsini uğurla davam etdirir. Aşıqlar Birliyinin üzvüdür (2016). Aşıqların VI Qurultayının nümayəndəsi olmuşdur (2018).

NAXÇIVAN AŞIQ MÜHİTİ – İrəvan, Dərələyəz, Göyçə və Urmiya aşıq mühitləri ilə yaxından sənət əlaqələri saxlayaraq Azərbaycan aşıq sənətinin tarixi mənzərəsində müəyyən yer almışdır. Naxçıvan mahalında tarixi şəhər həyatının mövcudluğu (Ordubad və Naxçıvan şəhərləri) burada orta çağlardan aşıqlığının fəaliyyət göstərməsinə imkan açmışdır. Mahalın çağdaş toponimikasında yer alan sufi-dərviş səciyyəli kənd adları (Ordubad və Culfa rayonlarında "Xanağa" adlı kəndlər var. "Xanağa" – "xanəgah" sözünün müəyyən dəyişikliyə uğramış şəklidir. "Xanəgah" isə sufi-dərvişlərin ibadət yerinə deyilmişdir.) Naxçıvanda təriqət ənənəsinin tarixən mühüm yer tutduğunu göstərir. Sufiliklə yaxından səsləşən hürufiliyin banisi Fəzlullah Nəiminin qəbrinin Əlincə qalası ətrafında olması da regionda təriqət ənənəsinin tarixi nüfuzunu əks etdirir. Bütün bunlar Naxçıvanda tarixən təkkə kökənli aşıqlığın təşəkkül tapmasına və perspektiv mühitin formalaşmasına güclü təkan vermişdir.

İfaçılıq prinsipləri baxımından qonşu mühitlərdən o qədər də seçilməyən Naxçıvan mühiti ötən yüzilliklər ərzində söz yaradıcılığı və saz bəstəçiliyi sahəsində özünəməxsus uğurlar qazanaraq aşıq sənətinin repertuar zənginliyinə qiymətli örnəklər əlavə etmişdir. "Naxçıvanı", "Naxçıvan gülü", "Naxçıvan gözəlləməsi", "Ordubadi", "Köhnə Naxçıvan", "Ağır şərili", "Yüngül şərili" və s. bu kimi orijinal saz havaları, "Ordubadlı Kərim" (bəzi variantlarda "Kərim və Süsən"), "Ziyad-Şövkət" dastanları, habelə regionun tarixi güzəranını əks etdirən çoxsaylı aşıq rəvayətləri və aşıq şeir nümunələri Naxçıvanda saz-söz ovqatının uzun bir zaman ərzində sənət mühiti şəklində yaşadığını göstərir. Maraqlıdır ki, görkəmli folklorçu Hümmət Əlizadə "Koroğlu" dastanının ən məşhur qollarından birini – "Koroğlunun Ballıca səfəri"ni 1930-cu ildə Ordubadda Aşıq Muxtardan yazıya almışdır.

Əsasən, Şərur, Şahbuz, Sədərək və Ordubadın kəndlərində çalıb-çağıran Naxçıvan aşıqlarının ifaçılıq məharətinin sorağı mahaldan kənara da yayılmış, onları İran, xüsusən Urmiya, Təbriz ətrafına və Türkiyə-İqdır, Ərzurum toylarına dəvət etmişlər. XX yüzilliyin əvvəllərinə qədər Naxçıvan aşıqları Naxçıvanın özündən daha çox İran və Türkiyə ərazisinin toy-düyünlərini aparmışlar. Onlar getdikləri yerlərə öz mühitlərinin sənət havasını apardıqları kimi həmin mühitlərin çalğı və oxu tərzindəki incə çalarları da mənimsəyərək Naxçıvana gətirmişlər.

Naxçıvan aşıq mühitinə mənsub olan ən qüvvətli saz-söz sənətkarı XVIII yüzillikdə yaşayıb-yaratmış Aşıq Süleymandır. O öz sənətkarlıq qüdrəti ilə Naxçıvandan çox-çox uzaqlarda da ad çıxarmışdır. Aşıq Süleyman müasiri olan Abdalgülablı Valehin sənətkarlıq məharətinin sorağını eşitdikdən sonra Qarabağa yola düşmüş və orada onu sənət imtahanına çəkmişdir. Hər iki ustad bu ağır sınaqlı qarşılaşmadan üzüağ çıxmış və ömürlük dost olmuşlar. Aşıq Süley-

manla Abdalgülablı Valehin bir-birini sənət sınağına çəkməsi ağır yüklü bir saz-söz hekayətinə çevrilərək uzun zaman aşıqların repertuarında yaşamışdır. Bir sıra başqa dastanlarda və dastan-rəvayətlərdə də Naxçıvan aşıqları ilə deyişmə ən ağır sənət imtahanları kimi təsvir olunur. Məsələn, məşhur "Reyhan xanım" dastanında XIX yüzilliyin ustad sənətkarı Aşıq Hüseyn Şəmkirli Naxçıvana Reyhan xanımla deyişməyə gedir.

Naxçıvan aşıq mühiti Aşıq Süleymandan başqa, Xanxanım oğlu Əli, Çobankərəli Aşıq Cəfər, Aşıq Məmmədcəfər, Aşıq Abbas Dəhri, Aşıq Muxtar, Gülalı Məmməd, Aşıq Fətulla, Aşıq Əzim, Aşıq Sultan, Aşıq Dədəkişi, Aşıq Aslan, Aşıq Abbas, Aşıq Həsən, Aşıq Yusif Sədərəkli kimi ustad aşıqlar yetirmişdir. Azərbaycan qadın aşıqlarının ən görkəmli nümayəndələrindən biri sayılan Aşıq Nabat Cavadova da bu sənət mühitində püxtələşib kamilləşdikdən sonra öz məlahətli səsi və gözəl ifaçılığı ilə dörd bir yana səs salmışdır.

XIX yüzillikdə Azərbaycan aşıq sənətinin azman ustadları Aşıq Alının, Aşıq Ələsgərin və Aşıq Hüseyn Şəmkirlinin Naxçıvana çoxsaylı səfərlər etmələri, oranın toy-düyünlərində çalıb-çağırmaları, yerli sənətkarlarla birgə sənət məclisləri qurmaları həmin dövrdə bu mühitin saza-sözə, aşığa həssaslığını əks etdirir.

Mühitdə sənət qaynarlığını səciyyələndirən tarixi əlamətlər sırasında 1935-ci ildə Naxçıvan Aşıqlar İttifaqı adlı rəsmi təşkilatın yaradılmasını da qeyd etmək lazımdır. Naxçıvan Aşıqlar İttifaqının həmin il keçirilən təsis konfransına regional mühiti təmsil eləyən əllidən yuxarı el sənətkarının nümayəndə göndərilməsi faktı da sənətin tarixi mənzərəsi barədə az söz demir.

Azərbaycan Aşıqlar Birliyinin əldə etdiyi son bilgiyə (2018-ci il) görə, Naxçıvanda fəaliyyət göstərən yerli və gəlmə (1988-ci ildə Dərələyəzdən gələn) aşıqların birgə sayı iyirmiyə yaxındır. Əsasən, Şərur, Şahbuz, Babək və Sədərək rayonlarının kəndlərində güzəran keçirən bu aşıqların böyük əksəriyyəti sənəti yeni nəsillərə ötürməyə xüsusi diqqət yetirir.

"NAXÇIVAN GÖZƏLLƏMƏSİ" – aşıq havası. "Gözəlləmə" havalar silsiləsinə aiddir. Naxçıvan aşıq mühitində yaranmışdır. ***Bax: Gözəlləmə***.

"NAXÇIVANGÜLÜ" – aşıq havası. Naxçıvan aşıq mühitində yaranmışdır. Baş pərdə kökündə ifa olunur. Oynaq, şən, xoş ovqatlıdır. İnstrumental giriş hissəsində harmonik akkordun hər üç pilləsi qeyd olunaraq havanın başlıca kökünü təsdiq edir. Melodiya aşağı enən sekvensiyalı, pilləvarı hərəkəti, yuxarı registrdən (zil) başlanğıc götürməsi və ekspressiv səslənməsi ilə fərqlənir. İmpuls-səs – kök pərdənin zilidir. Melodiyanın istiqaməti əsas dayaq tonu olan baş pərdəyə doğrudur. İ.İmamverdiyev tərəfindən instrumental şəkildə nota salınmışdır.

"NAXÇIVANİ" – aşıq havası. "Qədim Naxçivani" və ya "Köhnə Naxçivani" adları altında da tanınır. Naxçıvan aşıq mühitində yaranmışıdır. "Naxçıvani" havalar silsiləsinə aiddir. 1. Orta pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını qoşma xalq şeiri təşkil edir.

Nümunə professor T.Məmmədova məxsus not yazısının foto surətidir

Variantlı-kuplet formasındadır. Nisbətən yığcam girişə malikdir və ikiləşmiş orta pərdədən başlanğıc götürür. Vokal melodiyanın əsasında orta pərdə kökünə xas olan trixord intonasiyası dayanır: ayaq pərdə-şah pərdə- orta pərdə. Məqam-səs sistemi Rasta uyğundur, oxşar kadensiyalarla zəngindir. Pentatonika səs düzümünə xas olan tersiya intonasiyası ilə başlayır. Qoşmanın misraları kiçik instrumental çalğı ilə bir-birindən ayrılır və cüt oxunur. II və IV misralar yardımçı ifadələr və təkrarlar vasitəsilə genişlənir. İnstrumental intermediyalar irihəcmli, inkişaflı deyil və açıq pərdə zilindən təkan götürən və diapazonu genişləndirən aşağı istiqamətli yeni melodiyanın səslənməsi ilə, səciyyəvi alt aparıcı və alt kvarta vasitəsilə əsas dayaq tonuna (orta pərdə) keçidlərlə yadda qalır. Havanın sonunda şeir bəndinin axırıncı iki misrasının təkrar olunması ilə yeni məqam düzümünə modulyasiya baş verir və baş pərdəyə keçid etməklə Segaha boyanır. Etnomusiqişünas T.Məmmədov tərəfindən nota salınmışdır. 2. "Naxçıvani" havasının variantı. Baş pərdə kökündə ifa olunur. İnstrumental çalğıda kökə xas trixord hərəkəti özünü göstərir – baş pərdə-boş pərdə-kök pərdə. Oynaq, gümrah, xoş ovqatı ilə seçilir. Başlanğıc melodiya kvarta həcmlidir və şah pərdənin üst aparıcısı ilə başlayaraq əsas dayaq tonuna istiqamətlidir (baş pərdə). Melodiyanın inkişaf prosesində təkrarlar və təkrarlı variantlar, yeni qohum mövzuların səslənməsi müşahidə olunur. Havanın kulminasiya anı son bölmə üzərinə düşür və kök pərdənin zilinə qalxmaqla həyata keçir.

NAXÇIVANLI SÜLEYMAN (XVIII əsr, Naxçıvan) – Naxçıvan mühitinin yetişdirdiyi sənətkarlardan olmuşdur. XVIII əsrin ustad aşığı Aşıq Valehin müasiri olmuşdur. Aşıq Valehin şeirlərində onun adı çəkilir. Özünə-sözünə güvənən bir aşıq olduğu, dərin sənət biliyi ilə əsil ustad mövqeyində dayandığı açıq duyulur. Poetik istedad sahibi kimi diqqət çəkmişdir.

NAXIŞ – saz alətinin üzərinə vurulan bəzək. Əsasən, alətin cəlbedici və daha gözəl görünməsi üçündür. Sazın çanağının üzü və yan hissələrinə, qoluna və kəllədəki aşıqlara sədəf və şirmaidan istifadə olunaraq müəyyən naxışlar vurulur. Naxışlar çox vaxt həndəsi formada olur və müəyyən adlar daşıyır: "çilik", "aypara", "daraq", "dırnaq", "pitik", "paxlava". Bəzi fikirlərə görə, saza vurulan inkrustasiya alətin akustikasının keyfiyyətini yüksəldən üsullardan biridir.

NAMAZOV XALIQVERDİ MƏMMƏDALI OĞLU (1936, Tovuz rayonu, Bozalqanlı kəndi – 2003) – Yaradıcı ustad aşıq. Saz şairi, dastançı. Tovuz aşıq məktəbinin yetirməsidir. Aşıq sənətinə erkən yaşlarından maraq göstərmişdir. "Xalıqverdi Bozalqanlı" və "Şair Xalıqverdi" təxəllüsü ilə tanınmışdır. Aşıq Xalıqverdi də sənətin sirlərini ilk əvvəl həmyerlisi ustad aşıq



Dəmirçi Hüseyndən öyrənmişdir. Tovuzda və ətraf rayonlarda məclislər aparmış, bir sənətkar kimi tanınmağa başlamışdır. Respublika səviyyəli aşıq konsertlərində iştirak etmiş, bir sıra müsabiqələrdə çıxışları ilə maraq doğurmuşdur. Dastançı aşıq kimi tanınmışdır. Bakıda və Moskvada keçirilən xalq yaradıcılığı festivallarının (1967) iştirakçısı və diplomantı olmuşdur. Təcnis ustadı kimi tanınmışdır. İki şeir kitabı çap olunmuşdur.

Tovuz aşıqlar ansamblında uzun illər fəaliyyət göstərmişdir (1960-1974). Aşıqların IV qurultayının nümayəndəsi olmuşdur (1984).

NAMAZOV KƏRƏM BƏKİR OĞLU (1956, Qaraqoyunlu mahalı, Bəryabad kəndi – 2010, Sumqayıt) – Səkkizillik məktəbi bitirmişdir. Məktəb illərində gözləri zəifləyərək tutulmuşdur. Erkən yaşlarından saza maraq göstərmişdir. Bütün çətinliklərə baxmayaraq, Tovuza gəlib saz almış və sənəti dərindən öyrənə bilmişdir. Kəndlərində aşıq kimi tanınmış, Qazax, Tovuz, Şəmkir, Gəncə, Naxçıvan, Borçalı və digər regionlarda məclislər aparmışdır. Bədahətən söz demək qabiliyyəti olmuşdur. "Kərəm Bəkiroğlu" təxəllüsü ilə tanınmışdır. Keçən əsrin yetmişinci illərindən yaradıcı aşıq kimi şöhrətlənməyə başlamışdır. Məlahətli gur səsi marağa səbəb olmuşdur. Heç bir ustaddan dərs almamışdır. Ancaq onlarla birgə ağır məclislər aparmış, ifası ustadlar tərəfindən yüksək qiymətləndirilmişdir. Çoxsaylı şagirdlər yetişdirmişdir.

NAMAZOV QARA MUSTAFA OĞLU (1930, Göyçə mahalı, Əmirxeyir kəndi – 2016, Bakı) – folklorşünas.

Aşıqlar Birliyinin üzvü (1987), AYB-nin üzvü (1983), filologiya elmləri doktoru (1988), professor (1989), Əməkdar müəllim (2002). İlk təhsilini Əmirxeyir və Gölkənd kəndlərində almışdır. Orta məktəbi Qazax rayonunun Dağkəsəmən kəndində bitirmişdir. BDU-nun kitabxanaçılıq fakültəsini bitirmişdir (1956-1961). BDU-nun mərkəzi kitabxanasının şöbə müdiri, sonra AMEA-nın Tarix İnstitutu kitabxanasının və arxivinin direktoru işləmişdir (1957-1969). AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Şifahi ədəbiyyat şöbəsində qiyabi aspirant olmuşdur. "Azərbaycan aşıq şeirinin inkişaf tarixindən (1920-1950)" mövzusunda namizədlik, "Azərbaycan sovet uşaq və gənclər ədəbiyyatının inkişaf mərhələləri (1920-1985)" mövzusunda isə doktorluq dissertasiyası müdafiə etmişdir. BDU-da professor vəzifəsində çalışmış və filologiya fakültəsinin dekanı olmuşdur. Dədə Qorqud adına elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir (2000-2016). Qurbaninin, Sarı Aşığın, Xəstə Qasımın, Molla Cumanın əsərlərini tərtib etmiş, onlara ön söz yazmışdır. "Aşığın sazı və sözü" (1981), "Azərbaycan aşıq sənəti" (1984), "Aşıqlar" – I cild, (2003), "Aşıqlar" – II cild (2004) kitabları vardır.

NEMƏTOV HACIAĞA ƏLİ PAŞA OĞLU (1919, Bakı -1942) – bəstəkar. ADK-nın nəzdində fəaliyyət göstərən Elmi-tədqiqat musiqi kabinetinin əməkdaşı olaraq aşıq musiqi nümunələrinin

toplanılmasında iştirak etmişdir. Bir sıra aşıq havalarını, o cümlədən "Koroğlunun cəngi havası"nı 1939-cu ildə aşıq Məmməd Hacıyevin ifasından nota salmışdır.

NEY – musiqi aləti. Sufi terminologiyasında ney həqiqi vətəndən – Vücudi külldən ayrılıb məcazi vətənə – cəzv aləminə düşən və bunun üçün fəryad və nalə edən zərrədir. Təsəvvüfi düşüncəyə görə o öz aləmindən ayrıldığına görə qərib vətəndə hicran qəminin şikayətlərini söyləyir.

Alətin yaratdığı melo sistem nisgil, hüzn və xiffət ovqatı yaratmaq məqsədi daşıyır. Bu səbəbdən də ney sufi musiqi məclislərində, səmayi hava və mahnıların təqdimində daha geniş yer almışdır.



Neyi çalmaq üçün ona üfürülən nəfəs və hava vücuda, cismə üfürülən ilahi ruha bənzədilir.

Ney həm də hər cür nəfsani istəklərdən xilas olmuş qəlbə və Vücuda işarədir. Məhz klassiklərin, sufi sənətkarların əsərlərində neyin belə çox yer alması bu təsəvvürlərlə bağlıdır.

NƏBATİ MƏHƏMMƏD BƏHRAM OĞLU (1968, Qaradağ mahalı, Əhər şəhəri, Çay kəndi – 2015, Təbriz) – Cənubi Azərbaycan aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Çalğı və oxu üslubu sırf özünəməxsus

çalarları əks etdirirdi. Sənətkar ailəsində doğulmuşdur. Atası Bəhram Əhərdə və ətraf bölgələrdə ustad balabançı kimi tanınmışdır. Məhəmməd də erkən yaşlarından saza-sözə həvəs göstərmişdir. Ustad sənətkarların yaradıcılığını, dastanları mükəmməlliklə mənimsəmişdir. Repertuarında Təbriz-Qaradağ mühitinin dastanları, saz havaları üstünlük təşkil etmişdir. Muğam sənətinin və xalq mahnılarının incəliklərini də öz ifasında ustalıqla nümayiş etdirirdi. Aşıq musiqisinə dair zəngin elmi-nəzəri biliyi olmuşdur.

NƏBİYEV BEHBUD ƏLİ OĞLU (1897, Göyçə mahalı, Qoşabulaq kəndi – 1972) – 1905-1907-ci illərdə ermənilərin törətdiyi faciələr zamanı Göyçəni tərk etmiş, Azərbaycanın ayrı-ayrı rayonlarında yaşamaq məcburiyyətində qalmışdır. Sonra yenə Göyçəyə qayıtmışdır. Aşıq sənətinə erkən yaşlarından həvəs göstərmişdir. 14-15 yaşlarında İnəkdağda aşıq Qəhrəman Alırza oğlunun yanına gəlmiş və ona şagird durmuşdur. Behbud yazıb oxumağı bilməmişdir. Lakin güclü yaddaşı olmuşdur. "Əsli və Kərəm", "Aşıq Qərib", "Koroğlu", "Abbas-Gülgəz", "Şah İsmayıl", "Valeh-Zərnigar" dastanlarının müxtəlif variant-

larını mükəmməlliklə bilmişdir. Aşıq Hümbət, Aşıq Rəcəb onun şagirdləri olmuşlar. Şeirlər yazmışdır. Ustad sənətkar kimi tanınmışdır.

NƏBİYEV AZAD MÖVLUD OĞLU (1945, Quba rayonu, II Nügədi kəndi – Bakı, 2012) – Ziyalı ailəsində anadan olmuşdur. BDU-nun (keçmiş Azərbaycan Dövlət Universiteti) filologiya fakültəsinə daxil olmuş (1963) və jurnalistika fakültəsinə dəyişdirilmişdir (1964). Jurnalistika fakültəsini bitirmişdir (1967). Universitetin aspiranturasına daxil olmuşdur (1968). "Koroğlu dastanında Koroğlu obrazı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1972). "Qəhrəmanlıq səhifələri" (1975) adlı elmi əsəri çap olunmuşdur. "Azərbaycan-özbək folklor əlaqələri" (1978), "Azərbaycan folklorunun janrları" (1983), "Azərbaycan xalq ədəbiyyatı" (2002) tədqiqat əsərləri, dərslik və dərs vəsaitləri vardır. Toplayıcı kimi də fəaliyyət göstərmişdir. "Azərbaycan dastanları" (1977), "Novruz" (1989), "Novruz bayramı" (1990), "Alqışlar, adətlər, nəğmələr (1992) və s. toplama nəşrləri vardır. Filologiya elmləri doktoru (1981), professor (1982). BDU-da folklor kafedrasının müdiri olmuşdur (1989-2012). Əməkdar müəllim fəxri adına layiq görülmüşdür (2000). AMEA-nın müxbir üzvü (2001) seçilmişdir.

NƏBİYEV ƏHMƏD (ƏHMƏD SADAXLI) MUSTAFA OĞLU (1935, Borçalı mahalı, Sadaxlı kəndi – 2006)

– Borçalı aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Əhməd Sadaxlı adı ilə tanınmışdır. Aşıq sənətinə erkən yaşlarından maraq göstərmişdir. 1959-1960-cı illərdə Seyidqocalı Aşıq Orucun, Aşıq Mehdi Göyçəlinin, bir il isə Sadıq Sultanovun və onun qardaşı Aşıq Məmmədin şagirdi olmuşdur. Bu ustadlardan aşıqlığı, saz havalarını, ustadların yaradıcılığını mənimsəmiş və bir sənətkar kimi yetişmişdir. 1962-ci ildə isə Aşıq Hüseyn Saraclının yanında şagird olmuşdur. Aşıq Hüseyn Saraclı ilə Sadaxlı Əhməd uzun müddət (1962-1987) bir yerdə məclislər aparmış, birgə çalıb-oxumuşlar. Aşıq Əhməd Sadaxlı 20-dək dastan bilmişdir. Azərbaycan və Gürcüstan tele-radiolarının "qızıl fondu"nda çoxsaylı ifaları qorunur. Ümumittifaq xalq yaradıcılığı festivalının (1987) laureatı olmuşdur. Gürcüstan dövlətinin "Şərəf" medalı ilə təltif olunmuşdur (1999). Ustad aşıq kimi tanınmışdır.

Azərbaycan aşıqlarının IV qurultayında iştirak etmişdir (1984).

NƏBİYEV NİZAMİ (NİZAMİ SƏYYAD) MÜZƏFFƏR OĞLU (1958, Mingəçevir) – Aşıq Ziyəddin Yusifovdan dərs almışdır (1979-1982). Orta təhsillidir. 1983-cü ildən müstəqil aşıqlıq

eyləyir. 1988-ci ildə Mingəçevir şəhərində "Havacat" aşıqlar ansamblı yaratmışdır. Batumi şəhərində "Dünya folklor festivalı"nda ansamblı ilə birgə xüsusi mükafat almışdır (1988). Mingəçevir, Yevlax və Gəncədə keçirilən çeşidli aşıq müsabiqələrində qaliblər sırasında yer almışdır. "Divani" və "Təcnis" havalarının usta ifaçısıdır. Dastançı aşıqdır. Beş aşıq yetişdirmişdir. Yaradıcı aşıqdır. Bir kitabı nəşr olunmuşdur. "Nizami Səyyad" təxəllüsü ilə tanınır.

"NƏCƏF VƏ PƏRİZAD" – məhəbbət dastanlarındandır. Dastan ustadnamə ilə başlayır. Günlərin birində Şah Abbas məşhur tacir Abdulla bəzirganı yanına çağırıb tapşırıq verir ki, İsfahan malı aparıb İstambul malı gətirərsən. Abdulla İstambula yola düşür. Yolda köhnə qonağı Əhmədə rast gəlir. Söhbət vaxtı ailə vəziyyətini soruşur. Əhməd övladı olmadığını bildirir. Abdulla bəzirgan deyir, gəl Allaha dua edək. Övladımız olsa, onlar köbəkkəsdi olsun. Diləklərini diləyirlər, Əhməd İsfahana, Abdulla bəzirgan isə İstambula yollanır. Abdullanın oğlu, Əhmədin isə qızı olur. Abdulla oğlunun adını Nəcəf qoyur. Nəcəf molla yanında elmləri öyrənir və bəzirganlığı da yaxşı bilir. Bir gün Abdulla da oğlunu bəzirganlara qoşub İstambula yola salır. İstambul bazarına nə gəlsə, Əhməd bəzirganla razılaşdırılırdı. Nəcəf Əhməd bəzirgana Abdullanın oğlu olduğunu söylədi. Əhməd bəzirgan Nəcəfə olanları danışdı və dedi ki, Pərizadla kəbinini kəsdirəcəm, onu da özünlə apar. Pərizad Əsmər adlı bir qızı Nəcəfin yanına göndərdi ki, necə oğlan olduğu xəbərini gətirsin. Əsmər Pərizadın çirkin bir qız olduğunu söyləyir. Pərizad zorla Nəcəfin yanına gəlir. Nəcəf vəziyyəti anlayır. Pərizadın anası bu sevgiyə narazı olur. Tilsim edir. Nəcəf Pərizadla İsfahana yola düşür. Yolda Pərizad görür ki, Nəcəf yoxdur. Nəcəfin paltarını geyinib əmrlər verir. Pərizad Abdullanın evinə gəlir. Oradan hədiyyələrlə Şah Abbasın yanına gedir. Vəziri Şah Abbasa təklif edir ki, qızı Leylanın kəbinini ona kəssin. Toy olur. Onlar evlənirlər. Leyla ona olan soyuq münasibəti atasına danışır. Pərizad deyir ki, qardaşım tilsimə düşüb, əhd etmişəm ki, o çıxanacan Leylaya dəyməyim. Pərizad Nəcəfin arxasınca Həmədana yola düşür. Xanı xanım onlara kömək edir. Şah Abbas Pərizadın işlərini biləndən sonra Nəcəfi asmaq istəyir. Xanı xanım Nəcəfi onların əlindən alır. Nəcəf evlərinə gəlir. Abdulla bəzirgan qızların üçünü də oğluna alır. Dastan duvaqqapma ilə bitir.

NƏCƏFZADƏ ABBASQULU İSMAYIL OĞLU (1957, Xızı-Bakı) - Sənətşünaslıq elmləri doktoru, professor, AMK-nın müəllimi, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Aşıqlar Birliyinin üzvü, "Konservatoriya" elmi jurnalının məsul katibi. Bakıda orta ümumtəhsil (53 saylı), uşaq musiqi (16

saylı) məktəblərini, Sumqayıt Musiqi Texnikumunu və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (3 ixtisas üzrə – konsert ifaçısı, müəllim və xalq çalğı alətləri orkestri dirijoru) bitirmişdir. 1976-cı ildən günümüzədək ifaçı, müəllim, həm də müxtəlif ansamblların rəhbəri kimi əmək fəaliyyətini fasiləsiz olaraq davam etdirməkdədir. Abbasqulu Nəcəfzadə bir neçə unudulmuş çalğı alətini (əlvah, ərğənun, qolça qopuz, yaylı qopuz, kos və s.) bərpa etmişdir. Onun şəxsi kolleksiyasında 80-ə yaxın çalğı aləti qorunub saxlanılır.

A.Nəcəfzadə keçmiş SSRİ-nin əksər respublikalarında, habelə Misir, İraq, İran, Türkiyə, Meksika, Hollandiya, İtaliya, İsrail, Yaponiya, İsveç, Belçika, Almaniya, Yunanıstan, İngiltərə, ABŞ və s. ölkələrdə mədəniyyətimizi layiqincə təbliğ etmişdir. 30-dan artıq əsərin (kitab, monoqrafiya, dərslik, dərs vəsaiti, metodiki tövsiyə, notoqrafiya, tədris proqramları, əlyazmaların tərtibçisi), 150-dən artıq elmi məqalənin və 60-a yaxın melodiyanın müəllifidir. "Azərbaycan çalğı alətlərinin izahlı lüğəti" (Bakı, 2003), "Çalğı alətlərimiz" (Bakı, 2004), "Xalq çalğı alətlərinin tədrisi metodikası" (Bakı, 2007, 2012), "Müşfiqin duyğu yarpaqları" (Bakı, 2009), "Xalq musiqisi sazəndə ifaçılığında" (Bakı, 2013), "Etnoorqanologiya" (Bakı, 2016) və s. kitabları çap olunmuşdur.

"NƏFƏSÇƏKMƏ KOROĞLU" ("NƏFƏSALMAZ KOROĞLU") – mənşə etibarilə "Koroğlu" eposu ilə bağlı olan qədim havalardan biridir. Havanın adında onun artikulyasiyasının özünəməxsus cəhətləri öz əksini tapmışdır. Obraz-emosional məzmununa görə qəhrəmanlıq, cəngi havalar qrupuna daxildir. Sazda şah pərdə kökündə ifa olunur. "Nəfəsçəkmə Koroğlu" havasının instrumental girişinin melodik-intonasiya forması cəmi dörd sintaqma hissəciklərindən ibarət olmasına baxmayaraq, daxili çevikliyə, qeyri-xətti inkişaf dinamikasına malikdir. Qeyri-xəttilik daha çox çoban-bayatı (as), kök (b) və beçə (c) pərdələrin qarşılıqlı əlaqələrinin intensivliyində özünü büruzə verir. Sazın aşağı hissəsində (yüksək registrdə) yerləşən bu pərdələrin müxtəlif, rəngarəng birləşmələrinin variant zənginliyi ifaçının improvizə qabiliyyətinin ən parlaq təzahürü hesab edilə bilər. Melodik xəttin beçə pərdədən şah pərdəyə doğru yönələn enən sekvensiyadan sonra yenidən zirvəyə qayıtması gərginliyi yaradan əsas mənbələrdən biridir. İlk sintaqma Rastın tonikasının kvintası, yəni kök pərdə üzərində qurulur və tonikanın üst kvartasının və tonikanın kvintasının üst aparıcı tonunu (çoban-bayatı və beçə pərdələr) əhatə edir. İkinci sintaqmanın melodik inkişafının tonikanın kvintasının üst aparıcı tonuna tərəf yönəlməsi daha çox ekspressiya yaradan amil kimi səciyyələndirilməlidir. "Nəfəsçəkmə Koroğlu" havasının instrumental girişin məqam xüsiyyətlərini səciyyələndirərək qeyd etmək olar ki, onun bütün inkişafı funksional baxımdan xüsusi önəm daşıyan tonikanın kvintası, yəni sazın kök pərdəsinin təsdiqinə yönəlir. "Nəfəs-

çəkmə Koroğlu" havası iki məqam mərkəzi ətrafında qurulan aşıq havaları sırasına daxildir. Belə ki, əgər vokal partiya rast məqamına əsaslanırsa, bəndin sonunda səslənən instrumental koda Şur məqamı ilə bitir. Bu bədii ünsürə musiqi siqnifikasiyası kontekstində nəzər saldıqda qeyd olunmalıdır ki, artıq ikinci və üçüncü melobəndlərin məqam-intonasiya məzmununun qavranılmasında bilavasitə onlardan əvvəl səslənən Şur məqamının çalarları da kontaminasiya olunur. "Nəfəsçəkmə Koroğlu" havasının metr-ritmik xüsusiyyətləri də özü-

nəməxsusluğu ilə seçilir. Havanın metr-ritmik təşkilində sintaktik, məqam və orqanoliji üsullar vasitəsilə yaranan aksentlərin son dərəcə önəmli rolu vardır. "Nəfəsçəkmə Koroğlu" havasının sərbəst ritmik inkişafı ilə seçilən instrumental girişində dissipativ proseslər mühüm rol oynayır. Ritmik inkişafın müəyyən mərhələsində qeyri-xətti mühitdə müəyyən lokallaşma prosesləri müşahidə olunur. Qeyd etmək lazımdır ki, bu proses instrumental girişin qrafik təsvirində də özünü büruzə verir. Belə ki, müəyyən vəznə malik olmayan və bir-birindən şərti işarələrlə ayrılan seqmentlər dəqiq vəznə malik olan xanələrlə əvəz olunur. Poetik mətninin əsasını qoşma təşkil edir. Havanın ifasında qəhrəmanlıq semantikası ilə bağlı olan çoxsaylı çağırış-intonemalar, gərgin qlissando və artikulyasiyanın digər növlərindən istifadə edilir. Hava etnomusiqişünaslar ***İ.İmamverdiyev və K.Dadaş-zadə tərəfindən Aşıq Ələkbər Əsgərovun ifasında nota köçürülmüşdür.***

NƏQDİ SÖHRAB ABBASQULU OĞLU (1945, Qaradağ, Kələybər mahalı, Üştibin kəndi) – Təbriz-Qaradağ aşıq mühitinin nümayəndəsidir. Erkən yaşlarından sənətə həvəs göstərmişdir.

Dörd il Abbas İbadiyan, Zülfüqar Əbdüllahı kimi ustadların yanında şagird olmuş, sənətin sirlərini onlardan öyrənmişdir. 25 yaşından balaban çalmağa başlamışdır. Aşıq Əbdüləlı Nuri, Aşıq Məşi Paşayi, Aşıq Ələsgər Dadaş Pur, Aşıq Abbas Qaracadağı kimi ustadlarla məclislər aparmışdır. Çağdaş aşıqların repertuarında az istifadə olunan "Muğanı", "Şəki", "Bəhməni" saz havalarını yüksək ustalıqla çalır.

NƏQL-TƏHKİYƏ – aşıq yaradıcılığında olduqca mühüm, həm də kifayət qədər maraq doğuran problemdir. Daha çox aşıq söyləyiciliyi ilə bağlıdır. Dastan ənənəsində təhkiyə problem olaraq araşdırılmalı hadisədir. Türk və dünya xalqlarının şifahi ədəbiyyatında mühüm bir hissəni epik təhkiyə təşkil edir.

Aşıq yaradıcılığında nəql-təhkiyə bir bədii hadisə kimi dastanlarla bağlanır. Məlum olduğu kimi, dastanlar nəzm və nəsr hissələrindən ibarət olur. Ustadlar dastan söyləməni həmişə bir vacib amil kimi şagirdlərinə öyrətməyə çalışıblar. Aşıqlığın ən vacib və gərəkli məsələsi kimi, dastan söyləmə həmişə diqqət mərkəzində dayanmışdır. "Dastançı aşıqlar" anlayışı da məhz buradan yaranmışdır. Dastanlarda nəzmlə nəsrin növbələşməsi mühüm məsələdir. Bunlar biri digərini tamamlayan bədiilik faktlarıdır. Hadisə, əhvalat aşıqlar tərəfindən nəql edilir, nəzm hissə isə müəyyən saz havaları üstündə oxunur. Nəzm və nəsr bir-biri ilə bağlanır. Yəni nəzm təhkiyənin, təsvir olunan hadisənin ümumi ruhuna uyğun məzmun daşıyır. Onu da əlavə edək ki, hər aşıq dastançı kimi məşhurlaşa bilmir. Söyləyici qabiliyyətinə malik sənətkarlar aşıq yaradıcılığının tarixinə kifayət qədər bələd olmuş və günlərlə dastan danışa bilmişlər. Dastanın ümumi ruhuna uyğun haşiyələr, məclisin ümumi ahənginə müvafiq əlavələr dastançılıq ba-

carığı, aşıq təhkiyəsinin spesifikası kimi vacib olan məsələlərdir. Ona görə də nəql (təhkiyə) aşıq yaradıcılığında mühüm, həm də vacib olan epik hadisədir.

NƏRİMANOV NƏRİMAN NƏCƏF OĞLU (1870, Tiflis – 1925, Moskva) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. N.Nərimanov 1882-ci ildə Qori Müəllimlər seminariyasına daxil olmuş, 1890-cı ildə oranı bitirmişdir. Borçalı mahalının Qızılhacılı kəndində müəllim işləmişdir. 1891-ci ildə Bakıya gəlmiş, ədəbi-siyasi fəaliyyətə başlamışdır. 1894-cü ildə ilk "xalq qiraətxanası" kitabxanasını təşkil edir. "Nadanlıq" (1894), "Şamdan bəy" (1895), "Nadir şah" (1899), "Bahadır və Sona" (1896-1908) və s. əsərlərini, publisistik məqalələrini yazmışdır. Odessada Novorossiya universitetinin tibb fakültəsinə daxil olmuşdur (1902). Universiteti 1908-ci ildə bitirmiş, Tiflisdə xəstəxanada işləmişdir (1909). İnqilabi hərəkatda iştirakına görə həbs edilir, altı ay Metex qalasında saxlanılır. Bakıya qayıdır (1913), Qaraşəhər xəstəxanasında işə girir. Zaqafqaziya Federasiyası İttifaq sovetinin sədrlərindən biri olur (1922). N.Nərimanov Borçalıda məşhur sənətkar kimi tanınan aşıq Nərimanın nəvəsi olmuşdur.

N.Nərimanov aşıq ədəbiyyatının müxtəlif problemləri ilə bağlı fikirlər söyləmişdir. Aşıq ədəbiyyatını "elin nişanəsi", "elin güzgüsü" adlandırmışdır. "Əsli və Kərəm" operasının Ü.Hacıbəyli tamaşalarından birinə resenziya yazmışdır. "Çoban şikəstəsi" aşıq mahnısı haqqında fikirlər söyləmişdir.

NƏSİB OĞLU MEHDİ (1870, Göyçə mahalı, Ağkilsə kəndi – 1940, Tovuz rayonu, Qovlar kəndi) – Göyçə aşıq mühitinin yetişdirdiyi ustadlardandır. Dövrünün tanınmış aşıqlarından olan Aşıq Musa Səfəroğlunun yanında şagird olmuşdur. Göyçədə daşnaklara qarşı savaşda iştirak etmişdir. Ağkilsədən Cil kəndinə köçmüşdür. 1918-ci ilə qədər orada yaşamışdır. Daha sonra Tovuzun Qovlar kəndinə köçmüşdür. Aşıq Mehdi və Aşıq Hüseyn Bozalqanlı ilə deyişmişdir. Gözəl səsi və hazırcavablığı ilə böyük marağa səbəb olmuşdur. Tovuzda, Göyçədə və Borçalı bölgələrində istedadlı aşıq və el şairi kimi tanınmışdır. Dörd oğlunu aşıq kimi yetişdirmişdir. Dördü də II Dünya müharibəsində iştirak etmişdir. Həsən və Əsgər müharibədən qayıtmamışdır. Kiçik oğlu Aşıq Saleh isə şirin ləhcəsi ilə aşıq kimi el arasında nüfuz qazanmışdır.

NƏSİBOV ƏDALƏT MƏMMƏDƏLİ OĞLU (1938, Göyçə mahalı – 2017, Qazax rayonu) – Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü. Görkəmli saz-söz ustadı, saz havalarının mahir ifaçısı.

Atası Məmmədəli kişi İkinci Dünya müharibəsində Göyçədən Qaraqoyunlu dərəsinə köçmüşdür. Müharibədən sonra isə oranı da tərk edərək Qazaxda məskunlaşmışdır. Məmmədəli kişi pinəçi olmuşdur. Bununla belə, sazda çalıb-oxumağı çox yaxşı bacarmışdır. Göyçənin Yeni Bəyazid obasındandır. Ermə-

nilərin törətdikləri soyqırım nəticəsində (1918) oranı tərk etmişlər. Ə.Nəsibov erkən yaşlarından saza həvəs göstərmiş və sənəti atasından öyrənmişdir. 1950-1960-cı illərdə o öz ifaçılığı ilə diqqəti çəkməyə başlamışdır. S.Vurğun, O.Sarıvəlli, M.İbrahimov, H.Arif kimi sözsənət sərrafları ona böyük dəyər vermişlər. "Yeddi oğul istərəm" filmində Aşıq Ədalət "Yanıq Kərəmi" saz havasını ifa etməklə daha da məşhurlaşmışdır. 1970-1980-ci illərdə Niyazi, F.Əmirov, C.Hacıbəyov, Ə.Eldarova onun möcüzəli çalğısını misilsiz sənətkarlıq nümunəsi adlandırmışlar. Ədalət Nəsibov Azərbaycanda solo-saz ifaçılığının əsasını qoymuş və dünyada tanıtmışdır. O, arxasınca böyük bir ifaçılıq məktəbi yaradan təkrarsız sənət ocağının banisidir. Özünəməxsus çalğısı ilə həmişə xüsusi maraq doğurmuşdur. "Yanıq Kərəmi", "Ruhani", "Misri", "Cəlili", "Sarıtel" saz havalarının misilsiz ifaçısı kimi tanınır. Parisdə, Londonda, Moskvada, Bakıda dəfələrlə ifası lentə alınmış, "Qızıl fonda" daxil edilmişdir. Beynəlxalq folklor festivallarında (1959, 1965, 1974, 1980) təmsil olunmuş və yüksək mükafatlara layiq görülmüşdür. UNESKO-da nadir ifaçılar seriasından rəmzi qızıl valı və diski buraxılmışdır. Sənəti ilə bağlı çoxsaylı kitab və məqalələr yazılmışdır. Gözəl ifaçılıq qabiliyyətinə görə Aşıq Ədalətə yüzlərlə şeir həsr olunmuşdur. O, ayrıca ifaçılıq üslubu yaratmış nəhəng sənətkarlardandır. Repertuarında yüzə yaxın saz havası, əllidən çox dastan, dörd mindən artıq aşıq şeiri mövcud idi. Qazaxda büstü qoyulmuş, uyuduğu Ağköynək qəbiristanlığında məzarüstü abidəsi ucaldılmışdır.

Haqqında sənədli film çəkilmiş, ifaçılıq məharəti ilə bağlı çoxsaylı radio və tele verilişlər hazırlanmışdır.

NƏSİBOV ALLAHYAR MUSTAFA OĞLU (1938, Borçalı mahalı, Hacıiskənəd (Gorarxı eli) kəndi – 2000) – Ustadı Xındı Məmməd olmuşdur. 1954-1959-cu illərdə onun yanında aşıqlığın sirlərini öyrənmiş, bir sənətkar kimi formalaşmışdır. Borçalıda məclislər aparmışdır. Qazaxda, Tovuzda, Şəmkirdə, Gəncədə məclislər keçirmiş, sazı-sözü ilə tanınmışdır.



Borçalı saz ifaçılığının və bölgəsəl dastanların ("Cahangirin dastanı", "Lətif şah", "Səmədağa", "Mehalı bəy" və s.) usta bilicisi sayılmışdır.

NƏSİBOV KƏRƏM (İNCƏLİ KƏRƏM) SÜLEYMAN OĞLU (1945, Qazax rayonu, Aslanbəyli kəndi – 1995)– Yaradıcı ustad aşıq kimi tanınmışdır. Qazax aşıq ənənəsinin yetişdirdiyi görkəmli sənətkarlardandır. Uşaq-

lıqdan saza maraq göstərmişdir. Saza olan həvəsini görən atası onu aşıq Kamandar Əfəndiyevin yanına aparmışdır. Aşıq Kamandarın şagirdi olmuşdur. Dörd il ustaddan dərs alan Kərəm aşıqlığın sirlərini, ustadların yaradıcılığını mənimsəmiş, bir sənətkar kimi formalaşmışdır. 1960-cı illərdən müstəqil aşıqlığa başlamışdır. Aşıq Kərəm Qazax, Borçalı, Tovuz, Şəmkir, Gəncə və d. bölgələrdə məclislər aparmış, ustad sənətkar kimi tanınmışdır. Aşıq Ələsgərin 150 illik yubileyində Qazax mədəniyyət evində onunla bağlı hazırlanan tamaşada ustad Aşıq Ələsgər obrazını Kərəm İncəli canlandırmışdır (1973). Respublika səviyyəli tədbirlərdə, festivallarda iştirak etmiş, diplom və mükafatlar almışdır. Aşıqların IV Qurultayının iştirakçısı olmuşdur. Qazax rayon Mədəniyyət şöbəsi nəzdində "İncəgülü" aşıqlar ansamblının rəhbəri olmuşdur (1980-1995). Ayrı-ayrı toplularda şeirləri getmişdir. İki kitabı nəşr olunmuşdur. Haqqında Z.Yaqub, M.Həkimov, N.Cəfərov, M.Qasımlı, E.Məmmədli, M.Allahmanlı kimi saz-söz biliciləri dəyərli fikirlər söyləmişdir. Aşıq sənətinin qayğısına qalmış, Şaməddin Vəliyev, Mahal Fəttahov, Alı Cəfərov, İmralı Məmmədov, İlham Aslanbəyli, Akif Manafov və başqalarının ustadı olmuşdur.

Qazax rayonundakı Aslanbəyli kənd folklor evi onun adını daşıyır.

NƏSİBOV MÜSEYİB QASIM OĞLU (1909, Göyçə mahalı, Cil kəndi – 1995, Bakı) – Göyçə aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Müseyibin atası Qasım dövrünün tanınmış aşıqlarından olmuşdur. Atasının təsiri altında onda erkən yaşlarından saza həvəs yaranmışdır. Sənətin sirlərini də elə ailədə öyrənmişdir. 1918-ci ildə erməni daşnaklarının törətdiyi soyqırımı zamanı Aşıq Qasım Göyçəni tərk etmiş, ailəsi ilə birlikdə Tovuzun Qovlar kəndinə köçmüşdür. 1940-1943-cü illərdə orduda xidmət etmişdir. İkinci Dünya

müharibəsində iştirak etmiş və yaralanaraq geri qayıtmışdır. 1948-1958-ci illərdə Tovuzdan köçüb Gədəbəydə yaşamışdır. Sonra yenidən anadan olduğu Cil kəndinə qayıtmışdır (1959). Aşıq Mqseyib məhz öz kəndində "Cilli Müseyib" adı ilə ad çıxarmış və şöhrətlənmişdir. 1988-ci il deportasiyasında Aşıq Müseyib doğma yurdunu tərk edir və Bakıya köçür. Aşıq Müseyib ustad aşıq kimi Göyçədə, Borçalıda, Gəncəbasarda tanınmışdır. Qardaşı Aşıq Əlinin, Aşıq Qəhrəman Rüstəmovun (Tovuz), Aşıq Şükürün (Göyçə), Aşıq Seyid Rzanın (Bala Məzrə), Aşıq Əşrəfin ustadı olmuş,

onların bir sənətkar kimi yetişməsində mühüm rol oynamışdır.

Aşıq Müseyib klassik aşıq yaradıcılığını mükəmməl bilən, dastanları ustalıqla ifa edən, sənətə olduqca tələbkarlıqla yanaşan ustad olmuşdur. Aşıqlar Birliyi filarmoniyada qocaman aşığın yaradıcılıq gecəsini (1990) keçirmişdir. "Müseyibi" saz havasının müəllifidir. Aşıq Müseyibin "Orta Sarıtel" havası üstündə oxuduğu məşhur "Qaragöz" mahnısı ("Qaragöz" gəraylısı Öysüzlü Səmədindir) dillər əzbəridir.

NƏSİBOVA SAVAD AXUND ŞƏFİ QIZI (1885, Göyçə mahalı, Daşkənd kəndi – 1970, Gədəbəy rayonu, Qumlu kəndi). Göyçə mühitinin yetişdirdiyi sənətkarlardandır. Aşıq Savad adı ilə tanınmışdır. Məlahətli və gözəl səsi ilə diqqəti çəkmişdir. Əmisi Molla Şabandan, atası Axund Şəfidən, qardaşları Hacı Rəhimdən və Molla Mehdidən ruhani təhsili almışdır. Göyçə mahalının Sarıyaqub kəndindən Teymurla ailə qurmuş və ondan aşıqlığı öyrənmişdir. Aşıq Teymur və Aşıq Savad cütlüyü Göyçə, Gədəbəy, Şəmkir və Tovuzda yüzlərlə toy-düyün keçirmişlər. "Azərbaycan aşıq və şair qadınları" kitabında (1991) şeirləri nəşr olunmuşdur. "Azərbaycan qadın şairləri" antologiyasında (2005), "Daşkənd aşıqları və şairləri" kitabında (2008) şeirləri çap olunmuşdur.



NƏSİMİ SEYİD ƏLİ İMADƏDDİN (1369 – 1417, Hələb) – Seyid, Hüseyn, Nəsimi təxəllüsləri ilə şeirlər yazmışdır. İmadəddin "dinin dirəyi" anlamını verir. Qaynaqlarda Nəsimi, Seyid Nəsimi, İmadəddin adı ilə verilir. XVI əsrdə yaşamış təzkirəçi Lətifi şairin Jiludəmi (dağınıq saçlı) ləqəbi ilə tanınan Şah Xəndan adlı qardaşının olduğunu da yazır. Nəsimi hürufi ideyalarını yaymaq məqsədilə Bakıda, Anadoluda, Bursada, Bağdadda, Misirdə, Hələbdə və b. yerlərdə olmuşdur. Nəsimi Bakıda Nəimi ilə görüşmüşdür (1394). Hələbdə faciəli şəkildə öldürülmüşdür (1417). Təzkirələr İ.Nəsiminin ölümü haqqında müfəssəl məlumatlar verir. Lətifi (XVI) yazır ki, türk şeiri ilə ən əvvəl Nəsimi şöhrət tapmışdır. S.Mümtaz İ.Nəsiminin divanını nəşr etdirmişdir. Anadan olmasının 600 illik yubileyi keçirilmişdir (1973). Ə.Nəvai, M.Füzuli, Həbibi, Xətayi, C.Həqiqi və başqaları Nəsimi yaradıcılığından bəhrələnmişlər. H.Araslı, M.Quluzadə, M.Cəlal, Ə.Səfərli və başqaları Nəsimi haqqında tədqiqatlar aparmışlar. Aşıq şeiri üslubunda yazdığı şeirlər də vardır. Sarı Aşıq, Xəstə Qasım, Aşıq Ələsgər və Molla Cuma öz şeirlərində Nəsimidən böyük ideya mücahidi və gözəl şair kimi söz açmışlar.



NƏZİRƏ – hər hansı bir sənətkarın əsərinin təsiri altında yazılmış əsər. Divan və aşıq ədəbiyyatında nəzirə

yazmanın özünün qədim və tarixi ənənəsi vardır. Aşıq yaradıcılığında da hansısa şeirin, bədii nümunənin təsiri altında çoxsaylı şeirlərin yazılma ənənəsi vardır. M.P.Vaqifin "Oynasın" rədifli şeirinin təsiri altında onlarla aşıq şeiri qoşulmuşdur. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Aşıq Ələsgər, Hüseyn Bozalqanlı kimi ustad aşıqların şeirlərinə həm aşıq ədəbiyyatının özündə, həm də yazılı ədəbiyyatda çoxsaylı nəzirələrin yazıldığı görünməkdədir.

NƏZM – ədəbi yaradıcılığın əsas formalarından biri. Nəzm və nəsr söz sənətinin forma, məzmun, həm də ədəbiyyat tarixində yerinə görə fərqlənən, özünəməxsusluqlarla səciyyələnən sahələrindəndir. Nəzm nəsrdən yaradıcılıq hadisəsi kimi xeyli əvvəl yaranmışdır. Azərbaycanda, eləcə də türk xalqlarında nəzmin tarixini konkretliklə müəyyənləşdirmək mümkünsüzdür. Lakin əmək nəğmələri, vəsfi-hallar, mövsüm və mərasim nəğmələri, sayaçı sözləri kimi ilkin-ibtidai nəzm örnəkləri bu formanın arxaik əlamətlərini xeyli dərəcədə qorumuşdur. Azərbaycan yazılı ədəbiyyatında nəzmin ilkin nümunələri xeyli sonraların hadisəsidir. "Divani-lüğət-it türk", "Orxon-Yenisey" abidələri, "Kitabi-Dədə Qorqud" dastanları qədim Azərbaycan şeirinin ənənələrini öyrənmək haqqında bütöv təsəvvür yaradır. Azərbaycanda epik poeziya ("Töhfətül-İraqeyn", "Mədain xərabələri", mənzum roman ("Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə") XII əsrin hadisəsidir. Epik poeziya ənənəvi olaraq sonrakı əsrlərdə A.Ərdəbili ("Fərhadnamə"), M.Şəbustəri ("Gülşəni-raz"), Əli ("Qisseyi-Yusif"), M.Əvhədi ("Cami-cəm"), Ə.Təbrizi ("Mehr və Müştəri") tərəfindən davam etdirilmişdir. Aşıq yaradıcılığında nəzmin tarixi zənginlik və müxtəlifliklərlə səciyyələnir. Türk dastan yaradıcılığı, təsniflər, bayatılar, gəraylılar, qoşmalar, təcnislər, divanilər, müxəmməslər, müsəddəslər, cahannamələr, vücudnamələr, deyişmələr və s. nəzmin tarixini, inkişaf spesifikasını, imkanlarını, müstəsnalığını öyrənmək üçün mənbədir. Aşıq yaradıcılığı nəzm sənətkarlığı baxımından xalqın poetik düşüncəsinin millitarixi özünüifadə hadisəsidir.

NİBELUNQ DASTANLARI – alman xalqının qəhrəmanlıq tarixi ilə bağlıdır. Yaranma tarixi və müəllifi məlum deyildir. Təxminən 1200-1210-cu illərdə yazıya alındığı güman edilir. Ehtimal olunur ki, dastan Avstriyada yazıya alınmışdır. Nibelunq dastanlarını ilk dəfə 1757-ci ildə İsveçrə şairi və filoloqu İ.Bodmer nəşr etdirmişdir. Birinci hissədə Ziqfridin igidliklərindən, ikinci hissədə isə Burqundiya dövlətinin hunlar tərəfindən dağıdılmasından bəhs edilir. Eposun süjeti ilə bağlı bir sıra ədəbi və musiqili əsərlər yaranmışdır (R.Vaqner, H.İbsen və b.). Faşistlər epo-

sun əsl mahiyyətini təhrif etmiş və öz məqsədləri naminə istifadəyə çalışmışlar. Nibelunq nəğmələrindən parçalar "Orta əsrlər renessans ədəbiyyatı" (1955) kitabında çap olunmuşdur. "Nibelunq haqqında nəğmələr" məzmununa görə fərqlənir. İlk on nəğmə Ziqfridin qəhrəmanlığına, göstərdiyi igidliklərə həsr olunmuş, Burqund kralı Günterin bacısı Krimhilda ilə, Günterin isə cəngavər Brunhilda ilə evlənməsinə həsr olunmuşdur. Ziqfridin xaincəsinə öldürülməsi də burada özünə yer alır. Digər on nəğmə isə Krimhildanın qisas almasından və Burqund çarlığının məhvindən bəhs edir. Birinci fəsildə göstərilir ki, niderlandlı gənc şahzadə Ziqfrid Krimhildanın gözəlliyini eşidib Günterin sarayına gəlir və bir il orada qalır. Saks kralının Ginterə qarşı apardığı mübarizədə iştirak edir. Qələbə qazanır. Günterin bacısını istədiyi üçün öz vətəninə qayıda bilmir. Günter Niderland igidinin məqsədini anlayır. Ziqfird Krimhilda ilə tanış olur. Günter İslandiya gözəli Brunhildanın arxasınca gedir. Günterə bu işdə Ziqfrid kömək edir. Brunhilda iki şərtlə evlənməyə razılıq verir, daş atır və özü atdığı daş qədər tullanır. İkincisi, nizəylə vuruşmaq. Ziqfrid hökmdara üzük verir. Günter buna razılaşır. Ziqfrid özünün sehrli plaşını geyir və bu şərtləri yerinə yetirir. Şərtə əsasən, Brunhilda Ziqfridə qoşulub Günterin vətəninə gəlir. Ziqfrid Krimhilda, Günter isə Brunhilda ilə evlənir. On il keçir. Krimhilda ilə Brunhilda arasında mübahisə düşür. Brunhilda Ziqfriddən intiqam almaq haqqında düşünür. Ziqfridin düşməni Qagenlə birləşir. Krimhildadan ox keçməyən yer öyrənilir. Su içən yerdə Ziqfridi kürəyindən vurur. Krimhilda səhər tezdən ibadətə gedərkən meyiti görür və intiqam tələb edir. On üç il dul qalır. Atilla Krimhildaya elçi göndərir və onunla evlənmək istəyir. Krimhilda gizli şərtlə evlənir. Şərtdən yeddi il keçir. Qagen Ziqfridi öldürdüyünün səbəbini söyləyir. Döyüş başlanır, Qagen əsir alınır. Qagendən nibelunqların xəzinəsinin yeri soruşulur. Atillanın qəhrəmanı Hildebrand Krimhildanın qəhrəmanları öldürməsinə dözməyib Krimhildanı sonda öldürür. Dastanda xalqların böyük köçü, V əsrdə Atillanın Avropanı tutması hadisəsi var. Gənc Ziqfrid əjdahaları öldürüb nibelunqların xəzinəsinə sahib olur. Nibelunq haqqında nəğmələr"in on tam, 22 natamam variantı mövcuddur. "Nəğmələr" 2400 misradan ibarətdir. "Kitabi-Dədə Qorqud" dastanı ilə səsləşən tərəfləri vardır.

NİFTALIYEV BƏHLUL ƏMİRXAN OĞLU (1900, Şahbuz mahalı, Kilis kəndi – 1978) – Naxçıvan mühitinin yetişdirdiyi sənətkarlardandır. Tanınmış sənətkar Aşıq Əzimə şagird olmuşdur. Sənətin sirlərini, ustadların zəngin ədəbi irsini, dastanları onun vasitəsilə mənimsəmişdir. Təhsili olmamışdır. İrəvan, Dərələyəz və Göyçə aşıq mühitinin təsiri altında daha da formalaşmışdır. "Naxçıvani" silsiləsindən olan aşıq havalarının ustad bilicisi olmuşdur. Dastançı aşıq kimi tanınmışdır.

NİFTALIYEV ƏLİXAN ABBASQULU OĞLU (1943, Tovuz rayonu, Aşağı Quşçu kəndi) – ustad aşıq, Əməkdar mədəniyyət işçisi (2008). Tovuz mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Anadan olduğu kənddə orta təhsil almışdır (1950). Ordu sıralarında olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra aşıqlığa maraq göstərmişdir. Şirin səsi və aşıqlıq qabiliyyəti onun Mikayıl Azaflının yanına gəlməsinə səbəb olmuşdur.

Mikayıl Azaflının yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişdir. 1968-1990-cı illər arasında Aşıq Əkbər Cəfərovun sənət yoldaşı olmuşdur. Onunla dostluq əlaqələri yaranmış, birgə məclislər aparmış, səfərlərdə olmuşlar. Zil, şaqraq və məlahətli səsi ilə məclislərdə sevilib-seçilmişdir. Əlixan Niftəliyev həmçinin güclü natiqlik və aparıcılıq qabiliyyətinə malikdir. Gözəl ifaçıdır. O, aşıqsevərlərin sevib hörmət etdiyi sənətkarlardandır. Aşıq Əlixan bir neçə beynəlxalq festivalın yüksək mükafatına və qızıl medalına layiq görülmüşdür. İfa etdiyi dastanlar və aşıq

mahnıları Az.TV-nin "qızıl" fondu"nda qorunur. Aşıqların IV, V və VI qurultaylarının iştirakçısıdır.

NİFTƏLİYEV MAHMUD ƏLƏSGƏR OĞLU (1947, Qobustan rayonu, Şıxzərli kəndi – 2002) – Şirvan aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Aşıq Şərbətin ansamblında bir müddət aşıq- xanəndə kimi çıxış etmişdir. Erkən yaşlarından saza həvəs göstərmişdir. Sənəti mükəmməl şəkildə mənimsəyə bilmişdir. 1969-cu ildən el məclislərində aşıq kimi iştirak etmiş, məclislər aparmışdır. Özünəməxsus oxu tərzinə malik olmuşdur. Gənc aşıqların müsabiqəsində (1976) birinci dərəcəli diploma layiq görülmüşdür. Ali təhsil almışdır. Orta məktəbdə uzun müddət müəllim

işləmişdir. Aşıqların IV Qurultayında iştirak etmişdir. Bir çox aşıq mahnılarının bəstəçisi və mahir ifaçısı olmuşdur. "Mahmud gözəlləməsi", "Mahmud peşrovu" havalarını yaratmışdır. Bir neçə kitabı nəşr olunmuşdur. "Koroğlunun Şirvan səfəri" qolunun müəllifidir. Oğlu Vüqar Mahmudoğlu atasının sənət yolunu uğurla davam etdirmişdir. Ailəsində saz-söz ənənəsi bu gün də qorunur.

NİFTƏLİYEV VÜQAR MAHMUD OĞLU (1970, Şamaxı, Şıxzərli kəndi – 2018, Bakı) – Aşıq ailəsində anadan olmuşdur. Atası Aşıq Mahmud Ələsgəroğlundan sənətin sirlərini mənimsəmişdir.

Şamaxı rayonunda 1 nömrəli orta məktəbi qurtarmışdır (1988). S.Hacıbəyov adına musiqi kollecində təhsil almışdır (1988-1991). ADMİU-da oxumuşdur (1991-1996). 2002-ci ildən aşıqlığa başlamış, məclislər aparmışdır. Fransada, Türkiyədə, Qazaxıstanda, Özbəkistanda

beynəlxalq səviyyəli festivallarda iştirak etmiş və mükafatlar almışdır. "Şirvanşah" sazçı qrupuna rəhbərlik edərək yeni istedadların meydana gəlməsinə şarait yaratmışdır. "Abbas və Gülgəz", "Xəstə Qasım", "Valeh və Zərnigar" və s. dastanları əsl dastançılıq məharəti ilə təqdim etmişdir. "Şikəstə", "Peşrov" və "Gözəlləmə" havalarının təkrarsız ifaçısı olmuşdur. İfa etdiyi mahnılar aşıqlığın "qızıl fondu"na daxildir.

NİGAR XANIM – "Koroğlu" dastanının qadın qəhrəmanı. "Koroğlunun İstambul səfəri"ndən başlayaraq bütün dastan boyu ayrı-ayrı qollarda bu və ya digər dərəcədə iştirak edir. Azərbaycan xalqının qəhrəmanlıq tarixinin mühüm hadisəsi kimi yaddaşlarda qalıb. Koroğlunun qəhrəmanlığının bütövlüyü, tamamlanması müəyyən mənada onunla bağlıdır. Nigar xanım xotkar qızıdır. Şəhərdə Bəlli Əhmədlə qarşılaşır və Koroğlunun yanına getdiyini biləndə bir namə verir. "Bunu Koroğluya çatdır" deyir və əlavə edir ki, özü gəlsin, əgər gəlməsə, cavabını sənlə göndərsin. Koroğlu Nigar xanımı gətirmək üçün onun arxasınca gedir. Böyük qəhrəmanlıqlar hesabına Nigar xanımı Çənlibelə gətirir. "Nigar, Çənlibel budu, bu" deyə Çənlibeli ona təqdim edir. Dastanda Nigar xanımla yanaşı, Telli xanım, Ruqiyə xanım, Məhbub xanım, Dünya xanım, Bənövşə xanım və b. kimi mərd, cəsur qadın obrazları var. Onlar ilk əvvəl Koroğlu qəhrəmanlığına rəğbət bəsləyirlər, onu igid, cəsur bir insan kimi uca tuturlar. Özləri də məhz xotkar, xan, paşa qızları olmalarına baxmayaraq, Çənlibelə gəlmək istəyində olur, ora can atırlar. Nigar Türkiyə sultanının qızıdır. Bu, "Mən xotkar qızıyam, Nigardır adım, şahlara, xanlara məhəl qoymadım" misraları ilə başlayan məktubunda da görünür. Necə qəhrəman qadın olması haqqında təsəvvür yaranır. "İstəyirsən, özünə eylə yar məni" misrası Nigarın Çənlibelə can atmasını göstərir. Ağlı, bacarığı, məsləhətləri ilə bütün igidlərin hörmətini qazanır. Nigar xanımın simasında gözəl və qayğıkeş ana obrazını xalq ümumiləşdirmişdir. Koroğlunun, Nigar xanımın övladı olmur. Nigar xanım övladsız keçən ömrü ömür saymır. Ona görə də Nigar xanım Koroğluya "söylə, sənin balan hanı" sualını verir. Bundan sonra Eyvaz Çənlibelə gətirilir. Nigar xanım onu el adətincə yaxasından keçirib oğulluğa qəbul edir. Nigar xanım qəhrəman, müdrik, vətən sevgisi, övlad qayğısı ilə yaşayan bütöv bir azərbaycanlı qadın obrazıdır. Ən çətin məqamlarda Koroğluya məsləhətlər verir, dəliləri arxasınca apara bilir. Dəlilər onu bir ana kimi sevirlər. Bütün müşkülkəri həll edir. Nigar xanım eyni zamanda ürəyi sözlə, nəğməylə dolu bir el şairidir. Dastanda Nigar xanımın dilindən deyilən qoşma və gəraylılar onun istedadlı qadın şair kimi də öyrənilməsini zəruri edir. Nigar xanımla Koroğlunun, dəlilərin qəhrəmanlığı bütövləşir. Çənlibel daha da əzəmətli görünür.

NOLDEKE TEODOR (1836 – 1930, Almaniya) – Şərqşünas, dilçi, tarixçi olmuşdur. Şərq dilləri üzrə Kili (1861-1872) və Strasburq (1872-1906) universitetlərinin ilk professoru olmuşdur. Rusiya EA-nın müxbir üzvü (1885), SSRİ EA-nın fəxri üzvü seçilmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarını alman dilinə tərcümə etməyə cəhd göstər-



miş, lakin buna axıra qədər nail ola bilməmişdir.Topladığı materialları o vaxtlar Almaniyada olan tələbəsi V.V.Bartolda vermişdir. V.V.Bartold tərcüməni 1922-ci ildə tamamlamışdır. Tərcümə ilk dəfə 1950-ci ildə Bakıda rus dilində nəşr edilmişdir.

"NOVRUZ VƏ QƏNDAB" – məhəbbət dastanıdır. Müxtəlif vaxtlarda yazıya alınmışdır. Tovuz rayonunda Aşıq Mirzədən, Naxçıvanda Aşıq Mirzəli Yusif oğlundan (1956), Aşıq Dədəkişidən (Culfa rayonu, 1955), Sumqayıtda Aşıq Ocaqqulu Əlibala oğlundan (1957), Cəbrayıl rayonunda Babakişi Xankişi oğlundan (1957) və b. yazıya alınmış variantları vardır. "Xalq dastanları"nda (II cilddə, II c., Bakı, Azərnəşr, 1961, səh. 174-198), "Azərbaycan folklor külliyyatı"nda (XXX cild), "Dastanlar" (XX kitab, Bakı, Elm və təhsil, 2012, səh. 200-237) verilmişdir. Bu variant Aşıq Aslan Kosalıdan 2012-ci ildə yazıya alınmışdır. Dastanda hadisələr Diyarbəkirdə baş verir. Kərim adlı bir paşa olur. Onun övladı olmur. Ağsaqqalların məsləhəti ilə var-dövlətinin yarısını kasıblara paylayır. Sonda bir övladı olur. Novruz bayramında olduğu üçün adını Novruz qoyurlar. Novruz elmləri mənimsəyir. Atası Kərim məclis düzəldir. Məclisdə Novruz yuxuya gedir. Bir dərviş ona badə verir və Misir padşahı Cəlal şahın qızı Qəndab ona buta edilir. Atası Kərim paşa, anası Zeynəb Novruzu oyada bilmir. Bir qoca onun vergili olduğunu söyləyir. Ayılandan sonra Novruz butasının arxasınca yola düşür. Gəmi ilə gedərkən tufan qalxır. Gəmi bir daşa dəyib qırılır. Novruz taxtanın üstündə olarkən Xıdır İlyas ona yardım edir. Qəvvas Əhməd adlı birisi ona rast gəlir. Qəvvas Əhmədin qızı Gülşən Novruza vurulur. İstambullu Mahmud paşa Qəndabı zorla özünə almaq istəyir. Onunla təkbətək döyüşdə Novruz qalib gəlir. Novruz çox sınaqlardan keçir. Axırda vətənə dönür. Yolda Kəlləgözlə qarşılaşır. Kəlləgözü öldürür. Qalaçada Şəhriyar adında qız görür. Onu azad edir. Diyarbəkirə gəlir. Toy məclisi qurulur. Dastan duvaqqapma ilə qurtarır.

Dastanın Aşıq Əkbər Cəfərov və Əlixan Niftəliyevin söylədikləri variant Azərbaycan televiziyasında lentə alınmış (1984) və "Qızıl fond"da saxlanılır.

NOVRUZOV MURAD MƏCİD OĞLU (1928, Qazax rayonu, Çaylı kəndi – 2008) – Qazax mühitinin yetişdirdiyi sənətkarlardandır. Uşaq yaşlarından saza-sözə meyil göstərmişdir. Ustad aşıqların məclislərində olmuş, onlardan aşıqlığın sirlərini öyrənməyə çalışmışdır. Sənətkar kimi formalaşmış və məclislər aparmışdır. Qazaxda və ondan kənarda istedadlı aşıq kimi tanınmışdır. Bakıda festivalda iştirak edərək (1939-1940) birinci yerə layiq görülmüşdür. Ağstafa və Qazax aşıqlar ansamblında fəal iştirak etmişdir (1961-1976). Sənəti üç gənc aşığa mənimsətmişdir. İstedadlı aşıq kimi tanınmışdır. Aşıqların III və IV qurultaylarında iştirak etmişdir.



NÖVRƏS İMAN MƏŞƏDİ SALAH OĞLU (1903, Göyçə mahalı, Ağkilsə kəndi – 1953, Ərdəbil) – Aşıq Ələsgərin qardaşı oğludur. Təhsilini Hüseynqulağalı (Nərimanlı) kəndində almışdır. Dini elmlərə kifayət qədər bələd olmuşdur. Bədii və tarixi kitabları mütaliə yolu ilə zəngin bilik əldə etmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra bir müddət Kəlbəcər rayonunun Seyidlər kəndində kənd sovetinin katibi vəzifəsində işləmişdir. Bütün varlığı ilə Allaha, dinə, müqəddəs kitab olan Qurana bağlanan İman din adamlarının təqibini, məscidlərin dağıdıldığını görmüş və yeni quruluşa qarşı onda nifrət yaranmışdır (1929-1931). Tutduğu vəzifəni tərk etmişdir. Gənc yaşlarından mühitdə istedadlı şair kimi tanınmışdır. 1925-ci ildən aşıqlıq etməyə başlamışdır. Müxtəlif məzmunlu şeirlər yazmış və çox tezliklə şöhrət qazanmışdır. Dini mövzulu şeirlərin məclislərdə oxunmasının çətinliyi ona təsir etmişdir. "Mənim mətahım burada işləmir, bu ölkədən baş götürüb gedəcəyəm" deməsini və sazını daşa çırpmasını onu tanıyıb bilənlər mühitə etiraz əlaməti kimi qeyd edirlər. Şeir dəftərlərini də təndirə töküb yandırmışdır. Bu hərəkətləri bir çoxları "başına hava gəlməsi" kimi qiymətləndirmişlər. Bu arada onu qəfildən ölən qardaşının arvadı ilə evləndirməyə məcbur etmişlər. Həmin əhvalat onu ruhən daha da sarsıtmışdır. Növrəs İman 1930-cu ildə Göyçədən Azərbaycana gəlmiş və 1942-ci ildən yoxa çıxmışdır. Onun İran və Türkiyədə olması və 1953-cu ildə Ərdəbildə vəfat etməsi söylənilir. (Ətraflı bilgi üçün bax: "Növrəs İmanın dastan" hekayəti, Bakı, Aşıqlar Birliyi, 2019).



"Növrəs" təxəllüsü ilə şeirlər yazmışdır. Onun şeirlərinin bir hissəsi yaddaşlarda qalmışdır. Son dövrlərdə Tovuz rayonunun Aşağı Əyyublu kəndindən İmanın öz xətti ilə yazdığı bir dəftər tapılmışdır. Orada onun dörd min misradan artıq şeirləri vardır. Növrəs İmanın şeirləri ayrı-ayrı toplularda, "İki ustad" (1996), "Sazlı-sözlü Göyçə" (1999) kitablarında getmişdir. İ.Ələsgər tərəfindən ayrıca kitabı (2001) buraxılmışdır. N.İman yaradıcılığı ilə bağlı H.Əlizadə, İ.Ələsgərov, M.Qasımlı, M.Həkimov, P.Əfəndiyev, İ.Abbaslı, M.Allahmanlı, Y.Babayev və başqaları dəyərli fikirlər söyləmişlər.

NURİ ƏBDÜLƏLİ (1930, Qaradağ mahalı – 1998) – Təbriz-Qaradağ aşıq mühitinin XX əsrdə yetişdirdiyi nadir istedadlı ustad aşıqdır. Gənc yaşlarından aşıqlığa maraq göstərmişdir. Ustadlardan dərs almış, aşıqlığın sirlərini mənimsəmişdir. Məlahətli və şaqraq səsi, təsirli şeir demək qabiliyyəti ilə sazsöz sevərlərin diqqətini çəkmişdir. Qısa zamanda Qaradağ-Təbriz mühitində ustad sənətkar kimi böyük şöhrət qazanmışdır. Zəngin musiqi və söz repertuarı ilə seçilmişdir. "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib", "Şah İsmayıl" dastanlarının mahir ifaçısı olmuşdur. XX əsrin ikinci yarısında Təbriz-Qaradağ ifaçılığında misilsiz xidmətləri olmuşdur. Təbriz radiosunda xeyli sayda lent yazıları qorunur. Çoxlu şagirdləri vardır. İfaçılıq ənənəsi yeni nəsil aşıqlar tərəfindən uğurla davam etdirilir.

O

OĞUZ – türk etnonimidir. Mənşəyi və mənası barədə vahid fikir yoxdur. Ancaq bir sıra anlamları türkologiyada özünə yer almışdır. XIX əsrin ikinci yarısından bu sözün mənşə və mənası haqqında mülahizələr yürüdülməkdədir. Bəziləri (P.Pellio, İ.N.Berezin) "oğuz" sözünün "ağız" sözü ilə yaxınlığı olduğunu deyirlər. Belə ki, "Ağız" – yeni doğulan heyvanın ilk südündən bişirilən pendirəoxşar məhsula deyilir. "Oxlar" (L.Ligeti, Y.Nemet), "ox adam" (İ.Markvart), "öküz" (A.N.Bernştam, D.Sinor, L.Bazen), "tayfalar" (O.Pritsak, A.N.Kononov), "təpə" (Ş.Cəmşidov), "müdrik" (N.A.Baskakov), "bacarıqlı, qadir, işıq, od hakimi" (M.Seyidov), "qohum tayfalar birliyi" (P.Xəlilov) və s. mənalarının olduğu da göstərilmişdir. M.Seyidov "oğuz" etnonimini "oğ" -damğa və "uğ" – tayfa mənası bildirən komponentlərdən yarandığı qənaətindədir. A.Kononovun "tayfa" və "tayfalar birləşməsi" mənalarındakı "oğuz" sözünün nəticədə topluluq anlamına gəlməsi ilə bağlı mülahizələrindən sonra bir sıra tədqiqatçı qənaətləri də olmuşdur. "Oğuz" sözü bir termin kimi sonrakı çağlarda müxtəlif anlamlara yüklənmişdir. Azərbaycan şivələrində, məsələn, Muğan qrupunda "kobud", "lovğa", "təkəbbürlü" kimi işlənmişdir. Əlbəttə, bunların bir qismi sonradan qazanılanlardır. Azəbaycanın ayrı-ayrı ərazilərində oğuz qəbirləri vardır. Xalq arasında da Oğuz qəbirləri bir termin, məkan kimi vurğulanmaqdadır. Onlar öz mahiyyətində qədimləri, oğuzlarla bağlı olan keçmişi işarələyir. X əsrin sonu XI əsrin əvvəllərindən (təxminən "oğuz" etnonimi əvəzinə "türkmən" (türkman) adı işlənmişdir. Əvvəlcə yalnız oğuzların bir hissəsi və başqa türk tayfaları (karluklar və xalaçlar) belə adlanmışlar. Ehtimal olunur ki, "türkman" adlandırılanlar islamı qəbul etmiş və Orta Asiyanın yerli əhalisi ilə qarışmış olanlar idi. Güclü, cüssəli olmaları oğuzların mühüm əlaməti idi. Bu da sonradan özgə mühitdə (çox güman ki, qeyri-türkdilli arealda) "oğuz" sözünün yeni mənasının (cüssəli) yaranmasına səbəb olmuşdur. Azərbaycanda yaşamış ən qədim oğuzların iribədənli, cüssəli adamlar olması barədə faktlar da bunu təsdiqləyir. Oğuz etnoniminin etimologiyaları içərisində bu sözün "oğ" (qəbilə, tayfa) və cəmlik əlaməti olan /u/z hissələrindən ibarət olması daha məntiqidir. "Oğuz" sözünün əsasında dayanan "oğ" kökü bu gün "uk" şəklində Altay və Tuva dillərində, "yax" şəklində çuvaş dilində "qəbilə" mənasında işlənməkdədir. Oğuzlar bir tayfa, qəbilə kimi türk mədəniyyət tarixində böyük dəyərlərin, mədəniyyətin yaradıcısıdırlar. Bayat, əfşar, qayı, kınık boyları oğuzlar arasında musiqi və poetik yaradıcılığa daha çox meyl göstərmişlər. "Kitabi-Dədə Qorqud" və digər mədəniyyət hadisələri onların yaradıcılıq dühasının göstəricisidir.

"OĞUZ KAĞAN" – qədim türk-oğuz dastanları silsiləsinə daxildir. Uyğur əlifbası ilə XIV əsrin əvvəllərində əsas nüsxədən köçürülmüş variantı məlumdur. Dastanın yeganə əlyazması Paris kitabxanasında (Şefer fondu (1001) saxlanılır. Əlyazmanı ilk dəfə V.Radlov 1890-cı ildə üzə çıxarmışdır. V.Radlov dastanın transkripsiyasını və alman dilinə tərcüməsini 1891-ci ildə nəşr etdir-

mişdir. Əlyazmanın V.Banq, Rza Nur, M.Ergin, A.Şerbak və b. transkripsiyaları da mövcuddur. Əlyazma 21 vərəqdən, 42 səhifədən və hər səhifəsi də 9 sətirdən ibarətdir. Axırıncı səhifədə sonuncu iki sətir düşmüşdür. Əlyazmanın bəzi yerləri cırılmış, bəzi yerləri oxunmaz hala düşmüşdür. Əlyazmanın birinci səhifəsinin 1-ci və 3-cü sətirləri arasında öküz şəkli çəkilmişdir. Beşinci səhifədə quş şəkli, altıncı səhifədə təkbuynuzlu heyvan şəkli vardır. V.Radlov əlyazmada oxunmayan və çətin oxunan sözlərə özünün əlavələrini etmişdir. V.Radlovun oxunuşu Altay dialektini xatırladır. Rza Nur Radlovun transkripsiya və şərhini nəzərə alsa da, onunla müəyyən məqamlarda razılaşmamışdır. O, orijinalın dilini Anadolu ləhcəsinə bəzən yaxınlaşdırır. A.Şerbak Rza Nur və V.Radlov variantını tutuşdurur. A.Şerbak əsərin dilini daha düzgün müəyyənləşdirmişdir. Çox cüzi xətalar var. E.Bertel əsəri orijinalda olduğu kimi verməyin tərəfdarıdır. "Oğuz Kağan" dastanının mətni və müasirləşmiş variantı Anadolu türkcəsində qazaxlarda, türkmənlərdə, özbəklərdə nəşr olunmuşdur. "Oğuz Kağan" dastanını Azərbaycanda K.Vəliyev, F.Uğur, F.Bayat nəşr etdirmişlər. F.Bayat "Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı adlı monoqrafik əsər yazmışdır (1993). P.Əfəndiyev, M.Allahmanlı "Oğuz Kağan" dastanı ilə bağlı ciddi araşdırmalar aparmışlar. Oğuz dastanları Şərq (Türküstan, Uzaq Şərq), Qərbi (Azərbaycan və Ön Asiya) variantları ilə mövcuddur. Qərb variantında "Oğuz Kağan" dastanı Rəşidəddinin (XIV), Yazıçıoğlu Əlinin (XV), Hafiz Abrunun (XV), Mahmudoğlu Həsən Bayatlının (XV), Sarı Baba Qulalı oğlunun (XVI), Əbül Qazinin (XVII) əsərləri şəklində daxildir. Şərq və Qərb variantları arasında təxminən 1500 illik bir vaxt olmuşdur. Ancaq oğuznamə motivləri hər iki variantda üst-üstə düşür. Oğuz əsatirləri arasında daha çox tədqiq ediləni "Oğuz Kağan" dastanıdır.



Oğuzlar haqqında yaradılan bədii-əfsanəvi əsərlər «Oğuznamə» adlanır. «Oğuznamə»lərin əsas xüsusiyyətlərindən biri budur ki, o, yazılı mənbələrə əsaslanmaqdan çox, əfsanə və reallıqdan qarşılığı olan rəvayətlərdən ibarətdir. «Oğuznamə»lər konkret bir xalqın yaradıcılıq məhsulu deyil. O, birinci növbədə türk xalqları ilə bağlı tarixi həqiqətləri əks etdirən mənbədir.

«Oğuznamə» üzrə 24 oğuz tayfasının adı məlumdur. Bu baxımdan türk xalqları içərisində yayılmış uyğur «Oğuznamə»si xüsusi bir əhəmiyyət kəsb edir. Onu çapa hazırlayan A.M.Şerbak oğuzun özü

haqqında çox maraqlı əsatir və rəvayətləri nəql etmişdir. Oğuz xanın anası Ay kağan, atası isə öküz imiş.

"Oğuz" sözünün daha başqa yozumunu sübut etməyə çalışan digər fikirlər də mövcuddur. Bu cür fərqli izahlar mövcud əsatirlərin müxtəlif variantları ilə uzlaşan fikirlərdir. Eyni zamanda Oğuzun müdrik, hər şeyi bilən, bacarıqlı, igid, ölməz mənalarına çox yaxındır və türk etnik mədəniyyətində Oğuzun mədəni, qəhrəman funksiyasını açmağa xidmət edir.

Oğuz xaqan haqqında əfsanələrin son dərəcə geniş ərazidə, çoxlu ölkələrdə yayılması, bir xalqın arasında mövcud olması göstərir ki, bu dastan müxtəlif xalq və tayfaların, ilk növbədə isə tarixi xalqların şifahi yaradıcılıq məhsuludur. Dastanda köçəri xalqların patriarxal formalaşdığı ən qədim dövr tarixinin bir çox materialları və izləri əks olunmuşdur.

Daha çox Hun türklərinin dastanı kimi qeyd edilir. Lakin Hun türklərindən bəhs etsə də, başdan-başa islami adətlərə uyğunlaşdırılmışdır. Orijinallığı qəhrəmanın şəxsində bütün mənəvi dəyərlərin qorunub saxlanmasındadır. Dastan Oğuzun dünyaya gəlişi ilə başlayıb, ömrünün son illərinə qədərki hadisələri özündə əks etdirir. Oradakı maraqlı hadisələrdən biri evlənmə hadisəsidir. "Oğuz Kağan" əsatiri ulu toy mərasimi ilə başa çatır. Burada toy kiminsə ailə qurması, evlənməsi ilə bağlı deyildir. Oğuz cəmiyyətinin vacib siyasi, iqtisadi, hərbi-inzibati məsələlərini həll etmək üçün keçirilən məclisdir.

"Oğuz Kağan" türk xalqlarının yaratdığı qəhrəmanlıq dastanıdır və türkün qəhrəmanlıq tarixini əks etdirir.

"OĞUZNAMƏ" – son dövrlərə qədər türk elminə məlum olmayan, XV-XVI əsrlərdə üzü köçürülən əlyazmadır. Təxminən iki min atalar sözü və məsəllərdən ibarət topludur. Əlyazma Peterburq Dövlət Universitetinin şərq fakültəsinin kitabxanasında (əlyazmalar şöbəsi: inv. 121/58) mühafizə olunur. Titul səhifəsində əsərin və tərtibçi müəllifin adı ərəb əlifbası və cüzi fərqlə iki dəfə yazılmışdır. Fransız və ərəb əlifbası ilə kitabın sahibi olmuş şəxsin adı da göstərilmişdir. O, Yevgeni Timayevdir. Ehtimal ki, ərəb əlifbası ilə olan qeydin müəllifi başqa adamdır. Sonra 1864-cü il tarixi qeyd edilir. Ərəbcə qeyddə kitabın rəcəb ayının 4-də tamamlandığı da göstərilir. 1009-cu ilə kitabda işarə də vardır. Həmin hicri tarixinə əsasən məcmuənin XVI əsrin sonunda, yaxud XVII əsrin əvvəlində qələmə alındığı güman edilir. Ehtimal ki, bu başqa mənbədən götürülmüşdür. Kitabın həcmi 78 səhifədən ibarətdir, hər səhifədə 15 sətir yerləşdirilmişdir. Vərəqələr səhifələnməmişdir. Orta əsr əlyazma kitablarına uyğun olaraq, hər səhifənin altında (sol guşədə) növbəti səhifənin birinci sözü yazılmışdır. Məcmuədəki nümunələr ərəb əlifbasının sırası ilə düzülmüşdür. "Oğuznamə" türkün dil və təfəkkür incilərini sistemli şəkildə bizə çatdıran, türk dili tarixini öyrənmək üçün mənbə olacaq bir abidədir. "Oğuznamə"də verilən atalar sözü və məsəllərdə ərəb-fars sözləri azlıq təşkil edir. Təxminən yeddi-səkkiz fars, ərəb məsəlinə təsadüf edilir. "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsindən sonra rast gəlinən ikinci qiymətli əlyazma "Oğuznamə"dir. Orada toplanan atalar sözü və məsəllərin böyük əksəriyyətinin dili XI-XII əsrlərə aid

edilir. “Oğuznamə”ni Samət Əlizadə müqəddimə, lüğət və şərhlərlə çap etdirmişdir (1987).

“OĞUZNAMƏLƏR” – qədim oğuz-türk tayfaları və onların əsatiri əcdadı Oğuz xan (Oğuz Kağan) haqqında epik rəvayətlərdir. Oğuzlar haqqında yaradılan bədii əfsanəvi və bir qədər tə tarixi səciyyəli əsərlər hamısı "Oğuznamələr"ə daxildir. “Oğuznamələr”in əsas xüsusiyyətlərindən biri onların yazılı mənbələrə əsaslanmaqdan çox əfsanə və reallığın qarşılığı kimi hadisələri əks etdirməsidir. Böyük tarixi dövrləri, böyük hadisələri əks etdirən “Oğuznamələr” bir xalqın yaradıcılıq məhsulu olmaqdan çıxır. Bütünlükdə türk xalqlarına məxsus düşüncə hadisəsi kimi təsəvvür yaradır. “Oğuznamələr” türk xalqlarının həyatını, məişətini, tarixini, dünyagörüşünü, həyat fəlsəfəsini əks etdirən əsaslı mənbədir. “Oğuznamələr” böyük zamanları şifahi düşüncədə keçib gəlmişdir. Konkret olaraq tarix baxımından onların hansı zamanda meydana gəlməsini müəyyənləşdirmək bütünlükdə mümkün deyildir. Araşdırmalar onların XIII-XIV əsrlərlə bağlandığını göstərir. Digər istiqamətdə “Oğuznamələr”in X əsrə aid olması bir çoxları tərəfindən göstərilir. Oğuz xanın igidliyi, oğlanlarının doğuluşu, hərbi yürüşləri, oğuzların və səlcuqların törənləri, dövlətçilik ənənələri və s. özünün ifadəsini tapır. M.Kaşğarinin “Divani-lüğət-it türk”, Rəşidəddinin “Cami ət-təvarix”, Dəvadərinin “Kənz əd əl-dürər və cami əl-qürər”, Yazıçıoğlu Əlinin “Oğuznamə” (“Səlcuqnamə”), Əbül Qazinin “Şəcərəyi-tərakimə”, “Şəcərəyi-türk” və s. əsərlər “Oğuznamələr” silsiləsinə daxildir. “Kitabi-Dədə Qorqud” dastanları, oğuzlarla bağlı yaranan qəhrəmanlıq nəğmələri, səmavilər və s. də “Oğuznamələr”ə daxildir. Oğuzlar türkdilli tayfa birlikləridir. Orxon-Yenisey abidələrində “oğuz budun” kimi qeyd edilir. M.Kaşğari oğuzların 22, Rəşidəddin 24 tayfadan ibarət olduğunu göstərir. Oğuz tayfaları "bozok" və "uçok" adı ilə iki qrupa ayrılır. VII əsrin əvvəllərində Türk xaqanlığının tərkibində doqquz oğuz tayfa ittifaqı qeyd edilir. Uyğurların bu ittifaqda üstünlüyü də görünür. IX əsrdə uyğurların qırğızlar tərəfindən sıxışdırılması və s. nəzərə çarpır. IX əsrin sonu, X əsrin əvvəllərində oğuzların əsas hissəsi Sırdəryanın orta və aşağı axarı ilə Emba ilə Ural çayı arasındakı bozqırlarda, şimalda Volqa və Don çaylarına qədər, cənubda Manqışlağa, Xəzər dənizinə, Qafqaza, Şərqi Avropaya qədər böyük ərazini əhatə edir. X əsrdə bu ərazilərdə qüdrətli Oğuz dövləti yaranır. Məhz “Oğuznamələr” özlüyündə bir mənbə kimi bu böyük ərazini və böyük mədəniyyəti ehtiva edir. “Oğuznamələr” oğuzların yaratdığı mədəniyyət hadisəsidir. Oğuzlar haqqında təsəvvürlər, bilgilər, mədəniyyət, düşüncə toplusudur. Oğuzlarla bağlı olanların bilgi kitabıdır.

“OĞUZOĞLU” – aşıq havasıdır. Hansısa təsadüfi səhvin nəticəsi olaraq XX yüzillikdə bu hava “Keşişoğlu” kimi də adlandırılmışdır. Cənubi Azərbaycan mühitində bu hava doğru olaraq “Oğuzoğlu” adı ilə adlanır. Obraz-emosional məzmununa görə qəhrəmanlıq, cəngi havalar qrupuna daxildir. Havanın döyüşkənlik, cəsurluq toposu ilə bağlı semantik çalarları onun qəhrəmanlıq das-

tanlarında ifası üçün zəmin yaradır. Sazda şah pərdə kökündə ifa olunur. Birinci melobəndin intonasiya məzmunu divani pərdədən açıq simə qədər ambitusda inkişaf edir. Məqam-intonasiya əsası Şur məqamına uyğundur. Ə.Eldarovaya istinadən qeyd etmək olar ki, havanın erkən variantlarının məqam-intonasiya quruluşunda pentatonikanın ünsürləri müşahidə edilmişdir. Tipik intonasiya formullarından birinin əsasını divani-orta-şah pərdələri üzərində qurulan trixord təşkil edir. İnstrumental girişinin əsasını bu intonasiya özəyinin dəfələrlə təkrarlanması təşkil edir. İnstrumental girişin ikinci mühüm intonasiya blokunun təməlində sazın şah-orta-açıq simi üzərində qurulan sintaqma durur. "Oğuzoğlu" havasının vokal periodu yüksək emosionallıq və gərginlik aşılayan "çağırış" intonemasından başlayır. Melobəndin əsasını divani pərdə üzərində qurulmuş reçitativ-deklamasiyalı melodiya təşkil edir. Ənənəvi olaraq zildən oxunan üçüncü bənddə melodiyanın istinad pərdəsi yuxarı köçürülür. Ə.Eldarovanın qeyd etdiyi kimi, "Oğuzoğlu" havasında "ikinci bənd əvvəldən axıra kimi bir oktava yuxarı ifa olunur". Havanın metr-ritmik əsasını qeyri-müntəzəm (tempo rubato) ilə müntəzəm bəhrlərin uzlaşması təşkil edir. Havanın ikitəbəqəli metr-ritmik təşkili bu nümunəyə daxili dinamizm gətirən əsas ünsürlərdən biridir. Döyüşkənlik, qəhrəmanlıq ruhu musiqi dilində ilk növbədə havanın ikipaylı metr-ritmik təşkilində ifadə olunur. Ritmformulanı havanın əsas ritmik modusu hesab etmək olar. Kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Poetik mətninin əsasını qoşma təşkil edir. "Oğuzoğlu" havasında melopoetik əlavələr mühüm formaqurucu və semantik funksiyalar yerinə yetirir. Melosətirlərin təqtilərə bölünməsində və sezuranın yaranmasında mətndənkənar əlavə hecaların önəmli rolu vardır. Hər melobənddə ilk beytdən sonra melopoetik əlavələr, kupletin sonunda isə qaytarma (sonuncu misranın təkarı) səslənir. Havanın ifasında qəhrəmanlıq semantikası ilə bağlı olan çoxsaylı çağırış intonemalar, gərgin qlissando və artikulyasiyanın digər növlərindən istifadə edilir. Hava etnomusiqişünaslar T.Məmmədov, K.Dadaş-zadə və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

Oğuzoğlu, Koroğlu şikəstəsi

OLDFİLD ANNA (1963 – ABŞ) folklorşünas, musiqişünas. Viskonsin Universitetinin (ABŞ) elmi əməkdaşı. "Women Ashigs of Azerbaijan: tradition and transformation" əsərinin müəllifidir. "Azerbaijan İnternational" jurnalında Azərbaycan aşıq sənətinə dair bir sıra məqalələri dərc olunub. "Aşıqların musiqisi" ("Music of Bards"), "Azərbaycan aşıq şairləri" ("The poet minstrels of Azerbaijan"), "Aşıq Pəri: əfsanə və xalq poeziyasının qadın ifaçıları" ("Ashug Pari Majlisi: women performers of legend and folk poetry") adlı

məqalələrində aşıq sənətinin bəzi tarixi-nəzəri məsələləri işıqlandırılıb. Əsərlərində Azərbaycan aşıq sənətinin qaynaqları, türk mifoloji-dini sistemi ilə bağlılığı haqqında məlumat vermişdir. Azərbaycan aşıq ədəbiyyatı və musiqisini ümumtürk mədəniyyətinin ayrılmaz tərkib hissəsi adlandırmışdır. Azərbaycan aşıq yaradıcılığının tarixi inkişaf yoluna nəzər salaraq qeyd etmişdir ki, mənşə baxımından qədim türk-şaman düşüncəsi ilə bağlı olan bu sənətin ilk nümunələri ozanlar tərəfindən ifa edilmişdir. XIV-XV yüzilliklərdə aşıq sənəti İslam dini, təsəvvüf dünyagörüşü ilə sıx bağlı olmuşdur. Alimin gəldiyi qənaətə görə, Azərbaycan aşıq sənəti bütöv bir sistemdir. Bu sistemə aşıq yaradıcılığının bədii irsi, tarixi dəyərləri, ustad-şagird münasibətləri, dastan, şeir, musiqi repertuarı, geyim, yazılı ədəbiyyatla əlaqələri və s. anlayışlar daxildir. Bu sistemdə saza xüsusi yer ayıraraq qeyd etmişdir ki, "Azərbaycan türkləri saza müqəddəs bir varlıq kimi baxmışlar. Saz onların mədəniyyətinin ayrılmaz bir hissəsidir". Araşdırmalarının mühüm hissəsi Azərbaycan qadın aşıqlarının yaradıcılığına həsr olunub. "Aşıq Pəri məclisi"nin fəaliyyətini işıqlandıran müəllif belə qənaətə gəlmişdir ki, bu saz-söz məclisi Azərbaycan aşıq sənətinin təbliğində, yeni istedadlı aşıqların ortaya çıxmasında önəmli rol oynamışdır.

OLEARİ ELŞLEGER ADAM (1603, Saksoniya – 1671, Qottorp, Şlezviq) – alman, səyyahı Leypsiq Universitetində dərs demişdir. Holşteyn hersoqunun sarayında qulluq etmişdir. 1633-1634-cü illərdə Şlezviq-Holşteyn səfirliyinin tərkibində Rusiyada, Səfəvilər dövlətində olmuşdur. 1643-cü ildə səyahətləri haqqında xatirələrini yazmışdır. Xatirələrdə Azərbaycanın təbiəti, tarixi, iqtisadiyyatı, adət-ənənələri, Azərbaycan dilinin yayılma arealı (İraq, İsfahan və s.), Səfəvilər dövləti, ədəbiyyatı, mədəniyyəti, incəsənəti haqqında maraqlı məlumatlar, şəkil və xəritələr vardır. Dədə Qorqud, onun qəbri haqqında məlumatlar, rəvayətlər də orada yer almışdır. "Opisaniye puteşestviya v Moskoviyu i çerez Moskoviyu v Persiyu i obratno" (SPB, 1906) kitabı çap olunmuşdur.

OLONXO – qəhrəmanlıq səciyyəli dastanlardır. Yakutlar çoxəsrlik mədəni abidələrini "olonxo" adlandırmışlar. Olonxolar epos səciyyəli olurlar. Süjetləri, surətləri və üslubi baxımdan birbirinə yaxın olan dastan toplusudur. Yakutların "olonxo" adlandırdığı nümunələr hər biri on-on beş min misralıq nəzmdən və ritmli nəsrdən ibarətdir. Bu dastanlarda qısa nəsr parçaları da özünə yer tapır. Məlum olduğu kimi, olonxolar musiqinin müşayiəti olmadan söyləyicilər (olonxosutlar) tərəfindən ifa edilir. Monoloqlar oxunur, qalan hissələr deklamasiya halında böyük sürətlə söylənir.

ON DÖRD MƏSUM – "cahardəhiməsum". Aşıq yaradıcılığında, dastanlarda, müəmmalarda işlək termin. Ustadlar on dörd məsum dedikdə Həzrəti Məhəmməd, Həzrəti Fatimə və on iki ima-

ma işarə etmişlər. Məhəbbət dastanlarında qəhrəmanın müraciətlərində, ən ağır anlarında, sınaq məqamında "on dörd məsum" bir mənəvi güvənc yeri kimi diqqət önünə çəkilir.

ORATORİYA – çoxhissəli vokal-simfonik əsər. Solistlər, xor və simfonik orkestr üçün yazılmış musiqi janrı. Oratoriya xor epizodları, simfonik fraqmentlər, ariya, reçitativ və ya ansamblardan ibarət olan vokal nömrələrin bədii sıralanmasından yaranır. Bəstəkar V.Adıgözəlov "Qarabağ şikəstəsi" adlı oratoriya yazmışdır. Əsər ənənəvi tərkib üçün yazılmışdır. Bununla yanaşı, bəstəkar oratoriyaya xanəndə-solistin oxuduğu muğam parçalarını, solo-tarın çaldığı muğam epizodunu və bədii qiraət hissəsini daxil etmişdir. Oratoriya 7 hissəlidir. VII hissə "Qarabağ şikəstəsi" əsasında qurulmuşdur. Şikəstənin instrumental mövzuları və vokal improvizasiyası eyni ilə saxlanılmış, eyni zamanda, bəstəkar, polifonik fakturadan, rəngarəng harmonik akkordlardan, ostinat metr-ritmik fonun səslənməsindən yararlanaraq hissəni əzəmətli, nikbin ovqatda təfsir etmişdir. "Qarabağ şikəstəsi" V.Adıgözəlovun şərhində qələbə, zəfər himninə çevrilmişdir. Şikəstənin əsas mövzusu leytmövzu mahiyyəti daşıyaraq digər hissələrdə də (III, IV, VI hissələr) səslənir və bütün əsərdə tamlıq, bütövlük yaradır.

"ORDUBADI" – aşıq havası. Şirvan aşıq mühitində ifa olunur. Naxçıvan aşıq mühitində yaranmış eyni adlı havanın variantı. Ordubadlı aşıq Kərim tərəfindən yaradıldığı ehtimal olunur. Poetik mətnin əsasını aşıq şeir formaları olan gəraylı və ya qoşma təşkil edir. Orta pərdə kökündə ifa olunur. Oynaq, rəqs ovqatlıdır. Dəqiq ölçülü, hərəkətli, ikixanəli yığcam musiqi ibarələrindən ibarət melodiya rəqs havalarına xas olan axarda və əsas dayaq tonuna (orta pərdə) istiqamətlənməklə yaranır. Melodiyanın sonrakı inkişafı eyni metr-ritmik quruluşlarla daha yüksək pillələri (kök pərdə zili) əhatə edir, hətta orta pərdə zilinədək qalxır. Məqam-səs sistemi Rasta uyğundur. Hava başlanğıc mövzulara qayıdaraq tamamlanır. İ.İmamverdiyev tərəfindən instrumental şəkildə nota salınmışdır.

ORDUBADİ MƏMMƏD SƏİD HACAĞA OĞLU (1872, Ordubad şəhəri–1950, Bakı) – Görkəmli nasir və dramaturq. "Koroğlu", "Nərgiz", "Səfa", "Nizami" operalarının librettosunu hazırlanmışdır (1935-1947). N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, M.Ə.Sabir haqqında məqalələr yazmışdır. "XII əsr Azərbaycan ədəbiyyatı və onun klassik Şərq ədəbiyyatına təsiri" adlı elmi-tədqiqat əsəri vardır. "Dumanlı Təbriz" (1933-1948), "Qılınc və qələm" (1946-1948), "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940) tarixi romanları vardır. Xalq ədəbiyyatı motivlərindən, dastanlardan güclü şəkildə bəhrələnmişdir. Dastan təhkiyəsi onun irihəcmli əsərlərində üs-

tünlük təşkil edir. "Koroğlu" dastanının əsasında eyniadlı operanın (Ü.Hacıbəyli) librettosunu qələmə almışdır.

ORDUBADLI ABBAS (XIX əsrin əvvəlləri, Ordubad rayonu, Dəhri kəndi – 1932, Şəmkir rayonu) – Təxminən 100 il ömür sürmüşdür. Tiflisdə nəşr olunan "Dan ulduzu"nda (1927) haqqında məqalə və fotoşəkli çap olunmuşdur. Orada aşığa istinadən vurğulanır ki, Aşıq Abbasın atası Güney Azərbaycanda Kəmki dağının Daran yaylağında qoyunçuluqla məşğul olurmuş. Bir gün apardığı qoyunlar borana düşüb qırılmışdı. Bu hadisədən sonra Ordubad rayonuna gəlmişdir. Dəhri kəndində yurd salmışdır. Uşaqlıq və gənclik illəri xeyli ağır keçmişdir. Heç bir sənətkar yanında şagird olmamışdır. Aşıqlığı müstəqil öyrənmişdir. 25 yaşından aşıqlıq etmişdir. Qırx yaşına qədər ailə qura bilməmişdir. Aşıq Abbas orta əsr sənətkarları kimi gəzərgi həyat keçirmişdir. Güney Azərbaycanın, Yaxın Şərqin şəhər və mahallarını gəzmiş, Mərənd, Təbriz, Xoy, Naxçıvan, Bakı, Batum, İrəvan, Gəncə, Tiflis və d. yerlərdə olmuş, məclislər keçirmişdir. Ordubaddakı "Əncümani-şüəra"nın fəal üzvlərindən olmuşdur. Aşıq Abbas ucaboyli, Koroğlu timsallı, qalın qaraqaşlı, irigözlü bir şəxs olmuşdur. Aşıq kimi məclis apararkən çox sərbəst olmuş, mətnə özünün əlavələrini etmişdir. Xalq arasında Aşıq Abbasla bağlı çoxlu əhvalat, hekayə dolaşmaqdadır. Cəmil Rəfiyev "Aşıq Abbas Dəhri" (Azərbaycan" jur., 1979, N 9) adlı məqaləsində Aşıq Abbasın qohumları, yaxınları haqqında geniş məlumat verir. Toplularda şeirləri getmişdir.

ORDUBADLI KƏRİM (təqribən XVII əsr) – aşıq sənətinin görkəmli ustadlarındandır. Təəssüf ki, haqqında elə bir məlumat yoxdur. "Kərim və Süsən" dastanı onun adı ilə bağlıdır. Bu dastan həm də "Ordubadlı Kərim" adı ilə tanınır. Orada Ordubadlı Kərimin həyatının müəyyən məqamları dastanlaşmış formada verilmişdir. Şirvan mühitində geniş yayılmış "Ordubadı" saz havasının da yaradıcısının Ordubadlı Kərim olduğu ehtimal edilir.

ORDUBADLI YUSİF YUNİS OĞLU (1932, Ordubad rayonu, Bilov kəndi – 1991, Zaqatala) – Ordubad mühitinin yetişdirdiyi sənətkarlardandır. 1957-ci ildə Zaqatalaya köçmüş və orada yaşamışdır. Balakən rayonunda Aşıq Məhəmmədə şagird olmuşdur. Aşıq sənətinin sirlərini, ustadların yaradıcılığını, dastanları ondan öyrənmişdir. Sənətə bələd olduqdan sonra müstəqil aşıqlığa başlamışdır. Aşıq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır.

"ORTA MÜXƏMMƏS" – aşıq havasıdır. Obraz-emosional məzmununa görə oynaq, şux havalar qrupuna daxildir. "Orta müxəmməs" havası orta pərdə kökündə ifa olunur. Məqam-intonasiya məzmunu orta pərdəyə istinad edir və Rast məqamı ilə üst-üstə düşür. İntonasiya özəyi ayaq divani-şah-orta pərdələrə əsaslanır. "Orta müxəmməs" havasının intonasiya inkişafı üçün tetraxord həcmində məqam dayaqlarının davamlı şəkildə çalarlanması xasdır. Melodikasına əsas pərdələr üzrə enən hərəkət, çoxsaylı melizmatik bəzəklər xasdır. Ənənəvi olaraq üçüncü bəndi zildən oxunur, istinad pərdəsi yuxarı

Nümunə professor T.Məmmədova məxsus not yazısının foto surətidir

köçürülür. “Orta müxəmməs” havasının vokal partiyasının metr-ritmik əsasını 6/8 ölçü təşkil edir. Havanın ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Melobənd bir intonasiya kompleksinin çoxsaylı variantlı təkrarı üzərində qurulmuşdur. Poetik mətninin əsasını müxəmməs təşkil edir. Havanın melosətirləri dörd heca qrupuna bölünür (7 + 8; 8 + 8). Sezuralar vasitəsilə melosətirlərin quruluşunda müşahidə olunan müxtəlif heca qruplaşdırılması havanın ritm-intonasiya məzmununu zənginləşdirən əsas amillərdən biridir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

ORQAN PUNKTU – uzun zaman saxlanılan və ya dəfələrlə təkrar olunan bas səsi və ya akkord. Orqan punktunun fonunda və ondan asılı olmayaraq, yuxarı səslərdə hərəkət baş verir və akkordlar dəyişir. Bu tip musiqi quruluşu sadə ikisəslilik (çoxsəslillik) yaradır və polifoniyanın ilkin elementlərini özündə daşıyır. Aşıq havalarında orqan punktu ən geniş yayılmış polifonik ünsürlərdən biridir və burdon səsin ("dəm saxlama”) saxlanması ilə üzə çıxır. Burdon aşıq havalarının forma-strukturunun və emosional-obraz quruluşunun formalaşmasında xüsusi rol oynayır və melodiyanı daha qabarıq edir, ifadəliliyini artırır. Aşıq havalarının instrumental musiqisində: a) birsəsli “dəm” – orqan punktu (“Heydəri”); b) həm oxumada, həm də çalğıda birgə orqan punktu (“Atüstü Kərəmi”); c) ikili orqan punktu – ikili “dəm” (“Qaytarma”); d) iki bəm və dəmlərin yaratdığı akkordlu orqan punktu (“Gilənar”); gizli polifoniya əlamətləri yaradan orqan punktu (“Quba Kərəmi”) mövcuddur.

ORTA PƏRDƏ – sazın pərdələrinin açıq sim üzərində yaratdığı səs düzümündə 3-cü pərdə (mi bemol1 – 15 pərdəli sazda). Bu pərdəyə əsasən yaranan kökdə (orta pərdə kökü) “Ürfani” və s. havaları çalındığına görə, “ürfani pərdəsi” və s. də deyilir.

ORTA PƏRDƏ KÖKÜ – sazda simlərin əsas köklənmə üsullarından biri. Bəm simlər orta pərdəyə əsasən köklənməsinə görə, orta pərdə kökü adlanır və simlər seksta-kvinta intervalları üzrə düzülür. Sazın orta pərdə kökü havaların instrumental melodikasının özünəməxsusluğunun yaranmasına öz təsirini göstərir. Aşıq havaları içərisində bir qisim havalar bu kök üzərində ifa olunur. “Orta” adı ilə başlayan havalar məhz bu kökə işarədir: "Orta müxəmməs", "Orta Sarıtel", “Orta Cəlili” və s. “Urfani” havası da bu kök üzərində yarandığına görə “Ürfani kökü” kimi də adlandırılır. “İncəgülü”, “Duraxanı”, “Bağdad dübeyti”, “Paşaköçdü”, “Laçını”, “Quba Kərəmi”, “Zarıncı” və s. havalar bu kökdə ifa olunur. Orta pərdə kökü “Rast” məqamına uyğundur. ***Bax Kök.***

ORTA PƏRDƏNİN ZİLİ – sazın pərdələrinin açıq sim üzərində yaratdığı səs düzümündə 13-cü pərdə – mi bemol2 (15 pərdəli saz). Orta pərdədən (mi bemol1) bir oktava yuxarı səslənən pərdə.

ORTA SİMLƏR – sazın üç qoşa simindən biri. Alt simlər (zil simlər) və üst simlər (dəm simlər) arasında yerləşir.

Orta simlər köklənmə zamanı yaranan akkordun ən aşağı səsi – ən bəm səsi olduğuna görə "bəm simlər" adlanır. Mühüm əhəmiyyət daşıyan simlər qrupudur. Sazın kökü bu simlər qrupuna əsasən müəyyən olunur. Müvafiq aşıq havasına uyğun olaraq bu simlərdə kök, yəni səsyüksəkliyi dəyişir.

"ORTA ŞƏŞƏNGİ" – aşıq mahnısı. "Şeşəngi" (Şəşəngi) havalar qrupuna daxildir. Şirvan aşıq mühitində yaranmışdır. Poetik mətninin əsasını qoşma təşkil edir. Xanəndə yaradıcılığında "Sarıköynək" adı altında xalq mahnısı kimi ifa olunur. Şən, nikbin ovqatlıdır, oynaq, rəqsvarı keyfiyyət daşıyır. Metrik əsasını 6/8 ölçü təşkil edir. Havanın instrumental variantı (balaban və zurnada) rəqs havası kimi geniş yayılmışdır. Məqam-intonasiya əsası Şura uyğundur. Mahnı kuplet formasındadır, ansambl şəklində (aşıq, balaban, nağara, qoşa-nağara) ifa olunur.

ORUCOV FƏZAİL CƏFƏR OĞLU (1976, Gədəbəy rayonu, Çaldaş kəndi – Bakı) – Solo-saz ifaçısıdır. "Fəzail Miskinli" adı ilə tanınır. ADMİU-nun teatr rejissorluğu fakültəsində təhsil almışdır (1993-1997). Magistratura və aspiranturanı bitirmişdir. "Azərbaycan dastanlarında teatrallıq və onun təzahür formaları" mövzusunda dissertasiya işi yazmışdır. ADMİU-nun müəllimidir.

"OSMANLI BOZOXU" – Bax: Bozoxu Koroğlu.

"OSMANLI DİVANİSİ" – Bax: Ayaq Divani.

"OSMANLI KOROĞLU" – "Koroğlu" silsiləsinə daxil olan aşıq havasıdır. Obraz-emosional məzmununa görə qəhrəmanlıq, cəngi havalar qrupuna daxildir. Sazda "Şah pərdə" kökündə ifa olunur. İntonasiya məzmunu kök pərdədən açıq simə qədər ambitusda inkişaf edir. "Osmanlı Koroğlu" havası ikitəbəqəli aşıq havaları qrupuna aiddir: dəqiq metr-ritmik təşkilinə malik olan instrumental partiya sərbəst vəznə əsaslanan reçitativ-deklamasiyalı vokal partiya ilə uzlaşır. İnstrumental girişi şah pərdə ilə kök pərdə arası diapazonda inkişaf edir. Melobəndinin ilk sintaqması sazın şah pərdəsi üzərində bərqərar olur. Yüksək tessiturada ifa olunan və sazın aşağı hissəsində səslənən instrumental partiya ilə müşayiət olunan başlanğıc seqment emosional gərginliyi ilə səciyyələnir. "Osmanlı Koroğlu" havasının ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Poetik mətninin əsasını qoşma təşkil edir. "Osmanlı Koroğlu" havasında melopoetik əlavələr mühüm formaqurucu və semantik funksiyalar yerinə yetirir. Hər melobəndin sonunda melopoetik əlavələr üzərində inkişaf edən tamamlayıcı epizod səslənir. Havanın ifasında qəhrəmanlıq semantikası ilə bağlı olan çoxsaylı çağırış intonemalar, gərgin qlissando və artikulyasiyanın digər növlərindən istifadə edilir. Hava 1984-cü ildə etnomusiqişünas K.Dadaş-zadə tərəfindən aşıq Şamil Piriyevin ifasından

nota köçürülmüşdür.

OVALAR (XVII əsr, Tovuz rayonu) – Tovuz mühitinin ustad sənətkarlarından olmuşdur. Əslən Təbriz-Qaradağdan olduğu söylənilir. Aşıq Ovalar Tovuz aşıqlıq ənənəsində adı bizə bəlli olan ilk sənətkardır. Şübhəsiz, bu mühitin kökləri daha qədimlərə bağlıdır. Aşıq Ovaların sənətini yaşadan, bu nəslin soy şəcərəsini zamanımıza daşıyan aşıqlar, el şairləri olmuşlar. Ovaların tanınmış şagirdlərindən biri XVIII əsrin ikinci yarısında yaşamış Şıvıldıqdır. Nəslin sonuncu qüdrətli sənətkarı Aşıq Əkbər Cəfərovdur. Təəssüf ki, mənbələr Aşıq Ovalarla bağlı faktları günümüzə qədər tam gətirib çatdırmamışdır.

OVSUN – ritual hadisəsidir. Ovsun (əfsun) müxtəlif xalqların təsəvvüründə, düşüncə sistemində çox-çox qədimlərə, ilkin təsəvvürlərə bağlanan və sonrakı çağlarda da yaşayan, dövrümüzə qədər gəlib çatan inam sistemidir. Dünya xalqlarının şifahi ədəbiyyatında ovsun mühüm bir hissəni tutur. Ovsun insanları bədbəxtlikdən qurtaran, xəstəliklərdən qoruyan, gələcək mənfiliklərin qarşısını alan, yaxşılıqlara yol açan, xoşbəxtliklərə çatdıran, varlanmağa, uğurlara və s. məsələlərə səbəb olmaq gücünə malik sehrli qüvvə və onun ifadə formuludur. Hələ qədim zamanlarda təbiət hadisəsini dərk etməyən və bu gücdə olmayan insanlar arzu və istəklərinə çatmaq üçün müxtəlif ovsunlara müraciət etmişlər. Ovsunçuluq ən qədim, həm də daha ilkin magik təsəvvürlərlə bağlı olan hadisədir. Bunlar vasitəsilə qədim insanlar təbiət qüvvələrinə, qarşılaşdığı hansısa müşkülə təsir etmək mümkünlüyünü, onlar üzərində qələbəni düşünmüşlər. Ovsunda bütün olanlar sözə və sözün gücünə hesablanır. Ona görə də ovsunlarda söz düzümünün və söz seçiminin mühüm rolu vardır. Ovsunlarda söz bədii-poetik sənət faktı və ritual hadisəsi kimi yaşamış və bu gün də əhəmiyyətli yaddaş hadisəsi kimi müxtəlif formalarda yaşamaqdadır. Məhəbbət və qəhrəmanlıq dastanlartında (“Dədə Qorqud”, “Əsli və Kərəm”, “Nəcəf və Pərizad”, “Seydi və Pəri”, “Aşıq Qərib”) ovsunla bağlı çoxsaylı diqqətçəkici epizodlar vardır.

“OVŞARI” – Bax: Afşarı

OYMA SAZ – sazın növlərindən biri. Hazırlanma texnologiyasına görə sazlar çeşidli adlarla tanınır. Onlardan biri də oyma sazdır. Xeyli çətinliklə hazırlanır. Əsasən, qoz ağacından düzəldilmişdir. Sazbəndlər bu aləti ağacın içini oymaqla düzəltmişlər və ona görə də “oyma saz” adlandırmışlar. Qazax rayonunda sazbənd Kərəm Musayevin (1894-1974) atası Məhəmməd belə sazlar düzəltmişdir. Etnoqraf Məhəmməd Allahmanlı Qazax mühitini araşdırarkən oyma saz haqqında öz tədqiqatında məlumat vermişdir. Həmin oyma sazlardan ikisi Məhəmməd Musayevin nəvəsi Bayram tərəfindən indi də yadigar kimi qorunub saxlanır.

OYUN – mədəniyyət hadisəsidir. Mənşə etibarilə ilkin təsəvvürlərlə bağlı olub, mədəniyyət, düşüncə, həyati fəaliyyət hadisəsi kimi geniş bir sferanı əhatə edir. Tarixən ibtidai dini mərasimlərlə, idmanla, hərbi və digər məşqlərlə, incəsənətlə, daha çox incəsənətin ifaçılıq

məqamları ilə əlaqəlidir. Oyun gələcəkdə uşaqların həyat hadisələrinə hazırlığını, dünyagörüşünü, düşüncəsini formalaşdıran və ona güclü təsirdə olan hadisədir. Oyun havaları məhz bu geniş və əhatəli sistemin müəyyən bir tərəfidir. Rəqs havaları folklor düşüncəsində oyun havaları ilə sinonimləşir. Şaman mərasimləri, onların fəaliyyət sistemi də müəyyən anlamda xalq düşüncəsində oyun adı ilə də göstərilmişdir. Xalq düşüncəsində "oyun çıxarmaq" da bura daxildir. Aşıq yaradıcılığında da oyun sənət sinkretizminin çoxmənalı və çoxplanlı təzahür şəkillərindən biridir.

OYUNBAZ – xalq düşüncəsində oyun çıxaran, oyun çıxarmağı sevəndir. Xalq mərasimlərində, mövsümlə bağlı mərasimlərdə və s. rituallarda oyunbazlıq edən, şən, şux, deyib-gülən, məzhəkələr çıxaran şəxslərə oyunbazlar deyərlərmiş. "Oyunbazlıq" bir termin kimi mahiyyətində mənfi və müsbət çalarları ifadə edir. Aşıq sənətində artıq hərəkət edənlərə, əndazədən çıxanlara "oyunbazlıq edir" deyərlər.

OZAN – Bax: Ozan sənəti

OZAN-AŞIQ MÖVZUSU BƏDİİ ƏDƏBİYYATDA – klassik və müasir ədəbiyyatda ozanlarla, aşıqlarla, ümumiyyətlə, sənət və onun mənşəyi ilə bağlı yaranan nümunələrdir. Klassiklər yaratdığı əsərlərdə musiqi alətinin hazırlanması, sənətin mənşəyi ilə bağlı maraqlı fikirlər yürütmüşlər. Ozan-aşıq sənəti klassiklərimizin, eləcə də müasir ədəbiyyatın həmişə diqqətində olmuşdur. Çünki bu mövzu ədəbiyyatın ən başlıca istinad mənbələrindəndir. N.Gəncəvinin, M.Füzulinin, Ş.İ.Xətayinin, M.P.Vaqifin, M.V.Vidadinin, S.Vurğunun, M.Müşfiqin, O.Sarıvəllinin, H.Arifin, N.Xəzrinin, Anarın, Elçinin, Kamal Abdullanın, M.Günərin, Z.Yaqubun, N.Kəsəmənlinin, Dilsuzun, A.Abdullazadənin və başqalarının əsərlərində ozan-aşıq mövzusu müxtəlif istiqamətlərdə problemə çevrilir. "Yeddi oğul istərəm"də aşıq obrazı, Anarın "Kitabi-Dədə Qorqud"u səhnələşdirməsi, orada Ozan obrazı, İ.Hüseynovun "Saz" povesti, K.Abdullanın "Yarımçıq əlyazma" romanı, N.Xəzrinin "Burla xatun", "Torpağa sancılan qılınc" və s. əsərlərin hamısı problemin bədii ədəbiyyat üçün aktuallığını göstərir.

"OZAN" – elm və sənət toplusu. Azərbaycan Aşıqlar Birliyinin orqanıdır. 2017-ci ildən çıxır. İldə bir dəfə nəşr olunur. Toplunun baş redaktoru Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlıdır. Redaksiya heyətində Azərbaycanla yanaşı ABŞ, Türkiyə və Avropadan olan aşıqşünaslar yer alır.



Aşıq yaradıcılığının aktual problemləri, ustad sənətkarların həyat və yaradıcılığı ilə bağlı problem məqalələr, yubiley tədbirləri, araşdırma yazıları və s. məcmuənin səhifələrində özünə yer alır.

Aşıqlar Birliyinin bir il ərzində gördüyü işlər, hesabat, elmi məqalə və məruzələr məcmuədə mühüm bir hissəni təşkil edir. Aşıqlarla bağlı yeni nəşr olunan kitabların təqdimatı da toplunun əsas istiqamətlərindəndir. Ustad sənətkarların yubileyləri də ardıcıl şəkildə diqqətdə saxlanılır.

Azərbaycan aşıqlarının VI qurultayının (28 sentyabr 2018-ci il) bütün gedişi stenoqram şəklində toplunun ikinci buraxılışında öz əksini tapmışdır.

OZAN MƏHƏLLƏSİ – ozanlarla əlaqədar yaranmış antroponimik vahiddir. Azərbaycanın ayrı-ayrı regionlarında müxtəlif sənət, peşə adları ilə adlanan məkanlar vardır. Bu xalqın məişətinin, məşğuliyyətinin bir hissəsinin ifadə faktıdır. Ozan məhəlləsi də bu silsilədəndir. Gəncədə Ozan məhəlləsinin olması sözün etimologiyasında ozanların burada çoxluq təşkil etməsi və buranın sənət məkanı kimi güclü olması faktını deməyə əsas verir.

OZAN SƏNƏTİ – Folklor və tarix mənbələrinin verdiyi bilgiyə əsasən əski cağlarda ozanın yerinə yetirdiyi vəzifələrlə qamın funksiyası arasında elə bir ciddi fərq olmadığı aydınlaşır. Daha doğrusu, türk tayfalarında qam-şamanın çoxvariantlı adlarından biri də “ozan" olmuşdur. Bu ad oğuzlar arasında daha çox yayılmış və tədricən "qam" sözünü əvəz etmişdir. İlkin ibtidai çağlarda ozanlar da ruhani, təbib, musiqiçi, tayfa ağsaqqalı, xaqanın məsləhətçisi, yardımçısı və b. bu kimi qam-şaman vəzifələri icra etmişlər. Bir sıra təkamül proseslərindən sonra bu keyfiyyətlərin müəyyən bir axarı – musiqiçi-söz sənətkarı xətti güclənməyə başlamış və ozanlar da əsasən çalıb-çağıran, söz düzüb-qoşan el sənətkarı səciyyəsi qazanmışlar. Bununla belə, onlar əvvəlki keyfiyyətlərini tamamilə itirməmiş, həmin keyfiyyətlərin əsas cizgi və əlamətlərini musiqiçi-söz sənətkarı fəaliyyətinin tərkib hissəsinə çevirmişlər. Məsələn: ad qoyma, qeybdən, gələcəkdən xəbər bilmə, ulusun – tayfanın müşkülünü həlletmə keyfiyyətləri sırf qam-şamana məxsus əlamət olsa da, onların icrası ilə ozan – Dədə Qorqud məşğul olur.

Dədə Qorqud ozanların, habelə baxşıların piri, ustadı, yol göstəricisi və hamisidir. Bununla yanaşı, o həm də ilk ozandır, ilk oğuznamənin yaradıcısı və söyləyicisidir. Qopuz havalarının ilk bəstəçisidir.

Ozan Qorqudun qam keyfiyyəti "Kitabi-Dədə Qorqud" dastanının bəzi məqamlarında tam qabarıqlığı ilə öz əksini tapmışdır. Dastanın bir yerində ozan – Qorqud özünün qam keyfiyyətindən – ruhlar dünyası, ilahi aləmlə bağlılığından mövcud hadisəyə təsir etmək vasitəsi kimi istifadə edir: "Dəli Qarcar qılıncı əlinə aldı. Yuqarısında öygə ilə həmlə qıldı. Dəli bək dilədi ki, dədəyə dəpərə çala. Dədə Qorqut ayıtdı: "Çalırsan, ələün qurısun, – dedi. Həqq-təalanın əmrilə Dəli Qarcarın əli yuqarıda asulu qaldı. Zira Dədə Qorqut vilayət issi idi, diləgi qəbul oldı". Vilayət issi – Tanrı dərgahı ilə əlaqəlilik keyfiyyətinə vəlilik, ovliyalıq statusuna malik olan Dədə

Qorqud, şübhəsiz ki, adi ozan deyil, ilahi aləmlə əlaqəli bir ozanlar piridir.

Ruhlar aləmi ilə əlaqəliliyin bir göstəricisi də islam öncəsində ozanların ruhani vəzifə icraçılığı ilə məşğul olmasıdır. Belə ki, dəfn-yas-yuğ mərasimlərində ozanlar qopuzda niskilli havalar çalaraq dünyasını dəyişənin müsbət keyfiyyətlərindən söz açar, onun xasiyyət və qabiliyyətinin üstün tərəflərini xatırladardılar. Bahadırların, böyük nüfuz və hörmət sahibi olan şəxslərin yuğ mərasimləri daha təntənəli keçirilir və ozanlar günlərlə onların şücaətləri haqqında çalıb-çağırır, şənlərinə niskil-kədər içində tərif və öygülər yağdırırdılar. "Alp Ər Tonqa" yuğlaması buna əyani örnək sayıla bilər. Yuğ mərasimində ozanın yerinə yetirdiyi ruhani vəzifənin əsas mahiyyəti mifoloji səciyyə daşıyırdı. Musiqi ruhlar dünyası ilə əlaqə yarada bilən bir vasitə kimi qəbul olunduğundan qopuz musiqisi və ozan oxuması ölənin ruhunu qara-şər qüvvələrdən qoruyaraq rahat şəkildə ruhlar aləminə yola sala biləcək bir vasitə sayılırdı. Türklərin islamı qəbulundan sonra ozanların bu sahədəki fəaliyyətinə son qoyulmuşdur.



Oğuz cəmiyyətində uşağa ad qoymaq hüququnun ozanda – Dədə Qorqudda olması da onun ilahi aləmlə bağlılığını göstərir. "Dədəm Qorqud gəlsün, bu oğlana ad qoysun" – qənaəti adın Tanrı tərəfindən bəxş edilməsi və ruhlar dünyasına bağlı olan qam-ozan vasitəsilə gətirilə bilməsi inamından doğurdu.

Tayfa ağsaqqalı, dolaşıq işlərin çözücüsü, ulusun yol göstəricisi və başqa bu qəbildən olan xüsusiyyətlər ozanda – Dədə Qorqudda yaşayan qam keyfiyyətləridir.

Musiqiçi-söz sənətkarı kimi, ozan qalibiyyətli hərbi yürüşlərin və etnoqrafik mərasimin-toy-düyün və başqa şadlıq yığnaqlarının çalıb-çağıranıdır. "El-evünizdə çalub ayıdan ozan olsun" – alqış-duası onun əsas funksiyasını dəqiqliyi ilə ifadə edir.

Ozana çalıb-çağırması müqabilində qiymətli hədiyyələr verilməsi, istəyinin yerinə yetirilməsi, razı yola salınması oğuz cəmiyyətinin adətidir. Qazan xanın onu öyüb-tərifləyən ozana: "Məndən nə dilərsən? Qul-qaravaşmı dilərsən? Altun-axçamı dilərsən, verəyim" – deməsi bu səbəbdəndir.

Ozan daim hərəkətdə olan, səyyar, gəzərgi sənətkardır. Onun bu əlaməti "Kitabi-Dədə Qorqud"da "Eldən-elə, bəydən-bəyə ozan gəzər", – cümləsi ilə də təsdiqlənir. Bundan əlavə, "Ər comərdin, ər nakəsin ozan bilür" – qənaətinin təşəkkül tapıb möhkəmlənməsində də ozanın çox yerlər gəzib-dolaşması, çox adamlar görüb-tanıması əsas amil kimi çıxış edir. Atlı həyat tərzi keçirən oğuzların sənətində səyyarlığın, hərəkət və dinamikanın mövcud olması təbii hal idi. Etnosun həyatda və sənətdə dinamikliyə üstünlük verməsi folklorda "At

ayağı külük, ozan dili çevik olur" poetik qəlibini də ortaya çıxarmışdır. Bu qəlib sonralar müəyyən dəyişikliyə uğrayaraq, "Aşıq dili yüyrək olar" şəklini almışdır.

Bahadırlıq və cəngavərliyi özünün həyat devizinə çevirən və tarix səhnəsində zəfərlərlə dolu yürüşləriylə şöhrətlənən bir etnosun sənətkarı, şübhəsiz ki, öz musiqi və söz repertuarını da həmin ovqat üzərində yaradırdı. Bu səbəbdən də ozanların, əsasən, qəhrəmanlıq, bahadırlıq təbliğ-tərənnüm edən mahnılar oxuması, oğuz igidlərinin şücaətlərindən, döyüş hünərlərindən bəhs edən dastanlar-oğuznamələr düzüb qoşması və söyləməsi tarixi zərurətdən irəli gələn sənət göstəricisi idi. "Ozanlar hələ Atilla dövründə – eranın V əsri və Atilla sarayından başlayaraq, səlcuqilər də daxil olmaqla, XV əsrə kimi qopuzları ilə saraylarda, şənlik və toplanışlarda bahadırları tərənnüm etmiş, onları tanıdıb yaşatmışlar... Qədim türk dövlətlərinin saraylarında, həmçinin Alp Ər Tonqa, Atilla kimi xaqan-sərkərdələrin, xalq qəhrəmanlarının ordusunda ozan-şairlər və musiqiçilər yaxından fəaliyyət göstərmişlər". XI-XII yüzilliklərdə səlcuq və məmlük ordularının yürüşləri zamanı hücumdan öncə ozanlar qopuz çala-çala qəhrəmanlıq nəğmələri oxuyaraq döyüşçülərin qələbə ruhunu gücləndirirdilər. Tarixi mənbələrdən əlavə olaraq orası da məlum olur ki, təkcə döyüşdən əvvəl yox, həm də vuruş başa çatan zaman ozanlar həmin döyüşdə qəhrəmanlıq göstərən bahadırların hünərlərini elə oradaca öyüb-tərifləyərək çalıb-çağırırdılar. Ozan repertuarının bir çox sənət örnəkləri bu tərzdə hadisənin içərisində yaranmış, oğuz igidlərinin vəsfini əks etdirən gerçək vuruş və yürüş hekayətləri kimi ortaya çıxmışdır. Yəqin ki, hərbi yürüşlərdə iştirak edən, ordularda qalibiyyətli vuruş əzmi yaradan ozanlar etnoqrafik mərasimlərdə – toy-düyündə, elat yığnaqlarında çalıb-çağıran siravi ozanlardan fərqlənmişlər. Zənnimizcə, ordu ozanlarına "alp ozanlar" deyilmişdir. "Kitabi-Dədə Qorqud"un Dəli Domrula həsr olunmuş boyunda "alp ozanlar"ın sıravi ozanlardan xüsusi vurğuyla seçilib ayrılması onların oğuz cəmiyyətində yüksək nüfuz və hörmətə sahib olduqlarını əks etdirir: "Dədəm Qorqud gəlübən boy boyladı, soy soyladı. Bu boy Dəli Domrulun olsun. Məndən sonra alp ozanlar söyləsün".

Ozanların orduya cəlb olunması, yürüş və vuruşlarda onların çal-çağırından, mahnı və söyləmələrindən ardıcıl və sistemli şəkildə istifadə edilməsi, əsasən, iki səbəbə söykənirdi. Birinci və üzdə olan səbəb odur ki, ozanlar qopuzda coşqun havalar çalaraq bahadırlıq nəğmələri, qəhrəmanlıq türküləri oxuyur və hərbi yürüşə hazırlaşan ordunun əhvali-ruhiyyəsini yüksəldir, döyüşçüləri qələbə, zəfər ovqatına kökləyirdilər. Ordu qarşısında ozanların toplu halında, dəstə ilə çalıb-oxuduğunu güman etmək daha inandırıcıdır. Toplu halında birağızdan oxunan ozan mahnıları erkən yüzilliklərdə və daha sonrakı çağlarda ordu marşlarının meydana gəlməsi üçün münbit bir zəmin olmuşdur.

Ozanların orduya cəlb olunmasının ikinci və daha çox dərində olan səbəbi musiqinin magik qüvvə sayılması ilə əlaqədardır. Əski türk təsəvvürünə görə, musiqi o biri dünya, ruhlar aləmi ilə bağlı olduğu üçün onun köməyi sayəsində qara qüvvələrdən-fəlakət, xəstəlik, düşmən və s. neqativliklərdən qorunmaq

mümkündür. Bu səbəbdən də oğuzlar mifik inancdan gələn belə bir qənaətdə möhkəmlənmişlər ki, ozan və onun qopuzu Tanrı dünyası ilə bağlı olan sehrli bir vasitə kimi düşmən – qara qüvvə üzərinə gedən ordunu öz magik gücüylə qoruyub toxunulmaz, yenilməz, məğlubedilməz edə bilər və qalibiyyəti asanlaşdırar.

Musiqinin qorxu, xəstəlik, ölüm, qara qüvvə, düşmən və s. bu kimi neqativlikləri qovub uzaqlaşdırmaq imkanı barədəki mifoloji təsəvvür Dədə Qorqudla bağlı bir rəvayətdə də öz əksini tapmışdır. Rəvayət olunur ki, Dədə Qorqud ölümdən qaçıb qurtarmaq, onu özünə yaxın buraxmamaq üçün qopuzu icad etmişdi. O dayanmadan gecə-gündüz qopuz çalırdı və bu musiqi alətinin ecazkar səsi sehrli magiyaya çevrilərək ölümü Dədə Qorquda yaxın buraxmırdı. Dədə Qorqud bu cür qırx il qopuz çaldı və ölümdən qoruna bildi. Nəhayət, qırx ildən sonra günlərin bir günü o, yorğunluğunu almaq üçün əl saxlayıb bir anlıq gözünü yumanda ölüm fürsətdən istifadə edərək qara bir ilana çevrildi və cəld Dədə Qorqudun üstünə atılaraq onu vurub öldürdü.

Musiqinin qeyri-adi gücü, ozan qopuzundakı səslərin hami-mühafiz keyfiyyəti barədəki əski mifik təsəvvürün geniş şəbəkəli izləri qədim türk cəmiyyət quruluşlarının əksəriyyətində müşahidə edilir. Belə ki, ibtidai mərhələnin tayfa başçılarından orta yüzilliklərin xaqanlarına – bəy, sultan və hökmdarlarınacan bütün ali idarəedicilər hansısa bir musiqi alətində çalmağı bacarmış, özləri musiqi alətində çalmağı bacarmayanlar isə yanlarında musiqiçi-qopuzçular saxlamışlar. Yad ölkələrin elçilərini – əcnəbiləri qəbul edərkən bədnəzər və ya ovsundan qorunmaq üçün xaqanlara əllərində qopuz tutmaq məsləhət bilinmişdir.

Folklor qaynaqlarının və tarixi faktların yuxarıdakı tarixi-mifoloji mənzərəsinə əsasən belə bir ümumiləşmiş mülahizə yürütmək olar ki, ozan öz tarixi funksiyasına görə musiqiçi və söz sənətkarı olmaqla yanaşı, həm də tayfa ocağının, ulusun, habelə öz etnosuna məxsus hərbi-siyasi qurumun – ordunun himayəçi-qoruyucusudur.

Ozanın mifoloji-estetik keyfiyyətləri sırasında qam-şaman kompleksinə daxil olan bilicilik-öncəgörməlik xüsusiyyəti də diqqət önündə duran tarixi əlamətlərdəndir. "Kitabi-Dədə Qorqud"un müqəddimə-təqdimat hissəsində ozan Qorqudun öncəgörənlik qabiliyyəti konkret cizgilərlə atributlaşır: "Oğuzun ol kişi tamam bilicisi idi, – nə diyərsə olurdu. Qaibdən dürlü xəbər söylərdi. Həqq təala könlünə ilham edərdi".

"Ozan" ad-titulunun sözaçımı ilə bağlı türkoloji fikirdə müxtəlif mülahizələr mövcuddur. Bu sahənin ilk cığıraçanlarından biri olan F.Köprülü bir müddət öz tədqiqatlarında "ozan" kəlməsinin qam-şamana verilən adlardan birinin – "oyun" sözünün transformasiyası nəticəsində yarandığı gümanında olmuşdur. Sonrakı araşdırmalarında o özünün bu ehtimalını o qədər də dəqiq saymamış və "ozan" sözünün kökünü "ozmaq" feilində axtarmışdır. "Ozmağ"ın türk dillərindəki mahnı oxumaq, çalıb-çağırmaq anlamlarına əsaslanan görkəmli alim bu kökdən "ozğan"-"ozan" adının yarandığını və bu adın mahnı oxuyan, çalıb-çağıran el sənətkarı mənasını kəsb etdiyini irəli sürmüşdür.

A.N.Samoyloviç "ozan"ın mahnı

yarışmasında qalib gələn, nəğmə söyləməkdə, çalıb-oxumaqda başqalarından üstün olan, irəlidə, öndə gedən sənətkar məzmunu verdiyini əsaslandırmağa çalışmışdır. M.Seyidovun qənaəti də təqribən elə həmin mülahizənin inkişaf etdirilmiş davamıdır: "Ozan-uzan" yarışan, "mahnıda ötüşən", "mahnıda qabaqlayan" deməkdir. Ozan-uzanın belə adlanması onun peşəsi, sənəti ilə bağlıdır, qoyulan ad onun sənətindən doğulmuşdur. Çünki ozan-uzanlar həmişə söz-musiqi sənətində yarışmış, "ötüşmüşlər". M.H.Təhmasib isə özünəməxsus məntiqlə "ozan" sözü ilə əlaqədar belə bir mülahizə yürüdür: "Bizcə, bu ad-titul, əslində, "uzan" olmuş, zaman keçdikcə "ozan" şəklinə düşmüşdür. Uzan isə "uz"dan əmələ gəlmiş faildir ki, müxtəsər şəkildə deyilsə, misranı misra, qafiyəni qafiyə, bəndi bəndlə uzlaşdıran şair, əhvalatı əhvalat, epizodu epizod, süjeti süjet, şeiri nəsrlə uzlaşdıran; dastanı, musiqi, şeir, rəqs və s. bir-biri ilə uzlaşdırmağı bacaran, yəni uzan, düzən, qoşan, yaradan sənətkar deməkdir.



Diqqətlə fikir verilsə, sadalanan müxtəlif istiqamətli bu mülahizələrin əksəriyyəti üçün "ozan"ın feil kökünə bağlı bir ad olması qənaətinin müştərəkliyini müəyyənləşdirmək olar. Bizim qənaətimizə görə, "ozan"ın əsasını təşkil edən "ozmaq" feilinin tam forması "yozmaq"dır. "Yozmaq" qam-şaman sisteminin mahiyyəti ilə də birbaşa bağlıdır. Qopuz çalıb-oxuyan qam – bizim diqqət yönəltdiyimiz mərhələdə "ozan" məhz öncəgörənlik edib gələcəkdən xəbər gətirən, olacaqları qabaqcadan müəyyənləşdirən, yozandır. Qamın, ozanın öncəgörənliyi, irəlidəki, gələcəkdəki hadisələri qabaqcadan yoza bilməsi, yəni "yozan"-"ozan" olması ibtidai düşüncə və onun ad yaradıcılığı üçün təbii və inandırıcı zəmindir. Qam-şamanın digər adında – "baxşı"da da baxıcılıq, öncəgörənlik, yozuculuq anlamı qabarıqdır. "Baxşı"nın baxıcılığı, görücülüyü ilə "ozan"ın yozuculuğu, demək olar ki, eyni keyfiyyəti əks etdirir. Bu səbəbdən də həmin adların ("baxşı" və "ozan") eyni semantik tutum əks etdirən yaxın məzmunlu sözlərdən – feillərdən yaranması qənaətində möhkəmlənmək mümkündür. "Ozan"da "yozmağ"ın tam fonetik tərkibdə əks olunmaması, yəni sözün önündə "y" səsinin olması türk dillərinin tarixi təbiətindən irəli gələn təbii bir hadisə kimi qəbul olunmalıdır (yüz-üz; yıl-il; yılan-ilan və s. kimi).

Ozan sənəti özünün çoxəsrlik fəaliyyəti boyunca çoxsaylı mədəni-estetik hadisələrlə qarşılaşmış, yaxın və uyğun sənət sahələri ilə müxtəlif səviyyəli əlaqə və faydagötürmə münasibətlərində olmuşdur. Bu baxımdan zəngin və çoxşaxəli mənəvi-estetik şəbəkəyə malik olan baxşı və ozan-aşıq münasibətlərinin aydınlaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Ö

ÖCAL OĞUZ (1961, Türkiyə, Yozqat, Ankara) – folklorşünas, doktor, professor. 1984-cü ildə Qara Dəniz Texnik Universitetinin Türk dili və ədəbiyyatı fakültəsini bitirmişdir. Qazi Universiteti Türk dili və ədəbiyyatı fakültəsində magistr təhsili almışdır (1985-1987). Qazi Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir (1991). Milli folklor araşdırmaları bölməsində işləmişdir (1985-1987). Qazi Universitetində elmi əməkdaş olmuşdur (1988-1992). Hacəttəpə Universitetində dosent (1992-1995), Qazi Universitetində professor (2002-2004) vəzifələri daşımışdır. 2004-cü ildən indiyə kimi Xalq ədəbiyyatı bölümünə rəhbərlik edir. UNESKO-nun Türkiyə təmsilçisi olmuşdur (2006-2011). 2011-ci ildən Türkiyənin UNESKO-dakı xoşməramlı səfiridir. Beynəlxalq statusa malik "Milli folklor" dərgisinin baş redaktorudur. Ozan-aşıq sənətinə, o cümlədən də Azərbaycan aşıq sənətinə dair çoxsaylı tədqiqatların müəllifidir. Beynəlxalq aləmdə nüfuzlu folklor araşdırıcısı kimi tanınır.

ÖMƏR ABDULLA (AŞIQ ÖMƏR) GƏNCƏ OĞLU (1621, Krım, Gözləvə şəhəri – 1707) – Krım tatarların yetişdirdiyi ustad aşıqlardandır. Kasıblıqla yaşayan bir ailədə dünyaya gəlmişdir. Şeirlərində də "Kəndim Gözləvədi, Ömərdi ismim" deyir. Mollaxana və mədrəsədə təhsil almışdır. Seyid Əbdülkərim Şərifidən dərs almışdır. Aşıq Ömər "Şairnamə" adlı dastanında müəlliminin adını böyük fərəh hissi ilə qeyd edir. Xalq arasında onunla bağlı çoxlu rəvayətlər, hekayətlər söylənir. Bədahətən söz deyə bilmək bacarığının olduğu göstərilir. Haqq aşığı kimi haqqında çoxsaylı əfsanəvi söhbətlər edilir. "Sovremennik" jurnalında (1848, N 5, səh. 17-21) onunla başlı geniş yazı verilmişdir. Aşıq Ömər bir neçə dəfə səfərlərdə olmuşdur. İlk səfəri səkkiz il çəkmişdir. Dağıstanda, Azərbaycanda, İranda, Türkiyədə olmuşdur. Borçalı, Qazax, Tovuz aşıqlarının yaddaşında onun şeirlərindən nümunələr indi də vardır. Vəfatından təxminən iyirmi bir il sonra onun şeirləri yazıya alınmışdır. Ustadın şeirləri ilə bağlı üç cüng məlumdur. Ən qədimi 1728-ci ilə aiddir. 530 səhifədən ibarətdir. 1242 şeiri toplanmışdır. 19970 misranı əhatə edir. Əlyazma İstambulda Beşiktaş Yəhya əfəndi kitabxanasında saxlanılır. İkinci cüng 1784-cü ildə Hacı İslam oğlu Hafiz Useyn tərəfindən köçürülmüşdür. Konya şəhərində Mövlanə kitabxanasındadır. 1500-ə qədər şeir cəmlənmişdir. Həcm etibarilə ən böyük əlyazmadır. Üçüncü əlyazma dini, əxlaqi səciyyə daşıyır. Londonda saxlanılır. İsmayıl bəy Qaspralı Aşıq Ömərin şeirlərini nəşr etdirmək üçün ciddi addımlar atır və "Tərcüman" mətbəəsində onun "Divan"ını 1894-cü ildə nəşr etdirir. Daşkənddə Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatı 1988-ci ildə Aşıq Ömərin əsərlər toplusunu iki kitabda nəşr etdirir. Əşrəf Şəmi-

zadənin bu işdə böyük rolu olmuşdur. Ə.Şəmizadənin vəfatından on il sonra (1988) Aşıq Ömər şeirlərinin birinci cildi nəşr olunmuşdur. İkinci kitab 1990-cı ildə çıxmışdır. İkicildlik topluda Aşıq Ömərin qoşma, gəraylı, müxəmməs, tərkibbənd, dastan və s. formalı əsərləri toplanmışdır. Əşrəf Şəmizadə, Abduləziz Kırımı, Saadettin Nuzet Ergin, İlqar Qasımov, Mahmud Allahmanlı ustad sənətkarın həyatı, yaradıcılığı haqqında fikir söyləmiş, araşdırmalar aparmışlar. Folklorşünas M.Allahmanlı "Aşıq Ömərin yaradıcılığı" (2008) monoqrafiyasını yazmışdır. Monoqrafiya Krımda B.Çobanzadə qızıl medalına layiq görülmüşdür.

ÖMƏROV ƏLİXAN (ƏLİXAN QARAYAZILI) QURBAN OĞLU (1909, Qarayazı mahalı, Kosalı kəndi – 1998) – Yaradıcı ustad aşıq olmuşdur. Borçalı aşıq mühitinin inkişafında rolu böyükdür. Molla yanında müəyyən qədər dini elmlərə yiyələnmiş, oxuyub yazmağı öyrənmişdir. Borçalı, Qazax məclislərində çalıb-oxumuşdur. Atası onu Aşıq Paşanın yanına şagird qoymuşdur. Əlixan Aşıq Paşadan (Əmrah Gülməmmədovun atasıdır) sənətin sirlərini öyrənmiş, dastanları, saz havalarını dərindən mənimsəmişdir. Sonra müstəqil aşıqlığa başlamışdır. Bacarığı və istedadı sayəsində tezliklə tanınmış, məclislər keçirmişdir. Ustadların yaradıcılığını incə çalarlarına qədər bilməsi onu bir ustad kimi məşhurlaşdırmışdır. Sinəsində 30-dan yuxarı dastan gəzdirmişdir. Aşıq sənətini Aslan Kosalıya və Əhməd İsgəndərova öyrətmişdir. Sovet dönəmində milli və siyasi görüşlərinə görə həbs olunmuşdur (1961). Şeirləri ayrı-ayrı toplularda çap olunmuşdur.

ÖMƏROV MƏDƏT RAMAZAN OĞLU (1934, Zaqatala rayonu, Bəhmətli kəndi - 2010) – Zaqatala mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Babası da aşıq sənəti ilə yaxından bağlı olan mahir balabançı kimi tanınmışdır. Dayısı Araz da tanınmış aşıq olmuşdur. Bütün bunlar onun sənətə marağını artırmış və istedadlı aşıq kimi formalaşmasına kömək etmişdir. Zəngin poetik irsi vardır. Bədahətən şeir söyləmək qabiliyyətinə malik olmuşdur. Varxiyanlı Məhəmməd və Molla Cuma irsinin dərin bilicisi olmuşdur. Dastanları və ayrıca şeirlər kitabı nəşr olunmuşdur (2017).

ÖYSÜZLÜ ƏLƏSGƏR (təxminən 1886, Tovuz rayonu, Öysüzlü kəndi – 1936) – Tovuz mühitinin yetişdirdiyi sənətkarlardandır. Dövrünün ustad sənətkarı olan Öysüzlü Səmədin yanında şagird olmuşdur. Dastanları, aşıq havalarını, ustadların yaradıcılığını onun yanında öyrənmiş, bir sənətkar kimi formalaşmışdır. Gəncəbasarda ustad sənətkar kimi məşhurlaşmış, sazı-sözü ilə xalq arasında tanınmışdır. Öysüzlü Ələsgərin dastan ifaçılığı da böyük maraq yaratmışdır. Bəzi saz havalarına özünün əlavələrini də etmişdir. Azərbaycan aşıqlarının I Qurultayının iştirakçısı olmuşdur (1928).

ÖYÜDLƏMƏ – Bax: Ustadnamə.

P

PARTİTURA – (italyan: partitura – ayırma, paylaşdırma) orkestr, kamera ansamblı və ya xor üçün yazılmış əsərlərin not yazısı. Partiturada hər bir alətin partiyası qeyd edilir və bir arada birləşdirilir. Saz aləti Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxildir. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə Ü.Hacıbəylinin "Arşın mal alan" operettası Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti altında təqdim olunmuşdur. Əsəri xalq çalğı alətləri orkestri üçün işləyən S.Rüstəmov orkestrin tərkibinə, ilk dəfə olaraq, saz və tütək alətlərini daxil etmişdir. F-no və xalq çalğı alətləri orkestri üçün konsertlərin yaranması ilə orkestrə II sazlar da qatılmışdır. Hal-hazırda Xalq Çalğı Alətləri Orkestrinin partitura sxeminə aşağıdakı alətlər daxildir: nəfəs, zərb, simli-kamanlı və simli-dartımlı alətlər qrupu. Saz aləti simli- dartımlı alətlər qrupuna daxildir: I sazlar – 2, II sazlar – 2. Orkestr sazının notları metsso-soprano açarında yazılır və yazılışından yarım ton aşağı səslənir. Saz, 2 balaban, qoşanağara və nağaradan (və ya qavaldan) ibarət ansamblın müşayiəti ilə ifa olunan Şirvan aşıq mühitinə aid havaların not yazıları partirura şəklində tərtib olunur.

PAŞA (DƏLLƏK PAŞA) GÜLLÜ OĞLU DƏLİVƏLLİ (1886, Borçalı mahalı, Barmaqsız (indiki Zalqa) bölgəsi, Ərçivan-Sarvan kəndi – 1976, Tiflis şəhəri, Saburtala məhəlləsi) – Borçalı aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Bir müddət Ərçivan-Sarvanda yaşamışdır. İlk gəncliyində dəllək olmuş, sonra saza-sözə könül vermişdir.

Sonra Tiflis şəhərinin Saburtala məhəlləsinə köçmüşdür. Tiflisdə və ətraf bölgələrdə məclislər keçirmişdir. Poetik yaradıcılıqla da məşğul olmuş və "Dəllək Paşa" təxəllüsü ilə tanınmışdır. Gözəl məclis aparmaq qabiliyyətinə malik olmuşdur. Dastançı aşıq kimi də məşhurlaşmışdır. Ustad sənətkar bir çox gənc aşıqlara sənət dərsi keçərək onların püxtələşməsinə hər cür köməklik göstərmişdir. "Güllüoğlu" saz havasının bəstəçisidir.

"PAŞAKÖÇDÜ" – aşıq havası. Orta pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını aşıq şeir forması olan gəraylı təşkil edir. Dəqiq metr-ritmik ölçüyə malikdir (6/8). Hava ali və saf hisləri tərənnüm edir, nikbin ovqatlıdır. Variantlı kuplet formasındadır. "Mahnıvarı" havalar qrupuna aiddir. Geniş instrumental girişlə başlayır. Melodiya başlanğıcını impuls-səs – havanın istinad etdiyi orta pərdədən götürür. Melodiyanın hərəkət xəttində variantlı şəkildə inkişaf edən, bir-birinə intonasiya baxımından yaxın olan və akkordlardan yaranan üç mövzu izlənilir. Sekvensiyalar və təkrarların köməyi ilə inkişaf edən melodiya giriş hissəsinin refren əhəmiyyəti daşıyan musiqi parçası ilə çərçivələnir. Şeirin I və II misraları təkrar olunur və qoşa şəkildə oxunur. II və III misralar araçalğılarla bir-birindən ayrılır. IV misra təkrarlar vasitəsilə genişlənir. I və II instrumental intermediyalar ən zil nöq-

tədən – açıq pərdənin zili ilə başlayır və aşağı istiqamətli hərəkətlərlə, təkrarlar vasitəsilə orta pərdəyə düşür. Girişin mövzularının, o cümlədən, refren mövzusunun səslənməsi vokal partiyanı hazırlayır. "Paşaköçdü" havası ənənəvi olaraq vokal şəkildə sona yetir. Etnomusiqişünas T.Məmmədov tərəfindən nota köçürülmüşdür. S.Vurğunun "Azərbaycan" şeirinə daha çox oxunduğu üçün eyniadlı hava "Azərbaycan" kimi məşhurlaşmışdır.

PAŞAYEV ABBAS (ZƏRGƏR ABBAS) CƏLİL OĞLU (1949, İmişli rayonu, Əlipənahlı kəndi- Sumqayıt) – Yeniyetmə çağlarından saza-sözə həvəs göstərib. Mikayıl Azaflı, İmran Həsənov, Murad Niyazlını özünə mənəvi ustad hesab edib. Bədahətən şeir demək qabiliyyətinə malikdir. Zəngin poetik yaradıcılıq əhatəsinə malikdir. Şeirləri aşıq repertuarında geniş yer alır. "Söz yazılıb taleyimə", "Sazlı-sözlü dünyam" kitabları nəşr olunmuşdur. "Zərgər Abbas" təxəllüsü ilə yazıb yaradır. V və VI aşıq qurultaylarının nümayəndəsi olmuşdur.

PAŞAYEV QƏZƏNFƏR MƏMMƏD OĞLU (1937, Tovuz rayonu, Düzqırıqlı kəndi – Bakı şəhəri) – Ədəbiyyatşünas, dilçi, publisist, folklorşünas, tərcüməçi kimi tanınmışdır. Filologiya elmləri doktoru (1993), professordur (1995). AYB-nin üzvüdür (1988). "Qızıl qələm" mükafatı laureatıdır (2001). Əməkdar elm xadimidir (2018). Düzqırıqlı kənd orta məktəbində təhsil almışdır (1946-1956). Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsində oxumuşdur (1957-1962). Əmək fəaliyyətinə Əli Bayramlı (indiki Şirvan) rayonunun Vladimirovka kəndində ingilis dili müəllimi kimi başlamışdır. 3 aydan sonra tərcüməçi kimi İraq Respublikasına göndərilmişdir (1962-1964). M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun qrammatika kafedrasında baş laborant işləmişdir (1964). İkinci dəfə İraq Respublikasına tərcüməçi kimi göndərilmişdir (1964-1966). Qayıtdıqdan sonra təhsil aldığı institutun qrammatika və tərcümə kafedrasında müəllim (1966-1970), xarici dillər üzrə xüsusi kursların müdiri, ingilis dili fakültəsində dekan müavini (1970-1971) işləmiş, üçüncü dəfə İraq Respublikasına tərcüməçi kimi göndərilmişdir (1972-1975). M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda xarici dillər kafedrasının müdiri işləmişdir (1972-1989). ABŞ və İngiltərədə ixtisaslaşma kurslarında olmuşdur. "İraq-Türkman folkloru" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1993).



ADU-nun Qərbi Avropa dilləri kafedrasında dosent (1989-1994), professor (1995-1999) vəzifələrində çalışmışdır. AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat muzeyinin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri olmuşdur (2001-2005). 2003-cü ildən AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi vəzifəsində çalışır. Azərbaycan-İraq Dostluq cəmiyyətinin sədr müavini olmuşdur (1994-2003). "Kərkük bayatıları" (Xalq şairi R.Rza ilə birgə, 1968), "Arzu-Qənbər dastanı" (1971), "İraq-Kərkük atalar sözləri" (1978), "İraq-Kərkük bayatıları" (1984), "Kərkük tapmacaları" (1984), "Kərkük folklor antologiyası" (1987), "Kərkük folklorunun janrları" (2008), "Əta Tərzibaşı" (2016) və s. kitabları vardır. "Qoca Azaflıyam" kitabının tərtibçilərindəndir (2008). Xalq ədəbiyyatının, aşıq yaradıcılığının öyrənilməsi, tədqiqi sahəsində gərəkli xidmətləri vardır. Aşıqlar Birliyinin idarə heyətinin üzvü və Ağsaqqallar şurasının sədridir.

PAŞAYEV PAŞA (SALAHLI) YUNUS OĞLU (1924, Qazax rayonu, Daşsalahlı kəndi – 1987) – Qazax mühitinin yetişdirdiyi sənətkarlardandır. 30-cu illərdə anadan olduğu Daşsalahlı kəndində təhsil almışdır. Erkən yaşlarından el ədəbiyyatına, aşıq yaradıcılığına həvəs göstərmişdir. Güclü yaradıcı təbiəti onu aşıq şeiri üslubunda əsərlər yaratmağa gətirib çıxarmışdır. 1950-ci ildən xalq arasında istedadlı sənətkar kimi tanınmağa başlayır. Sonrakı illərdə Paşa dərin məzmunlu şeirləri, ustadnamələri ilə məşhurlaşır. S.Vurğunun "Ceyran" şeirinə yazdığı nəzirə dillər əzbərinə çevrilmişdir. Güclü istedadı, yüksək sənət qabiliyyəti olmuşdur. Aşıqlar Salahlı Paşanın şeirlərinə indi də tez-tez müraciət edirlər.

PAŞAYEV SƏDNİK (PİRSULTANLI) XƏLİL OĞLU (1929, Daşkəsən rayonu, Qazax-yolçular kəndi – 2013, Gəncə) – folklorşünas. Filologiya elmləri doktoru, professor. Natamam orta təhsilini anadan olduğu kənddə, orta təhsilini Dəstəfur internat məktəbində almışdır. G D P U - n u (keçmiş H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunu) bitirmişdir (1954). "Yeni Daşkəsən" (Daşkəsən), "Mübariz" (Goranboy), "Yenilik" (Kəlbəcər) qəzetlərində redaktor, "Kirovabad kommunisti" qəzetində məsul katib, Gəncə Dövlət Pedaqoji Universitetində baş müəllim, dosent, professor vəzifələrində işləmişdir (1970-2013). Əməkdar müəllim fəxri adına layiq görülmüşdür (2010) Aşıqlar Birliyinin və AYB-nin üzvü olmuşdur. Xalq ədəbiyyatının, aşıq yaradıcılığının toplanması, nəşri, tədqiqi sahəsində müstəsna xidmətləri vardır. "Lalə. Aşıq Bəsti" (1969), "Yaşayan əfsanələr" (1973), "Xəstə Qasım" (1975), "Yurdumuzun əfsanələri" (1976), "Nizami və folklor" (1976), "Nizami və xalq əfsanələri" (1983), "Azərbaycan əfsanələrinin öyrənilməsi" (1985), "Azərbaycan folkloru və aşıq yaradıcılığı" (1989), "XIX əsr Azərbaycan aşıq yaradıcılığı" (1990), "Ağdabanlı şair Qurban" (2000), "Azərbaycan eposunun əfsanə

qaynaqları” (2002), “Azərbaycan folkloruna dair tədqiqlər” (2006) və s. kitabları vardır. Bədii yaradıcılıqla da məşğul olmuşdur.

Azərbaycan Aşıqlar birliyi Gəncə Bölməsinin rəhbəri olmuşdur (1994-2013).

PAŞAYEV ŞƏMİSTAN (1893, Göyçə mahalı, Canəhməd kəndi – 1973) – Göyçə aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Kiçik yaşlarından atasını itirmişdir. Anasının himayəsində çətinliklərlə böyümüşdür. Yeniyetmə çağlarından nökərçilik, muzdurluq etmişdir. Aşıq sənətinə xüsusi həvəs göstərmişdir. Aşıq Heydərin yanında şagird olmuşdur (1915). Sənətin sirlərini, ustadların yaradıcılığını mükəmməlliklə öyrənmiş və bir aşıq kimi formalaşmışdır. Aşıqlar arasında ustad kimi tanınmışdır. Aşıq sənətinin həmişə qayğısında durmuş və yeddi aşıq yetişdirmişdir. Vəli Bayramov, Məmmədəli Bayramov, Məhəmməd Həsənov, Sarı Məmmədov, Salman Kazımov, Muğu Bayramov onun şagirdləri olmuşlar. Göyçədə və digər bölgələrdə çoxlu məclislər keçirmişdir. Zəngin dastan biliyi ilə seçilmişdir. Aşıq Ələsgərin dastan-rəvayətlərini dərindən bilmiş və məclislərdə ustalıqla söyləmişdir.

PAŞAYİ MƏŞİ HACIHÜSEYN OĞLU (1931, Qaradağ mahalı, Mirzəli kəndi –2016, Təbriz) –Təbriz-Qaradağ aşıq mühitinin yetişdirdiyi ustad dastançı aşıqdır. Aşıq sənətinə ailəsində böyük maraq olmuşdur. Məşi də erkən yaşlarından aşıqlığa həvəs göstərmişdir. Ustad aşıqların yanında aşıqlıq sənətini öyrənməyə başlamışdır. Aşıq Hüseyn Cavan, Aşıq Məhəmməd Mərəndi və Aşıq Qəşəmin yanında şagird olmuşdur. Zəngin musiqi və söz repertuarına malik olmuşdur. 70-dən yuxarı saz havasını çalıb oxuya bilmişdir. Çoxlu şagirdləri vardır. “Əsli və Kərəm”, ”Əli və Rafi”, “Valeh və Zərnigar”, “Koroğlu” dastanlarını məclislərdə söyləməyə üstünlük vermişdir.



PENTATONİKA (yunan: pente – beş + tonos – ton) – oktava çərçivəsində müxtəlif yüksəkliyə malik beş səsdən ibarət səs sırası. Musiqişünaslığın müddəalarına əsasən, “pentatonikanın qədimliyi şübhə doğurmadığı üçün həmin faktlar bu və ya digər musiqi mədəniyyətinin arxaikliyini sübut edən əsas dəlillərdən biridir” (M.Kondratyev). Aşıq musiqisində pentatonikanın təzahür formalarının araşdırılması diaxronik nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir. Bəzi erkən aşıq havalarının (xüsusilə “Koroğlu” epik havalarının) musiqi dilinin dərin qatlarında pentatonika əlamətləri nəzərə çarpır. Azərbaycan musiqi elmində pentatonikanın öyrənilməsinin əsasını Ü.Hacıbəyli qoymuşdur. Problemi geniş tarixi-mədəni kontekstdə araşdıran Ü.Hacıbəyli bəzi türk mənşəli xalqların musiqisində pentatonikanın mövcud olmasını qeyd etmişdir. Sonrakı illərdə Ü.Hacıbəylinin pentatonikaya dair müddəaları onun davamçısı – etnomusiqişünas Ə.Eldarova tərəfindən inki-

şaf etdirilmişdir. Səciyyəvidir ki, milli musiqi eposşünaslığının ilk tədqiqat nümunələrindən biri olan Ə.Eldarovanın "Aşıq sənətinin bəzi məsələləri" məqaləsində (1949-cu il) artıq bu problemin bəzi tarixi-nəzəri aspektləri işıqlandırılmış və onun mühüm metodoloji xarakteri vurğulanmışdır: "Şur məqamının bir çox Şərq xalqlarının musiqi mədəniyyətində əsas məqamlara aid olmasını və onun səsqatarının ardıcıl xalis kvartalar sırasından ibarət olduğunu nəzərə alaraq belə qənaətə gəlmək olar ki, kvarta quruluşlu məqamlar mənşə etibarilə ən qədim məqamlar sırasına daxildir və onlar musiqi tarixində böyük bir epoxa təşkil edir. Aşıq musiqisi nümunələrinin əksəriyyəti Şur və onun şöbələri üzərində qurulmuşdur. Bundan belə nəticə hasil olur ki, aşıq musiqisi muğamla müqayisədə daha qədim köklərə malikdir, yəni inkişaf tarixinin ilk mərhələlərinə aiddir. Aşıq musiqisinin daha müfəssəl təhlili burada pentatonikanın mövcudluğu haqqında fikir yürütməyə də imkan yaradır. Həqiqətən də, kvarta quruluşlu məqamlarda yarımtonlar ixtisar olunduğu halda pentatonika səsqatarını almaq mümkündür. Pentatonikada üçton yoxdur və yarımtonların tətbiqi onun mahiyyətinə təsir göstərmir. Aşıqlar bəzi formalarda pentatonikadan istifadə edirlər" (Ə.Eldarova).

"PEŞROV" ("PİŞRO") – Fars mənşəli sözdür. Anlamı "öndə gedən", "qabaqda gələn" deməkdir. Şirvan aşıq mühitinin özünəməxsus musiqi janrıdır. Şirvan aşıq məclislərində birinci ustadnamə "Peşrov" havası ilə ifa olunur, ikinci ustadnamə oxunmur, yalnız söylənilir, üçüncü ustadnamədə isə hər hansı bir "Şikəstə" havasından istifadə edilir. "Peşrov" sırf dastan yaradıcılığı ilə bağlı meydana gəlmiş janrdır. "Peşrov" müstəqil hava şəklində ifa olunmasına baxmayaraq, onun əsas funksiyası məclisin açılışı ilə bağlıdır. Səciyyəvidir ki, klassik türk musiqi növü olan "fasıl"ın da instrumental müqəddiməsi "Pişro" adlanır. Şirvan aşıq mühitində "Peşrov"un bir janr kimi təkmilləşməsində Aşıq Mirzə Bilalın və zurnaçalan Əli Kərimovun əvəzsiz xidmətləri olmuşdur. Peşrov havalar silsiləsinə "Şirvan peşrovu", "Çobanyaylağı peşrov", "Eyvazı", "Şur peşrov", "Kərəm peşrov", "Koroğlu peşrov", "Qafiyə peşrov", "İbrahimi", "Əlicadi peşrov", "Hicazi peşrov", "Qobustan peşrov", "Bilal peşrov" daxildir. Bu nümunələrin müqayisəli təhlili belə bir fikir yürütməyə imkan verir ki, onları təkcə ümumi silsiləvi ad deyil, həm də vahid struktur əlamətləri birləşdirir. Belə ki, bütün "Peşrov" nümunələrinin poetik mətninin əsasını gəraylı təşkil edir (divani formasından istifadə olunduqda onun hər misrası iki yerə bölünür); melomisra, bir qayda olaraq, iki heca qrupuna (4 + 4) bölünür və s. Hazırda da bu qəliblər çərçivəsində yeni havaların yaranması bu janrın Şirvan dastançılıq ənənəsi ilə köklü surətdə bağlılığını bildirir.

PƏNAHOV PƏNAH ƏLƏSGƏR OĞLU (1926, Salyan şəhəri – 1979) – Şirvan-Salyan aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Erkən yaşlarından saza-sözə həvəs göstərmişdir. Salyanda orta məktəbdə təhsil almışdır (1933-1943). Bir neçə il dövrünün ustad sənətkarlarından olan Aşıq Qurban Sadıqovun şagirdi olmuşdur. Aşıq sənə-

tinin sirlərini, saz havalarını, dastanları mənimsəmiş, bir sənətkar kimi forma laşmışdır. Aşıq Pənah tanındıqdan sonra ansambl yaratmış, aşıqlar dəstəsinə rəhbərlik etmişdir. "Kür" aşıqlar ansamblı onun adı ilə bağlıdır. 1950-1970-ci illərdə aşıqlar arasında xüsusilə fərqlənmiş, festivallarda iştirak etmişdir. Şirvan aşıq mühitinin istedadlı nümayəndələrindən biri kimi tanınmışdır. Əməkdar mədəniyyət işçisi adına layiq görülmüşdür (1972). Moskvada və keçmiş Sovetlər Birliyinin respublikalarındakı mədəniyyət mərkəzlərində keçirilən festivallarda çoxsaylı konsertlər vermiş və şöhrəti ölkə boyu yayılmışdır. Rayon və respublika səviyyəli tədbirlərdə həmişə təmsil olunmuş, sənəti ilə siyasi-mədəni proseslərin təbliğatçısına çevrilmişdir. Gözəl ifaçılıq qabiliyyəti ilə yanaşı təkrarsız saz bəstəçisi kimi də məhşurlaşmışdır. Xeyli sayda aşıq mahnısı ("Ana Kürüm", "Salyan gözəlləməsi", "Pənah gözəlləməsi" və s.) bəstələmişdir. Ayrı-ayrı toplularda şeirləri çap edilmişdir. "Saz və söz", "Məhəbbətdən danışaq", "Təzə söz", "Təzə mahnı" adlı şeir kitabları vardır. SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur (1970). Salyan rayon mədəniyyət evi onun adını daşıyır.

PƏNAHOV SƏYYAD MƏŞƏDİ OĞLU (1945, Gədəbəy rayonu, Kərimli kəndi - 2019) – Gədəbəy bölgəsinin yetişdirdiyi ustad sənətkarlardandır. Orta məktəb illərindən saza maraq göstərmişdir. Aşıq İsfəndiyarın şagirdi və sənət yoldaşı olmuşdur (1960). Altı il onun yanında sənətin sirlərini (1966-cı ilə kimi) öyrənmişdir. M.Əliyev adına Azərbaycan İncəsənət İnstitutunda oxumuşdur. Gədəbəydəki "Xalq aşığı" ansamblında istedadlı sənətkar kimi nüfuz qazanmışdır. Aşıq Ələsgərin anadan olmasının 150 illiyi ilə bağlı tədbirdə (1972) fəxri diploma layiq görülmüşdür.

1975-ci ildə keçirilən ümumittifaq festivalında ifaçılıq məharətinə görə qızıl medalla təltif edilmişdir. Dastanlarımızın və ustadların yaradıcılığının bilicisi olan sənətkarlardandır. Zil, şaqraq səsə malikdir. "Koroğlu" havalarının mahir ifaçısı olmuşdur. Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür (2008).

PƏNCÜL-ƏLA – bax: beş gözəl

PƏRDƏ – simli musiqi alətlərinin qoluna bağlanan bölmə (tar, dütar, tənbur və s.). Qoyun bağırsağından (kiriş) nazik ip şəklində eşilib hazırlanır. Son dövrlər-

də kiriş kapron iplə əvəz olunmuşdur. Keçmiş dövrlərdə sazın qoluna bağlanan pərdələrin sayı az (8) olmuş, zaman keçdikcə artmışdır. 11 pərdəli sazda bütün aşıq havalarını çalmaq mümkün olmuşdur. Hal-hazırda 15, 18, 20 pərdəli sazlar mövcuddur. Pərdələr yerləşməsinə əsasən "qol pərdələri" (qol üzərində yerləşən 12 pərdə), "beçə pərdələr" (beçə – analıq taxtası üzərində yerləşən 4 pərdə) və "sinə pərdələri" (sinə üzərində yerləşən – 3 pərdə) adlandırılır (20 pərdəli sazda). Sazın əsas pərdələri aşağıdakılardır və əsasən, iki cür adlandırılır: 1. Sazın konstruksiyasına əsasən, açıq sim – do1, baş pərdə – re1, orta pərdə – mi bemol1, şah pərdə – fa1, ayaq pərdə – sol1, bayatı pərdə – lya bemol1, kök pərdə – si bemol1 (dəmlərin zili), beçə pərdə – do2 (zillərin zili və ya açıq pərdə zili), baş pərdə zili – re2, orta pərdə zili – mi bemol2, şah pərdə zili – fa2, ayaq pərdə zili – sol2. Sonralar isə bu əsas pərdələrin arasına köməkçi yarım və daha kiçik tonlar əlavə edilmişdir. Bu pərdələr "gül", "lal", "kor", "rəndələyən" və s. adlarla adlandırılır. Əsas pərdələrin ikinci adı isə havaya əsasən adlandırılır. 2. Həmin pərdədə çalınan havaya əsasən baş pərdə – "Dilqəmi", "Kərəmi" və ya "Baş divani" pərdəsi adlanır. Orta pərdə – "Ürfani", "Təcnis" pərdəsi adlanır. Ayaq pərdə – "Ayaq divani", "Çuxuru" pərdəsi adlanır. Bayatı pərdə – "Çobanbayatı pərdəsi" adlanır. Kök pərdə – "Koroğlu" pərdəsi adlanır. Yarım pərdələrdən olan mi – "Misri pərdə", lya – "Bəhməni pərdə" adlanır.

PƏRİ – ilahi aləmlə bağlı obraz. Gözəllik simvolu. Aşıq şeirlərində, dastanlarda Pəri obrazının çeşidli təqdimi özünü göstərir. "Qurbani", "Abbas və Gülgəz", "Alıxan və Pərixanım" və s. dastanlarda Pərinin bir obraz olaraq rəmzi-məcazi şəklə düşməsi ilkin təsəvvürlərlə, mifoloji yaddaşla və tarixi prosesin qoruyub saxladığı məzmunla bağlanır. Haqq aşığının butasının məhz "Pəri" adlanması həmin obrazın ilahi aləmlə bağlılığına işarə etmiş olur. Ozanların yaradıcılığında, məsələn, "Kitabi-Dədə Qorqud"da Pəri obrazı arxaik təsəvvürlə əlaqələnir. "Basatın Təpəgözü öldürdüyü boy"da pərilər və Pəri fərqli çalarlarla obrazlaşır. Qonur qoca Sarı Çobanın Pəri qızı ilə qarşılaşması və "çoban, yil tamam olcaq məndə əmanətin var, gəl al – dedi. –Əmma Oğuzun başına zəval gətirdün" söyləməsi də ozan mifoloji təsəvvürünün ifadəsidir.

PİRİYEV HÜSEYN TALIB OĞLU (1939, Göyçə mahalı, Ağbulaq kəndi – 1996, Qazax rayonu, Qarasannı kəndi)



– Beş yaşında ikən atasını itirmişdir. Dolanma çətinliyi, vəziyyətin ağırlığı səbəbindən anası Məleykə xanım Qazax rayonunun Qarasannı kəndinə köçmüşdür. Hüseyn Ağbulaqlı təxəllüsü ilə tanınmışdır. Əvvəlcə Aşıq Sarı Abbasbəylinin yanında balaban çalmışdır. Sonra Aşıq İmran Həsənovdan sənətin sirlərini öyrənməyə çalışmışdır. Daha sonra Aşıq Bəhmənin yanında şagird olmuş və Tovuz-Qazax bölgəsində məc-

lislər aparmağa başlamışdır.

Qazax rayon mədəniyyət evində müxtəlif vəzifələrdə çalışmışdır (1969-cu ildən). Yeddiillik uşaq musiqi məktəbində saz müəllimi (1984) kimi çalışmışdır. Azərbaycan aşıqlarının IV Qurultayının iştirakçısı olmuşdur (1984).

PİRİYEV ŞAMİL MUSTAFA OĞLU (1900, İsmayıllı rayonu, Tağlabiyan kəndi – 1986) – Şirvan aşıq mühitinin yetişdirdiyi görkəmli sənətkarlardandır. Aşıq Şamil sənətin sirlərini Mahmud ağanın məclislərinin bəzəyi Mirzə Məmmədhəsənin istedadlı şagirdi xanəndə Soltan Hüseynovdan öyrənmişdir. Soltan Hüseynov Aşıq Şamilin dayısı olmuşdur. Sonra ustad aşıq Mirzə Bilalın yanında şagird olmuşdur. Aşıq Şamil muğam sənətinin incəliklərini də dərindən bilmiş və həm xanəndə, həm də aşıq kimi mühitdə tanınmışdır. Şirvanın tanınmış balabançısı Əli Kəriomovla birgə çoxsaylı məclislər keçirmişdir. Aşıqların I, II, III və IV qurultaylarının iştirakçısı olmuşdur. "Zarıncı şikəstə", "Qara qafiyə", "Sallama gəraylı", "Təbli-cəngi Koroğlu", "Eyvazı", "Süsənbəri" saz havalarını çox ustalıqla çalmışdır. Aşıq Şamilin şeirləri ayrı-ayrı toplularda və kitab halında çap olunmuşdur.



Ondan yuxarı şagird yetişdirmişdir.

POLİFONİYA – coxsəslilik: Çoxsəsli musiqinin bir növü. Bir neçə müstəqil əhəmiyyətli, bərabər hüquqlu melodik mövzunun imitasiyalı və eyni vaxtda bərabər səslənməsindən yaranır. Həm kompozisiya-texniki, həm də musiqi-məntiqi məzmun baxımından funksional identikliyə malik 2-5 müstəqil melodik təbəqə yaradır. Polifoniyanın əsas növləri: a) kontrast polifoniya; b) imitasiyalı polifoniya; c) səsaltı polifoniyadır. Azərbaycan aşıq musiqisində polifoniyanın sadə növləri olan imitasiyalı və səsaltı polifoniyanın elementləri, eyni zamanda burdon səsi və onun üzərində yaranan melodik xəttin yaratdığı polifonik ünsürlər müşahidə olunur. ***Bax: Çoxsəslilik***.

POLİMETRİYA – müxtəlif ölçülərdə eyni vaxtda səslənən musiqi təbəqələrinin uyğunluğu və yazılış qaydası: məsələn, 4:3 – bir melodik təbəqənin 4/4, digər təbəqənin ¾ ölçüsünü göstərir. Daha çox XX əsr professional avanqard musiqisində, eləcə də caz musiqisində və bir sıra xalqların ənənəvi musiqisində müşahidə olunur. Bir qisim aşıq havaları: a) iki müxtəlif ölçünün – dəqiq metrə malik instrumental musiqi və sərbəst metrə malik vokal oxumanın növbələşməsi əsasında yaranır («Mansırı», «Sultanı» və s.); b) improvizasiyaya əsaslanan melodik quruluşlarda metr dəyişkənliyinə tez-tez rast gəlinir; c) bəzi reçitativ-deklamasiya tipli havalarda, dəqiq metrik olçü saxlamaqla üzərində improvizasiyalı melodiyanın oxunması halları izlənən, kiçik musiqi parçaları özünü göstərir («Mansırı» və s.). Şirvan aşıq mühitində yaranan «Şirvan şikəstəsi», «Döymə Kərəmi» və s. havalarda dəqiq ölçülü instrumental musiqi və sərbəst

ölçülü aşıq oxuması eyni vaxtda – birlikdə səslənir: aşıq əsas ölçü çərçivəsinə sığınaraq improvizasiya tipli gəzişmələr edir. Bu zaman, not yazılarında yalnız bir ölçünün (2/4, 4/4 və ya b.) qeyd olunmasına baxmayaraq, iki müxtəlif ölçü vahidi birləşərək bədii məzmun baxımından bir-birinə uyğunlaşır. Milli janr olan zərbi- muğamların, o cümlədən aşıq havalarından yaranan bu ifa tərzli «Qarabağ şikəstəsi» və «Kəsmə şikəstə»nin «metr-ritmik əsasını həm sərbəst-dəyişilən, həm də qeyri-sərbəst, dəyişilməyən vəzn təşkil edir» (M.S.İsmayılov, 1968). Polimetriya bu növ havalarda melodik təbəqələrin yaratdığı müxtəlif ritmik quruluşları nizamlayır.

POLİRİTMİYA – çoxritmlilik. Aşıq havalarının melodik quruluşunda rəngarəng və zəngin ritmik komplekslər özünü göstərir. Bir hava çərçivəsində vəzndən asılı olaraq yaranan ritmik quruluşlar fərqli və müxtəlifdir. Məsələn, "Mansırı" havasının instrumental musiqisində həm dəqiq, həm də sərbəst ölçü ilə şərtlənən ritmik şəkillər özünü göstərir. "Şirvan şikəstəsi"ndə dəqiq vəzn üzərində oxunan sərbəst vəznli vokal improvizasiya poliritmik strukturların eyni zamanda səslənməsi xüsusiyyətini yaradır. Bu müxtəlifliyi – poliritmiyanı nizama salan və təşkil edən amillərdən biri polimetriyadır. Bəzən poliritmiya anlayışı polimetriyaya sinonim olaraq işlədilir.

POZİSİYA – musiqi alətlərində əllərin və barmaqların vəziyyəti (mövqeyi, yeri). İfa zamanı müəyyən registrə aid səs sırasının rahat vəziyyətdə çalınması üçündür. Saz alətində pozisiya sol əlin vəziyyətinə aiddir və barmaqların qol (sazın) üzərində asan hərəkətini təmin edir. 20 pərdəli sazda 9 pozisiya vardır.

PRİMOV QURBAN BƏXŞƏLİ OĞLU (PİRİMOV QURBAN) – (1880, Ağdam rayonu, Gülablı kəndi – 1965, Bakı) – tarzən, Xalq artisti (1931). XX yüzillikdə tar ifaçılıq sənətinin böyük bir inkişaf mərhələsi onun adı ilə bağlı olmuşdur. İfaçı üçün vacib olan güclü biləyə, uzun və çevik barmaqlara,



mükəmməl ifaya malik olan Q.Primov həm müşayiətçi – ansambl, həm də virtuoz solo-tar ifaçısı kimi şöhrət qazanmış, muğam ifaçılığına yeniliklər daxil etmişdir. Azərbaycan musiqi tarixinə "Mahur hindi", "Çahargah", "Xaric segah", "Zabul segah", "Şur" və başqa muğamların mahir ifaçısı kimi daxil olmuşdur. O, bir çox görkəmli xanəndələri müşayiət etmiş, böyük xanəndə C.Qaryağdıoğlu və S.Oqanezaşvili ilə birlikdə muğam üçlüyü təşkil edərək, 20 il çiyin-çiyinə çalışmışdır. Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasının hazırlanmasında iştirak edərək solotarda muğam partiyalarını ifa etmişdir.

Gülablıdan olan məşhur Aşıq Valehin nəticəsi olan Q.Primov musiqiçi ailəsində, aşıq mühitində formalaşmış, atası balabançı, qardaşı saz ifaçısı olmuşdur. Q.Primov ailə ənənələrini davam etdi-

rərək əvvəlcə sazda, balabanda, zurnada və nağarada çalmış, sonralar isə Sadıxcandan dərs alaraq ömrünü tara həsr etmişdir.

Qədim havalardan biri olan və aşıq yaradıcılığında formalaşan "Çobanbayatı"nı ilk dəfə tarda ifa edən və ona yeni bədii məzmun, yeni həyat gətirən Q.Primov olmuşdur. "Xalq musiqisinin canlı ensiklopediyası" adlandırılan sənətkar el havalarının, aşıq musiqisinin, muğamların toplanması, nota yazılması işində, yeni bəstəkar əsərlərinin yaranmasında misilsiz xidmətlər göstərmişdir. O yazır: "Mən uşaq idim. Bizim Gülablı kəndində aşıqlar var idi. Ən məşhurunun adı İsfəndiyar idi. Atam Baxşəli kişi muğamı, aşıq və el havalarını çox sevərdi. O deyərdi ki, ***"Sarı gəlin" mahnısını ilk dəfə Aşıq İsfəndiyardan eşitmişdir.*** O bu havanı xüsusilə məlahətlə oxuyardı".

Q.Primov Azərbaycan musiqisinin bütün qollarına xas olan ümumi cəhətləri öz yaradıcılığında birləşdirmiş, tar ifaçılığı sənətini milli ideya-məzmun, məqam-intonasiya çərçivəsində yaşatmağa nail olmuş və adını qızıl hərflərlə tarixə yazmışdır.

PUNKTİR RİTM (latın: punctum – nöqtə) – uzun səsin və ondan 3 dəfə qısa səsin növbələşməsindən yaranır. Uzun səs nöqtə ilə yazıldığına və səsi yarısı qədər uzatdığına görə "punktir ritm" adlandırılmışdır. Aşıq havalarının melodiyasında ən çox rast gəlinən ritm növlərindən biridir. Daha çox 6/8 ölçü çərçivəsində təzahür edir. Azərbaycan melodiyalarına xas olan punktir ritm Avropa musiqisinə xas olan kəskin və ya sərt xasiyyət daşımır, nisbətən daha axarlı və mülayimdir. Milli metr-ritmik formul mahiyyəti kəsb edir. Punktir ritm aşıq musiqisində ifadəli-məna əhəmiyyəti daşıyır və "Orta sarıtel", "Təbrizi", "Gödəkdonu", "Gilənar" kimi havalarda oynaqlıq, hərəkətlilik, gümrahlıq hissi yaradır. "Cəngi Koroğlu" havasının çalğısında isə punktir ritm qətiyyəti, inadkarlığı, mərdliyi ifadə edən əsas ritm-formula çevrilir.

PÜNHAN MƏHƏMMƏDƏLİ SADIQ OĞLU (1914, Göyçə mahalı, Babacan kəndi – 1985, Borçalı mahalı, Qarayazı) – Göyçə aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. Sazasözə bağlı bir ailədə anadan olmuşdur. Başlanğıcda Növrəs İmandan dərs almış, sənəti, dini-irfan elmləri mənimsəmişdir. 1950-1955-ci illərdə isə Aşıq Vəlinin, Aşıq Kərəmin yanında şagird olmuş, aşıqlığın incəliklərini onlardan öyrənmişdir. Borçalıya köçmüş, Qarayazıda yaşamışdır. Dərin bilikli aşıq kimi toy-düyün məclislərində şöhrət qazanmışdır. 25-ə yaxın dastanı sinəsində gəzdirmişdir. "Pünhan" ləqəbi ilə şeirlər yazmış və bu imza ilə tanınmışdır.



Şeirləri ayrı-ayrı antologiyalarında yer almışdır.

R

RAMAZANOV YUSİF MƏMMƏD OĞLU (1922, Yerevan şəhəri – 1989, Bakı) – folklorşünas alim, filologiya elmləri namizədi. Orta məktəbi İrəvanda bitirmişdir (1940). İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyat bölməsində təhsil almışdır (1940-1947). Bakı şəhərinə köçmüşdür (1948). Nizami adına Ədəbiyyat muzeyinin "Qədim və orta əsrlər Azərbaycan ekspozisiyası" şöbəsində əmək fəaliyyətinə başlamışdır (1962). "XIX əsrdə Azərbaycan dilində yazıb-yaradan erməni aşıqları" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1970). Nizami adına Ədəbiyyat muzeyində böyük elmi işçi vəzifəsində çalışmışdır (1978-1997). "Azərbaycan dilində yazıb-yaradan erməni aşıqları (XIX əsr)" (1977), "XIX əsr erməni nəsrində Azərbaycan folkloru motivləri" (1987), "Zaqafqaziyada aşıq məktəblərinə dair bəzi mülahizələr" (AŞXƏDT, III kitab, 1968), "Aşıq Şirin" ("Azərbaycan" jur., №11, 1972), "Matenadarandan toplanmış bayatılardan" ("Sovet kəndi" qəzeti, 3 yanvar, 1984), "X.Abovyan yaradıcılığında Azərbaycan xalq dastanlarının mövqeyi" (AŞXƏDT, VII kitab, 1987) və s. əsərləri vardır.

RAPSOD – Qədim Yunanıstanda gəzərgi epik poema (dastan) ifaçılarıdır. Aedlər və rapsodlar Yunanıstanda sinkretik sənətin nümayəndələri kimi böyük nüfuz sahibi olmuşlar. Onlar bir növ yunan mədəniyyətinin yayılması və çiçəklənməsində mühüm rol oynamışlar. Homerin poemalarının yayılması, xalq arasında müxtəlif münasibətlə söylənməsi rapsodlarla bağlıdır. Rapsodlar yunan dastanlarının yaradıcısı və yaşadıcısıdırlar. Mifik təfəkkürün inkişaf və formalaşmasında mühüm xidmətləri vardır. Aedlərdən fərqli olaraq rapsodlar uzun zaman müddətində dastanları heç bir musiqi aləti olmadan söyləmişlər. Rapsodlar gəzərgi həyat keçirmişlər. Dillərində sabitləşmiş mətnlər olmuşdur. Sonrakı çağlarda, e.ə. V əsrdə rapsodlar musiqi alətindən istifadəyə üstünlük vermişlər. Bu, təxminən eramızın birinci əsrinə qədər davam etmişdir. Son olaraq bu sinkretiklik özünü teatr tamaşalarını müşayiətə qədər gətirib çıxarmışdır. Onları teatrın bir hissəsinə çevrilməyə başlamışlar.

RAYXL KARL (1943) – eposşünas. Bonn Universitetinin (Almaniya) professoru. Türk xalqlarının epik yaradıcılığına dair bir çox elmi əsərlərin müəllifidir. Türkmən, qazax, özbək və digər türksoylu xalqların epik yaradıcılığı nümunələrinin tərcüməçisidir. "Turkic Oral Epic Poetry: Traditions, forms, poetic structure" ("Türk eposu. Ənənələr, formalar, poetik quruluş", ingilis dilində, 1992) kitabında



türk xalqlarının şifahi ənənəli eposunun ümumi icmalını vermişdir. Tədqiqat əsərlərində epik əsərlərin formul üslubu, ənənələrin ötürülməsi, variantlılıq, sənətkarlıq problemləri araşdırılmışdır.

REÇİTATİV (italyan: recitare – deklamasiya etmək) – ritmik və intonasiya cəhətdən melodik (ahəngli) deklamasiyaya yaxın olan vokal musiqinin növü. Avropa musiqi mədəniyyətində iki növ reçitativ istifadə olunur. 1. Reçitativ secco (“quru”) – danışıq nitqinə yaxın. Bu növ reçitativ uzun müddət saxlanılaraq səslənən ayrı-ayrı akkordlarla müşayiət olunur. 2. Reçitativ accompagnato – daha çox melodikləşmiş, ritmik cəhətdən təşkil olunmuşdur və dolğun musiqi ilə müşayiət olunur. Aşıq musiqisində hər iki reçitativ növünün xüsusiyyətlərini özündə birləşdirən deklamasiya üslubu müşahidə olunur. Aşıq yaradıcılığında bir qisim havalar (“reçitativ”) vardır ki, onların vokal melodiyası, tipinə görə, reçitativ-deklamasiya üslubundadır. “Quba Kərəmi”, “Mansırı”, “Bəhməni”, “Borçalı gözəlləməsi”, “Ürfani”, “Sultanı”, “Qaraçı”, “Keşişoğlu”, “Kərəm gözəlləməsi”, “Yanıq Kərəmi”, “Heydəri”, “Çoban-bayatı”, “Dilqəmi”, “Dolhicranı”, “Təcnis”, “Zarıncı”, eləcə də Koroğlu epik havalar silsiləsi buna gözəl nümunədir. Bu səpkili aşıq havalarında bir səs üzərində üfüqi hərəkət tərzi – “sıfıra bərabər interval addımları” çox qabarıqdır və secco reçitativləri xatırladır və burdon səslərlə müşayiət olunur. Lakin sonrakı inkişaf prosesində bu tip hərəkət xətti melodikləşir və ifadəli-xoşahəngli reçitasiyaya çevrilir. Bəzi dəqiq ölçülü havalar qrupu da (“yarımreçitativ”) vardır ki, melodik xəttə təbii axarı ilə reçitativ xasiyyətli musiqi parçaları daxil olur. Bu xüsusiyyət daha çox kadensiya bölmələrində müşahidə olunur. Aşıq havalarına daxil edilən “yedək” funksiyalı bayatılar da, əsasən, reçitativ-deklamasiya üslubunda ifa olunur.

REFREN – rondo formasının əsas bölməsi. Rondonun digər bölmələri – epizodlar arasında dəfələrlə təkrar olunur. Kuplet formasında refren nəqərat mənasını daşıyır. Aşıq havalarının quruluşunda rondo forması və ya klassik mənada kuplet forması müşahidə olunmur (aşıq mahnıları istisna olmaqla). Bununla belə, aşıq havalarında dəfələrlə təkrarlanan melodik parçalar vardır ki, nəzəri təhlillər zamanı onların təyin edilməsi üçün refren termini tətbiq olunur. Refren tipli musiqi parçaları həm instrumental, həm də vokal musiqidə özünü göstərir. Məsələn, “Ovşarı” havasının instrumental girişində səslənən melodik-ritmik musiqi parçası bütün hava boyu keçir və dəfələrlə təkrarlanır: misralararası araçalğılarda səslənir, instrumental intermediyalarda əvvəldə və sonda çalınmaqla yeni mövzunun inkişafını çərçivəyə salır. Aşıq oxumalarında bəndin son iki melomisrası (təkrarlar, genişlənmələr, artırmalarla birlikdə) çox vaxt havanın nəqəratı rolunu oynayır və bu baxımdan refren xüsusiyyəti daşıyır.

RESPUBLİKA XALQ YARADICILIĞI EVİ – 1932-ci ildə yaradılmışdır. 1928-ci ildə Azərbaycan aşıqlarının I Qurultayında folklor nümunələrinin toplanması məqsədilə Xalq Yaradıcılıq Evinin yaradılması ideyası irəli sürülmüş və dörd il sonra həyata

keçirilmişdir. Məşhur xanəndə H.Sarabski 1932-1945-ci illərdə RXYE-nə rəhbərlik etmişdir. C.Qaryağdıoğlu RXYE-nin müşaviri olmuşdur. Ötən əsrin 30-40-cı illərində Xalq Yaradıcılığı Evi əməkdaşlarının əməyi sayəsində Azərbaycanın müxtəlif bölgələrini əhatə edən qiymətli folklor nümunələri toplanmış, nota köçürülmüş və nəşr edilmişdir. 1941-ci ildə qəhrəmani-vətənpərlik mövzusunda oxunan aşıq havalarından ibarət "Vətən uğrunda" toplusu çapdan çıxmışdır. Sonrakı illərdə Xalq Yaradıcılığı Evi həm yerli, həm də beynəlxalq xarakterli çoxsaylı festivalların, baxışların, müsabiqələrin keçirilməsinin təşəbbüsçüsü kimi çıxış etmişdir. Bu tədbirlər, bütövlükdə, xalq yaradıcılığının müxtəlif janrlarının inkişafını təmin etmiş, ənənəvi incəsənətin mövcud vəziyyətinin bütöv mənzərəsini yaratmağa imkan vermiş, Azərbaycanın müxtəlif bölgələrinin xalq yaradıcılığı evləri və rayon mədəniyyət şöbələri ilə əlaqələri həyata keçirmiş, onların nəzdində fəaliyyət göstərən xalq musiqisi kollektivlərinə nəzarət etmiş, lazım gəldikdə isə onlara metodik yardım göstərmişdir. 1951-1971-ci illərdə RXYE-nə Əməkdar incəsənət xadimi, rejissor M.İsmayılzadə rəhbərlik etmişdir. Həmin dövr ərzində "Aşıqlar" (1957) kitabı nəşrdən çıxmış, musiqişünas B.Hüseynli və bəstəkar Q.Hüseynli tərəfindən Aşıq Teymur Hüseynlinin (Şəmkir) ifasından köçürülmüş not yazısında "Təbrizi", "Göyçə gözəlləməsi", "Qəhrəmani", "Mirzəcani", "Şahsevəni", "Baş müxəmməs", "Dilqəmi" aşıq havaları Azmusnəşrdə çap edilmişdir. Bəstəkarlar Q.Hüseynli, N.Əliverdibəyov, H.Xanməmmədov və başqaları RXYE-nin əməkdaşları olmuşlar. M.İsmayılzadə 1959-cu ildə Moskvada keçirilmiş Azərbaycan Mədəniyyəti ongünlüyündə "Xalq yaradıcılığı" bölməsinin quruluşçu rejissoru kimi iştirak etmiş, 1961-ci ildə keçirilən aşıqların III Qurultayının əsas təşkilatçısı və İdarə Heyətinin üzvü olmuş, Bakıda keçirilən ilk "Novruz bayramı" şənliklərinin təşkilinə böyük əmək sərf etmişdir. RXYE sonralar Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəzə, 2014-cü ildən Mədəniyyətşünaslıq Elmi Mərkəzinə çevrilmişdir. Mədəniyyətşünaslıq Elmi Mərkəzi hal-hazırda müxtəlif ənənəvi mədəniyyət sahələrinin hərtərəfli tənzimlənməsində əlaqələndirici rolunu oynayır.

REZONANS (latın: rezono – hay (səs) verirəm) – səslənən cismin titrəyişi nəticəsində başqa cismə təsir edən akustik hadisə. Saz alətində çalarkən simlərin titrəyişi rezonans çanağına ötürülür. Rezonator – çanaq səsi gücləndirir və ona özünəməxsus tembr verir. Saz alətinin çanağının üz tərəfində üç rezonator dəliyi vardır.

RƏDİF – şeirdə misranın axırında, qafiyədən sonra gələn söz və ifadədir. Onda bir növ nəqərat elementləri, poetikliyə xidmət edən musiqilik, yaxşı mənada düşünülmüş təkrarlanma vardır. Ustad sənətkarlar özlərinin yaratdığı klassik nümunələri rədiflə nizamlamışlar. Məsələn, Aşıq Ələsgərin "Dağlar" şeirində dağlar rədif kimi təkrarlanır.

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə Qasımın "Qal indi" şeirində eyni ifadə rədif kimi axıra qədər təkrarlanır və bu, aşıq yaradıcılığında bir ənənə, sistem kimi görünür.

Obalarmız səf-səf olub yüklənir,
Başı ala qarlı dağlar, qal indi.
Biz içmədik abi-kövsər suyundan,
Soyuq sular, tər bulaqlar, qal indi.

Şeirdə rədif poetikliyi yaradan nizamlayıcı komponentlərdən biridir. Bədii təsvir vasitəsi kimi aşıq şeirində, bütünlükdə türk şeir ənənəsində, klassik poeziyada mühüm dəyər kəsb edir.

RƏHİMBƏYLİ NAİLƏ RASİM QIZI (1968 – Gəncə) – etnomusiqişünas, sənətşünaslıq üzrə elmlər doktoru (2012). "Aşıq Qərib" dastanının melopoetik xüsusiyyətləri (2011) monoqrafiyasında dastanda poetik mətnlə musiqinin bədii sintez problemləri şərh edilmiş, onun melo-poetik xüsusiyyətləri kompleks halında tədqiq edilmiş, klassik aşıq havalarının interpretasiya məsələləri araşdırılmışdır. "Təcnis" aşıq havasının musiqi-nəzəri məsələləri", "Baş divani" aşıq havasının musiqi-nəzəri məsələləri", "Qaraçı" aşıq havasının musiqi-nəzəri məsələləri", "İbrahimi" və "Köhnə qaytarma" aşıq havalarının lad-intonasiya və forma xüsusiyyətləri" adlı məqalələrin müəllifidir. AMEA Folklor institutunda "Musiqi folkloru" şöbəsinin müdiridir.

RƏHİMLİ İLHAM ƏZİZ OĞLU (1949, Yevlax rayonu, Malbinəsi kəndi – Bakı) – Sənətşünaslıq üzrə elmlər doktoru (1993). Mədəniyyət və İncəsənət Universitetinin professoru (1996). Əməkdar incəsənət xadimi (1989). "Qızıl Dərviş" (1992), "Humay" (1998), "Cəfər Cabbarlı" (2005) mükafatları laureatıdır. Azərbaycan Teatr Xadimlərinin "Sənətkar" medalına layiq görülüb (2012). 2019-cu ildən prezident təqaüdçüsüdür. Teatra, kinoya, rəssamlığa aid yüzə yaxın elmi-nəzəri kitabın, o cümlədən 22 monoqrafiyanın, beş dərsliyin müəllifidir. Həmçinin 5 cildlik "Azərbaycan teatr tarixi", 3 cildlik "Azərbaycan Teatr Ensiklopediyası", 3 cildlik "Səhnə fədailəri", 3 cildlik "Akademik Milli Dram Teatrı" fundamental tədqiqat əsərləri var. Xalq yaradıcılığına, xalq oyun və tamaşalarına, aşıq sənətinin, dastan söyləmələrinin teatr estetikasına aid tədqiqatları var. Bu baxımdan "Xalq oyun-tamaşaları" kitabı elmi-nəzəri araşdırmalarına, yenilik prinsiplərinə, bədii-estetik səciyyələrinin müasirliyinə görə qiymətlidir. "Aşıq Qərib", "Abbas və Gülgəz", "Qurbani" dastanlarının dramaturji-teatral mətnini hazırlamışdır.



RƏHİMOV ƏHLİMAN (ŞİRVANLI) RƏHİM OĞLU (1955, Ucar rayonu, Bərgüşad kəndi – Bakı) – ustad aşıqdır. 1972-ci ildə orta məktəbi bitir-

mişdir. ADMİU-nun mədəni-maarif fakültəsində təhsil almışdır (1985-1990). Ucar rayon Mədəniyyət evində işləmişdir (1977-1989). ADMİU-da Aşıq sənəti kafedrasının müdiridir (2011-ci ildən). "Şirvan aşıq mühitində dastan ifaçılığı" mövzusunda dissertasiya yazmışdır (2010). Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosentdir. "Aşıq sənətinin perspektivləri və problemləri" (2009), "Şirvan aşıq havaları, səciyyəsi, təsnifi və tədrisi metodikası" (2014) adlı elmi araşdırmaları vardır. "Könlümlə danış, sazım" (2004), "Sazımı sözə calamışam" (2014) şeirlər kitabı çıxmışdır.

Türkiyədə, İranda, Misirdə, Rusiyada və başqa ölkələrdə sənətkar kimi sazısözü ilə iştirak etmiş və mükafatlar almışdır. Əməkdar mədəniyyət işçisidir (2007). Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin üzvüdür. Aşıqların IV, V və VI qurultaylarının iştirakçısıdır.

RƏHİMOV ƏBÜLFƏT (ZODLU) İSMAYIL OĞLU (1908, Göyçə mahalı, Zod kəndi – 1944, II Dünya müharibəsi) – Göyçə mühitinin yetişdirdiyi sənətkarlardandır. Zodlu Əbülfət adı ilə mühitdə el şairi kimi tanınmışdır. Zodda yeddiillik məktəbi bitirmişdir. İrəvan şəhərində Türk Pedaqoji Texnikumuna daxil olmuşdur. Uzun illər Ermənistan Yazıçılar cəmiyyəti türk bölməsinin katibi və SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur. Xalq arasında yaşayan şeirləri onun aşıq tərzində yazıb-yaradan istedadlı bir el şairi olmasını göstərir. II Dünya müharibəsinin iştirakçısı olmuşdur. 1942-ci ildə cəbhəyə getmiş və 1944-cü ildə həlak olmuşdur.

RƏHMANOV ƏFQAN ZEYBƏDDİN OĞLU (1982, Balakən rayonu, Həlifə kəndi) – Tambur ifaçısıdır. Atababaları da tamburçu olmuşdur. Erkən yaşlarından şeirə-sənətə maraq göstərmişdir. "Əfqan Balakənli" imzası ilə aşıq şeiri üslubunda poetik örnəkləri vardır.

Ayrı-ayrı toplularda, qəzet və jurnal səhifələrində hayla, bayatı, qoşma və gəraylıları çap olunmuşdur. Dəfələrlə radio-televiziya verilişlərində maraqlı çıxışlar etmişdir. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür (2016). Bir çox tambur havalarının bəstəçisidir. Aşıqların VI qurultaylarının iştirakçısıdır. Beş nəfər gənc tambur ifaçısı yetişdirmişdir.

RƏNCİBƏR İSMAYIL QURBAN OĞLU (1973, Əhər, Qorçu kəndi) – Təbriz-Qaradağ aşıq mühitinin nümayəndəsidir. İbtidai təhsili kənddə almış, orta məktəbi Əhər şəhərində bitirmişdir. Erkən yaşlarından saza həvəs göstərmişdir. Əhər şəhərində böyük ustadların

– Aşıq Vəli Əbdi və Aşıq Ağəmməd Gərəncəlinin yanında şagird olmuş, sənətin sirlərini onlardan öyrənmişdir. Tıbriz-Qaradağ bölgəsinə məxsus regional dastanların (“Əliynən Rafi”, “Qulam Heydər”, “Şikarı” və s.) eləcədə bölgəsal havaların (“Qürbəti”, “Qaradağ təcnisi”, “Qaradağ gəraylısı”) usta ifaçısı sayılır. Hal-hazırda Əhər şəhərində yaşayır. Mühitin tanınmış sənətkarlarındandır.

RƏSULOV ƏLİ HƏSƏN OĞLU (1906, Göyçə mahalı, Şişqaya kəndi – 1988) – Böyük qardaşı Şişqayalı Rəhim Göyçənin tanınmış aşıqlarından olmuşdur. Sənətin sirlərini əvvəlcə qardaşı aşıq Rəhimdən, sonra isə Qızılvəngli Aşıq Quludan öyrənmişdir. Aşıq Qulu isə Aşıq Alının şagirdlərindən olmuşdur. Aşıq Əli ustad yanında sənətin sirlərini, ustadların yaradıcılığını mənimsəmiş, bir sənətkar kimi formalaşmışdır. O, İkinci Dünya müharibəsində iştirak etmişdir. Müharibədən sonra köçüb Şəkidə yerləşmişdir. Zaqatala, Qax, Balakən rayonlarında bir çox aşıqların yetişməsində böyük rolu olmuşdur. Yuxarı Layskidən Aşıq Sirac, Aşıq Əhmədiyyə, Göynükdən Aşıq İsmayıl, Aşıq Ziyəddin, Camal Əhmədov, şair Cahangir Dalğın (hər üçü də Zaqatala rayonundandır) və başqaları ondan aşıq sənətini öyrənmişlər.

1980-ci il yenidən Göyçəyə qayıtmış, ömrünün son illərini doğma kəndi Şişqayada yaşamışdır. Aşıqların III qurultayında iştirak etmişdir (1961).

RƏSULOV SƏDAQƏT QOQUŞ OĞLU (1947, Gədəbəy rayonu, Kərgər kəndi) – Orta təhsil almışdır (1954-1964). 14 yaşından aşıq sənətini öyrənməyə başlamışdır. 20 yaşında İsfəndiyar Rüstəmovun yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişdir. Aşıq İsfəndiyarla birlikdə on il məclislər keçirmişdir. Ritmik havaların usta ifaçısıdır. Mahir ifaçı kimi tanınmışdır. Gədəbəy aşıqlar ansamblının ən fəal üzvlərindən biri kimi tanınmışdır (1975-1992). Ayrı-ayrı rayonlarda və respublika səviyyəli tədbirlərdə iştirak etmişdir. Birinci dərəcəli diplom və qızıl medala layiq görülmüşdür. Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyində (1972) yüksək səviyyəli ifaçılığa görə ali mükafat almışdır. Yüksək ifaçılığa malik sənətkardır. IV və V Aşıqlar qurultaylarının nümayəndəsi olmuşdur.



RƏVAYƏT – xalq yaradıcılığında xəyali və ya həqiqətdə olmuş hadisələr haqqında danışılan hekayətlərdir. Hadisələri öz gözü ilə görmüş şəxslərin danışığı rəvayətlərin bir forma kimi başlanğıcında durur. Dildən-dilə keç-

məklə müəyyən dəyişikliklərə uğrayır. Söyləyici təhkiyəsində əlavələr və əskiltmələr özünü göstərə bilir. Ancaq rəvayətdə hadisənin mahiyyəti əsasən qorunur. Həyat hadisələrinin bədii təsviri onun spesifik xüsusiyyətini təşkil edir. Rəvayət müəyyən formal xüsusiyyətləri, spesifikası ilə janr kimi nağıl və əfsanəyə yaxındır. Lakin rəvayət öz spesifikası ilə nağıldan reallığa daha yaxın olması ilə seçilir. Nağılda qabarıq şəkildə özünü göstərən fantastika, əfsanəvi səciyyə bir komponent kimi rəvayətə yaddır. Geniş ictimai maraq rəvayətin mühüm tərkib hissəsidir. Rəvayətlərdə tarixilik, toponimik səciyyə qabarıq şəkildə özünü göstərən məsələdir. Məsələn, müəyyən tarixi şəxsiyyətlər, onların göstərdiyi igidliklər, qəhrəmanlıqlar haqqında çoxlu rəvayətlər vardır ki, bu gün xalq arasında yaşayır. Eləcə də ayrı-ayrı yerlərdə baş verən hadisələrlə bağlı hekayətlər də vardır ki, bunlar həmin ərazi ilə bağlı yaddaş hadisəsinə çevrilir və toponimik səciyyə daşıyır.

XIX-XX əsrlərin qaçaq hadisələri ilə bağlı xalq arasında çoxlu rəvayətlər yaşamaqdadır. Onlar bir çox aşıq rəvayətlərinə də çevrilmişdir. Rəvayətlər bu baxımdan dastanlaşma prosesi üçün əsas qaynaqlardan biridir. Bir sıra dastanlar silsilə aşıq rəvayətlərinin tədrici prosesdə bütövləşməsində də baş verir. Qaçaq hərəkatı ilə bağlı dastanlarda (“Qaçaq Kərəm”, “Qaçaq Nəbi”, “Qaçaq Süleyman” və s.) məhz rəvayət və hekayətdən dastanlaşmaya qədər inkişaf yolu keçmişdir.

“RƏVZƏ GƏRAYLI” – aşıq havası. Urmiya aşıq mühitində yaranmışdır. “Gəraylı” havalar silsiləsinə aiddir. Poetik mətnin əsasını xalq şeir forması olan “gəraylı” təşkil edir. Melodik, metrik, ritmik xüsusiyyətlərinə və ifadə tərzinə görə gəraylı havalarından fərqlənir. Sadə kök üzərində ifa olunur, bu baxımdan çalğıda sekunda səslənmələri üstünlük təşkil edir. Dəqiq metr-ritmik ölçüyə malikdir – 2/4. Sadə ritmik quruluşa malik – çərək, səkkizlik notlar və triollar üzərində yaranan başlanğıc melodiya quruluş baxımından da mütənasibdir və period forması çərçivəsindədir. variant şəkildə inkişaf edir, ritmik quruluşda səkkizliklər üstünlük təşkil edir və hava başlıca melo-intonasiya və kadensiyalara qayıtmaqla tamamlanır. Rəvzə gəraylının məqam-səs sistemi Şura uyğundur. Hava ənənəvi Şur keçidi ilə bitir (açıq sim – boş pərdə). İ.İmamverdiyev tərəfindən instrumental şəkildə nota salınmışdır.

RİTM (yunan: rithmos – rəvan axarlı hərəkət) – musiqi səslərinin zaman daxilində növbələşməsi və qarşılıqlı münasibəti. Aşıq musiqisi özünəməxsus ritmikaya malikdir. Metr-ritmik quruluş aşıq havalarının ən əsas bədii ifadəlilik vasitələrindən biridir. Aşıq havalarında müəyyən ritmik quruluş müxtəlif səsyüksəkliklərinin ardıcıllığı ilə qovuşaraq onun özünəməxsus ritm-intonasiya məzmununu yaradır. Birtəbəqəli ritmikaya malik olan aşıq havalarında binar (ikibölgülü) və ternar (üçbölgülü) ritmbloklar mövcuddur. Bir qayda olaraq, binar ritmik fiqurlar aşıq havalarına marşvarı, ternar ritmbloklar isə rəqsvarı cizgilər aşılayır. Ritmik fiqurların təkrarı zamanı ən kiçik ölçü vahidləri rəngarəng variant dəyişikliklərinə uğrayır. İkitəbəqəli ritmikaya malik olan aşıq hava-

larının vokal partiyasının qeyri-müntəzəm ritmik axını şifahi ənənəli Azərbaycan musiqisində sərbəst bəhrin parlaq təzahürüdür. "Aşıq musiqisində, əsasən, saz çalğısına xas olan metrik dəyişkənlik "vurğulu və qeyri-müntəzəm" ritmikaya aid olunur. Belə bir üslub şəraitində 2 və 3 saylı özəklərin sıralanması "axsaq ritm" kimi səciyyələndirilə bilər" (F.Xalıqzadə). Sərbəst bəhrə malik olan aşıq havalarının ritm qanunauyğunluqlarını dərk etmək üçün onların zaman təşkilini bir növ xronoqrammatika (Aranovski) kimi qəbul etmək məqsədəuyğundur. Zaman anlayışını geniş şəkildə təfsir edən bu yanaşma tərzində yalnız zaman vahidlərinin münasibətləri deyil, həmçinin faktura, melodik xəttin özəllikləri və s. vasitələrlə ifadə edilən aksentlərin önəmli rolu vardır. Sinkopanın rəngarəng təzahür formalarını yaradan qeyri-mütəmadi aksentlik aşıq musiqisinin bəzi nümunələrində onların dinamizasiyasını təmin edən əsas amillərdən biridir. Erkən aşıq havalarının zaman təşkilində modal ritmikasının prinsipləri özünü büruzə verir. Aşıq musiqisinin ritm zənginliyi həm də onun poetik əsasları ilə bağlıdır. Burada ritm-intonasiya amili mühüm semantik funksiyalar yerinə yetirir. Bir çox aşıq havalarında (məsələn, "Koroğlu", "Kərəmi" silsilələri və s.) müəyyən emosional proseslərin, eləcə də müxtəlif hərəkətlərlə bağlı obrazların ifadəsində ritm böyük rol oynayır.

RÖVŞƏN – Koroğlunun əvvəlki adıdır. Ayrı-ayrı aşıq areallarında bu adın "Roşan", "Urşan", "Uruşan" tələffüz variantlarına da təsadüf etmək olur. Ola da bilər ki, bu söz özünün arxaik məna qatında "uruşan-vuruşan" anlamlarını daşımışdır. Orta çağ şərq konteksti "uruşan – vuruşan" anlamını "Rövşən"ə çevirmişdir. "Alı kişi" qolundan öyrənirik ki, Alı kişinin oğlunun adı Rövşəndir. Həsən paşanın göstərişi ilə Hasan xan Alı kişinin gözünü çıxarandan sonra Rövşən hadisələrin sonrakı inkişafında bir qəhrəman kimi meydanda görünür. Həmin vaxt Rövşənin on beş-on altı yaşı varmış. O, atasının intiqamını almaq üçün mübarizəyə qalxanda, intiqam almaq üçün yollanmaq istəyəndə Alı kişi ona bir ağsaqqal kimi tövsiyələrini verir. "Hələ qisasın vaxtı deyil" söyləyir. Qırata, Misri qılınca, qeyri-adiliklərə sahib olduqdan, Çənlibeldə nizam qurduqdan sonra Alı kişi "bala, ay keçər, il dolanar, sənin adın məğribdən məşriqətən bütün dünyada məşhur olar. O köpükdən sənin qollarına qüvvət, özünə də şairlik verildi... Nə qədər ki Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özün də bu Çənlibeldəsən, sənə heç kəs dov gələ bilməyəcək... Get, sənin adını Koroğlu qoydum". Koroğlunun qəhrəmanlığı, bütün qəhrəmanlıq keyfiyyətləri Rövşənə "Koroğlu" adı veriləndən sonra başlayır.

RÖYA MOTİVİ – xalq ədəbiyyatında, nağıllarda, aşıq yaradıcılığında diqqəti cəlb edən və tez-tez rast gəlinən motivdir. Dastanlarda "yatmışdım, duşuma gəldi ərənlər" və ya "yatmışdım, uyxuma gəldi ərənlər" deyimlərindəki "duş" və "uyxu" obrazları da röya motivinin sinonimidir. Dastanlarda qəhrəmanların, aşıq yaradıcılığında ustadların Haqq aşığı kimi qeyri-adi dəyərlərə yiyələnməsi röya vasitəsilə baş verir. Aşıq Qərib, Qurbani, Abbas Tufarqanlı,

Aşıq Ömər və b. röyada Haqq vergisi ilə, dərvişin, hansısa müdrik qocanın verdiyi payla hamıdan, ətrafdakılardan fərqlənir. Qeyri-adi qabiliyyətdə, ağılda olur. Məsələn, Krım tatarlarının görkəmli sənətkarı Aşıq Ömər mədrəsədə cəzalandıqdan sonra qəbiristanlığa gəlir və orada yatır. Yuxuda görür ki, əlində bir saz var. Qarşısında gözəl bir qız dayanıbdır. Bir nurani qoca ona yaxınlaşıb deyir ki, bundan sonra sənin səsinin avazına səs çatmaz. İstedadına, ağlına hər kəs qibtə edər. Nəğmələrinlə insanları, məclisləri rövnəqləndirərsən. "Cənnət bağçasında mənim sevgimi bəklə". Dastanlarımızda, ümumiyyətlə, ustad sənətkarlarımızla əlaqədar yaranan hekayətlərdə röya motivi bir xətt kimi davamlı görünür. "Aşıq Qərib" dastanında bu motiv qabarıq şəkildə verilmişdir. Atasının qoyduğu var-dövləti itirən Rəsul son olaraq anasından icazə alır və atasının qəbrinin üstünə gəlir. Orada yuxulayır. Yuxuda bir dərviş görür. Bu, Xızır İlyas imiş. O, Rəsula bütünlükdə taleyini deyir və Tiflisdə Xoca Sənanın qızının ona buta verildiyini söyləyir. Badə verir və "onu iç" deyir, Rəsul adını isə dəyişdirib Qərib qoyduğunu bildirir. Röyaya qədər böyük müşküllərlə qarşılaşan qəhrəman bundan sonrakı dönəmdə ağlı, bacarığı, istedadı ilə bütün çətinlikləri uğurla həll edir, sınaqlardan qalib çıxır. Röya motivi qəhrəmanın taleyidir. Bir növ, ona ilahi aləmdən – Haqq dünyasından verilən tapşırıqdır. Dastanlarımızda röya motivi öz köklərini şamanist dünyagörüşdən götürsə də, daha çox təsəvvüf simvolikası ilə bağlanır.

"RUHANİ" – Bax. Urfani.

RUBASLI NİFTULLA (1924, Dərbənd, Rubas kəndi-1992)- ustad aşıq XX əsrdə Dərbənd aşıq mühitində görkəmli saz-söz ustadı kimi tanınmışdır. Gözəl dastan ifaçısı və saz şairi kimi el-camaat arasında məşhurlaşmışdır. Min qatardan artıq şeir düzüb qoşmuşdur. Klassik və arxaik Dərbənd dastanlarının- "Yetim Aydın", "Adıgözəl", "Səfilli Məmməd", "Bikəs", "Məsum və Dələfruz", "Ovçu Pirim" və başqa epik mətnlərin ustad söyləyicisi olmuşdur. "Dərbəndi","Dərbənd Koroğlusu", "Narın qala gəraylısı", "Zarıncı gəraylı" havaları onun repertuarında geniş yer almışdır. Söylədiyi dastanların bir qismi "Çoxcildlik Azərbaycan folklor antologiyası"nın "Dərbənd folkloru" cildinə (Bakı, 2017) daxil edilmişdir.

RÜBAİ – Şərq ədəbiyyatında çox yayılmış lirik şeir formalarından biridir. Qafiyələnmə sistemi birinci, ikinci, dördüncü misraları uyuşumlu, üçüncü misrası isə sərbəst olan dördmisralı şeir şəklidir. Bəzi hallarda misralarda həmqafiyə olan sözlərdən sonra rədif də gələ bilir. Dörd misrada bitkin, məna və ideya baxımından mühüm, maraqlı, təsirediciliklə dolu fikri ifadə etmək rübailərin başlıca xüsusiyyətidir. Dünya ədəbiyyatında rübainin ən klassik nümunələrini rübai ustadı kimi tanınan Ömər Xəyyam yaratmışdır. Azərbaycan ədəbiyyatında Məhsəti Gəncəvi rübainin ustadı kimi tanınmışdır. Ana dilimizdə ilk rübai yazan Qazi Bürhanəddindir. Rübai, əsasən, əruz vəzninin həzəc bəhrində yazılır.

Aşıq yaradıcılığında da rübaidən bir forma kimi istifadə ediblər. Abbas Tufarqanlı, Aşıq Hüseyn Cavan, Aşıq Şəm-

şir, Mikayıl Azaflı və aşıqların yaradıcılığında rübai nümunələri vardır.

Səni bu dünyaya gətirən qüdrət,
Bir gün də əbədi köçürər, əlbət.
Bilmirəm gətirən, aparan kimdi,
Çəkdiyin qəm olar, gördüyün afət.
M.Azaflı

Aşıq yaradıcılığında rübai-gəraylı, rübai-təcnis, rübai-qoşma bir forma kimi işlənmişdir. Ancaq elə də çox nəzərə çarpmamışdır. Folklorşünas M.Həkimov "Aşıq sənətinin poetikası" kitabında bu formalar haqqında danışmışdır.

"RÜBAİ KOROĞLU" – "Koroğlu" silsiləsinə daxil olan aşıq havasıdır. Əslində, "Urfayi Koroğlu"dur. Yəni Urfa bölgəsinə məxsus "Koroğlu" havası. Obraz-emosional məzmununa görə qəhrəmanlıq, cəngi havalar qrupuna daxildir. Sazda "Şah pərdə" kökündə ifa olunur. İntonasiya məzmunu kök pərdədən açıq simə qədər ambitusda inkişaf edir. "Rübai Koroğlu" havasının instrumental girişi "Koroğlu havaları" silsiləsi üçün səciyyəvi olan intonemadan – sazın kök pərdəsindən təkan alan və yüksək registrdə səslənən seqmentdən başlayır. "Rübai Koroğlu" havasının instrumental girişi dəqiq metr-ritmik təşkilinə, vokal partiyası isə qeyri-müntəzəm (tempo rubato) vəznə malikdir. Melobəndinin ilk sintaqmaları sazın kök və ayaq divani pərdələri üzərində bərqərar olur. Yüksək tessiturada ifa olunan və sazın aşağı hissəsində səslənən instrumental partiya ilə müşayiət olunan başlanğıc seqment emosional gərginliyi ilə səciyyələnir. Melobəndinin başlanğıc bölməsində "Koroğlu" havalar silsiləsi üçün səciyyəvi olan və erkən məqamyaratma prosesində mühüm rol oynayan trixord səslənir (kök pərdə-ayaq divani pərdə-şah pərdə). Havanın məqam-intonasiya inkişafında kök-ayaq divani; ayaq divani-şah; şah-orta pərdələr üzərində qurulan intonasiya kompleksləri mühüm rol oynayır.

"Rübai Koroğlu" havasının ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Poetik mətninin əsasını qoşma təşkil edir. "Rübai Koroğlu" havasında melopoetik əlavələr mühüm formaqurucu və semantik funksiyalar yerinə yetirir.

Havanın ifasında qəhrəmanlıq semantikası ilə bağlı olan çoxsaylı çağırış intonemalar, gərgin qlissando və artikulyasiyanın digər növlərindən istifadə edilir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

RÜSTƏMİ GÜLƏHMƏD GÜLMƏMMƏD OĞLU (1961, Cənubi Azərbaycan, Horand mahalı, Korun kəndi – Təbriz) – Yaradıcı aşıqdır. Təbriz-Qaradağ aşıq mühitinin nümayəndəsidir. 1983-cü ildə Təbrizə köçüb. Aşıq Mədədin, Xəlil Ağayının yanında şagird olub, sənətin sirlərini onlardan öyrənmişdir. Üç ilə yaxın ustad yanında şagirdlik etmişdir. İyirmi dörd yaşından müstəqil aşıqlığa başlamışdır. Dastançı aşıq kimi tanınır. Gözəlləmə və şikəstə havalarını məharətlə çalır. Aşıq şeirinin



müxtəlif formalarında şeirləri vardır.

Aşıq sənətini dörd gənc aşığa mənimsətmişdir.

RÜSTƏMOV ƏDIL TAĞI OĞLU (1898, Gədəbəy rayonu, Gərgər kəndi - 1975) - Dastançı kimi tanınmışdır. "Valeh və Zərnigar", "Tahir və Zöhrə", "Aşıq Qərib", "Abbas və Gülgəz", "Qurbani" dastanları və "Koroğlu"nun bir neçə qolu onun repertuarında üstünlük təşkil etmişdir. Dərələyəzli Aşıq Məhəmməddən sənət dərsi almışdır. Koroğlu havalarını ustad sənətkar Əsəd Rzayevdən mənimsəmişdir. Zəngin repertuarı ilə aşıqlar arasında sayılıb seçilmişdir. Gəncə şəhərində kecirilən aşıqlar festivalında iştirak etmişdir (1930-1938). Ustad aşıq İsfəndiyar Rüstəmovun atası və ustadı olmuşdur.



RÜSTƏMOV ƏHMƏD ƏDİL OĞLU (1921, Kürdəmir rayonu, Carlı kəndi – 2008) – Şirvan aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Orta təhsil almışdır (1930-1940). Erkən yaşlarından saza maraq göstərmişdir. Sənətin sirlərini ilk olaraq kəndlərində balabançı Əlidən öyrənmişdir. II Dünya müharibəsində iştirak etmişdir. Bir ildən artıq döyüşlərdə olmuş, sonra xəstəliyi ilə əlaqədar tərxis edilmişdir. 1943-1945-ci illərdə Dəvəçi rayonunda milis idarəsində kimsəsiz uşaqlar üzrə təlimatçı işləmişdir. Müharibə qurtardıqdan sonra öz rayonlarına qayıdıb aşıqlıq etməyə başlamışdır. Uzun illər ustad Aşıq Şakir Hacıyevlə sənət yoldaşı olmuşdur. Zəngin poetik irsi və mükəmməl dastanları vardır. "Əhməd gözəlləməsi" ("Bir salam verək") aşıq mahnısının müəllifidir. Çoxsaylı şagirdlər yetişdirmişdir. Bir neçə kitabı nəşr edilmişdir. Aşıq Əhmədin yaradıcılığı ilə bağlı müxtəlif səpkili yazılar verilmiş, tədqiqatlar aparılmışdır. Yaqut Bahadırqızı Aşıq Əhmədin ömür və sənət yolu barədə dissertasiya müdafiə etmişdir (2007). Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülmüşdür (1987). Azərbaycan aşıqlarının III və IV qurultaylarının nümayəndəsi olmuşdur.

RÜSTƏMOV İSFƏNDİYAR ƏDİL OĞLU (1937, Gədəbəy rayonu, Gərgər kəndi- 2018) – Azərbaycan aşıqlarının yetişdirdiyi ustad sənətkarlardandır. Orta təhsilini anadan olduğu kənddə almışdır. Aşıq sənətini atasından öyrənmişdir. Sənətin sirlərini, ustadların yaradıcılığını, dastanları mükəmməlliklə mənimsəmişdir. Gərgər kənd məktəbində mühasib və kargüzar vəzifəsində işləmişdir (1955). Gədəbəy mədəniyyət evində özfəaliyyət kollektivinə üzv yazılmışdır (1955). Moskvada keçirilən folklor festivalında birinci dərəcəli diplom və döş nişanı almışdır (1968). Moskvada,

Bakıda, Göyçə mahalında Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyində iştirak etmiş, uğurlu çıxışına görə "Aşıq Ələsgər" yubileyi medalı ilə təltif olunmuşdur (1972). 1970-80-ci illərdə Moskvada keçirilən "Göyqurşağı" festivalında, Özbəkistanda keçirilən ədəbiyyat və incəsənət ongünlüyündə, Türkiyədə, İranda, Mahaçqalada keçirilən festivallarda diplom və fəxri fərmanlar almışdır. 1975-1977-ci illərdə Moskvada keçirilən ümumittifaq xalq yaradıcılığı festivalında "Gədəbəy" aşıqlar ansamblı" ilə birgə iştirak etmiş və qızıl medala layiq görülmüşdür. Aşıq sənəti sahəsindəki xidmətlərinə və uğurla fəaliyyətinə görə Azərbaycan Ali Sovetinin fəxri fərmanı ilə təltif edilmişdir (1987). 1981-ci ildə rəhbərlik etdiyi Gədəbəy aşıqlar ansamblına "Xalq aşığı" statusu verilmişdir. Aşıq İsfəndiyar Gədəbəy mədəniyyət evində aşıqlar kollektivinin bədii rəhbəri vəzifəsinə təyin edilmişdir. Əməkdar mə-dəniyyət işçisi (1991), Prezident təqaüd- çüsü (2007) olmuşdur. Azərbaycan aşıqlarının III, IV, V qurultaylarına nümayəndə seçilmişdir. Poetik yaradıcılıqla məşğul olmuş, kitabl nəşr edilmişdir. "İsfəndiyar gözəlləməsi" havasının müəllifidir. 1984-cü ildən ömrünün sonuna qədər Aşıqlar Birliyinin idarə heyətinin üzvü olmuşdur. 70, 75 və 80 illik yubileylıri dövlət səviyyəsində qeyd edilmişdir.

RÜSTƏMOV QƏHRƏMAN (1928, Tovuz rayonu, Qovlar qəsəbəsi – 1992) – Tovuz mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Aşıqlığa erkən yaşlarından həvəs göstərmişdir. Aşıq Səmədin yanında şagird olmuşdur. Sənətin sirlərini, ustadların yaradıcılığını ondan öyrənmiş, bir aşıq kimi formalaşmışdır. Müəyyən müddət Aşıq İmran Həsənovun sənət yoldaşı olmuşdur. Sonra müs-

təqil aşıqlığa başlamışdır. Tovuzda və digər bölgələrdə məclislər aparmış, bir sənətkar kimi tanınmışdır. Tovuz aşıqlar ansamblının fəal üzvü olmuşdur. Koroğluxan aşıqlardan sayılmışdır. Dərin dastan biliyi ilə seçilmişdir. Moskvada, Bakıda, Daşkənddə keçirilən festivallarda fəxri diploma və medallara layiq görülmüşdür. III və IV Aşıq qurultaylarının nümayəndəsi olmuşdur. Az.TV və radiosunun "qızıl fondu"nda xeyli sayda ifaları qorunur.

RÜSTƏMOV SƏİD ƏLİ OĞLU (1907, İrəvan – 1983, Bakı) – bəstəkar, dirijor, pedaqoq, folklorçu. Xalq artisti

(1957), Əməkdar incəsənət xadimi (1938), SSRİ Dövlət mükafatı laureatı (1951), professor (1973), Musiqi texnikumunu (tar, M.Mansurovun sinfi, 1929) və Azərbaycan Dövlər Pedaqoji İnstitutunu (1932) bitirmişdir. Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru (1935-1975), Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (1951) rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1945-1953) vəzifəsində çalışmış, SSRİ Bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvü olmuşdur. Üç musiqili komediyanın – "Beş manatlıq gəlin", "Durna", "Rəisin arvadı", tar və xalq çalğı alətləri orkestri üçün Konsert, "Azərbaycan" kantatası, xalq çalğı alətləri orkestri üçün "Azərbaycan süitası", "Bayatı-kürd" muğamı əsasında Fantaziya, dram tamaşalarına musiqi, eləcə də "Tar məktəbi" dərsliyinin və b. əsərlərin müəllifidir. Musiqi tarixinə lirik mahnı ustası kimi daxil olmuşdur. Xalq musiqisinə, xüsusilə aşıq musiqisinə dərin köklərlə bağlı olan S.Rüstəmovun yaradıcılığının mühüm bir sahəsi məhz musiqi fokloru üzrə fəaliyyəti ilə bağlıdır. O, Bülbülün rəhbərliyi altında yaradılmış ETMK-nin əməkdaşı olmuş, aşıq havalarını, xalq mahnı və rəqslərini, muğam rənglərini toplayaraq nota salmış, bununla da musiqi irsimizin qorunması işində misilsiz xidmətlər göstərmişdir: "Azərbaycan aşıq mahnıları" (4 dəftər, 1938), "50 Azərbaycan xalq mahnısı" (1938), "Azərbaycan xalq mahnıları" (1957, 1967), "Azərbaycan xalq rəqsləri" (1050), "Azərbaycan xalq rəngləri" (2 cild, 1954, 1956) və b. 1938-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan incəsənəti Dekadasında Xalq Çalğı Alətləri Orkestri Səid Rüstəmovun rəhbərliyi altında Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını müşayiət etmişdir. Orkestr partiyası S.Rüstəmov tərəfindən işlənilmiş və ilk dəfə olaraq orkestrə saz və tütək alətləri daxil edilmişdir. F.Əmirovun "Fortepiano və xalq çalğı alətləri orkestri üçün konserti"ndən sonra orkestrə III tarlar və II sazlar daxil edilmiş və orkestrin simlidartımlı alətlər qrupunun tərkibi genişləndirilmişdir. S.Rüstəmov bir neçə aşıq havasını orkestr üçün işləmişdir: Orkestrin fəaliyyətində göstərdiyi böyük xidmətlərə görə ölümündən sonra orkestrə S.Rüstəmovun adı verilmişdir.



RÜSTƏMOV ZAHİD ASLAN OĞLU (1945, Gədəbəy rayonu, Daryurd kəndi) – Ustad sənətkar, mahir solo saz ifaçısı. Kənddə orta təhsil almışdır. Xanlar Pedaqoji məktəbində təhsilini davam etdirmişdir. Aşıq Şamildən sənətin sirlərini öyrənib. Saz-söz aləmində "Zahid Aslanoğlu" təxəllüsü ilə tanınmışdır. Azərbaycan radiosunda ona yaxın ifası qorunur. Çoxlu şagirdlər yetişdirmişdir. Z.Aslanoğlu həm də gözəl dastan bilicisidir. Respublikada keçi-



rilən festivalların qalibi olub, fəxri mükafatlara layiq görülmüşdür. Gədəbəy aşıq ansamblının üzvüdür. Azərbaycan aşıqlarının IV Qurultayının iştirakçısıdır (1984).

RÜSTƏMZADƏ RÜSTƏM BAYRAMƏLİ OĞLU (1930, Qazax rayonu, Poylu qəsəbəsi – 2015) – folklorşünas, professor. Xalq ədəbiyyatının tədqiqatçısı. İlk təhsilini anadan olduğu qəsəbədə almışdır. Qazax müəllimlər seminariyasının dil-ədəbiyyat fakültəsində oxumuşdur (1947-1950). Ağsu rayon Pirhəsənli kəndində (1950-1951), Masallı rayonunda dərs hissə müdiri işləmişdir (1952). Ağstafa rayonunun Xılxına və Poylu kəndlərində müəllim kimi fəaliyyət göstərmişdir (1953). ADPU-da təhsil almışdır (1953-1957). AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur (1961). Ədəbiyyat İnstitutunun Xalq yaradıcılığı şöbəsində böyük elmi işçi vəzifəsində işləmişdir (1965). GDPU-da Azərbaycan ədəbiyyatı tarixi kafedrasına işə düzəlmiş (1967), Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasının dosenti olmuşdur (1969-1988). "Azərbaycan tarixi qəhrəmanlıq dastanları" mövzusunda doktorluq dissertasiyası yazmışdır (1989). AMİ-nin Qazax filialında kafedra müdiri, dekan (1991-2008), elmi işlər üzrə direktor müavini (2009-cu ildən) vəzifələrində çalışmışdır. 17 kitab müəllifidir. "Xəyyat Mirzə" (1966), "Koroğlu nəvələri" (1967), "Əlimərdanlı Aşıq Nəcəf" (1979), "Məhəbbət dastanları" (1981), "El qəhrəmanları xalq ədəbiyyatında" (1984), "Aşıq rəvayətləri" (1988), "Aşıq Hüseyn Şəmkirli (1991), "Azərbaycan tarixi qəhrəmanlıq dastanları" (1998) və s. kitabları vardır. Qaçaq hərəkatı ilə bağlı yaranan dastanların tədqiqatçısı kimi tanınmışdır. Aşıq yaradıcılığının toplanması, nəşri və tədqiqi sahəsində dəyərli işlər görmüşdür.



RZAQULUZADƏ MİKAYIL MANAF OĞLU (1905, Bakı şəhəri – 1984) – nasir, şair, tərcüməçi. AYB-nin üzvü (1934), "Mim – Re", "M.R.", "R.Mikayıl", M.Rzaquluzadə imzaları ilə yazılar yazmışdır. İbtidai təhsilini "Mədrəsəyinur" məktəbində və mollaxanada almışdır (1912-1913). Daha sonra 5 nömrəli rus-müsəlman məktəbində oxumuşdur. Ali Pedaqoji İnstitutun tarix fakültəsinə daxil olmuşdur. Moskvada İkinci Dövlət Universiteti yanında Pedaqoji Psixologiya-Pedologiya Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır (1931-1934). "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında məsul katib, "Azərbaycanfilm" kinostudiyasında, Xarici Ölkələrlə Mədəni Əlaqələr cəmiyyətində baş redaktor, "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində çalışmışdır. Ədəbi fəaliyyətə "Dan söküləndə" (1952), "Sirli saz" (1955), "Nəsillərdən nəsillərə"



(1965), “Baharın elçiləri” (1968), “İlin yazı – elin sazı” (1981) və s. kitabları vardır. “Kitabi-Dədə Qorqud”un motivləri əsasında “Ana ürəyi, dağ çiçəyi” əsərini yazmışdır.

RZAYEV ANAR (ANAR) RƏSUL OĞLU (1938, Bakı) – görkəmli yazıçı, dramaturq və qorqudşünas. 1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Zəngin ədəbi yaradıcılığa malik Xalq yazıçısı Anar «Kitabi-Dədə Qorqud» eposunun təbliği və tədqiqi sahəsində misilsiz xidmətlərə malikdir. Onun «Dədə Qorqud» kinodastanı əsasında iki seriyalı bədii filmi çəkilmişdir.

«Dədə Qorqud dünyası» adlı monoqrafik tədqiqatında ozan sənəti, «Dədə Qorqud» eposunun poetikası, dastandakı obrazların tarixi və ədəbi səciyyəsi, mətnin dil-üslub özəllikləri barədə dərin məzmunlu elmi təhlillər verilmişdir.

«Kitabi-Dədə Qorqud» ensiklopediyası redaksiya-nəşriyyat şurasının sədri kimi Anar ikicildlik fundamental nəşrin (Bakı, 2000) hazırlanmasına böyük əmək sərf etmişdir.

Anarın aşıq sənəti barədə də maraqlı elmi mülahizələri vardır. Bu sıradan onun Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Qaracaoğlan, Sarı Aşıq, Aşıq Ələsgər və Dədə Şəmşir sənəti barədəki dəyərləndirmələri diqqətçəkicidir.

RZAYEV ƏSƏD ƏHMƏD OĞLU (1874, Göyçə mahalı, Basarkeçər rayonu, Böyük Qaraqoyunlu kəndi – 1951, Tovuz rayonu, Bozalqanlı kəndi) – Koroğluxan ustad aşıq. Aşıq Əsədin atası Tovuz rayonunun Bozalqanlı kəndindən olmuşdur. Yerli bəylərin zülmündən qaçıb Qaraqoyunluya getmişdir. Əsəd on iki yaşına çatanda atası vəfat etmişdir. 1918-ci ildə daşnak ordusunun zabiti Selikovun öldürülməsində günahkar bilinib. O, qardaşı Məhəmmədlə birgə həbsə alınmışdır. Göyçədə Müsavat özəyinin köməyi ilə həbsxanadan qaçırılıb, uzun müddət gizli şəkildə Tovuz, Qazax qəzalarında yaşadıqdan sonra 1932-ci ildən Tovuz rayonunun Bozalqanlı kəndinə köçmüşlər. Göyçədə Aşıq Ələsgərin yanında dörd il şagird olmuşdur. Aşıq sənətinin sirlərini, dastanları mükəmməlliklə öyrəndikdən sonra müstəqil aşıqlığa başlamışdır. Ömrünün axırına qədər Tovuz rayonunda yaşamışdır. Gözəl, məlahətli səsi, misilsiz ifaçılıq qabiliyyəti, dastanları dərindən bilməsi onu xalq arasında məşhurlaşdırmışdır. Aşıq Əsəd 1928, 1938-ci illərdə I və II Azərbaycan aşıqlar qurultayının iştirakçısı olmuşdur. Aşıqların I Qurultayında yüksək ifaçılığına görə birinci yeri tutmuşdur. 1930-1940-cı illərdə respublikada keçirilən incəsənət tədbirlərində ən fəal aşıqlardan biri olmuş və həm də mükafatlara layiq görülmüşdür. V.Xuluflu və H.Əlizadə “Koroğlu” dastanının bir neçə qolunu və xalq dastanlarının bir çox variantlarını Aşıq Əsəddən yazıya almışlar. O, bir neçə gün dalbadal çalıb-oxumağı bacaran sənətkar olmuşdur. Aşıq Əsəd 1936-cı ildə Azərbaycan mədəniyyət xadimlərinin Moskvada dövlət rəhbərliyi tərəfindən qəbulunda



və 1938-ci ildə Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə fəal iştirak etmiş, "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur (1939). Aşıq Əsəd aşıqlar ansamblı düzəltmiş, müharibə dövründə və sonrakı illərdə yüzə qədər konsert vermişdir. O, bir sıra gənc aşıqların yetişməsində mühüm rol oynamışdır. El arasında ona "Dədə Əsəd" deyilmişdir. Aşıq Əsəd dastan yaradıcılığı ilə də məşğul olmuşdur. N.Gəncəvinin 800 illik yubileyi münasibətilə "Nizami və Afaq" dastanını yaratmışdır. Aşıq Əsədin 1939, 1974, 1994-cü illərdə ayrıca şeirlər kitabı nəşr olunmuşdur.

RZAYEV HÜSEYN (DƏMİRÇİ HÜSEYN) RZA OĞLU (1897, Tovuz rayonu, Bozalqanlı kəndi – 1968) – Tovuz mühitinin yetişdirdiyi sənətkarlardandır. 1913-1917-ci illərdə Çəmbərək kəndində dəmirçi yanında şagird olmuşdur. 1920-25-ci illərdə kənddə dəmirçilik etmişdir. 1926-cı ildə kənd sovetinin sədri işləmişdir. 1927-ci ildə "sinfi mübarizə"də fəallıq göstərə "bilmədiyindən" həmin vəzifədən uzaqlaşdırılmışdır. Aşıqlığa meyl göstərmiş və saz-sənət aləminə maraq göstərmişdir. 1930-cu ilə kimi Aşıq Hüseyn Bozalqanlının şagirdi olmuşdur. Aşıq sənətinin sirlərini onun yanında mənimsəmiş və müstəqil aşıqlığa başlamışdır. Tovuzda və ətraf bölgələrdə məclislər aparmışdır. Hüseyn Bozalqanlının sözsənət irsinə sinəsində daşıyan ustad kimi tanınmışdır. Bir çox dastanları və aşıq şeirlərini H.Əlizadə, Ə,Axundov, R.Rüstəmzadə və Ş.Rza onun ifasından yazıya alaraq nəşr etdirmişdir. El-camaat arasında "Dəmirçi Hüseyn" təxəllüsü ilə istedadlı sənətkar kimi tanınmışdır. Oğlu Şəmşəd Rza Dəmirçi Hüseynin ayrıca şeirlər və dastanlar kitabını nəşr etdirmişdir (1987).

RZAYEV HÜSEYNQULU (HÜSEYNQULU SARABSKİ) MƏLİK OĞLU (1879, Bakı –1945) – müğənni (lirik tenor), xanəndə, aktyor, rejissor, pedaqoq, teatr xadimi, ictimai xadim. Xalq artisti (1932). Azərbaycan peşəkar musiqili teatrının banilərindən biri, "Nicat" cəmiyyəti nəzdindəki opera truppasının solisti, Bakıda keçirilən "Şərq konsertləri"nin təşəbbüsçüsü və fəal iştirakçısı, "Müsəlman opera trup-

pası” və “Müsəlman dram truppası”nın yaradıcısı, Mərkəzi Fəhlə Klubunda dram dərnəyinin rəhbəri, ADOBT-nin solisti olmuş, ADK və ADMM-də muğam sinfi üzrə dərs demişdir.



Ü.Hacıbəylinin “Leyli və Məcnun” muğam operasında Məcnun rolunun ən gözəl ifaçısı kimi tarixə düşmüşdür. H.Sarabski başqa rollarla yanaşı, Ü.Hacıbəylinin “Əsli və Kərəm” operasında Kərəm, Z.Hacıbəyovun “Aşıq Qərib” operasında Qərib rollarının ilk ifaçısı olmuş, ecazkar səsi və ifası ilə, aktyor məharəti ilə dinləyiciləri valeh etmişdir.

H.Sarabski muğamlarla yanaşı, xalq havalarını da böyük şövqlə ifa etmişdir: “Üçtelli durna”, “Sona bülbüllər” və s.

O, Azərbaycan aşıqlarının II Qurultayında iştirak etmiş, xalqın mənəvi sərvəti olan folkloru qoruyub saxlamaq məqsədilə Xalq Yaradıcılığı Evinin yaradılması ideyasını dəstəkləmişdir. H.Sarabski Respublika XYE-nin təşkilinə böyük əmək sərf etmiş və ömrünün sonunadək həmin elmi-mədəni təşkilata rəhbərlik etmişdir (1932-1945). RXYE aşıq havalarının toplanması, lentə alınması, nota köçürülməsi, nəşr edilməsi, müxtəlif festivalların, müsabiqələrin və s. keçirilməsi işində böyük xidmətlər göstərmişdir. H.Sarabski bir sıra pyeslərin, mahnıların və həmçinin teatr tarixi ilə bağlı kitabların müəllifidir. Onun qələmə aldığı “Köhnə Bakı” əsəri xatirə-memuar üslübunda qələmə alınsa da, folklor və etnoqrafiya mədəniyyəti, o cümlədən də aşıq və muğam sənəti ilə bağlı tarixi-informatik bilgilərlə zəngindir.

RZAYEV MƏHƏMMƏD ƏHMƏD OĞLU (1883, Göyçə mahalı, Böyük Qaraqoyunlu kəndi – 1968, Tovuz rayonu) – Erkən yaşlarında atasını itirmişdir. Aşıq Əsədin qardaşıdır. Birinci Dünya müharibəsi dövründə ermənilərin Göyçədə yerləşdirilməsi və azərbaycanlılara qarşı amansızlıqları əhalinin köçməsinə səbəb olmuşdur. Ermənilərə qarşı savaşda Əsədlə Məhəmməd xüsusi fəallıq göstərmişlər. Səməd ağanın və Aşıq Nəcəfin intiqamını almaq məqsədilə çoxcəsarətli və qətiyyətli addımlar atmışlar. Sulikovun öldürülməsində gü-

nahlandırılan Əsəd Rzayev həbs edilmiş, qardaşı Məhəmməd isə ona çörək apararkən tutulmuşdur. Məhəmməd yeddi ay həbsxanada saxlanmışdır. Musavat firqəsinin Göyçə özəyi əməliyyat qurub onu və qardaşı Əsədi azad etmişdir. Aşıq Məhəmməd bir neçə il qardaşı Əsədlə Daşkəsəndə, Qazaxda, Tovuzda gizli

şəkildə yaşamışdır. Lakin sonralar yenidən Göyşəyə qayıtmışdır. Rahatlıq tapa bilməyib, təkrarən Tovuza köçmüşdür. Hündürboylu, enlikürək bir aşıq olmuşdur. Ağır, azdanışan və əzəmətli şəxs imiş. "Gözəlləmə" havalarını xüsusi həvəslə oxuyarmış. Şirin və məlahətli səsi olmuşdur. Aşıq Məhəmməd aşıq şeiri üslubunda şeirlər də yazmışdır. Bir neçə dastanın müəllifidir.

Aşıqların II qurultayının nümayəndəsi olmuşdur (1938).

RZAYEV NAĞI İMAMVERDİ OĞLU (1903, Tovuz rayonu, Düzqırıqlı kəndi – 1969) – Altı aylıq olarkən anasını, bir il sonra isə atasını itirmişdir.



Əmisinin himayəsində böyümüşdür. Kənddəki ibtidai məktəbə getmişdir (1924). Əmisi Xalıqverdi öldükdən sonra məktəbi davam etdirə bilməmişdir (1927). Aşıq Mirzə Bayramov Düzqırıqlı kəndində toy məclisində onun istedadını, səsini, bacarığını görüb özünə şagird götürmüşdür. Aşıq sənətinin sirlərini, dastanları Hüseyn Bozalqanlıdan və Mirzə Bayramdan mənimsəmişdir (1927-1935). 1935-ci ildən müstəqil aşıqlığa başlamışdır. 1941-1945-ci illərdə cəbhə bölgəsində konsertlər vermişdir. Azərbaycan aşıqlarının II Qurultayının iştirakçısı olmuşdur (1938). Aşıqlar dəstəsi yaratmışdır (1953). Məlahətli səsi və koloritli dastan ifaçılığı ilə diqqəti çəkmişdir. Fəxri doploma layiq görülmüşdür (1959). Ustad sənətkar kimi tanınmışdır. Beş şagird yetişdirmişdir.

RZAYEV VAQİF (VAQİF ASTARALI) YUNUS OĞLU (1954, Astara rayonu, Axsanakaran kəndi) – Gənc yaşlarından Aşıq Pənahın, Aşıq Şakirin və Məmmədağa Babayevin ifalarını dinləyərək, saza-sözə həvəs göstərmişdir. Ü.Hacıbəyov adına Orta İxtisas musiqi məktəbinin muğam şöbəsini bitirmişdir (1979). Lənkəran-Astara bölgəsində aşıq sənətinin əsas daşıyıcılarından sayılır. Muğam və xalq mahnılarının da istedadlı ifaçısıdır. Bir çox mahnı və bəstələrin müəllifidir. "Vaqif Astaralı" imzası ilə qələmə aldığı poetik örnəkləri ayrı-ayrı toplularda çap olunmuşdur. Aşıq şeiri tərzində düzüb qoşduğu qoşma və gəraylıları vardır. Aşıqlar Birliyinin üzvü (2008). Azərbaycan aşıqlarının V və VI qurultaylarının nümayəndəsi olmuşdur.



S

SABAH SAZI – aşığın məclisə başlayana qədərki toy mərhələsi ilə bağlıdır. Məclisin ilkin mərhələsində olan hadisədir. Bu mərhələdə zurna, dəf çalğısı olur. Məclisin başlaması xəbərdarlığı kimi də görünür. Camaat yığılır. Ona görə də buna xalq arasında "sabah sazı" deyirlər. Aşıq məclisə başlayandan sonra "sabah sazı" mərhələsi başa çatmış sayılır.

SADIXLI İSLAM (İSLAM SADIQ) HÜSEYN OĞLU (1953, Tovuz rayonu, Samanlıq kəndi – Bakı) – şair, folklorşünas, filologiya üzrə elmlər doktoru.AJB-nin üzvü (1985), AYB-nin üzvü (2002). Aşıqlar Birliyinin üzvü (2016). Orta məktəbi bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsil almışdır (1973-1978). Kənd Təsərrüfatı nazirliyində aqromütəxəsis vəzifəsində işləmişdir (1978-1983). Azərbaycan Dövlət Nəşriyyatında kiçik redaktor, redaktor, böyük redaktor, redaksiya müdiri və baş redaktor vəzifələrində çalışmışdır (1983-2018). AMEA Folklor İnstitutunda işləyir (2018). M.Qorki adına Ədəbiyyat İnstitutunun poeziya şöbəsində qiyabi təhsil almışdır (1980-1986). "Koroğlu kim olub" (1998), "Koroğlunun sazı və sözü" (2005), "Şumerdə izim var" (2008), "Şumer ədəbiyyatı" (2013), "Sözündən üşüyən dodaqlar" (2017) və s. adlı kitabların müəllifidir.



Aşıq sənəti və Gəncəbasar aşıq mühiti ilə bağlı çoxsaylı araşdırmaları və nəşr işləri vardır.

SADIQOV BİLAL QURBANXAN OĞLU (1929, Salyan rayonu – 1989) – Şirvan aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Orta təhsil almışdır (1936-1946). Aşıq Bilalın atası Qurbanxan Sadıqov da ustad aşıq olmuşdur. O, atasından aşıqlığın sirlərini öyrənmiş, bir sənətkar kimi formalaşmışdır. 1950-ci illərdən müstəqil aşıqlığa başlamışdır. Bir xeyli müddət Aşıq Pənahın sənət yoldaşı olmuşdur. Şirvan aşıq mühitinin bilicisi kimi tanınmışdır. Dastançı aşıqlardan olmuşdur. Ailə ansamblı düzəltmişdir. Şirvanda onun yaratdığı "Mahirlər" ailə ansamblı geniş şöhrət qazanmışdır. Sonralar bu ailə ənənəsini onun oğlu Əməkdar incəsənət xadimi Həsənağa Sadıqov davam etdirmişdir. Moskvada "Melodiya" səsyazma firmasında ayrıca valı buraxılmışdır (1967).

Aşıqlar Birliyinin üzvü (1984) və Aşıq qurultayının nümayəndəsi olmuşdur.

SADIQOV HƏSƏNAĞA BİLAL OĞLU (1950, Salyan – 2018, Bakı) – Əməkdar mədəniyyət işçisi (1988), Əməkdar artist (2009). AAB-ın üzvü (2008). Atası və babası aşıq olmuşdur. Babası Qurbanxan Sadıqov Muğan bölgəsinin ustadlarından sayılmışdır. Həsənağa zərb alətlərində və çini qablarda çaldığı mah-nı və ritmlərlə məşhurlaşmışdır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir (1986). Uğurlu çıxışına görə Ümumdün-



ya Musiqi Festivalının qızıl medalını qazanmışdır (1985). H.Sadıqov aşıq sənətinin dərin bilicisi və ustad solo saz ifaçısı olmuşdur. Dövlət səsyazma arxivində çoxsaylı ifaları qorunur. "Mahirlər" ailə ansamblı onun təşəbbüsü ilə yaradılmışdır. 2019-cu ildən həmin ansambl Həsənağa Sadıqovun adını daşıyır.

SADIQOV İSMAYIL (İSMAYIL SADIQLI) TAĞI OĞLU (1898, Tovuz rayonu, Cilovdarlı kəndi – 1982) – el şairi, təcnis ustadı. Xalq arasında, ədəbi ictimaiyyətdə "İsmayıl Sadıqlı", "Təcnis İsmayıl" imzaları ilə tanınmışdır. İlk təhsilini mollaxanada almışdır. Sovet hakimiyyəti dövründə yeni tipli məktəbdə oxumuşdur. Bakıda pedaqoji məktəbi bitirmişdir. Bir müddət kənd sovetinin sədri vəzifəsində çalışmışdır. Həyatı pedaqoji sahə ilə bağlı olmuşdur.



Məktəb direktoru, müəllim kimi fəaliyyət göstərmişdir. Şeirləri xalq arasında, aşıqların repertuarında geniş yayılmışdır. Təcnisin çeşidli örnəklərini yaratmışdır. Ayrı-ayrı toplularda yaradıcılığından nümunələr çap edilmişdir. "Cinaslar" (1984), "Elə arxalan" (2007), "Qan dayananda" (2009) və s. kitabları nəşr olunmuşdur. "Təcnislər" kitabı 2007-ci ildə Təbrizdə yayımlanmışdır.

SADIQOV QURBANXAN BILAL OĞLU (1905, Salyan rayonu, Noxudlu kəndi – 1977) – Yaradıcı və bəstəçi ustad aşıq. Şirvan mühitinin istedadlı sənətkarlarından olmuşdur. Əməkdar mədəniyyət işçisi (1967). On yaşında atasını itirmişdir (1915). Xeyli çətin həyat keçirmişdir. 1922-1928-ci illərdə çobanlıq emişdir. Saza, musiqiyə erkən yaşlarından maraq göstərmişdir. 1928-1936-cı illərdə həvəskar aşıq kimi çalıb-oxumuşdur. Ustad aşıq Mirzə Bilalın şagirdi olmuşdur. Aşıq sənətinin sirlərini ondan öyrənmişdir (1934-1936). Noxudluda, yaxın kəndlərdə məclislər keçirmiş və sənətkar kimi tanınmışdır. 1936-cı ildən müstəqil aşıqlığa başlamışdır. Bir çox aşıq mahnısının ("Əlində sazın qurbanı", "Nazlana-nazlana" və s. müəllifidir. Özü də gözəl poetik nümunələr yaratmışdır. Azərbaycan aşıqlarının II və III qurultaylarının iştirakçısı olmuşdur. Çalğıçılar dəstəsi düzəltmişdir. Salyan və Şirvan mədəniyyət evlərində, Bakıda, Moskvada konsertlər vermişdir. Pəhləvan cüssəli, xoş görünüşlü aşıq olmuşdur. Məclisdə çal-çağırı, rəqsi və çevikliyi ilə həmişə diqqəti özünə cəlb etmişdir. Zəngin musiqi və söz biliyi ilə seçilmişdir. Şirvan aşıqlarının bir çoxu sənətin sirlərini



ondan öyrənmişdir. Ailələri nəsilliklə saza-sözə bağlı olmuşdur.

SADIQOV MAİS (MAİS GƏNCƏLİ) İSRAİL OĞLU (1947, Gəncə) – ustad Koroğluxan aşıq. Əməkdar

mədəniyyət işçisi (2012). Orta məktəbi bitirib instituta qəbul olunmuş, lakin sənətə marağı onun ali təhsil almasına imkan verməmişdir. 1962-ci ildən ustadların yanında aşıqlığın sirlərini öyrənmişdir. Aşıq Qədirdən, Aşıq Hümbətdən, Aşıq İslam Yusifovdan, Aşıq Zeynal Məmmədovdan (Qaraçıoğlu İbrahimin şagirdi), Aşıq Cuma Aslanovdan, Aşıq Hüseyn Cavandan ustadların yaradıcılığını, dastanları mükəmməlliklə mənimsəmişdir. Ərəb və fars dillərini bilir. Quran hafizi kimi də məşhurdur. Sovet dönəmində ittifaq miqyasında keçirilən festivallarda birinci yerə layiq görülmüş, diplom və mükafatlar almışdır (1974, 1979, 1983). Dastançı aşıq kimi tanınır. Zəngin musiqi və söz repertuarı ilə diqqəti çəkir. Repertuarında "Xəstə Qasım", "Qurbani", "Abbas və Gülgəz", "Tahir və Zöhrə", "Valeh və Zərnigar", "Koroğlu" dastanının bir çox qolları, Aşıq Ələsgərin poetik irsi daha çox yer alır. Xəstə Qasım, Molla Cuma və Növrəs İmanın müəmma dolu şeirlərinin dərin bilicisi sayılır. Şaqraq və zil oxu manerası ilə seçilir. "Koroğlu" havalarının dərin bilicisi və ustad ifaçısıdır. Müasir aşıq sənətinin görkəmli nümayəndələrindəndir. IV və V Aşıq qurultaylarının iştirakçısıdır. 2008-ci ildən AAB idarə heyətinin üzvü və Gəncəbasar aşıqlar bölməsinin rəhbəridir.

SAKAOĞLU SAİM (1939, İstambul) – folklorşünas, professor. 1959-cu ildə Konyada orta təhsilini başa vurmuşdur. İstambul Unversitetinin Türk dili və ədəbiyyat bölümündə təhsilini davam etdirmişdir. Toqat Qazi Osman Paşa liseyində əmək fəaliyyətinə başlamış, sonra Atatürk Universitetinə keçmişdir. Konya Universitetində professor kimi çalışmışdır 1988). İngilis, alman, fransız,

yapon dillərində kitabları çap olunmuşdur. "İlin folklorçusu" adına iki dəfə layiq (1982, 1986) görülmüşdür. Qaracaoğlan mükafatını almışdır (2004). Qırxdan çox əsəri vardır. "Xalq şeirində Atatürk" (1974), "Azərbaycan aşıqları və el şairləri". I-II cild, (Ali Berat Alptekin və Esma Şimşəklə birgə), (Türkiyə, 1985, 1986), "Dadaloğlu" (1986, 1993), "Erçizli Əmrah" (1987), "Azərbaycan aşıqları və xalq şairləri antologiyası (XVI-XVIII əsrlər)" (Ali Berat Alptekin və Esma Şimşəklə birgə), (2000), "Dastan dastan içində" (2002) və s. kitabları vardır.

SAKRAL – özündə əski dünyanı, qədim təsəvvürləri, müqəddəsliyi işarələyir. Geniş mənada sakrallıq sivilizasiyalarla bağlıdır. Mifoloji düşüncənin özündə də bir sakrallıq vardır. Müasir zaman üçün mif, mifik zaman sakrallığın məkanıdır. Bir sıra rəqəmlər var ki, düşüncədə sakrallıq təsəvvürü ilə bağlanır. Folklorşünaslıqda, ümumiyyətlə, müasir elmi-nəzəri fikirdə rəqəmlərin müqəddəsliyi ilə bağlı xeyli təhlillər aparılır. Üç, yeddi, doqquz sakral rəqəm kimi qiymətləndirilir və onlarda müsbət ruhun, təəssüratın olması düşüncəsi yaranır. Cüt rəqəmlərdə sakrallaşma özünü göstərmir. Sakrallıq istər rəqəmlərdə, istərsə də həyat hadisələrinə münasibətdə müqəddəsliyə, müqəddəs olana, ilkin düşüncəyə bağlanır. Bugünkü inam və etiqadlarda bütünlükdə sakrallığın elementləri var. Onlar da bir bütöv kimi həmin ilkinlikdən gələn formalaşmış düşüncənin hadisəsidir.

Aşıq yaradıcılığında sakrallıq düşüncəsi özünü bir istiqamət kimi davamlı olaraq göstərir. Ustadların dastanların başlanğıcında üç ustadnamə deməsi, səfərlərdəki, üç, yeddi, doqquz, otuz doqquz saylarının kifayət qədər işlənməsi və bütün bunların semantikasında dayananlar sakral düşüncənin hadisəsidir.

SAQA – qədim skandinavca "söyləmək", "nəql etmək" anlamını verir. Qədim islandların mənsur təhkiyə əsərləri "saqa" adı ilə tanınmışdır. Saqalar XII-XIV əsrlərdə yazıya alınmışdır. Mühafizə olunaraq günümüzə çatmışdır. Ən əhəmiyyətlisi qəbilə saqalarıdır. Onlara "İslandlar haqqında saqalar" da deyilir. Bütpərəstliyə xas fatalizm ünsürləri ilə zəngindir. Saqalarda tarixi və məişət hadisələri, dərin psixologizm, canlı danışıq dili üstünlük təşkil edir. Qəbilə saqalarının müəllifləri məlum deyildir. Müəllifləri məlum olan (Snorri Sturlusson və Sturla Tordarson) "Norveç kralları haqqında saqalar", yepiskoplar, İslandiya sərkərdələri haqqında saqalar da vardır. Saqalar, termin olaraq, irland eposlarına da aid edilir.

SAQİ (ŞƏRAB PAYLAYAN) – irşad sahibi, mürşidi-kamil, pir, şeyxdir. Haqq yolçusuna ilahi elm və hikmət, mərifət öyrədəndir. Sufi terminologiyasına aid sözdür. Tanrı sevgisi tələqin edəndir. Ürfan piridir, mürşidi-kamildir. Mürid olanın haqqı dərkinə yardımçı kimi funksiya yerinə yetirir. Orta əsr ədəbiyyatında klassiklərin saqiyə müraciətlərinin əsasında da məhz bunlar dayanır.

SALAHOV TAĞI (TAĞI XALİSBƏYLİ) TEYMUR OĞLU (1933, Ordubad rayonu, Nüsnüs kəndi – 1995, Bakı) –Orta məktəbi doğulduğu kənddə bitirmişdir. Ordubad Pedaqoji texnikumunda oxumuşdur. ADPU-nun filologiya fakültəsində təhsil almışdır. Ordubad şəhərində müəllim işləmişdir. 1961-ci ildən ADPU-da çalışmışdır. "Əsli və Kərəm" dastanından namizədlik dissertasiyası müdafiə etmişdir (1973). 1991-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. "Məhəbbətə xalq abidəsi" (1989), "Nizami Gəncəvi və Azərbaycan şifahi xalq ədəbiyyatı" (1988), "Nizami Gəncəvi və



Azərbaycan folkloru" (1990) kitabları vardır. "Tağı Xalisbəyli" imzası ilə ədəbi akləmdə və elmi mühitdə tanınmışdır.

Aşıq sənətinə, xüsusən də xalq dastanlarına aid dəyərli araşdırmaları vardır.

"SALAM VERƏK" – aşıq mahnısı. Şirvan aşıq mühitində yaranmışdır. Musiqisi və sözləri (qoşma) Aşıq Əhməd Rüstəmova aiddir. Bu səbəbdən "Əhməd gözəlləməsi" adıyla da tanınır. Mahnı şən, nikbin, şux ovqatlıdır, vətənə, yurdun bütün ellərinə dərin sevgi hissini ifadə edir. Oynaq ritmli, və çevik templidir (8/6 ölçüsündədir). Rəqs səciyyəli olduğundan mahnı-rəqs kimi qiymətləndirilir. Rast məqamına əsaslanır. Melodiyası sadə, səmimi, yaddaqalandır və xalq havalarına yaxındır. Kuplet formasında yazılmışdır. Həm aşıq, həm də xanəndə yaradıcılığında geniş yayılmışdır. Ansambl tərəfindən ifa olunur (aşıq-saz, 2 balaban, nağara və qoşa-nağara).

SALLI CƏLİL (1850, Dərələyəz mahalı, Sallı kəndi – 1928, Naxçıvan-Şərur rayonu, Dizə kəndi) – ustad aşıq. Dərələyəz aşıq mühitinin yetişdirdiyi nadir istedad sahiblərindəndir. Qaradağlı Aşıq Abbasdan 1866-1867-ci illərdə sənət dərsi almışdır. Sonra Qızılvəngli Aşıq Alının yanında şagird olmuş və klassik havaları, dastanları sinədəftər eləmişdir. Aşıq Ələsgərlə yaxın münasibəti olmuşdur. "Cəlili" havası ilə bağlı el arasında gəzib dolaşan əhvalatlar da bu yaxınlığın göstəricisidir.

Aşıq Cəlil uca boylu, yaraşıqlı və xeyirxah bir sənətkar olmuşdur. Məlahətli, şaqraq səsi ilə həmişə sayılıb seçilmişdir. İstedadlı saz bəstəcisi olmuşdur. 12 saz havası onun bəstəçi barmaqlarından yadigardır: "Cəlili" ("Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili"), "Aşır Şərili", "Yüngül Şərili", "Təzə Naxçıvani", "Qaytarma", "Sallama Gəraylı" ("Dərələyəz gəraylısı"). Ustad aşıq 1918-ci ildə ermənilərin törətdikləri faciələrin nəticəsində doğma dədə-baba torpaqlarından köçüb Şərur rayonunun Dizə kəndində məskunlaşmışdır. Naxçıvan aşıqlığının inkişafında Aşıq Cəlilin mühüm rolu olmuşdur. Mühitin bir sıra sənətkarları ondan ustad dərsi almışlar. Qardaşı və üç oğlu da aşıq olmuşdur. Sallı Aşıq Cəlilin anadan olmasının 150 illik yubileyi 2018-ci ildə Bakıda keçirilmişdir.

H.Mirzə, Q.Kəngərli, Ə.Şamil, N.Əhmədlinin, İ.İmamverdiyev və digər araşdırıcılar Sallı Cəlilin ömür və sənət yoluna dair elmi təhlillər aparmışlar.

SALXANOV HÜSEYN ORUC OĞLU (1890, Zaqatala rayonu, Əliabad kəndi – 1941, II Dünya müharibəsi)–Yaradıcı aşıq olmuşdur. Zaqatala mühitinin yetişdirdiyi sənətkarlardandır. Atası Oruc da aşıq sənətinə xüsusi maraq göstərən şəxslərdən olmuşdur. Hüseynin də bu sənətə gəlişinə dəstək vermiş saza-sözə məhəbətinin artmasına qayğı ilə yanaşmışdır. Dağıstanın Miles kəndindən Aşıq Hüseyn bu ailəyə tez-tez qonaq gələrmiş. Oruc da oğlunu milesli Hüseynin yanına şagird qoymuşdur. Ustadından aşıqlıq sənətinin sirlərini öyrənən Hüseyn qonşu mahallarda, Dağıstanda, Gürcüstanda, Azərbaycanın ayrı-ayrı bölgələrində məclislər aparmış və bir aşıq kimi tanınmışdır. Aşıq Hüseyn Azərbacan dili ilə yanaşı həm də gürcü, avar, saxur və başqa dillərdə də

müstəqil danışmağı bacarmışdır. Həmin dillərdə çalıb-oxumağı da bilirmiş. Ustad aşıq sənətin sirlərini öyrətməyin qayğısına da qalmışdır. Aşıq Daşqın, Aşıq Abdulla, Aşıq Bədir onun şagirdləri olmuşlar. Aşıq Hüseyn 1941-ci ildə II Dünya müharibəsinə getmiş və qayıtmamışdır. Onun şeirləri aşıqların repertuarında indi də yaşayır. "Olar", "Vəfa", "Ey oğul", "Görmüşəm", "Döndüm" və s. şeirləri yaddaşlarda qorunur.

SALİK – Ərəb sözü olub "düz yolla gedən", "bir yolu təqib edən", "bir təriqətə mənsub olan", "mürid" kimi mənaları var. Təsəvvüfdə Haqq yolunun yolçusu olan sufiyə, aşiqə "salik" deyilir. "Səyyar" və "müsafir" də bura daxildir. Salik üçün irşad yolu heç də asan və hamar deyildir. İlk başlanğıcdan son məqsədə, yəni Haqqa qovuşmaq, Haqq ilə Haqq olmaq məqamına qədər salik və səyyar ciddi zahiri və batini yollar keçməli, mənzil və mərhələlər qət etməlidir. Hədisi-şərifdə deyilir ki, Haqqa gedən yollar insanların sayı qədərdir.

"SALLAMA GƏRAYLI" (MİNA GƏRAYLI) – aşıq havasıdır. Mənşə etibarilə eyniadlı aşıq şeir forması ilə bağlıdır. "Sallama gəraylı" havası şah pərdə kökündə ifa olunur. Məqam-intonasiya məzmunu orta pərdəyə istinad edir və Rast məqamı ilə üst-üstə düşür. İntonasiya özəyi ayaq divani-şah-orta pərdələrə əsaslanır. "Sallama gəraylı" havasının intonasiya inkişafına trixord həcmində məqam dayaqlarının davamlı şəkildə çalarlanması xasdır. Melodikası üçün motiv özəklərinin təkrarı, onların variantlılığı, çoxsaylı zəngulələr xasdır. "Sallama gəraylı" havasının metr-ritmik əsasını 2/4 ölçü təşkil edir. Havanın ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Poetik mətninin əsasını gəraylı təşkil edir. Havanın melosətirləri iki heca qrupuna bölünür: (4 + 4). Melobəndin qurulu-şunda təkrar prinsipi mühüm formaqurucu əhəmiyyətə malikdir. Havanın kompozisiyası musiqi cümlələri və motivlərinin təkrarı (qaytarması) üzərində qurulmuşdur. Melobəndin sonunda səslənən melopoetik əlavə (gül qafiyə) havanın emosional təsirini gücləndirməyə xidmət edir. Hava etnomusiqişünaslar T.Məmmədov və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

"SALLAMA KƏRƏMİ" – "Əsli və Kərəm" dastanı ilə bağlı yaranmış "Kərəmi" havalar silsiləsinə daxildir. Daha çox Borçalı aşıqları tərəfindən ifa olunur. Obraz-emosional məzmununa görə improvizə üslubuna əsaslanan və "ağı" intonema ilə zəngin olan qəmqüssəli havalar qrupuna aiddir. Məqam-intonasiya məzmunu baş pərdəyə istinad edir. Baş pərdə kökündə ifa olunur. Havanın ümumi intonasiya məzmunu bayatı pərdədən açıq simə qədər ambitusda inkişaf edir. Əsasən, ayaq divani-şah-orta-baş pərdələr üzərində qurulan məqam-intonasiya özəyi Segah məqamı ilə üst-üstə düşür. Havanın məqam-intonasiya inkişafı baş pərdə kökündə ifa olunan "Kərəmi" havalarının ("Yanıq Kərəmi", "Qürbəti Kərəmi") intonasiya məzmununa yaxındır. Sərbəst ölçü əsasında inkişaf edən instrumental girişi müstəqil xarakter daşıyır. Onun metr-ritmik özəlliyi qarışıq və dəyişkən ölçülərin uzlaşmasından, aksentlərin qeyri-müntəzəm xarakterindən irəli gəlir.

Poetik mətninin əsasını qoşma təşkil edir. Vokal melodiyası reçitativ-deklamasiya üslubundadır. Melosətirlərin klauzulasında hecaların oxunması müşahidə olunur. Melobənddə təkrar prinsipi mühüm formaqurucu və semantik funksiyalar yerinə yetirir. Hava etnomusiqişünaslar K.Dadaş-zadə və İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

SAMOYLOVİÇ ALEKSANDR NİKOLAYEVİÇ (1880, Nijni Novqorod – 1938) – Rus-sovet şərqşünası, türkoloq olmuşdur. SSRİ EA-nın müxbir üzvü

(1924), həqiqi üzvü (1929) seçilmişdir. Qədim Şərq dilləri mütəxəssisi kimi tanınmışdır. Petroqrad (indiki Sankt-Peterburq) Universitetinin professoru (1917-1930), Leninqrad Şərq Dilləri Universitetinin rektoru (1922-1925), SSRİ EA-nın humanitar elmlər bölməsinin akademik katibi (1929-1933), SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun direktoru (1934-1937) olmuşdur. Türk xalqlarının (xüsusən özbək və türkmənlərin) dil, ədəbiyyat, folklor və etnoqrafiyasına aid əsərlərin müəllifidir. Bakıda keçirilən I Ümumittifaq türkoloji qurultayda (1926) məruzə etmişdir. "Koroğlu" dastanı ilə bağlı maraqlı araşdırmaların müəllifidir. Müqayisəli araşdırmalar nəticəsində dastanın mənşə etibarilə Azərbaycanla bağlılığını söyləmişdir.

A.N.Saoyloviç ozan sənətinin tarixi səciyyəsi "Ozan" kəlməsinin etimologiyası, eləcə də qopuz alətinin yayılma arealı ilə bağlı dəyərli elmi araşdırmalar aparmışdır.

SAMTUR – Azərbaycanda orta əsrlərdə və sonrakı dövrlərdə geniş yayılan musiqi alətidir. Kazım ağa Salikin əsərlərindən görünür ki, bu musiqi aləti xalq arasında geniş yayılıb sevilmişdir. Maraqlısı isə budur ki, Kazım ağa Salik onun adını həmişə sazla birgə çəkir. Trapesiyaşəkilli ağacdan düzəldilmiş samtur çoxsimli musiqi aləti olmuşdur. Gövdəsinin üstündə rezenator dəlikləri qoyulmuşdur. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Фondunda saxlanan və 1878-ci ildə hazırlanmış samtur trapesiyaşəkilli qutunu xatırladır. Bu samturun oturacağının uzun hissəsi 720 mm, gödək hissəsi 255 mm, eni 350 mm və hündürlüyü 60 mm-dir. Üstündə səs deşikləri var. Simlərin sayı 96-dır. Samtur ucları azacıq əyilmiş iki yonulmuş zərif ağac çubuqlar vasitəsilə çalınır. Samturun ayrı-ayrı səs ucalığında olan simləri tək, qoşa və ya üçər qoşulur. Lakin Azərbaycan Sovet Ensiklopediyasında samtur simləri ikiləşmiş və üçləşmiş şəkildə düzülən və sayı 16-24 olduğu, müğənnini müşayiət edən musiqi aləti kimi göstərilir.

SARI AŞIQ – XVII yüzilliyin ustad sənətkarlarından olan Sarı Aşığın ömür yolu sağlığında və özündən sonra yaranmış çoxsaylı və çoxvariantlı rəvayətlər içərisindən o qədər də aydın görünmür. XVII yüzilliyə aid cünglərdə bayatılarına rast gəlinsə də, həmin örnəklər konkret tarixi bilgi vermək imkanında deyildir. Hüsaməddin Toqatinin 1677-ci

ildə tərtib etdiyi cüngdəki bayatı belədir:

Aşıq, Yaxşıya məndən,
Dürrün yaxşı Yəməndən.
Salam-dua, təmənna
Apar Yaxşıya məndən.



Sarı Aşığın Laçın rayonundakı məqbərəsi və abidəsi.

Sarı Aşıqla bağlı bilgi toplayan və ilkin araşdırmalar aparan Ə.Qaracadağı, S.Mümtaz, B.Behcət, Ə.Axundov və başqalarının əldə etdiyi materiallara diqqət yetirdikdə aydın olur ki, «Sarı Aşıq» sənətkarın təxəllüsüdür. El arasında yayılmış çeşidli rəvayətlər onu müxtəlif adlarla təqdim edir: Abdulla, Abduləli, Sarıca Nəbi, Qərib və b. Olsun ki, bu adlardan hansısa biri onun əsl adıdır. Ancaq hansı birinin gerçək ad olduğunu hələlik dəqiqləşdirmək mümkün olmamışdır. Azərbaycan aşıq sənətində təxəllüsün bütövlükdə ad-titul yerində çıxış etməsi və onun sənətkarın gerçək adını arxa plana keçirməsi ənənəvi bir hadisə olduğundan (məsələn, Aşıq Valehin əsl adının Səfi, Ağ Aşığın gerçək adının Allahverdi olması və s.) Sarı Aşığın da gerçək adının dumanlara bürünməsi və dildən-dilə gəzən rəvayətlər arasında çoxvariantlı şəkillər alması mümkün olan təbii bir haldır.

Sarı Aşıqdan söz açan ilk yazılı qaynaq Əndəlib Qaracadağının «Təzkirəyi-Qaracadağı» (XIX yüzillik) təzkirəsidir. Ə.Qaracadağinin verdiyi bilgiyə görə, Sarı Aşıq əslən Qaradağ mahalındandır. Sonradan köçüb Zəngəzura getmiş, Həkəri çayının sahilində Güləbürt adlı yerdə yaşamışdır. Sarı Aşığın yer-yurdu, əsil-nəsəbi, kimliyi ilə bağlı sonralar bir çox fərqli mülahizələr irəli sürülsə də, bu qaynaq öz mötəbərliyini qoruyub saxlamaqdadır. Ə.Qaracadağidən təqribən yarım əsr sonra fədakar folklorçular Bəhlul Behcət Əfəndi və Salman Mümtaz da Sarı Aşığın ömür yolu və ədəbi irsi ilə dərindən maraqlanaraq dəyərli materiallar ortaya çıxarmışlar. Salman Mümtazın bu yöndəki fəaliyyəti Sarı Aşığın geniş ictimaiyyətə tanıdılması anlamında müstəsna əhəmiyyət daşıyır. O, Sarı Aşıq bayatılarının ilk nəşrini hazırlamış və bu ədəbi şəxsiyyətlə bağlı təqribi də olsa bioqrafik oçerk yazmışdır. Həmin kitab 1927-ci ildə (daha sonra, 1934-cü ildə təkmilləşdirilmiş və əlavələrlə zənginləşdirilmiş şəkildə «Sarı Aşıq» adı ilə nəşr olunmuşdur) «Azərnəşr»də «Aşıq Abdulla» adı altında çap olunmuşdur. Çeşidli qaynaqlardan bilgilər toplayan S.Mümtazın Sarı Aşıqla bağlı bioqrafik təqdimatı Ə.Qaracadağinin verdiyi ilkin bilgini təsdiqləməklə yanaşı, bir çox yenilikləri və dəqiqləşdirmələri ilə diqqəti çəkir: «XI əsr-hicrinin əvvəllərinə qədər yaşamış Aşıq Abdulla çox səmimi və nazikxəyal

el şairidir. O taylı, yəni Arazın o tayından gəlmə, həm də sarışın olduğuçün Sarı Aşıq, Qərib Aşıq adları ilə də şöhrət tapmışdır. Aşıq X əsr, hicrinin axırlarında Qaradağ mahalından köçüb Zəngəzur qəzasına gəlmiş və orada da Qaradağlı kəndində sakin olmuşdur. Təqribən yüz il bundan qabaq dağılıb viran olan Qaradağlı kəndi o zamanlar şənlikli, abad kənd imiş. Burada aşığın adı ilə adlandırılmış bir təpə də vardır ki, bu gün yenə ona «Aşıq yaylağı» deyirlər. Aşıq o təpənin üstündə oturub bayatı çağırarmış». Salman Mümtaz daha sonra aydınlaşdırır ki, Sarı Aşıq qonşu kənddən (bu kəndin adı müxtəlif rəvayətlər üzrə Səfiyan, Türklər və ya Məqsudludur) Yaxşı adında bir qızı sevir. Qız da ona könül verir. Ancaq ailələrin razılığı olmadığına görə iki sevgili həsrət içində qalır. Ayrılıq iztirabına dözə bilməyən Aşıq məcnunmisal bir güzəran keçirir. Yaxşı da eşq qubarına dözməyib yorğan-döşəyə düşür və bir müddət sonra dünyasını dəyişir. Deyilənə görə, Yaxşının ölümündən az sonra Aşıq da köçünü dünyadan çəkib gedir. Bu iki sevgilinin hekayəti dildən-dilə düşür və rəvayətlərə, dastan yarpaqlarına çevrilir. Deyilənə görə, son nəfəsdə Aşıq bir bayatı çağıraraq onun qəbrini Yaxşının qəbri ilə üzbəüz qazmağı vəsiyyət edir:

Mən aşıq tər sinə qoy,
Tər təni tər sinə qoy.
Yaxşının qibləsinə,
Aşığı tərsinə qoy.

Onun vəsiyyətinə əməl edilmişdir.

S.Mümtazın verdiyi bilgilər belə bir cəhəti ilə də diqqəti çəkir ki, araşdırıcının gətirdiyi fakt və dəlillər, eləcə də tarixi-coğrafi təsvirlər daha çox məhz onun özünə məxsusdur. Belə ki S.Mümtazın Sarı Aşıq qəbrini öz gözləri ilə görməsi və əldə etdiyi bilgiləri həmin çevrənin el-camaatından toplaması açıq-aydın duyulur: «Aşıq günbəzi Güləbird kəndinin özündə vaqe olub Həkəri çayının sol tayındadır. Günbəzin üstündə heç bir yazı, tarix yoxdur. Yalnız qəbir daşının üstündə bir saz şəkli qazılmışdır. Bundan qiyas etmək olar ki, Aşıq saz da çalarmış. Yaxşının qəbri isə Həkəri çayının o biri tayında, yolun yuxarısındadır. Yaxşı Aşığın istədiyi kimi qibləyə, Aşıq da tərsinə gömülmüşdür. Həkəri çayı da bu iki qəbrin arasından axır. Əhalinin bir qismi Aşığı "Haqq Aşığı" adı ilə yad edərək ziyarətinə gəlirlər». Göründüyü kimi, burada ilkin-birbaşa müşahidədən gələn təsvir-təqdimat vardır. Canlı və xronikal səciyyə daşıyan bu təsvirlər Sarı Aşığın tarixi şəxsiyyət olduğunu və zəngin bir ədəbi irs qoyub getdiyini göstərir. Amma bir çox məsələlərin təqribi-variativ mülahizələr əsasında izah olunması da aydın görünməkdədir.

Sarı Aşığın dumanlara bürünmüş tarixi kimliyi barədə Zəngəzur mahalının böyük elm və din adamı Bəhlul Behcətin 1936-cı ildə yazdığı «Bayatı şairi «Aşığ» ın tərcümeyi-halı» adlı kitab (bu əsər 2006-cı ildə folklorçu Rza Xəlilov tərəfindən nəşr edilmişdir) da maraqlı bilgilərlə zəngindir. O, Sarı Aşığın Türkiyənin Qaraman vilayətindən Hacı Qaraman, Qara Pirim, Mir Ağa Balım ilə birlikdə XVII yüzillikdə Zəngəzura gəldiyi qənaətindədir. Həmin dəstədə Sarı Aşıq olduğu güman olunan adam Sarıca Nəbidir. Sarı Aşıq, doğrudanmı, Sarıca Nəbi olub? Bu sualın cavabı dumanlı rəvayətlərə bürünmüşdür…

Bəhlul Behcətin topladığı bayatıların içərisində iki nümunə bioqrafik fakt kimi diqqətçəkicidir. Bir bayatısında:

Ha saysana, saysana,
Ömür yetdi saysana.
Əcəli gözlər Aşıq
Ha saysana-saysana –

söyləyən Aşıq yenə başqa bir bayatısında:

Aşığam səksən ayat,
Oxurlar səksən ayat.
Əzrayıl qonaqlı canım,
Səksənə-səksənə yat – deyir.

Birinci bayatıdakı «Ömür yetdi saysana» misrası hər iki bayatının «səksənə» cinasının üzərində qurulması Aşığın bu sözləri səksən yaşında söylədiyini göstərir. Bu fakt onun haqqındakı əfsanəvi rəvayətlə çox da uzlaşmır. Çünki rəvayət Sarı Aşığın sevgilisi Yaxşının vaxtsız vəfatından sonra çox yaşamadığını söyləyir.

Sarı Aşığın ədəbi irsi mürəkkəb bir mənzərə içərisindədir. Mürəkkəbliyi yaradan bir tərəfdən onun sənətkar statusu ilə bağlı tam aydınlığın olmamasıdırsa, başqa bir tərəfdən də poetik irsinin müəyyən hissəsinin anonimləşməsi, yəni Aşıq bayatılarının xalq bayatıları ilə qarışıq düşməsidir. Sarı Aşıq hansı sənətkar statusuna sahibdir? O, sözün klassik anlamında aşıqdır, yoxsa el şairidir? Sarı Aşıq haqqında əldə edilmiş bilgilər onun aşıq statusu daşıdığını o qədər də əsaslandıra bilmir; Aşığın ustad-şagird münasibətlərində iştirakı, yəni ustadının kim olması və ya hansı şagirdləri yetirməsi barədə heç bir soraq yoxdur: onun klassik anlamda aşıq funksiyası yerinə yetirməsi – toy-düyündə, şadlıq yığnaqlarında, aşıq məclislərində çalıb-çağırması nə rəvayətlərdə, nə də adına bağlı dastanda xatırlanır. Orası da ayrıca diqqətdə saxlanılmalıdır ki, Sarı Aşığın poetik irsi aşıq repertuarında olduqca az yer tutur. Bu poetik irsin əsas daşıyıcısı sıravi folklor söyləyiciləri – sinədəftərlər, qocalar, qarılardır. Bununla belə, onun ad-titulunda «Aşıq» kəlməsi yer alır, məzarı «Haqq aşığının qəbri» adlanır, qəbir daşında saz şəkli qazılmışdır. Bütün bunlar onun sənətkar statusunda qarışıq, ziddiyyətli məqamlar kimi ortaya çıxır. Sarı Aşıqla bağlı rəvayət və el söyləmələrinin, eləcə də onun öz poetik irsinin mənzərəsindən daha çox el şairi statusu boy göstərir. Görünür, şeirlərini saz müşayiəti ilə bədahətən söyləməsi və öncəgörmə, qeybdən xəbərvermə keyfiyyətinə malik olması (bir sıra rəvayətlər elə bu barədədir) onu «Aşıq» və «Haqq Aşığı» adlandırmaq imkanı vermişdir. Bu baxımdan Sarı Aşığın aşıqlığı şərti məna – rəmzi-məcazi anlam kəsb edir.

Sarı Aşığın poetik irsində mühüm yeri bayatılar tutur. Onun bayatıları imkan daxilində toplanılaraq S.Mümtaz, B.Behcət, Ə.Axundov, H.Kürdoğlu, S.Pirsultanlı, İ.Qəhrəman və başqaları tərəfindən bir neçə dəfə ayrıca kitab halında nəşr edilsə də, Sarı Aşıq bayatıları ilə el bayatıları arasında tam sərhədi müəyyənləşdirmək o qədər də asan deyildir. Doğrudur, Sarı Aşıq bayatılarını el bayatılarından ayıran müəyyən fərqləndirici əlamətlər vardır, məsələn, Aşığın sevgilisi Yaxşının adının bayatıda çəkilməsi:

Qarşıda yaxşı yollar,
Getməyə yaxşı yollar.

Aşığa can dərmanı
Yollasa, Yaxşı yollar –

yaxud, bayatının üçüncü və ya dördüncü misrasında Aşığın öz adını xatırlatması:

Zülfün suda mar kimi,
Oynar su damar kimi.
Sızıldatdın Aşığı,
Yağa su damar kimi.

Qarşıda yaxşı bağlar,
Meyvəli, yaxşı bağlar.
Aşığın sınıq könlün
Bağlasa, Yaxşı bağlar.

Sarı Aşıq bayatılarının böyük əksəriyyəti «Aşıq» təxəllüsü ilə söylənmişdir. Ancaq «aşıq» deyiminin ötən yüzilliklər ərzində «əzizim, əzizinəm, eləmi» sırasından olan spesifik bayatı başlanğıcları – bayatıönü qəliblər cərgəsinə qoşulması mövcud mənzərənin xeyli dərəcədə mürəkkəbləşməsinə gətirib çıxarmışdır. İndi bayatı önlərində kütləvi şəkildə müşahidə olunan «aşıq», «mən aşıq», «aşiqəm» deyimlərinin hansının Sarı Aşığın təxəllüsünü, hansının isə bayatıönü qəlibi ifadə etdiyini söyləmək olduqca çətindir. Bu səbəbdən də anonimləşmiş Sarı Aşıq bayatılarının, eləcə də Sarı Aşığın adına çıxılan bir çox el bayatılarının müəlliflik məsələsi zaman-zaman folklor araşdırıcıları arasında fikir müxtəlifliyi və mübahisəli mülahizələrin meydana çıxması ilə nəticələnmişdir. Belə bir faktla hesablaşmaq lazım gəlir ki, «aşıq» bayatıönü qəlibi ilə müşayiət olunan Azərbaycan bayatılarının bir xeyli qisminə sözügedən ifadənin («aşıq») başqa bir kəlmə ilə əvəzlənməsi şərti ilə türkmən aydımları, özbək qoşuqları, türk-qaqauz maniləri və kərkük xoyratları arasında da rast gəlinir. Şübhəsiz ki, bu, Sarı Aşıq bayatılarının yayılma coğrafiyasını əks etdirmir. Həmin örnəklər türk folklor ənənəsinin ortaq-müştərək məhsullarıdır. Bu baxımdan bayatı önlərindəki «aşıq» sözlərinin heç də hamısını Sarı Aşığın təxəllüsü kimi qəbul etmək olmaz. Elə isə Azərbaycan folklor şəbəkəsi daxilində Sarı Aşıq bayatılarının el bayatılarından seçilməsində mümkün variantlar hansılar ola bilər? Yuxarıda nisbətən sadə və üzdə olan iki nüans (bayatıda Yaxşının adının çəkilməsi və son misralarda «Aşıq» təxəllüsünün xatırlanması) diqqət önünə çəkildi. Sarı Aşığın ömür-gün sürdüyü və güzəran keçirdiyi Zəngəzur bölgəsindən, eləcə də qonşu Qarabağ və Qaradağ mahallarından folklor ekspedisiyaları zamanı əldə edilmiş materiallar əsasında başqa bir neçə fərqləndirici əlaməti də müəyyənləşdirmək mümkündür. Belə ki S.Mümtaz və B.Behcətin 1920-30-cu illərdə, Ə.Axundovun 1950-60-cı illərdə, S.P.Pirsultanlı, S.Rüstəmov, H.Kürdoğlu, E.Məmmədli və başqalarının 1970-80-ci illərdə Sarı Aşıqla bağlı toplamış olduqları folklor materiallarının ümumi mənzərəsindən aydın olur ki, Sarı Aşıq bayatılarının böyük çoxluğu «yurd yeri» olan bayatılardır. Yəni onların əksər qismi müəyyən əhvalat və ya rəvayətlə ilgili olaraq yaranmışdır. Həmin bayatılı rəvayət və əhvalatların bir qismi əsasında da sonradan «Yaxşı və Aşıq» dastan-hekayəti ərsəyə gəlmişdir.

«Yaxşı və Aşıq» dastan-hekayətində yer alan çoxsaylı rəvayətlər də daxil olmaqla Sarı Aşıq bayatılarını çevrələyən rəvayət və əhvalatların təqribi sayının yüzə yaxın olması da müəllif müəyyənliyi məsələsində «yurd yeri» ami-

linin mühüm rol oynadığını təsdiqləyir.

Sarı Aşıq bayatılarının (xüsusən də «Yaxşı və Aşıq» dastan-hekayəti və rəvayət mətnləri daxilindəki bayatıların) qafiyə sistemindəki özünəməxsusluq da müəyyənləşdirici əlamət kimi çıxış edə bilər. El bayatıları ilə qarışdırılma ehtimalının az olduğu Bəhlul Behcət və Salman Mümtaz toplamaları, eləcə də epik mətn (dastan və rəvayət) daxilindəki örnəklər Sarı Aşığın böyük əksəriyyətlə cinas qafiyələrə meyil göstərdiyini, üstəlik də qafiyə quruculuğunda zərif, oynaq, canlı danışıq koloritinə, ana dilinin saf və təbii axarına, poetik çalarlarla zəngin dinamizmə xüsusi diqqət yetirdiyini açıq cizgi və boyalarla büruzə verir.

Aşıq Yaxşıdan gözlər,
Mürgün yaxşı dən gözlər,
Baxdıqca ürək yanar,
Doymaz yaxşıdan gözlər.

Aşığın baxtı yarım,
Neyləsin, baxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım?!

Sarı Aşığın bayatıları daha çox onun sevgilisi Yaxşıya ünvanlanmış gerçək könül duyğularının, sevgi, yar həsrəti və ayrılıq göynərtisi ilə bağlı ürək çırpıntılarının nisgil dolu poetik ifadəsidir. Bununla belə, onun bayatı dünya-sında ilahi eşq çalarları da sezilməkdədir.

Sarı Aşıq təkcə folklorda yox, bütövlükdə Azərbaycan ədəbiyyatı tarixində səmimi, həzin və poetik incəliyə məxsus bayatıları ilə bənzərsiz və təkrarsız bir sənətkar kimi ucalır. Elə buna görə də lirik folklorun ən kövrək, ən təsirli və geniş yayılmış janrı olan bayatıdan harada və nə zaman söz düşsə, həmin məqamda ilk öncə göz önünə Sarı Aşığın poetik irsi gəlir.

"SARI BÜLBÜL" – Azərbaycan lirik mahnı janrının nümunəsidir. Mənşə etibarilə "Baş dübeyt" aşıq havası ilə bağlıdır.

"SARI GƏLİN" - Qars-Ərzurum, Ağbaba - Çıldır aşıq mühitlərinə xas olan havadır. Bu gün Ön Asiya xalqları arasında lirik mahnı kimi yayılmış "S. g." havası mənşə etibarilə Qars-Ərzurum, Ağbaba - Çıldır aşıq mühiti üçün səciyyəvi olan türkü xarakterli havalar sırasına aiddir. Bu mahnı Qarabağ folklor arealında da tarixən geniş yayılmışdır. Obraz-emosional məzmununa görə lirik havalar qrupuna daxildir. "S. g." havasının musiqi və poetik dilinin dərin qatlarından türk bədii təfəkküründün arxetipik xüsusiyyətləri qorunub saxlanılmışdır. Sazda "Şah pərdə" kökündə ifa olunur. Əslində "Sarı gəlin" melodiyanın adıdır. İntonasiya məzmunu şah pərdədən beçə pərdəyə qədər ambitusunda inkişaf edir. Məqam-intonasiya əsası Şur məqamına uyğundur. Melodikası üçün əsas pərdələr üzrə enən hərəkət, motiv özəklərinin təkrarı, sekventlilik xasdır. Vokal və instrumental partiyaları eyni musiqi materialına əsaslanır. Kuplet-variant formasındadır. Poetik mətninin əsasını bayatı təşkil edir. Hər melomisradan sonra səslənən melopoetik əlavələr havanın ekspressiv təsirini gücləndirir. "Sarı gəlin" melodik mətni balaban ifaçılığı ilə də sıx bağlıdır. Hava aşıq İsgəndər Ağbabalının ifasından etnomusiqişünas K. Dadaş-zadə tərəfindən nota köçürülmüşdür.

"SARI GÜL" – Bax: Bayramı.

SARINQ – kumıklara aid sözdür. Bayatıya kumıklar "sarınq" deyirlər. "Sayrımaq" qədim türkcədə "mahnı oxumaq", "nəğmə söyləmək" anlamı verir.

SARINQÇI – kumıklarda mahnı oxuyana, sarınq söyləyənə deyilmişdir.

"SARITORPAQ ŞİKƏSTƏSİ" – aşıq havası. Şirvan aşıq mühitində yaranmışdır (Sarıtorpaq Şamaxı bölgəsində məhəllə adıdır). Məşhur xanəndə Mirzə Məmmədhəsən tərəfindən yaradılması ehtimal olunur. Poetik mətnin əsasınını aşıq şeir forması olan qoşma (bəzən gəraylı) təşkil edir. "Şikəstə" havaları silsiləsinə aiddir. Baş pərdə kökü üzərində ifa olunur. Baş pərdə kökünə xas olan ənənəvi instrumental çalğı ilə başlayır – baş pərdə-boş pərdə-kök pərdə. Çalğıda sinkopalı ritmik quruluşlar üstünlük təşkil edir və dəyişməz, özünəməxsus kadensiya-ayağa malikdir. Melodik-intonasiya və metr-ritmik quruluşuna, inkişaf (sekvensiyalı) və ifa xüsusiyyətlərinə görə, Şirvan aşıq mühitində yaranmış şikəstələrə çox yaxındır. Vokal melodiya sərbəst ölçülü olaraq improvizasiya xasiyyətlidir. Ənənəvi trixord intonasiyası – şah pərdə-orta pərdə-baş pərdə üzərində inkişaf edir. İ.İmamverdiyev tərəfindən instrumental şəkildə nota salınmışdır.

SARIYEV HÜSEYN BAYRAM OĞLU (1902, Göyçə mahalı, Polad Ayrımı kəndi – 1987, Qazax) – Göyçə mühitinin yetişdirdiyi sənətkarlardandır. Uşaqlıqdan aşıqlığa meyil göstərmişdir. Səkkiz yaşında Aşıq Ələsgərin yanında şagird olmuşdur. Sonradan Qazax rayonuna köçmüşdür. Aşıq yaradıcılığının kamil bilicilərindən biri kimi qiymətləndirilmişdir. Saz havalarını mükəmməl ustalıqla ifa etmişdir. Xalq şairi S.Vurğun Qazağa gələrkən onun ifasını dönə-dönə dinləmişdir. Bu səbəbdən də "Səməd Vurğunun aşığı" adı ilə tanınmışdır. S.Vurğunun vəfatından sonra əlinə saz almamışdır. İkinci Dünya müharibəsində iştirak etmişdir. Ustad sənətkar kimi tanınmışdır. Aşıqların qurultayında iştirak etmişdir (1938).



SARIYEV MURAD ƏLİ OĞLU (1952, Borçalı mahalı, Dəllər kəndi-Bakı) – Borçalı mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Ustad dastançı aşıq və sazbəndd i r. "Kövrək Murad" təxəllüsü ilə aşıq şeiri səpkisində şeirlər yazır. Anadan olduğu kənddə orta məktəbi bitirmişdir. Aşıqlığı ilk əvvəl kənddə Aşıq Əhəddən, sonra isə Hüseyn Saraclıdan öyrənmişdir. Aşıq Hüseyn Saraclının sonuncu şagirdidir. Beş il onun yanında şagird olmuşdur (1964-cü ildən). Ustadı ilə el şənliklərində olmuş, birgə məclislər aparmışlar. Hüseyn Saraclının tövsiyəsi ilə sazbəndliyi də öyrənmişdir. Sənətin sirlərini gənc nəslə öyrətməklə də məşğuldur. Aşıq və sazbənd kimi tanınmışdır. Yüksək dastan-



çılıq qabiliyyətinə malikdir. Koloritli şeirləri və maraqlı dastan rəvayətləri vardır.

SAVƏ AŞIQ MÜHİTİ – İranın Savə-Həmədan-Qum bölgəsini çevrələyən Savə aşıq mühiti, başda xalac tayfası olmaqla (yerli əhali buranın böyük bir qisminə «Xələcistan» deyir), əsasən, tərəkəmə-türkmanların məskun olduqları geniş bir coğrafiyada qərarlaşmışdır. Tərəkəmə həyatının əlaməti olaraq bu mühitə məxsus aşıqlarda çayçı-qəhvələrdə çalıb-oxumaq ənənəsi yoxdur. Aşıqlar, əsasən elat mərasimlərində, toy-düyün, şadlıq yığnaqlarında, rəsmi toplantılarda, mədəni-kütləvi tədbirlərdə çalıb-çağırırlar.

Aşığın musiqi aləti bu mühitdə «çökür» (çoqur) adı ilə tanınır. Doqquzsimli, doqquzaşıqlı, doqquzqabırğalı bu musiqi aləti Təbriz-Qaradağ, Zəncan sazlarının, demək olar ki, eynidir. Pərdə düzümündə fərqlilik vardır. Çökür orta çağlarda türkman ellərində saza verilmiş adların fonetik variantlarından biridir. «Çokur», «çoqur», «çukur», «çaqur», «çağır» və başqa səslənmə variantları da vardır.

Savə-Qum aşıqları, adətən, üçlük halındakı ifaçılığa üstünlük verirlər. Aşıq-çökürçü, balabançı və qavalçı. Qavala «dairə», qavalçıya isə «dairəçi» deyirlər. Saz və balaban müştərəkliyinə əsaslanan ikili ifaçılığa da meyil göstərirlər. Təksaz ifaçılıq çox az nəzərə çarpır. Zəncan aşıq mühitində olduğu kimi, burada da ifa prosesində qavalçı-dairəçi və ya balabançının aşığa qoşularaq oxuması ənənəsi geniş yayılmışdır. Tarixən ustad-şagird ənənə xətti ilə öyrədilən aşıqlıq hazırda daha çox «Çökür sinifləri» deyilən xüsusi saz məktəblərində tədris olunur. Aşıq Hüseynəli Hüseyninin təşkil etdiyi «Çökür evi» bu baxımdan çox iş görür. Bu mərkəzdə ildə iyirmiyə yaxın çöküçü-aşıq hazırlanır. Dədə-baba üsulu ilə ustad yanında öyrənənlər də vardır.

Savə-Qum aşıq mühitində, «Koroğlu» dastanının on qolu da daxil olmaqla, qırxa yaxın dastana rast gəlinir. Bunlardan «Telimxan», «Əsəd Nizam», «Xundablı Məhcur», «Xan Əsgər», «Qərəgli Məmməd», «Bəhram xan», «Qurban xan» kimi sırf yerli mühitin məhsulu olan örnəkləri ayrıca qeyd etmək lazımdır. Güclü improvizə və bəstəçi keyfiyyətlərinə malik olan bu aşıq mühitindəki saz havaları öz orijinallığı ilə seçilir: «Savəgülü», «Həmədan gəraylısı», «Həmədan dübeytisi», «Zərgəri», «Rudban», «Türkmani», «Mehtərxani» və s. Bu mihitə məxsus ifaçılıq ənənəsində «Kələkilər» («Yorğun Kələki», «Kəllə Kələki», «Kosalar Kələki», «Köç Kələki», «Qon Kələki» və «Dəvəzəngi Kələki»), «Leylanalar» («Bir ayaq», «İki ayaq», «Üç ayaq», «Dörd ayaq», «Beş ayaq» və s.) adlanan özünəməxsus silsilə havalar (bunlar "Yallı"ları xatırladır) da regional-məhəlli səciyyənin əsas göstəricilərindəndir.

XVIII yüzilliyin görkəmli el sənətkarı Telimxan da bu mühitin münbit saz-söz zəmini üzərində yetişmişdir. Telimxanın şeirləri və adına bağlı olan dastan bu mühitin sənət baxımından kimlik pasportudur. Təsadüfi deyildir ki, Qum-Savə aşıqlarının məclislərində böyük əksəriyyətlə məhz Telimxanın sözləri oxunur. Telimxanın şeirləri poetik tutumu və fəlsəfi-ürfani dərinliyi ilə diqqəti çəkir. İslami dəyərlərin və sufi-

dərviş sisteminin mükəmməl bilicisi olan bu böyük söz ustasının nəhəng poetik irsi (təqribən iyirmi min misradır) mərhum folklorçu Əli Kəmali tərəfindən toplansa da, hələlik çap edilməmişdir.

Savə-Qum aşıq mühitində tarixən fəaliyyət göstərən Məhəmmədəli Sofular, Məhəmmədhəsən Səngəkli, Yusif Verqanlı, Aşıq Əzizxan, Sidqəli Rizayi kimi görkəmli saz-söz ustalarının sənət yolunu hazırda Əhməd Rəhməti, Heydər Mahmudi, Hüseynəli Hüseyni, Balaxan Bayat, Qiyas Cabbari, Əli Ramazani, Taki Muhid, Məhəmmədi Bağıri, Məhəmmədi Əfşar, Səfər Danəki və başqaları uğurla davam etdirirlər. Balabançı, qavalçı, neyçi və zumaçılar (savəlilər zurnaya «saz» deyirlər) da daxil olmaqla, Savə-Qum aşıq mühitində üç yüzdən yuxarı çağdaş sənətkar fəaliyyət göstərir. Bunların böyük əksəriyyəti gənc və orta yaşlardadırlar. Onlar Savə-Qum çevrəsindən əlavə, Məşhəd, Kərəc və Tehran şəhərlərinə də toy-düyün məclislərinə dəvət olunurlar. Toylara dəstə halında (aşıq üçlüyündən əlavə zurnaçı və dəfçi ilə) gedirlər. Ritmik havalara keçilərkən zurnaçı və dəfçini ön plana çıxarırlar.

Savə-Qum aşıqlarının Zəncan mühiti ilə sıx sənət əlaqələri mövcuddur.

SAYILOV ƏLİFAĞA ƏMİ OĞLU (1943, Lerik rayonu, Qışlaq kəndi – Biləsuvar, Xırmandalı kəndi) – Muğam bölgəsinin istedadlı sənətkarlarındandır. El arasında "Əmioğlu" imzası ilə tanınır. Musiqiçilər ailəsindəndir. Ə.Sayılovun 1975-ci ildə öz fərdi təşəbbüsü ilə təşkil etdiyi "Xəyal" instrumental ailə ansamblı vardır. 1966-cı ildən aşıq kimi fəaliyyət göstərir. Zərb alətlərində, nəfəs



alətlərində də çala bilir. Sənət istedadı ailədə ana xətti ilə gəlir. Ə.Sayılovun anasının da musiqi istedadı olmuşdur. Böyük qardaşı Əli də balabançı kimi tanınmışdır. Festivallarda mükafatlar almışdır. Biləsuvar mədəniyyət evində aşıqlar ansamblının rəhbəri olmuşdur (1978-1989). Şeirləri ayrı-ayrı toplularda çap edilmişdir. Aşıqların IV və V qurultaylarının iştirakçısıdır. Aşıqlar Birliyinin üzvüdür (1986).

SAYAT XANIM (1936, Tovuz rayonu – 1961) – Tovuzun ilk qadın aşıqlarındandır. Məlahətli, şaqraq səsə malik

olmuşdur. Aşıq Mirzə Bayramovdan sənət dərsi almışdır. Həyat yoldaşı İbrahim də zurna-balabançı kimi mühitdə tanınmışdır. Birlikdə el şənliklərində çıxış etmişlər. Aşıq Sayat zil və zənguləli səsə malik sənətkar kimi tanınmış və sevilmişdir. "Koroğlu" havalarının mahir ifaçısı kimi ad çıxartmışdır. Azərbaycan aşıqlarının III qurultayında nümayəndə kimi iştirak etmişdir (1961).Xanım ifaçıların saz-söz aləminə ayaq açmasında Aşıq Sayatın mühüm rolu olmuşdur.

SAYILOV QALİB ƏMİRAĞA OĞLU (1968, Şamaxı rayonu, Həmyə kəndi – Bakı) –folklorşünas, filologiya üzrə fəlsəfə doktoru (2010). BDU-nun

jurnalistika fakültəsində oxumuşdur (1990-1995). 2004-cü ildən AMEA-nın Folklor İnstitutunda işləyir. "Müasir Şirvan aşıqlarının yaradıcılığı (1950-1980-ci illər)" mövzusunda dissertasiya yazmışdır (2010). Şirvan aşıq mühitini təmsil edən ustad sənətkarlar haqqında kitablar yazmışdır.

SAYİ HÜSEYN HƏMİD OĞLU MAHMUDABAD (1966, Təbriz, Mahmudabad kəndi) – Aşıq Əziz Şahnazinin şagirdidir. Yeddi il ustad yanında sənətin sirlərini öyrənmişdir (1980-1987). Daha sonra üç il Aşıq Hacəli İbadianın yanında şagird durmuşdur. İyirmi üç yaşından müstəqil aşıqlığa başlamışdır. Zəngin repertuarı ilə seçilən sənətkarlardandır. Otuzdan yuxarı dastan və altmışa yaxın hava bilicisidir. Qədim saz havalarını, Cənubi Azərbaycan mühitindəki dastanları mükəmməlliklə bilir. Poetik yaradıcılıqla da məşğul olur. Aşıqlar arasında deyimləri yayılmışdır.

SAZ – mizrabla çalınan qədim Azərbaycan çalğı alətidir. Sazın mənşəyi qopuz, çoğur, tambur, dütarla bağlıdır. Əsasən, tut ağacından düzəldilən saz dərin çanaqlı, uzunboğazlı armudabənzər çalğı alətidir. Çanağın üst dekasında, eləcə də yan tərəflərində kiçik rezonator dəlikləri olur.

IX-XII əsrlərdə divan ədəbiyyatında, o cümlədən də Xəqani, Nizami kimi dahi söz sərraflarının məsnəvilərində rast gəlinən "saz" sözü sadəcə olaraq musiqi aləti anlamı daşıyır. Həmin dönəmdə Şərq aləmində bütün musiqi alətlərinə "saz" deyilmişdir.

Ş.İ.Xətayinin məşhur qoşmasında "saz" sözünün istifadə edilməsi artıq XVI əsrin birinci yarısında oğuz-türkmanlara aid çalğı alətinin yeni adının bərqərar olması haqqında qiymətli mənbədir:

Bu gün ələ almaz oldum mən sazım,
Ərşə dirək-dirək çıxar avazım.

Saz alətinin XV-XVI əsrlərdə qopuzu əvəzləyərək yerinə yetirdiyi müxtəlif bədii-estetik funksiyalar, təbii ki, onun quruluşunun təkmilləşdirilməsinə də təkan vermişdir. Belə ki "qolça qopuz" ilə müqayisədə sazın çanaq hissəsi genişlənmiş, onun pərdələri və tellərinin sayı artmış, təzənə (mizrab) ilə çalğı üsulu tətbiq edilməyə başlanmışdır. Saz aləti uzunmüddətli təkamül yolu keçərək müasir ifaçılıq təcrübəsində üç növü ilə təmsil olunmuşdur: kiçik ölçülü cürə (qoltuq), orta ölçülü tavar (məclis) və onlardan quruluşu və səslənməsinə görə fərqlənən iri (ana) saz. Bu saz növlərindən ən geniş yayılmışı 7-9, bəzi hallarda isə 11 simi olan tavar sazdır. Sazın

simləri üç qrupa ayrılaraq "zil", "bəm" və "dəm" adlanır. Aşıq havalarının melodiyası zil simlərdə ifa olunur. Simlərin səsləndirilməsi üçün mizrabdan (təzənədən) istifadə edirlər. Saz alətində səslər onun məqam əsasını müəyyənləşdirən pərdələr vasitəsilə alınır. İlk əvvəl diatonik səs düzümünə malik olan sazın pərdə sisteminə aşıq musiqisinin inkişafı nəticəsində xromatik səslər də əlavə olunmuşdur. Sazın pərdələrini onların məqam sistemində yerinə yetirdiyi funksiyalara, səs düzümündə tutduğu mövqeyə görə əsas və köməkçi pərdələrə ayırmışdılar. Ənənəvi aşıq terminologiyasında əsas pərdələrin adları aşağıdakı kimi səslənir: baş, orta, şah, ayaq- divani, bayatı, kök, beçə. Diatonik səs düzümünü təşkil edən əsas pərdələrlə yanaşı, "yarımpərdə" (yaxud "lal","gül", "kor") adlanan əlavələr də mövcuddur. Müasir sazın diapazonu, bir qayda olaraq, birinci oktavanın do səsini və ikinci oktavanın sol səsinə qədər səs düzümünü əhatə edir.

0 – açıq sim
1 – yarımpərdə
2 – baş pərdə (baş divani, baş müxəmməs pərdəsi)
3 – orta pərdə (ürfani, təcnis pərdəsi)
4 – yarımpərdə
5 – şah pərdə
6 – yarımpərdə
7 – ayaq divani pərdəsi
8 – çoban-bayatı pərdəsi
9 – yarımpərdə
10 – kök pərdə
11 – yarımpərdə
12 – beçə pərdə
13 – yarımpərdə
14 – baş pərdənin zili
15 – orta pərdənin zili
16 – yarımpərdə
17 – şah pərdənin zili
18 – yarımpərdə
19 – ayaq divani pərdənin zili (son pərdə)

Aşıq musiqisinin harmonik dilinin zənginliyini təmin edən əsas amillərdən biri ənənəvi havaların müxtəlif köklərdə çalınıb oxunmasıdır. Sazın aşağıdakı ənənəvi kökləri mövcuddur: kvinta-kvarta intervalları üzərində qurulmuş "Şah pərdə kökü" (və ya "Ümumi", "Qaraçı"), seksta - kvinta intervalı özülünə əsaslanan "Orta pərdə kökü" (və ya "Ürfani" kökü), septima-seksta intervallarından ibarət "Baş pərdə kökü" ("Dilqəm" kökü), kvarta-tersiya intervallarından ibarət "Ayaq divani" kökü, tersiya-sekunda intervallarına əsaslanan "Bayatı" kökü, oktava-septima intervallarına əsaslanan ***"Açıq kök".***





SAZBƏND – saz düzəltməklə peşəkarcasına məşğul olan usta. Sazbənd saz düzəltmək üçün istifadə olunan ağacı (tutu, əriyi və qoz ağacını) yaxşı tanımalı, onun quruluğunu və keyfiyyətini dərindən bilməli, ağacın bişirilməsi, yonulub hamarlanması, müəyyən şəkillərə salınması (qabırğa, sinə taxtası və boğaz), nizamlı bir ardıcıllıqla qurulması, pərdələrin və simlərin yerli-yerinə oturdulması, köklənməsi üçün burmac – aşıqların normal yerləşdirilməsi, sazın çanaq hissəsinin düzgün akustik vəziyyətə gətirilməsi və bu sıradan bir çox texnoloji proseslərin gedişatını mükəmməl öyrənməlidir. Bu səbəbdən də saz-

bəndliyə yiyələnmək istəyən hər kəs usta bir sazbənddən dərs almalıdır. Sazbəndin əl qabiliyyəti ilə yanaşı səs – musiqi duyumu da güclü olmalıdır. Bu sənəti daşıyanların saz çala bilmək qabiliyyəti mütləq şərtdir. Sazbəndlər saz düzəltməklə yanaşı işlənib sıradan çıxan sazın müəyyən hissələrini dəyişib yeniləşdirmək, bərpa etmək vəzifəsi də yerinə yetirirlər.

XX yüzillikdə usta Xudu, İsmayıl Mahir, usta Sirac, usta Məhəmmədəli, usta Piroğlu kimi məşhur sazbəndlər aşıqların güvəndikləri sazbəndlər olmuşlar. Hazırda Təbrizdə, Bakıda, Gəncədə, Borçalıda otuzdan yuxarı sazbənd vardır.

"SAZÇI QIZLAR" ANSAMBLI – 1937-ci ildə ADF-nin nəzdində yaradılmış ansambl. İlk tərkibi 4 simli 9 pərdəli cürə sazlarda çalan, 12-14 nəfərdən təşkil olunmuş sazçı qızlardan ibarət idi. Ansamblın bədii rəhbəri ilk əvvəl Qəmbər Hüseynli, sonralar Soltan Hacıbəyov və Cahangir Cahangirov olmuşdur. "Sazçı qızlar" ansamblı 1945-ci ildə Gəncədə də yaradılmışdır. Müxtəlif illərdə ansambla Ağasi Məşədibəyov, Qəmbər Hüseynli, Zülfüqar Baratov rəhbərlik etmişlər. Ansamblın tərkibinə sonralar qaval və nağara da daxil edilmişdir. "Sazçı qızlar" ansamblının repertuarı aşıq havalarından (“Divani”, “Dubeyti”, “Şərili” və s.) və bəstəkar mahnılarından (Q.Hüseynlinin “Ay mənim”, “Çeşmə başında”, A.Məşədibəyovun “Ay qız”, “Pəri-pəri” və s.) ibarət idi.

SAYA TƏCNİS – Bax: Təcnis

“SAZIN BAŞINI-AYAĞINI GÖSTƏRƏ BİLMƏK” – aşıq yaradıcılığında işlək olan söz-sənət deyimlərindəndir. Bir növ aşığı yoxlamaq, onun bacarığını, qabiliyyətini, sənəti hansı səviyyədə mənimsəməsini müəyyənləşdirmək məqsədi daşıyır. Rəmzi-məcazi məna kəsb edir. Bu deyimin mahiyyətində dayanan semantik anlam, alt qatda qərarlaşmışdır. Belə ki, "Sazın başı" deyəndə ustadlar məclisə nə ilə başlanmanı nəzərdə tutmuşlar. "Sazın ayağını göstər" deyəndə isə məclisin nə ilə yekunlaşması nəzərdə tutulmuşdur. Aşıqlığa görə, məclisin başı “divani”, ayağı isə “müxəmməs”dir.

SAZINI ƏLİNDƏN ALMAQ – aşığın sənətini yaxşı bilməməsi, ustaddan kamil dərs almaması nəticəsində baş verən hadisədir. Aşıqlığın şərtinə görə, sazı əlindən alınan sənətkar məğlub hesab edilir. Məclis aparmağa, aşıqlıq etməyə layiq olmadığı mənasında anlaşılır. Ona görə də hər bir sənətkar ustadından kamil dərs aldıqdan, sənətini mükəmməl mənimsədikdən sonra aşıqlığa başlaya bilər. “Valeh və Zərnigar” dastanında Aşıq Səməndlə bağlı əhvalat sazın əlindən alınmasına tipik misaldır. Belə ki, ustaddan kamil dərs almayan Səmənd Dərbəndə gedir. Orada Zərnigar xanıma məğlub olur. Ustadı Valeh deyişməyə, Dərbəndə dəvət edilir. Aşıq Valeh

Dərbəndə gedib Zərnigarla deyişir. Sonda qalib gəlir. Zərnigar 39 aşıqla deyişib onları məğlub etmişdi. Eləcə də "Aşıq Alının Türkiyə səfəri"ndə Aşıq Alının Aşıq Yığvalla, Aşıq Əsmərlə deyişməsində aşığın məğlubiyyətindən sonra sazın əlindən alınması olur. Aşıq Yığval məğlub kimi sazı vermək istəyəndə və Aşıq Alının şagirdi Səməd sazın üstündəki qızılları sökməyə çalışanda ustad buna imkan vermir. Onun yaşını, bacarığını nəzərə alıb sazını özünə qaytarır. "Aşıq Qərib", "Qurbani", "Abbas və Gülgəz" dastanlarında aşığın sazının əlindən alınması motivi vardır.

"SAZIN ZİLİNİ ZİL, BƏMİNİ BƏM ETMƏK" – aşıq yaradıcılığında istifadə olunan ənənəvi qəlib-formullardan biridir.Dastan söyləmələrində, aşıq məclislərində bu ifadənin geniş yer aldığı özünü göstərir. Məclis aparmağa hazırlaşan sənətkarın sazını nizamlaması, qaydaya salması, oxuyacağı hava üzərinə köklənməsi anlamını verir. Sazı sinəsinə götürüb oxumağa başlayan dastan qəhrəmanı-aşığı ustadlar bu şəkildə təqdim edirlər: "Aşıq sazı bağrına basıb zilini zil, bəmini bəm elədi, pərdələri sazın sinəsində müstəcəm elədi, aldı görək nə dedi". Bu deyim əsasən dastanlarda və ya dastan-rəvayət şəklindəki söyləmələrdə o yerdə diqqət özünə çəkilir ki, aşıq deyişmə meydanına çıxır və çəkinmədən öz istedadını, bilik və bacarığını təqdim etməyə hazır olur.

SAZİN QABIRĞASI – sazın çanaq hissəsinin hazırlandığı yonub hamarlanmış oval şəkilli ağac dilimi. ***Bax: Dilim. Saz.***

SƏMƏDOV ALAY (CAVAN ALAY) MƏMMƏD OĞLU (1942, Tovuz rayonu, Əlimərdanlı kəndi- 1996) – El şairi. Aşıqlar Birliyinin üzvü (1986). Aşıq şeiri

tərzində çoxsaylı poetik örnəkləri vardır. "Cavan Alay" imzası ilə tanınmışdır. Aşıq şeirinin rəngarəng biçimlərində yazdığı şeirləri dillər əzbəridir. Yüksək təbi, yaradıcı istedadı ilə mühitdə ad-san qazanmışdır. Bölgənin layiqli söz ustadlarından hesab edilir. Aşıqların repertuarında onun saz ruhunda yaratdığı poetik örnəklər geniş yer tutur. "Mənim qəlbimin bir arzusu var" şeirlər kitabı çap olunmuşdur (2012).

SEKVENSİYA – melodik və ya harmonik dönmənin (musiqi ibarəsinin, parçasının) yeni yüksəklikdə bir və ya daha artıq təkrarı. Sekvensiya həm aşağı (enən), həm də yuxarı istiqamətli (qalxan) ola bilər. Bu tip təkrar ardıcıllıq "sekvensiya halqa"sı yaradır. Sekvensiya halqası pillə-pillə (sekunda nisbətində) və ya digər intervallar nisbətində təkrarlana bilər. Sekvensiyanın iki növü müəyyənləşmişdir: tonallı və modulyasiyalı sekvensiya. Azərbaycan ənənəvi musiqisi məqam-səs sisteminə əsaslandığı üçün aşıq havalarının melodik quruluşunda məqam sekvensiyası üstünlük təşkil edir. Sekvensiya halqaları, havanın əsaslandığı səs düzümündən irəli gələrək, əsasən, kiçik melodik ibarənin pilləvarı şəkildə (sekunda inter-

valları nisbəti ilə) aşağı enməsindən yaranır. Bu növ sekvensiya melodiyanın inkişaf xəttində ən çox yayılmış vasitələrdən biridir. Aşıq musiqisində yuxarı istiqamətli məqam sekvensiyalarına rast gəlmək mümkündür. "Vaqif gözəlləməsi" havasının I instrumental intermediyasında 4 halqalı "dəqiq sekvensiya", II intermediyada isə 4 halqalı "variantlı sekvensiya" və kiçik motivdən yaranan yuxarı qalxan sekvensiya izlənilir.

SEMİOTİKA (yunan: semeion – işarə) – işarə və işarələr sistemini öyrənən elm sahəsidir. Eposşünaslıqda semiotikanın müxtəlif bölmələrinin elmi prinsipləri tətbiq edilmiş, Ç. Morrisin nəzəriyyəsinə əsasən, semiozisin praqmatik, sintaktik və semantik aspektləri araşdırılmışdır. Semiotika nöqteyi-nəzərindən dastan kompozisiyası sabitləşmiş işarələr sistemidir. Dastanın ifasını semiotik hadisə kimi qiymətləndirərək qeyd etmək lazımdır ki, onun variantları müəyyən desiqnatın (invariantın) təfsiridir. İşarə və onun təfsirçisi arasında əlaqələri öyrənən praqmatik aspektdə dastan mətninin biçimlənməsi prosesi araşdırılır. Eposşünaslıqda bu problemin öyrənilməsi böyük önəm daşıyır, çünki epik mühitdə dastan həmişə variantların konvergensiyası şəraitində, yəni hər dəfə müxtəlif təfsirçilər tərəfindən yaradılan dinamik dəyişikliyə uğrayan mətn formasında mövcuddur. Praqmatikanın əsas vəzifələrindən biri bu dəyişikliklərin səbəbini araşdırmaq və dastanın biçimlənməsində sabit və qeyri-sabit seqmentləri aşkar etməkdən ibarətdir. Mətn problemləri hər zaman semiotikanın diqqət mərkəzində olmuşdur. Bu konsepsiyaya əsasən, əgər hər hansı bir obyekt mətn kimi qəbul edilirsə, nəzərdə tutulur ki, o, müəyyən üsulla kodlaşdırılmışdır. Güman edilən kod təhlil olunan mətn əsasında bərpa edilir. Epik əsərdə işarələrin sintaqmatik cəhətdən təşkil olunmuş cəmində təzahür edən kod reallıqda deyil, "dastançının, xalq təfsirçisinin beynində mövcud olur, onun yaddaşını nizama salır və ona variantlığın mümkün sərhədləri barədə məlumat verir" (Lotman). Folklor süjetlərinin, narrativ mətnlərin struktur-semiotik araşdırılmasının əsasını V.Y.Propp qoymuşdur. Dastanın müxtəlif variantlarının struktur-funksional təhlili onların quruluşunda müəyyən sintaqmatik ardıcıllıq yaradan invariant funksiyaların üzə çıxarılması üçün imkan yaradır. Belə bir analitik "əməliyyat" nəticəsində dastanın olduqca çevik sərhədləri çərçivəsində sabit sintaqmatik funksiyalar sırasını aşkar etmək mümkündür. Semiotikanın mühüm bölmələrindən biri olan sintaktika eposşünaslıqda daha çox semantik sintaksis istiqamətində inkişaf etmişdir. Azərbaycan musiqi eposşünaslığında bəzi aşıq havaları silsiləsi ("Koroğlu", "Kərəmi") müəyyən qrammatik qanunlar üzərində qurulmuş musiqi-üslub vəhdəti kimi araşdırılmışdır. Epik əsərlərin semantik təhlilinin başlıca məqsədi onların müxtəlif struktur səviyyələrində mənadaşıyıcı vahidlərin aşkar edilməsindən ibarətdir. Aşıq havalarının semantik təhlili bir neçə qat üzrə aparılmışdır. Musiqi işarəsinin aşağı həddi, ən elementar təzahür forması intonasiya qatındadır. Başqa işarələrdən fərqli olaraq, musiqi işarəsi heç bir konkret obyekti ifadə etmir, o, müəyyən hislər və psixoloji çalarların rəmzidir. Aşıq havalarının semantik məzmununda belə seman-

temalar (intonemalar) böyük məna tutumuna malikdir. Musiqi işarəsi aşıq havalarının sintaqma qatında da özünü büruzə verir. Hər bir havanın sintaksisində bütün ərazi və fərdi variantların rəngarəngliyinə baxmayaraq, əsas semantik yükü daşıyan müəyyən sintaqmalar mövcuddur. Aşıq havalarının bütün kompozisiyasının məna yükü onun daxili və dışarı semantik əlaqələrindən asılıdır. Hər bir ənənəvi aşıq havasının semantik tutumunu təyin etmək üçün onun şifahi ənənəli Azərbaycan musiqi janrları sistemində, türksoylu xalqların epik musiqisi kontekstində öyrənilməsi məqsədəuyğundur. Dastan kompozisiyasının çoxşaxəli tərkib hissələrinin semiotika nöqteyinəzərindən araşdırılması onun sintetik təbiətini, ümumi mədəni kodunu, semantik sintaksisinin müxtəlif səviyyələri arasında mövcud olan funksional əlaqələrini aşkar etmək üçün imkan yaradır.

SENT – musiqi alətlərinin səs düzümünü ölçmək üçün ölçü vahidi. Alətlərin dəqiq akustik olçüləri xüsusi aparatlar vasitəsilə aparılır. Pərdələri qeyd olunmuş simli alətlərin ölçülərini xətkeş vasitəsilə də həyata keçirmək mümkündür. Akustik ölçülər sentlərlə, yəni temperasiyalı yarımtonun yüzdə biri ilə ifadə olunur. İntervalları sentlərlə ölçmək üçün müxtəlif üsullardan istifadə olunur (A.Ellis, E.Xornbostel, V.Belyayev). Musiqişünas S.Abdullayeva tərəfindən üç saz – Aşıq Əsədin, Aşıq İslamın tavar sazları, Aşıq Teymurun orta sazı və orkestr sazı sentlərlə ölçülmüşdür. 11, 14 və 17 pillədən ibarət olan bu sazlar "bir – bir yarım oktavanı əhatə edir və xromatik on iki yarımtonlu qammaya uyğun gəlir. Aşağı əsas oktavada 204 sentli hər pifaqor tonu böyük (114 sent) və kiçik (90 sent) yarımtonlara bölünür. Burada xromatik qammanın həm "diyez"li, həm də "bemol"lu növləri (diatonik sistemin diyez və ya bemol tərəfə genişlənməsi) müşahidə olunur" (S.Abdullayeva).

SEVİL ƏDALƏT (XIDIROVA SEVİL FİRUDİN QIZI (1973, Yevlax rayonu, Tanrıqulular kəndi – Bakı) – Bakı Pedaqoji Kollecində təhsil almışdır (1991-1994). Aşıq sənətinin və sazın sirlərini Ədalət Nəsibov, Nizami Səyyad və Zaməddin Məmmədovdan mənimsəmişdir. 1997-2006-cı illərdə Yevlaxda Şuşa Xanalılar musiqi məktəbində saz müəllimi işləmişdir. 2007-ci ildən indiyə qədər Bakı şəhərində məskunlaşan Şuşa rayon Xəlfəli kənd musiqi məktəbində saz müəllimi vəzifəsində çalışır. Şuşa Musiqi Kollecində də saz müəllimi olmuşdur (2007-2010). 2017-ci ildən Ə.Nəsibov adına Musiqi Tədris Mərkəzinin rəhbəridir. Ustad aşıq və istedadlı saz ifaçısıdır. Aşıq sənətinin Türkiyədə (Sivas, Ərzurum, Toqat, Osmaniyyə, Dənizli, Kars bölgəsində) Qazaxıstan, Macarıstan, Fransa və başqa ölkələrdə təbliği və tanıdılmasına dəyərli xidmət göstərmişdir. "Sevil Ədalət" təxəllüsü ilə tanınır.

"SEYDİ" – "Seydi və Pəri" kimi də tanınır. Bu dastanın aşıqların repertuarından toplanmış müxtəlif variantları vardır. Fərq surətlərin adlarında və bir sıra qoşmalardadır. Misal üçün, variantların birində Seydi Əhməd adlı yoxsul bir kişinin oğludur. Atası Seydini çətinliklə, nəzir-niyazla tapmışdır. Seydi yoxsulluqdan təngə gəlir. Günlərin birində yuxuda gavur qızı Pərini görür. Aşıq olub butasının arxasınca səfərə başlayır. Yolda Nərgiz adlı dövlətli bir qızla rastlaşır. Nərgiz Seydini sevir, lakin yoldan eyləyə bilmir. Çox əziyyətlərdən sonra Seydi Pərini tapır. Onunla ailə qurur. Qayıdanda Nərgizi də vətəninə gətirir. Dastanın bir başqa variantında Seydi Tağı adlı yoxsul bir kişinin oğludur. Pəri isə Tağının dövlətli qardaşı Nağının qızıdır. Uşaqlar göbəkkəsmədirlər. Lakin onlar evlənə bilmirlər. Pərinin atası qızını qardaşı oğluna vermək istəmir. Seydi qərib ölkələrə gedir. Həsən Bağbanın qızı Nərgiz ona aşiq olur. O isə yuxuda Pərini görüb ona aşiq olur. Calal paşa adlı biri onu zindana saldırır. Pərini isə güclə almaq istəyir. Sonda Seydi düşmənlərə qalib gəlir. Pərini alır. Nərgizi də özü ilə gətirir. Dastanın bütün variantları ilə yanaşı, müstəqil ola biləcək versiyası da vardır. Versiyaya görə, Ərcman şəhərində Hacıbala və Arzuman adlı iki qardaş olur. Hacıbalanın Güllü adında qızı, Arzumanın Seydi adında oğlu olur. Uşaqlar bir məktəbdə oxuyurlar. Molla bunların bir-birini sevdiklərini bilib qızın atasına xəbər verir. Hacıbala Seydini sürgün edir. Seydi çox yerləri gəzdikdən sonra gəlib Dağıstana çıxır. Burada Şeyx Şamilin yaxınlarından olan Mirzəli Əfəndi ilə tanış olur. Hacı Murad onu Şamilin yanına aparır. Seydi Şeyx Şamilin köməkliyi ilə Samur çayını keçib Nügədiyə gəlir, oradan da Ərcmana gedir. Sevgilisi Güllü xanımı alır.

SEYFƏLİ PƏNAH HƏSƏN OĞLU (1876, Şəmkir rayonu, Seyfəlli kəndi – 1921) – Şəmkir mühitinin yetişdirdiyi sənətkarlardandır. Yeddi yaşında atasını, az sonra anasını itirmişdir. Ağır həyat yaşayan Pənah on dörd yaşına qədər nökərçilik etmişdir. Gözəl təbi, iti hafizəsi, zəngin yaddaşı varmış. Aşıq Hüseyn Şəmkirlinin yanında şagird olmuşdur. Sənətin sirlərini ondan öyrənmişdir. İyirmi yaşında müstəqil aşıqlığa başlamış, yaxın kəndlərdə məclislər keçirmişdir. Gəncəbasarda ustad aşıq və şair kimi tanınmışdır. Mahir ifaçılığı, təcnis və divaniləri ilə xalq arasında şöhrətlənmişdir. Seyfəlli Pənah aşıq musiqisi ilə aşıq şeirlərinin vəhdətindən doğan incəliklərini gözəl bilən və ondan məharətlə istifadə edən ustadlardan olmuşdur. O, bir ustad kimi yanında şagirdlər də saxlamış, sənətini onlara da öyrətmişdir. XX əsrin ustad aşıqlarından olan Seyfəlli Hüseyn onun şagirdlərindəndir. Seyfəli aşıq Hüseynin anlatdığına görə, aşıq Pənah Hüseyn Şəmkirlinin oğlu Aşıq Çobandan "Vaqif" dastanını öz yaddaşına köçürmüşdür. Həmin dastanın yaradıcısı isə Aşıq Hüseyn Şəmkirli olmuşdur.

Seyfəli Pənah ustadı aşıq Hüsey Şəmkirlinin poetik irsinin xeyli hissəsini və dastanlarını öz yaddaşında daşımış və şagirdlərinə mənimsətmişdir.

SEYİDOV ABBAS QƏDİR OĞLU (1957, Naxçıvan şəhəri) – Naxçıvan mühitinin yetişdirdiyi sənətkarlardandır.

AAB-in üzvü (2017). Sənətə gəlişində Aşıq Əbülfəzin ona çox böyük təsiri olmuşdur. Aşıq şeiri biçiminda poetik örnəklər qələmə alır. "Qızıl qələm" mükafatı laureatıdır. Kitabları nəşr olunmuşdur. Abbas Seyidov respublika tədbirlərində həm tək, həm də ailə ansamblı ilə dəfələrlə çıxışlar etmişdir. Onun təşəbbüsü ilə Naxçıvan şəhər uşaq incəsənət məktəbində saz qrupu yaradılmışdır. Doqquz şagird ondan sazın sirlərini öyrənmişdir.

SEYİDOV İXTİYAR MİRCƏFƏR OĞLU (1966, Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonu, Kükü kəndi) – Əməkdar mədəniyyət işçisi (2008). Naxçıvan mühitinin yetişdirdiyi sənətkarlardandır. Uşaqlıqdan saza maraq göstərmişdir. Sazbənd kimi tanınmışdır. Saz çeşidləri ilə yanaşı qədim musiqi alətlərinin, qopuz, tənbur, rübab, ud, ney və digərlərinin bərpası ilə də məşğul olmuşdur. 1980-ci ildən sazbəndliklə məşğul olur. 60-dan artıq şagirdə sazın sirlərini öyrətmişdir. NDU-da oxumuşdur. 2000-ci ildən Naxçıvan Musiqi kollecində saz ixtisası üzrə dərs deyir. Aşıqların V qurultayının iştirakçısıdır (2008). İxtiyar Seyidov Bakıda keçirilən Beynəlxalq aşıq festivalının iştirakçısı olmuşdur (2010).

SEYİDOV MİRƏLİ MİR ƏLƏKBƏR OĞLU (1918, İrəvan şəhəri – 1992, Bakı) – folklorçu-mifoloq, filologiya elmləri doktoru (1969), professor (1973), AYB-nin üzvü (1976), Əməkdar elm xadimi (1983). Fəhlə ailəsində anadan olmuşdur. İrəvanda ibtidai məktəbdə oxumuşdur. Bakıda S.Ağamalıoğlu adına hidromeliorasiya texnikumunu bitirmişdir (1938). İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsində təhsil almış (1941-1945). AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin Orta

əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri (1945-1953), Nizami adına Dil və Ədəbiyyat İnstitutunda orta əsrlər şöbəsində baş elmi işçi (1953-1960), ədəbi əlaqələr şöbəsində baş elmi işçi (1960-1967), şöbə müdiri (1967-1980), Azərbaycan mifologiyası və orta əsrlər folkloru şöbəsinin müdiri (1980-1988), institutun xalq yaradıcılığı şöbəsində aparıcı elmi işçi işləmişdir. Türkiyədə keçirilən IV Türkoloji konqresdə (1982) sovet nümayəndə heyətinin tərkibində olmuş, "Azərbaycan mərasimlərində teatr ünsürləri (yuğ mərasiminə əsasən)" mövzusunda məruzə etmişdir. Ədəbi fəa- liyyətə 1941-ci ildə "Sovet Ermənistanı" qəzetində çap etdirdiyi rəy və oçerklərlə başlamışdır. "Azərbaycan-erməni ədəbi əlaqələri (ən qədim dövrdən XVIII əsrin sonunadək)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. "Sayat Nova" (1954), "Qövsi Təbrizi" (1963), "Azərbaycan-erməni ədəbi əlaqələri" (1976), "Azərbaycan mifik təfəkküründün qaynaqları" (1983), "Qızıl döyüşçünün taleyi" (1984), "Azərbaycan xalqının soykökünü düşünərkən" (1989), "Yaz bayramı" (1990), "Qam-şaman və onun qaynaqlarına ümumi baxış" (1994) kitabları vardır. Ozan-aşıq mədəniyyətinin tarixi kökləri

ilə bağlı dərin məzmunlu elmi araşdırmaların müəllifidir.

SEYİDOVA QƏNDAB HACI QIZI (1935, Dağıstan Respublikası, Rütül mahalı, Qatrux kəndi – 1985, Quba rayonu) – Uşaq ikən ailəsi ilə Dağıstandan Quba rayonuna köçmüşdür. Azərbaycan qadın aşıqlığının inkişafında dəyərli xidmətləri olmuşdur. On iki-on üç yaşlarından həvəskar aşıq kimi çalıb-oxumuşdur. Sonra Aşıq Soltan Seyidovun yanında şagird olmuşdur. Aşıqlığın sirlərini, ustadların yaradıcılığını, dastanları onun vasitəsilə öyrənmişdir. Aşıq Soltan Seyidovla ailə qurmuşdur. Onunla birlikdə məclislər aparmışdır. Onların barəsində "Qəndab-Soltan" dastanı vardır. Aşıq Qəndab "Dünya gənclərinin Moskvada keçirilmiş festivalı"nda iştirak etmiş və laureat adını qazanmışdır (1961). Aşıqların III və IV qurultaylarının iştirakçısı olmuşdur. Müxtəlif səpkili şeirləri vardır. Şeirləri Quba və Dağıstan aşıqları arasında geniş yayılmışdır.

SEYİDOVA SƏADƏT AĞAMƏMMƏD QIZI (1942) – musiqişünas, sənətşünaslıq nami- zədi (1981), professor (1996), Azərbaycan Respublikasının Əməkdar müəllimi (2008). "Azərbaycan xalq professional musiqisi" dərs vəsaitində (2005) aşıq sənətinin tarixi kökləri, musiqili-poetik formaları,dastan kompozisiyası haqqında məlumat vermişdir. Saz alətinin morfoloji xüsusiyyətlərini, aşıq musiqisinin üslub özəlliklərini tədqiq etmişdir.

SƏFƏR – aşıq yaradıcılığı, dastan ənənəsi üçün səciyyəvidir. Ustadlar müxtəlif şəhərlərə, ölkələrə səfərlər etmişlər. Bu səfərlərin özü də müxtəlif məqsədlərlə həyata keçirilmişdir. Məsələn, Aşıq Alının Türkiyəyə səfəri, Aşıq Ömərin Qafqaza, Kiçik Asiyaya səfəri, Orta Asiyaya səfəri, Aşıq Ələsgərin Qarabağa toy səfəri, Aşıq Ələsgərin Naxçıvan səfəri, Hüseyn Bozalqanlının Tiflis, Borçalı səfəri və s. eyni adda dastan, hekayət və əhvalatların yaranması ilə nəticələnmişdir. Hətta xalq arasında S.Vurğunun Muğan səfəri ilə bağlı hekayətlər də söylənməkdədir. Bu səfərlər hər birisi özündə tipik bir hadisəni, maraqlı bir tarixi ehtiva edir. Dastanlarımızda da səfərlərin özünəməxsusluqla təqdimi və epik düşüncədə daşlaşmasına aid çoxsaylı ötnəklər vardır. Məsələn, "Koroğlu" dastanında qolların böyük bir qismi səfər adı ilə vurğulanır. "Koroğlunun Bağdad səfəri", "Koroğlunun İstambul səfəri", "Koroğlunun Bəyazid səfəri", "Koroğlunun Qars səfəri", "Koroğlunun Dərbənd səfəri" və s. "Koroğlu"da səfərlər Koroğlunun qəhrə- manlığına, onun apardığı mübarizənin məqsəd və mahiyyətini açmağa xidmət edir.

SƏFƏROĞLU MUSA (1830, Göyçə mahalı, Ağkilsə kəndi – 1912) – İlk təhsilini mollaxanada almışdır. Ərəb, fars dillərini, ilahiyyatı öyrənmişdir. Aşıq Musanın atası Səfər və əmisi Cəfər XIX əsrin əvvəllərində Qazax rayonunun Tatlı kəndindən Göyçənin Zod kəndinə köçmüşdür. Bir qədər sonra

Səfər Zod kəndinin bəyləri ilə yola getməmiş və qonşu Ağkilsə kəndinə köçmüşdür. Ömrünün axırına qədər də orada yaşamışdır. Aşıq Ələsgərlə bir kənddə yaşayan Musa ona böyük ehtiram göstərmiş və şeirlərinə nəzirələr də yazmışdır. Aşıq Talıbın və Aşıq Ağayarın dediyinə görə, dolu bədənli bir sənətkar olmuşdur. Koroğlu havalarını zamanında onun qədər heç kəs zildən oxuya bilməmişdir. Aşıq sənətinə böyük maraq göstərmiş, saz havalarını, dastanları, ustadların yaradıcılığını mükəmməlliklə mənimsəyə bilmişdir. Aşıq şeirinin ən mükəmməl formalarında qələmini sınamışdır. Həyatının mühüm bir qismini səfərlərdə keçirmişdir. Türkiyəyə, İrana səfərlər etmişdir. Aşıq Ələsgərlə Türkiyə səfərinə aid dastan da yaranmışdır. "Nə günahı telli sazın", "Bir gün", "Kəklik", "Gülə-gülə", "İndi", "Dilbər", "Biri yaz", "Var", "Olmaz", "Ay üzə-üzə", "Ağlar", "Mənnən" və s. qoşma, gəraylı və təcnisləri bu gün də xalq arasında məşhurdur. "Nə günahı telli sazin?" - adlı şeiri aşıqların repertuarında mühüm yer alan unikal poetik örnəklərdəndir. Ayrı-ayrı toplularda, "Sazlı-sözlü Göyçə" kitabında (1999) Aşıq Musanın şeirləri getmiş, haqqında məlumatlar verilmişdir.

SƏFƏROV XOSROV MƏHƏMMƏD OĞLU (1936, Ağdam rayonu, Qalayçılar kəndi– Bərdə rayonu) – Aşıq ailəsində dünyaya gəlmişdir. Atası Aşıq Məhəmməd dövrünün tanınmış sənətkarlarından olmuşdur. Aşıqlıq sənətini də Xosrov atasından öyrənmişdir. Orta məktəbi anadan olduğu Qalayçılar kəndində bitirmişdir (1955). Bakıda kitabxanaçılıq texnikumunda təhsil almışdır (1956-1958). Ağcabədi rayonunun Xəlfərəddin kəndində kitabxana müdiri işləmişdir. Sonra Ağdam rayonunun Əlimədədli kəndində kitabxana müdiri olmuşdur. Aşıq sənətinə xüsusi maraq göstərmiş və aşıqlığı bir peşə kimi həmişə davam etdirmişdir. Ağdamın ermənilər tərəfindən işğalından sonra (1993) Bərdəyə köçmüşdür.

SƏFƏROV MƏHƏMMƏD HƏMİD OĞLU (1903, Ağdam rayonu, Qalayçılar kəndi – 1977) –Uşaqlığı çobanlıqla keçmişdir. Erkən yaşlarından saza həvəs göstərmiş, el arasında tədricən tanınmağa başlamışdır. Deyilənə görə, iyirmi yaşında olanda Türkmənistanda Bəxtiyar adlı bir kişinin Şahandaz adlı qızı ona buta verilmişdir. Butasının arxasınca getməyə ona icazə verilməmiş və küskün həyat yaşamışdır. Dini təbliğ edən şeirlər yazmış və buna görə təqib edilmişdir. II Dünya müharibəsinə getmiş və 1944-cü ildə qayıtmışdır. Müharibədən sonra da aşıqlıq sənətini davam etdirmişdir. Boyəhmədli kəndindən Aşıq Mustafa, Aşıq Hüseyn, Aşıq Möhübbət, Sırxəvənd kəndindən Aşıq Yunis, Paravəddən Aşıq Əli

onun yanında aşıq sənətinin sirlərini öyrənmişdir. Aşıq Məhəmmədin oğlu Xosrov da aşıq sənətini atasından öyrənmişdir.

SƏFƏROV MƏSİM İSA OĞLU (1917, Şəmkir rayonu, Keçili kəndi – 1979) – Şəmkir mühitinin yetişdirdiyi yaradıcı sənətkarlardandır. Atası əkinçi olmuşdur. Yeddiillik təhsil almışdır. Erkən yaşlarından saza maraq göstərmişdir. 30-cu illərdə Aşıq İslam Yusifovun yanında dörd il şagird olmuş, aşıqlığın sirlərini ondan öyrənmişdir. Sənəti öyrəndikdən sonra müstəqil aşıqlığa başlamışdır. Aşıq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır. "Aşıqlar" (1957, 1960) toplusunda şeirləri verilmişdir. Aşıq Məsim rayon və respublika səviyyəli tədbirlərdə fəal şəkildə təmsil olunmuşdur. İncəsənət tədbirlərində, xalq yaradıcılığı festivallarında onun sənətkarlıq fəaliyyəti yüksək qiymətləndirilmişdir. Aşıq Məhərrəm (Goranboy), Aşıq Bayram (Bərdə) və bir sıra başqa aşıqların ustadı olmuşdur. Dastanların mahir söyləyicisi kimi tanınmışdır. Xalq şairi Səməd Vurğunun təqdimatı ilə AYB-nin üzvü olmuşdur (1953).

SƏFƏROV YUSİF SƏFƏR OĞLU (1951, Culfa rayonu, Bəyəhməd kəndi – Naxçıvan) – folklorşünas alim, filologiya üzrə elmlər doktoru, professor. 1958-1966-cı illərdə Culfa rayonunun

Əbrəqunis kənd 8 illik internat məktəbində təhsil almışdır. 1966-1970-ci illərdə Naxçıvan Pedaqoji texnikumunda ibtidai sinif müəllimi ixtisası üzrə oxumuşdur. 1972-1976-cı illərdə Naxçıvan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. 1976-1981-ci illərdə Bəyəhməd kənd 8 illik məktəbində direktor vəzifəsində çalışmışdır. 1981-1983-cü illərdə Əbrəqunis kənd orta internat məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir. 1984-1990-cı illərdə Azərbaycan EA-nın Naxçıvan Elm Mərkəzinin folklor şöbəsində elmi işçi, böyük elmi işçi, 1990-1994-cü illərdə həmin şöbənin müdiri vəzifəsində olmuşdur. "Azərbaycan folklorunun bədii özünəməxsusluğu və təsnifi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1987). 1994-2002-ci illərdə Naxçıvan şəhər icra hakimiyyətində şöbə müdiri vəzifəsində çalışmışdır. 2002-2009-cu illərdə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublikası Kitabxanasının direktoru olmuşdur. "Azərbaycan folklorunda tarixilik və etnik poetik yaddaş (Naxçıvan materialları əsasında)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (2007). 2009-2012-ci illərdə AMEA-nın Naxçıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi və dosent vəzifələrini tutmuşdur. AAB və AYB-nin üzvüdür. 2013-cü ildən Naxçıvan Müəl-

limlər institutunda çalışır. “Azərbaycan folklorunda tarixilik” (2005), “Naxçıvan aşıq ədəbi mühiti” (2009), “Naxçıvan aşıqları və el şairləri” (2011) adlı dəyərli kitabları vardır.

SƏFƏROVA ZEMFİRA YUSİF QIZI (1937, Bakı) – musiqişünas, AMEA-nın müxbir üzvü (2017), sənətşünaslıq doktoru (1996), Əməkdar incəsənət xadimi (1989), Əməkdar elm xadimi (2005), professor (1998). “Azərbaycanın musiqi elmi. XIII-XX əsrlər” (2006), “Uzeyir Hacibayov and his outstanding predecessors” (Üzeyir Hacıbəyov və onun görkəmli sələfləri” (ingilis dilində, 2005) və s. monoqrafiya və məqalələrində Azərbaycan musiqi elminin görkəmli nümayəndələrinin əsərlərində öz əksini tapmış ozan-aşıq sə- nətinin tarixi-nəzəri və estetik problemləri, qopuz alətinin quruluşuna dair məlumatları ümumiləşdirib şərh etmişdir. “Azərbaycan musiqi tarixi” kitabının (2012) bir fəslində, “Muzıkalnıy mir Dede Korkuda” (“Dədə Qorqudun musiqi dünyası”, rus dilində) və s. məqalələrində “Kitabi-Dədə Qorqud” eposunda musiqi mədəniyyəti ilə bağlı məsələləri işıqlandırmışdır.

SƏFİL – sufi terminologiyasına aid rəmzi-məcazi səciyyəli sözlərdəndir. "Miskin", "qul", "xəstə" sözləri ilə eyni sırada durur. Aşıq yaradıcılığında da ustadlar bu termindən istifadə etmişlər. Qaracaoğlanın, Qul Allahqulunun, Şenliyin və başqalarının şeirlərində işlədilir. Bir növ onların halının bəyanı kimi görünür. Dərviş və dərvişlik missiyasını özündə ehtiva edir. "Səfil" sözünün mahiyyətində sufilərdə müşahidə olunan və işlək görünən fəqirlik də vardır. Səfillikdə təmiz qəlbə malik maddi meyil və həvəslərdən, nəfsani ehtiraslardan uzaq, mənəvi-əxlaqi cəhətdən pak Haqq aşiqləri təsəvvürü cəmlənir. Qəlbini ilahi nurla işıqlandıranlar nəzərdə tutulur.

SƏMƏDBƏYLİ BƏŞİR MƏMMƏDHÜSEYN OĞLU (1913, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1989) – Yaradıcı aşıq kimi tanınmışdır. Aşıq sənətinə erkən yaşlarından marağı olmuşdur. Əlimərdanlı Aşıq Nəcəfin şagirdlərindəndir. Müxtəlif sənətkarlarla – Şair Alay, Şair Fətəli, Aşıq Zeynəblə deyişmələri vardır. Ayrı-ayrı toplularda şeirləri getmişdir. Tovuzda, ətraf bölgələrdə məclislər aparmış, ustad sənətkar kimi tanınmışdır.

SƏMƏD MİRZƏ (1890, Qazax rayonu, Daşsalahlı kəndi – 1981) – Yaradıcı sənətkar olmuşdur. Erkən yaşlarından sazasözə maraq göstərmişdir. Aşıq Hüseyn Bozalqanlı, Xəyyat Mirzə, Telli Məhəmməd, Çoban Əfqan, İsmayıl Katib və başqaları ilə yaxın əlaqələri olmuşdur. Haqqında çoxlu əhvalatlar, hekayətlər vardır. Gəncədə Zərnişan adlı dağıstanlı



qızla deyişməsi buna nümunədir. Həmin deyişmənin əsasında "Zərnişan-Mirzə Səməd dastanı" yaranmışdır. Mirzə Səmədin "Mirzə Səmədlə Sarıtel dastanı" xalq arasında məşhur olan dastanlardandır. Sarıtel onun istədiyi qız olmuşdur. Atası Sarıteli Mirzə Səmədə yox, başqasına vemişdir. Sarıtel son nəfəsində atasından Mirzə Səmədin çağırılmasını xahiş edir. Mirzə Səməd ora çağırılır. Sarıtel Mirzə Səmədə boxça çiçəyi uzadır və əlavə edir ki, boxça çiçəyi heç zaman solmur. Qoy bu bizim saf sevgimizin nişanəsi kimi səndə qalsın. Onun gəraylı, qoşma, müxəmməs, divani, deyişmə, dastanları zəngin istedad sahibi olduğunu göstərir. Ayrı-ayrı toplularda şeirləri çap olunmuşdur.

SƏMƏD ÖYSÜZLÜ (təxminən 1830, Tovuz rayonu, Öysüzlü kəndi – 1918) – Yaradıcı aşıq olmuşdur. Tovuz mühitinin yetişdirdiyi nəhəng saz-söz ustadlarındandır. Deyilənə görə, Öysüzlü Səmədin ustadı Ağ Aşıq (Aşıq Allahverdi) olmuşdur. Ömrünün böyük bir hissəsini səfərlərdə keçirmişdir. Güney Azərbaycana səfərləri ilə bağlı xalq arasında çoxlu əhvalatlar gəzib dolaşmaqdadır. Səfərlərdə öyrəndiklərini şagirdləri Qaraçıoğlu İbrahimə, İsmayıl Əlibəyliyə, Qəhrəmana (Hacıalılar), Öysüzlü Ələsgərə, Öysüzlü Qaraya, Zəyəmli Qənbərə, Köçəsgərli Həsənə öyrətmişdir. Şagirdləri onu məlumatlı, kifayət qədər istedadlı, mahir ifaçı və gözəl səsli ustad kimi qeyd edirlər. Ağır həyat keçirən Qaraçıoğlu İbrahimi Öysüzlü Səməd xeyli vaxt öz yanında saxlamışdır. Ustadnamələri dastan ifaçılığı prosesində kifayət qədər geniş istifadə olunur. Aşıq Səmədin Haqq aşığı olması, gələcəkdən xəbər verə bilmə bacarığı haqqında da çoxsaylı rəvayətlər vardır. Şeirləri Aşıq Səmədin yüksək təbə malik olduğunu göstərir. "Qaragöz" rədifli gəraylısı aşıqların repertuarında yer alan ən fəal poetik örnəklərdəndir. Ayrı-ayrı toplularda şeirləri getmişdir. Aşıqlar arasında dərin istedad sahibi olan ustad kimi xatırlanır.

SƏRBAZİ ƏKBƏR BARAT OĞLU (1990, Qaradağ mahalı, Əhər şəhəri – Təbriz) – Aşıq ailəsində anadan olmuşdur. Atası Aşıq Barat onu sənətə

həvəsləndirmişdir. Əkbər Sərbazi on bir yaşından sənətə başlamışdır. Həsən Məhəmmədzadədən və Sədaqət Gəncəyidən sənətin sirlərini öyrənmişdir. Üç il onlardan dərs almışdır. On yeddi yaşından məclislərdə balabançı kimi təmsil olunmuşdur. Atası Aşıq Barat Sərbazi, Aşıq Məhəmməd Cahangiri, Aşıq Ayət Qənbəri ilə birlikdə məclislər aparmışdır. "Qaradağ şikəstəsi", "Ağabəyi", "Ağaxanı", "Sultanı", "Sulduzu" havalarını məharətlə ifa edir.Xalq mahnıları və bəstəkar əsərlərini də balabanda özünəməxsus ustalıqla canlandırmağı bacarır.

SƏRPAYİ – toybabasıdır. Xalq adət-ənənəsində qədim zamanlardan günümüzə qədər xalq şənliklərində, məclislərdə toybabası olmuşdur. Müasir ənənədə ona "tamada" da deyilir. Toyların

ağırlığı, məclisin nizama salınması, qonaq- ların təqdimi, oyun havalarının çalınması, nə varsa hamısı sərpayilərin üzərinə düşmüşdür. Aşıq məclislərində də məclisin istiqamətləndirilməsi sərpayilər tərəfindən gerçəkləşdirilmişdir. Eldə-obada xüsusi qabiliyyətə malik sərpayilər olmuşdur.

"SƏTTAR XAN" – Aşıq Hüseyn Cavan tərəfindən yaradılmış qəhrəmanlıq dastanıdır. Cənubi Azərbaycanda və İranda baş verən inqilabi hərəkatla bağlı yaranmışdır. 1905-ci il Rus inqilabından sonra Cənubi Azərbaycanda böyük hərəkat başlandı. Bütün Şərqdə, Orta Asiyada xalqların azadlıq mübarizəsi genişləndi. Cənubi Azərbaycanda Səttar xanın başçılığı ilə başlayan hərəkat bu azadlıq mübarizəsində ən güclüsü idi. O, Şərqdə və Rusiyada da ictimai-siyasi mühitlərin diqqət mərkəzində idi. Həmin vaxtlar Səttarxanı Azərbaycanın Puqaçovu adlandırırdılar. Xalq arasında Səttarxanla bağlı çoxlu rəvayətlər, əhvalatlar, mahnılar, şeirlər yaranmışdı. Onların bir qismi ilk əvvəl inqilab səngərlərində oxunmuşdur. Həmin mahnılarda inqilab rəhbərləri tərifləlnir, onların qəhrəmanlığı təbliğ olunur, İran şahı, xalqı incidənlər, əzab verənlər pisləlnirdi. Xalq öz mahnılıarında inqilab mücahidi Səttarxanı tərifləyir, onun şəninə söz qoşurdu. Üsyanın gedişi, inqilabçıların fədakarlığı, döyüşlər, şah qoşunlarının amansızlığı və s. – heç nə xalqın gözündən yayınmırdı. "Yaşasın Səttarxan" mahnısı həmin mübarizələrdən yaranmışdı. İnqilabçıların iztirabları, məşəqqətləri, mübarizələri xalq ruhunun ifadəsi fonunda yaranır və yayılırdı. Mahnı, əhvalat, hadisələr əsasında "Səttarxan" dastanı yaranmışdır. Əvvəlcə "Fərman" imzası ilə dastan ədəbi ictimaiyyətə təqdim olunmuşdur. Dastanda vurğulanır ki, İran şahı Məhəmmədəli İranda, Cənubi Azərbaycanda zülmünü, özbaşnalığını artırırdı. Xüsusilə Cənubi Azərbaycanda əhali acınacaqlı həyat yaşayırdı. Narazılıqlar getdikcə çoxalmaqda idi. Bu üsyanın başçısı Səttarxan idi. O və onun ətrafındakılar azadlıq, əmniyyət, firavanlıq istəyirdi. Səttarxan ətrafındakılarla məsləhətləşib şah sarayına şeirlə bir məktub göndərir. "İnsan olan vətənini satmasın" söyləyir. Məhəmmədəli şah məktubdan hirslənir. Üsyançıları məhv etmək üçün qüvvə toplayır. Cənubi Azərbaycandakı üsyançıların tezliklə dağıdılması tapşırığını verir. Səttarxan isə silahdaşlarını mübarizədən dönməməyə çağırır. Bu məqsədlə də Qəmər atını minir və Təbrizə yollanır. Məhəmmədəli şah bir gün saray adamlarını toplayıb tədbir görülməsini istəyir. Ona məsləhət görürlər ki, Cənubi Azərbaycandan olan bir şəxs vasitəsilə xalqı, üsyanı sakitləşdirmək olar. Belə bir adam Səttarxan idi. Şah onu saraya dəvət edir. Silahdaşlarının etirazlarına baxmayaraq Səttarxan saraya gedir. Şah onu qızılla-pulla ələ

almaq istəyir. Səttar xan cavab verir ki, azərbaycanlılar qızıla, dövlətə aldanmaz. Qoy biz də insan kimi yaşayaq. Şah Səttarxanın tutulmasını əmr edir. Səttar xan saraydan çıxıb qaçır. Üsyançıları ətrafına yığıb döyüşlərə başlayır. Tarixi hadisələr, döyüşlər dastanda təbii şəkildə ifadəsini tapır. Şah üsyançıların üzərinə Maku xanı, sonra Rəhim xanı göndərir. Səttar xan üsyançıları döyüşlərə ruhlandırır, xalqın qəhrəmanlıq tarixi haqqında söhbətlər aparır. Səttarxan Təbrizə-Azərbaycana hücum edən şah qoşunlarına qan tökməməyi təklif edir. Lakin şah qoşunları buna əhəmiyyət verməyib xalqa atəş açır. Səttarxan mücahidləri döyüşə səsləyir. Şah qoşunu məğlub olur. Dünyagörmüş müdrik qoca Səttarxanın yanına gəlir. Ona ağıllı məsləhətlər verir. Xalqın onunla fəxr etdiyini söyləyir. Səttarxan qalib kimi Təbrizə dönür. Bağır xana deyir ki, vətənim, xalqım azaddır. Dastan Səttarxanın şəninə deyilmiş şeirlə tamamlanır.

"SƏYYAD VƏ SƏDƏT" – məhəbbət dastanları silsiləsinə daxildir. Bir neçə dəfə toplanmışdır. 1937-ci ildə "Dastanlar və nağıllar" kitabında nəşr olunmuşdur. H.Əlizadə bu dastanı 1926-cı ildə Qazax rayonunda Aşıq Abbasdan yazıya almışdır. Onu da əlavə edək ki, orada on dastan (məhəbbət dastanı) verilmişdir. "Səyyad və Sədət" də onlardan biridir. "Azərbaycan dastanları"nın (beşcildlikdə) ikinci cildində "Səyyad və Sədət" dastanı da vardır. Bu variant 1960-cı ildə Tovuz rayonunun Aşağı Quşçu kəndində Aşıq Abıldan toplanmışdır. "Səyyad və Sədət" çox yayılmış və çoxvariantlı dastanlardandır. Bir variantda ustadnamələr bayatılardan ibarətdir. Dastanda hadisələr Herat şəhərində baş verir. Hidayət xocanın övladı olmur. Arvadı Nərgiz banı günlərin birində qapıya gələn dərvişə pay verməyi istəyir. Dərviş cavabında "mən pay alan deyiləm, pay verənəm. Al bu almanı həyat yoldaşınla ye, uşağın olar" deyir. Ailədə uşaq dünyaya gəlir, adını Səyyad qoyurlar. Səyyad bacarıqlı bir oğlan olur. Onu məktəbə qoyurlar. Molla bir neçə ildən sonra onu məktəbdən qovur. Sərraca şagird verilir. Evə gəlib yatarkən bir dərviş ona badə verir. Səyyada Girman şəhərində Fərrux Mirzənin qızı Sədət buta verilir. Yolda haramilər (Ziyad Hərami ilə Qanlı Xoca) onun qabağını kəsir. Səyyad oradan çətinliklə qurtarıb Sədətin bağçasına gəlir. Sədət butasını, yuxuda gördüyü oğlanı tanıyır. Sədətin yanındakı Səlmi əhvalatı Fərrux Mirzəyə danışır. Səyyad zindana salınır. Abdulla xan zindanı gəzərkən Səyyadı görüb ona kömək etmək istəyir. Fərrux Mirzə İsfahana Cəmşid şahın yanına göndəriləcəyini söyləyir. Cəmşid şahın yanına göndərilənlər isə ölümə məhkum olurdular. Fərrux Mirzə qızını Mahmud xana verir. Toyda at çapan zaman Mahmud xan atdan yıxılıb ölür. Belə olanda Mahmud xanın kiçik qardaşı Məhəmmədə nikah etmək istəyirlər. Cəmşid şah Səyyada rəhm edir. Onun aşıq olduğunu bilib qardaşına məktub yazır. Səyyad məktubu Fərrux Mirzəyə gətirir. Səyyadın atası da səfərdən gəlirmiş, Fərrux Mirzənin iqamətgahına düşür. Burada ata-oğul görüşürlər. Səyyad aşıq kimi çalıb-oxuyur. Sədətlə Səyyad evlənir. Dastan duvaqqapma ilə bitir.

SİLKƏLƏMƏ – saz alətində istifadə olunan ifaçılıq ştrixi. Musiqi ifadələrinin

sonunda sazın silkələnməsi vasitəsilə alınan səs effekti.

SİM – sazın qoluna çəkilmiş metal sim (tel). Alətin səsi bu simlərə təzənə vasitəsilə vurmaq nəticəsində alınır. Azərbaycan sazı 8 və ya 9 simlidir. 3 qoşa sim şəklində düzülür. Simlər çanaq üzərində düzülüşünə görə üç qrupa bölünür: 1. Alt simlər. 2. Orta simlər. 3. Üst simlər. Alt simlər – melodiya bu simlərdə çalınır. Buna görə ona "zil simlər", bəzən də "barmaq simləri" deyilir. Bu simlər dəyişməzdir. Sazı çalarkən, tutma qaydasına uyğun olaraq, alt cərgədə yerləşdiyinə görə belə adlanır. Orta simlər (alt və üst simlər arasında yerləşdiyinə görə belə adlandırılır)– müvafiq aşıq havasına görə bu simlərin səs yüksəkliyi dəyişir. Havanın bu və ya digər tərzdə köklənməsi bu qrup simlərlə bağlıdır. Köklənmə zamanı yaranan akkordun ən aşağı səsi olduğundan "bəm simlər" və ya "köklənmə simləri" adlanır. Üst simlər – (sazı çalarkən tutma qaydasına uyğun olaraq, üst cərgədə yerləşdiyinə görə belə adlanır). Bu qrup simlər dəyişməzdir və funksiyasına görə "dəm"simlər" adlandırlır. ***Bax: Saz.***

SİMFONİK MUSİQİ – simfonik orkestr üçün yazılmış əsər. Simfonik musiqiyə həm iri, həm də kiçik həcmli əsərlər aiddir (simfoniya, simfonik poema, uvertüra, süita, konsert, fantaziya və s.). Simfonik musiqi Azərbaycan bəstəkarlarının ən çox müraciət etdikləri musiqi sahələrindən biridir. Ü.Hacıbəylinin opera ("Koroğlu" operasının uvertürası və s.) və orkestr üçün yazdığı əsərləri Azərbaycanda simfonik musiqinin formalaşmasında müstəsna rolu olmuşdur. "Leyli və Məcnun" muğam operasının V pərdəsinin son səhnəsində bəstəkar, kökləri ilə aşıq musiqisinə bağlı olan "Arazbarı" zərbi-muğamından istifadə etmişdir. Sonralar Ü.Hacıbəyli bu musiqi parçasını yüksək bədii səviyyədə orkestr üçün işləmişdir (1930). Əsər milli simfonik musiqinin ilk müjdəsi hesab olunur və milli musiqi folklorunun, aşıq musiqisinin simfonik musiqiyə tətbiq edilməsi yolunda Azərbaycan bəstəkarlarının yaradıcılıq axtarışlarında bir örnək rolunu oynamışdır. Bu prinsip sonralar milli simfonizmin yeni bir qolunun – simfonik muğamların əsasını qoyan bəstəkar F.Əmirovun yaradıcılığının əsas qayəsinə çevrilmişdir. F.Əmirov "Şur" və "Kürd ovşarı" simfonik muğamlarında, dünya klassik musiqisinin təcrübəsindən yararlanaraq, "Heydəri", "Osmani" və "Ovşarı" aşıq havalarını emosional dolğunluğu, fəlsəfi dərinliyi ilə seçilən lirik-dramatik tərzdə həll etmiş, parlaq orkestr səslənməsinə nail olmuş və yeni, daha yüksək bədii səviyyədə təqdim etmişdir. Musiqi təfəkküründə simfonikliyi ilə fərqlənən Q.Qarayev isə Azərbaycan xalq musiqisinin məqam-harmonik elementləri ilə klassik funksional sistemin qanunauyğunluqlarını daha müasir yazı vasitələri ilə üzvi şəkildə qovuşdurmuşdur. Bəstəkarın II simfoniyası (C-dur, 1946) məntiqi inkişaf xətti, harmonik və orkestr rənglərinin zənginliyi, intonasiyanın ifadəliliyi və milli xalq musiqisinin özünəməxsus həlli ilə seçilir. 5 hissəli silsilənin gümrah, çoşqun III hissəsi və bayram ovqatlı IV hissəsi aşıq musiqisinin intonasiya, metr-ritmik quruluşu və milli rəqs musiqisinin səciyyəvi xüsusiyyətləri ilə zəngindir. Azərbaycan sim-

fonik musiqisi sahəsində böyük hadisə kimi qiymətləndirilən, simfonizmin parlaq nümunələrindən biri olan III simfoniyasında (1965) Q.Qarayev müasir seriyalı yazı texnikasını aşıq musiqisinə xas olan ritm və tembr səs- lənmələri ilə üzvi şəkildə birləşdirmişdir. V.Adıgözəlov fortepiano və simfonik orkestr üçün konsertində, Fortepiano və xalq çalğı alətləri orkestri üçün konsertdə, A.Əlizadə ikihissəli silsilə kimi həllini tapan "Pastoral"da və sazın cingiltili tembrini, metr-ritmik formullarını, aşıq intonasiyalarını özündə əks etdirən "Aşıqsayağı"da bu sintezdən ustalıqla yararlanmışlar. M.Quliyev IV simfoniyasına ("Muğam") "Yanıq Kərəmi" aşıq havasını (o cümlədən "Şalaxo" rəqs havasını) daxil etmiş, bununla da musiqinin ümumi-dramaturji inkişaf xəttində kontrastlılığı və janrvarı başlanğıcı gücləndirmişdir. Azərbaycan milli simfonizminin ən gözəl səhifələrindən biri hesab olunan V simfoniyanın II hissəsində də bəstəkar aşıq intonasiyaları və rəqs melodiyalarının ("Tərəkəmə") ritmik xüsusiyyətlərindən istifadə etmişdir.

SİNƏ PƏRDƏLƏRİ – sazın sinə hissəsində yerləşən pərdələr. Sayı 3-dür: şah pərdənin zili – fa2, sinənin yarım pərdəsi – sol bemol2, qurtaracaq pərdə – sol2 (20 pərdəli saz). ***Bax: Pərdə.***

SİNƏDƏFTƏR – xalq arasında elmi, ədəbiyyatı, ustadların, klassiklərin yaradıcılığını kifayət qədər bilən xüsusi hafizə və yaddaş qabiliyyətinə malik adamlar vardır ki, onlar "sinədəftər" adlanmışlar. Aşıq sənətində də dini, dünyəvi elmləri dərindən mənimsəyən, ustadların yaradıcılığını, dastanları yaddaşında saxlayan xüsusi qabiliyyətə malik istedadlı sənətkarlar olmuşdur. Onlar sənətdə, xalq arasında sinədəftər kimi qiymətləndirilmişlər. Hətta bu, xalq arasında sinədəftər kimi tanınmaya (məsələn, Sinədəftər Səlim) qədər gəlib çıxmışdır.

"SİNƏSİNDƏN OD PÜSKÜRMƏK" – xüsusi coşqu, ilhamla çalıb-oxuma. Aşıq sənətində böyük şövq və ilhamla oxuyan sənətkarlar olmuşdur. Onlar bu keyfiyyətləri ilə məclisə şirinlik qatmışlar. Deyişmələrdə, dastan söyləmələrində ustadlar məhz bu məqamda olmuşlar. Xəstə Qasımla Ləzgi Əhmədin, Aşıq Valehlə Zərnigarın, Aşıq Alı ilə Aşıq Yığvalın və başqa sənətkarların deyişmə səhnələrindəki coşqun, ekstaz halı məhz bu düşüncəni yaratmışdır. Aşığın ilhamla məclis aparma, sənətini dərindən bilmə, lazım gələndə vəcdə gələrək bədahətən söz demə və başqa bu qəbildən olan keyfiyyətləri insanlarda "sinəsindən od püskürmə" qənaətini doğurmuşdur.

SİNKRETİZM – Sinkretizm daha çox arxaik dövrə aiddir və bədii mədəniyyət tarixinin ilkin mərhələlərində sənət hadisələrinin qovuşuqluğudur. Sinkretizm incəsənətin hələ cilalanmamış növlərinin birliyi kimi üzə çıxmış və ibtidai insanın mərasim-ovsunçuluq (fövqəl) fəaliyyəti ilə sıx bağlı olmuşdur. Əzəli olaraq hər bir musiqili başlanğıc bu və ya digər həyat situasiyası ilə əlaqəli olaraq yaranmışdır. Aşıq yaradıcılığında mövcud olan bütün yaradıcı komponentlərin bir şəxsin simasında cəmləşməsi sinkretik təfəkkürün nəticəsidir. Ozan-aşıq sənəti müxtəlif mədəni

qatların mərhələli inkişafı və qovuşuğundan yaranmışdır: ***ibtidai dövr sinkretizmi → mərasim sinkretizmi → şaman sinkretizmi → ozan-aşıq sənətində sintez.*** "Aşıq sənəti özündə çoxlu komponentləri birləşdirir və ya başqa sözlə desək, o sinkretikdir, öz təbiəti etibarilə polifunksionaldır. Aşıq sənəti sinkretizminin xüsusiyyətlərindən biri odur ki, ibtidai quruluşda insanın bütün düşüncə prosesi gerçək həyat hadisələrinin hissi qavranılması ilə bağlı olmuşdur və aydın, obrazlı-hissi formalardan kənarda mövcud deyildi. Bu isə öz növbəsində, yaradıcılığın inteqrasiyalı formalarına gətirib çıxarırdı. Musiqili-poetik aşıq yaradıcılığının sinkretizmi bir daha onun qədim mənşəyini vurğulayır" (T.Məmmədov, 1984).

SİNTEZ – müxtəlif elementlərin və ya tərəflərin vahid tam halında, sistem daxilində birləşməsi. Sintezin tamlığı ideya-bədii fikrin tamlığı ilə müəyyən olunur. ***Azərbaycan aşıqlarının yaradıcılığı sintetik sənət növüdür.*** Burada incəsənətin müxtəlif növləri bir-birilə qarşılıqlı təsir və qarşılıqlı əlaqədə olaraq vahid bədii tamlıq halında birbirinə qovuşmuşdur – poeziya, musiqi, rəqs, rəvayətçilik, teatrallıq və s. Aşıq özündə bir neçə kommunikativ funksiyaları sintezləşdirir: incəsənət daşıyıcısı kimi – şair, bəstəkar, instrumentalçı, vokalçı, dastan yaradıcısı; tərbiyə işi – ustad, müəllim və s. Bu səbəbdən aşıq mədəniyyətində müxtəlif parametrlərin qovuşuğunu izləmək mümkündür: ***a) sənətlər sintezi (musiqi, poeziya, teatr və s.); b) ədəbi və musiqi janrları sintezi (şeir, dastan, mahnı, rəqs); c) ifaçılığın sintezi (instrumental və vokal ifaçılıq, teatrallıq, hekayətçilik, bədii qiraət); d) şəxsiyyətdaxili sintez (müğənni, şair, bəstəkar, müəllim); e) məzmundaxili sintez (epika, lirika)***. Sintetizmə xas olan çoxplanlılıq, çoxtərəflilik, çoxfunksionallıq dastan ifaçılığında daha qabarıq şəkildə üzə çıxır və aşıq yaradıcılığında bu səpkili sənətlər sintezi aşığın simasında təmsil olunur, mərkəzləşir. Məhz ifaçılıq vahidləri müxtəlif cəhətləri, müxtəlif tərəfləri vahid sistem daxilində birləşdirir. Bu zaman əldə olunan yekcinslik onlar arasındakı fərqləri, fərdi xüsusiyyətləri yox etmir, əksinə, sistemi zənginləşdirir. Bu cür sintezin yaranmasının başqa bir güclü amili isə aşıq sənətində mövcud olan ciddi normativlik, qayda-qanunlardır və bunların ustad aşıqdan şagirdlərinə, nəsildən-nəsillərə ötürülməsidir. Xüsusilə aşıq poetikasının sanki «proqramlaşdırılması» «ümumi məxrəci» təyin edir və onu aşıq konstantalarına (dəyişməz olan vahidlərə) bağlayır. Musiqi və sözün sintezi aşıq yaradıcılığını təyin edən ən ümdə tərəflərdən biridir. Aşıq havaları məhz bu iki başlıca əsas üzərində yaranır. Musiqi və sözün üzvi birliyi aşıq havacatını təyin edir, onun qanunauyğunluqlarını şərtləndirir. Hələ qədim zamanlardan estetik fikir nəzəriyyəsinə əsasən hesab edilmişdir ki, poetik söz yalnız musiqi ilə kontekstdə dərk edilir, mənaca bitkin şəkil alır, buna görə də "söz və səs vahid varlıq" kimi qəbul edilmişdir. Aşıq sənəti birbaşa bu vahid varlığın daşıyıcısıdır. Ayrılıqda götürülmüş, fərqli janr, forma, ifadə vasitələri və s. xüsusiyyətlərə malik olan poetik mətn və musiqi aşıq yaradıcılığı çərçivəsində yeni keyfiyyətdə baş qaldırmışdır. Beləliklə də, müxtəlif tərkibli iki sənət növü izomor-

fizm xassəsi alaraq vahid melopoetik varlıq, sənət hadisəsi olaraq üzə çıxmışdır. Aşıq havaları içərisində müəyyən qrup təşkil edən havalar vardır ki, onlar nəinki birbaşa poetik formalarla bağlı şəkildə meydana çıxmışdır, onlar hətta eyni adları daşımışdır, yəni həm şeiri, həm də musiqini bir məfhum altında birləşdirmişdir. Sintezləşmə nəticəsində yaranan izomorf sənət nümunəsi daha da saflaşaraq yeni bədii keyfiyyətlər əldə etmişdir. Bunlar poetik janrlarla eynilik təşkil edən "Bayatı", "Gəraylı", "Təcnis" ("Qoşma"), "Dübeyt", "Divani", "Müxəmməs", "Müsəddəs", "Təxmis" kimi aşıq havalarıdır. Aşıq havalarının poetik mətni daxilində də sintezləşmə prosesi çox qabarıqdır. Belə ki, bir sıra aşıq havalarının poetik mətnində musiqi ilə bağlı olaraq meydana çıxan özəl xüsusiyyətlər vardır: müəyyən bir poetik formaya başqa bir yardımçı şəkil və ya forma daxil edilir. Məsələn, müxəmməs+bayatı, qoşma+bayatı və s. Bayatı xalq şeir forması, əsasən, "cığa" və ya "yedək" şəklində melopoetik formaya qoşulur. Bu zaman iki müxtəlif poetik janr və poetik forma, müxtəlif vəzn (əruz, heca) bədii sintez halında birbirinə qovuşur. "Çığalı təcnis" və b. buna misal ola bilər.

SOLO (italyan: solo – yeganə, latın: solus – tək, tənha, vahid) – bir vokalçı və ya instrumentalçının müstəqil, tək çıxışı. Saz aləti həm solo, həm də müşayiətedici alətdir. Aşıq – solo ifaçıdır. Aşıq həm tək sazda çalır, həm də öz vokal oxumasını müşayiət edir.

"SOLTAN VƏ QƏNDAB" – məhəbbət dastanıdır. Aşıq Soltan və Qəndab Seyidovlar tərəfindən yaradılmışdır. İlk dəfə "Azərbaycan dastanları"nın beşcildliyinin beşinci cildində (Bakı, "Elm", 1972, səh. 265-310) verilmişdir. Sonra "Azərbaycan məhəbbət dastanları" (Bakı, "Elm", 1979, səh. 458-491) kitabında çap olunmuşdur. Aşıq Soltan Hacı oğlu Seyidov 1925-ci ildə Dağıstan Muxtar Respublikasının Rutul rayonunun Katrux kəndində anadan olmuşdur. Aşıq sənətini atasından öyrənmişdir. Azərbaycan aşıqlarının III Qu- rultayının iştirakçısı olmuşdur. 400-ə yaxın şeirin müəllifidir. Şeirlərinin mühüm bir hissəsi "Soltan və Qəndab" dastanında verilmişdir. Dastan Dağıstanda ləzgi dilində nəşr olunmuşdur. Dastanın qadın qəhrəmanı Qəndab aşığın həyat yoldaşıdır. 1935-ci ildə doğulmuşdur. 1948-ci ildən aşıqlıq etmişdir. Dünya gənclərinin Moskvada keçirilmiş festivalında iştirak etmiş və laureat olmuşdur. Aşıqların III Qurultayında iştirak etmişdir. Dastan ustadnamə ilə başlayır. Qeyd olunur ki, Aşıq Soltan səfərdən gəlir. Kənd adamları başına toplaşıb ondan "Aşıq Soltan və Qəndab" hekayəsini danışmağı xahiş edirlər. Aşıq Soltan "Soltanla Qəndab"ın nağılını belə başlayır. Dağıstanda Katrux kəndində Hacı adlı bir kişi vardı. Onun ailəsi böyük idi. Kiçik oğlu saza-sənətə maraq göstərirdi. Hacı onu məktəbə qoyur. Həm dərslərini, həm də aşıqlığı öyrənir. Hacının İsa adlı qonşusu olur. İsanın Qəndab adlı bir qızı varmış. Soltanla bir yerdə oxuyurmuş və aşıqlığı da ondan öyrənirmiş. Onların arasında sevgi yaranır. Qubada toy məclisinə gəlir. Qəndab da həmin toyda çalıb-oxuyur. Qəndaba Aşıq Soltanla deyişməyi təklif edirlər. Qəndab Soltana bir hərbə-zorba deyir. Sonra Aşıq Soltan cavab

verir. “Soltan və Qəndab” məhəbbət dastanıdır. Soltanla Qəndab nişanlanırlar. Toy başlayır. Camaatın xahişi ilə Soltan toyunda bir gözəlləmə oxuyur. Toyun axırında Aşıq Soltanın özü duvaqqapma oxuyur. Dastan duvaqqapma ilə sona çatır.

SOLTANOV FƏRHAD SOLTAN OĞLU (1931, Ucar rayonu, Yuxarı Şilyan kəndi –2007)– Aşıqlar Birliyinin

üzvü (1985). Aşıq ailəsində dünyaya gəlmişdir. Atası Aşıq Soltan dövrünün tanınmış sənətkarlarından olmuşdur. Fərhad 9-10 yaşlarından atası ilə birgə saz-söz məclislərində çıxış etmişdir. Sənətin sirlərinə yiyələnmişdir. Sonradan aşıqlığı daha da mükəmməl öyrənmək üçün Kürdəmirdə Aşıq Pirməmmədin yanına getmiş və ona şagird durmuşdur. Şirvan dastanlarının və aşıq havalarının dərin bilicisi olmuşdur. Çoxlu şagirdlər yetişdirmişdir. Əhliman Şirvanlı onun yetişdirdiyi aşıqlardandır. Ailəsində aşıqlıq ənənəsi indi də davam edir. Aşıq Fərhad aşıqların III və IV qurultaylarının iştirakçısı olmuşdur. Yaradıcı aşıq kimi tanınmışdır. Aşıq şeirinin müxtəlif formalarında poetik nümunələr yaratmışdır.

SONA (XIX əsr) – Haqqında elə bir dolğun məlumat yoxdur. Ehtimal olunur ki, XIX əsrdə yaşamışdır. H.Əlizadə onun iki qoşmasını “Aşıqlar” kitabında vermişdir (1935). Həmin şeirlər (“Əzizim”, “Neylər”) Sonanın yaradıcı qabiliyyətə malik olmasından xəbər verir.

SOYLAMA – ozanların xüsusi poetik vurğu altında təqdim etdikləri reçitativ bədii mətn parçaları. Seçilmiş sözlərdən, dərin məzmunlu kəlamlardan, qanadlı öyüdləmələrdən, sıravi söz və deyimlərdən fərqli olan və üstün sayılan bu mətn parçaları aşıq ustadnamələrini də xeyli dərəcədə xatırladır:

Əsgi panbıq bez olmaz,
Qarı düşmən dost olmaz...
Allah-Allah deməyincə
işlər önməz...
Oğul atanın yetiridir,
İki gözünün biridir...
Qız anadan görməyincə
öyüd almaz,
Oğul atadan görməyincə
süfrə salmaz və s.

“Kitabi-Dədə Qorqud”da yer alan soylamaların böyük əksəriyyəti deklamativ səciyyə daşıyır. Bu mətnlər ozanın qarşısındakılara öz fəlsəfi-estetik niyyətini təqdim etmək məqsədi ilə xüsusi vurğu – nida şəklində çatdırılır.

SÖHBƏTOV ABBAS (CƏYİRLİ) AĞABALA OĞLU (1903, Şamaxı rayonu, Cəyirli kəndi – 1966) – Şirvan aşıqlarının babası Mirzə Bilalın sevimli şagirdlərindəndir. Onun yanında sənətin sirlərini, ustadların yaradıcılığını, dastanları, saz havalarını dərindən mənim-

səmişdir. Bir neçə il Mirzə Bilalın yanında çalıb-oxumuşdur (1923-1926). Sazda və başqa alətlərdə çalıb-oxumağı öyrənmişdir. 1927-ci ildən müstəqil aşıqlığa başlamışdır. Abbas Cəyirli adı ilə tanınmışdır. İyirminci yüzilliyin 30-cu illərdən Şirvanın tanınmış aşıqlarından biri olmuşdur. Ustad sənətkarın musiqi repertuarı, dastançılıq qabiliyyəti, ifaçılıq mədəniyyəti onillər boyu onu hamının sevimlisinə çevirmişdir. Dövlət tədbirlərində, mədəni-kütləvi el yığıncaqlarında ona xüsusi ehtiram göstərilmişdir. Aşıq Abbas Söhbətovun özü kimi yetişdirdiyi aşıqlar da eldə-obada ad-san qazanmışlar. Aşıq Məmmədağa Babayev, Aşıq Şakir (Əbdülrəhimov), Aşıq Şərbət, Aşıq Əlisa, Aşıq Söhrab və başqa sənətkarların yetişməsində onun böyük əməyi olmuşdur. Muğam sənətini də dərindən bilmişdir. Onun özünəməxsus ifa tərzi, havalara etdiyi əlavələr, dastançılıq məharəti xalq arasında böyük şöhrət qazanmasına səbəb olmuşdur. Aşıq Abbas Cəyirli Şirvan aşıq mühitinin unudulmaz nəhəg simalarından biri kimi bu gün də yaddaşlarda xatırlanır.

İkinci və üçüncü aşıq qurultaylarında iştirak etmişdir.

SÖHBƏTOV PİRMƏMMƏD YUSİF OĞLU (1903, Kürdəmir rayonu, Ağarzabəyli kəndi – 1997) – Göyçay rayonunun Bəydövül kəndində Aşıq Xasməmmədin şagirdi olmuşdur. Klassik Şirvan havalarını, xüsusən də "Şikəstə"ləri ustalıqla ifa etmişdir. "Xəstə Qasım" dastanının məclisdə çatdırılmasında onun müstəsna qabiliyyəti həmişə diqqəti çəkmişdir. Aşıq Mirzə Bilal və Aşıq Zəkəriyyə Şirvanlı ilə aralarında sənət dostluğu olmuşdur. Şirvanda və ətraf bölgələrdə məclislər aparmış, ustad sənətkar kimi tanınmışdır. Səkkiz şagird yetişdirmişdir. Aşıqların üçüncü (1961) və dördüncü (1984) qurultaylarının iştirakçısı olmuşdur.

SÖZ SƏRRAFI – sözdən yüksək ustalıqla, məharətlə istifadə edən, sözü yerli-yerində işlədən sənət bilicisi. Xalq arasında hazırcavab, bədahətən söz demək bacarığına malik söz ustaları bu ünvanı daşımışlar. Məhz ustadlar, bu mənada, söz sərrafı kimi uca tutulmuşlar. Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Dədə Ələsgər, Dədə Şəmşir, Mikayıl Azaflı və onlarla böyük sənət ustadları söz sərrafı hesab olunmuşlar.

"SÖZƏ AYAQ VERMƏK" – məclislərdə, dastan axşamlarında sənətkarlar söylənilən hadisə və əhvalatlarda bir-

birinə kömək etmək məqsədilə haşiyə çıxmış, əlavələr etmişlər. Xalq arasında müəyyən söhbətlərdə də, əhvalatlarda da "sözə ayaqvermə" olur. Ustadlar sözə ayaq verməklə məclislərə şənlik qatmış, məclisin ağırlığını aradan götürmüş, müsbət ab-hava yaratmışlar. Şagirdlərin məclis aparmasında da sözə ayaq vermə özünü göstərmiş, bir növ ustad bununla şagirdinə yardımçı olmuş, ona istiqamət vermişdir.

"SÖZƏ NƏRDİVAN QOYMAQ" – müəyyən uzaq yolun ağırlığını, uzaq səfərlərin yorğunluğunu aradan götürmək, vaxtın və yaxud da hər hansı bir işin çətinliyini asanlaşdırmaq üçün sözdən-söhbətdən bir vasitə kimi istifadə etmək. Yolun uzunluğunu, vəziyyətin cansıxıcılığını, uzaq səfərləri şirin söhbətlə yaxın etmişlər. "Sözə nərdivan qoymaq" mahiyyət etibarilə bunları ifadə edir. Aşıq yaradıcılığında, xalq düşüncəsində işlək ifadələrdəndir. Müəyyən söhbət zamanı ustadlar, ağsaqqallar hadisə və əhvalatın şirinliyi, məclisin abhavasının yüksək olması anlamında "sözə nərdivan qoymuşlar", hadisə və əhvalata əlavələr etmişlər.

SUFİ NƏZƏRİYYƏSİ – orta əsrlərdə islam aləmində geniş yayılmış dinifəlsəfi, mistik mənəvi-əxlaqi düşüncə, davranış sistemidir. Sufizm və təsəvvüf mahiyyət etibarilə eyni mənanı ifadə edən anlayışlardır. Təsəvvüf və ürfanın özünəqədərki bəşəri-mədəni inkişafdakı bir sıra din, dini-fəlsəfi görüş və etiqad sistemləri ilə uyğun və oxşar cəhətləri vardır. Şamanizm, zərdüştlük, buddizm, brəhmənizm, qədim yəhudi mistikası kabbalizm, qədim yunan fəlsəfəsi platonizm və neoplatonizm, xristianlıq və s. dini-fəlsəfi təmayüllərdəki müyyən cəhətlər üslam təsəvvüfü və ürfanla yaxınlıq təşkil edir. Məsələn, şaman təliməndəki ruhlarla ünsiyyət, ruhların yerə enməsi və yenidən öz əslinə qovuşması, rəqs və səma məclisi kimi tipoloji hallar təsəvvüf və ürfanda da özünə yer tapır. Zərdüştlükdə kamil insan, xeyir-şər qarşılaşması, hind mistikasında nəfslə mücadilə və onun vəsvəsəsindən qurtuluş, brəhmənizmdəki vəhdət və batini mərifətlə ona çatmaq ideyası, yəhudi mistikasında maddi varlıqdan çəkinmə, Allahla ünsiyyət, onun vüsalına yetmə, batini nurlanma, platonizmdəki varlığın təkliyi, vəhdəti və Allahdan ibarət olması, mütləq varlığı tam dərk etməyin qeyri-mümkünlüyü, xristianlıqda zahidlik, xəlvətə çəkilmək və s. kimi məqamlar təsəvvüf və ürfanda da özünü göstərir. Təsəvvüf və ürfani dəyərlərin haradan qaynaqlanması ilə bağlı iki fikir mövcuddur. Birincisi, sufizm nə qədər Quran və islam hadisəsi olsa da, başqa din və fəlsəfi görüşlərin təsirini də qeyd edir və onu göstərməyə çalışır. İkincisi, sufizmin Quran və islami dəyərlərdən başqa, heç bir din və fəlsəfi, əxlaqi görüşlə bağlı olmamasıdır. Müyyənləşmiş qənaətə görə "suf" yun və ya qaba yundan hazırlanmış paltar, "sufi" isə həmin paltarı geyənlərə deyilmişdir. Sonra bu ad daha geniş mahiyyət kəsb etmiş müəyyən ideya daşıyıcısı anlamına gəlmişdir. Sufizm bir düşüncə tərzi kimi islam dininin bətnindən doğulmuşdur və bütün tərəfləri ilə islam hadisəsidir. Zaman-zaman yetişən qüdrətli elm, ürfan, iman, fəzilət və zəka sahibləri təsəvvüfün təkamülünə, elmi-nəzəri konsepsiyasının işlənib hazırlanmasına, onun di-

ni-fəlsəfi sistem halına düşməsinə öz töhfələrini vermişlər. Əməli cəhətdən sufi həyatı yaşayan ilk dərvişlərdən Həsən Bəsri (? – 728), Əs-sufi ləqəbi ilə tanınan kufəli Əbu Haşim (VIII əsr), Cabir ibn Həyyan (VIII əsr, Əs-sufi ləqəbi ilk dəfə Kufədə işlədilmişdir), Zünnun-əl-Misri (? – 854), Bəyazid Bistami (? – 874), Həllac Hüseyn ibn Mənsur (858-922), Cüneyd Bağdadi (820-910), Əbülqasım Qüreyşi (?–1072), Əbu Hamid Qəzali (1059-1111), Mühyəddin ibn Ərəbi (1165-1270), Mövlanə Cəlaləddin Rumi (1207-1273) və başqaları sufi nəzəriyyəsinin bir bütöv kimi sistemləşməsinə öz töhfələrini vermişlər. Təsəvvüf və ürfan bu böyük şəxsiyyətlərin sayəsində elm halına gətirildi. Sufizmdə iki böyük məktəb – Bağdad və Xorasan məktəbləri olmuşdur. Təsəvvüfdə təşkilatlanma onun rəvac tapmağa başladığı vaxtdan sonra olmuşdur. Əvvəllər sufilər öz zahidanə və dərvişanə həyatlarını, əsasən, təklikdə yaşayır, əməl və hərəkətlərini fərdi qaydada icra edirdilər. Zaman keçdikcə sufilər təşkilatlanmağa, öz icmalarını yaratmağa, cəmiyyət qurmağa başladılar. Çoxlu sufi ordenləri meydana gəldi. İslam Şərqinə yayıldılar. Meydana gələn icma və təşkilatlar bir şeyxin ətrafına toplaşmağa başladılar. Onlar isə pir, mürşid deyildi. Dini-mənəvi rəhbər olan şeyxin ətrafına toplaşanlar və bu yolu gedənlər "mürid" adlanırdılar. Təşkilatların qurulması, icmaların əmələ gəlməsi bu təşkilat və icmaların qərarladığı məkanların – təkkələrin, xanəgah və zaviyələrin yaranmasına gətirib çıxardı.

SULDUZ AŞIQLARI-Bax: Urmiya aşıq mühiti.

SULDUZLU ƏLİ RƏHİM OĞLU (1867, Güney Azərbaycan, Sulduz mahalı, Nagadı kəndi – 1934, Qazax rayonu, Köçəsgər kəndi) – Yeniyetmə çağlarında dəmirçi yanında şagird olmuşdur. İyirmi iki yaşında Şimali Azərbaycana köçmüş, fəhləlik, əkinçiliklə məşğul olmuşdur. 29 yaşında yenə də Sulduza qayıtmışdır. Dörd il orada bağbanlıq etmişdir. 33 yaşında yenidən Şimali Azərbaycana gəlmişdir. İstedadı və bacarığı sayəsində Cənubi və Şimali Azərbaycanda bir çox saz həvəskarlarına aşıqlığı öyrətmişdir. Aşıq Əli bir çox ölkələri gəzmiş, fars, ərəb, yəhudi və kürd dillərini bilmişdir. İranı, Hindistanı, Ərəbistanı, Türkiyəni, Misiri, Çini gəzmişdir. Aşıq Əlinin gözəl oxumaq qabiliyyəti və son dərəcə yaxşı nağılçılığı olmuşdur. Bunlar onun Qazaxda, ətraf bölgələrdə böyük hörmət qazanmasına səbəb olmuşdur. 1917-1919-cu illərdə Bakıda neft mədənlərində işləmişdir. Qazaxda Köçəsgər kəndində yaşamışdır. Folklorşünas H.Əlizadəyə atalıq qayğısı göstərmişdir. H.Əlizadə bir çox dastan, nağıl, aşıq şeiri nümunələrini ondan yazıya almışdır. "Koroğlu" dastanının bir neçə qolu da ondan yazıya alınmışdır. Şeirləri ustadlar tərəfindən məclislərdə oxunmuşdur. H.Əlizadə Aşıq Əlinin ədəbi irsinin mühüm bir hissəsini "Aşıqlar" (1937) toplusunda vermişdir.

SULTANOV MƏHƏMMƏD HƏSƏN OĞLU (1897, Dərəçiçək mahalı, Qaraçalı kəndi – 1971, Borçalı mahalı, Sarvan eli, Daştəpə kəndi) – Ermənilərin törətdikləri qanlı fəlakətlərdə ailəsilə birgə Araxlı kəndinə köçmüşdür (1905). Atası ermənilər tərəfindən öldürülmüşdür. Sonralar böyük qardaşı Sadıq Sultanovla birgə Borçalı mahalının Daş-

təpə kəndinə köçmüşlər. İkinci Dünya müharibəsində iştirak etmişdir (1941-1945). Aşıq sənətini dayısı Dərəçiçəkli Aşıq Alıdan öyrənmişdir. Aşıq Məhəmməd aşıq sənətinə dərindən bələd olan ustad kimi tanınmışdır. Bəstəboylu bir sənətkar olmuşdur. Kifayət qədər zəngiləli, qədimləri andıran qeyri-adi səsi həmişə marağa səbəb olmuşdur. Aşıq Sadıq Sultanovun qardaşıdır. Mənbələrdə bəzən dayısı Dərəçiçəkli Aşıq Alının familiyası (Süleymanov kimi) ilə də qeyd edilir.

SULTANOV SADIQ HƏSƏN OĞLU (1893, Dərəçiçək (Axta) mahalı, Qaraqala kəndi – 1965, Tiflis, Soğanlıq kəndi) – Aşıq sənətinin ustad sənətkarlarından olmuşdur. İki il İrəvandakı Göy məsciddə dini təhsil almışdır. Kiçik yaşlarından atası vəfat etmişdir. Dayısı

Dərəçiçəkli Aşıq Alı ona, həm də qardaşı Məhəmmədə himayədarlıq etmişdir. Aşıq sənətini, ustadların yaradıcılığını onlara mükəmməlliklə öyrədə bilmişdir. Ermənilərin törətdikləri qırğınlardan yaxa qurtarmaq üçün Sadıq Sultanov 1920-ci ildə Borçalı mahalının Araxlı kəndinə köçmüşdür. Burada uzun müddət qalmamış, sonra Qaçağan kəndinə, daha sonra isə Gorarxıya (Alget) köçmüşdür. 1922-ci ildə Tiflisə köçməli olmuşdur. Tiflis ədəbi-mədəni mühiti Aşıq Sadığın bir sənətkar kimi formalaşmasında mühüm rol oynamışdır. Aşıq Sadıq Sultanov 1946-1952-ci illərdə Qazaxda, daha sonra isə ömrünün sonuna qədər Tiflis yaxınlığındakı Soğanlıq kəndində yaşamışdır. Qardaşı Aşıq Məhəmmədlə birlikdə Qazaxda, Borçalı mahalında məclislər keçirmişlər. Aşıq Sadıq Borçalı, Qazax, Göyçə, ümumiyyətlə, Azərbaycan aşıqları arasında çox böyük hörmət bəslənən ustad olmuşdur. Gürcüstanda və Azərbaycanda keçirilən mədəni tədbirlərdə, aşıq qurultaylarında iştirak etmiş, mükafat və təltiflər almışdır. Aşıq Sadıq ustad sənətkarların şeir və dastanlarını dərindən bilmişdir. Yaradıcı sənətkar olmuş, özü də gəraylı və qoşmalar yaratmışdır. Bir sıra məşhur aşıqlarla deyişmişdir. Növrəs İmanla deyişməsi aşıqlar arasında geniş yayılmışdır.

SÜLEYMANOV ALI (DƏRƏÇİÇƏKLİ AŞIQ ALI) (1870, Dərəçiçək (Axta) mahalı, Qaraqala kəndi – 1953) – Ustad sənətkar olmuşdur. Aşıq sənətinə erkən yaşlarından maraq göstərmişdir. Dövrünün tanınmış ustad aşığı olan Dərələyəzli Aşıq Cəlilin yanında şagird durmuşdur. Aşıq Alı erməni qırğınlarının, qanlı fəlakətlərin canlı şahidi olmuşdur. 1918-ci ildə minlərlə soydaşımız kimi Aşıq Alı da doğma yurdu, Dərəçiçək mahalını, Qaraqala kəndini müvəqqəti tərk etmək məcburiyyətində qalmışdır. Aşıq Alı və onun bir neçə ən yaxın qohumu Borçalı mahalının Gorarxı elində – Təzəkənddə Güllüoğulları oymağında məskunlaşmışdır. Borçalıya pənah gətirəndə Aşıq Alı artıq ustad kimi məşhur idi. Ustadı Aşıq Cəlillə çoxlu məclislər keçirmişdir. Dədə Ələsgərin

qardaşı Aşıq Məhəmmədlə də Aşıq Alı çox məclislər keçirmiş, birgə toylar aparmışlar. Dərəçiçəkli Aşıq Alı Aşıq Məhəmməddən də sənətin bir çox sirlərini öyrənmişdir. Aşıq Alı öz oğlu Şəmilə, bacısı oğlu Məhəmmədə, Sadığa (məşhur aşıq Sadıq Sultanov) aşıqlıq sənətinin sirlərini öyrətmişdir. Borçalıda Aşıq Ayvaz, Aşıq Bayram, Aşıq Qur-

banəli, Aşıq Əli və daha bir neçə aşıq Aşıq Alı Dərəçiçəklinin yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişlər. Aşıq Alı bir müddət Borçalıda Gorarxı elində yaşadıqdan sonra yenidən doğma kəndi Qaraqalaya qayıtmışdır. Ömrünün sonuna qədər orada yaşamışdır. Aşıq Alı Dərəçiçəklinin qəbri 1961-ci ildə Borçalının Daştəpə kəndinə köçürülmüşdür. Xalq yazıçısı İsa Muğanna (Hüseynov) nəsrində Dərəçiçəkli Aşıq Alının obrazı sıx-sıx görünməkdədir.

SÜLEYMANOV ƏLƏDDİN (ƏLƏDDİN GÖYÇƏLİ) MUSA OĞLU (1954, Göyçə mahalı, Sarıyaqub kəndi – Göygöl rayonu) – Aşıqlar Birliyinin üzvü (2008). Aşıq ailəsində anadan olmuşdur. Sənətin sirlərini atası Musa kişidən öyrənmişdir. Göyçə ifaçılıq ənənəsinin ləyaqətli davamçısıdır. Klassik Göyçə havalarının ("Göyçə qaragözü", Göyçə gözəlləməsi", "Nəcəfi", "Göyçə-

gülü", Göyçə qaytağısı" və s.) usta ifaçısıdır. Dastançı aşıqdır. Beynəlxalq Folklor festivallarında fəxri diploma layiq görülmüşdür. Aşıq şerinin çeşidli şəkillərində poetik örnəkləri vardır. "Ələddin Göyçəli" imzası ilə yazıb yaradır. Ailəsi aşıq ocağı kimi tanınır. Aşıqların V və VI quriltaylarının iştirakçısıdır.

SÜLEYMANOV QƏHRƏMAN ÖMƏR OĞLU (1925, Dağ Borçalı, Qaraqala kəndi – 2004, Bolnisi rayonu, Qoçulu kəndi) – Borçalı mühitinin yetişdirdiyi sənətkarlardandır. İbtidai təhsilini anadan olduğu kənddə almışdır. Ailəsi ilə birlikdə dədə-baba yurdu Qarayazıya döndükdən sonra orada yeddiillik məktəbi bitirmişdir. 1937-ci ildə ailəsi ilə birgə Qazaxıstana sürgün edilmişdir. 1951-ci ildə yenidən ailəsi ilə birgə sürgünə göndərilmişdir. Sürgündən qayıdıb Borçalı mahalının Qoçulu kəndində məskunlaşmışdır. Sürgünlər zamanı başlarına gələn müsibətlər bir çox şeirlərində öz əksini tapmışdır. Sarvan Bayram və Aşıq Hüseyn Saraclı ilə yaxın dostluq əlaqələri olmuşdur. Ustad sənətkar kimi tanınmışdır.

SÜLEYMANOV QİYAS NİFTALI OĞLU (1941, Göyçə mahalı, Ardanış kəndi – 1998, Sumqayıt) – Aşıq ailəsində dünyaya gəlmişdir. Atası Niftalı Göyçəli dövrünün tanınmış ustad aşıqlarından olmuşdur. Sənətin sirlərini də Qiyas atasından öyrənmişdir. Aşıq sənətinin sirlərinə bələd olmuş, bir sənətkar kimi tanınmışdır. Otuza yaxın dastanı sinəsində gəzdirmişdir. Məlahətli və koloritli təhkiyəsi ilə seçilmişdir. 1988-ci ildən Azərbaycana köçüb Sumqayıtda yaşamışdır.

SÜLEYMANOV MUSA AĞAYAR OĞLU (1931, Göyçə mahalı, Basarkeçər rayonu, Sarıyaqub kəndi – 1991, Göygöl rayonu) – Yaradıcı sənətkar olmuşdur. Göyçə mühitinin yetişdirdiyi yaradıcı ustad sənətkarlardandır. Nəsilləri əsrlər boyu aşıq ocağı sayılmışdır. Miskil Abdalla soykök bağlılıqları vardır. Xalq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır. Ayrıca şeirlər kitabı nəşr olunmuşdur (2009). Şeirlərində Göyçə sevgisi və həsrəti aparıcıdır. Aşıqlıqla bərabər zurnaçılığı da bacarmışdır. Bəzən məclislərdə zurna da çalmışdır. Göyçədə, ətraf bölgələrdə unudulmaz məclislər aparmişdir. Ömrünün son illərini Göygöl rayonunda keçirmişdir.

SÜLEYMANOV NİFTALI KƏRBƏLAYI İSMAYIL OĞLU (1913, Göyçə mahalı, Ardanış kəndi – 1976) – Təhsil görməmişdir. Erkən yaşlarından onda aşıqlığa böyük maraq yaranmışdır. Sənətin sirlərini öyrənmək məqsədilə Aşıq Alı yurdu kimi tanınır. Qızılvəng kəndində dövrünün tanınmış ustadlarından Aşıq Qulunun yanında beş il şagird olmuşdur. Yaxşı hafizəsi, güclü istedadı onun sənəti mükəmməlliklə öyrənməsinə yardımçı olmuşdur. Ustadlardan eşitdiyini yaddaşına köçürmüşdür. Aşıq Quludan rüsxət aldıqdan sonra müstəqil aşıqlığa başlamışdır (1936). Göyçədə, ətraf bölgələrdə istedadlı sənətkar kimi tanınmışdır. Qədim havaların, dastanların mahir ifaçısı və bilicisi kimi şöhrətlənmişdir. Həmyerlisi Aşıq Yunislə birgə Qaraqoyunlu dərəsində çoxlu məclislər keçirmişlər. "Əsli və Kərəm", "Abbas-Gülgəz" dastanlarını danışmağa daha çox üstünlük vermişdir. Dastançı aşıq kimi mühitin marağında olmuşdur. Aşıq Niftalı Qazaxda, Borçalıda, Tovuzda, Gədəbəydə, Gənçədə də çoxlu saz-söz məclisləri keçirmişdir.

SÜLEYMANOV SÖHRAB SÜLEYMAN OĞLU (1974, Kəlbəcər rayonu, Ağcakənd kəndi – Yevlax rayonu, Kövər kəndi) – Ziyalı ailəsində anadan

olmuşdur. Atası Süleyman mədəniyyət işçisi olmaqla, həm də sazbənd kimi tanınmışdır. Ağcakənddə orta məktəbi bitirmişdir (1991). Saza-sözə orta məktəb illərindən maraq olmuşdur. Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evində atası Süleyman Süleymanovun rəhbərlik etdiyi "Kilimarası" folklor kollektivində 1984-cü ildən çıxışlar etmişdir. Moskvada keçirilən Ümumittifaq folklor festivalında (1987) laureat olmuşdur. Kəlbəcərin ermənilər tərəfindən işğalından sonra Yevlax rayonunun Kövər kəndinə köçmüşdür. Aşıq və sazbənd kimi tanınır. Aşıqlıqda Hidayət Əkbərovu, sazbəndlikdə Süleyman Süleymanovu özünə ustad hesab edir.

SÜLEYMANOV SÜLEYMAN MEHRALI OĞLU (1946, Kəlbəcər rayonu, Ağcakənd kəndi) – Uşaqlıqdan sənətə maraq göstərib, tarda və sazda çalmağa başlamışdır. Ağcakənd Mədəniyyət evinin direktoru vəzifəsində çalışmışdır. Ümumittifaq xalq yaradıcılığı festivalında (1976, 1978) laureat olmuşdur. SSRİ Bəstəkarlar İttifaqının keçirdiyi etnoqrafik konsertdə çıxışına görə fəxri fərmana layiq görülmüşdür. SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin Sankt-Peterburqda təşkil etdiyi beynəlxalq folklor festivalında birinci dərəcəli diplomla mükafatlandırılmışdır (1988). "Gülüstan" folklor teatrının tərkibində UNESKO-nun Fransada keçirdiyi folklor festivalında sazda ifasına görə birinci yeri tutmuşdur (1978). Sazbənd kimi tanınması da təsadüfi olmamışdır. Ata-babası da sazbənd olmuşlar. Atası Mehralı kişi sazbəndlik etmişdir. Süleyman 1970-ci ildən sazbənd kimi Kəlbəcərdə tanınmışdır. Süleyman Süleymanov aşıqlığı əvvəlcə atasından, sonra isə Aşıq Əmrah Gülməmmədovdan öyrənmişdir. Sazbəndliyin sirlərini 14 nəfərə öyrətmişdir. Oğlu Söhrab da sazbəndliyi, həm də aşıqlığı atasından öyrənmşdir.

SÜLEYMANOVA MİNAYƏ MUSTAFA QIZI (1966, Dağ Borçalı, Cəlaloğlu rayonu, İlməzli kəndi – Bakı) –



Minayə İlməzli istedadlı solo saz ifaçısıdır. Saza-sözə bağlı olan bir ailədə böyümüşdür.Saz sənətini də Minayə qardaşı Aşıq Məhəmməddən öyrənmişdir. Ə.Cavad adına Bakı Mədəni-Maarif texnikumunu bitirmişdir. Orta məktəb illərindən yaxşı saz ifaçısı kimi tanınmışdır. Aşıq havalarının gözəl ifaçılarındandır. Saz musiqisinin yeniyetmə və gənclərə tədrisi ilə məşğul olur. Aşıqlar Birliyinin üzvüdür (2016). Aşıq Pəri məclisinin fəallarındandır.

SÜLUK – yoldur. Ərəb sözü olub, müxtəlif anlamlarda işlənmişdir: a) bir ictimai təbəqəyə mənsub olma; b) sıraya düzülmə, yola düşmə; c) silklər; ç) əxlaq anlamları daşımışdır. Sufizmdə süluk saliklərin getdiyi Haqq yoludur.

SÜMMANİ ÇILDIRLI (1861, Türkiyə, Ərzurum, Samiqala kəndi – 1915) – Çıldır aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Kifayət qədər istedadlı, yaradıcı təbli olan aşıqlardan hesab edilmişdir. Saz-söz sənətinin

sirlərini Çıldır-Qars çevrəsinin azman saz-söz sərrsfı Aşıq Ərbabidən öyrənmişdir. Aşıq Şenliklə aralarında sənət qardaşlığı səviyyəsində yaxınlıq olmuşdur. Aşıq Şenliklə çoxsaylı deyişmələri də vardır. Çıldır, Qars və Ərzurumun bir çox başqa ünlü aşıqları ilə də sənət imtahanlarına çıxmış və yenilməz olmuşdur. Deyişmələrindən dərin təsəvvüf biliyi olduğu görünür. Qoşma və gəraylıları diqqətçəkicidir. Ayrı-ayrı tədqiqatlarda haqqında yığcam yazılar getmişdir. Professor Avtandil Ağbaba onun Aşıq Şenliklə deyişmələrini geniş təhlil etmişdir. Həyatı, yaradıcılığı ayrıca araşdırma mövzusu olmamışdır.

SÜRÜTMƏ – saz alətində müntəzəm istifadə olunan çalğı üsulu. 1. Sürütmə barmaq – təzənəni bütün simlərə vurmaqla sol əlin ikinci barmağını simlər üzərində altdan yuxarı sürüşdürmək (qlissando). Bu çalğı üsuluna bəzən "vıyıltı" da deyilir. Not yazısında "V" işarəsi ilə qeyd edilir. 2. Sürütmə təzənə – təzənəni sağ əlin orta barmağı ilə birlikdə altdan yuxarı bütün simlərə toxunaraq çalmaq. Solo saz ifaçıları sürütmə çalğı üsulundan geniş istifadə edirlər.

"SÜRÜTMƏ KOROĞLU" – "Koroğlu" silsiləsinə daxil olan qəhrəmanlıq havasıdır. Havanın adı çoxvariantlılığı ilə seçilir. "Aşıq Mahmud Məmmədov "Sürütmə Koroğlu" havasını "Koroğlunun Tokat səfəri" dastanında "Döşəmə Koroğlu" adı ilə ifa etmişdir" (İ.İmamverdiyev). Obraz-emosional məzmununa görə qəhrəmanlıq, cəngi havalar qrupuna daxildir. Sazda şah pərdə kökündə ifa olunur. İntonasiya məzmunu beçə pərdədən açıq simə qədər ambitusda inkişaf edir. Məqam-intonasiya quruluşu Şur məqamı ilə üst-üstə düşür. Havanın məqam-intonasiya məzmunu dayaq pərdələr üzərində qurulan ayrı-ayrı trixordların uzlaşmasından ibarətdir.

"Sürütmə Koroğlu" havasının instrumental girişi "Koroğlu havaları" silsiləsi üçün səciyyəvi olan intonemadan – sazın kök pərdəsindən təkan alan və yüksək registrdə səslənən sintaqmadan başlayır. "Koroğlu" silsiləsinə daxil olan digər ənənəvi aşıq havalarında olduğu kimi, "Sürütmə Koroğlu" havası sərbəst improvizə üzərində qurulmuşdur. Havanın timsalında aşıq havalarının intonasiya formasının biçimlənməsində fluktuasiyaların aparıcı rolu aşkar edilir. Belə ki, hər bir sintaqma daxilində müəyyən fluktuasiyalar nəticəsində daha güclü cazibə qüvvəsinə malik olan yeni istinad pərdəsinin meydana gəlməsi üçün zəmin yaranır. "Sürütmə Koroğlu" havasının metr-ritmik təşkilinin əsasında duran qeyri-müntəzəm (tempo rubato) vəzn modallıq prinsipinin təzahürüdür. Havanın metr-ritmik özəlliyi 3/8 ilə 5/8 vəznlərin mütəmadi şəkildə ardıcıllaşmasından irəli gəlir.

"Sürütmə Koroğlu" havası özünəməxsus artikulyasiya xüsusiyyətləri ilə seçilir. "Borçalı aşıq məktəbinin ustadı Əmrah Gülməmmədov "Sürütmə Koroğlu" havasını çalarkən hər dəfə ölçünün ikinci sayında alt təzənə sığallı tərzdə, vurulduqdan sonra orta barmaqla eyni qaydada simlərə altdan yuxarı istiqamətdə təkrarən vurmaqla ifa edirdi" (İ.İmamverdiyev). Hava etnomusiqişünas İ.İmamverdiyev tərəfindən nota köçürülmüşdür.

Ş

ŞAGİRD (ŞƏYİRD) – aşıq ənənəsində ustadların sənətin sirlərini öyrətdikləri yeniyetmə və gənclərə verilən ad. Aşıq yaradıcılığında ustad-şagird ənənəsi professionallıq baxımından mühüm və başlıca məsələlərdəndir. Ustadlar sənətin yaşaması, gələcək nəsillərə çatdırılması üçün yanlarında şagird saxlamışlar. Şagird yetişdirmə aşıqlığın mühüm şərtlərindən biri kimi qiymətləndirilmişdir. Ustadlar el-obada sənətə marağı, güclü yaddaşı, xüsusi qabiliyyətli, musiqi duyumu, səsi, oxusu yerində olan uşaqları özlərinə şagird götürməyə çalışmışlar. Çünki hər kəsi aşıqlığa gətirməyin özünü problem kimi görmüşlər. Şagird ustadın yanında bir neçə il aşıqlığın sirlərini, sazı, pərdələri, sazın quruluşunu, sazın köklənməsini, havaları, ustadların yaradıcılığını, dastanları, ədəb-ərkanı, məclis qaydalarını öyrənir. Həftədə bir dəfə ustadın tapşırıqlarını hansı səviyyədə mənimsəməsi haqqında ustad qarşısında imtahan verir. Müəyyən mərhələyə çatdıqdan sonra şagird ustad aşıqlardan və sənət bilicilərindən ibarət münsiflər heyəti səviyyəsində sınaqdan keçirilir. Ustad "şilləsi" aldıqdan sonra ustad xeyir-duası ilə aşıqlığa başlayır.

Ustad-şagird ənənəsi profesional qaydada həyata keçirilir. Bu ənənə xətt-tində həvəskar yanaşma heç bir zaman qəbul edilməmişdir. Şagirdin ustaddan dərs alması, adətən, üç-beş il çəkmişdir.

Aşıq ailəsində doğulub körpəlikdən saz-söz aləminin incəliklərini öyrənənlərə "ustad oğlu şagird olmaz" deyimi ilə ayrıca dəyər verilir.

ŞAH ABBAS SƏFƏVİ (1571-1629) – Səfəvilər nəslindəndir. 1597-1598-ci illərdə paytaxtı Qəzvindən İsfahana köçürtmüşdür. Buxara və Türkiyə ilə uğurlu müharibələr aparmış, Zaqafqaziyada, Xorasanda İran hegemonluğu yaratmışdı. Şah Abbas Bəhreyni (1601-1602), Qəndəhəri (1621) tutmuş, ingilis donanmalarının köməyi ilə Hörmüz adalarını (1622) portuqaliyalılardan geri almış, İraqı tutmuşdu (1623). Şah Abbas nizami ordu yaratmış, vergi sistemini qaydaya salmış, tikinti işləri aparmışdı. Onun dövründə Culfa və Arazın sol sahilinin əhalisi İsfahana,

Mazandarana köçürülmüşdü. Özünə arxa yaratmaq məqsədilə yarımköçəri tayfaları (məsələn, şahsevənləri) Azərbaycanın şimal rayonlarına və Muğana köçürmüşdü. Avropa ölkələri ilə siyasi və ticarət əlaqələri yaratmışdır.

Xalq ədəbiyyatında ən çox obrazlaşdırılan hökmdar obrazlarından biri Şah Abbasdır. Rəvayətlərdə, nağıllarda, dastanlarda və digər folklor nümunələ-

rində Şah Abbas haqqında maraqlı təqdimatlar vardır. Onların əksəriyyətində Şah Abbas "cənnət-məkan", adil hökmdar kimi verilir. "Abbas və Gülgəz" dastanı bunun bariz nümunəsidir. Aşıq sənətinin tarixi mənzərəsi aydın şəkildə göstərir ki, Şah Abbas Səfəvi dönəmi aşıqlığın ən çox inkişaf keçirdiyi tarixi mərhələlərdən biridir. Aşıqlar Səfəvi hökmdarlarına "Şıx oğulları" deyirdilər. Bu səbəbdən də çox aşıq şeirlərində və dastanlarda Şah Abbasa da "Şıx oğlu şahım" şəklində müraciət olunmuşdur.

"ŞAH XƏTAYİ" – Obraz-emosional məzmununa görə lirik-epik havalar qrupuna daxildir. Sazda orta pərdə kökündə ifa olunur. Məqam-intonasiya məzmunu orta pərdəyə istinad edir və Rast məqamı ilə üst-üstə düşür. "Şah Xətayi" havasında təkrar prinsipi mühüm formaqurucu funksiya yerinə yetirir. Musiqi kompozisiyasının əsasında təkünsürlü melodik ibarələrin çoxsaylı təkrarı durur ki, bu da havanın qədim mənşəyinə dəlalət edir. Havanın metr-ritmik əsasını 2/4 ölçü təşkil edir. Hava etnomusiqişünas İ.İmamverdiyev tərəfindən təbrizli aşıq Rza Şahnazinin ifasından nota köçürülmüşdür.

"ŞAH XƏTAYİ DİVANİSİ" – Bax: Baş divani.

ŞAH İSMAYIL XƏTAYİ (1487, Ərdəbil şəhəri – 1524) – Azərbaycan Səfəvilər dövlətinin banisi, dövlət xadimi və sərkərdə, şair. Şeyx Heydərin oğludur. Anası Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşah bəyimdir. Ağqoyunlu Sultan Yaqub (1478-1490) Şeyx Heydərin ölümündən (1488) sonra kiçikyaşlı İsmayılı anası və qardaşları Sultanəli və İbrahimlə birlikdə həbs etdirir. Sultan Yaqubun ölümündən sonra Rüstəm Mirzənin əmri ilə Şeyx Heydərin oğlanları həbsdən azad edilir (1492). Rüstəm Mirzə hakimiyyətdə möhkəmləndikdən sonra Səfəvi şahzadələrini hakimiyyətdən götürməyə çalışır. Böyük qardaşı Şeyx Sultanəli Şah İsmayılı özünün vərəsəsi təyin edərək Ərdəbilə göndərir. Bir müddət Ərdəbildə və Rəştdə gizlədilən Şah İsmayıl sonra Lahicanda Gilan hakimi Mirzə Əlinin sarayına aparılır. 1499-cu ildə özünün yaxın tərbiyəçisi və məsləhətçisi olan tayfa başçısı ilə birlikdə qoşun toplamaq üçün Ərdəbilə yollanır. Ərdəbil hakimi buna imkan vermir. Qışı Ərçivanda (Astara rayonu) keçirən Şah İsmayıl 1500-cü ildə şamlı, rumlu və digər tayfaların köməyi ilə Qarabağ, Çuxursəd, Şuragil yolu ilə Ərzincana gəlir. 1500-cü ilin axırlarında Şirvana gəlir, Fərrux Yəsar ilə döyüşür. Fərrux Yəsar öldürülür. Sonra Bakını alır. Naxçıvan istiqamətə hərəkət edir. Ağqoyunlu Əl-

vənd Mirzə ilə Şərur düzündə 7 minlik ordusu ilə 30 minlik orduya qarşı vuruşub qalib gəlir. 1501-ci ildə Təbrizə daxil olaraq özünü şah elan edir. Səfəvilər dövlətinin əsası qoyulur və Təbriz paytaxt olur. 1514-cü ildə Sultan Səlimin (1512-1520) başçılıq etdiyi Osmanlı ordusu ilə Çaldıran döyüşündə Şah İsmayıl Xətayi məğlubiyyətə uğrayır. Şəkidən Ərdəbilə qayıdarkən vəfat edir.

Şah İsmayıl görkəmli Azərbaycan şairidir. Xətayi təxəllüsü ilə şeirlər yazmışdır. Azərbaycan dilinin dövlət dili olmasında, anadilli poeziyanın inkişafında, xalq şeiri ruhunda yazıb-yaratmağa üstünlük vermədə onun müstəsna xidmətləri vardır. "Dəhnamə"si, "Nəsihətnamə"si anadilli poeziyanın əvəzsiz nümunələridir. Ş.İ.Xətayi əsərlərinin mahiyyətində sufi görüşləri dayanır. Xalq şeiri üslubunda yazdığı bayatı, gəraylı, qoşmaları sonrakı dövr ədəbiyyatın inkişafına böyük təsir göstərmişdir.

Aşıq yaradıcılığının inkişafında Ş.İ.Xətayinin mühüm rolu olmuşdur. O, dövründə xalq şeiri üslubunda yazması, bu üslubda yazanlara üstünlük verməsi ilə heca vəznli poeziyanın inkişafına müstəsna təsir göstərmiş, bir növ istiqamət vermişdir. Məhz bu səbəbdən də ona olan müraciətlər, ustad aşıqlar tərəfindən (məsələn, Qurbani) qoşulan şeirlər bir silsilə təşkil edir.

Ş.İ.Xətayi yaradıcılığı haqqında ilk məlumatı oğlu Sam Mirzə "Töhfeyi-Sam" əsərində verir. XVI əsrdən başlayaraq Yaxın Şərqin görkəmli alimləri Həsən bəy Rumlu, Katib Çələbi, Lütfəli bəy Azər, Rzaquluxan Hidayət, A.Bakıxanov, S.Ə.Şirvani, M.Tərbiyət, H.Araslı, R.Azadə, Ə.Məmmədov, M.Qasımlı və başqaları onun haqqında fikir söyləmişlər. M.Qasımlı "Şah İsmayıl Xətayinin poeziyası" mövzusunda namizədlik dissertasiyası yazmış (1987) və "Şah İsmayıl Xətayinin poeziyası" (2002) monoqrafiyasını nəşr etdirmişdir.

«ŞAH İSMAYIL-GÜLZAR» – xalq içərisində geniş yayılmış dastanlardan biridir. «Şah İsmayıl və Gülzar"ı digər məhəbbət dastanlarından fərqləndirən cəhətlərdən biri onda qəhrəmanlıq və məhəbbət motivlərinin sıx birləşməsidir. Şah İsmayıl yalnız yüksək məhəbbətlə sevməyi bacaran aşiq deyil, həm də öz sevgilisinə çatmaq üçün qılınc gücü ilə mübarizə aparan məğlubedilməz bir qəhrəmandır. Məhəbbət dastanlarımız içərisində bu səpkidə bir çox dastanlar mövcuddur: «Novruz və Qəndab», «Tahir və Zöhrə», «Lətif şah», «Şahzadə Seyfəlmülk», «Məhəmməd və Güləndam» və s. «Şah İsmayıl» dastanında yuxarıda adları çəkilən əsərlərdən fərqli olaraq məhəbbətlə, qəhrəmanlıqla yanaşı, xalqın ədalətli hökmdar arzusu da öz əksini tapmışdır. Məhz bu cəhət «Şah İsmayıl»ı ən sevimli xalq dastanlarından biri sırasına gətirib çıxarmışdır.

Dastanın ilk formalaşma və sonrakı inkişaf prosesində müxtəlif səpkili əhvalatlar oraya əlavə edilmişdir. Aşıq söyləmələri ilə dastanda özünə yer alan bu əhvalatlar dastanı daha da zənginləşdrmişdir. Şaih İsmayıl Xətayinin adı ilə əlaqədar yaranan dastana sonrakı tarixi prosesdə nəvəsi II Şah İsmayılın həyatı ilə əlaqədar əhvalatlar da daxil edilmişdir.

Dastanın əsas qəhrəmanı Şah İsmayıldır və o, hökmdar oğludur. O, ədalətli və rəhmdil olması ilə xalqın hörmətini qazanmışdır. Aşıq təhkiyəsində

də ədalətin zülm üzərində təntənəsi əsas xətti təşkil edir. Şah İsmayıl həm də sonsuz məhəbbətlə sevən aşiqdir. Bütün məhəbbət dastanlarında olduğu kimi, Şah İsmayıl da öz əhdinə sadiq qəhrəmandır. Şah İsmayıl sevgilisi Gülzarın arxasınca gedir və yolda Rəmdar Pəri və Ərəbzəngi ilə qarşılaşır. O, öz sevgilisi Gülzara sadiq qalır. Rəmdar Pəriyə və Ərəbzəngiyə sevgisinin Gülzar xanımla bağlı olduğunu deyir. Ona çatmaq üçün axıra qədər mübarizə aparır. Şah ismayıl bu mübarizədə qəhrəmanlığına, qılıncının gücünə inanır. Şah İsmayıl qəddar, zülmkar Ədil şaha qarşı mübarizə aparır. Haqq, ədalət üçün çarpışan bir şahzadə kimi təsəvvür formalaşdırır.

Şah İsmayıl // Ədil şah, Şah İsmayıl // Ərəbzəngi xətləri dastanda hadisələrin çeşidliliyinin göstəricisidir. Ərəbzəngi dostluq və sədaqət rəmzi kimi qələbləşir. "Şah İsmayıl" dastanının əsasında Müslüm Maqomayev "Şah İsmayıl" operasını yazmışdır.

"ŞAH İSMAYIL" OPERASI – M.Maqomayevin "Şah İsmayıl" dastanı əsasında yazılmış operasıdır (1916, ilk tamaşası – 1919; 2-ci redaksiyası – 1924, 3-cü redaksiyası – 1930). Muğam operalarına xas improvizasiya prinsipindən klassik opera formasına keçid mərhələsi olan "Şah İsmayıl" Azərbaycan opera sənətinin inkişafı tarixində mühüm yer tutur. Operanın musiqi-dramaturji konsepsiyası muğam, aşıq sənəti və Avropa opera ənənələrinin sintezi üzərində qurulmuşdur. Aşıq sənətinin xüsusiyyətlərinin təcəssümü baxımından Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasının ənənələrini davam etdirmişdir. M.Maqomayev yaradıcılığının tədqiqatçısı Q.İsmayılovanın qeyd etdiyi kimi, "Şah İsmayıl" operasının librettosunun əsasını dastanın 1910-cu ildə dərc olunmuş variantı təşkil etmişdir. Librettonun ilk variantı M.İsmayılzadəyə, sonrakı variantlar isə Əməkdar incəsənət xadimi, ustad aşıq İslam Yusifovun söylədiyi dastan mətninə istinad edən bəstəkarın özünə məxsusdur. Dastan ilə müqayisədə librettoda bəzi dəyişikliklər baş vermişdir: epik, nağıl-fantastik elementlər arxa plana keçmiş, dramatik ünsürlər

üstünlük təşkil etmişdir. Operanın süjet xəttində məhəbbət, qəhrəmanlıq motivləri ilə yanaşı, ictimai aspekt də qabarıq şəkildə özünü büruzə verir.

Janr baxımından "Şah İsmayıl" – böyük lirik-epik operadır. Onun 5 pərdəli musiqi-dramatik quruluşuna dastan kompozisiyasının təsiri olmuşdur. Dastan poetikasının təsiri xüsusilə operanın birinci redaksiyasında nəzərə çarpır. Opera materialının hadisələrin cərəyan etdiyi reçitativ, danışıq səhnələrinə və qəhrəmanların emosional aləmini təsvir edən nömrələrə bölünməsi; qaravəllilərdə olduğu kimi, əsas süjet xəttindən kənarda duran səhnələrin mövcudluğu; Şah İsmayılın obrazında epik-qəhrəmanlıq və lirik cizgilərin uzlaşması və s. dastan poetikasından irəli gələn xüsusiyyətlərdir. M.Maqomayevin aşıq sənətinə böyük maraq göstərməsi və Aşıq Əsədin ifa etdiyi bəzi havaları nota köçürülməsi məlumdur. Bu baxımdan təəccüblü deyil ki, "Şah İsmayıl" operasında bəstəkar aşıq musiqisinin bəzi ünsürlərini yaradıcı şəkildə təcəssüm etdirmişdir. Ərəbzəngi obrazının səciyyəsində "Atlı Kərəmi" aşıq havasından, onun tarixi semantikasından istifadə olunub. Operada Ərəbzənginin leytmotivi mühüm dramaturji funksiyalar yerinə yetirir. Rondoyabənzər formaya malik olan üçüncü pərdədə refren kimi çıxış edən leytmotiv həmin səhnəni vahid dramaturji xətt üzrə birləşdirir. "Şah İsmayıl" operasında mənşəyi aşıq musiqisi ilə bağlı zərbi-muğam janrının nümunələrinə də ("Qarabağ şikəstəsi", "Kəsmə şikəstə") geniş yer verilib. Əsərdə aşıq musiqisi nümunələrindən yalnız sitat şəklində istifadə olunmamışdır. Operanın bəzi nömrələrində (məsələn, ikinci pərdədə olan duetdə) aşıq musiqisi ünsürləri yaradıcı şəkildə təfsir edilmişdir.

ŞAH PƏRDƏ – sazın açıq simi üzərində yaranan səs düzümündə 5-ci pərdə (fa1 – 15 pərdəli sazda). Bu pərdəyə əsasən yaranan kökdə (şah pərdə kökü) "Dilqəmi", "Kərəmi" və s. havalar çalındığına görə "Dilqəmi pərdə", "Kərəmi pərdə" və s. də deyilir.

ŞAH PƏRDƏ KÖKÜ – sazda simlərin əsas köklənmə üsullarından biri. Bəm simlər şah pərdəyə əsasən kökləndiyinə görə şah pərdə kökü adlanır və simlər kvinta-kvarta intervalları üzrə düzülür və üç səsdən ibarət harmonik akkord yaradır. Bütün aşıq havalarını bu kökdə çalmaq mümkün olduğu üçün "ümumi kök" də adlandırılır. Xüsusilə, müxtəlif alətlərdən ibarət ansambl ifası zamanı "ümumi kök"dən istifadə olunur. Aşıq havalarının əksər çoxluğu bu kök üzərində ifa olunur. Şah pərdə kökündə ifa olunan hər bir aşıq havası mütləq şəkildə bu köklənmənin yaratdığı harmonik akkordun səslərinin birindən başlanğıc götürür. Müəyyən hallarda melodiyanın formalaşmasında iştirak edən alt və ya üst aparıcı tonlar keçici olaraq köməkçi funksiya daşıyır. "Mansırı", "Ovşarı", "Səməndəri", "Göyçəgülü", "Mina gəraylı", "Məmmədbağırı", "Heydəri", "Təbrizi", "İrəvan çuxuru" və bir çox başqa havalar şah pərdə kökündə ifa olunur. Şah pərdə kökü "Şur" məqamına uyğundur. ***Bax: Kök.***

ŞAH PƏRDƏNİN ZİLİ – sazın açıq simi üzərində yaranan səs düzümündə 14-cü pərdə – fa2 (15 pərdəli saz). Şah

pərdədən (fa1) bir oktava yuxarı səslənən pərdə.

ŞAHBAZOV BABƏK (BABƏK ŞAKİRLİ) MƏZAHİR OĞLU (1985, Hacıqabul rayonu, Şorbaçı kəndi) –

Aşıqlar Birliyinin üzvü (2016). Ziyalı ailəsində anadan olmuşdur. Şirvan aşıq mühitinin ustad sənətkarlarından olan Aşıq Şakirin nəvəsidir. Bu səbəbdən sazsöz aləmində "Babək Şakirli" imzası ilə tanınır. Erkən yaşlarından babası aşıq Şakir Hacıyevin ifalarını dinləyə-dinləyə sənətə maraq göstərmişdir. Mühitin sənət ənənələrini xüsusən də Şakir Hacıyev ifaçılıq məktəbini layiqincə davam etdirir. Özünəməxsus ifa tərzi ilə sayılıb seçilir. El məclislərində, dövlət tədbirlərində sənəti ilə təmsil olunur. Bakıda keçirilən İkinci Beynəlxalq aşıq festivalının diplomantıdır (2014). İstedad və bacarığına görə mükafatlara layiq görülmüşdür. Rusiya, Türkmənistan və İranda keçirilən folklor festivallarında Azərbaycan aşıq sənətini uğurla təmsil etmişdir.

ŞAHİ-MƏRDAN – Divan və aşıq ədəbiyyatında Həzrət Əliyə verilən rəmzi addır. "Adamların şahı" anlamını verir. Xalq düşüncəsində, sufi təsəvvüründə, aşıq yaradıcılığında Şahi-mərdan sabitləşmiş bir addır. Məlum olduğu kimi, xalq arasında, əfsanə və rəvayətlərdə Həzrəti Əli ilə bağlı bu gün də çoxlu hekayətlər dolaşmaqdadır. "Kitabi-Dədə Qorqud" dastanlarından başlamış müasir aşıq yaradıcılığına qədər "Şahimərdan" bir termin kimi işləkdir. Məsələn, "Kitabi-Dədə Qorqud"un müqəddiməsində "qılınc çaldı, din açdı, Şahimərdan Əli görklü" ifadəsində Həzrət Əli bir şəxsiyyət kimi bütün tərəfləri ilə təqdim olunur. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım və Aşıq Ələsgərin müxtəlif formalı şeirlərində, qoşma, divani, müxəmməslərində də "Şahi-mərdan" tez-tez işlədilir.

Ölməyincə bu sevdadan
çətin dönəm, usanam,
Həqiqətdən dərs almışam,
təriqətdən söz qanam;
Şah-mərdan sayəsində
elm içində ümmanam;
Dəryaların qaydasıdı:
ümmana baş endirir.

(Aşıq Ələsgər)

"Qurbani", "Aşıq Qərib", "Abbas və Gülgəz", "Xəstə Qasım", "Nəcəf və Pərczad" dastanlarında "Şahi-mərdan" bir rəmzi-məcazi obraz olaraq tez-tez işlənir.

ŞAHNAZİ ƏZİZ MUSA OĞLU (1910, Gəncə – 1994, Əhər) – Yaradıcı aşıq olmuşdur. Təbriz-Qaradağ aşıq mühitinin görkəmli nümayəndəsidir. Altı yaşında atası ilə birgə Gəncədən Əhər şəhərinə köçmüşlər. 1930-cu ildən aşıqlığa başlamışdır. Uşaqlıqdan saz sənətinə böyük marağı olmuşdur. Gənc yaşlarından istedadı ilə mühitdə məşhurlaşmışdır. Təbriz-Qaradağ ifaçılıq məktəbinin zənginləşməsinə böyük xidmət göstərmişdir. Şagird yetişdirməyə, aşıqlığın sirlərini öyrətməyə həmişə



diqqət yetirmişdir. Ondan çox şagirdi olmuşdur. Ailə ocağında oğlu və nəvələri onun sənət ənənəsini uğurla davam etdirirlər. Şeir kitabları çıxmışdır. Ustadnamə və təcnisləri Təbriz-Qaradağ aşıqlarının repertuarında geniş yer almışdır. Zəngin repertuara malik olmuş, saz havalarının və dastanların təkrarsız ifaçısı kimi tanınmışdır.

ŞAHVƏLƏDOĞLU ƏKBƏR (1969, Qaradağ mahalı, Əhər, Pirbulaq kəndi) – Təbriz-Qaradağ aşıq ifaçılıq ənənəsini qoruyan istedadlı ifaçılardan sayılır. Erkən yaşlarından aşıq yaradıcılığına maraq göstərmişdir. Aşıq Hacı İbadiyanın yanında 5 il şagird olmuşdur. Aşıq Əkbər Cəfərov və Aşıq İmran Həsənov məktəbindən qiyabi faydalanmışdır. Məclislərdə "Koroğlu", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Aşıq Qərib" dastanlarını danışmağa üstünlük verir. Türkiyə, Azərbaycan və Gürcüstanda aşıq konsertlərində iştirak etmişdir. Mühitin tanınmış aşıqlarındandır.

"ŞAHZADƏ BƏHRAM" – məhəbbət dastanıdır. Folklorşünas Hümmət Əlizadə 1926-cı ildə Qazax rayonunda Əli Rəhim oğlundan yazıya almışdır. "Azərbaycan dastanları"nın beşcildliyinin beşinci cildində (1972) "Şahzadə Bəhram" dastanı fərqli variantdadır. H.Əlizadə 1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin xətti ilə nəşr etdirdiyi "Azərbaycan el ədəbiyyatı (nağıllar)" toplusunda vermişdir. Dastandan məlum olur ki, İsfahanda Aslan şah öz imarətində əyləşib vəzirlə söhbət edir. Şahın övladı olmur. Vəzir ona məsləhət görür ki, kimsəsizlərə əl tutsun, ac qarınlar doydursun. Allah da sənə övlad verər. Şah vəzirin bu sözünü eşitdi və yeddi il xərac almadı. Şah yatır, yuxuda bir nurani kişi gəlib ona etdiyi xeyirxahlıqlar müqabilində övladı olacağını deyir və adının Bəhram qoyulmasını söyləyir. Əlavə edir ki, o, çox zəhmətlər çəkər, ancaq sonda adı dünyanı tutar. İkinci bir övladın da olar, onun adını Heydər qoyarsan. Bu, Bəhramdan da sücaətli olar. Aslan şahın övladı olur. Bəhram on iki yaşına qədər elmləri, döyüş texnikasını tamam öyrənir. Bəhram bir gün şikardan gələnləri görür və onda da ova getmək marağı yaranır. Ova çıxırlar. Kabil tərəfə gəlib Sistan mülkünə çatırlar. Orada çadır görürlər. Bəhram çadırda gözəl bir qızla rastlaşır və vəzirə söyləyir ki, mənim şikarım budur. Bu qız Xtan vilayətinin şahı Alı şahın qızı idi. Adı Gülxəndandı. Qız da Bəhramı sevir. Onlar nişanlanırlar. Vəzir, şahzadə İsfahana gəlirlər. Əhvalatı şaha danışırlar. Bəhram təzədən ata-anasının razılığı ilə Xtana qayıdır. Yolu azır, bir nəfərə rast gəlir. O, yolu səhv gəldiyini söyləyir. Şahzadə Bəhram yolda imarətə rast gəlir, orada Mah Ənvər adlı bir gözəllə qarşılaşır. Şahzadə səfərini ona danışır və əlavə edir ki, sağ

qayıtsam, sənlə evlənəcəm. Şahzadə Heydər məktəbdən evə gələndə yolda bir uşaqla dalaşır. Uşaq ona deyir ki, əgər sən qoçax olsan, elə qardaşını taparsan. Heydər anasının yanına gəlib vəziyyəti öyrənir. Heydərin anası Gülcöhrə xanım olanları danışır. Heydər qardaşının arxasınca gedir və gəlib Mah Ənvərin qalasına çatır. Qız Heydəri Bəhrama oxşadır. Heydər oradan ayrılıb qardaşının arxasınca gedir. Gəlib qardaşını tapır. Bəhram qardaşını tanımır. Alı şah başındakı tacı Bəhramın başına qoyur və Xtan vilayətinin şahı olduğunu söyləyir. Şahzadə Bəhram Alı şahdan icazə alıb İsfahana gəlir. Gülxəndan da onunla ailə qurub İsfahana gəlirlər. Yolda Mah Ənvərin qalasına çatırlar. Mah Ənvər də Heydərlə evlənir. Aslan şah İsfahanda toy edir. Şahzadə Bəhram şahlıq taxtına oturdulur. Xalqla çox yaxşı rəftar edir. Dastan duvaqqapma ilə yekunlaşır.

"ŞAHZADƏ ƏBÜLFƏZ" – Bir neçə variantı vardır. Bir variantını Şəfiqə Əliyeva yazıya almışdır. Kimdən və harada yazıya alınması məlum deyildir. Digər bir variantı 1957-ci ildə Zərdab rayonunun Şahsünlü kəndində Aşıq Bəybaladan yazıya alınmışdır. Başqa bir variantı isə 1954-cü ildə Əli Bayramlıda (indiki Şirvan), Cəngən kəndində Mirzə Məhəmməd oğlundan yazıya alınmışdır. Dastanda şahzadə Əbülfəzlə Rəna xanımın məhəbbətindən danışılır.

ŞAİROV NOVRUZ SÜLEYMAN OĞLU (1929, Göyçə mahalı, Daşkənd kəndi – 2000, Bərdə rayonu, Yeni Daşkənd kəndi)– Şair Məmmədhüseynin nəticəsidir. Uşaqlıqdan saza, sözə maraq



göstərmişdir. Sənətin sirlərini böyük qardaşı Aşıq Abbasəlidən öyrənmişdir. Novruz ailəsi ilə birlikdə 1941-ci ildə Gədəbəy rayonuna, daha sonra Şəmkir rayonunun Dağ Tatarı kəndinə köçmüşdür. Göyçə mahalından qohumları, həmkəndliləri deportasiya olunduqdan sonra (1953) Bərdə rayonunun Yeni Daşkənd kəndinə köçmüşdür (1954). Bərdə rayon mədəniyyət evinin xətti ilə dəfələrlə radio, televiziya verilişlərində çıxışlar etmişdir. Bərdə rayon 1 nömrəli musiqi məktəbində dərs demişdir (1986-1992). Aşıq Novruz həm də sazbənd kimi tanınmışdır. Onun düzəltdiyi saz həmişə yüksək qiymətləndirilmişdir. Xalq arasında həm aşıq, həm də sazbənd kimi tanınmışdır.

Dördüncü aşıq qurultayının nümayəndəsi olmuşdur (1984).

ŞAMAXILI XANBALA YARBALA OĞLU (1905, Şamaxı rayonu, Şamlı kəndi – 1947) – Şəxsi qabiliyyət və bacarığı sayəsində saz havalarını, dastanları, ustadların yaradıcılığını mənimsəmişdir. Qısa bir zamanda sənəti ilə Şirvanda məşhurlaşmışdır. Repressiya zamanı (1937) siyasi təqiblərə məruz qalmışdır. Var-dövləti müsadirə olunmuş, sıxıntılar içərisində yaşamışdır. Təqiblərə, təzyiqlərə dözməyərək dünyasını dəyişmişdir. Aşıq şeiri üslubunda yazıb-yaratmışdır.

ŞAMAXILI PƏRİNAZ AZAY QIZI (1860, Şamaxı rayonu, Bağırlı kəndi – 1968) – Atası Azay da "Dovğaçı oğlu" imzası ilə şeirlər yazmışdır. Pərinaz təhsil ala bilməmiş, xalçaçılıqla məşğul olmuşdur. Xalça üzərində incə naxışlar vurmağı bacarmış və sinədəftər bir qadın olmuşdur. Yazı yaza bilməmişdir. Ancaq gördüyü, qarşılaşdığı hadisələrə münasibət bildirməyi bacarmışdır. 1902-ci ildə Şamaxıda baş verən zəlzələ onu da mütəssir etmişdi. Bayatılarında həmin hadisələr özünün geniş ifadəsini tapmışdır. Pərinaz bayatı ustası kimi tanınmışdır. Onun bayatılarında etnoqrafik cizgilər, xalqın adət-ənənələri, həyat və güzəranı öz əksini tapmışdır.

ŞAMAN – mərasim, ayin icraçısıdır. Türk mədəniyyəti tarixində bütöv bir dünyagörüş və inanclar sistemidir. V.V.Radlov gerçəkdən yakutlarla altalıların bu inanca qədimdən bağlı olduğunu vurğulayır. A.İnan, M.Aral və başqaları da bu məsələdə eyni qənaətdə olmuşlar. İ.Qəfsoğlu "türk inancı ilə şamanlıq arasında heyrət ediləcək yaxınlıq var" deyir. B.Ögel "qam sözünün türklərdə şaman olduğunu" söyləyir. H.Dizdaroğlu da müəyyən mənada bu fikri təsdiqləyir: "Bu xalq sənətkarlarına müxtəlif türk xalqları tərəfindən ayrı-ayrı adlar verilmişdir. Altay türkləri kam, qırğızlar baksı (bakşı, baxşı), yakutlar oyun, tunquzlar şaman, Oğuz türkləri də ozan deyərlərdi. Hansı adla anılırsa anılsınlar, hansı türk xalqlarına mənsub olurlarsa olsunlar görüşləri eynidir".

Şamanlıq ümumi mədəniyyət fonunda türk xalqlarının tarixi üçün müxtəlif anlamlarda başa düşülür. Ən birincisi, bir din kimi, daha sonra ümumtürk mədəniyyəti tarixində bütöv bir mərhələ kimi. "Mütəxəssislərin bildirdiyi kimi, bu, Orta asiya dini inancları başda budizm olmaq üzrə əski hind, İran, yunan, yəhudu əfsanələri ilə, bəlkə də əski türk inanclarından bəziləri də bura qatılıb, Moğol dövründə peydahlanan bir qism hekayətlərin bir-birinin içinə girməsindən təşəkkül etmiş olduğu üçün bunlardan Altay, yakut şamanlarındakı əsl təsəvvürü, yəni şaman türkün dini düşüncəsi bilib nəticə çıxarmaq həmən-həmən imkansız görünməkdədir". Bununla da həmin qəbilə, tayfa ağsaqqalı "dini, dünyəvi rəhbər" səviyyəsinə qalxmışdır.

Qam-şaman dünyagörüşündə maraq doğuran cəhətlərdən biri də onların ruhlar dünyası ilə bağlılığı məsələsidir. "Şaman hər şeydən əvvəl öz xüsusi üsulları vasitəsilə qazandığı ekstaz halı içində ruhunun göylərə yüksəlmək və ya yer altına enmək və orada gəzib dolaşmaq üzrə bədənindən ayrıldığını hiss edən bir eşqin ustasıdır. Bu əsnada bir adət halına düşməkdən uzaq, əksinə, özü ruhları və hökmü altına alaraq ölülərlə, şeytanlarla, cin və pərilərlə iltifat qurmağa müvəffəq olur". Özü-

nəməxsus çalarları ilə diqqət mərkəzində duran ruh dünyası anlayışında mimik hərəkətlər var. Bu hərəkətlər vasitəsilə şamanlar istəyini, nə demək istədiyini bildirməyə çalışırdı. Burada isə olduqca böyük məharət tələb olunur. Çünki şaman qarşısındakını ən adi halda ruhlarla əlaqə saxladığına inandırmalı idi.

Ruhlarla əlaqədə qam-şamanlar təkcə sənətkar statusunda görünmür, eyni zamanda bütün sirli mövcudata sahib olmaq təəssüratı formalaşdırır. Bu prosesdə ən əvvəl şaman mərasim icraçısı ona istəyini açır, onlarla əlaqə saxladığının səbəblərini göstərir. Ruhlar da öz növbəsində bu gəlişdə bəlalardan qurtuluş yolunu göstərir. Bu mənada şamanlar ruhlarla mövcud cəmiyyət arasında əlaqələndirici rolunu oynayır. Lakin şamanların işi tək bunula da bitmir.

Qam-şaman eyni zamanda cəmiyyətin idarəedicisi ,ağsaqqalı, yolgöstərənidir. Məsələn, "əski çağlarda kağanın türk din xadimi qamın da funksiyasını öz üzərinə götürməsi" hadisəsi mənbələrdə, tarixin ayrı-ayrı mərhələlərində ardıcıllıqla görünür. Bu orta çağlarda hökmdar// təriqət şeyxi olmada da təkrarlanır. Bütün bunlar və bu kimi fəaliyyətlər şamanın ozandakı müdrik qoca obrazı ilə eyniləşir.Müxtəlif zamanlardakı fərqliliklə nəzərə çarpan status eyniyyətini ortaya qoyur. Haqq aşığı olma da bunun bir başqa formasıdır. Məlum olduğu kimi, şamanın fəaliyyətində mərasim zamanı özünəməxsus hərəkətlərin təkrarlanması var. O həmin hərəkətləri ilə vəcd anına yaxınlaşır, müəyyən mərasim və nəğmələrini icra edir. Elə bir an gəlib çatır ki, artıq ruhlara yaxınlaşır. Onun ruhu isə "öz növbəsində bədəndən ayrılaraq göylərdəki və ya yerin altındakı ruhlarla təmas qurur". Onlar da öz növbəsində bəlalardan qurtuluş yolunu göstərir. Təzədən şamanın ruhu bədənə qayıdır. Bu bütövlükdə şamanın ayin, mərasim icraçısı kimi mahiyyətidir. Onun fəaliyyətinin mühüm tərəfidir. Burada qədim insanların inamları cəmlənir.

ŞAMİLOV ƏLİ HÜSEYN OĞLU (1948, Göyçə mahalı, Basarkeçər rayonu, İnəkdağ kəndi – Bakı) – Xalq ədəbiyyatının toplanması, nəşri və öyrənilməsi sahəsində gərəkli işlər görmüş folklorşünasdır. Şəmkir rayon Qapanlı kəndində yeddiillik məktəbi (1954-1957), Basarkeçər rayonunun Zod kəndində onillik məktəbi bitirmişdir (1965). BDU-nun jurnalistika fakültəsində oxumuşdur (1968-1973). Naxçıvanda "Şərq" qəzetində işləmişdir. 1993-cü ildə Bakıya köçmüşdür. Azərbaycan Ensiklopediyasında işləmişdir. 1998-ci ildən Folklor İnstitutunda çalışır. 2007-ci ildən Folklor İnstitutunda xarici ölkələrlə əlaqələr bölməsinə rəhbərlik edir. "Aşıq İsgəndər Ağbabalı" (Əzizə Şamillə birgə) (Bakı, 2006, 2012), "Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı" (Bakı, 2011), "Qırım sevgisi" (Simferepol, 2012), "Axısqalı Xasta Hasan" (Bakı, 2012) kitabları vardır.

"ŞAN QIZI" – Mikail Baştu İbn Şəms Təbirə məxsusdur. Müəllifli dastandır. Dilçi professor Tofiq Hacıyev

dastanı rus dilindən Azərbaycan dilinə tərcümə edərək "Dədə Qorqud" jurnalında (2003, №2, 3, 4) nəşr etdirmişdir. Jurnalda dastanın mətni həm rus dilində və həm də onun qarşısında Azərbaycan dilində tərcüməsi verilmişdir. "Şan qızı" dastanına "Qıpçaqnamə" və yaxud "Bulqarnamə" (Qıpçaq və ya Bulqar salnaməsi) də deyilir. Dastanın yazılma tarixi 822-ci ildir. "Şan qızı" ilə "Kitabi-Dədə Qorqud" arasında kifayət qədər ciddi səsləşmələr vardır. Bozbinin (Şan qızının) atası Riştavdır. Riştav həm də "dağ", "qəbilə" anlamı verir.

ŞATIROĞLU VEYSƏL ƏHMƏD OĞLU (1894, Türkiyə, Sivas, Sivrialan kəndi – 1971) – Yaradıcı ustad aşıq olmuşdur. Anadolu aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Aşıq Veysəl adı ilə tanınmışdır. Şeirləri, həyatı ilə əfsanələşməkdə olan ustadlardandır. Xalq arasında haqqında çoxlu hekayətlər dolaşmaqdadır.



Yeddi yaşında olarkən çiçək xəstəliyindən gözlərinin biri tutulur. Sonra sağ gözünə pərdə gəlir. Çətinliklə dolanan Veysəlin sağ gözünə də günlərin birində ağac budağı batır. Beləliklə, gözləri dünya işığından məhrum olur. Veysəl çox erkən yaşlarından saza maraq göstərmişdir. Atatürklə görüşmüş, ona şeir oxumuşdur (1929). Aşıqlar və müğənnilər onun şeirlərinə çoxlu mahnılar qoşmuşlar. "Uzun, incə bir yoldayam", "Mənim sadiq sevgim qara torpaqdır" şeirləri dillər əzbəridir. Türkiyədə haqqında romanlar yazılmıştədqiqatlar aparılmış, sənədli filmlər çəkilmişdir. Sivasda heykəli qoyulmuşdur. Çox gənc yaşlarından aşıq şeiri üslubunda nümunələr yaratmışdır. Otuz doqquz yaşından məclislərdə öz şeirlərini çalıb-oxumuşdur.

Azərbaycanda onun şeirləri müxtəlif toplularda nəşr olunmuşdur. "İki zirvə" (Bakı, Yazıçı, 1982) kitabında mühüm bir hissəni ustadın yaradıcılığı təşkil edir. M.Aslan, M.Allahmanlı istedadlı sənətkarın yaradıcılığı haqqında məqalələr yazmışlar.

ŞAYIR – özbəklərdə aşıq statusunda sənətkarlara verilən adlardan biridir.

ŞENLİK (HƏSƏN QƏDİR OĞLU) – 1853, Qars vilayəti, Çıldır mahalı, Suxara kəndi – 1912) – Çıldır aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Əsil adı Həsən olan "Səfil Şenlik" təxəllüsü ilə şeirlər düzüb qoşandan sonra elə həmin imza ilə tanınmışdır. Aşıq Şenliyin yaşadığı dövrdə Qars bir müddət rus imperiyası tərəfindən işğal edilmişdir. O, müəyyən vaxt Borçalı mahalında yaşayıb-yaratmışdır. Erkən yaşlarından saza, bədahətən söz deməyə meyilli olmuşdur. Dayısı İbrahim onun istedadını görüb Borçalıda o zaman məşhur olan Aşıq Nurunun yanına gətirmişdir. Aşıq Nurunun yanında şagird olub, sənətin sirlərini ondan öyrənən Şenlik Borçalı mühitinin sazsöz aləmini lazımı qədər mənimsəmişdir. O, hələ çox gənc yaşlarından mollaxanada ərəb və fars dillərini də öyrənə

Aşıq Şenliyin Çıldırdakı heykəli

bilmişdir. Yaradıcılığında onun dinə, islamın qanun və qaydalarına tez-tez müraciət etməsi bunu göstərir. Aşıq Şenlik ömrünün çox böyük hissəsini Borçalıda, Çıldırda keçirmişdir. Bu mühitlər onun bir ustad kimi formalaşmasına kömək göstərmişdir. Həmin vaxtlar Borçalıda Dollu Mustafa, Dollu Abuzər, Ağacan, Xəstə Həsən, Nuru, Şair Nəbi kimi qüdrətli söz sahibləri fəaliyyət göstərmişlər. Aşıq Şenlik də bu sənətkarlarla görüşmüş, yaradıcılıq əlaqələri saxlamış, birgə məclislərdə olmuşlar. Şenliklə Aşıq Ələsgər bir məclisdə olmuş, görüşüb söhbətləşmiş və aralarında dost kimi səmimi münasibətlər yaranmışdır. Şenliyin şeirləri 1920-ci illərdən Azərbaycan mətbuatında çap olunmağa başlamışdır. 1928-ci ildə "Dan ulduzu" toplusinda şeirləri verilmişdir. "Telli saz ustadları" kitabında şeirləri getmişdir. "Lətif şah", "Sevdəgar şah və Gülnaz", "Salman bəy və Durna", "Məhəmməd və Güldanə", "Əhməd və Gözəl" dastanları vardır. "Lətif şah" qəhrəmanlıq və məhəbbət hüdudlarında dayanan dastandır. "Səməd bəy" dastanı da onun adı ilə bağlıdır. Aşıq Şenliyin şeirləri Türkiyədə bir neçə dəfə çap olunmuşdur. Folklorşünas Qəşəm Vəliyev "Aşıq Şenliyin həyatı, mühiti və poetik yaradıcılığı" mövzusunda dissertasiya işi yazmışdır.

ŞEYTAN ƏMƏLİ – türk etnik-mədəni çevrəsində qopuzun ruhlar aləmi ilə əlaqəliliyi son dərəcə geniş yayılmış bir təsəvvür olmuşdur. Ruhlar aləminin nümayəndəsinin "şeytan" kimi obrazlaşması islamın qəbulundan sonrakı hadisədir. Türkmənlərdə baxşı dütarlarının cin-şeytanlarla bağlı müqəddəs musiqi aləti sayılması ilahi aləmlə bağlılıq əlamətidir. Musiqi aləti və musiqi ilə bağlı xalq arasında işlənən "şeytan əməli" ifadəsi bu baxımdan əski mifik təsəvvürə söykənən bir qənaətdir və bu qənaətin mifoloji rəvayətlərlə birbaşa ilgisi mövcuddur. "Şeytan əməli" anlamı islam zehniyyəti gücləndikdən sonra mənfi məzmun kəsb etmişdir. Qopuza, daha sonra isə onun xələfi olan saza "şeytan əməli" kimi yanaşılması iki münasibəti təzahür etdirir:

a) Bu münasibət İslam ənənəsinin öz tərkibində olan doqma – yasaqlardan irəli gəlir. Musiqinin haram buyrulması belə bir islami mövqeyi formalaşdırmalıydı.

b) Münasibətin məhz "şeytan əməli" şəklində biçimlənməsi göstərir ki, islamaqədərki dünyagörüşün musiqi aləti və musiqinin ruhlar aləmi ilə bağlanması və bu mövzuda çoxsaylı mifoloji rəvayətlər yaradıb yayması islam ideoloqlarına məlum olmuşdur. Ona görə də "şeytan əməli" ifadəsini təsadüfi saymaq olmaz.

Qaragüruhçu zehniyyətin musiqi alətinə – qopuza, daha sonra isə saza mənfi münasibət bəsləməsi və "şeytan

əməli” damğasıyla ona yasaqlayıcı mövqedən yanaşması müxtəlif zamanlarda el sənətkarları tərəfindən narazılıqla qarşılanmışdır. Onlar öz sənətlərinin halallığı, mənfi məzmunlu “şeytan əməli”ndən uzaqlığı barədə çoxlu şeirlər düzüb-qoşmuşlar. XVIII yüzilliyin Anadolu aşıqlarından Aşıq Dərdli qaragüruhçu-sxolastik “şeytan əməli” damğasına öz etirazını “Şeytan bunun nərəsində” sualı ilə bildirmişdir.

Telli sazdır bunun adı,
Nə ayət dinlər, nə qadı.
Bunu çalan anlar kəndi,
Şeytan bunun nərəsində?

Abdəst alsan, aldım deməz,
Namaz qılsan, qıldım deməz.
Qadı kimi haram yeməz,
Şeytan bunun nərəsində?

XIX əsrin görkəmli sənətkarı Aşıq Musa da eyni ovqat üstündə məşhur “Nə günahı telli sazın” gəraylısını söyləmişdir. Dillər əzbəri olan bu şeirdə sazın-sözün bakirəliyinə, saflığına bəraətlə yanaşı, ona hücum eləyənlərə qarşı ədalətli ittiham da var.

Yoldan çıxıb yolun azmır,
İblis kimi ara pozmur.
Molla kimi cadu yazmır,
Nə günahı telli sazın?..

Musa vəsfin söylər saza,
Ruh verir gəlinə, qıza,
Oxşamır o şeytanbaza,
Nə günahı telli sazın?

Hər iki şeirdə mənfi məzminlu “şeytan əməli” iddiasına qarşı dayanıldığı və “şeytan” kəlməsinin xüsusi şəkildə vurğulandığı aydınlıqla görünür. Qaragüruhçu zehniyyətin qopuz-saz ənənəsinə qarşı çıxmasına, dərin köklərə malik olan bu qədim duyum və düşüncə sistemini müxtəlif təqib-təzyiqlərə məruz qoymasına baxmayaraq, azad ruhlu türk elat həyat tərzi Qafqaz, İran və Anadoluda öz tarixi ənənəsini qoruyub saxlamışdır.

ŞEYTANBAZAR – Tiflisdə formalaşan mədəniyyət ocaqlarından biridir. Maarif və mədəniyyət ocaqları, saysız-hesabsız xırdavat dükanları, zərgərxanalar və s. Şeytanbazara bir rəngarənglik gətirmişdir. Şeyx Sənan dağ silsiləsinin

ətəkləri, Metex qalası, Şah Abbas məscidi bu qaynar mühitə bir əlavə özünəməxsusluq gətirmişdir. Paronbəyov və Halatov karvansaraları, çayxanalarda söylənən rəvayətlər, dastanlar, musiqi, türklərin “Qaragöz” tamaşa oyunları mədəni mühitə tarixi kolorit gətirmişdir. Burada xanəndələrin, aşıqların tarixi-mədəni fəaliyyəti də müşahidə edilmişdir.

Aşıqların “Şeytanbazarı məhəllə”sindəki çayçılarda çalıb-çağırması, bir çox ustad sənətkarların həmin məclis-

lərdə deyişmə meydanına çıxması xeyli sayda dastan-rəvayətin yaranmasına səbəb olmuşdur.

Ünsizadə qardaşları, M.Şahtaxtlı, C.Məmmədquluzadə, E.Sultanov, H.Səbri, H.Minasazov, Ü.Rəcəb, Ö.F.Nemanzadə və başqaları sonralar bu zəngin mühitə qoşulmuş və onun iştirakçısına çevrilmişlər. M.F.Axundovun evi də Şeytanbazarın yaxınlığında olmuşdur. Şey- tanbazarın bir mədəniyyət ocağı kimi mahiyyəti haqqında ədəbiyyatşünas alim professor Abbas Hacıyev geniş yazı yazmış, "Tiflis-Azərbaycan və Adıgün türk teatrı" (2006) kitabında vermişdir.

ŞƏFİLİ MƏHARƏT HABİL OĞLU (1992, Bakı, Qaradağ rayonu, Qobustan qəsəbəsi) - Aşıqlar Birliyinin üzvü (2016). Aşıq Xanmusanin yaninda sənətin sirlərini mənimsəmişdir. Beş il ustadın yanında şagird olmuşdur. "Dirili Qurbani" məclisinin üzvüdür. El şənliklərində, dövlət tədbirlərində uğurlu çıxışlar etmişdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə ali təhsil almışdır (2011-2015). Magistratura təhsillidir. Zəngin repertuarı və özünəməxsus ifa üsludu ilə diqqəti çəkir.

"ŞƏHRƏBANI" – aşıq havası. Baş pərdə kökündə ifa olunur. Qoşma xalq şeir formasındadır. Lirik, sevgi ovqatlıdır. Variant-kuplet forması əsasında yaranmışdır. Hava instrumental girişlə başlayır. Girişin mövzusu böyük seksta diapazonu çərçivəsində və əsas dayaq tonları əhatəsində inkişaf edir. Vokal melodiya improvizasiyalı səciyyə daşıyır və ənənəvi olaraq trixord intonasiyası çərçivəsində – şah pərdə-orta pərdə-baş pərdə hərəkəti üzərində yaranır. Məqam-səs sistemi Segaha uyğundur. Bəndin hər bir melomisrası müstəqil məna vahidi kimi vurğulanır və araçalğılarla birbirindən ayrılır. Melobəndin sonunda yardımçı söz və ifadələrin vasitəsilə yaranan müstəqil tamamlayıcı bölmə müşahidə olunur. Burada melodiyaya şah pərdənin üst aparıcı pilləsi də daxil olur, bunun nəticəsində havanın intonasiya məkanı böyüyür və tersiya-kvarta səs yüksəkliyi çərçivəsində inkişaf edir. Havanın son anında aşağı istiqamətli kvarta hərəkəti intonasiya məkanını Şura boyayır. Etnomusiqişünas T.Məmmədov tərəfindən nota köçürülmüşdür.

ŞƏHRİYAR MƏHƏMMƏDHÜSEYN HACI MİRAĞA OĞLU (1905, Təbriz – 1988, Tehran) – Azərbaycan şeirinin görkəmli nümayəndəsi. Uşaqlığı Xoşginab kəndində keçmişdir. İlk təhsilini Xoşginab kəndində molla İbrahimdən və molla Ağa Məhəmməd Bağırdan almışdır. Molla məktəbinə gedənə qədər yazıb-oxumağı atasından öyrənmişdir. Ailəsi ilə birgə Təbrizə köçmüş, "Füyuzat", "Müttəhidə" mədrəsələrində təhsilini davam etdirmişdir. Məktəb illərindən fars, ərəb və fransız dillərini mükəmməl öyrənmişdir. 1924-cü ildə Tehran universitetinin tibb fakültəsinə daxil olur. Şeirə böyük maraq göstərir. Universitet illərində Sürəyya



adlı bir qıza vurulur. "Behcət" təxəllüsü ilə şeirlər yazır. Sevdiyi qız Behcətabad məhəlləsində yaşayır və deyilənlərə görə, təxəllüs də ona görə seçilmişdir. 1925-ci ildə "Şəhriyaram" rədifli qəzəl yazır. Universitet illərində şeirləri Tehran qəzetlərində nəşr olunur. Ilk şeiri Məhəmmədiyə orta məktəbində oxuyarkən "Ədəb" jurnalında çap olunmuşdur. Universiteti yarımçıq qoymaq məcburiyyətində qalır. Nişapura sürgün edilir. Həmin vaxtlar "Həzin nalələr", "İntizar", "Əlim ətəyinə", "Köynəyin qoxusu", "Pəri" şeirlərini yazır. İlk şeirlər kitabı 1929-cu ildə nəşr olunmuşdur. 1935-ci ildə sürgündən Tehrana qayıdır. 1937-ci ildə Təbrizə getməyə icazə verilir. "Heydərbabaya salam" poemasını yazır. Əlyazma şəklində Təbrizdə və ətraf regionlarda yayılır. Anasının vəfatından kədərlənib "Ey vay anam" (1952) şeirini qələmə alır. Təbrizə gələrək Ziraət bankında işə girir (1953). Dostlarının, qohumlarının təkidi ilə 1953-cü ilin avqustunda bibisi Səyyarənin qızı Əzizə ilə evlənir. "Türkün dili", "Dərya elədim", "Oyun olduq", "İncisin", "Hara qaçsın insan" və s. şeirlərini Azərbaycan dilində yazır. Təbriz darülfünunun Vəhdət zalında anadan olmasının səksən illiyi (1984) təntənə ilə keçirilmişdir. "Heydərbabaya salam" poeması Türkiyədə ilk dəfə 1955-ci ildə "Azərbaycan" jurnalında nəşr olunmuşdur. Şəhriyar yaradıcılığı mahiyyət etibarilə xalq ruhuna, aşıq sənətinə bağlanır. Onun şeirlərində aşıq məclislərinin, ustad sənətkarların xatırlanması bunun ifadəsidir. "Heydərbabaya salam" poemasında "Aşıq Rüstəm sazın dilləndirəndə", "Aşıqların sazlarında sözüm var" və s. misraları sənətə verdiyi dəyərdir. 1993-cü il 31 mart – 6 aprel tarixlərində Bakıda Beynəlxalq Şəhriyar konqresi keçirilmişdir. Aşıq şeirinin ruhunu, türk şeir ənənəsinin davamlılığını və imkanlarını göstərmək üçün M.Şəhriyar yaradıcılığı əvəzsiz imkanlara malikdir.

"ŞƏQAYİ GƏRAYLI" – Bax: Gəraylı.

"ŞƏMKİR GÖZƏLLƏMƏSİ" – aşıq havası. Yarandığı yerin adı ilə bağlıdır. Aşıq Hüseyn Şəmkirlinin bəstəsi hesab edilir. "Gözəlləmə" havalar silsiləsinə aiddir. Baş pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını aşıq şeir forması olan qoşma təşkil edir. Vokal melodiya ənənəvi trixord intonasiyası – şah pərdə-orta pərdə-baş pərdə üzərində yaranır. İmpuls-səs olan şah pərdədən başlanğıc götürür. Qoşmanın misraları qoşa şəkildə ifa olunur, II və IV misralar yardımçı ifadələr və təkrarlar vasitəsilə genişlənir. Melobəndin sonunda IV misranın təkrarı koda tipli musiqi böl-

məsini yaradır və açıq simə keçməklə məqam modulyasiyası yaradır. Aşıq havaları üçün ənənəvi olan Şura keçidlə tamamlanır. Bəstəkar C.Hacıyev tərəfindən birsəsli şəkildə nota köçürülmüşdür.

ŞƏMKİRLİ HÜSEYN (1811, Şəmkir mahalı, Qapanlı kəndi – 1891, Gədəbəy, Ağbulaq yaylağı) – Şəmkir mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Ailələri bir qədər sonra həmin rayonun Qaracaəmirli kəndinə köçmüşdür. Ömrünün sonuna qədər Qaracaəmirli kəndində yaşayan sənətkar səksən yaşında Gədəbəyin Ağbulaq yaylağında vəfat etmiş və Qalakəndin qəbiristanlığında dəfn edilmişdir.

Aşıq Hüseyn saz çalmağı, aşıqlığı Alabaşlı kəndindən olan, «Məcnun» təxəllüsü ilə şeirlər yazan Kəblə Bağır adlı bir dəmirçidən öyrənmişdir.

Aşıq Hüseyn ərəb, fars və türk dillərində mükəmməl təhsil görübmüş. Deyildiyinə görə, o, on il Yaxın Şərq ölkələrini gəzmişdir. Savadlı olduğunu, çoxlu mənbələr oxuduğunu Aşıq Hüseyn özü də şeirlərində, ayrı-ayrı bənd və beytlərində xatırlatmışdır.

Aşıq Hüseyn saza dərindən bələd olduğu üçün aşıq şeirinin bütün forma və şəkillərindən bacarıqla istifadə edə bilmiş, eyni zamanda üçbaşlı təcnisin ilkin nümunəsini yaradıb meydana çıxarmışdır:

İbtida əlifdən dərsim alanda,
Göstərdilər mənə nə qara yaxşı.
Oxudum dərsimi hər ayə qərəz,
Yox aşıq hər ayinə,
Xalların hərayi nə?
Aşıq Söyün nə dedi,
Dost yetdi hərayinə?

Görsə canım, bəyənməz hər ayinə,
Səyrəqib geyinsin, nə qara yaxşı,
Naləsi yetişsin həraya qərəz.

Aşıq Hüseynin şeir dili obrazlıdır, təsvir və tərənnüm üslubu özünəməxsus çalarlarla zəngindir. İncə lirizm və əlvan bədii boyalarla işlənmiş canlı lövhələr onun qoşma və gəraylılarında könüloxşayan bir gözəllik yaradır.

Aşıq Hüseyn Göyçə mahalına getmiş və orada Aşıq Ələsgərlə görüşmüş, səmimi qurulmuş məclisdə hər iki sənətkar «Mərd» rədifi üstündə divani söyləmişdir.

Şəmkirli Hüseyn saz-söz aləmində dastan yaradıcısı kimi daha böyük şöhrət qazanmışdır. «Aşıq Hüseyn və Reyhan xamm», «Aşıq Hüseyn və Bəyçoban» dastanları onun bədii təxəyyülünün məhsuludur. «Aşıq Hüseyn və Reyhan xanım» dastanı, bəzi aşıqlar tərəfindən «Aşıq Hüseynin Naxçıvan səfəri» adı ilə də ifa olunur. XVIII əsrdə Aşıq Valeh Dərbənd səfəri zamanı ustadı Aşıq Səməddən, sevgilisindən, anasından, dağlardan icazə alıb «halal, hümmət» elədiyi kimi, Aşıq Hüseyn də Naxçıvan səfəri ərəfəsində ustadı Kəblə Bağırdan, anası Xeyransadan, arvadı Bəstidən xeyir-dua alıb sonra yola düşür. Aşıq Hüseynin Reyhan xanımın məktubuna yazdığı cavab onun ədəbi irsi barədə ətraflı məlumat verir:

Ey nazənin, namən gəldi yetişdi,
Qədəm qoyub o meydana gəlirəm.
Aşıqlıq elmindən xəbərdaram mən,
Xəbər eylə hər bir yana, gəlirəm.

Altı yüz varımdı divani, təcnis,
Yeddi yüz müəmma, qıfılbənd, təxmis.
Səksən bəhri-təvil demişəm hərgiz,
Yük bağlayıb Naxçıvana gəlirəm.

Təssüf ki, bu sadalanan bədii xəzinənin bu gün az bir qismi əldədir.

Aşığın yaratdığı hər iki dastan klassik dastançılıq ənənəsinin tələblərinə uyğun biçimdədir. Səfər təəssüratı və yol hadisələri ətrafında qurulmuş süjetin başlıca istiqaməti Aşıq Hüseynin poetik istedadının gücünü, bədahətən şeir demək qabiliyyətini, dərin dini-fəlsəfi və aşıqlıq biliyinə malik olduğunu nümayiş etdirməkdir.

Aşıq Hüseynin şeirləri real zəminlə, doğulub böyüdüyü coğrafi ərazi ilə canlı insanlarla, tanıyıb-bildiyı adamlarla bağlıdır. Ona görə də onun düzüb-qoşduqları təbii görünür, təbii səslənir və aradan böyük zaman məsafəsi ötüb keçsə də, öz təsir gücünü qoruyub saxlayır.

Aşıq Hüseyn söz xiridarı, dastan yaradıcısı olmaqla yanaşı, həm də havacat bəstələyən ustad kimi ad-san qazanmışdır. Bu günümüzdə də aşıqların repertuarında möhkəm yer alan və saz bağrında əbədi yuva bağlamış «Aşıq Hüseyni» («Dastanı»), "Dilqəmi", «Sarayı», «Şəmkir gözəlləməsi», «Zeynalabdini» adlı havalar onun bəstəçi barmaqlarının yadigarıdır.

Aşıq Hüseyn Şəmkirlinin zəngin poetik irsi heç də bütünlüklə hifz olunub saxlanmamışdır. Hazırda əldə olanlar aşıq repertuarında yaşayanlardır. Aşığın oğlu atasının əlyazmalarının çap olunması üçün otuzuncu illərdə Vəli Xuluflu tərəfindən Bakıya aparıldığını söyləmişdir. Görünür, 1937-ci ildə V.Xuluflu həbs edilərkən həmin əlyazmalar da təhlükəsizlik orqanları tərəfindən götürülmüş və olsun ki, məhv edilmişdir.

Hüseyn Şəmkirlinin aşıq repertuarından və el yaddaşından toplanmış şeirlərini müxtəlif illərdə çeşidli toplular içərisində və ayrıca kitab halında V.Xuluflu, H.Əlizadə, Ə.Axundov, H.Arif, R.Rüstəmzadə və N.Məmmədova nəşr etdirmişlər. Folklorşünas Nazilə Məmmədova "Aşıq Hüseyn Şəmkirlinin poetik irsi" mövzusunda dissertasiya müdafiə etmişdir (1993).

"ŞƏMŞİRİ" – aşıq havası. Əməkdar incəsənət xadimi, ustad sənətkar Şəmşir Qocayev tərəfindən yaradılmışdır. Baş pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını aşıq şeir forması olan qoşma təşkil edir. Mətnin sözləri aşıq Şəmşirə aiddir. Havanın strukturunda variantlı kuplet formasının əsas xüsusiyyətləri özünü göstərir. Kadensiya əhəmiyyətli, özəl musiqi motivini özündə daşıyan vokal melodiya kökə uyğun olan ənənəvi trixord intonasiyası – şah pərdə-orta pərdə-baş pərdə üzərində yaranır. İmpuls – səs şah pərdədən başlanğıc götürür. Melodiya inkişaf edərək kök pərdə zilinədək yüksəlir. Həzin, lirik ovqatlıdır. Məqam-səs sistemi Segaha uyğundur. Melodiyada alterasiyalı tonun – baş pərdənin alt aparıcı tonunun (yarımtonlu) müşahidə olunması havanın daha yaxın dövrlərdə yaranmasının və "Zabul segah"ın təsirinin nəticəsidir. Dəqiq metr-ritmik ölçüyə malik olaraq, "mahnıvarı" havalar qrupuna aiddir. İ.İmamverdiyev tərəfindən instrumental şəkildə nota salınmışdır.

ŞƏRXƏTA TƏCNİS – konkret olaraq belə bir təcnis çeşidi mövcud deyildir. Bununla belə, öz sənət biliyinə güvənən aşıqlar, adətən, qarşıdakı tərəfə hərbə-zorba, hədə-qorxu gəlmək üçün "çəkərəm səni şərxəta təcnisə" deyimi ilə müraciət edirlər. "Şərxəta təcnis" adı altında "Nəfəsçəkmə - gedər – gəlməz, gələr – getməz yedəkli təcnis", "Dodaqdəyməz cığalı təcnis", "Əvvəl-axır zəncirləmə təcnis", "Qıfılbənd təcnis" kimi mürəkkəb təcnis çeşidləri nəzərdə tutulur. Bir sıra aşıq bölgələrində "şərxəta təcnis" əvəzinə "şərxətayi təcnis" ifadəsi də işlədilir.

ŞƏRİƏT – təsəvvüfdə Haqqa doğru yüksəlişin ilkin pilləsidir. Şəriət Allah tərəfindən vəhy vasitəsilə islam peyğəmbərinə çatdırılan və Həzrəti Məhəmmədin bəşər övladına bəyan etdiyi dini, mənəvi, əxlaqi hökmlər, buyruq və göstərişlərdir. Belə ki Allah bəndəsi olan qul maddi dünyada necə yaşamalı, Tanrı qarşısında öz borcunu necə yerinə yetirməli, hansı etiqada yiyələnməli, mənəvi-əxlaqi cəhətdən hansı yolla getməlidir kimi məsələlər özünün ifadəsini şəriətdə tapmışdır. Beləliklə, şəriət hökmlər toplusudur. Allahın buyurduğu, peyğəmbərlərin xəbər verdiyi qanun-qaydaların, əməli fəaliyyətlə bağlı göstərişlərin, rəftar və davranış normaları ilə əlaqədar buyruqların məcmusudur.

"ŞƏRQ KONSERTLƏRİ" – XX əsrin əvvəllərində Azərbaycan musiqiçilərinin səhnədə bədii baxımdan tərtib olunmuş ilk çıxışları. Konsert proqramlarının tərtibatçısı Ə.Haqverdiyev olmuşdur. Proqrama xanəndələrin, sazəndə və aşıq dəstələrinin çıxışları, o cümlədən musiqili səhnəciklər və rəqs nömrələri daxil idi. İlk "Şərq konserti" 1901-ci ildə Şuşa şəhərində Ə.Haqverdiyev tərəfindən təşkil olunmuşdur. Ə.Haqverdiyev ilk dəfə olaraq səhnəyə 12 nəfərdən ibarət sazəndə qrupu, xor dəstəsi çıxarmış, "Azərbaycan toyu" adlı tamaşa hazırlamışdır. Bu konsertdə məşhur xanəndə və sazəndələrlə yanaşı, Gülablı aşıqları Abbasqulu və Nəcəfqulunun dəstəsi böyük uğurla çıxış etmişdir. 1902-ci ildə həmin konsert proqramı Bakıda keçirilmiş "Şərq konsert"lərində təkrar olunmuşdur (Z.Tağıyev teatrı, 12 və 23 yanvar). Qorunub saxlanılmış afişaya və "Kaspi" qəzetində çıxmış rəyə əsasən məlumdur ki, konsert proqramı 4 hissədən ibarət olmuş, II hissə bütünlüklə Aşıq Abbasqulunun çıxışına həsr olunmuş, həmçinin hər hissədə aşıq dəstəsi (Aşıq Nəcəfqulu) iştirak etmişdir. Daha bir afişa isə 1903-cü ildə təşkil olunmuş "Şərq konsertləri"nə aiddir. Bu konsertdə də eyni aşıqlar solo və dəstə ilə birlikdə el nəğmələrini və "Şikəstə" havasını ifa etmişlər. Bu dövrdə keçirilən "Şərq gecələri" "konsert"lərlə müqayisədə tərkib etibarilə daha geniş və müxtəlif olmuşdur. "Şərq gecələri"nə ifaçıların çıxışları ilə yanaşı, kiçik həcmli teatr tamaşaları və kollektiv rəqslər daxil edilmişdir. İlk "Şərq gecəsi" 1907-ci ildə, daha sonra 1915-ci ildə Bakıda təşkil olunmuşdur. Həmin gecələrdə də Aşıq Abbasqulu və Aşıq Nəcəfqulu öz dəstəsi ilə birlikdə (Həşim, Heydər və məşhur balabançı Həsən) çıxış etmişlər. Azərbaycan musiqiçiləri və aktyorlarının "Şərq konsertləri" adı altında keçirilən ilk səhnə çıxışları musiqi mədəniyyəti tariximizdə mühüm bir mərhələ yaratmışdır.

"ŞƏŞƏNGİ" – aşıq mahnısı. "Şəşəngi" havalar silsiləsinə aiddir. Şirvan aşıq mühitində yaranmışdır. Poetik mətnin əsasını aşıq şeir forması olan gəraylı təşkil edir. Gəraylı havalarına xas olduğu kimi "Şəşəngi" də oynaq, şən ovqatlıdır. Sözün kökü də "şeşələnmək" – qürurlanmaq, coşmaq, cuşə gəlmək anlamı ilə bağlıdır. Tatarlarda çalıb-çağıran sənətkara "şeşən", "çeşən" deyilir. Dəqiq ölçüyə malik metr-ritm özəyi də tipikdir: sinkopalı başlanğıca malik melodiya gəraylı havalarının özəl xüsusiyyətidir. Kiçik instrumental girişlə başlayır və saz çalğısı müşayiət vəzifəsi daşıyır. Gəraylının hər bir misrası təkrar olunur və iki-iki – qoşa şəkildə oxunur və instrumental araçalğılarla bir-birindən ayrılır. Son bölmə təkrarlar vasitəsilə genişlənir. Şəşəngi havasının strukturunda kuplet forması özünü göstərir. Etnomusiqişünas T.Məmmədov tərəfindən nota köçürülmüşdür.

ŞIXLİNSKİ MUSTAFA (MUSTAFA TƏKƏLİ) QARNET OĞLU (1929, Qazax rayonu, Şıxlı kəndi – 2003, Borçalı mahalı, Təkəli kəndi) – Erkən yaşlarından aşıq sənətinə maraq göstərmişdir. Təkəli kəndində yaşadığı üçün "Təkəli" imzası ilə yaşayıb-yaratmışdır. Gənc yaşlarında Mustafa Borçalı mahalının Təkəli kəndinə köçmüşdür. Aşıqlığın sirlərini, ustadların yaradıcılığını da sistemli şəkildə orada öyrənmişdir. Borçalıda və ətraf bölgələrdə bir sənətkar kimi tanınmışdır.

ŞIMPIRLI MAHMUD (təxminən XVII əsrin ortaları, Göyçə mahalı, Şımpır obası – Türkiyə) – Haqqında müxtəlif səpkili hadisə, əhvalat dolaşmaqdadır. Sevgili adlı bir qızı sevmişdir. Hətta belə rəvayət edirlər ki, Sevgili onun həqiqi adı da olmamışdır. Sadəcə olaraq, Mahmud onu sevdiyi üçün şeirlərində belə təqdim etmişdir. Lakin onun bu sevgisinə mane olanlar olmuşdur. Mahmud bir neçə il Şımpırı tərk etmək məcburiyyətində qalmışdır. Türkiyəyə köçən həmkəndlilərinə pənah aparmışdır. Bir müddətdən sonra yenidən doğma kəndlərinə qayıtmışdır. Danışılan söhbətlər, şayiələr onun birdəfəlik vətənini tərk etməsinə gətirib çıxarmışdır. Yüz ilə yaxın ömür yaşamışdır. Haqqındakı əhvalatlar dastanlaşmışdır. Təəssüf ki, bunlar tam şəkildə əldə yoxdur. Ancaq müəyyən nümunələr, parçalar xalq arasında yaşamaqdadır.

ŞIMPIRLI SEVGİLİ (təxminən XVII əsr, Göyçə mahalı, Şımpır kəndi) – Şımpır Göyçə mahalında Babacanla Cilin şimalında kənd olmuşdur. Ermənilər 1896-1897-ci illərdə həmin kəndi dağıtmış, əhali Türkiyəyə köçmüşdür. Xalq arasında Şımpırlı Sevgili ilə bağlı müxtəlif əhvalatlar, hadisələr danışılır. Söylənilənlərə görə, sevgilisinə sədaqət anlamında ona Sevgili adı vermişlər. Bəlkə də, həqiqi adı başqa olmuşdur. Mahmud adlı bir gənclə istəkli olmuş, lakin onlar ailə qura bilməmişlər. Mahmud bir müddət Türkiyəyə getmiş və təkrarən geri qayıtmışdır. Həmin qayıdışla bağlı şeirlər, Şımpırlı Sevgili ilə Mahmudun deyişməsi də var. Bunun ən məhşuru "Mahmud, xoş gəldin, xoş gəldin" misralı şeirdir. Düşmən fitnəsi onun

təzədən Türkiyəyə qayıtmasına səbəb olmuşdur. Sevgili isə ömrünün axırına qədər tək-tənha yaşamışdır. Həmin əhvalat xalq arasında dastanlaşmış və uzun müddət yaşamışdır. İndi ancaq müəyyən epizodlar, şeir nümunələri yaddaşlarda yaşayır.

"ŞİKƏSTEYİ-FARS" – 1. Segah məqamının bölməsi. Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" əsərində əsası qoyulan məqam-səs sistemində Segah məqamının (mi Segah) ən səciyyəvi bölmələrindən biri. Məqamın əsas tonunun kvintası – sol – "Şikəsteyi-fars" bölməsinin istinad pilləsidir. Bölməyə aid olan musiqi nümunələrinin melodik özəyində qəliblənmiş formul əhəmiyyəti daşıyan trixord intonasiyası – əsas tonun kvintası-mayənin üst aparıcı tonu və mayə (g-f-e) və xalis kvinta həcmində aşağı enən hərəkət xətti (g-f-e-d-c) dayanır. Bu formullar aşıq şikəstələrinin melodik-intonasiya özəyini təşkil edir. Aşıq şikəstələri sazın baş pərdə kökündə ifa olunur və melodik özək, köklə bağlı olaraq, eyni trixord (şah pərdə-orta pərdə-baş pərdə) və pentaxord (şah pərdə-orta pərdə-baş pərdə-boş pərdə-kök pərdə) hərəkətləri üzərində yaranır. Bu cəhət, eyni zamanda, tarın "Mirzə Hüseyn segahı" kökü və sazın baş pərdə kökü arasında olan eyniliklər Segah məqamının və baş pərdə kökünün monodik məqamını bir-birinə yaxınlaşdırır. Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları üzrə materiallar" əlyazmasında, Segahın bir hissəsi olan Şikəstə əlavə məqamını tərtib etmiş və şikəstələrin musiqi quruluşundan çıxış edərək səsqatarını, uyğun olaraq dayaq tonlarını müəyyənləşdirmişdir ***(Bax: Əlavə məqam.)*** Bu baxımdan "Şikəsteyi-fars" bölməsini formalaşdıran bütün parametrlər "şikəstə" məqamına uyğun gəlir (Şikəstə əlavə məqam olaraq "Azərbaycan xalq musiqisinin əsasları" əsərinə daxil edilməmişdir). Tutarlı dəlillərdən biri də odur ki, tar alətinin III pərdəsi – "Şikəsteyi-fars" və sazın II pərdəsi – baş pərdə eyni tona – re1 tonuna istinad edir. 2. Muğam şöbəsi. "Mirzə Hüseyn segahı", "Rast", "Orta Mahur", "Mahur-hindi", "Bayatı-Qacar", "Şur", "Rahab", "Dügah", "Xaric segah" muğam-dəstgahlarının tərkib hissələrindən biri. Bu muğamların tərkibində oxunan "Şikəsteyi-fars" şöbələrinin melodik-intonasiya özəyi eynidir (Ş.Mahmudova, 1997). "Şikəsteyi-fars" "Segah" muğamının, uyğun olaraq, məqamının ən əsas melodik-səs quruluşunun, ən başlıcası, "əsas ruhu"nun və Azərbaycan milli musiqisinin "ana" intonasiyalarının daşıyıcısıdır. Bu səbəbdən "Şikəsteyi-fars" yuxarıda adı çəkilən muğamlarımızın tərkibinə daxil olmuş, onlara milli məzmun, özəl boyalar qatmış və əsl doğma "bəzəyi"nə çevrilmişdir. Adı və daxili məzmunu birbirilə təzad təşkil edir."Azərbaycan xalq musiqisinin əsasları üzrə materiallar" əlyazmasında Ü.Hacıbəyli "Şikəsteyi-fars"ı şikəstənin bir növü kimi dəyərləndirmişdir. Ehtimal olunur ki, şikəstələr xanəndə yaradıcılığına daxil olarkən, fars dilində və farssayağı oxunmuş, "Segah" mayəsini dəqiq ifadə etməyən beşsimli tarda çalınmış və bu səbəblərdən, ola bilsin ki, farssayağı səslənmiş və "Şikəsteyi-fars" adı altında formalaşmışdır. Bu ad XIX əsrin ikinci yarısında Azərbaycanda yaranmışdır. Adın formalaşmasında fars izafətinin

Azərbaycan dilinə, musiqi elmi terminologiyasına daxil olması da önəmli rol oynamışdır. Şərq xalqlarının muğam ənənələrində, elmi mənbələrdə bu adda muğam və ya şöbəyə rast gəlinmir.

ŞİKƏSTƏ – musiqi janrı. Azərbaycan xalq yaradıcılığında şikəstələrin xüsusi yeri vardır: şikəstə-ağı, şikəstə-bayatı, aşıq şikəstəsi, şikəstə-zərbi-muğam, şikəstə-şöbə, şikəstə-məqam. 1. Aşıq havaları içərisində bütöv bir silsilə yaradan havalar qrupu: klassik aşıq şikəstələri – "Kərəm şikəstəsi", "Badamı şikəstə", "Zarıncı şikəstə", "Mirzəcani şikəstə" və s. Sazın baş pərdə kökündə ifa olunur. Reçitativ-deklamasiya tipli havalar qrupuna aiddir. Vokal melodiya ənənəvi trixord intonasiyası – şah pərdə-orta pərdə-baş pərdə üzərində inkişaf edir. Kiçik intonasiya özəyi əsasında yaranmasına baxmayaraq, bütün şikəstələr müxtəlifdir və biri digərini təkrarlamır. Azərbaycan musiqisinin zəngin improvizasiya imkanları nəticəsində yeni şikəstələr yaranmış, həmçinin yerli mühitin səciyyəvi xüsusiyyətləri, poetik mətnin dəyişməsi, müxtəlif ifaçılıq ənənələri, fərdi ifaçılıq mədəniyyəti və vərdişləri çoxlu sayda variantların meydana gəlməsinə səbəb olmuşdur. Aşıq şikəstələrinin poetik əsasını, əsasən, qoşma və bayatılar təşkil edir. Qeyd edək ki, aşıq şikəstələri və "yedək"də oxunan bayatıların melodik-intonasiya, metr-ritmik özəyi və məzmunu eynidir. Bu havaların semantik məzmununda "ağı" intoneması üstünlük təşkil edir. Son dövrlər Şirvan aşıq mühitində geniş yayılan havalar içərisində şikəstələr özünəməxsus yer tutur: "Şirvan şikəstəsi", "Sarıtorpaq şikəstəsi", "Qobustan şikəstəsi", "Qocaman şikəstə" və s. Güney Azərbaycan aşıq mühitlərində də çox sayda şikəstələr oxunmaqdadır: "Qaradağ şikəstəsi", "Zəncançay şikəstə", "Xalxalı şikəstə" və s. 2. Zərbi-muğam tipli havalar qrupu: "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" və s. aşıq şikəstələrindən qaynaqlanır. Azərbaycan xanəndələri tərəfindən böyük sənətkarlıqla yaradılmış və zərbi-muğamların forma və quruluşunu əldə etmişdir. Poetik mətnin əsasını bayatı təşkil edir. Xanəndə yaradıcılığında çox sayda variantları meydana gəlmişdir. Vokal melodiyanın ümumi məzmun çaları, kədər-hüznlü ovqatı, improvizasiyalı xasiyyəti, ortaq olan kiçik melodik-intonasiya motivi bütün şikəstələri bir-birinə bağlayır, qəliblənmiş vokal ifaçılıq üslubu mahiyyəti daşıyaraq bütün şikəstələri ümumi halqada birləşdirir.

ŞİMŞƏK ƏSMA (1964, Türkiyə, Osmaniyə) – folklorşünas, professor. Xalq ədəbiyyatının tədqiqatçılarındandır. Elmi çalışmaların mühüm bir hissəsini aşıq yaradıcılığı, ustadların sənətinin tədqiqi ilə bağlı araşdırmalar təşkil edir. Atatürk Universitetində, daha sonra Firat Universitetində müxtəlif vəzifələrdə işləmişdir. Hazırda Elazıx Firat Universitetində xalq ədəbiyyatı bölümünün rəhbəridir. Azərbaycan aşıq ədəbiyyatı ilə yaxından məşğul olan araşdırıcıdır. "Azəri türk

xalq şairi Molla Cuma” (1985), “Aşıq sənətində Aşıq Veysəlin yeri” (2013), “Azərbaycan aşıqları və el şairləri”. I-II cildlər (S.Sakaoğlu və A.Ə.Beratla birlikdə, Türkiyə, 1985, 1986), “Azərbaycan aşıqları və xalq şairləri antologiyası (XVI-XVIII əsrlər)” (S.Sakaoğlu və A.A.Beratla birlikdə, Türkiyə, 2000) kimi dəyərli əsərləri vardır.

ŞİRİNOV NİZAMİ ƏMİRASLAN OĞLU (1954, Laçın rayonu, Qarakeçdi kəndi – Ağcabədi rayonu, Taxtakörpü qəsəbəsi)– Laçın bölgəsinin yetişdirdiyi



istedadlı sənətkarlardandır. Qəmkeş Allahverdidən sənət dərsi almışdır. Otuz il ustadı ilə bir yerdə məclislər aparmışlar. Özbəkistan, Türkiyə, İran Gürcüstan və s. ölkələrdə sənəti layiqincə təmsil etmişdir. Ustadı Qəmkeş Allahverdi ilə deyişmələri xalq arasında geniş yayılmışdır. “Abbas və Gülgəz”, “Qurbani”, “Alıxan və Pərixanım”, “Koroğlu” dastanları repertuarında geniş yer tutur. Zil və şaqraq səsi vardır. “Koroğlu” havalarının mahir ifaçısıdır. “Fəxri Mədəniyyət işçisi” adına layiq görülmüşdür (2018).

ŞİRİNZADƏ ŞİRİN MAYIL OĞLU (1982, Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonu, Gömür kəndi) – Musiqiçilər ailəsində anadan olmuşdur. Babası balaban, atası qarmon ustası kimi Naxçıvan mahalında tanınmışdır. Gömür kənd orta məktəbində oxuduğu illərdə, qonşu Kolanı kənd Uşaq Musiqi məktəbində saz sinfində təhsil almışdır. Musiqi məktəbində Aşıq Zülaldan sənətin sirlərini mənimsəmişdir. 2009-cu ildən

2019-cu ilə qədər Kolanı kənd Uşaq Musiqi Məktəbində müəllim işləmişdir. Türkiyə, İran, Tacikistan və bağqa ölkələrdə uğurlu çıxışları ilə tanınır. Zəngin musiqi repertuarı vardır. İstedadlı solosaz ifaçısıdır. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür (2017).

“ŞİRVAN” – aşıq mahnısı. Şirvan aşıq mühitində yaranmışdır. Musiqisi və sözləri Aşıq Şərbət Fətiyevə aiddir. Qoşma qəlibi qzərində biçimlənmişdir. Mahnı gümrah, şən, lirik-xoş ovqatlıdır, yurda, təbiət gözəlliklərinə sevgini ifadə edir. Oynaq ritmli, orta templidir (8/6 ölçüsündədir). Şur məqamına əsaslanır. Əsas melodiyası sadə, səmimi, yaddaqalan və kiçik diapazonludur (b3). Üslub baxımından xalq havalarına yaxındır. Kuplet formasında yazılmışdır. Ansambl tərəfindən ifa olunur (aşıq-saz, 2 balaban, nağara və qoşanağara).

ŞİRVAN AŞIQ MÜHİTİ – Ərazi əhatəsinə görə ən irimiqyaslı mühitlərdən biri sayılan Şirvan aşıq mühiti özünəməxsus ifaçılıq və yaradıcılıq yolu keçmişdir. Bu, Azərbaycan aşıq sənətinin bölgə keyfiyyətlərinə görə ən çox seçilən mühitidir. Oxu və çalğı üslubunda xanəndə tərzini qabarıq görün-

tülərlə əks etdirdiyinə görə Şirvan aşıq mühitinin musiqi repertuarı ənənəvi aşıq repertuarından xeyli dərəcədə fərqlidir. Belə ki, bu mühitdə aşıq tərzi ilə xanəndə tərzinin qovuşuğu olan "Pişrov" havaları (on ikiyə yaxın belə hava var), "Şikəstə"lər (doqquz şikəstə havası mövcuddur), "Şəşəngi"lər (sayı üçdür) müşahidə edilir ki, həmin havalar sırf bölgə səciyyəlidir. Adı çəkilən havaların saz-balaban-nağara və qoşanağara müştərəkliyi olmadan tək sazla – solo şəklində ifasının mümkün olmaması da havanın məhz aşıq tərzi ilə xanəndə tərzinin sintezindən yarandığını göstərir. Bununla belə, Şirvan aşıqlarının musiqi repertuarında yerli havalarla yanaşı, bütövlükdə Azərbaycan aşıq sənətinə məxsus olan klassik saz havaları ("Müxəmməs", "Dübeyti", "Kərəmi", "Koroğlu" havaları və s.) da mühüm yer tutur.

Musiqi repertuarından fərqli olaraq Şirvan aşıq mühitinin saz repertuarı digər mühitlərdən regional əlamətlərlə seçilmir. Ənənəvi klassik aşıq dastanları, eləcə də saz-söz üstadlarının poetik irsi burada da söz yükünün əsasını təşkil edir. Bir sıra hallarda bəzi dastanların ("Abbas-Gülgəz", "Xəstə Qasım", "Alıxan-Pərixanım", "Şah İsmayıl" və s.) süjet xəttində variant dəyişiklikləri nəzərə çarpır ki, bu da aşıq mühitlərinin əksəriyyəti üçün səciyyəvidir və folklor mətninin şifahi şəkildə mövcudluğundan irəli gələn təbii bir haldır. Maraqlıdır ki, Şirvan aşıq mühiti kənardan gələn təsir nəticəsində saz havalarının tarixi-melodik axarının dəyişiklik keçirərək yeni məcraya yönəlməsinə yol verdiyi halda, söz repertuarının qorunmasında kəskin mühafizəkarlıq nümayiş etdirir. Mühitdəki söz repertuarının çağdaş mənzərəsi göstərir ki, Azərbaycan aşıq sənətinin tarixi təşəkkülündə mühüm rol oynayan "Yetim Aydın", "Göyçək Rza", "Seyfəlmülük", "Seydi-Pəri", "Adıgözəl" kimi rəmzi-ürfani dastanlar başqa mühitlərdə arxaikləşərək işləkliyini itirsə də, Şirvan aşıqları tərəfindən indi də söylənilir. "Qurbani" dastanının orta çağ təsəvvüf simvolikası ilə zəngin olan

Zəncan versiyasının Şirvanda qorunması da mühitin klassik aşıq repertuarına mühafizəkarlıqla yanaşmasından irəli gəlir.

Şirvan regionu orta yüzilliklərdə sufı-dərviş ocaqlarının, təkkə-təriqət ənənəsinin geniş yayıldığı ərazilərdən biri olduğu üçün orada aşıq sənətinin təşəkkül taparaq güclü inkişaf keçirməsinə münbit mədəni-tarixi şərait mövcud olmuşdur. Əsasən, sufi şeyxlərinin qəbirlərindən ibarət olan Şirvan pir-ocaqlarının çoxsaylılığı və bu ocaqlara əhalinin əksər hissəsinin sidq-ürəkdən tapınması mahalda təkkə-təriqət sisteminin tarixi gücü barədə müəyyən təsəvvür verə bilir. Təkkə kökənli digər aşıq mühitləri kimi Şirvan aşıq mühiti də öz təşəkkül prosesini bu sistem daxilində keçirmişdir. Şirvan aşıqlarının rəqsə – ekstatik hərəkətlərə güclü meyil göstərməsi, ifa zamanı coşqun templi çalğı və oxuya üstünlük verməsi, habelə musiqi alətləri topluluğunun saz, balaban, qoşanağara və s. müşayiətinin sənət normativinə çevrilməsi təkkə mərasimlərindən qalma əlamətlərdir.

Qonşuluqdakı Qarabağ və Gəncəbasar mühitlərinə nisbətən bir qədər aralı məsafədə dayanan Güney Azərbaycan mühitlərinə, xüsusən də Qaradağ-Təbriz əhatəsindəki aşıq mühitinə yaxınlıq və bağlılığın tarixi-estetik səbəbi nədir? Qaynaqlardan əldə edilən bilgilərə əsaslanaraq bu barədə aşağıdakı mülahizələri yürütmək mümkündür:

Qaradağ-Muğan-Şirvan xətti boyundakı coğrafi şərait gediş-gəliş üçün əlverişli imkan açmışdır. Buna görə də həmin bölgələrin iqtisadi və mədəni həyatı, o sıradan da aşıq mühitləri birbiri ilə yaxından bağlı olmuşdur.

Səfəvilər zamanında Təbriz-Şirvan münasibətlərini nizamlamaq üçün həyata keçirilən demoqrafik tədbirlər – Azərbaycanın Güneyindən bir qisim tayfa və elatların köçürülərək Şirvanda yerləşdirilməsi də öz həlledici təsirini göstərmişdir. Həmin tayfa və elatlara mənsub olan aşıqlar güneydəki aşıq mühtlərinə məxsus ifaçılıq ənənəsini və söz repertuarını özləri ilə gətirərək Şirvanda yaymışlar. Hazırda Şirvanm əsas aşıq kəndləri sırasında öndəki yerlərdən birini alan Şamlı, Carlı-Cəyirli, Kolanı, Padar, Quşçu, Təklə və başqa kəndlər Səfəvilər zamanında Güneydən Şirvana köçürülən tayfa və elatların adlarını daşıyırlar.

Şirvan aşıq mühiti Şirvan bölgəsi hüdudlarından xeyli kənara da nüfuz etdiyindən onun əhatə dairəsini ad götürdüyü mahalla çərçivələmək mümkün deyildir. Belə ki, Muğan bölgəsinin – Salyan, Sabirabad, Biləsuvar və başqa bu kimi ərazilərin aşıq sənəti də ifaçılıq keyfiyyətlərinə görə Şirvan aşıq sənətinin tərkibinə daxildir. Maraqlıdır ki, bir çox hallar Şirvan aşıq mühitindəki sənət həyatının coşqunluğunu Salyan aşıqlarının ifaçılıq və sənətkarlıq məharəti təmin etmişdir. Bu baxımdan Şirvan aşıq mühiti geniş anlam kəsb edir.

Təşəkkül dövründən üzü bəri Şirvan aşıq mühiti yüzlərlə saz-söz sənətkarı yetirmişdir. Bəzən Şirvan aşıqlığının ilk azman siması kimi Şirvanlı Molla Qasımın adı önə çəkilir. İlk dəfə ədəbi kimliyi və şeirləri Salman Mümtaz tərəfindən 1926-cı ildə təqdim edilən Şirvanlı Molla Qasımın Şirvan mühitinə bağlılığı o qədər də inandırıcı deyildir. Salman Mümtaz Yunis Əmrənin bir şeirində "Molla Qasım" adını çəkməsinə

və ondan ehtiyat etməsinə istinad edərək Molla Qasımın XIII yüzillik çevrəsində yaşadığını güman etmişdir:

Dərviş Yunis, bu sözü əyri-büyrü söyləmə,
Səni siynəyə çəkər bir Molla Qasım gəlir.

Molla Qasımın cüng və ya təzkirələrdə qüdrətli sənətkar kimi adının keçməməsi onun nəhəng ədəbi şəxsiyyət (özü də Yunis Əmrəni sınağa çəkə bilən) olmadığını göstərir. Burada bir məsələnin də üstündə durmaq lazım gəlir "Molla" sözü və ad-titulu Azərbaycan və Anadolu arealında nə zamandan işlənir? Ərəbcənin "müəlla" (Allahı tanıyan, bilən) kökündən olan "molla" sözünün sözügedən areallarda XV yüzillikdən öncə işlənmədiyi görünməkdədir. Bu səbəbdən də Salman Mümtazı çaşdıran "Molla Qasım" məsələsi heç cür Yunis Əmrə zamanına düz gəlmir. Şeirdə adı keçən "Dərviş Yunis" də Yunis Əmrə yox, XV əsrə aid olan Aşik Yunisdir.

Əldə olan bilgiyə görə Şirvan aşıqlığının ilk tanınmış nümayəndəsi olan Şirvanlı aşıq Dostunun XVI-XVII yüzillikdə yaşadığı təxmin edilir. XVII-XVIII yüzilliklər arasında Şamaxıda Aşıq Baba Şirvani, Aşıq Rüstəm, Aşıq Saleh kimi ustad sənətkarlar şöhrət qazanmışlar. XIX yüzillikdə Şamaxı, Ağsu, Kürdəmir, Göyçay, Ucar, İsmayıllı və başqa bölgələrdən Aşıq Səməd, Aşıq Mürsəl, Şıxzərli Aşıq Bilal, Padarlı Aşıq Zəki, Nabırlı Aşıq Badam, Səlyanlı Aşıq Soltan, Cəyirli Aşıq Fərman saz-söz aləmində ad çıxarmışlar. Şirvan aşıq mühiti XX yüzilliyə Aşıq Mirzə Bilal, Abbas Cəyirli, Qurbanxan Sadıqov, Aşıq Şamil, Aşıq Əhməd, Aşıq Şakir, Aşıq Pənah, Aşıq Bəylər, Aşıq Məmmədağa, Aşıq Hacalı, Aşıq Xanış, Aşıq Rza Qobustanlı, Mahmud Ələsgəroğlu Xanmusa Musayev, Yanvar Bədəlov, Barat Əhmədoğlu sənətini bəxş etmişdir.

Hazırda onların ifaçılıq və yaradıcılıq ənənəsini Abbas Musaxanlı (Qobustan), Aşıq Haşım (Quba), Əvəzxan Xankişiyev (Şamaxı), Aşıq Əhliman Rəhimov (Ucar), Aşıq Ağammurad İsrafilov (Şamaxı), Aşıq Məhəmməd Şirvanlı (Ağsu) Əli Tapdıqoğlu (Bakı-Qobustan), Zahid Ərəboğlu (Qobustan), Elman Talıstanlı (İsmayıllı) və başqaları ləqayətlə davam etdirirlər.

"ŞİRVAN ŞİKƏSTƏSİ" – aşıq havası. "Şikəstə" havalar silsiləsinə aiddir. Şirvan aşıq mühitində yaranmışdır. Yanıqlı, kədərli emosional ovqat daşıyır. Məqam-intonasiya əsası Segaha uyğundur. İnstrumental giriş, bəndlərarası intermediyalar mövzu cəhətdən müxtəlif və inkişaflıdır. "Şirvan şikəstəsi"nin instrumental musiqisi dəqiq ölçüyə malikdir (4/4) və bütün hava boyu dəyişməz olaraq saxlanılır. Vokal melodiya sərbəst ölçülü olaraq improvizasiyalıdır, melodik özəyini trixord intonasiyası təşkil edir. "Şirvan şikəstəsi" vokal melodiyanın tipinə görə "reçitativ" havalar qrupuna aiddir. Havanın ən xarakterik cəhəti sərbəst ölçülü vokal melodiyanın dəqiq ölçülü instrumental müşayiət fonunda səslənməsidir. Bu cəhətdən "Şirvan şikəstəsi" zərbi-muğamların forma və quruluşuna, eləcə də ifa üslubuna çox yaxındır. Havanın həm vokal, həm də instrumental musiqisində "Qarabağ şikəstəsi" və "Kəsmə şikəstə" ilə melodik, ritmik paralellər müşahidə olunur. Vokal melodiyada muğam gəzişmələri də özünü göstərir. Ansambl tərəfindən ifa olunur (aşıq-saz, 2 balaban, nağara və qoşanağara). Hava etnomusuqişünas H.Adıgözəlzadə tərəfindən nota yazılmışdır.

ŞİRVANLI BABA (XVIII əsrin ikinci yarısı, Ağsu rayonu, Kalva kəndi – XIX əsrin əvvəlləri) – Uşaqlıqdan ata-anasını itirmişdir. Xeyli ağır həyat yaşamışdır. Lakin fitri istedadı, güclü hafizəsi, yaradıcı qabiliyyəti onun məşhurlaşmasına, bir sənətkar kimi tanınmasına səbəb olmuşdur. Aşıq sənətinin ustadlarından biri kimi ad-san qazanmışdır. Şirvanlı Babanın şeirləri bizə tamlıqla gəlib çatmamışdır. O, şeirlərini bədahətən söyləmiş və yaradıcılığı yaddaşlarda yaşamışdır. Ona görə də Baba Şirvani yaradıcılığı itkilərə məruz qalmışdır. "Can və Cəsədin bəhsi", "Baba və Ceyran" adlı dastanlar ona məxsusdur. Onlardan epizodik hissələr bizə gəlib çatmışdır. "Baba və Ceyran" dastanı "Babanın Dərbənd səfəri" adı ilə də qeyd edilir. Dərbəndə gedişi zamanı qarşılaşdığı hadisələr, başına gələnlər dastanda öz əksini tapmışdır. Samur çayına müraciətlə söylədiyi şeir onun güclü istedadından xəbər verir. Baba Şirvanlı "Miskin Şirvani" imzası ilə də şeirlər yazmışdır. Onun bu imza ilə yazdığı şeirlər digər Miskin təxəllüsü ilə yazan şairlərin şeirləri ilə qarışdırılmışdır. Şeirlərinin böyük bir hissəsi unudulmuşdur.

ŞİRVANLI MOLLA QASIM – ***Bax: Şirvan aşıq mühiti; Xəstə Qasım Tikmədaşlı***

ŞİRVANLI SALEH (XVIII əsrin birinci yarısı, Şirvan) – Nişat Şirvaninin qardaşı olduğu ehtimal edilir. Anadan olduğu və vəfat etdiyi tarix dəqiq məlum deyildir. Dövrünün elmlərinə bələd olan bir yaradıcı olmuşdur. Nişat Şirvani klassik ənənəyə, divan ədəbiyyatı ruhuna bağlı sənətkardır. Ədəbi-nəzəri fikirdə

M.Füzuli məktəbinin nümayəndəsi kimi qeyd edilir. Lakin bununla belə Saleh Şirvani xalq ədəbiyyatı ənənələri üzərində yazıb-yaratmışdır. Saleh Şirvani yaradıcılığında M.V.Vidadinin, M.P.Vaqifin təsiri aydın görünür. S.Mümtaz onun bir neçə qoşmasını və "Vücudnamə"sini əldə etmişdir.

ŞİŞQAYALI AYDIN RAMAZAN OĞLU (1825, Göyçə mahalı, Şişqaya kəndi – 1915) – Yoxsul bir ailədə dünyaya gəlmişdir. Erkən yaşlarından nökərçilik etmiş, varlı adamların qapısında işləmişdir. Aydın kənddə rəncbər, bağban, papaqçı kimi də tanınmışdır. Lakin ruhu, təbiəti etibarilə yaradıcı şəxslərdən olmuşdur. Saz-söz məclislərinə maraq göstərmiş, ustadların yaradıcılığını hafizəsinə toplamışdır. Özü də bədahətən şeir demək bacarığına malik olmuşdur. Aşıqlar onun qoşma və gəraylılarını məclislərdə oxumuşlar. "Şişqayalı Aydın", "Şair Aydın" adı ilə xalq arasında tanınmağa başlamışdır. Xarakter etibarilə haqsızlıqlarla barışmaz olan Aydının şeirlərində də bu keyfiyyəti aydın görünür. 1877-ci ildə varlıların torpaqlarının yoxsullar arasında bölüşdürülməsinə ilk təşəbbüs göstərənlərdən biri olmuşdur. Buna görə də ona sui-qəsd təşkil edilmişdir. Aydının qardaşları Eyvaz və İsmixan bunu bilib həmin qəsdin qarşısını almışlar. Belə bir hadisə Aydını Göyçədən uzaqlaşdırmaq üçün bəhanə olmuşdur. Şişqayalı Aydın qardaşları ilə birgə on illik Sibirə sürgün edilmişdir. Onun zəngin yaradıcılığından ancaq yaddaşlarda olanlar bizə gəlib çatmışdır. Əlimizdə olan şeirlər Şişqayalı Aydının təbli, istedadlı sənətkar olduğunu göstərir. "Maral endi", "Gəlin", "Saldı", "Ay ana", "Çəkir", "Belə", "Bir gün", "Eylədin", "Görünür" və s. şeirləri ayrı-ayrı toplularda ("Sazlı-sözlü Göyçə" kitabında) nəşr olunmuşdur.

ŞUMER DASTANLARI – qədim şumerlərin ədəbi abidələrinin bir çoxu tam halda əldə olunmamışdır. Kiçik nəğmə, ağı, öygü, dua və s. şeir parçaları həcmcə az olduqlarına görə daha yaxşı mühafizə oluna bilmişdir. İki çayarası mədəniyyətin Şumer dövrü təxminən min beş yüz ili (e.ə. IV minilliyin sonu – e.ə. II minilliyin əvvəli) əhatə edir. İlk yazılı mənbə III minilliyin əvvəlinə aiddir. Şumer kataloqu 87 əsərin adını saxlamışdır. Onlardan yalnız 32-si bizim dövrümüzə qədər gəlib çatmışdır. On bir dastan vardır ki, onun da doqquzu qəhrəmanlıq dastanıdır: "Enmerkar və Arata hökmdarı", "Luqalbanda və Enmerkar", "Bilqamıs və Aqa" və s. İkisi allahlar haqqındadır ("İlahə İnnananın Ebex dağının əjdahası ilə mübarizəsi", "Allah Ninurtanın zalım iblis Asaq ilə təkbaşına döyüşü"). Şumerlərin məşhur qəhrəmanlıq dastanlarından biri olan «Bilqamıs» dastanının mətni də tam şəkildə əldə edilməmişdir. Dastanın sonrakı dövrlərdə akkad və hett dillərinə tərcümə olunmuş variantları qismən yaxşı mühafizə olunmuş və müxtəlif versiyalar əsasında bərpa edilmişdir. "Bilqamıs" "İliada"dan iki min il əvvəl yaranmışdır; e.ə. III minillikdə şifahi yaranmış, e.ə. II minillikdə akkad dilində gil lövhələrə köçürülmüşdür. Üç variantı var: 1. Nineviya variantı (e.ə. II minilliyin II yarısı); 2. Periferiya (qeyri-əyalət) variantı (e.ə. II minilliyin I yarısı, buraya Boğazgöydən, Makedoniyadan tapılan parçalar da daxildir); 3. Qədim Babil variantı.

Dastanın adı onun əsas qəhrəmanı Bilqamısla bağlıdır. Bir çox tərcümələrdə onun əsas qəhrəmanının adı Gilqameş, Qilqəmes, Vilqames kimi verilir. Son dövrlərdə tədqiqatçılar şumer dilində türkdilli xalqlara məxsus çoxlu söz-lər tapdıqlarına görə şumer dilini bu xalqların ailəsinə mənsub edirlər. Qəhrəmanın adı gil lövhələrdən müxtəlif cür oxunsa da, tərcümələrin hamısında onun mənası eynidir, yəni "hər şeyi görən", "hər şeyi bilən" deməkdir. Belə olduqda onun Azərbaycan dilində də həmin mənanı verdiyi aydınlaşır. Qames, yəni qamıs – "bütün şeylər", "hər şey" deməkdir. Ona görə də tərcümə zamanı qəhrəmanın adının məhz Bilqamıs kimi verilməsi daha məqsədəuyğundur. «Bilqamıs» dastanı öz məzmununa görə də Azərbaycan folkloru, xüsusilə nağıl və dastanları ilə kök yaxınlığına malikdir. Bir çox nağıllarda və əfsanələrdə rast gəlinən yeraltı dünyaya, gedərgəlməzə, dünyanın o başına getmək kimi süjetlər, xüsusilə dirilik suyu, həyat ağacı, əbədi həyat tapılması kimi motivlər bu dastanda da vardır. Xızır peyğəmbər haqqında əfsanə Bilqamıs dastanı ilə çox ya-xındır. Bu, təsadüfi hal deyildir.

Dastanın qəhrəmanı Bilqamıs böyük şəhər saldırır, igidliyi və qəhrəmanlığı ilə şöhrət qazanır. O öz mərdliyi ilə vəhşi heyvanlar içərisində boy atan Engidu ilə dost olur. Onunla birlikdə Sidr meşəsinə gedib qorxunc Humbabanı öldürdüyünə görə onlar tanrıların qəzəbinə düçar olurlar. Engiduya ölüm hökmü verilir. Bilqamısın gözü önündə dostu can verib ölür. Bu hadisə Bilqamısı sarsıdır və o, bir xalq qəhrəmanı kimi ölümün özünə qalib gəlmək, insanları onun əlindən xilas etmək istəyir. Ölümsüzlüyə çatmaq, çarə tapmaq üçün o, uzaq bir səfərə çıxır, gündoğana qədər yol gedir. Axırda gedib dünyanın o başında, vaxtı ilə əbədi həyat qazanmış Utnapişti ilə görüşür. Utnapişti onun gəlişinə təəssüf edir və onu başa salır ki, insan ömrü əbədi ola bilməz, o haradasa tamamlanmalıdır; insan xeyirxahlıq etməli, xalqına xidmət göstərməli, gözəl övladlar yetirib onları sağlam boya-başa çatdırmalıdır. Şumer dastanları ilə bağlı E.Əlibəyzadə, İ.Ömərоğlu, İ.Sadıq və başqalarının araşdırmaları vardır.

"ŞUR" – Azərbaycan musiqisində yeddi əsas məqamdan biri. 1-1/2-1 ton formullu üç eyni tetraxordun qovuşuq üsulla (x1 nisbətində) birləşməsindən yaranmışdır. Səs sırası 10 pilləlidir. Mayə – II tetraxordun I pilləsidir. Səsqatarının III pilləsi əsas tondur. Aşıq musiqisində bir çox havaların musiqi quruluşu Şur məqamının səs sistemi ilə üst-üstə düşür. Saz alətinin şah pərdə kökünün yaratdığı harmonik akkord (kvinta-kvarta) Şur məqamının iki mühüm tonunu – mayə və əsas tonu özündə cəmləmişdir. Harmonik məqamın üçüncü tonu isə mayənin üst kvartasının bəm pilləsidir. Şur məqamında mayənin üst kvartası və mayə arasında qırılmaz bağlılıq var: üst kvarta mayənin aparıcı tonu olaraq mayəyə istiqamətlənir və mayənin cazibə qüvvəsi altındadır. Şah pərdə kökündə ifa olunan aşıq havalarının melodiyasında hər iki ton əksər hallarda dayaq pilləsi funksiyasını daşıyır. Başqa saz köklərində ifa olunan, uyğun olaraq digər məqam-səs sisteminə əsaslanan aşıq havalarının sonunda, bir çox hallarda, Şur məqamına keçid – kiçik kadensiya dönməsindən yaranan ənənəvi

instrumental keçid-modulyasiya özünü göstərir. "Yedək" – koda hissələrində Şur məqamına vokal modulyasiyalar da baş verir. Sazın açıq simi üzərində diatonik pərdələrin yaratdığı səs düzümü Şur məqamının səs sırasının tetraxord formulunu təkrar edir.

ŞUŞİNSKİ FİRUDİN (FİRUDİN MƏHƏMMƏD OĞLU HƏSƏNOV) (1925, Şuşa – 1997, Bakı) – musiqi tədqiqatçısı. ADU-nun tarix fakültəsində təhsil almışdır. Doğulduğu və ilk təhsil aldığı doğma Qarabağın, Qafqazın Konservatoriyası sayılan Şuşanın tarixi və musiqi həyatının öyrənilməsi ilə məşğul olmuş, görkəmli ifaçıların həyat və yaradıcılığı haqqında qiymətli məlumatlar toplamış, onlar haqqında məqalə

və oçerklər yazmışdır. Tədqiqatların nəticəsi olaraq, "Şuşa", "Cabbar Qaryağdıoğlu", "Sadıxcan" və "Azərbaycan musiqiçiləri" adlı əsərlər meydana gəlmişdir. Bir çox musiqiçilərin əksəriyyəti (31 nəfər) haqqında hələ də yeganə mənbə olan "Azərbaycan musiqiçiləri" kitabında F.Şuşinski Qarabağın Gülablı kəndində yaşayan aşıq dəstələri, Qarabağ aşıq mühiti, o cümlədən Aşıq Abbasqulu və Aşıq Nəcəfqulunun həyat və fəaliyyəti haqqında əvəzsiz məlumatlar verilmişdir. F.Şuşinski bu əsərində C.Qaryağdıoğlu, S.Şuşinski, Bülbül, Pəsxan Cəlil, Kor Əhədin aşıqlıq məharətindən söz açmış, adı çəkilən sənətkarların aşıq yaradıcılığına dərindən bələd olduqlarını və aşıq havalarını peşəkarcasına oxuduqlarını söyləmişdir.

ŞUŞİNSKİ XAN (İSFƏNDİYAR ASLAN OĞLU CAVANŞİR) (1901, Şuşa – 1979, Bakı) – xanəndə, Xalq

artisti (1943). İslam Abdullayevdən dərs almışdır. İfa tərzi və səsinin keyfiyyətlərinə görə Azərbaycan xanəndəsi, Ərdəbil şəhərindən olan Əbülhəsən xan Azərlə müqayisə edilmiş və onun şərəfinə "Xan" adını qazanmışdır. Gur, güclü, məlahətli səsə, dərin nəfəsə, mükəmməl vokal texnikasına, milli çalarlı gözəl tembrə malik muğam ustası. Əksər muğamları, o cümlədən, "Mirzə Hüseyn segahı"nı, zərbi-muğamları – "Heyratı", "Arazbarı", "Qarabağ şikəstəsi"ni yeni zəngulələrlə və xüsusi bir hərarətlə oxumuşdur. Ü.Hacıbəylinin məşhur "Qaragöz" mahnısının ən gözəl təfsirçisi olmuşdur. Bir sıra "xalq mahnısı" imzalı havaların müəllifidir: "Şuşanın dağları",

“Qəmərim”, "Ölürəm, a ceyran bala” və s. Yaradıcılığının ən parlaq və ilhamlı səhifələrindən biri xalq mahnı ifaçılığıdır. “İrəvanda xal qalmadı”, “Yeri dam üstə yeri”, “Qara tellər”, “Alma almaya bənzər” və s. havaları onun qədər təsirli oxuyan olmamışdır. X.Şuşinski öz ifası ilə xalq mahnılarının örnək ola biləcək klassik nümunələrini yaratmışdır. “Xançobanı” (“Apardı sellər Saranı”), “Dərbəndi” (“Ay Qaçaq Nəbi”), “Əlində sazın Qurbanı” və başqa aşıq havalarını yüksək səviyyədə ifa edərək xanəndə ifaçılığına da daxil etmişdir.

ŞUŞİNSKİ SEYİD (MİR MÖVSÜM AĞA SEYİD İBRAHİM OĞLU) (1889, Şuşa qəzasının Horadiz kəndi – 1965, Bakı) – xanəndə, pedaqoq, ictimai xadim. Xalq artisti (1956), Əməkdar müəllim (1961). ADK-da xanəndəlik sinfi üzrə dərs demişdir (1926-1933). Geniş diapazona, dərin nəfəsə, şaqraq zəngulələrə malik böyük sənətkar. Azərbaycan musiqi tarixinə “Çahargah”, “Mahur”, “Nəva”, “Mani”, “Heyratı”, “Arazbarı” və başqa muğamların parlaq ifaçısı kimi daxil olmuş, novator sənətkar kimi muğama yeniliklər daxil etmişdir. Həyat və yaradıcılığını üç hissəyə bölmək olar: Qarabağ dövrü – yeniyetmə dövrü (1904-1911) və gənclik illəri (1907-1911), Tiflis dövrü (1911-1919), Bakı dövrü (1919-1965). İctimai-siyasi əqidəsi ilə fərqlənmiş, xeyriyyəçi kimi konsertlər vermiş, xalqı mübarizəyə səsləyən mahnılar oxumuşdur: “Türk şərqisi”, “Mən bir türkəm”, “Məzlumların marşı”, “Ayıl, ey millət”, “Millət istərsə” və s.

Seyid Şuşinski yeniyetmə dövründə 7 il aşıq dəstəsində oxumuş, aşıq havaları və el nəğmələrini öyrənmiş, aşıq kimi el şənlikləri və məclislərdə iştirak etmişdir. Bunun nəticəsi olaraq, “Arazbarı” aşıq havasını xanəndə yaradıcılığına daxil etmiş, “Qatar-bayatı” havasını yaratmış, “Şəkər oğlu Kərimin şikəstəsi”ni, “Qarabağ şikəstəsini” və s. böyük şövqlə ifa etmişdir.

Azərbaycan musiqisinin bütün qollarına dərindən bələd olması Seyid Şuşinskinin yalnız böyük insanlara xas olan yaradıcı simasını şərtləndirmişdir. S.Şuşinski ömrünün 60 ilini Azərbaycan musiqi mədəniyyətinin, milli muğam ifaçılığının inkişafına həsr etmiş, gözəl səsi ilə xalqın sevimlisinə çevrilmiş, Qafqazda, Yaxın və Orta Şərqdə tanınmışdır.

T

TAĞIYEV ƏLƏSGƏR (BOZALQANLI) MİKAYIL OĞLU (1930, Tovuz rayonu, Bozalqanlı kəndi – 2014)

– Yüksək tembrli səsə malik ustad aşıq kimi tanınmışdır. Zil şaqraq səsi, aşıqlığa olan marağı onun bu sənətə gəlib çıxmasına səbəb olmuşdur. Dəmirçi Hüseynin yanında aşıqlığın sirlərini öyrənməyə başlamışdır. Dəmirçi Hüseyn dəmirçiliklə məşğul olduğu üçün Ələsgərə bir müddətdən sonra məsləhət görür ki, Aşıq Əkbər Cəfərovun yanına getsin və ona şagird olsun. Əkbər Cəfərovla Ələsgər uzun illər birgə məclislər keçirmiş, müxtəlif müsabiqələrdə iştirak etmişlər. Aşıq Ələsgər xalq arasında daha çox "Çopur Ələsgər" kimi tanınmışdır. Sovetlər dönəmində həm ittifaq, həm də Azərbaycan səviyyəsində dəfələrlə mükafatlandırılmışdır. Moskvada keçirilən ümumdünya folklor festivalının laureatı olmuşdur (1966). Filarmoniyada aşığın 60 və 70 illik yubileyləri böyük təntənə ilə keçirilmişdir. 75 və 80 illik yubileyləri də yüksək səviyyədə qeyd olunmuşdur. Tanınmış elm, sənət adamları onun haqqında dəyərli fikirlər söyləmişlər. Koloritli danışıq tərzi və qaravəlli söyləmək məharəti ilə diqqət çəkmişdir. "Koroğlu" dastanının və "Koroğlu" havalarının mahir ifaçısı olduğu üçün "Koroğluxan" aşıq sayılmışdır.

Aşıqlar Birliyinin üzvü (1984), III və IV Aşıq qurultaylarının nümayəndəsi olmuşdur.

TAĞIYEV İBRAHİM HƏSƏN OĞLU (1910, Daşkəsən rayonu, Qabaqtəpə kəndi – 1985) – İbtidai təhsil almışdır. Göyçə mahalının Bala Məzrə kəndində Aşıq Hüseynin şagirdi olmuşdur. Aşıq sənətinin sirlərini ondan öyrənmişdir. Bir neçə il Aşıq Hüseynin yanında şagird olduqdan sonra müstəqil aşıqlığa başlamışdır. Dastançı aşıq kimi tanınmışdır. "Koroğlu" dastanının, məhəbbət dastanlarının məclislərdə söylənməsinə üstünlük vermişdir. "Qul Mahmud", "Heratlı Qasım" dastanlarının nadir bilicilərindən biri olmuşdur. Təəssüf ki, şeirləri çap olunmamışdır. Mühitdə ustad sənətkar kimi tanınmışdır.



TAĞIYEV QƏZƏNFƏR ƏLİ OĞLU (1946, Gədəbəy rayonu, Göyəmli kəndi – 2018, Bakı) – "Sazbənd Qəzənfər" təxəllüsü ilə tanınmışdır. 1964-cü ildə səkkizillik məktəbi bitirmişdir. Orta məktəbi Zamanlı kəndində başa vurmuşdur. Bakıda bənnalıq üzrə peşə məktəbində oxumuşdur. Sumqayıt şəhərində inşaat sahəsində işləmişdir. Bakı sənaye texnikumunda oxumuşdur. Erkən yaşlarından saza, sözə maraq göstər-

mişdir. Aşıq və sazbənd kimi tanınmışdır. Həm aşıqlığı, həm də sazbəndliyi müstəqil öyrənmişdir. Beş yüzə qədər saz düzəltmişdir. AAB və AYB-nin üzvü olmuşdur. Altı şeir kitabı nəşr olunmuşdur. Azərbaycan aşıqlarının V və VI qurultaylarının nümayəndəsi olmuşdur.

TAĞIYEV SALMAN KAZIM OĞLU (1905, Gəncə, Ağabəyli kəndi – 1969) – 1910-cu ildə beş yaşında olarkən atası vəfat etmişdir. Anası çətinliklə Tağını və qardaşını saxlamışdır. Məlaxhətli səsini, güclü yaddaşını görən Qaraçıoğlu İbrahim onu öz yanına şagird götürmüşdür (1919). Salman Tağıyev sənətin sirlərini Qaraçıoğlu İbrahimdən öyrənmiş və istedadlı bir aşıq kimi yetişmişdir. O, uzun illər Qaraçıoğlu İbrahimlə birgə məclislər keçirmiş, Gəncəbasarda el şənliklərində onunla bərabər çalıb-çığırmışdır. Bakıda, Tiflisdə, Naxçıvanda, Gəncədə müxtəlif tədbirlərdə bir yerdə təmsil olunmuşlar. Salman Tağıyev Qaraçıoğlu İbrahimin yanında həm də uzun müddət balabançı kimi fəaliyyət göstərmişdir. II və III aşıq qurultaylarında iştirak etmişdir.

TAĞIYEV SƏYYAD (1905, Bərdə rayonu, Düzanlı kəndi – 1979, Goranboy rayonu, Dəliməmmədli) – Keşməkeşli bir həyat keçirmişdir. Uşaq yaşlarında atasını itirmişdir. 1917-ci ildə anası ilə birgə Bərdədən Goranboya köçmüşdür. Sənətə olan marağı onu aşıqlığa gətirib çıxarmışdır. 1922-ci ildə Goranboyda tanınmış sənətkar Aşıq İsrafilə şagird olmuşdur. Altı il onun yanında sənəti öyrənmiş, ustadların yaradıcılığını, saz havalarını mənimsəmişdir. 1928-ci ildən müstəqil aşıqlığa başlamışdır. 1938-ci ildə Gəncə yaxınlığındakı Dəliməmmədliyə köçmüşdür. Ustad aşıq kimi tanınmışdır.

TAĞIYEVA SƏLTƏNƏT NURƏDDİN QIZI (1969, Bakı) – musiqişünas. Sənətşünaslıq üzrə elmlər doktoru (2008), dosent (2005), ADK-nı «Fortepiano sənəti» ixtisası üzrə bitirmişdir (1992). AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Ümumi işlər üzrə direktor müavini (2009), elmi katibi (2011), «İncəsənətin qarşılıqlı əlaqələri» şöbəsində (1997-2011) aparıcı elmi işçi (2010), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin elmi katibi (2002-2006), Dissertasiya şurasının elmi katibi (2003-2006) vəsifəsində fəaliyyət göstərmişdir. Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Kollegiyasının üzvü və «Təbiət və sənətşünaslıq» şöbəsinin müdir müavini vəzifəsində çalışır (2011). UNESKO-nun nəzdində İKOM təşkilatının üzvü (2005) və «Türksoylu sənətşünaslıq» Beynəlxalq Problem Şurasının üzvüdür (2010). Türkiyə Respublikasının Atatürk Kültür Mərkəzi tərəfindən mükafat və fərqləndirici medalla təltif olunmuşdur.

S.Tağıyevanın tədqiqat işləri Azərbaycan və türk aşıq musiqisinin müqayisəli təhlili problemlərinə həsr olunmuşdur. Musiqişünas iki qohum musiqi ənənəsinin müqayisəsi nəticəsində onların janr sistemində, xüsusilə də aşıq yaradıcılığına xas olan musiqili-poetik janrların bədii həlli, mövzu, melodiya, metr-ritm və digər musiqi ünsürləri baxımından eynilikləri və fərqli cəhətləri üzə çıxarmışdır. Dədə Qorqudu "əbədi" türk prototipi adlandıran müəllif onun bütün türk xalqlarını bir-biri ilə qovuşdurduğunu söyləmişdir.

S.Tağıyeva "Azərbaycan və türk aşıq musiqisinin müqayisəli təhlili problemləri", "Türksoylu xalqların mərasim mədəniyyəti" adlı monoqrafiyaların, məqalə, dərslik və proqramların müəllifidir. Respublika və Beynəlxalq Elmi Simpoziumların, konfransların məruzəçisi kimi (o cümlədən Moskva, Kiyev, İstambul, Ankara, Tehran, Şanxay, Pekin, Daşkənd şəhərlərində) çıxış etmişdir.

TAĞIZADƏ İSGƏNDƏR MƏŞƏDİ OĞLU (1874, Şəmkir rayonu, Cırdaxan kəndi – 1943) – Şəmkir mühitinin istedadlı sənətkarlarından olmuşdur. Həm aşıq, həm də şair kimi mühitdə tanınmışdır. Şəmkir, Tovuz, Gədəbəy, Qazax, Borçalı və digər bölgələrdə daha çox tanınmışdır. Şeirləri məclislərdə kifayət qədər oxunub yayılmışdır. Onunla bağlı xalq arasında müxtəlif əhvalat, hekayətlər danışılır. Xalq yaradıcılığını, ustadların zəngin irsini, dastanları dərindən bilmiş və onlardan yaradıcılığında istifadə etmişdir. Şeirləri müxtəlif toplularda nəşr olunmuşdur. Aşıqların II Qurultayının nümayəndəsi olmuşdur (1938).

TAHİRCANLI ƏMİRƏLİ (1790, Qusar rayonu, Tahircan kəndi – 1846, Quba rayonu, Əmsar kəndi) – Quba-Dərbənd mühitinin yetişdirdiyi sənətkarlardandır. İlk təhsilini mollaxanada almışdır. Sonra Yuxarı Yaraqlı kəndində Məhəmməd Yaraqlının mədrəsəsində təhsilini davam etdirmişdir. Xalq şeiri üslubunda əsərlər də yazmışdır. Əmirəli də bu təsirdə yazıb-yaratmağa başlamışdır. Şeyx Şamilin rus müstəmləkəçiliyinə qarşı mübarizəsinə rəğbətlə yanaşdığına görə həbs olunub sürgünə göndərilmişdir. Sürgündən qayıtdıqdan sonra Qubanın Əmsar kəndinə gəlmişdir. A.A.Bakıxanovla tanış olmuş, şeir məclislərində iştirak etmişdir. 1846-cı ildə A.Bakıxanov və qohumu, dövrünün tanınmış ziyalısı Əlqadarlı Abdulla ilə Şərq ölkələrinə səfər etmişdir. Səfərdə vəfat etmişdir. El şairi kimi tanınmış, aşıqlar məclislərdə onun qoşma və gəraylılarını oxumuşlar. M.Yarəhmədov 1980-ci ildə onun şeirlərini toplayıb çap etdirmişdir.

TAHİR MİRZƏ – dastanlaşmış və dastan vasitəsilə günümüzə qədər gəlib çatmış ustad aşıqlardandır. Folklorşünas S.Mümtaz, H.Əlizadə hazırladıqları toplularda digər aşıqlarla birgə Tahir Mirzənin də şeirlərini verir və onu folklorşünaslıqda bir ustad sənətkar kimi təqdim edir. "Azərbaycan aşıqları" (toplayanı H.Əlizadə. Bakı, Azərnəşr, 1930, səh. 76-79), "El şairləri" (toplayanı S.Mümtaz. I hissə, səh. 112-113; II hissə, səh. 383, Bakı, Azərnəşr, 1935) kitablarında çap olunmuşdur. Professor M.Həkimov da araşdırmalarında Dədə Qorqud, Yunis Əmrə, Aşıq Qərib, Qaracaoğlan, Aşıq Kərəm və digərləri ilə yanaşı, Tahir Mirzəni də tarixi şəxsiyyət

kimi təqdim edir. Tahir Mirzə tarixi prosesdə dastanlaşmış, yaradıcılığı dastan vasitəsilə günümüzə gəlib çatmışdır. Özü də real şəxs olmadan daha çox dastan qəhrəmanı kimi təsəvvür formalaşdırmışdır. Ancaq Tahir Mirzə haqqında dastandan və folklorşünasların qənaətlərindən belə aydın olur ki, o, tarixi şəxsiyyət olmuşdur. Onun nə vaxt və harada anadan olması, yaşaması haqqında dəqiq məlumat yoxdur. Ancaq dastan bizə deməyə əsas verir ki, Tahir Mirzə dövrünün kifayət qədər tanınmış sənətkarı olmuşdur.

"TAHİR VƏ ZÖHRƏ" – astral səciyyəli məhəbbət məzmunlu dastandır. Türkdilli xalqlar arasında geniş yayılmışdır. Çoxlu variantları və nəşrləri vardır. V.V.Radlov 1896-cı ildə bu dastanı Krım tatarlarından toplamışdır. H.Əlizadə 1926-cı ildə Azərbaycanda Qazax rayonunda Aşıq Əlinin dilindən yazıya almışdır. H.Əlizadə bir sıra fərqlərlə həmin variantı iki dəfə ("Azərbaycan el ədəbiyyatı". Bakı, 1929, səh. 32-47 və "Dastanlar və nağıllar". Bakı, Azərnəşr, 1937, səh. 118-156) çap etdirmişdir. "Tahir və Zöhrə" dastanı İstanbulda (1928), Sofiyada (1957), Aşqabadda (1972) da nəşr olunmuşdur. Dastanın daha müfəssəl variantı "Aəzrbaycan xalq dastanları" (II cild, Bakı, Azərnəşr, 1961, səh. 3-49) kitabına, müxtəlif variantlarla müqayisəli mətni isə beşcildlik "Azərbaycan dastanları"nın I cildinə (Bakı, 1965, səh. 99-147) daxil edilmişdir. Azərbaycan folklor külliyyatı" seriyasından (XXX) "Dastanlar" (XX kitab) kitabında (Bakı, Elm və təhsil, 2012, səh. 170-199) verilmişdir. Bu variant folklorşünas E.Məmmədli tərəfindən Qarayazı mahalının ustad sənətkarı Aşıq Aslan Kosalıdan yazıya alınmışdır. Dastanda hadisələr Qaraman şəhərində baş verir. İki qardaş olur. Böyüyün adı Hatəm Soltan, kiçiyinin adı Əhməd Vəzir olur. Son dərəcədə varlı idilər. Ancaq heç birinin övladı olmur. Hatəm Sultan amansız, Əhməd Vəzir isə xeyirxah imiş. Kefsiz vaxtlarından birində bir dərviş ona alma verir. Yuxuda dərviş deyir ki, bu almanı qardaşın Hatəm Soltanla böl, yarısını sən yoldaşınla, yarısını o yoldaşı ilə yesin. İkinizin də övladı olar. Qardaşlar şərtləşirlər ki, kimin qızı, kimin oğlu olsa, bir-birinə

verib evləndirsin. Hatəm Soltanın qızı, Əhməd Vəzirin isə oğlu olur. Onlar birgə məktəbə gedirlər. Orada bir-birini sevirlər. Keçəl çuğulluq edib məsələni mollaya çatdırır. Atası Zöhrəni məktəbə qoymur. Əhvalatdan xəbərdar olan Əhməd Vəzir elçi gedir. Hatəm Soltan qəti etiraz edir. Sonra qardaşını öldürmək fikrinə düşür. Bu işi Qasıma tapşırır.

Əhməd Vəzirin ürəyinə xəncər vurulur. Sonra Qasım Tahiri öldürmək üçün yola düşür. Qasımın ona yazığı gəlir, öldürmür. Tahir atasının əmisi tərəfindən öldürüldüyünü bilib qaçır. Cəlladlar onu tutub öldürmək istəyəndə məktəb yoldaşları, camaat buna imkan vermir. Deyir ki, qızını vermirsən vermə, niyə öldürürsən, ölkəndən çıxart. Zöhrə cəllad Qasıma və Tahir Mirzəyə bir dəst paltar, xərclik verib yola salır. Tahir Mirzə xeyli gedib ölkədən çıxdıqdan sonra Xanverdi sövdəkarın bağına gəlir. Əhvalatı danışır. Və onun yanında xeyli müddət qalır. Sonra bülbülün gül üstə can verdiyini görüb Zöhrənin arxasınca yola düşür. Xanverdinin qızı ona mane olmağa çalışır. Axırda razı olur. Xanverdi evə gələndə əhvalatı atasına danışır. Tahir Mirzə Zöhrənin yanına gəlir. Hatəm Soltanın adamları Tahir Mirzəni tuturlar. Hatəm Soltan bir sandıq qayırtdırır və Tahir Mirzəni sandığa qoydurub dəryaya atdırır. Gedib Həştərxana çıxır. Hadisədən xəbərdar olub şah Qaramana qoşun çəkir. Tahir Mirzə paşanın yanına gəlib deyir ki, mənə pislikləri əmim edibdir. Qoy onunla özüm vuruşum. Tahir Mirzə qələbə çalır və atasının da intiqamını alır. Toy qurulur. Tahir Mirzə Zöhrə ilə evlənir. Ölkəsinin padşahı olur və xalqını ədalətlə idarə edir. Dastan duvaqqapma ilə yekunlaşır.

TALIBZADƏ ABDULLA (ŞAİQ) MUSTAFA OĞLU (1888, Gürcüstan, Tiflis şəhəri – 1959, Bakı) – ədəbiyyatşünas, yazıçı, şair, ictimai xadim. Aşıq yaradıcılığının toplanması, nəşri və tədqiqi ilə bağlı maraqlı mülahizələri vardır. A.Şaiq Şəfiqə xanım Əfəndizadə və Məhəmməd Hatif ilə birgə "Bayatılar" (1926) kitabını nəşr etdirmişdir. "Dilimiz və ədəbiyyatımız" adlı məqaləsində aşıq poeziyasının ədəbi-tarixi dəyərini yüksək qiymətləndirir. Digər əsərlərində də aşıq sənəti ilə bağlı mülahizələr yürütmüş, kitablara ön söz yazmışdır.



TALIBZADƏ AYDIN AĞA YUNUS OĞLU (1958) – teatrşünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru (1989). A.Talıbzadə "Saz... Söz... Ruh" ("Mədəniyyət" qəz.), "Oğuz elindən boz oğlan və ya epik bəy tərifi" ("Ülfət" qəz.), "İslam mədəniyyətində səs: teatr və musiqi" ("Qobustan" toplusu), «Aşıx və İslam mədəniyyəti» («Азербайджан в мире» jur.) məqalələrində aşıq sənətində teatrallıq ünsürlərini araşdırmışdır. «İslam mədəniyyətində teatr və teatrallıq» (2006, rus dilində) kitabında aşıq sənətinin islam mədəniyyətində təzahürü xüsusiyyətlərini tədqiq etmişdir. Tədqiqatında "aşıq" sözünün etimologiyasını təhlil etmiş, ozan və aşıq sənətinin tipoloji xüsusiyyətlərini araşdırmışdır. A.Talıbzadəyə görə, aşıq (baxşı, manasçı, akın və s.) dastançılarla (naqqal, məddah, hakkavati və s.) birgə Yaxın və Orta Şərq epik teatrın təkrarsız forma və modelini yaradan sənətkardır.



Aşıq yaradıcılığında epos və lirika, epik teatrla musiqi teatrının ünsürləri kimi vəhdət halında çıxış edir.

TANRI – Bütün varlıqların başlanğıcı və yaradıcısıdır. Türk inanış sistemində Tanrı, İslamda Allah, iudaizmdə Yəhva, xristianlarda Boq eyni təsəvvürü, düşüncəni ifadə edir. Dünyanın, bütün varlıqların yaradıcısı kimi qəbul edilir. Vahidlik bildirir. Müqəddəs Kitabımız Quranda "lə ilahə illəllah" (Allahdan başqa Allah yoxdur) deyilir. Allah haqqında təsəvvürlər, inam və etiqadlar bütünlükdə ictimai, mənəvi, əxlaqi düşüncənin əsasında dayanır. Tarixin ayrı-ayrı mərhələlərində cərəyanların, böyük şəxsiyyətlərin, elmi-nəzəri axınların müxtəlifliklə və yaxınlıqla görünən qənaətləri olmuşdur. Məsələn, yunanlarda çoxallahlılıq, zərdüştlükdə Xeyir və Şər Allahı və s. "Tanrı" türk inanış sistemi ilə bağlıdır və daha qədim zamanlarla əlaqələnir. "Tanrı haqqı", "Göy Tanrı haqqı" və s. kimi andlarımızda da özünün ifadəsini tapır. İslamın gəlişi Allah adının işləkliyinə daha çox şərait yaratmışdır. Hər ikisi də eyni anlamlıdır. Yerin, göyün, bütün varlıqların yaradıcısı kimi vurğulanır. Aşıq yaradıcılığında, dastanlarda bu haqda kifayət qədər təfsilatlı məlumat var. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarında "Allah-Allah deməyincə işlər önməz, Qadir Tanrı verməyincə ər bayımaz" deylir. "Tanrı" adının bir termin kimi işləkliyi "Kitabi-Dədə Qorqud"da da kifayət qədərdir. Məsələn, "Azıb gələn qadanızı Tanrı sovsun", müqəddəs Kitabımız Quranla bağlı hissədə "ol yazılıb, düzülüb göydən endi, Tanrı elmi Quran görklü" və s. Bütün bunlar dastanlarımızda, aşıq yaradıcılığında Tanrı haqqında təsəvvürləri ifadə edir.

TAPDIQOV GÜLBALA LAÇIN OĞLU (1908, Quba rayonu, Tüləkərən kəndi – 1969) – Quba-Dərbənd mühitinin yetişdirdiyi sənətkarlardandır. Savad kurslarında təhsil almışdır. Erkən yaşlarından sənətə maraq göstərmişdir. Dərbənddə Aşıq Tahirbəyin yanında şagird olmuşdur. Ustadların yaradıcılığını, saz havalarını, Dərbənd aşıq mühitini dərindən öyrənmişdir. 1933-cü ildən müstəqil aşıqlığa başlamışdır. Həmin il də Qubaya köçmüş, orada məclislər aparmışdır. III Aşıq qurultayının iştirakçısı olmuşdur (1961).

TAPDIQOV İLYAS (İLYAS TAPDIQ) ORUC OĞLU (1934, Gədəbəy rayonu, Əli İsmayıllı kəndi – 2016, Bakı) – Görkəmli şair və aşıqşünas. AYB və AAB-nin üzvü olmuşdur. Gədəbəyin Kiçik Qaramurad kəndində orta məktəbi bitirmişdir. ADPU-nun Dil və ədəbiyyat fakültəsində oxumuşdur (1952-1956). "Bakının gecəsi" şeiri ilə ("Azərbaycan" jurnalı, 1953, №1) ədəbi yaradıcılığa başlamışdır. Azərnəşrdə redaktor, böyük re-

daktor (1962-1968), Gənclik nəşriyyatında böyük redaktor, redaksiya müdiri, baş redaktor (1968-1976), Azərbaycan Baş Mətbuat Rəhbərliyində qrup rəhbəri (1976-1978), Azərbaycan Televiziya və Radio verilişləri Komitəsində televiziya gənclər baş redaksiyasının baş redaktoru (1978-1983), Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri (1983-1992), Türkiyənin Ankara şəhərində Türk Standartları İnstitutunda müəllim, "Azərbaycan" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri (1992-1995) vəzifələrində işləmişdir. Aşıq şeirinin tərtib və nəşrində ("Aşıqlar". Bakı, Gənclik, 1970) xüsusi xidmətləri vardır. Çoxlu şeir kitabları nəşr olunmuşdur. Məşhur uşaq şairi kimi tanınmışdır. Aşıqların repertuarında çoxlu mahnıları vardır. Prezident təqaüdçüsü olmuşdur (1996-2016).

"TARİX-İ ALƏM ARAYİ ABBASİ" ƏSƏRİ – İsgəndər bəy Münşiyə məxsusdur. Onun adı tam şəkildə "İsgəndər bəy Türkman Məhəmməd Xüdabəndə"dir. Səfəvi tarixçisi, şair və xəttat kimi tanınmışdır. Əsər təxminən 1630-cu ildə yazılmışdır. Fars dilindədir. "Tarix-i aləm arayi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərində Azərbaycan tarixinin bir sıra məsələləri özünün şərhini tapmışdır. Qızılbaş tayfaları, Şah İsmayıl Xətayi tərəfindən Gülüstan qalasının mühasirəsi (1500), Səfəvilərin hakimiyyətə gəlməsi, Cəlalilər hərəkatı, Şirvan (1537, 1547-1548), Təbriz (1571-1573), Qəzvin (1576), Talış (1580-1581), Urmiya (1610), Salmas (1616), Gürcüstan və Kürdüstan üsyanları haqqında məlumatlar verilir. I Şah Abbasın hərbi islahatları, Səfəvilər dövlətinin daxili və xarici siyasəti, Azərbaycanın iqtisadi-siyasi vəziyyəti, Səfəvi-Osmanlı müharibələri, Krım tatarlarının Azərbaycana yürüşləri haqqında ətraflı danışılır. İrəvan, Culfa, Naxçıvan əhalisinin köçürülməsi kimi hadisələr də əsərdə geniş yer almışdır. Səfəvilərin hakimiyyəti zamanı dövlət dilinə verilən üstünlüklər də xüsusi maraq kəsb edir. Əsər o dövrün ictimai, siyasi, mədəni həyatına dair ilkin mənbə kimi əhəmiyyətlidir.

İsgəndər Münşi ozan və aşıq sənətləri barəsində də öz əsərində xeyli bilgi vermişdir.

TAŞLIOVA ŞƏRƏF (1938, Çıldır mahalı, Gülyüzlü kəndi- 2014, Türkiyə) – Türkiyənin ünlü sənətkarı. Ağbaba-Çıldır aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardan olmuşdur. Azərbaycan aşıqlığını Türkiyədə və dünyada tanıtmışdır. Türkiyənin "Dövlət sənətçisi" fəxri tutulunu daşımışdır. Əslən Azərbaycanın Qazax-Borçalı mahalındandır. Azərbaycan və Anadolu aşıqlığının arasında körpü – keçid rolu oynamışdır. UNESKO-nun "Xəzinə adamlar" siyahısında yer almışdır. TRT-nin qızıl fondunda söylədiyi dastan və aşıq mahnıları qorunur. Haqqında ayrıca sənədli film çəkilmişdir. Bir neçə kitabı İstanbul və Ankarada işıq üzü görmüşdür.

Azərbaycanda, o cümlədən Borçalı aşıqları ilə yaxın sənət əlaqələri olmuşdur. Professor Fikrət Türkman onun ömür və sənət yolu haqqında "Aşıq Şərəf

Taşlıova" (Ankara, 2008) monoqrafiyasını qələmə almışdır.

TAVAR SAZ – Bax: Böyük saz.

TEATR – incəsənət növü. Əsas ifadə vasitəsi aktyorun tamaşaçı qarşısında oynayaraq yaratdığı səhnə hadisələridir. Teatrın kökləri qədim ayinlər, mərasimlərlə bağlıdır. Teatr sənətinin əsasları mərasimlərin, eyni zamanda xalq oyunlarının sinkretik birliyində yaranmış və təsdiq olunmuşdur. Mərasim tamaşalarında mifoloji məzmun "oyun" formasında öz ifadəsini tapır, keçmiş və ya arzu olunan gələcək oyun prosesində sanki indiki zamana keçirilir.

Aşıq mədəniyyətinin ilkin qatlarından birini məhz mərasim sinkretizmi təşkil etmişdir. Aşıq dastan ifaçılığı teatr ünsürlərini özündə daşıyır. Aşıqlar öz yaradıcılığında xalq teatrı "aktyor"unun səciyyəvi xüsusiyyətlərini – dastan ifaçısı, aktyor, hekayətçi, müğənni, rəqqas, rejissor və s. funksiyaları sintezləşdirir. Mərasimlərdə olduğu kimi, aşıq dövrə daxilində – mərkəzdə dayanaraq hadisələri nəql edir, oxuyur, çalır, yeri gəldikcə rəqs edir, bir obrazdan digərinə keçir. Bir sözlə, dastan aşıq-aktyorun ifasında, ilk növbədə, "oynanılır" – "dünyanın oyun modeli" bucağından təqdim edilir. Aşığın yaratdığı dastan-tamaşa "bir aktyorun teatrı"na çevrilir.

Dastan yaradıcılığının ayrılmaz tərkib hissələrindən biri "Qaravəlli"lərdir. Qaravəlli-aşıqlar tərəfindən və ya xüsusi aktyorlar tərəfindən icra edilən kiçikhəcmli, məzhəkə tipli tamaşalardır. Bu tamaşaları "Teatr daxilində teatr" da adlandırmaq olar. Qaravəllilər dastanın bu və ya digər hissəsinə daxil edilir və əsasən, tamaşaçıları əyləndirmək, gərginlikdən çıxarmaq və aşığa dincəlmək üçün vaxt vermək üçün oynanılır. Bu baxımdan qaravəlliləri Avropa mədəniyyətində ağır süjetli opera tamaşalarının pərdələri arasına daxil edilən komik səhnəciklərlə müqayisə etmək olar. Qaravəlli tamaşaları aşıqlar tərəfindən çalınan havalarla müşayiət olunur.

Aşıq rejissor vəzifəsini yerinə yetirərək dastana tərtibat verir, şəraitə və auditoriyaya uyğun olaraq dastanın süjet sxem-məzmununu cızır, poetik mətni, havaları, qaravəlliləri, əfsanə və tapmacaları seçir və s. Teatral sənətin vacib atributlarından olan dinləyici və aşıq münasibətləri də özəlliyi ilə fərqlənir. Dinləyici auditoriyası aşıqları çox asanlıqla və təbii şəkildə qəbul edir, izləyicilərin həssaslığı, səmimiliyi, emosional qavrama tərzi aşıq ifasının ayrılmaz tərkib hissəsinə çevrilir. Tamaşaçılar dastan ifası zamanı xüsusi olaraq aktivdir, onlar özlərini kənar seyrçi kimi deyil, bütün baş verənlərin iştirakçısı kimi qəbul edirlər. Hər bir aşıq öz ifası ilə canlı səhnə yaradır, dinləyicilər isə özlərini hadisələrin içində hiss edir, aşığın aktyorluq məharətinin təsiri altında müxtəlif emosional ovqat yaşayır, hadisələrə müdaxilə edərək münasibət bildirirlər. "Kilimarası", "Maral oyunu", "Çoban Tapdıq", "Səlim şah", "Qaragöz" kimi kukla teatr tamaşalarının girişini, adətən, aşıq hekayələri və havacatı təşkil etmişdir. Aşıq və balabançının zarafatyana, komik dialoqları (atmaca və s.) da səhnəcik səciyyəsi daşıyır. Bu, "Qədim janr-forma olan "hərbə-zorba" oyununa bənzəyir... oyunun şərtləri qabaqcadan kəsilmişdir (teatrlaşma elementləri)... Aşıq, bilərək

ki, şərti olaraq, ya Kopoğlu, ya da oğlu rolunu ifa edəcək, praktiki surətdə həmin keyfiyyəti realizə edir". Deyişmələr də "irihəcmli, kütləvi və gərgin dramatik xarakterli tamaşalardır. Belə deyişmələrdə ikidən iyirmi birə qədər görkəmli, şöhrətli aşıqlar iştirak edirdilər. Əvvəlcədən aşıqlar arasında birincilik üstündə şərtləşmələr aparılırdı". Deyişmələr üç hissədən ibarət bir quruluşa malik tamaşa şəklində tərtib edilirdi. Birinci hissədə hərbə-zorbalar oxunurdu. Bu hissə giriş xasiyyəti daşıyırdı və iştirakçılar bir-birinə psixoloji təsir göstərməyə çalışırdılar. İkinci hissədə aşıqların hər biri sənətkarlıq məharətini nümayiş etdirir, birincilik hüququnu əldə etməyə çalışırlar. Burada emosionallıq, bədiilik ağılla, idrakla üzvi şəkildə birləşir. Üçüncü hissədə isə qıfılbənd, tapmacalardan istifadə olunur, nəticədə isə qalib müəyyən olunur. Saatlarla sürən bütün deyişmə boyu tamaşaçı-dinləyicilər maraqla və gərgin halda hadisələri izləyirlər. Aşıq məclis-mərasimləri də həmişə teatral xasiyyət daşımışdır (başlanğıc, gedişat və sonluq-qapanış).

Aşıq yalnız öz şəxsi ifaçılıq fəaliyyəti daxilində fərdidir. Bütün qalanlarında isə aşıq sənəti tipikdir. Aşıq yaradıcılığında bütün obrazlar sistemi tipolojidir. Aşıq fərdlər deyil, tiplər "yaradır". Bu baxımdan xalq teatrı ilə paralellər aparmaq mümkündür. Belə ki, xalq teatrında Kosa, Keçəl, Xan və bir sıra başqa obrazlar çox məşhurdur. Aşıq sənətinə xas olan obrazları da bir qədər özünəməxus personajlara, "maska"lara bənzətmək olar: qəhrəman Koroğlu obrazı, yanıqlı Kərəm obrazı, hiyləgər Həmzə obrazı və s. Həmin obrazlar öz səviyyəsində stabildir, "kanonlaşmışdır". Hər bir personajın özünə uyğun fərdi, tipikləşmiş teatral-emosional obrazlılıq xüsusiyyətləri cəmləşmişdir: bu personajlar müəyyən bir situasiyanın işarəsinə çevrilir və tamaşaçılar tərəfindən onlara müəyyən reaksiya yaranır.

TEATRŞÜNASLIQ **–** teatr sənətinin tarixi və nəzəriyyəsi üzrə tədqiqatlar aparan elm sahəsi. Azərbaycan aşıqlarının dastan yaradıcılığı teatr ənənələri ilə sıx bağlıdır. Teatrşünas alimlər M.Əlizadə, İ.Rəhimli, M.Allahverdiyev, A.Talıbzadə və başqaları aşıq sənətinin teatrallığı haqqında mühüm elmi əhəmiyyət daşıyan tədqiqat əsərləri yazmışlar.

TEL (türk mənşəli söz) – sim. Sazın qoluna bağlanan simlər aşıqlar və xalq arasında "tel" sözü ilə adlandırılır. "Telli saz" ifadəsi buradan qaynaqlanmışdır. Aşıq şeirlərində simin poetik adı kimi işlənilir. İncəlik və zəriflik anlamı kəsb edir.

TELLİ XANIM – "Koroğlu" dastanındakı qadın qəhrəmanlardandır. "Koroğlunun Ərzurum səfəri" qolundadır. Cəfər paşanın bacısıdır. Ərzurumludur. Aşıq Cünun da onun aşığıdır. Çənlibelə gedib Koroğlu ilə görüşüb qayıtmışdı. Telli xanım bunu bilib onu yanına çağırtdırır. Koroğlu haqqında bütün olanları danışdırır. Telli xanım mərd, cəsarətli qadındır. Atasının Aşıq Cününu zindana saldırmasına dözmür. Gecə pəhləvan paltarında gəlib onu azad edir və Çənlibelə yola salır. Cünun Çənlibelə gəlib əhvalatı danışır və belə qərara gəlirlər ki, Telli xanımı Çənlibelə gətirsinlər. Dəmirçioğlu yola düşür. Dəmirçioğlu Telli xanımı pəhləvan meydanın-

da görür. Ərəb pəhləvanla Qara pəhləvanın qarşılaşmasında tanıyır. Dəmirçioğlu Qara pəhləvana qalib gəlir və Koroğlu dəlisi olduğunu söyləyir. Telli xanım atasının qoşununa qarşı Dəmirçioğlu ilə birgə vuruşmaq istəyir. Dəmirçioğlu tək vuruşur və tutulur. Koroğlu köməyə gəlir. Cəfər paşa əsir edilir. Telli xanım Koroğluya "qardaşımı mənə bağışla" deyir. Çənlibelə gəlirlər, Telli xanımla Dəmirçioğlu evlənir. Dastanda Telli xanım mərd, mübariz qadın qəhrəman kimi təsvir olunur. Azərbaycan qadınlarının ümumiləşmiş obrazıdır. Nigar xanımın gəlişindən sonra Çənlibelə gələn igid qadınlardandır.

"TELLİ SAZIM" – aşıq mahnısı və peşrovu. Şirvan aşıq mühitində yaranmışdır. Musiqisi və sözləri (qoşma) Aşıq Bəylər Qədirova aiddir. Aşıq Şakir Hacıyevin ifasında populyarlıq qazanmışdır. Mahnı lirik, xoş ovqatlıdır. Məzmun baxımından aşığın sənətinə sevgisi, sazın vəsf edilməsi tərənnüm olunur. Müntəzəm ritmli, orta templidir (4/3 ölçüsündədir). Rast məqamına əsaslanır, orta hissəsi "Şikəstə" səs düzümünün intonasiya-dayaqlarına istinad edir. Melodiyası sadə, səmimi, yaddaqalandır. Üslub baxımından xalq havalarına yaxındır. Kuplet formasında yazılmışdır. Ansambl tərəfindən ifa olunur (aşıq-saz, 2 balaban, nağara və qoşanağara).

TEMP (latın: tempus – vaxt) – hərəkətin sürəti. Musiqi sənətində ənənəvi olaraq italyan terminlərindən istifadə olunur. Temp əsərin xasiyyəti, ovqatı və məzmunu ilə bağlıdır. Aşıq havalarının hərəkət sürəti, əsasən, orta sürətlidir. Moderato (mülayim), Andante (tələsmədən) və Alleqretto (canlı, hərəkətli) orta templərinə uyğundur. Az qisim havalar vardır ki, onlar bir qədər ağır tempdə ifa olunur. Qrave (ağır, təmkinlə) və sostenuto (rahat, sakit halda) templərinə uyğundur. "Ağır şərili" və ya "Şərilinin yastı havası" bu qəbildəndir ("Yastı-yastı oxumaq" bu tempə işarədir). Bir qisim havalar isə alleqro (tez) tempinə uyğun ifa olunur: bəzi marşvarı Koroğlu havaları, Osmanlı divani, Atlı Kərəmi, xüsusilə, Şirvan aşıq mühitində yaranmış aşıq mahnıları və s. Vivaçe (sürətli), presto (olduqca tez) və daha tez templərə uyğun havalar yoxdur. Yarıreçitativ aşıq havalarında tempo rubato (azad temp) hallarına – əsas tempdən kiçik sapmalar müşahidə olunur. İfaçının fantaziyası ilə müəyyən olunan sərbəst temp isə ad libitum ifadəsi ilə qeyd olunur. Reçitativ-deklamasiya tipli aşıq havalarının vokal oxumaları çox vaxt Ad libitumla işarələnir.

TENOR – səslənməsinə görə ən uca (yüksək) kişi səsi. Tenor səsin diapazonu kiçik oktavanın do səsindən – II oktavanın do səsinə kimidir. Tenor partiyası sol açarında yazılır və yazıldığından bir oktava aşağı səslənir. Tenorun növləri aşağıdakılardır: lirik tenor, dramatik tenor, tenor altino. Azərbaycan aşıqlarının səsini lirik-dramatik tenor növünə aid etmək olar. Avropa oxuma üsulu, fərqli olaraq, sinə səsinə, "qoyulmuş səs" anlayışına istinad edirsə, Azərbaycan milli vokal oxuma üslubu, o cümlədən aşıq oxumaları boğaz səsinə əsaslanır.

TESSİTURA (italyan: tessiture – toxuma) – musiqi əsərində yüksəklik baxımdan üstünlük təşkil edən səs düzülüşü. Vokal səsin imkanlarına və müxtəlif növ musiqi alətlərinə əsasən

təyin olunan səs yerləşməsi. Tessituranın üç növü vardır: yuxarı, orta və aşağı. Aşıq vokal oxuma zamanı, əsasən, iki tessituradan – orta və yüksək tessituradan yararlanır. Orta tessitura oxumaq üçün ən rahat tessituradır və hər bir aşıq bu zaman səsinin ən müsbət, ifadəli imkanlarını üzə çıxara bilir, gözəl səslənməni əldə edə bilir. Yüksək tessitura isə oxumaq üçün müəyyən çətinliklər törədir və aşıqdan geniş səs diapazonu, xüsusilə zil tessitura tələb edir. Aşıq havalarının melodik quruluşunda, (xüsusilə Koroğlu havalarında) yüksək registrli musiqi bölmələri çoxluq təşkil etdiyindən yüksək tessituralı səs imkanları əsərin bədii cəhətdən düzgün yaradılması üçün vacib şərtlərdən birinə çevrilir. Bir çox aşıq havaları bu ümdə səbəblər üzündən ifa olunmur.

TƏCNİS – aşıq şeirinin çətin və mürəkkəb biçimlərindəndir. Şifahi və yazılı ədəbiyyatda təcnis nümunələrinə tez-tez rast gəlinir. Aşıq yaradıcılığında isə təcnisdən bir forma kimi daha çox istifadə edilir. Hətta aşıq şeir şəkillərindən biri kimi qeyd edilir. Təcnisdə qafiyə cinas sözlər vasitəsilə qurulur. Ustad aşıqlar təcnisin müxtəlif formalarından istifadə etmişlər. Təcnisin aşağıdakı çeşidləri vardır: "Təcnis" ("Qara təcnis"), "Bayatı təcnis", "Gəraylı təcnis", "Xətəngi təcnis", "Ayaqlı təcnis" ("Müstəzad-səqir təcnis"), "Cığalı təcnis", "Nəfəsçəkmə təcnis", "Dodaqdəyməz təcnis", "Zəncirləmə təcnis", "Öyüdləmə cığalı təcnis", "Əvvəl-axır hərf üstə təcnis". Bütün təcnislər öyüdləmələr, nəsihətlər, atalar sözü və məsəllər üzərində qurulur. Təcnislər şəkli xüsusiyyətlərinə görə ən çox onbirliklər, qoşma formasında olur. Təcnis yaratmaq aşıqdan hədsiz dərəcədə yetkinlik, sözlərin mütəhərrik təbiətini bilmək, nəhayət, çətin və dolaşıq misraları asan və sadə sözlərlə dinləyicilərə çatdırmaq bacarığı tələb edir. Təcnis şeir forması "təcnis" havasının yaranmasına, sazın qoluna təcnis pərdəsinin əlavəsinə gətirib çıxarmışdır.

Sağdan vurdu, soldan çıxdı, sağa ləm,
Sağ qoşundu, sol ləşkərdi, sağ ələm,
Bedahatdı mən bu dərddən sağalam,
Təbib birdi, dərman min bir, yara yüz.
Qurbani

Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Molla Cuma, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, İsmayıl Sadıqlı, Mikayıl Azaflı və başqaları təcnisin klassik nümunələrini yaratmışlar. Folklorşünas E.Məmmədli təcnisin janr xüsusiyyətləri ilə bağlı dissertasiya yazmışdır.

TƏHMASİB MƏMMƏDHÜSEYN ABBASQULU OĞLU (1907, Naxçıvan şəhəri – 1982, Bakı) – folklorşünas, ədəbiyyatşünas, dramaturq, tərcüməçi, filologiya elmləri doktoru (1965), professor (1970). Azərbaycan Yazıçılar Birliyinin üzvü (1939). İbtidai təhsilini Naxçıvanda almışdır. Bakı Pedaqoji texnikumunu bitirmişdir (1923-1927). Dörd il Naxçıvan şəhər orta məktəbində müəllim işləmişdir. ADPU-nun (keçmiş APİ) dil-ədəbiyyat fakültəsində oxumuşdur (1930-1933). Əli Bayramlı, Kürdəmir, Göyçay rayon maarif şöbələrində metodist (1933-1936), Bakı neft texnikumunda müəllim (1936-1939), BDU-da baş müəllim (1939-1951), dosent (1951-1959), Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunun xalq yaradıcılığı şöbəsinin elmi əməkdaşı, şöbə müdiri

işləmişdir (1944-cü ildən). BDU-da və APİ-də uzun illər şifahi xalq ədəbiyyatından mühazirələr oxumuşdur. Ədəbi yaradıcılığa 1934-cü ildən başlamışdır. "Qaçaq Nəbi" ssenarisini 1938-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap etdirmişdir. "Bir qalanın sirri" (1960), "Onu bağışlamaq olarmı" (1960) ssenariləri əsasında eyniadlı filmlər çəkilmişdir. "Bahar" (1938), "Aslan yatağı" (1941), "Çiçəklənən arzular" (1951), "Hind nağılı" (1956), "Rübailər aləmində" (1968) və s. pyes-nağılları respublikanın teatr səhnələrində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. "Azərbaycan xalq dastanları (orta əsrlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1965). "Koroğlu", "Molla Nəsrəddin lətifələri", "Aşıq Ələsgər", "Kitabi-Dədə Qorqud", "Azərbaycan dastanları" və digər xalq yaradıcılığı incilərinin toplanması nəşri və tədqiqində böyük əməyi olmuşdur (1946-1977). Dastan yaradıcılığı, aşıq sənətinin mənşəyi, təşəkkülü, inkişafı, "aşıq" sözünün etimologiyası, dastan strukturu, ayrı-ayrı ustad aşıqların yaradıcılığı və s. haqqında maraqlı araşdırmaları vardır. "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.

Azərbaycan folklorşünaslıq elminin bütün ağırlığını ləyaqət və dəyanətlə çiyinlərində daşıyan, siyasi-ideoloji maneə və yasaqların qarşısında müdrik, uzaqgörən manevrlər işlədərək, milli-mənəvi sərvətlərimizin toplanması, nəşri və tədqiqi işini uğurla davam etdirən məhz Məmmədhüseyn Təhmasib olmuşdur.

TƏKRİR – eyni sözün, yaxud ifadənin əsərdə ustalıqla, düşünülmüş şəkildə təkrar edilməsidir. Müəllifin istedadının zəifliyinə, bədii təfəkkürünün və söz ehtiyatının azlığına dəlalət edən təkrardan fərqli olaraq təkrir poetiklik yaradan fiqurlar sırasındadır. Mənanın dərinləşməsinə, üslubun qüvvətləndirilməsinə xidmət edir. Məsələn:

Nə cahan, nə qeyrət, nə ar anı qat,
Nə yaylaq, nə dağı, nə aranı qat,
Nə ağla, nə ağlat, nə aranı qat,
Nə qərq et didəni a yaşa-yaşa.
Mikayıl Azaflı

TƏMİROV ƏŞRƏF QƏRİB OĞLU (1964, Borçalı mahalı, İlməzli kəndi - Bakı) – "Əşrəf Qəriboğlu" imzası ilə tanınır. Gənc yaşlarından aşıqlığa həvəs göstərmişdir. Ustad sənətkar Aşıq Kamandar Əfəndiyev onun həvəs və bacarığını görüb yanına şagird götürmüşdür. Sənətin sirlərini öyrənib müstəqil aşıqlığa başlamışdır. Aşıq havalarının istedadlı ifaçılarından sayılır. Özünəməxsus çalğı və ifa tərzi ilə seçilir. Aşıq şeiri üslubunda poetik örnəkləri vardır. və Beynəlxalq

aşıq festivallarının diplomantı olmuşdur (2010, 2014). Azərbaycan aşıqlarının V və VI qurultaylarının iştirakçısıdır.

TƏNBUR – qədim simli musiqi aləti. "Tanbur", "tambur" kimi çeşidli variantlarda da el arasında tələffüz olunur. Azərbaycanda geniş yayılmış növlərindən biri Şirvan tənburu olmuşdur. Şirvan tənburu armudşəkilli olaraq saz tipli alətlər ailəsinə aiddir. İki, bəzən üç simdən ibarət, sadə quruluşlu bu alət Yaxın Şərq və Orta Asiya xalqları arasında indi də istifadə olunmaqdadır. Ə.Marağainin yazdığına görə, bu alət Təbriz şəhərində də geniş yayılmış və bu səbəbdən Şirvan-Təbriz tənburu adlandırılmışdır. Şirvan tənburu çanaq, uzun qol və kəllədən ibarətdir. Çanağı tut, armud, qolu və kəlləsi isə şam ağaçından hazırlanır. Kəlləyə üç aşıq (çüy), qoluna 14-17 pərdə bağlanır. Bir-birindən aralı yerləşən iki simdən ibarətdir və sağ əlin baş və orta barmaqları ilə çalınır. Bəzən sağ əlin şəhadət barmağına taxılan üsküк tipli mizrabla ifa olunur. Şirvan tənburunun köklənmə qaydası da saza bənzəyir: simin birində melodiya çalınır, digəri isə havaya görə müxtəlif cür köklənir. Diapazonu birinci oktavanın do səsindən, ikinci oktavanın mi səsinə qədərdir. Üçsimli tənburda I və III simlər eyni yüksəklikdə (unison), orta sim isə kvarta aşağı köklənir. "Alətin və bəzi pərdələrin, bu növ tənburun (Şirvan, Təbriz) yayılması məkanını bildirən adları, (Azərbaycan mədəniyyətinin) ölkə-

ni ikiyə bölən siyasi sərhədlərdən asılı olmayaraq, milli mədəniyyətin ümumiliyini təsdiq edən daha bir faktdır" (S.Ağayeva). Tənburun bir sıra növləri vardır ki, onların biri "ney tənburu" adlanaraq kamanla çalınır. Çanağı daha kiçik, üzü düz, qolu isə daha uzun olan musiqi aləti isə "Türk tənburu" adı ilə tanınmıışdır. Bu çalğı alətinə iki sim çəkilmiş və kvarta həcmində köklənmişdir. III sim isə rezonans funksiyası daşımışdır. Simlərin sayından asılı olaraq, çartar (çahartar – 4 simli), pənctar (5 simli) və şeştar (6 simli) tənburun ayrı-ayrı növləri hesab olunur (S.Abdul-

layeva, 2000). Bir çox ədəbi-poetik əsərlərdə, miniatür rəsmlərdə tənburun adı çəkilmiş, təsvirləri verilmişdir.

Özbək tanburu – dombrası və slavyan arealındakı dombralar bu musiqi aləti ilə tarixi baxımdan yaxın bağlılıqlara malikdir.

TƏRİQƏT – şəriət qaydalarına əməl etməklə gedilən yol. Şəriət hökmün, göstərişin özü, təriqət isə onun əməli icrasıdır. Şəriət imana və etiqada çağırışın nidası, qaydaları, qanun və göstərişləri, təriqət isə bütün bunları icra etməyin yolu, əməli şəkildə gerçəkləşməsidir. Görkəmli təriqət şeyxi Nəcməddin Kübra (? – 1221) şəriəti gəmiyə, təriqəti dənizə, həqiqəti inciyə bənzədir. Hicviri isə şəriəti tibb kitabına, təriqəti davadərmana, həqiqəti isə xəstəlikdən tapılan şəfaya bənzədir. Səfiəddin Ərdəbilinin xələflərindən olan İbn Bəzzaz təsəvvüfü şərh edərək yazır: "Şəriət Məhəmməd (s) qanunu, təriqət hərəkət və əməl, həqiqət isə haldır. Təriqət haqqa doğru aparan yoldur. Sülik əhli yüksəliş (merac) halındadır. Həqiqət haqqın müşahidəsi və mərifətdir. Təriqət şəriətsiz, həqiqət isə təriqətsiz gerçəkləşmir. Şəriət meyvələrin qabığıdır, onu qoruyub saxlayır, təriqət meyvənin içi və kütləsidir, həqiqət isə onun məğzi və mahiyyətidir.

"TƏRKİ-VƏTƏN" OLMAQ – vətəndən, yurddan, torpaqdan uzaq düşmək, hansısa məqsəd, istək arxasınca uzaq yola çıxmaqdır. Aşıqlıqda bu olduqca ciddi və maraq doğuran məsələlərdəndir. Bir sıra hallarda sufi simvolikası kəsb edərək rəmzi-məcazi məna daşıyır və "vəhdəti-vücud" fəlsəfəsinə bağlanır. Aşıq Ələsgər "aşıq olub tərki-vətən olanın əzəl başdan pür kamalı gərəkdir" misrasını həm də bu anlamda dilə gətirmişdir. Bununla belə "tərki-vətən olmaq" - vətəndən ayrılıb qərib-qürbət yerlərdə dolaşmağın müstəqim mənası da aşıq sənətində özünü göstərir. Ustadlar tərki-vətən olub el-el, oba-oba gəzmiş, məclislər aparmış, xalqın mənəvi dəyərlərinin zənginləşməsində mühüm rol oynamışlar. Onlar bir istiqamətdə tərki-vətən olmaqla digər mədəniyyətləri də öyrənmiş, yaxın-uzaq əyalətləri mənəvi dəyərlər anlamında mənimsəmişlər. Hətta özləri də həmin dəyərlərə əlavələrini etmişlər. Aşıq Ömərin, Abbas Tufarqanlının, Xəstə Qasımın, Aşıq Valehin, Aşıq Qəribin, Aşıq Alının tərki-vətən olaraq səfər başlamaları, dastanlarımızda nəzərəçarpan tərki-vətənlik məhz pür-kamal olmaya xidmət edir. Bir çox məqamlarda dərvişlərin, sufilərin "tərki-vətənliyi" ilə də birləşir.

TƏRZİBAŞI ƏTA ÖMƏR OĞLU (1924, İraq, Kərkük – 2015) – folklorşünas, tənqidçi, publisist. AYB-nin üzvü (1994). Türk dil qurumunun fəxri üzvü (1986). Kərkük şəhərində nəşr olunan "Bəşir" qəzetinin türkmanca bölməsinin redaktoru olmuşdur. İraq türkmanlarının xalq yaradıcılığı nümunələrinin toplanması, nəşri və tədqiqi sahəsində böyük xidmətləri vardır. "Kərkük xoyratları və maniləri" (iki cilddə) kitabında xoyrat və manilərlə bağlı araşdırmaları yer almışdır. 60-cı illərdə Bağdadda nəşr etdirdiyi ""Kərkük şair-



ləri” (üç cilddə) kitabında İraq türkman şairlərinin həyat və yaradıcılığı haqqında yığcam məlumat və əsərlərindən nümunələr verilmişdir. Məhəmməd Füzuli, Şəhriyar, Hicri Dədə haqqında elmi araşdırmaları çap olunmuşdur. Topladığı zəngin folklor nümunələri əsasında “Şərqilər və türkülər” (Bağdad, 1953), “Kərkük havaları” (Bağdad, 1961, 1989), “Kərkük əskilər sözü” (Bağdad, 1962), “Arzu-Qənbər” dastanı (Bağdad, 1964) və s. kitabları çap olunmuşdur. Həmin kitablar Bağdad, Ankara, Tehran, İstambulda kütləvi tirajla nəşr edilmişdir. Bakıda “Kərkük bayatıları” (1968), “İraq-Kərkük atalar sözləri” (1978), “Arzu-Qənbər” dastanı (1971), “İraq-Kərkük bayatıları” (1984) kitabları çap olunmuşdur. Professor Qəzənfər Paşayev onun həyat və fəaliyyətini əks etdirən kitab yazmışdır (2016).

TƏSƏVVÜF – orta əsrlərdə geniş yayılmış dini-fəlsəfi, mistik-mənəvi, əxlaqi düşüncə, davranış sistemidir. Sufizmlə eyni mənanı ifadə edir. Təsəvvüf və ürfanın özünəqədərki bəşəri-mədəni inkişafdakı bir sıra din, dini-fəlsəfi görüş və etiqadlarla, sistemlərlə (şamanizm, zərdüştlük, buddaizm, brəhmənizm, yəhudi mistikası kabbalizm, yunan fəlsəfəsi, xristianlıq) oxşar cəhətləri vardır. Məsələn, şamanizmdə ruhlarla ünsiyyət, rəqs və səma məclisi və s. kimi hallar təsəvvüf və ürfanda da özünü göstərir, zərdüştlükdə Tanrı ilə ünsiyyət, hind mistikasında nəfslə mübarizə, xristianlıqda zahidlik, xəlvətə çəkilmə və s. Təsəvvüf və ürfan eyni çərçivənin hüdudları daxilində olsa da fərqlilikləri vardır. Təsəvvüf təlimin praktik cəhəti, ürfan isə nəzəri tərəfidir. Təsəvvüfün başlanğıcı şəriət qaydalarına əməl etmək, sadə həyat tərzi yaşamaq, nəfsi öldürmək, dünyəvi həvəsləri tərk etməkdir. Təsəvvüf nəfsin törətdiyi afətlərdən təmizlənmək, dünyəvi həvəslərdən yaxa qurtarmaq, haqqa yaxın ilk sırada və yüksək dərəcədə dayanmaqdır. İrfan hər cür nöqsan və kəsirdən xali Tanrı hikməti, ilahi bilikdir. İrfan təsəvvüfdəki sapmaları, əyintiləri, naqisliklərı düzəltmək üçün ali bilikdir. İrfani biliyə yiyələnən mərifət sahibi, arifdir. İrfani biliyin özü isə mərifət adlanır. İrfan elmlə öyrənilməz, batini aləmlə, ruhani-mənəvi dünya ilə bağlıdır. Təsəvvüf zahiri fəaliyyətlə bağlı hadisədir.

TƏSƏVVÜF SİMVOLİKASI VƏ AŞIQLIQ – Ozan-aşıq və qopuz-saz əvəzlənməsi bu sənətdəki sinkretik ünsürlərin əsas təbəqələrinə – musiqi, rəqs və söz üçlüyünə yeni bir ab-hava, bədii-estetik iqlim gətirmişdir. Kifayət qədər geniş zaman və məkan əhatəsində gedən bu proses ən qaynar məqamları XV-XVI əsrlərə düşür. Qopuz musiqisinin saz musiqisinə çevrilməsi zərurəti sənətin tərkibindəki digər ünsürləri – rəqs və sözü də zəncirvari şəkildə əhatə eləyirdi. Təriqət mifoloji məzmun daşıyan qam-şaman ekstatik hərəkətlərini də tədriclə çəkib özünün məqsədlərinə yönəldirdi. Daha doğrusu, şamançılıqda mövcud olan mərasim rəqsləri hazır qəlib kimi götürülür və müəyyən improvizasiya prosesindən sonra onlardan sufı ayinlərinin icrasında istifadə olunurdu. Təkkələrdə keçirilən mərasim və ayinlərdə icra olunan sufi-dərviş rəqsləri eynilə qam-şaman rəqsləri kimi ekstatik mahiyyət daşıyırdı. Təkkə mərasimlərindəki musiqi və rəqslər ilahi aləmlə,

tanrı dünyası – göy, səma ilə bağlı olduğu üçün həmin musiqi və rəqslər "səma" adlanırdı.

Səmayi-səmavi musiqi və səmavi rəqs təkkələrdə zaman-zaman aşıqlar tərəfindən ifa olunurdu. Ayin zamanı sazla bərabər ney, qaval, davul, balaban və s. də çalınırdı. İstər qam-şaman rəqslərinin, istərsə də səmavi rəqsin ilkin – üzdə olan məqsədi insanı ekstaz vəziyyətinə gətirmək idi. Sufilərin "vəcd" adlandırdıqları həmin vəziyyətdə şamançılıqda olduğu kimi, müqəddəs ruhlarla əlaqəyə girmək, ilahi aləmə səfərə çıxmaq mümkün sayılırdı. Sadəcə olaraq, qam-şamanlar ekstaz halına çatdıqdan sonra qarşıya qoyduğu məqsədə müvafiq olaraq müxtəlif mifoloji-himayəçi ruhların arxasınca getdikləri halda, sufilər yalnız bir Ruha – Vücud deyə tapındıqları Allaha qovuşmağa can atırdılar. Son məqsədə-nəticə ayrılığına baxmayaraq, qam-şaman və sufi mərasimlərindəki üsul və istiqamətlər demək olar ki, eyniyyət təşkil edirdi.

Yəqinlik hasil etmək üçün hər iki mərasimin səciyyəvi cizgilərini tutuşdurmaq kifayətdir:

1. Mərasimə başlayan qam-şaman əvvəlcə davulun və ya qopuzun ritminə uyğun tərzdə güclə eşidiləcək dərəcədə astadan oxumağa başlayır, sonra yavaş-yavaş musiqinin və şamanın səsi yüksəlir. Şaman başını və çiyinlərini kəskin şəkildə o yan-bu yana oynadaraq oxumasını xüsusi dualara-alqışlara çevirir. Sonra fırlanaraq çiyinlərini və başını gah sağa, gah sola döndərə-döndərə çevik şəkildə rəqs edir.

2. Sufilərin təkkə mərasimi ibadətlə başlanır. Qurandan surələr oxunur. Zümzümə şəklində ilahilər deyilməyə başlayır. Həmin andan mərasimə musiqi – saz, balaban, ney, qaval, nağara-davul və s. qoşulur. Get-gedə musiqidə yüyrəklik və oxumaların çılğınlaşan tempi artırılır. Coşqun oxumalar və çılğın musiqi səsləri altında ekstatik hərəkətlər toplusu olan məxsusi rəqs-səma başlanır.

Müqayisəli təsvirdən də göründüyü kimi, qam-şaman və sufi mərasimləri ayrı-ayrı dünyagörüş sistemlərinə aid olsalar da, mərasimlərarası funksional yaxınlıq və tarixi-semantik bağlılıq olduqca güclüdür. Daha doğrusu, qam-şaman kompleksinin oyun-rəqsləri sufi-dərviş mərasimlərinin səmavi rəqslərini hazır qəliblərlə təmin eləyən bir təməldir. Ustad aşıqların "məclis havaları", "səmavi havalar" və yaxud "təkkə havaları" adlandırdıqları saz çalğıları çox güman ki, sufi mərasimlərinin tarixi tələbatı üçün yaradılmışdır və təriqət ayinlərinin icrası zamanı, o cümlədən də səmavi rəqslərin təşkilində onlardan geniş şəkildə istifadə edilmişdir. Ümumiyyətlə, səma ayininin həm musiqi, həm rəqs, həm də söz təsəvvüf ruhlu aşıq şeirləri, ayət, nəfəs və ilahilər baxımından təchizində aşıqlar müstəsna rol oynamışlar. İndi də aşıqların havacat repertuarında mühüm yer tutan "Baş divani", "Ürfani", "Heydəri", "Mansırı", "Müxəmməs", "Qələndəri" kimi saz havaları səmavi havalar sırasındadır. Bir ənənə olaraq, "Baş divani" havasının çalınmasına başlanarkən aşığın:

"Ya ilahi, ya mövlam, ya şahi-mərdan, səndən mədəd!" – nidası ilə üzü göylərə xitab etməsi də sözügedən havanın səmaviliyini göstərir.

Göylər aləmi-ilahi aləmlə bağlı olan səmavi hava, oxuma və rəqslərdə səs, söz və hərəkətlər, bir qayda olaraq,

rəmzi-məcazi işarələr toplusu kimi vahid sistem halında çıxış edir. Səma zamanı əlif, lam, dal və başqa hərflərin rəmzi yaradılır, habelə təriqətin əsas götürdüyü müəyyən ayə və surələr həmin işarələrlə rəqs şəklində ifa olunur.

Aşıqların oxu prosesində "hay", "hi", "ha" hissəcikləri işlətməsi də təkkə mərasimlərində formalaşmış melodik keyfiyyətdir. Belə ki, təkkə mərasimində "Allah" adının rəmzi ifadəsi kimi işlənən "hu" deyimindən ilahi və nəfəslərin oxunmasında yardımçı-melodik ünsür kimi son dərəcə çox istifadə olunurdu. "Hu"nun yəsəvilik ənənəsində, o cümlədən də həmin xəttin davam və inkişafı olan ələvi, səfəvi və bəktaşilikdə "hi", "ha" və "hay" variantları yaranmışdır. Tanrı adının nisbətən aşağı səslə, yavaşcadan zikr edildiyi məqamda "hay" deyilməsi təkkədə qəbul edilmiş bir təriqət ənənəsi idi . Əhməd Yəsəvinin:

İxlas ilən məhəbbətin camın içib
Canı dildən "hay" zikrini aytın, dostlar.

beytində də "hay" deyimi "hu"nun təkkə mərasimindəki manera variantıdır. Uca avazla – "hay" və ya "ha" nidası ilə zikr edilərək müqəddəs dünyaya – ilahi aləmə müraciət olunması (xatırladaq ki, yəsəviliyə qədər ancaq aşağı səslə zikr olunurdu) yəsəviliyin şaman təcrübəsindən bəhrələnərək sufiliyə yönəltdiyi əsas ayin əlamətlərindən biridir. Çağdaş aşıq oxunmasında çılğın ovqatlı melodik hava və poetik mətnin qoşma, gəraylı və s. ifasına da çox zaman "Ay hay" nidası ilə başlanır ki, zənnimizcə, bu da yəsəvilikdən gələn səmavi keyfiyyətdir. Bundan əlavə, oxumanın müxtəlif yerlərində boğaz qaynatması şəklində işlədilən "ha-ha-ha", yaxud da "hi-hi-hi" hissəcikləri də aşıqların təriqət mərasimlərindəki uzunmüddətli fəaliyyətlərindən qalmış rəmzi-melodik qalıntılar, relikt-əlamətlərdir. Orasını da qeyd etmək lazımdır ki, təsəvvüf səciyyəli "hay", "ha", "hi" melopoetik hissəcikləri aşıq yaradıcılığının bir çox digər ünsürləri kimi şaman-ozan ifaçılıq ənənənəsinin həmin səpkili məlum qəlibləri. – "Bə hey!", "Birə!", "hey gidi" və s. nidaları üzərində intişar tapmışdır. Şaman-ozan ifasındakı sözügedən yardımçı melopoetik vasitələrin musiqili-harmonik ölçüləri təriqətə məxsus rəmzi deyimin "hu" müxtəlif şəkildəyişmələrinə "hay", "ha". "hi" tətbiq edilmiş və həmin ünsürlər təkkə mərasimlərində xüsusi maraq dairəsində olduğundan fəal işləklik qazanaraq xüsusi rəğbət doğurmuş və ifaçılıq ənənəsinə çevrilmişdir. İndiki aşıqlar həmin melodiyaların tarixi məzmununun nədən ibarət olduğunu dərk etməsələr də, ustad ənənəsini mühafizəkar bir sistem kimi davam etdirirlər. Məsələn, aşıqların oxumağa başlarkən işlətdikləri "a hu canan", "a hu belə" müraciət-nidaların nəyi ifadə etdiyini onlardan soruşduqda, demək olar ki, izah-açıqlama verə bilmir və ya "ahu" kimi "ceyran" kimi mənalandırırlar.

Maraqlıdır ki, eyni ürfani-estetik proses Türküstan ərazisində – türkmən və Xarəzm baxşılarının yaradıcılıq və ifaçılıq ənənəsində də getmişdir. Türkmən və Xarəzm baxşıları çox güman ki, aşığa çevrilmiş ozanlarda olduğu kimi yəsəviliyin təsiri altında öz ifaçılıqlarındakı şamanlara məxsus çağırış-nida səciyyəli melopoetik ünsürlərin bir qismini sufi məzmun daşıyan "hay","ha", "hi" rəmzi melodeyimləriylə əvəz et-

mişlər. Bu cəhət onların hazırki ifaçılığında da təsəvvüf dönəminin qalığı kimi qorunub saxlanılır. Lakin baxşılar da aşıqlar kimi həmin qəliblərin nəyi ifadə etdiyindən o qədər də xəbərdar deyillər.

Sufi-dərviş sisteminə məxsus "hu" rəmzi deyimi Qafqaz, İran və Anadolu aşıq sənəti, eləcə də Xarəzm və türkmən baxşı sənətiylə yanaşı qam-şaman kompleksinin digər sahələrinə də nüfuz edə bilmişdir. Məsələn, təbiblik edən qazax şamanları baksılar XX yüzilliyin ortalarına qədər xəstəni müalicə edərkən seans boyu "Hu! Hu! Alla hu!" deyə xüsusi tərzdə ucadan qışqırırdılar ki, bu da yəsəviliyə bağlı təriqət sistemindən gələn keyfiyyət göstəricisidir. Bu göstərici həm də o baxımdan əhəmiyyətlidir ki, şamançılıq sufiliyə təsir etdiyi kimi, bir sıra məqamlarda bunun əksi də baş vermişdir.

Yuxarıda qeyd olunan ayrı-ayrı ifa məqamları və melodeyimlərlə yanaşı, ozanın sənət meydanını aşığa təhvil verməsiylə el sənətkarının yaradıcılıq aləminə təriqət səciyyəli söz-terminlər daxil olmağa başlayır və onlar get-gedə linqvistik və poetik aktivliyi artırıb bir növ ənənə normativi kimi təzahür edir. Hətta bu proses o dərəcədə güclənir ki, şeir sistemi və dastan epik mühitiylə bərabər klassik aşıq təxəllüslərinin əksəriyyəti də sufi məzmunlu sözlərlə əhatələnir: "miskin", "qul", "xəstə", "divanə", "öksüz-yetim", "yazıq", "abdal", "qərib", "səfil" kimi təxəllüslər və ya təxəllüs təyinləri Tanrı qarşısında bəndə "miskin"liyini göstərir: aşığın Tanrının "qulu" olduğunu bildirir; bağlandığı vəhdəti-vücud fəlsəfəsinə uyğun şəkildə aşıq ilahi eşqin mərəzinə tutulub onun "xəstə"sinə, "divanə"sinə çevrilir: Vücudla vəhdətə girməyincə, Allaha qovuşmayınca özünü "yetim", "yazıq", "səfil" və ya "qərib" sayır. Bu meyil klassik poeziyada da qabarıq şəkildə nəzərə çarpır. Nəsimi, Xətayi, Füzuli və başqa klassiklərin təriqət şeirlərində yuxarıda bəhs olunan söz-terminlər təxəllüs təyinləri kimi tez-tez boy göstərir: xəstə Nəsimi, qul Nəsimi, miskin Xətayi, xəstə Xətayi, miskin Füzuli və b. Türk təsəvvüf ədəbiyyatının babası Əhməd Yəsəvi də bir çox hikmətlərinin möhürbəndində "Qul Xoca Əhməd" təxəllüsü işlətmişdir. Həmin bu axarın davamı kimi Türküstan baxşılarının Qul Əlbənd, Qul Məşrəb, Qul Mahmud, Qul Əhməd, Qul Məhəmməd; Azərbaycan el şairi və aşıqlarının Miskin Abdal, Qul Abbas, Xəstə Qasım, Divanə Həsən, Miskin Mahmud, Şikəstə Abdulla, Yetim Aydın, Səfil Şenlik, Anadolu saz şairlərinin Qul Hümmət, Qul Dəvəçi, Quloğlu, Öksüz Dədə, Aşıq Dərdli adlarıyla sənət aləminə gəlmələri təriqət cazibəsinin olduqca böyük mənəvi və coğrafi genişliyə malik olduğundan soraq verir. Hələ orasını da əlavə eləyək ki, sözügedən cazibənin qüvvətli təsiri altında türk xalqlarına məxsus etnik-coğrafi ərazilərin qonşuluğundakı digər xalqların – gürcü, yunan və ermənilərin aşıqları da təriqət məzmunlu təxəllüsləri və təxəllüs təyinlərini bol-bol işlətmişlər. XVII-XVIII yüzilliklərdə yaşayıb-yaratmış Qul Artun, Qul Arzuni, Miskin Bürcü kimi erməni aşıqlarının götürdüyü təxəllüslər onların hansı mənəvi-ürfani aləmə bağlandıqları barədə istiqamətverici təsəvvür oyadır. Gürcü və yunanlar arasında müxtəlif zamanlarda Səfil Lado, Şeydayi, Səfil Dato, Səfil Maqdalan adları ilə çalıb-çağıran çoxsaylı

saz-söz ustalarına təsadüf olunması da təriqət əhatəsinin geniş şəbəkəyə malik olmasının əlamətidir.

"Miskin", "qul", "xəstə", "qərib", "səfil", "şikəstə", "abdal", "divanə" sırasından olan ad-terminlərlə "aşiq"-"aşıq" ad-termini sufi-dərviş kontekstində eyni və yaxud olduqca yaxın tarixi semantikanı paylaşır. İlahi eşqə bağlılığın çeşidli rəmzi-ürfani ifadəsi olan bu ad-terminlər erkən orta əsrlərdə, demək olar ki, tam bərabərhüquqlu qaydada işlənmiş və asanlıqla biri digərinin əvəzedicisinə çevrilə bilmişdir. Zaman keçdikcə sadalanan ad-terminlər içərisində "aşiq" daha çox fəallaşmış və populyarlıq qazanmışdır. "Aşiq"in, "qul", "xəstə", "qərib", "abdal", "miskin" cərgəsindən irəli çıxıb dominantlıq əldə etməsi onu sözügedən fəlsəfi-ürfani istiqamətdə (sufi-dərviş kontekstində) ad-titul səviyyəsinə yüksəltmişdir. Ad-titulun daşıyıcısı ("aşiq"-"aşıq") istər dərvişlik missiyası yerinə yetirdiyi, istərsə də sənətkar statusu altında fəaliyyət göstərdiyi zaman başlanğıc mərhələdəki sıradaşlarını həm təxəllüslərində, həm də simvolik-ürfani leksikonlarında tez-tez diqqət önünə çəkmişlər. Bu mənada "qul"-"aşıq", "miskin"-"aşıq", "xəstə"-"aşıq", "qərib"-"aşıq" paralelinin klassik aşıq poeziyasında tarixi adekvatlıq kimi inikas olunması tamamilə təbii bir qanunauyğunluqdur.

TƏZƏNƏ – sazın simlərinin səsləndirilməsi üçün istifadə olunan uzunsov, oval şəkilli kiçik ağac hissəciyi. Əvvəllər çalğı vasitəsi gilas ağaçının qabığından hazırlanmışdır. İndi isə o, plastmas materialdan düzəldilmiş təzənə ilə əvəz olunmuşdur. Təzənə ilə sazın bütün simlərinə və ya alt simlərə, eyni zamanda, sazın sinəsinə vurmaqla səs hasil edilir.

TİRCANLI ORUC (XIX əsr, Şamaxı qəzası, Tircan kəndi) – Şamaxı aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardan olmuşdur. Folklorşünas Mahmudbəy Mahmudbəyov onun haqqında müəyyən bilgilər vermişdir. Aşıq sənətinin istedadlı nümayəndələrindən olan Aşıq Qəribin, Abbas Tufarqanlının və Xəstə Qasımın yaradıcılığından örnəkləri onun repertuarından yazıya almışdır. SMOMPK-ın 19-cu buraxılışında (1894) yazıya alınan bir çox aşıq şeirləri Azərbaycan dilində xüsusi transkripsiya ilə verilmişdir. "Aşıq Qərib", "Molla Qasım" (Xəstə Qasım), "Abbas və Gülgəz" dastanı Aşıq Orucdan toplanmışdır. Toplanan örnəklərin mühüm bir hissəsi "Kaspi" qəzetində (1895, № 137) çap olunmuşdur.

TİTRƏTMƏ – saz alətində istifadə olunan çalğı üsulu. Barmaq sim üzərinə basılaraq az titrəyişlə "vibrasiya" səslənməsi yaradır.

TONALLIQ – məqamın səs düzümünün yerləşdiyi dəqiq yüksəklik. Tonallıq səslərin cazibə qüvvəsi (meyilliliyi) və musiqi quruluşunda tonikanın yerindən asılıdır. Tonallıq məqamın əsası olan I pillənin adı ilə adlandırılır. Aşıq havalarında tonika – mayə rolunu köklənmə zamanı yaranan və üç səsdən ibarət olan akkord təşkil edir. Aşığın səs diapazonundan, fərdi ifa imkanları və musiqi duyğusundan asılı olaraq sazın açıq sim üzərində yaranan səs düzümü

müxtəlif tonlardan başlanğıc götürə bilər. Yəni, ənənəvi olaraq, sazın müəyyən olunmuş açıq siminin do1 tonundan deyil, digər tonlardan köklənməsi mümkün haldır. Məsələn, şah pərdə kökündə ifa olunan havalarda açıq sim – "İran qaraçısı" – lyak, "Mansırı" – si bemolk, "Ovşarı" – sik, "Qaytarma" – do1, "Mirzəcani" – do diyez1, "Göyçəgülü" – re1, "Bayramı" – mi bemol1 tonu üzərində köklənmişdir. Belə olan halda havanın mayə akkordunun səslərinin yüksəkliyi və uyğun olaraq, tonallıqları dəyişir.

TONİKA – məqamın bütün pillələrinin meyil etdiyi ən sabit pillə. Avropa məqam sistemində hər hansı bir məqamın I pilləsi. Ü.Hacıbəylinin yaratdığı milli səs-məqam sistemindən fərqli olaraq, tonika-mayə məqamın I pilləsində deyil, əsasən, IV pillədə və ya digər pillələrdə yerləşir (Rast, Şur, Segah, Çahargah, Bayatı-Şiraz – IV pillədə, Humayun – IV, IX pillədə, Şüştər – VI pillədə). Aşıq havacatında iki məqam təbəqəsi – vokalın monodik məqamı və çalğının harmonik məqamı mövcuddur və hər ikisi bir-birilə üzvi şəkildə bağlıdır və biri digərini tamamlayır. Üç səsdən ibarət harmonik məqam hər bir aşıq havasının sabit tonika akkordu kimi çıxış edir və monodik məqam ona istinad edir. Baş pərdə kökünə aid olan havalarda monodik məqamın tonikası-mayəsi harmonik akkordun bəm səsi üzərindədir – yəni baş pərdədir. Şah pərdə kökünə aid olan havalarda mayə çox zaman "bəm" səsi üzərindədir – yəni şah pərdədir. Lakin harmonik akkordun digər səsləri – yəni "dəm" və ya "zil" də sabit səs funksiyasını daşıya bilər (məsələn, "Bəhri divani" havasında melodik məqamın tonikası – mayəsi "zil"lərdir (açıq pərdə). Qeyd etmək lazımdır ki, aşıq havalarının özəl cəhətlərindən biri odur ki, hər iki məqam təbəqəsində başlanğıc impuls-səs böyük önəm daşıyır və havanın melodik, məqam-intonasiya əsasının bünövrəsini qoyur.

TRAKTAT – nəfis şəkildə tərtib olunmuş əlyazma kitab, risalə. Orta əsrlərdə Yaxın və Orta Şərqdə böyük mütəfəkkirlər, alimlər tərəfindən yazılmışdır. XIV yüzillikdə yaşamış böyük Azərbaycan musiqişünas-alimi, bəstəkar, şair, müğənni və instrumental ifaçı Ə.Marağai iki əsərində – "Məqasid əl-əlhan" ("Melodiyaların məqsədi") və "Favaid əşərə" ("On fayda") traktatlarında 40-a yaxın alət haqqında, onların forma və quruluşu, köklənmə üsulları, ifa texnikası, səs hasil etmə və müşayiət xüsusiyyətləri haqqında müfəssəl fikirlər söyləmişdir. Müəllif bu alətlər arasında "Şirvan tənburu", "Türk tənburu", "Ozan, Rum qopuzu", "Şıdırqu", armudşəkilli çanağa malik "Şeştay" adlarını çəkmiş, baxşılar və peşrov (peşrou) haqqında məlumatlar vermişdir. XIII yüzilliyə aid "Əcaib ad-dunya" adlı anonim coğrafi əsərdə Ərdəbil şəhərində hazırlanan sazlardan bəhs olunmuşdur. Əbdülmömin Səfiəddin "Behcətül-ruh" traktatında ayrıca bir fəsildə bir sıra alətlərlə yanaşı, tənburun quruluş xüsusiyyətlərini açıqlamışdır. Tarixçi, şair və xəttat İskəndər Münşi (1560/61-1629) "Tarixi alam aray-i Abbasi" əsərində məşhur olan alətlərin – saz, tənbur, dəf və s. adlarını çəkir. Övliya Çələbi (1611-1679) "Səyahətnamə" əsərində Şeştarı (tənburun bir növü) yaradan Əlixan

Təbrizi, Çahartarda çalan, məşhur ifaçı naxçıvanlı Muradağa haqqında məlumat verir. Azərbaycan musiqişünası Əmirxan Kövkəbi (Kamtarinin) "Risaleyi musiqi" adlı əsərində (1696) "Koroğlu" adlı sazda çalıb-oxuyan müğənni haqqında, XVIII yüzilliyə aid "Şərq musiqisi üzrə təlim" əsərində digər alətlərlə yanaşı, tənbur haqqında qiymətli məlumatlar vardır. Sonuncu əsərdə 5 simli tənburun növləri, 29 pərdənin adı (batdal, davud, şah mansur, kiçik mansur, balaahəng, usta-həsən, həfti-bənd, süpürdə və b.) və registrləri (aşağı, orta, yüksək) ətraflı şəkildə qeyd olunmuşdur.

TRANSPOZİSİYA (latın: transpositо – yerdəyişmə) – musiqi əsərinin səslərinin bir interval ya yuxarı, ya da aşağı köçürülməsidir. Bu zaman əsərin əsaslandığı məqam dəyişilmir, tonallıq isə dəyişir. (Bir oktava yuxarı transpozisiya olarkən tonallıq saxlanılır.) Transpozisiya rahat ifa üçün tətbiq olunur. Vokal partiyalar müəyyən səsin rahat registrinə köçürülür və alətin partiyaları – ona rahat olan tonallığa keçirilir. Aşıq sazın pərdələrini öz səsinə görə nizamlayır və bununla da oxumaq üçün rahat registr əldə edir. Aşıq havalarında əsas instrumental melodiyanın məqam çərçivəsində, kvarta intervalı nisbətində yuxarı köçürülməsi hallarına rast gəlmək mümkündür ("Divani", "Misri" və s.). "Kərəm şikəstəsi, "Şah Xətayi divanisi", "Oğuzoğlu" havalarında isə ikinci bənd bir oktava yuxarı ifa olunur.

TRUBADURLAR – XI-XIII əsr Avropa şair-müğənniləridir. Kurtuaz ədəbiyyatının nümayəndələri hesab olunurlar. "Kurtuaz" bir termin kimi, fransız sözü olub, nəzakət anlamını verir. Avropada (Provannesdə, Şimali Fransada, Almaniyada, sonralar İngiltərə, İspaniya və İtaliyada) ədəbi cərəyandır. Saray cəngavər ədəbiyyatı anlamına gəlir. Kurtuaz ədəbiyyatının başlıca qayəsi, idealı, eposlardan fərqli olaraq, nəsil, yaxud ölkə deyil, şəxsi şöhrət və ləyaqət naminə göstərilən rəşadətin, mənəvi kamilliyin tərənnümüdür. Trubadurlar məhz bir sənətkar olaraq həmin rəşadətin, fərdlərin şəxsi həyatını tərənnüm etmək yolunu tuturdular. Burada mənəvi kamillik məsələsi də vardır: Provans ədəbiyyatı, truverlər, minnezingerlər, cəngavər romanları ("Tristan və İzolda", "Artur haqqında Kelt əfsanələri" və s.). Şərqdə cəngavərliyi əks etdirən nümunələr daha çox epos ənənələrinə bağlanır. Gilyom de Puatye, Bentadur, Markabrü, Qrafinya de Dia və b. məşhur trubadurlar olmuşlar. Onlar ayrı-ayrı zadəganların şücaətini, sevgi macəralarını, ov səhnələrini, həyatlarının müxtəlif maraqlı tərəflərini əks etdirmək yolunu tuturdular. Məhz bu səbəbdən də trubadurların fəaliyyəti, yaşamı bir yaradıcılıq istiqaməti kimi uzunmüddətli olmadı. M.Allahmanlı trubadurlarla bağlı araşdırmalar aparmışdır.

TÜRKƏDARİ QULU ƏLİQULU OĞLU (1920, Qaradağ mahalı – 1994). Təbriz-Qaradağ aşıq mühitində zəngin söz və havacat repertuarı ilə seçilmişdir. Böyük nüfuz sahibi olan ustad aşıq kimi saz-söz məclislərinin başında durmuşdur. Erkən yaşlarından sənətə böyük həvəs göstərmişdir. Ustadlardan dərs almış, sənətin sirlərinə yiyələndikdən sonra müstəqil aşıqlığa başlamışdır. Gözəl səsi və dastançılıq qabiliyyəti olmuşdur. Qədim saz havalarının dərin bilicisi kimi ad çıxartmışdır. Əlliyə yaxın dastanı sinəsində gəzdirmişdir. Klassik aşıq deyişmələrinin usta təqdimatçısı kimi tanınmışdır. Xəstə Qasım müəmmalarını açmaqda böyük sənət hünəri göstərmişdir. Təbrizdə, Qaradağda, Tehranda və digər bölgələrdə məclislər aparmışdır. Çoxlu sayda şagirdlər yetişdirmişdir. Ustad sənətkar kimi məşhur olmuşdur.

TÜRKMAN FİKRƏT (1945, Yozqat, Abdilli kəndi - İzmir) – Türk dünyası araşdırmaları üzrə tanınmış professor. Ərzurum Atatürk Universitetində Türk dili və ədəbiyyatı fakültəsində oxumuşdur (1963-1967). Doktoranturaya daxil olub (1968) İstambula göndərilmişdir. "Aşıq Qərib" dastanında müqayisəli araşdırmalar" mövzusunda dissertasiya işi yazmışdır (1972). Fransada (Paris şəhəri) Pertev Naili Boratavın yanında çalışmışdır (1974-1976). Atatürk Universitetində (1976-1978), Egey Universitetində (1978) işləmişdir. Dosent (1980), professor (1986) olmuşdur. Bakı Dövlət Universitetinin fəxri doktorudur (1992). Qırğızıstanda "Manas"ın 1000 illik yubileyində mükafata layiq görülmüşdür (1995). Türkmənistanda "Məhtimqulu" mükafatı almışdır (1996). "Tahir və Zöhrə" hekayəsi" (1983), "Manas" dastanı üzrə incələmələr" (1995), "Türkman şeir antologiyası" (1995), "Aşıq Şərəf Taşlıova" (2008) və s. adlı kitabları vardır.

TÜRKÜ – mahnılardır. Bütün müstəvilərdə "mahnı" ilə sinonimləşir. Sovet dönəmində Azərbaycanda "türk" sözünə qarşı dayanıldığı üçün "türkü" adı da yasaqlanmış və "mahnı", "nəğmə" sözləri ilə əvəzlənmişdir. Xalq ədəbiyyatında çox geniş şəkildə yayılmış melopoetik folklor nümunələridir. Qəhrəmanlıq, məhəbbət, təbiət gözəlliklərinin təsviri və s. mövzularda olur. Türkülər xalq ədəbiyyatının çox qədim nümunələri sırasında həmişə mühüm əhəmiyyət kəsb etmişdir. Tarixi prosesdə dəyişikliklərə uğramasına baxmayaraq, həmişə xalq ruhunun ifadəsi türkülərdə əsas və başlıca amil kimi görünmüşdür. Ölçü və qafiyələnmə baxımından gəraylı və qoşmaya bənzəyən türkülər daha çox bəstə baxımından seçilir. Bölgə özəllikləri ilə fərqlənir. Özəlliklərinə görə Urfa ağzı, Egin ağzı, Kayabaşı, Türkməni və s. kimi sıralamalar vardır. Türkülər şəkil baxımından sözləri dəyişən və dəyişməyib təkrarlanan (nəqərat) mis-

ralardan yaranır. Türk ədəbi-nəzəri fikrində dəyişənlər "bənd", təkrarlananlar "bağlama" adlanır. Heca vəznində gəraylı (səmavi), qoşma formalarında nizamlanır.

Eşqin bağlarında güllər bitməyir,
Viran bağçalarda bülbül ötməyir.
Yarımın sevdası sərdən getməyir
Gəl ağam, gəl ağam, gəl də yenə get,
Axan gözüm yaşın sil də, yenə get.

Bəzi türkülərdə misra əvvəlinə və sonlarına "ah", "of", "aman" və s. kimi sözlər artırılır. Onlar bəzən misra ölçüsünə nizamlanır, bəzən isə nizamlanmır. Türkülər regional özünəməxsusluqları ifadə etmək baxımından seçilir.

TÜTƏK – Azərbaycanın hər yerində geniş yayılan musiqi alətlərindəndir. Ondan, tarixən əsasən, çobanlar istifadə etmişlər. Bunu başqa musiqi alətlərinə nisbətən yığcamlığı, gəzdirilməyinin asanlığı ilə izah etmək olar. Tütəyin «Çoban tütəyi» adlanmasının bir səbəbi də məhz budur. Onun tarixi çox qədimdir. Tütək, xalqın təsərrüfatı, məişəti, mənəvi həyatı ilə sıx bağlı olmuşdur. Daha doğrusu, qoyunçuluqla əlaqədar yaranmışdır. «Deyilənə görə, tütəyi dağların, düzlərin yaraşığı olan çobanlar icad etmiş, ilk dəfə onlar dilə gətirmişlər. 10-12 min il tarixi olan bu musiqi alətinin belə uzunmüddətli yaşamasının başlıca səbəbi xalqın həyatı ilə bağlılığındadır.

Tarixən tütək indiki kimi olmamışdır, tədricən inkişaf edərək hazırkı şəklə düşmüşdür. İlk tütək barmaq dəlikləri olmayan adicə borudan ibarət olmuşdur. Sonralar görünür ki, bu səsi inkişaf etdirmək, müxtəlif səviyyədə səs almaq üçün yeni üsullar, vasitələr axtarılmışdır. Həmin axtarışların nəticəsi kimi tütəkdə dillər (dəliklər) açılmışdır.

Tütəyin uzunluğu 240 mm-dən 350 mm-dək olur. Onun uzunluğunun fərqi tütəyin səs səviyyəsi, kökü ilə bağlıdır. Tütək uzun olarsa, onun səsi bəm, qısa olarsa, zil olardı. Tütək əvvəllər ağacdan hazırlanmışdır. Lakin soralar qamış tütək üçün ən yaxşı material hesab edilmişdir. Çünki taxtadan onu hazırlamaq çətindir və hər adam da hazırlaya bilməzdi. Qamış isə tütək üçün hazır materialdır. Ağacdan fərqli olaraq onu hər bir adam hazırlaya bilər. Ona görə də qamış tütək daha geniş yayılmışdır.

Tütəyin gövdəsinin üst tərəfində yeddi dəlik olur. Lülənin arxa hissəsində isə yuxarıda baş barmaq bərabərində bir dəlik açılır. Çalınmasında isə hər iki əl

iştirak edir. Çalğı prosesində şəhadət, orta, adsız barmaqlarla tütəyin üst hissəsində olan yeddi dəlikdən altısı bağlanır, biri isə açıq qalır. Altında olan dəlik baş barmaqla tutulur.

Tütəkdə, əsasən, «Çoban bayatı»sı ifa edilir. Bu hava aşıq ifaçılığında da mühüm yer tutur. Adından göründüyü kimi, bu hava çobanlar tərəfindən bəstələnmişdir.

U

URMİYA AŞIQ MÜHİTİ – söz repertuarı Təbriz-Qarabağ mühitindən o qədər seçilməsə də, ifaçılıq prinsipləri, auditoriya-dinləyici çevrəsi ilə münasibətləri, fəaliyyət formaları və musiqi yükü baxımından bir sıra qabarıq özəlliklərə malik olan Urmiya aşıq mühiti Güneyin əsas aşıq ocaqları sırasında yer alır. Xoy, Maku, Səlmas, Sulduz və Urmiyanın özünü əhatə edən bu mühit Azərbaycan aşıq sənəti ilə Anadolu aşıq sənəti arasında bir keçid – körpü rolu oynayır. Urmiya mühiti təkkə kökənli aşıqlarla aşıqlaşmış ozanların qovuşduğu sənət çevrəsidir.

Mühitin çağdaş ifaçılıq biçimlərində qovuşuğun bu nisbəti orijinal mədəni-tarixi keyfiyyət kimi aşkar şəkildə görünməkdədir. Belə ki, Urmiya aşıqlarının hərəkətli-rəqsli ifaçılıqla yanaşı, bardaş quraraq çalıb-oxumaq vərdişinə sahib olması sözügedən qovuşuğun əyaniliyidir. Təksaz ifaçılığa əsaslanan bu mühitin çalğı biçimi Anadolu aşıqlarının (xüsusən də Qars, Amasiya-Çıldır, Sivas, Ərzurum və İqdır çevrəsinin) çalğı biçimiylə xeyli dərəcədə səsləşir. Bununla belə, qeyd etmək lazımdır ki, Urmiya mühitinə məxsus saz havalarının ahəngində Anadolu saz havalarına bənzər melodik axarın duyulması kənardan gələn təsirdən daha çox, içəridə – mühit daxilində baş verən, yəni Urmiya aşıqlığını meydana çıxaran iki axarın – təkkə kökənli aşıqlıqla aşıqlaşmış ozanlığın qovuşmasıyla bağlı bir məsələdir.

Urmiya aşıqlarının səs tipində çağdaş türkmən baxşılarının oxu tərzinə – boğaz qaynatmalarına yaxınlıq, daha dəqiq desək, oxşarlıq müşahidə edilir ki, bu da mühitdə əski ifaçılığın – ozan ifaçılıq ənənəsinin xeyli dərəcədə qorunub saxlanıldığını göstərir.

Urmiya aşıqları sazı bir ibadət vasitəsi olaraq da dəyərləndirməkdədirlər. Bu cəhət həm də təkkə kökəninə

– sufi-dərviş sisteminə digər mühitlərə nisbətən daha mühafizəkarlıqla yanaşmağın əlamətidir. Yaxın zamanlara – XX yüzilliyin ortalarına qədər Urmiya aşıqları toy-düyün məclislərindən əlavə, saz götürüb xanəgaha – təkkə ocağına gedər və orada ilahilər oxuyarmışlar. Maraqlıdır ki, indinin özündə də bir qisim ələvi-dərvişlər Urmiyada məclis quraraq tənbur çalır, həzrət Əli şəninə mahnılar oxuyur və rəqs edirlər.

Zəngin söz və musiqi repertuarına malik olan Urmiya aşıq mühitində dastan ifaçılığına ayrıca diqqət yetirilir. Bəzən bir neçə gün çəkən toylar və dastan gecələri indi də Urmiyanın bir çox yerlərində, xüsusən də aşıqsevər kəndlərində ənənə olaraq davam etməkdədir.

Mühitin söz repertuarındakı dastanların sayı 40-45 arasındadır. Ən yüksək repertuar göstəricisi Aşıq Dehqana məxsusdur (qırx beş dastan, yetmişə yaxın saz havası və min beş yüzdən yuxarı aşıq şeiri). Klassik dastanlarla yanaşı, burada «Kəmtər», «Qulam-Heydər», «Əhməd-İbrahim», «Kəlbi» kimi regional səciyyəli dastanlar da söylənilir. Əsas «Koroğlu» ocaqlarından sayılan Urmiyada dastanın on qolu vardır.

14 pərdəli, 7 simli sazların üstünlük təşkil etdiyi Urmiya mühitində bəstəçiliyə güclü meyil göstərildiyindən burada çox sayda yerli saz havası müşahidə edilir: «Hicranı», «Hələbi», «Şəkəryazı», «Qürbəti», «Xoy Əmrahısı», «Ovçu gəraylısı», «Taciri», «Rəvzə gəraylı», «Səmayi», «Siyastabulu», «Möhtərəmi», «Urmani divanisi», «Şərqi», «Urmiya gözəlləməsi» və s. bu kimi havalar zəngin melodik tərkibə malik sənət örnəkləridir. Bu havaların əksəriyyəti zil kökə bağlıdır və temperamentli – coşqun oxu tərzi tələb edir. Ümumiyyətlə, Urmiya aşıqları digər mühitlərə məxsus aşıqların ifaçılığından daha çox yüksək səsli iti oxu biçimi ilə seçilir. Bu səbəbdən də onların ifaçılığında yardımçı melopoetik mətnlər olduqca seyrəkdir.

Urmiyada təkkə ənənəsinin davamı kimi aşıqların toy-düyündən əlavə qəhvəyə – çayçıya yığışaraq məclis qurmaları, qəhvə – çayçıya toplaşanların qarşısında çalıb-oxumaları bir ənənə olaraq indi də yaşamaqdadır. Mərasimə başlayan aşıqlar növbə ilə çalıb-oxuyur və get-gedə məclisi qızışdırırlar. Müəyyən mərhələdən sonra çayçıya toplaşanlar da aşıqlara qoşulub sıra ilə oxumağa başlayırlar. Ekstaz-coşqunluq əhvalında olan məclis saatlarla davam edir. Burada təkkədə keçirilən «səma» məclislərinin əlamətləri aşkar görüntülərlə nəzərə çarpır: məclisdəkilər məclis-mərasim axarının təsir və təşviqiylə ona qoşulur, ekstaz halına gəlir, oxuyur. Bundan başqa, oxu mətnlərində təriqət məzmunlu örnəklər də kifayət qədər yer alır ki, bu da qəhvə-çayçıda təkkə ənənəsinin davam etdirildiyini, daha doğrusu, onun geniş kütlə arasına çıxarıldığını göstərir.

Urmiya şəhərində «Aşıqlar qəhvəsi» adı altında üç çayçı fəaliyyət göstərir. Xoy, Səlmas və Miyandab şəhərlərində də aşıqların cəmləşdiyi çayçı-qəhvələr vardır. Buraya gələn saz-söz sevənlər çay içə-içə və ya sulu qəlyan (nargilə) çəkə-çəkə aşıqları dinləyər və zövqlərinin oxşanmasına cavab olaraq aşığa nəmər verərlər.

Saza və sözə ciddi tələbkarlıqla yanaşılan Urmiya mühitində Dollu Mustafa, Balovlu Miskin, Dollu Məhəmməd, Aşıq Fərhad, Aşıq Rüstəm, Rəvzəçaylı,

Aşıq Əbdürrəhim, Aşıq Lütfəli, Aşıq Əli Qırmızıbaş, Aşıq Aslan Xoylu, Aşıq Dərviş, Aşıq Dehqan kimi qüdrətli sənətkarlar yetişmişdir. Bunların içərisində Dollu Mustafa (XVIII-XIX yüzillik) və Balovlu Miskin (XIX yüzillik) yaradıcı sənətkarlar kimi daha çox seçilir. Hər iki aşığın kamil poetik örnəklərdən ibarət zəngin bədii irsi çağdaş Urmiya aşıqlarının repertuarında qorunub saxlanılır. Mühitin çağdaş ustadı Aşıq Dehqanın sənət şəcərəsi Azərbaycan aşıqlığında aparıcı axarlardan birini yaratmış Dollu Mustafaya bağlanır:

Aşıq Dehqan (XX-XXI yüzillik)
↑
Aşıq Fərhad (XIX-XX yüzillik)
↑
Aşıq Cavad (XIX yüzillik)
↑
Dollu Məhəmməd (XVIII-XIX yüzilük)
↑
Dollu Mustafa (XVIII-XIX yüzillik)

Böyük sənət ənənəsinə və zəngin ifaçılıq təcrübəsinə malik olan Urmiya aşıqlığının çağdaş qaynar həyatında Aşıq Dehqan, Aşıq Manaf, Aşıq Cavanmərd, Aşıq Məhbub, Aşıq Əli Qarağaci, Aşıq Bulud, Aşıq Zülfəli, Aşıq İsmiəli, Aşıq Nədim, Aşıq Qəmbər və başqa istedadlı saz-söz ustaları mühüm rol oynayırlar. Bu aşıqların bir qismi Aşıq Dərviş, bir qismi isə Aşıq Dehqan ifaçılıq məktəbinə mənsubdurlar. Hazırda Dehqan aşıq məktəbinin ardıcılları daha çoxdur.

Mahalın Balov, Dol Dizəsi, Aşnabad, İqdır, Əngənə kəndləri əsas «aşıq ocaqları» sayılır. Bu kəndlərin yaxınlığında «İmamzadə», «Qəribhəsən», «Xəlifə Məhəmməd», «Əli Pəncəsi» kimi sınaqlı pir-ziyarətgahların mövcudluğu orta yüzilliklərdə həmin nöqtələrdə güclü sufi-dərviş ocaqlarının fəaliyyət göstərməsi ilə bağlıdır ki, daha sonra orada aşıq məskənlərinin yaranması da bu tarixi prosesin qanunauyğun nəticəsidir.

Yuxarıda adları çəkilən kəndlər arasından Dol Dizəsi kəndini ayrıca vurğulamaq lazım gəlir. Aşıq sənətinin yaranışından üzü bu yana ta indiyə qədər bu kənddə iki yüzdən yuxarı aşığın yaşayıb fəaliyyət göstərdiyi söylənilir. Azərbaycan aşıqlığında qüdrətli ustadlar kimi xatırlanan Dollu Mustafa, Dollu Məhəmməd, Dollu Abuzər bu ocağın yetirmələridir. Dollu Mustafaya şagirdlik edən Dollu Abuzərin sonralar Borçalı aşıq mühitində aparıcı ifaçılıq axarlarından birini yaratması da bu baxımdan təsadüfi deyildir. Qafqazın digər aşıq mühitlərində müşahidə edilməyən «Dol Hicranı» saz havası da, çox güman ki, Dollu aşıqlara məxsus bəstədir və Borçalıya Dollu Abuzər tərəfindən gətirilmişdir. Bu hava Urmiya aşıq mühitində, sadəcə olaraq, «Hicranı» adı ilə tanınır. Borçalıda geniş yayılmış «Bəhməni», «Qürbəti» – «Qürbəti Kərəm», «Mansırı» havaları da eyni xətlə Urmiya mühitindən gətirilmədir.

Urmiya aşıq mühitinin saz-söz iqlimi digər Azərbaycan mahallarına yayılmaqla yanaşı, bu ərazidə, yaxud bu əraziyə yaxın regionda məskun olan yabançı etnosların (kürd, erməni və aysorların) arasına da nüfuz edə bilmişdir. Ötən yüzilliklərdə Azərbaycan türkcəsində çalıb-çağıran çoxsaylı erməni aşıqlarının xeyli qisminin Urmiyada yaşayıb-yaratması da bu səbəbdəndir. Bunların içərisində XVIII yüzillikdə yaşamış Salmaslı Qul Ərtun öz ustadnamələri ilə

çox məşhurdur.

Urmiyanın cənub zolağı boyunda – ***Sulduz mahalında «Qarapapaq aşıqları»*** adı ilə tanınan el aşıqlarının ifaçılığı ana axarla Urmiya aşıqlığına bağlanmış olsa da, bir sıra özəlliklərə də malikdir. Sulduz qarapapaqlıları Qazax-Borçalı mahalındakı tərəkəmə-qarapapaqlarla eyni tayfadırlar. Sulduzdan Qazax-Borçalıya, oradan isə Qars və Ərzuruma, daha sonra isə yenidən Sulduza tarixi tərəkəmə köçləri barədə qaynaqlarda bilgilər vardır. Sulduz camaatı arasında da bu barədə çoxsaylı söhbətlər gəzir. Sulduz mahalının böyük bir düzənlik hissəsinin «Buzçəlü» adlanması da, heç şübhəsiz ki, Borçalı-Bozçalı ilə tarixi bağlılıqdan irəli gəlir.

Saz, düzələ (ikiyanlı tütəkdir), dümbək üçlüyünə əsaslanan Qarapapaq ifaçılığının oxu biçimi zil kökə bağlı el nəğməçiliyi tərzindədir. Qarapapaq aşıqlarının oxu və çalğı biçimi həmin çevrədəki kürd elatlarına güclü təsir göstərdiyindən kürd saz-söz sənətçiləri də eynilə onlar kimi çalıb-çağırırlar. Bu baxımdan Qarapapaq-Sulduz aşıqlarını müəyyən bir ifaçılıq məktəbi kimi səciyyələndirmək mümkündür.

Qarapapaq aşıqları arasından Aşıq Mahmudi, Aşıq Riza, Aşıq Əkbər, Solət Qasımi, Qulam Çiyanə kimi istedadlı ifaçılar çıxmışdır. İfaçılıqdakı özəlliyə baxmayaraq, Qarapapaq aşıqlarının söz və musiqi yükü Urmiya aşıqlarının repertuarından demək olar ki, fərqlənmir. «Sulduzu», «Sulduz gözəlləməsi», «Yel-yel» kimi regional səciyyəli havaları da vardır. Hazırda Qarapapaq aşıqlarının sayı on beşə yaxındır.

Ümumən çağdaş Urmiya mühitindəki aşıqların sayı isə yüz əlli-yüz altmış arasındadır. Tarixi ənənənin mühafizəkarlıqla qorunması baxımından bu mühitin yerinə yetirdiyi missiya əvəzsizdir.

Urmiya aşıqlar ənənəsi aşıq sənətinin ilkin- mənzərəsini təcəssüm etdirən əsas qaynaqlardan biridir.

URMİYALI FƏRHAD FÜZULİ OĞLU (1901, Urmiya – 1970) – Urmiya aşıq mühitinin XX əsrdəki əsas simalarından biridir. Erkən yaşlarından saza həvəs göstərmişdir. Aşıqlığın sirlərini ustad yanında mənimsəmiş və tezliklə istedadlı sənətkar kimi tanınmışdır. Klassik havaları, dastanları yüksək mükəmməlliklə ifa etmək bacarığı olmuşdur. "Rəvzə gəraylısı"nı özünəməxsus maneralarla çalıb oxuduğu üçün şagirdləri bu havaya həm də "Fərhad gəraylısı" adını qoymişdur. Urmiya aşıqlığına dair bölgəsəl havaların dərin bilicisi olmuşdur. "Urmani divanisi", "Rəvzə gəraylısı", "Cəmşidi", "Hicrani", "Urmi gözəlləməsi", "Siyas tabulu" havalarının misilsiz ifaçısı olmuşdur. "Qurbani", "Abbas və Gülgəz", "Xəstə Qasım" dastanlarının fərqli variantlarını sinəsində gəzdirmişdir. Təbriz, Qaradağ, Urmiya, Tehran və d. bölgələrdə məclislər aparmışdır. Çoxlu sayda şagirdlər yetişdirmişdir. Aşıq Dərviş, Aşıq Dehqan kimi ustad sənətkarlar ondan bəhrələnmişlər.

USTAD – aşıqlığın sirlərini dərindən bilən, aşıqlıq ədəb-ərkanına yüksək səviyyədə bələd olan və onu gələcək nəsillərə çatdıran sənətkarlara deyilir. Bu anlamda "ustad" aşıq sənətində ayrıca bir sənətkarlıq statusudur. Aşıq sənətində Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əmrah, Aşıq Mirzə Bilal, Aşıq Şəmşir, Mikayıl Azaflı, Aşıq Şakir, Sadıq Sultanov, Aşıq Kamandar, Aşıq Avdı, Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Ədalət Nəsibov və b. ustadlar olmuşlar. Onlar özlərinin sənətə hərtərəfli bələdliyi, məclis ədəb-ərkanı, yaradıcılığı ilə öz töhfələrini vermişlər. Xalq tərəfindən ustad kimi qiymətləndirilmişlər. "Aşıq el aynasıdır" təsəvvürünü formalaşdırmışlar. Ustadlar həm də sənətin sirlərini, aşıqlığın ədəb-ərkanını gələcək nəsillərə çatdırmaq, inkişaf etdirmək məsuliyyətini də öz üzərinə götürmüşlər. Yanlarında bacarıqlı, istedadlı, çalıb-oxuma qabiliyyəti olan, sənətə həvəs göstərən gəncləri şagird kimi saxlamışlar. Bir növ məktəb funksiyasını yerinə yetirmişlər. Xalq arasında işlənən "Ustadına bərəkallah" ifadəsi də həmin qiymətləndirmənin ifadəsidir. Folklorşünas M.Həkimov aşıq sənətində ustad-şagird ənənəsini problem kimi işləmişdir. O, xüsusi olaraq vurğulayır ki, hər bir ustad aşıq bir və ya bir neçə şagird götürür, onlara saz çalmaq, saz havalarının tələbinə müvafiq oxumaq, oynamaq, aşıq ədəbiyyatında işlənən bütün bədii növlərə, rəngarəng formalara aid şeirlər, dastanlar, qaravəllilər, ümumişlək halda desək, aşıq sənətinin incəliklərini, özünəməxsus spesifik cəhətlərini öyrədir. Hər kəs də ustadlar tərəfindən şagird götürülməmişdir. Ustad, yanına gələni ilkin yoxlamadan keçirir, şagirdin səsinə, nəfəsinə, istedadına yaxşı əmin olduqdan sonra onu yanına şagirdliyə qəbul edir. Ustad olma, ustadlıq, bu ada sahib çıxma çox ciddi məsələdir. Sənəti mükəmməlliklə bilənlər, fitri qabiliyyətdə olanlar, el içində dəfələrlə sınaqdan keçənlər tədrici prosesdə ustadlığa gəlib çıxmışlar. Burada "pür-kamallıq", "el içində pak oturub, pak durma", "xalqa həqiqətdən mətləb qandırma" kimi məsələlər vardır. Bu sənətkarlara "dədə" titulu da verilmişdir. Dədə Qasım, Dədə Ələsgər, Dədə Şəmşir, Dədə Ədalət və s. Ustad olma sənətdə alilik məqamıdır.

USTAD XEYİR-DUASI – ustad halallığıdır. Çünki hər bir şagirdin üzərində ustadının haqq-sayı olur. Dörd-beş illik zəhmətini çəkir. Həmin müddət ərzində ustad aşıqlığın şərtinə görə yeməyi, geyməyi də öz üzərinə götürür. Bütün bunların müqabilində şagird aşıqlığa yiyələndikdən, ustad imtahanından uğurla çıxdıqdan sonra ustad xeyir-duasını da almağı özünə borc bilir. Aşıq sənətinin bütün görkəmli nümayəndələri ustad xeyir-duası ilə aşıqlığa başlamışlar.

USTAD-ŞAGİRD ƏNƏNƏSİ – ustadın sənətinin sirlərini şagirdə öy-

rətməsi hadisəsidir. Yanında şagird saxlayıb aşıqlığı ona mənimsətməsi, məktəb funksiyası yerinə yetirməsidir. Ustad – şagird ənənəsi aşıq sənətinin mahiyyətində duran məsələdir. Azərbaycan aşıq sənətinin özünəməxsus xüsusiyyətlərindən biri də onda əsrlər boyu sabitləşən ustad-şagird ənənəsidir. Bu barədə Bülbül, M.H.Təhmasib, O.Sarıvəlli, M.Həkimov, M.Qasımlı müəyyən mülahizələr söyləmişlər. Hər bir ustadın şagirdi olmalıdır. Bu baxımdan ustad sənətkarları şagird «problemi» bütün ömrü boyu düşündürmüşdür. Qədimdən bəri aşıqlar öz əsərlərini çap edə bilməmiş, ədəbi irsini, təcrübəsini gələcək nəsillərə çatdırmaq üçün xüsusi şagirdlər yetişdirib onların vasitəsilə bu ənənələri yaşatmışlar. Şübhəsiz, böyük aşıqların öz məktəbi, necə deyərlər, özlərinə görə «studiyası» olmuşdur. Bu «studiya»nın vəzifəsi eldə, obada gözə dəyən istedadları tapmaq, aşıq sənətinin sirlərinə vaqif etmək, sonra da müstəqil həyata zəmanətdən ibarət olmuşdur. Şagird bir sıra xüsusiyyətləri – hafizəsi, məlahətli səsi, ifaçılıq məharəti, musiqini duymaq qabiliyyəti və s. ilə ustadın diqqətini cəlb etməli idi. Bu keyfiyyətləri olmayan gəncləri ustad heç zaman şagirdliyə qəbul etməzdi. Bülbülün yazdığına görə, hətta Aşıq Ələsgər həmin cəhətləri yoxlayandan sonra gəncin ağzına da baxardı, ağzı kiçik olan (oxumaq üçün, ifa üçün müğənninin ağzı geniş açılmalıdır) qəbul edilməzdi. Şagirdliyə yararlı gənclər çox qayğı və tələbkarlıqla hazırlanardı. M. Həkimov təlimin sazdan başlandığını yazır. Əvvəlcə sazı, onun pərdələrini bilmək, kökləməyi, sonra da çalmağı bacarmaq əsas sayılırdı. Özü də ustad əvvəlcə asan havalardan başlayır və mürəkkəbə doğru gedirdi. Şagirdlərə yalnız 16 yaşından sonra oxumağa icazə verilirdi. Aşıq Ələsgər şagirdlərinin səsi formalaşana qədər onlara evlən-məyə də icazə vermirdi. Ustad şagirdi məclislərə, toylara aparırdı, ancaq şagird onun icazəsi olmadan oxuya bilməzdi, gözləri çalıb-oxuyan ustadında olar, onun bütün

hərəkətlərinə diqqət edər, hamısını görüb götürərdi. Şagird ustadının yanında 4-5 il qalır, sənətin əsas sirlərinə yiyələnirdi. O, sazı istədiyi məqamda kökləməli, bütün havaları çalmağı bacarmalı, aşıq şeiri formalarını, dastanları əzbərdən bilməli, ustadının yaradıcılığına bələd olmalı idi. Nəhayət, ustad öz şagirdini ustadlar, dinləyicilər qarşısında imtahana çəkir. Bu imtahan eyni zamanda müstəqil həyata vəsiqə idi. Ustadlar həmişə istedadlı şagirdləri ilə, şagirdlər isə məşhur ustadları ilə fəxr etmişlər. Aşıq Ələsgər on iki şagirdi ilə fəxr edirdi. Molla Cuma məclislərə öz şagirdləri ilə gedərmiş. O, məclisi aparmağı ən istedadlı şagirdlərə tapşırar, özü isə, təklif olunarsa, axırda oxuyarmış.

USTAD ŞİLLƏSİ – ustad-şagird ənənəsində, sənətin sirlərini mənimsəmədə ustad tərəfindən vurulan şillədir. Bu şillə iki vəziyyətdə vurulmuşdur. Birincisi, məzəmmətləyici xarakter daşımışdırsa, ikincisi, artıq şagirdin sənətin sirlərinə kifayət qədər vaqif olduqdan, imtahandan uğurla çıxdıqdan, ustadın etimadını lazımınca doğrultduqdan sonra vurulmuşdur. Xalq arasında indi də "ustad şilləsi" termini işləkliyini qoruyub saxlayır. Məzəmmətləyici ustad şilləsi şagirdə o zaman vurulurdu ki, şagird ustadın öyrətdiklərini həftədə bir dəfə ustada qaytara bilmirdi. Ustad qarşısında sorğu-sual edilirdi. Şagird ustaddan gündəlik öyrəndiklərini həftəlik yoxlanışda olduğu kimi ifa etməyi bacarmırsa, aşıq ənənəsini həddindən artıq pozursa, kobud təhriflərə yol verirsə, o zaman ustad şagirdinə şillə çəkir. Bu, ustadın şagirdinə qarşı məzəmməti, təlim-tərbiyə üsulu hesab edilmişdir. Müsbət anlamda ustad şilləsi sənətin sirlərinə mükəmməlliklə bələdlikdən, imtahandan uğurla çıxdıqdan sonra olur. Ənənəyə görə, ustad bu yerin aşıq cəmiyyətinə (ustabaşına) məlumat verir. İmtahan edilmə günü müəyyənləşir. Əgər şagird imtahandan uğurla çıxarsa, ustabaşı yerindən qalxaraq ona ustad şilləsi çəkir. Şagird isə bunun müqabilində ustabaşının və ustadının əlini öpür. Münsiflərə təzim edir. Bundan sonra şagird müstəqil aşıqlığa başlaya bilir.

USTADNAMƏ – ustad sözü, ustad nəsihətidir. "Dədə Qorqud" boylarındakı "soylama" ilə yaxından səsləşir. XX əsrin ortalarına qədər ustad aşıqlar "ustadnamə" əvəzinə "ustaddama-ustadlama" deyimini işlətmişlər. Elmi ədəbiyyat "ustadlama"nı "ustadnamə" halına gətirmişdir. Aşıq poeziyasında ustadnamələr gəraylı, qoşma, təcnis, müxəmməs, divani, varsağı, heydəri, əlif-lam və s. formalarda yazılır. Ustadnamələrdə nəsihət, məsləhət, atalıq-böyüklük qayğısı, fəlsəfi ümumiləşdirmə, kainat, cəmiyyət, ailə-məişət, insani keyfiyyətlər öz əksini tapır. Məzmun və fikir etibarilə xalqın hikmətinin ifadəsi olan atalar sözü və məsəllər üslubca bədii sözün canlı, gözəl nümunələridir. Ustadnamələr bu xüsusiyyətləri ilə atalar sözü və məsəllərlə birləşir. Ustadlar yaradıcılığında ustad sözü deməyə, ustadnamə yaratmağa meyilli olmuşlar. Ustadnamələr dastanların əvvəlində bir formul kimi stabil şəkildə özünə yer almaqdadır. Ustadnamələr mürəkkəb süjetli dastanların əvvəlində və dastanların ruhu ilə əlaqədar olaraq hadisələrin gedişi prosesində özünə yer tapır. Dədə Qorqud, Qurbani, Kərəm, Qərib, Abbas Tufarqanlı, Xəstə Qasım,

Şəmkirli Hüseyn, Yəhya bəy Dilqəm, Aşıq Alı, Aşıq Ələsgər, Molla Cuma, Hüseyn Bozalqanlı və digər ustadlar ustadnamələrin klassik nümunələrini yaratmışlar. Məsələn:

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun, suyu gəlsin dərindən.
Söz bir olsa, dağ oynadar yerindən,
El bir olsa, zərbi kərən sındırar.
Abbas Tufarqanlı

və yaxud da

Aşıq olub tərki-vətən olanın
Əvvəl başdan pürkamalı gərəkdi.
Oturub durmaqda ədəbin bilə,
Mərifət elmindən dolu gərəkdi.
Aşıq Ələsgər

Ustadnamələrdə qüvvətli məntiq, oxucunu-duinləyicini hər an düşündürən fəlsəfi-didaktik məsələlər başlıca rol oynayır. Bu anlamda ustadnamələr aşıq sənətində dədə nəsihəti, ağsaqqal öyüdü kimi şərh edilir.

Ü

ÜMİDİ FƏRZULLAH LÜTFÜLLAH OĞLU (1961, Qaradağ mahalı, Gərməduz çevrəsi, Kirdazaylı kəndi – Tehran) – Klassik Qaradağ ifaçılıq ənənələrini davam etdirən ustad aşıq. Erkən yaşlarından aşıqlığa maraq göstərmişdir. Aşıq Hümmət Kələybərlinin yanında sənətin sirlərini öyrənmişdir. İyirmi beş ildir ki, sazı-sözü ilə məclislərdə təmsil olunur. Bir çox aşıq müsabiqələri və festivallarında uğurlu çıxışına görə diploma layiq görülmüşdür. "Qurbani", "Abbas və Gülgəz", "Aşıq Qərib", "Valeh və Zərnigar" və s. dastanları əsil ustad yolu ilə ifa edir. Təbriz-Qaradağ aşıqlığının dastançılıq ənənələrini öz şagirdlərinə də mənimsədir.

ÜST TƏZƏNƏ – saz alətində müntəzəm istifadə olunan çalğı üsulu. Təzənənin sim üzərinə yuxarıdan aşağı vurulması deməkdir. Üst təzənə 1) alt simlərə və ya 2) bütün simlərə vurulur.

ÜST-ALT TƏZƏNƏ – saz alətində istifadə olunan əsas çalğı üsulu. Təzənənin sim üzərinə növbə ilə üstdən alta və altdan üstə vurulması deməkdir.

V

VAHİDİ ƏLİRZA ƏHMƏD OĞLU (1951, Urmiya mahalı, Sulduz şəhəri - 1991) - Aşıq sənətində öz dəst-xətti olmuşdur. Onun ifaçılıq üslubu Sulduz-Qarapapaq aşıqları arasında "Vahid Əlirza" yolu və ya məktəbi kimi dəyərləndirilir. Repertuarında 70-dən çox hava yer almışdır. Solo saz ifaçısı kimi məşhur olmuşdur. Sulduz aşıqlığına öz sənət töhfələrini vermiş ustadlardandır. Sazbənd kimi də tanınmışdır. Aşıq şeirinin müxtəlif biçimlərində poetik örnəkləri vardır. Çoxlu şagirdlər yetişdirmişdir.



VAHİDZADƏ DƏRVİŞ FƏRHAD OĞLU (1927, Urmiya – 1994) – Urmiya aşıq mühitinin XX əsrdəki əsas simalarından biridir. Gənc yaşlarından saza həvəs göstərmişdir. Ustadı Aşıq Fərhad olmuşdur. Urmiya aşıq mühitinin XX əsrdəki istiqamətverici simalarından sayılır. Əlli dastanın, yetmişə yaxın saz havasının bilicisi kimi tanınmışdır. "Hicranı", "Urmani divanisi", "Cəmşidi", "Sultanı", "Təcnis", "Urmiya gəraylısı" və s. saz havalarını çox ustalıqla ifa etmişdir. "Xəstə Qasım", "Novruz-Qəndab", "Aşıq Qərib", "Valeh və Zərnigar" dastanlarını və "Koroğlu" eposunun qollarını özünəməxsus dastan manerası ilə təqdim etmişdir. Bu gün Urmiya aşıq mühitində ayrıca ifaçılıq məktəbi kimi "Aşıq Dərviş yolu" var. Onun sənət və ifaçılıq yolunu otuzdan yuxarı aşıq davam etdirir. Özünəməxsus çalğı və oxu manerası olmuşdur. Zil və ekstaz ruhlu səsi ilə diqqət çəkmişdir. Türkmən baxşı ifaçılığına və Anadolu-Ərzurum aşıq ifa biçiminə çox yaxın tərzdə çalıb çağırmışdır. Özümdən sonra zəngin ifaçılıq məktəbi qoyub getmişdir.



UNESCO-da ayrıca diski buraxılmışdır (1994).

VAQANT – ispan el nəğməkarlarıdır. Minnezingerlər, trubadurlar kimi vaqantlar da kurtuaz ədəbiyyatı ilə bağlıdır. Avropada sinkretik ədəbiyyatın xüsusiyyətlərini ifadə etmək baxımından da böyük əhəməyyət daşıyır. XI-XIV əsrlərdə Avropa mühiti yeni düşüncəni aktuallaşdırdı. Vaqantlar yunan və Roma ədəbiyyatının zəngin ənənələrindən bəhrələnməklə bir istiqamətdə aedlərin, rapsordların sinkretik yaradıcılığını mənimsədilər. Burada insan kamilliyindən çox mühitin və cəmiyyətin kamilliyi prosesləri başladı. Şübhəsiz, bu prosesdə trubadurlar, minnezingerlər böyük rol oynadılar. Provans ədəbiyyatını, kurtuaz ədəbiyyatını formalaşdırdılar, bir növ müasir Avropa ədəbiyyatına gedən yolu açdılar. Qədim Roma mədəniyyəti ilə müasir Avropa ədəbiyyatı arasında körpü rolunu oynadılar. Bu, XII-XIV əsrdə

Provansda (Fransanın cənub-şərqi), Şimali Fransada, Almaniyada, İtaliyada, İspaniyada mövcud olan saray cəngavər ədəbiyyatıdır. Burada başlıca məsələ mənəvi kamilliyin tərənnmüdür. Vaqantlar bu mənəvi kamilliyin ifaçısı idilər. Cəngavərlik romanları, məsələn, "Tristan və İzolda", "Kelt əfsanələri" saray cəngavərliyinə, şəxsi rəşadətə həsr olunmuşdur. Latın və ispan-ərəb ədəbiyyatının təsiri ilə yaranan vaqantların, trubadurların poeziyası XI-XIII əsrlərdə sinkretikliyi ilə xarakterizə olunur. Vaqantlar şair-müğənnilərdir. Onların yaradıcılığında mövzu rəngarəngliyi, həyat eşqi, qadın gözəlliyi, cəngavər rəşadəti özünə geniş yer alır. Avropa əəbiyyatının sonrakı inkişafı üçün vaqantların böyük rolu olmuşdur. Vaqant poeziyası ilə bağlı iki yüz nəğmə və şeir vardır. Arxinit Kilenskinin on şeiri mənbələrdə göstərilir. Valter Şatilonski də vaqantlar arasında kifayət qədər məşhur olmuşdur. O, Parisdə olsa da, Fransa kralı tərəfindən İngiltərəyə göndərilmişdi. Həyatın son dövrlərini qayıdıb Parisdə yaşamışdır. M.L.Qasparov. "Poeziya vaqantov" (M., 1975) əsərində vaqantların poeziyası ilə orta əsrlər Avropasında yeni romantik dövrün başlandığını söyləyir. Burada xristian ideologiyası çox güclü şəkildə özünə yer tapır. Sinkretik sənətin mənşə və təşəkkülü anlamında vaqantların tarixi-mədəni rolu böyükdür.

"VAQİF" DASTANI – Azərbaycanın görkəmli şairi Molla Pənah Vaqiflə bağlı yaranmışdır. "Vaqif – Sənəm xanım" dastanı adı ilə də qeyd edilir. 1996-cı ildə Qazax rayonunun Dağkəsəmən kəndində ustad aşıq Ədhəm Ərəbovdan yazıya alınmışdır. M.P.Vaqifin adı ilə bağlı "Vaqifi", "Vaqif gözəlləməsi" saz havaları da vardır. XVIII əsrdə ustad aşıqların Vaqifə ünvanladığı şeirlər, onun təsirilə aşıqların düzüb-qoşduğu nümunələr "Vaqif" dastanının yaranmasını zərurətə çevirmişdir. Dastanda Vaqifin uşaqlığı, Qazax rayonunun Yuxarı Salahlı kəndindəki həyatı, bədahətən söz demək bacarığı və s. haqqında danışılır. Dastandan aydın olur ki, onun bu bacarığı Qarabağ xanı İbrahim xana çatır. O, qırx evlə Qarabağa köçür. İbrahim xanın Sənəm xanım adında bacısı varmış, o, Vaqifi görüb ona vurulur. Dastanda M.P.Vaqifin həyatının müxtəlif mərhələləri, maraqlı məqamları – çobanın itinə dua yazması, Qarabağ xanının bundan xəbərdar olması, Tiflisdə Vəli xanın şairlərinə müraciəti, Tiflisə səfəri və s. öz əksini tapır. Sonda Vaqifin Sənəmlə evlənməsi verilir. Dastan duvaqqapma ilə başa çatır. "Vaqif" dastanı "Məhəbbət dastanları" (2007) kitabında nəşr olunmudur.

"VALEH VƏ ZƏRNİGAR" – məhəbbət dastanları silsiləsinə aiddir. XVIII əsr aşıq cənətinin ən görkəmli nümayəndələrindən olan Abdalgülablı Aşıq Valehin adı ilə bağlıdır. Aşıq Valehin həyatının mühüm bir hissəsi, müəyyən maraqlı tərəfləri bu dastanda özünün ifadəsini tapmışdır. "Valeh və Zərnigar", "Taleh və Həqiqət" Aşıq Valehin adı ilə bağlı olan dastanlardandır. Bu dastanlar uzun müddət xalq arasında yaşamış, məclislərdə aşıqlar tərəfindən söylənmişdir. Folklorşünas H.Əlizadə "Valeh və Zərnigar"ı 1927-ci ildə Tovuz rayonunda Şair Vəlidən yazıya almış, "Dastanlar və nağıllar" (1937) kitabında (səh. 5-25) vermişdir.

Sonralar folklorşünas Ə.Axundov bu dastanı 1944-cü ildə Aşıq Məşədi Dadaşdan (Laçın rayonu, Əhmədli kəndi) yazıya almış, "Azərbaycan dastanları"nın III cildində (toplayıb tərtib edəni Ə.Axundov, 1967, səh. 255-289) vermişdir. M.H.Təhmasib "Azərbaycan məhəbbət dastanları" (1979, səh. 356-381) kitabında nəşr etdirmişdir. "Valeh-Zərnigar" tərcümeyi-hal xarakterli dastandır. Aşıq Valehin həyatının müxtəlif tərəflərini öyrənmək, müqayisə və təhlillər aparmaq üçün bu dastan kifayət qədər əhəmiyyətlidir. Butaalmanın nisbətən fərqli, həm də maraqlı məqamları "Valeh-Zərnigar"da özünün ifadəsini tapır. Dastanda Zərnigar və Aşıq Valehlə bağlı real həyat məqamları kifayət qədərdir. Zərnigar Xacə Yəqubun qızıdır. On səkkiz yaşına çatmışdır. Və kifayət qədər istedadlı, hazırcavab, bacarıqlı bir qızdır. Belə bir qərar vermişdir ki, sazda kim məni bağlasa, onunla ailə quracağam. Aşıq Valehin şagirdi Aşıq Səmənd də bu xəbəri eşidib Dərbəndə gedir. Onunla deyişib məğlub olur. Zərnigar aşıq Səməndin ustadının Aşıq Valeh olduğunu bilib, ona namə yazır. "Əgər aşıq isən, bu meydana gəl" çağırışı ilə bir məktub göndərir. Həmin məktub Aşıq Valehə çatır. O, Dərbəndə getmək məcburiyyətində qalır. Anası, yaxınları onu bu səfərdən daşındırmağa çalışır. Ancaq alınmır. Valeh xeyir-dua alıb Dərbəndə yola düşür. Yolda bir sıra sənətkarlarla rastlaşır. Onlardan biri Məsum Əfəndi olur. Samur çayını keçib Dərbəndə çatır. Zərnigar xanımı tapır. Deyişmə başlayır və "Qarabağdan dov eyləyib gəlmişəm, əgər aşıq isən, bu meydana gəl" çağırışı ilə qarşılaşma olur. Zərnigar xanımla Valeh deyişir. Valeh sonda qələbə çalır. Aşıq Valehin şagirdi azad olur. Şərtə görə, Valeh Zərnigar xanımla ailə qurur. Zərnigar xanım Abdalgülablıya gətirilir. Dastan onların ailə qurması ilə yekunlaşır. Zərnigar xanımın Aşıq Valehlə ailə qurmasından sonra aşıqlığı görünmür. Ancaq mənbələrdə olanlar, Abdalgülablıda qəbrinin üstünə yazılanlar onun yaradıcı bir aşıq olduğunu göstərir. M.H.Təhmasib, F.Mehdi, M.Allahmanlı, A.Nəbiyeva, H.Kolanılı onunla bağlı elmi araşdırmalar aparmışlar.

VARXİYANLI MƏHƏMMƏD (təxminən 1770, Zaqatala rayonu, Varxiyan kəndi – 1860-cı illərin axırı) –

Yaradıcı aşıq olmuşdur. Zaqatala folklor mühitinin yetişdirdiyi sənətkarlardandır. Atası din xadimi olmuşdur. Məhəmməd də ilk təhsilini Şəkidə mollaxanada almışdır. Beş il dini təhsil aldıqdan sonra Şuşaya gedib M.P.Vaqifin açdığı məktəbdə iki il təhsil almışdır. M.P.Vaqifin, M.V.Vidadinin təsiri altında şeirlər yazmışdır. Folklorşünas Ə.Axundov Aşıq Hüseyn Şəmkirlinin nəslindən topladığı materiallarda göstərir ki, Eldar dağında Alı Koxanın toyunda Varxiyanlı Məhəmmədlə Aşıq Hüseyn Şəmkirli görüşmüşdür. Varxiyanlı Məhəmmədin xahişi ilə Aşıq Hüseyn Şəmkirli "Uf-uf" rədifli şeirini, "Əcəm qızı" rədifli divanisini oxuyur. Aşıq Məhəmməd onun bacarığından, oxu tərzindən çox razı qalır. Qoca aşığın sözü ilə "Məsim" dastanını da danışır. Aşıq Məhəmməd sənətdə olduqca tələbkar, həm də ciddi bir

ustad kimi tanınmışdır. Tədqiqatçılar bu hadisənin təxminən 1840-1845-ci illərdə baş verdiyini qeyd edirlər. Aşıq şeirinin müxtəlif şəkillərində qoşma, gəraylı, müxəmməs, divani və s. yaratmışdır. Onun şeirlərinin mühüm bir hissəsi ustadnamələrdir. Varxiyanlı Məhəmmədin şeirlərinin toplanması, nəşri sahəsində H.Əlizadə mühüm işlər görmüşdür. "Aşıqllar" kitabında nümunələr vermişdir. Ayrı-ayrı toplularda şeirlərindən nümunələr getmiş, haqqında ayrıca tədqiqat əsəri yazılmamışdır. P.Əfəndiyev, M.Həkimov, V.Vəliyev, Q.Namazov, M.Allahmanlı və başqaları ustad haqqında fikirlər söyləmişlər.

VARİANT – hər hansı bir folklor örnəyinin ayrı-ayrı areallardakı söyləyicilərin ifası zamanı uğradığı xırda məzmun və şəkil dəyişməsidir. Xalq ədəbiyyatı nümunələrinin toplanması və nəşrində bu hadisə özünü kifayət qədər göstərir. Variantlılıq mətnin şifahi yolla ağızdan-ağıza gəzib dolaşması sayəsində yaranır. Zaman, məkan və ictimai-mədəni mühitin təsiri variantlığın əsas səbəblərindən biridir. Aşıq yaradıcılığında variant şeir və dastanlarda, aşıqlarla bağlı hekayətlərdə və s. nümunələrdə özünü göstərir. Şeir variantları aşıq yaradıcılığında elə də qabarıq görünən hadisə deyil. Çünki poeziya mühafizəkar qəliblərə(qafiyə, rədif, bənd quruluşu) bağlıdır. Bununla belə, ustadların şeirlərinin müxtəlif misra, söz fərqlilikləri də nəzərə çarpır. Dastanlarda isə epik təsvirlərdə, hadisələrin başvermə məkanında, onomastik vahidlərin təqdimatında fərqli variant özünü göstərir. Məsələn, "Koroğlu" dastanının V.Xuluflu, H.Əlizadə, M.Təhmasib variantları vardır. Məhəbbət dastanlarında da variantlılıq özünü göstərir. Varinat, ümumiyyətlə, şifahi xalq ədəbiyyatının mahiyyəti, spesifikası ilə bağlı olan zəruri məsələdir. Variant söyləyici təhkiyəsində özünü göstərən epik və poetik çalarların mətnlə bağlı köklü dəyişikliyin yaranmasına imkan vermir. Bir folklor mətninin, məsələn, aşıq dastanının onlarla variantı olsa da onlar bütün hallarda eyni mətni təmsil edirlər.

Burada əsas məğz saxlanılır. Söyləyici təhkiyəsinə uyğun olaraq, epizodlar, əhvalatlar əlavə edilir. Variantlılıq dastanlarda özünü daha çox göstərir. Çünki ustadlar məclisin ümumi ruhuna, ahənginə uyğun olaraq əlavələrini edir. "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Aşıq Qərib və Şahsənəm", "Valeh və Zərnigar" və s. dastanların birbirindən müəyyən fərqlərlə görünən variantları vardır. "Aşıq Qərib və Şahsənəm" dastanının on iki variantı yazıya alınmışdır. Aşıq şeirində variantlılıq daha kiçik fərqlərlə görünür. Çünki şeirdə mühafizəkarlıq daha güclüdür. Söz, ifadə fərqlilikləri çox az nəzərə çarpır. Ancaq bütün bunlara baxmayaraq, variantlılıq xalq ədəbiyyatının mahiyyətində dayanan məsələdir. Yazılı ədəbiyyatda variant məsələsi bir qədər azlıqla nəzərə çarpır. Məsələn, hər hansı bir bədii əsərin və yaxud da əsərdən epizodun yazıçı tərəfindən müxtəlif formada, fərqliliklə işlənməsi vardır. Bu, əsərin nəşr nümunəsində, əlyazmalarında da özünü göstərir. Əsəri işləyərkən və işləmə prosesində olan dəyişmələr də varianlılığa aiddir. Hətta ilk mətnlə son variant arasında kəskin nəzərəçarpacaq fərqliliklər də vardır. Məsələn, S.Vurğunun "Aygün" poeması bir neçə vari-

antda işlənmişdir. Eyni əsərin bir neçə şəxs tərəfindən tərcüməsi də varianta nümunədir.

"VARLIQ" JURNALI – İran inqilabından, İranda Pəhləvi rejiminin devrilməsindən sonra nəşr olunmuşdur.



1979-cu ilin fevralında İranda islam inqilabı qələbə çaldı və şah üsul-idarəsinə son qoyuldu. Bir çox qəzet və jurnallar yarandı. Cənubi Azərbaycanda da məhz bir sıra mətbu orqanları fəaliyyət göstərməyə başladı. Çap olunan qəzet və jurnalların böyük bir hissəsi 1980-ci ilin əvvəllərinə qədər davam etdi. "Varlıq" jurnalı isə bütün çətinliklərdən keçərək fəaliyyətini davam etdirdi. Klassiklərin yaradıcılığından nümunələrə, elmi yazılara, qabaqcıl mütəfəkkir, şair, yazıçıların əsərlərinə və onlar haqda olan yazılara "Varlıq"da geniş yer verildi. "Varlıq" jurnalı günümüzə qədər öz fəaliyyətini davam etdirməkdədir. İlk nömrəsi 1979-cu ilin aprel ayında nəşr olunmuşdur. İlk gündən Tehranda və bütün İranda geniş şəkildə yayıldı. Dərgidə Azərbaycana aid yazılar, şifahi xalq ədəbiyyatı nümunələri, bayatılar, atalar sözü, məsəl, əfsanə, rəvayət, nağıl, dastan və s. nümunələr özünə geniş yer aldı. "Varlıq" böyük sevinclə qarşılandı. Ona çoxlu təbrik məktubları göndərildi. M.Şəhriyar "Azadlıq quşu "Varlıq" şeirini yazdı. Jurnalın təsisçisi Cavad Heyətdir. Həmid Nitqi, Məmmədəli Fərzanə, Qulamhüseyn Beqdeli, Həmid Məmmədzadə, Teymur Pirhəşmi, Əbdülkərim Mənzuri Xamaneyi, H.Məcidzadə Savalan, Əli Kəmali, İsmayıl Hadi və başqaları bu jurnalın fəaliyyətində mühüm rol oynamışlar. "Varlıq" ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq, dilçilik elmləri ilə bağlı səhifələrində müxtəlif səpkili yazıların nəşrinə geniş yer verirdi. Aşıq yaradıcılığı da onun səhifələrində mühüm yer tuturdu. Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Hü- seyn Cavan və başqa ustadlar haqqında məqalələr buna nümunədir. C.Heyətin "Azərbaycan şifahi xalq ədəbiyyatı" əsəri jurnalın səhifələrində nəşr olunmuşdur. "Şu", "Ərgənəkon", "Boz qurd", "Köç", "Oğuz Kağan", "Satuq Buğra xan dastanı", "Manas", "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları haqqında məqalələr "Varlıq" jurnalının səhifələrində geniş yer tutur. M.Qasımlının "İranda Azərbaycan aşıq mühitləri" başlıqlı silsilə məqaləsi "Varlıq" jurnalının səhifələrində nəşr olunmuşdur.

Hazərda "Varlıq" toplusunun naşiri Məmmədrza Heyətdir.

VARSAĞI – aşıq şeir şəkillərindən biri. Xalq şeiri üslubunda yazan sənətkarlar, aşıqlar bu formadan öz yaradı-

cılıqlarında istifadə etmişlər. "Varsağı" qədim Azərbaycan qəbilələrindən birinin adı ilə bağlıdır. "Varsaq" bir termin kimi müxtəlif anlamlarda işlədilir. M.Seyidov varsağı bir termin olaraq: a) qəbilə adı; b) yer adı; c) qəbiləyə məxsus əşya adı; ç) şeir forması və melodiya adı; d) sənətkara verilən ad kimi şərh edir. Şah İsmayıl Xətayi, M.Əmani, Qaracaoğlan, Dadaloğlu və başqaları varsağılardan geniş şəkildə istifadə etmişlər. Varsağılar lirik-məhəbbət, təsəvvüf və nəsihətamiz ruhda olmuşdur. Bu, səkkiz və on bir hecalı, dördmisralı və bir neçə bəndlik şeirdir. Qafiyələnməsi abab, cccb, çççb və s. olur. Varsağı şeir biçimində rədifönü misralar və ya hər bəndin dördüncü misrası bütün bəndlərdə təkrarlanır.

Qaibdən dəlil göründün,
Dədəm, xoş gəldin, xoş gəldin!
Bizi sevib sevindirdin,
Dədəm, xoş gəldin, xoş gəldin!

Üstümüzə yol uğratdın,
Gövhər aldın, gövhər satdın,
Ərliyini isbat etdin,
Dədəm, xoş gəldin, xoş gəldin!
Ş.İ.Xətayi

"Varsağı" saz havası da vardır. Orta əsrlərdə ustad sənətkarlar bu havadan daha çox istifadə etmişlər. A.Krımski öz yazılarında Yunis Əmrənin köçərilərin sadə vəzni olan varsağılardan geniş istifadə etdiyini göstərir. "Koroğlu" dastanında qoşmaların bir qismi varsağı şəklindədir. Şəmsəddin Sami, V.V.Radlov, M.F.Köprülüzadə, S.Mümtaz varsağının türk xalqlarında hava adı olduğunu göstərirlər.

VARSAQ – el sənətkarına verilən addır. Varsağın mənşəyi, mövcud olduğu tarixi şərait haqqında müəyyən məlumatlar, elmi araşdırmalar vardır. Tədqiqatçılar bu sözün etimologiyası və inkişaf məqamları ilə bağlı müxtəlif mülahizələr yürütmüşlər. B.Atalay varsaqların Məraşdan İcələ kimi uzanan alanlarda yaşayan türk tayfaları olduğunu göstərir. Varsaqlar da bayat, əfşar, qaytaq, qacar, və gəraylar kimi özləri ilə bağlı adı (tayfa adını) sənətdə yaşatmışlar. Şaman, ozan, baxşı, yanşaq, aşıq arasında sənətkar anlamında elə də ciddi əlamətlərlə seçiləcək bir fərq yoxdur. M.Seyidov "Azərbaycanın ilk söz, musiqi, bəlkə də, rəqs sənətkarlarının əski adlarından biri də varsaq olmuşdur" – deyir. Şamanlarda, baxşılarda, aşıqlarda olan improvizasiya varsaqlarda da olmuşdur. Varsaqlar sinkretik sənətin nümayəndələridir. Varsaq sənəti Kiçik Asiyada, Orta Asiyada, Zaqafqaziyada orta yüzilliklərdə (IV-XVI əsrlərdə) yayılmışdı. Təhmasib Qulu Gül, Məhəmməd bəy, Ğayiri, Qaracaoğlan və bu kimi istedadlı nümayəndələri olmuşdur. Varsaqlar haqqında Şəmsəddin Sami, V.V.Radlov, M.F.Köprülüzadə, S.Mümtaz, B.Atalay, A.Krımski, İ.Qəfəsoğlu, L.Budaqov, Kamal Qəriboğlu, M.H.Təhmasib, M.Seyidov, M.Allahmanlı və başqaları çeşidli araşdırmalar aparmışlar.

VERDİYEV İSAQ ABDULLA OĞLU (1919, Goranboy rayonu, Rəhimli kəndi – 1978) – Milli nəfəs alətlərinin usta ifaçısı. Gəncəbasar aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. 1928-1931-ci illərdə ibtidai məktəbdə oxumuşdur. Sənətə böyük maraq göstərmişdir. Erkən yaşlarından musiqini (balabanı) öyrənməyə başlamışdır. 1937-ci ildən başlayaraq anadan olduğu

Rəhimli kəndində Aşıq Xəlilin (Xəlil Abdulkərim oğlu Xəlilov) yanında balabançılıq etmişdir. Goranboy və ətraf bölgələrdə balabançı kimi tanınmışdır. Balabanla yanaşı zurna və tütəkdə də çalmağı bacarmışdır. III aşıq qurultayının nümayəndəsi olmuşdur (1961).

VERSİYA – eyni genetik mətnin ayrı-ayrı coğrafi areallarda kəskin dəyişikliklərə uğrayaraq şəkil dəyişməsidir. Bu qəbildən olan mətnlər süjet, kompozisiya və obraz sistemi ilə birbirini çox da xatırlatmır. Versiyada variantlılıq prosesi regionallıq, millilik, ayrı-ayrı xalqların özünəməxsus milli xüsusiyyətləri ilə daha da dərinləşir. Məsələn, "Koroğlu" dastanının Qafqaz və Orta Asiya xalqları arasında variativliyin dərinləşib uzaqlaşdığı mətnləri - versiyaları yaranmışdır. Belə ki, ayrı-ayrı uzaq arealların xalqları öz ruhuna, düşüncəsinə, milli xüsusiyyət və adət-ənənəsinə uyğun "Koroğlu"sunu yaratmışlar. Versiya eyni etnocoğrafi arealda da baş verə bilər. Məsələn, "Qurbani" dastanının Gəncə, Şirvan və Zəncan mətnləri Azərbaycan etnocoğrafi arealı daxilində versiya səciyyəsi daçıyır. Variantlar arasında kəskin uzaqlaşma versiya hadisəsinə gətirib çıxarır.

VƏHDƏTİ-VÜCUD – sufizmdə nəzəriyyə. Təsəvvüf və ürfan, əslində, özünün təkamül və yüksəliş tarixində bu nəzəriyyə ilə zirvəyə və kamala çatır. Bütöv, yetkin və sistemli təlim halına gəlir. Vəhdəti-vücud nəzəriyyəsinin yaradıcısı XII-XIII əsrlərdə İspaniyada yaşamış və Şeyxü-əkbər (Böyük şeyx) ləqəbi almış Mühyəddin ibn Ərəbidir (1165-1240). İbn Ərəbiyə qədər də vəhdəti-vücudla bağlı müəyyən fikirlər söylənmişdi. Ancaq onu sistemli şəkildə təlim halına gətirən, tövhidə zidd olmadığını, əksinə, uzlaşan və üst-üstə düşən tərəflərinin mövcudl göstərən bu böyük filosof olmuşdur. O öz ideyalarını "Füsuhül –hikəm", "Fütuhati-Məkkiyə" və başqa əsərlərində göstərmişdir. İslam təkallahlılığı təlqin edir. Tövhid ilahi varlığın təkliyini, vahidliyini, əzəli və əbədi olduğuna inandırır. Vəhdəti-vücud nəzəriyyəsində də maddi və mənəvi gerçəkliyi özündə ehtiva edən tək bir varlıq mövcuddur. Quranda da Allahın hər şeyi özündə ehtiva etdiyi vurğulanır. Vəhdəti-Vücud fəlsəfəsində də Allahın - Vücudun birliyi, vəhdəti və bütövlüyü anlamındadır. Ona görə daimi və mütləq olan bir həqiqət vardır. Bu, əbədi varlıqdır. Yaradılmayıb, yaradılmaq xassəsinə də malik deyil. Daimi olan Haqqın Özüdür. O, şərh olunmazdır. Həmin varlığa vacibül-Vücud, yəni vacib Varlıq və yaxud Vücudü-küll də deyilir. Çünki o, heç nədən asılı olmayaraq vacib şəkildə mövcud olandır. Vəhdəti-vücudda ilahi varlıq vacib aləm, maddi varlıq, mümkün aləm, imkani varlıq, cüzv aləmi adlandırılır. Bu aləm əbədi deyil, onun mövcudluğu mümkün ola da, olmaya da bilər. Haqq mütləq varlıq aləminə tək və bütöv, vacib olduğu üçün vəhdət aləmi, maddi aləmə isə çoxlu sayda əşya və cisimlər əhatə etdiyi üçün kəsrət (çoxluq) aləmi deyilir. Beləliklə, həqiqət birdir, onun batini və zahiri tərəfi vardır. Batini tərəfi Haqq Özü, zahiri tərəfi isə maddi aləmdir.

VƏKİLOV SƏMƏD (SƏMƏD VURĞUN) YUSİF OĞLU (1906, Qazax rayonu, Yuxarı Salahlı kəndi – 1956, Bakı) – şair, dramaturq, ictimai xadim. AYB-nin üzvü (1934), SSRİ Dövlət mükafatı laureatı (1941-1942), AMEA-nın həqiqi üzvü (1945), Əməkdar incəsənət xadimi (1943), filologiya elmləri (fəxri) doktoru (1956), xalq şairi (1956). Yuxarı Salahlı kəndində ibtidai təhsil almışdır. Qazax müəllimlər seminariyasında oxumuşdur. Qazaxda, Qubada, Gəncədə müəllim işləmişdir (1924-1929). Moskvada II Dövlət Universitetinin ədəbiyyat fakültəsində (1929-1931), sonra isə ADPU-da təhsil almışdır. ADPU-nun aspiranturasında oxumuşdur. Azərbaycan sovet yazıçılarının I Qurultayında ittifaqın məsul katibi seçilmiş və aspiranturanı yarımçıq qoymuşdur. Ümumittifaq sovet yazıçılarının I Qurultayında Yazıçılar Birliyi rəyasət heyətinin üzvü (1934), ZSFSR Mərkəzi icraiyyə komitəsinin üzvü (1935) seçilmişdir. "Vaqif" (1938), "Xanlar" (1939), "Fərhad və Şirin" (1942), "İnsan" (1945) dramlarını yazmışdır. Azərbaycan Yazıçılar İttifaqı rəyasət heyətinə rəhbərlik etmişdir. II Ümumittifaq Yazıçılar İttifaqının qurultayında (1954) poeziya haqqında məruzə etmişdir. AMEA-nın vitse-prezidenti (1954), Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü seçilmişdir. SSRİ Ali Sovetinin (II, III, IV çağırış), Azərbaycan SSRİ Ali Sovetinin (I çağırış) üzvü olmuşdur. İki dəfə "Lenin" ordeni, iki dəfə "Qırmızı Əmək bayrağı" ordeni və medallarla təltif olunmuşdur. "Şairin andı" (1930), "Fanar" (1932), "Könül dəftəri" (1934), "Şeirlər" (1935), "Azad ilham" (1939), "Talıstan" (1941), "Qəhrəmanlıq dastanları (şeirlər)" (1941), "Səadət uğrunda" (1942), "Mənə belə söyləyirlər" (1943), "Ayın əfsanəsi" (1945), "İstiqbal təranəsi" (1947), "Mənim andım" (1950) və s. kitabları çap olunmuşdur.



Aşıq şeiri üslubunda əvəzsiz nümunələr yaratmışdır. Ustad aşıqlar onun qoşma və gəraylılarını saz havaları üstündə çalıb-oxuyurlar. Saz sənətinə kifayət qədər bələd olmuşdur. Ü.Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun" operaları haqqında maraqlı fikirlər söyləmişdir. Aşıq Hüseyn Bozalqanlıya, Aşıq Şəmşirə yazdığı şeirlər və ona ustad aşıqların müraciətlə yazdıqları S.Vurğunun aşıq yaradıcılığında tutduğu yerin göstəricisidir. S.Vurğun yaradıcılığı Azərbaycan poeziyasında xalq şeiri üslubunda yazıb-yaratma ənənəsi baxımından xüsusi mərhələdir. Onun yaradıcılığında xalq şeiri ənənələrindən bəhrələnməsi, aşıq yaradıcılığı ilə bağlılığı

haqqında çoxlu məqalələr yazılmışdır. Folklorşünas P.Əfəndiyev "Səməd Vurğun və xalq yaradıcılığı" (1992) adında kitab yazmışdır.

VƏKİLOV QİYAS İSMAYIL OĞLU (1932, Gədəbəy rayonu, Sovetabad kəndi –1995, Bakı) – folklorşünas alim, şair, filologiya elmləri namizədi (1993), AYB-nin (1993), Jurnalistlər Birliyinin (1978), Aşıqlar Birliyinin üzvü (1991) olmuşdur. Çobankənd orta məktəbini bitirmişdir (1957). Bədii yaradıcılığa orta məktəb illərindən başlamışdır. "Əcaib" təxəllüsü ilə şeirlər yazmışdır. İlk şeiri Gədəbəy rayon qəzetində nəşr olunmuşdur. 1962-ci ildə ailəliklə Bakıya köçmüşdür. BDU-nun filologiya fakültəsində təhsil almışdır (1963-1969). "XIX əsr aşıq lirikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1987). 1986-cı ildən "Maarif" nəşriyyatının dil və ədəbiyyat redaksiyasının redaktoru vəzifəsində işləmişdir. "Göyərçin", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Ulduz" və s. mətbu orqanlarında vaxtaşırı çıxışlar etmişdir. "XIX əsr aşıq lirikası" (1990) monoqrafiyası çap olunmuşdur.

VƏLİBƏYLİ İLQAR MƏCİD OĞLU (1958, Qazax rayonu, Kəmərli kəndi – Bakı) – Orta məktəbi Kəmərli kəndində bitirmişdir. Erkən yaşlarından saza maraq göstərmişdir. İncə dərəsi aşıq mühiti onun bir sənətkar kimi formalaşmasına yardımçı olmuşdur. 1976-cı ildə ADU-nun ingilis dili fakültəsinə daxil olmuşdur. Universitetdə oxuyarkən aşıq kimi müsabiqələrdə iştirak etmişdir. 1981-ci ildə universiteti bitirib, təyinatla Göyçə mahalının Salah və Polad kəndlərinə ingilis dili müəllimi kimi göndərilmişdir. Göyçənin qaynar mühiti onun sənətkar kimi formalaşmasına böyük təsir göstərmiş, ustadların yaradıcılığını, saz havalarını mükəmməl öyrənmişdir. Aşıq şeirinin müxtəlif formalarında nümunələr yaradır. İ.Vəlizadə haqqında "Milli kökə bağlı insan" adlı kitab çıxmışdır. Şeirləri müxtəlif vaxtlarda mətbuat səhifələrində çap olunmuşdur.

VƏLİYEV DƏMİR ALLAHYAR OĞLU (1972, Gədəbəy rayonu, Arabaçı kəndi) – Gədəbəy mühitinin yetişdirdiyi sənətkarlardandır. Zamanlı kəndində səkkizillik məktəbi bitirmişdir (1986). Zil səsə malik olan sənətkardır. 1986-cı ilə qədər Aşıq İmran Həsənovun yanında şagird olmuşdur. Dəmir Aşıq İmranın sənət keyfiyyətlərini mənimsəmiş, istedadlı aşıq kimi onun yanında yetişmişdir. Koroğlu havalarının mahir ifaçısıdır. Xaricdə keçirilən mədəniyyət tədbirlərində dəfələrlə iştirak etmişdir. Müxtəlif müsabiqələrdə mükafatlar almışdır. Gədəbəy Aşıqlar ansamblının üzvüdür. Zəngin musiqi repertuarı vardır. Poetik yaradıcılıqla da məşğul olur. Aşıqların V və VI qurultaylarının iştirakçısıdır. I və II Beynəlxalq aşıq festivallarının diplomantıdır.



VƏLİYEV HÜSEYN HƏZRƏTQULU OĞLU (1913, Gədəbəy rayonu, Arabaçı kəndi – 1978) – Kənddə altıillik təhsil almışdır. Atası əkinçiliklə ailəni dolandırmış və Hüseyn də ona köməklik göstərmişdir. Saza böyük maraq göstərmişdir. Bir müddət həvəskar kimi sənəti öyrənmişdir. Sonra Aşıq Yunis Göyçəliyə şagird olmuşdur. Sənətin sirlərini, ustadların yaradıcılığını, dastanları onun yanıda mənimsəmişdir. İfaçı aşıq kimi Gədəbəydə, ətraf bölgələrdə tanınmışdır.

VƏLİYEV KAMİL NƏRİMAN OĞLU (1946) – qorqudşünas, türkoloq.

AYB-nin üzvü (1981), AJB-nin üzvü (1981), filologiya üzrə elmlər doktoru (1988), professor (1989). BDU-nun filologiya fakültəsində oxumuşdur (1965-1970). Azərbaycan dilçiliyi kafedrasında müəllim saxlanmışdır (1970). Həmin kafedrada baş müəllim (1976-1981), dosent (1981-1988), professor (1989), Azərbaycan dilçiliyi kafedrasının müdiri (1988-1993) olmuşdur. "Azərbaycan qəhrəmanlıq eposunun poetik semantikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1988). Türkiyə Folklor Araşdırmalar Vəqfinin nümayəndəsi, Səlcuq Universitetinin fəxri professoru (Konya) seçilmişdir. "Elimizdən, obamızdan" (1980), "Dastan poetikası" (1984), "Elin yaddaşı, dilin yaddaşı" (1987) və s. kitabları vardır. Ozan və aşıq şeirini poetikası ilə bağlı dəyərli elmi araşdırmalar müəllifidir. Türkiyə universitetlərində türkologiya və folklordan dərs deyir (1995-ci ildən).

VƏLİYEV QƏDİR (BABACANLI) ZAL OĞLU (1908, Göyçə mahalı, Babacan kəndi – 1982) – Atası dövrünün

dini elmlərinə dərindən bələd olan şəxslərdən olmuşdur. Qədir də atasının vasitəsilə dini elmləri, "Quran"ı, şəriəti mənimsəyə bilmişdir. Aşıq yaradıcılığına sonsuz həvəs onu bu sənətə gətirib çıxarmışdır. Ailədə, qohumlar arasında da aşıqlığa maraq böyük olmuşdur. Göyçə aşıqlarının məclisləri onun bu sənətə gəlişinə də təsirsiz qalmamışdır. Qədir sənətin sirlərini öyrənmiş və bir aşıq kimi mühitdə tanınmağa başlamışdır. O, ifaçı aşıq olmuşdur. Zəngin hafizəsi klassiklərin yaradıcılığını, dastanları mükəmməlliklə ifa etməyə yardımçı olmuşdur. Bədəncə nisbətən arıq və ucaboylu sənətkar Göyçədə və ondan kənarda bir sənətkar kimi böyük nüfuz sahibi olmuşdur. Bir sıra dastanlar, ustad sənətkarların yaradıcılığı Aşıq Qədirin dilindən yazıya alınmışdır. Aşıq Qədir bir müddət köçüb İsmayıllıda yaşamışdır. Lakin oranın təbiəti Aşıq Qədirə düşməmiş və o, tezliklə Göyçəyə qayıtmaq məcburiyyətində qalmışdır.

VƏLİYEV QULU HÜSEYN OĞLU (1903, Zəngibasar – 1969) – Dövrünün tanınmış aşıqlarından olmuşdur. "Qulu Hüseynoğlu" kimi tanınmışdır. Təhsil ala bilməmişdir. Aşıq sənətinə erkən yaşlarından maraq göstərmişdir.

Naxçıvanda Aşıq Cəfərin yanında şagird durmuşdur. Aşıq sənətinin sirlərini onun yanında öyrənmişdir. 1920-ci ildən aşıqlıq etməyə başlamışdır. Klassik havaları, dastanları öyrənə bilmişdir. Zəngəzur və Naxçıvan tərəflərdə çoxlu toylar aparmışdır. Aşıq sənətinin sirlərini şagirdlərinə öyrətmək qayğısına da qalmışdır. Şagirdi Aşıq Həsən Allahverdiyevlə birlikdə İrəvan və Naxçıvanda çoxlu saz-söz məclisləri keçirmişdir. Aşıq şeirinin müxtəlif biçimlərində nümunələr yaratmışdır.

VƏLİYEV MURAD MƏHƏMMƏD OĞLU (1916, Gəncə – 1974) – Gəncə mühitinin yetişdirdiyi sənətkarlardandır. Sənətə çox tez həvəs göstərmişdir. Aşıqlığı öyrənmək üçün Qara Mövlayevin yanına getmiş, onun yanında şagird olmuşdur. Dörd il Qara Mövlayevdən aşıq sənətinin sirlərini öyrənmişdir Sonra Aşıq Məhəmməd Rzayevin yanında da dörd il şagird olmuşdur. Bundan sonra müstəqil aşıqlığa başlamışdır. Gəncədə, ətraf bölgələrdə məclislər aparmış, sənətkar kimi tanınmışdır. İfaçılıq qabiliyyətinə görə 30-cu illərdə Gəncədə yaradılmış incəsənət işçilərinin ittifaqına üzv seçilmişdir. Klassik aşıqların yaradıcılığının mahir bilicisi, yüksək səviyyəli ifaçı sənətkar kimi tanınmışdır.

VƏLİYEV MUSTAFA QARA OĞLU (1923, Qazax rayonu, Xanlıqlar kəndi – 1987) – Bir yaşında atasını (1924) itirmişdir. Aşağı Əskipara kəndinə dayılarının yanına köçmüş və orada yaşamışdır. Orada natamam orta məktəbi bitirmişdir. Qazax pedaqoji texnikumunda oxumuşdur. 1941-ci ildə texnikumu bitirib Yuxarı Salahlı kəndində pedaqoji fəaliyyətə başlamışdır. Burada məktəb direktoru olmuşdur. 1942-ci ildə sovet-alman müharibəsinə getmişdir. Mozdok uğrunda döyüşlərdə iştirak etmiş və yaralanaraq geri qayıtmışdır. Xanlıqlar və Aşağı Əskipara kənd orta məktəblərində müəllim, dərs hissə müdiri, direktor vəzifələrində çalışmışdır. ADPU-da oxumuşdur. Qazax rayon partiya komitəsində təlimatçı işləmişdir (1952-1954). Aşağı Əskipara kənd məktəbində 1957-ci ildən riyaziyyat müəllimi kimi fəaliyyət göstərmişdir. Aşıq sənətinə böyük maraq göstərmişdir. 1960-cı ildə saz almaq məqsədilə sazbənd Məhəmmədəlinin yanına gedir. Onun sazdüzəltmə bacarığını görür və yanında şagird olur. Sənəti ondan öyrənir. Bir sazbənd kimi formalaşır. Yaradıcı qabiliyyəti olmuşdur. Aşıq şeirinin müxtəlif şəkillərində nümunələr yaratmışdır. Xalq arasında müəllim, sazbənd, şair kimi tanınmışdır. Aşıq Şəmşirlə deyişmələri vardır.



VƏLİYEV TƏBRİZ İSFƏNDİYAR OĞLU (1965, Gədəbəy rayonu, Soyuqbulaq kəndi – Bakı) – Fərdi yolla aşıq sənətini öyrənmişdir. Sənəti dərindən öyrənmək üçün sonra Aşıq Səyyad Pənahovun yanına getmişdir. Klassik saz-söz sərraflarının yaradıcılığını, saz havalarını ustadından mənimsəyərək müstəqil fəaliyyət göstərmişdir. Koloritli



dstan ifaçılığı keyfiyyətinə malikdir. Gədəbəy aşıqlar dəstəsinin fəal üzvlərindəndir. Koroğluxan aşıq kimi tanınır. Zil və şaqraq səsə malikdir. Rayon və respublika səviyyəli tədbirlərdə fəal iştirak edir. Gözəl ifasına görə dəfələrlə mükafat almışdır. V və VI Aşıq qurultaylarının, eləcədə Beynəlxalq aşıq festivallarının iştirakçısıdır. Ailəsində aşıq sənəti ənənəsi övladları tərəfindən də davam etdirilir.

VƏLİYEV ŞƏMİDDİN VƏLİ OĞLU (1924, Qazax rayonu, Aslanbəyli kəndi – 1996) – Qazax mahalının yetişdirdiyi sənətkarlardandır. 1949-1956-cı illərdə anadan olduğu kənddə yeddiillik məktəbdə oxumuşdur. Gözəl səsi, güclü yaddaşı onun aşıq sənətini öyrənməsinə səbəb olmuşdur. 1963-1973-cü illərdə Şəmiddin M. Azaflının yanında sənətini daha da təkmilləşdirmiş, ustadların yaradıcılığını dərindən öyrənməyə çalışmışdır. Azərbaycan aşıqlarının IV Qurultayının (1984) iştirakçısı olmuşdur. 1970-ci illərdən müxtəlif festival və müsabiqələrdə iştirak etmiş, mükafat və diplomlara layiq görülmüşdür.

VƏLİYEV VAQİF ƏLİ OĞLU (1924, Qazax rayonu, Pirili kəndi – 1999, Bakı) – folklorşünas, professor. Qazax şəhər 1 nömrəli orta məktəbi bitirmişdir. Rayon partiya komitəsində texniki katib kimi işə başlamışdır. II Dünya müharibəsinə getmişdir (1943). BDU-nun filologiya fakültəsinə daxil olmuşdur (1949). BDU-nun aspiranturasında oxumuşdur (1954). "S.Vurğunun poemaları" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1957). BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifəsində çalışmışdır. Azərbaycan ədəbiyyatının, xalq ədəbiyyatının ayrı-ayrı problemləri ilə bağlı maraqlı araşdırmalar aparmış, mətbuat səhifələrində tez-tez çıxışlar etmişdir. "Azərbaycan folklorunun janrları" mövzusunda doktorluq dissertasiyası yazmışdır (1972). Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru olmuşdur (1976). Xalq yaradıcılığı nümunələrinin toplanması, nəşri və tədqiqi ilə ardıcıl məşğul olmuşdur. Ali məktəblərin filologiya fakültələri üçün "Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliyini yazmışdır. Ondan artıq monoqrafiya, toplu, yüzlərlə məqalə müəllifidir. "Azərbaycan qəhrəmanlıq dastanları" (1966), "Azərbaycan



sovet poemalarında əfsanə mövzusu", (1969), "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1970), "Azərbaycan qəhrəmanlıq dastanları" (1980), "Qaynar söz çeşməsi" (1981), "Ayrım bəzəmələri" (1983), "Azərbaycan folkloru" (1985) kitablarının müəllifidir. Aşıq yaradıcılığın tədqiqi prof. V.Vəliyevin elmi fəaliyyətində mühüm yer tutmuşdur.

VƏLİYEVA AYBƏNİZ (AYBƏNİZ LAÇINLI) SABİR QIZI (1960, Laçın rayonu, Nağdalı kəndi - Bakı) – Laçın mühitinin yetirdiyi qadın sənətkarlardandır. Ustad aşıq Qəmkeş Allahverdiyə şəyirdlik etmişdir. "Aybəniz Laçınlı" imzası ilə tanınır. Aşıq şeirinin müxtəlif çeşidlərində poetik örnəkləri vardır. Sənətə yeniyetmə vaxtlarından maraq göstərmişdir. "Aşıq Pəri" məclisinin üzvüdür. Toplularda şeirləri çap olunmuşdur.

V və VI aşıq qurultaylarına nümayəndə seçilmişdir.

VƏNYARLI ƏLƏSGƏR HÜSEYN OĞLU (1969, Qaradağ mahalı, Vənyar kəndi – Təbriz) – Təbriz-Qaradağ aşıq mühitində fəaliyyət göstərir. Erkən yaşlarından saza maraq göstərmişdir. 20 yaşından aşıqlığa başlamışdır. Sənətin sirlərini böyük ustad aşıq Əbdüləli Nuri və Həsən İsgəndəridən öyrənmişdir. Hər iki aşığın yanında 5 il şagird olmuşdur. Dastançı aşıqdır. Koloritli nəqletmə

qabiliyyətinə malikdir. Zəngin musiqi və söz repertuarı ilə seçilir. Saz-söz müsabiqələri və folklor festivallarında mükafatlar almışdır. Halhazırda Təbriz şəhərində yaşayır.

VƏZN – şeirin ölçü, formalaşma prinsipi sistemidir. Vurğulu və vurğusuz hecaların növbələşməsi qaydasıdır. Dünya ədəbiyyatında daha çox antik heca, əruz vəznlərindən və sərbəst şeir biçimindən istifadə olunmuşdur. Xalqlar vəznləri mənimsəmiş, dillərinin təbiətinə uyğunlaşdırmış, onları yeni milli keyfiyyət, əlamət və ünsürlərlə zənginləşdirmişlər, amma təzə vəznlər yaratmağa ehtiyac duymamışlar. Ona görə də vəznlərin mahiyyətini həmişə milli fərdi xüsusiyyətlərdən daha çox ümumilik və bəşərilik şərtləndirmişdir. Sərbəst biçimdə, heca və əruz vəznlərində müxtəlif xalqlar üçün ümumi olan kateqoriyalarda ayrı-ayrı xalqların şairləri və alimləri tərəfindən yaradılmış xüsusiyyətlər də vardır.

Vəznləri bir-birinə bağlayan, bir-birinə yaxınlaşdıran ümumoxşar, müştərək cəhətlər çoxdur. Müəyyən bir vəzn müəyyən bir dilin qrammatik qayda-qanunlarına, fonetik-morfoloji xüsusiyyətlərinə əsaslanmış və onlarla müəyyən olunmuşdur. Antik yunan və roma ədəbiyyatında antik vəzn, alman ədəbiyyatında əvvəlcə heca, sonra əruz vəzni işlənmişdir. Rus ədəbiyyatında tonik və tonik-sillabik vəznlərdən istifadə olunmuşdur. Türksoylu xalqlarda şeir heca,

əruz vəznlərdə və sərbəst biçimdə yaranmışdır. İspanlar həm heca, həm də əruz vəznindən istifadə etmişlər. Sillabik vəzn dünya xalqlarının çoxunun şeirində işlənmişdir.

Şeir vəznlə – səslərin nizam, qaydaqanun və tənasübü ilə yaranır. Vəzn şeirə məna-məzmun, hərəkət və poetik vüsət verir. Lüğətlərdə vəzn "bir şeyin ağırlığı, çəkisi" mənalarında işlədilir. Terminoloji, yəni şeirşünaslıq mənasında isə vəzn misranın səslər kəmiyyətincə ölçüsü, yaxud bəhrə görə misralardakı uzun və qısa hecaların müəyyən şəkildə tərtibi ilə yaranan ritm və ahəngin ölçüsüdür. Bu mənada da, ancaq məcazi olaraq, yeni sözün fonetik çəkisini bildirir. Lakin tək-tək sözlərin özbaşına fonetik çəkisi hələ şeirin vəzni deyildir. Şeirin vəzni bir qrup söz səslərinin xoş bir nizam və ahənglə müəyyən qəliblərdə yerləşməsindən əmələ gəlir. Bu qəliblər də, əsasən, ikidən dördə qədər ritmik hissələrdən ibarət olur". Vəzn şeirin ölçüsüdür, formanın musiqililiyini və obrazlılığını gücləndirən ünsürdür. Bu ünsürün və onun növlərinin – tonik, tonik sillabik və sillabik-tonik vəzn sistemlərinin ifadə imkanları geniş və əhatəlidir.

Aşıq ədəbiyyatında daha çox heca vəznindən istifadə olunur. Aşıqlar bu şeir ölçüsünə "barmaqhesabı" da deyirlər. Bununla belə, əruz vəznində yaradılan aşıq şeir çeşidləri (divani, müxəmməs və s.) də vardır.

VİCUDİ BÖYÜKAĞA (PİROĞLU) (1964, Qaradağ mahalı, Mavazxan eli, Kivic kəndi) – Aşıq sənətinə erkən yaşlarından həvəs göstərmişdir. Aşıq Hacı Əli İbadi, Aşıq Həsən İsgəndəri, Aşıq Dehqan Urmiyalı, Aşıq Rəsul Qurbani və məşhur şair Yadulla Səkibinin yanında sənətin sirlərini öyrənmişdir. Aşıq Böyükağa çağdaş dövrümüzdə Cənubi Azərbaycanda ən məşhur sazbəndlərdəndir. Bəzəkli-sədəfli sazın ən kamil ustadlarından biridir. Onun düzəltdiyi sazlar beynəlxalq festivallarda dəfələrlə birinci yeri tutmuşdur. Həmin sazlar Hollandiya, ABŞ, Almaniya muzeylərində saxlanılır. Böyükağa Vicudi "Piroğlu" təxəllüsü ilə gözəl şeirlər də yazır. Müxtəlif festivallarda mükafatlar, diplomlar almışdır. Böyükağanın rəhbərlik etdiyi musiqi qrupu İran Aşıq Musiqi Olimpiadasının qalibi olmuşdur. Halhazırda Böyükağa Vücudinin həm aşıq, həm də sazbənd kimi xeyli şagirdi vardır.

VOSTRIKOV P. – "Azərbaycan tatarlarının musiqisi və mahnıları" məqaləsinin (Tiflis, 1902) "Musiqi alətləri" fəslində digər alətlərlə yanaşı, saz aləti haqqında da məlumat vermişdir. Beşsimli sazı P.Vostrikov belə təsvir etmişdir: "Bu əldəqayırma mandolina çox xoş və incə səslər çıxarır. Nə qədər burada qeyri-adi pianissimo! Səslərin necə harmoniyası! Necə akkordlar! Melodiya zövqverici, cəzbedici alınır və bu, çalğıcının ustalığı yox, alətin öz xüsusiyyətidir". P.Vostrikovun "Zaqafqaziya tatarlarının mahnı və musiqisi" adlı məqaləsi aşıq yaradıcılığı, saz, zurna, balaban və dəf haqqında məlumat vermək baxımından əhəmiyyətlidir. Məqalə SMOMPK məcmuəsində (42-ci buraxılış, 1912, səh. 9-20) nəşr edilmişdir.

VÜCUDNAMƏ –ustad aşıqların müraciət etdiyi şeir biçimidir. Mahiyyət etibarilə təsəvvüf simvolikasına bağlıdır. Zərrənin- insanın Vücuddan – Allahdan qopub dünyaya gəlişi, müxtəlif yaş mərhələləri boyunca (bir yaşından yüz yaşına qədər) yaşadıqları və sonda yenidən üqbaya dönüşü –Vücuda- Allaha qovuşması gedişatının fəlsəfi-poetik təqdimatı vücudnamənin əsas səciyyəsidir. "Vəhdəti-Vücud" fəlsəfəsinin insan ömrünə yönəltmiş poetik təsvir-təqdimatını əks etdirdiyindən bu şeir biçimi "Vücudnamə" adını daşımaqdadır. Bununla belə sözü gedən şeir formasında sənətkarlar özlərinin əslinəcabəti, ata-anası, ana bətninə düşməsi, anadan olması, uşaqlıq illəri, təhsil alması, ədəb-ərkanı həyatının müxtəlif yaş dövrləri, oturub-durması, ailə məişəti, məhəbbəti, el-obası, həyat yollarında olan çətinlikləri, gənclik, ahıllıq dövrü və s. haqqında avtobioqrafik məlumatlar da verirlər. Aşıq sənətinin tarixi mənzərəsi göstərir ki, Abbas Tufarqanlı, Koroğlu, Aşıq Valeh, Məlikbalı Qurban, Molla Cuma diqqətçəkici vücudnamə örnəkləri yaratmışlar. Vücudnamədə həm də həyatın-dünyanın ibrətamiz gedişatı və ustadnamə səciyyəsi geniş aspektdə yer alır:

...Səkkizdə, doqquzda qaranı seçdim,
On yaşında yaxşı-yamanı seçdim,
On birimdə Quran - kitabı seçdim,
On beşimdə sərim doldu sevdaya...

...Əllidə eylədim ömrümü yarı,
Ömür bağçasının saraldı barı.
Səslədim möhnəti, oyatdım zarı,
Şənliyi adladım, keçdim cəfaya.

...Yüz yaşımda oldum piri-natəvan,
Gələnlə, gedənlə, qonşuyla yaman.
Könlümdə ahu-zar, çeşmimdə duman,
İstədim fənadan köçəm üqbayə.
Aşıq Valeh

Vücudnamə sənətkarın tərcümeyihalı, yaşadığı dövr haqqında ətraflı məlumat verə bilən mənbə kimi də mühüm əhəmiyyət daşıyır. Aşıqlar vücudnaməni, adətən, deklamativ şəkildə təqdim edirlər. Sadəcə olaraq, misra və bəndləri ayrı-ayrı saz havalarının müşayəti altında söyləməyə müəyyən üstünlük verirlər.

Y

YAQUBOV ZƏLİMXAN (YAQUB) YUSİF OĞLU (1950, Borçalı mahalı, Bolnisi rayonu, Kəpənəkçi kəndi – 2016, Bakı) – Azərbaycan Aşıqlar Birliyinin sədri (2008-2015), Xalq şairi (2000), AYB-nin üzvü (1983), millət vəkili (1995-2005). Orta məktəbi anadan olduğu Kəpənəkçi kəndində bitirmişdir. BDU-nun kitabxanaçılıq fakültəsində təhsil almışdır (1967-1972). Orta məktəb illərindən yaradıcılığa başlamışdır. "Meşəbəyi" ilk şeiridir. Əmək fəaliyyətinə "Azərkitab" sistemində satıcı, şöbə müdiri, mağaza müdiri kimi başlamışdır. AKC-da redaktor və təbliğat şöbəsinin müdiri (1975-1982), "Yazıçı" nəşriyyatında redaktor və poeziya şöbəsinin müdiri vəzifəsində çalışmışdır (1987-1994). Milli Məclisə iki dəfə (1995, 2000) deputat seçilmişdir. Respublika Prezidenti yanında əfv komissiyasının üzvü olmuşdur (1994-2015). Azərbayacn nümayəndə heyətinin tərkibində Çin, Səudiyyə Ərəbistanı, Almaniya, Amerika, İsveçrə, Orta Asiya, İran, İraq, Türkiyə ölkələrində, Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə İraqda – Kərbəlada, "Manas" dastanının 1000 illiyi münasibətilə Qırğızıstanda – Bişkekdə olmuşdur. "Məmməd Araz" ədəbi mükafatına (1995), "Şair harayı", "Vətən yaraları" "Sizi qınamıram" və "Ziyarətin qəbul olsun" kitabına görə H.Z.Tağıyev adına mükafata (1995) layiq görülmüş, anadan olmasının 50 illiyi münasibətilə Azərbaycan Respublikasının "Şöhrət" ordeni, Gürcüstan Respublikasının "Şərəf" ordeni ilə təltif olunmuşdur. 2010-cu ildə anadan olmasının 60 illiyi münasibətilə şairin həyat və yaradıcılığı ilə bağlı sənədli film çəkilmiş, Azərbaycan Respublikasının "Şərəf" ordeni, Gürcüstan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. Türk dünyası araşdırmaları, uluslararası Elmlər Akademiyasının "Türk dünyasına hizmət" mükafatına layiq görülmüş, həmin akademiyanın fəxri doktoru seçilmişdir (2009). Ustad aşıqların (Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Saraclı, Aşıq Kamandar, Aşıq Şəmşir və b.) yaradıcılığı ilə bağlı radio, televiziya verilişlərində maraqlı çıxışlar etmiş, aşıq yaradıcılığının problemləri ilə əlaqədar mətbuat səhifələrində ciddi fikirlər söyləmişdir. "Könlümün səsi" (1980), "Yolum eldən başlanıb" (1981), "Od aldığım ocaqlar" (1986), "Biz bir eşqin butasıyıq" (1989), "Ziyarətin qəbul olsun" (1991), "Şair harayı" (1995), "Bu yaşıl ağacın altı bizimdi" (2000), "Əzəl-axır dünya türkün dünyası" (2007), "Mən öz dastanımı yazıb gəlmişəm" (2009), "Hüseyn Saraclı dastanı" (2007), "Düşüncələrin simfoniyası" (2011) adlı kitabları vardır.

YADİGAROV MƏSİM (BƏYAZİTLİ) (1889, Borçalı mahalı, Bəyazit kəndi – 1945) – Borçalı aşıq mühitinin ustadlarındandır.

Dövrünün ustad sənətkarlarından olan Dollu Abuzərin yanında şagird olmuşdur. Sənətin sirlərini öyrəndikdən sonra məclislər aparmış və özü də bir ustad kimi tanınmağa başlamışdır. Dərin biliyi, gözəl saz ifası, şaqraq oxu tərzi ilə diqqət çəkmişdir. Poetik yaradıcılıqla da məşğul olmuşdur. Hüseyn Bozalqanlı ilə deyişməsi məşhurdur. Dastançı aşıq kimi tanınmışdır. Məsim Bəyazitli öz sənətini gələcək nəslə öyrətməyin də qayğısına qalmışdır. Bir neçə şagirdi olmuşdur. Aşıq Əmrah Gülməmmədov onun ən kamil şagirdlərindəndir.

YANÇI AŞIQ – köməkçi aşıq. Ustad sənətkarlar məclisə gedərkən çox vaxt özləri ilə əlavə aşıqlar aparmışlar. Məclisin gedişində onlar birgə oxumuş, dastan söyləmişlər. Ustadlar bu məsələdə öz şagirdlərini bir sənətkar kimi formalaşdırmağa çalışmışlar. Aşıq Valeh, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Əmrah, Hüseyn Saraclı, İmran Həsənov, Əkbər Cəfərov, Canallı Məhəmməd, Aşıq Avdı və başqaları yançı aşıqlarla birgə məclis keçirmişlər.

"YANIQ KƏRƏMİ" – ən qədim aşıq havalarından biri. "Əsli-Kərəm" dastanı ilə bağlı olaraq yaranmışdır. Baş pərdə kökündə ifa olunur. Poetik mətnin əsasını qoşma xalq şeir forması təşkil edir. "Yanıq Kərəmi" havası kədərli, hüznlü ovqat daşıyır və Kərəmin "eşq atəşində alovlanması" hisslərini, sarsıntı və üzüntülərini ifadə edir. Hava ənənəvi olaraq instrumental girişlə başlayır. Başlanğıc musiqi özəyi leytmotiv funksiyası daşıyaraq havanın əsas melo-intonasiya daşıyıcısıdır. Baş pərdə kökünə xas olan tipik intonasiyalar – baş pərdə-açıq pərdə-kök pərdə – üzrə hərəkət üzərində yaranmışdır. Təkrarlar, variantlı təkrarlar, yeni musiqi ifadələri vasitəsilə şah pərdəyədək yüksələn melodik xətt leytmotivə qayıdışla çərçivələnir. Vokal melodiyanın özəyində şah pərdə-orta pərdə-baş pərdə üzrə hərəkət – trixord intonasiyası dayanır. Əvvəlcə dixord, sonra trixord və genişlənərək tetraxord intonasiyası üzrə inkişaf edir. Reçitativ-deklamasiya xasiyyətli havalar qrupuna aiddir və aramlı, dərin fəlsəfi-düşüncəli ovqat daşıyır. Hər melobəndin sonuna bayatılardan ibarət "yedək" əlavə edilmişdir. Vokal melodiyadan fərqli olaraq, bəndlərarası instrumental intermediyalar dramatik-ekspressiv təsir qüvvəsi ilə fərqlənir. Melodiyanın inkişaf xətti açıq pərdənin zilinədək qalxır, yeni mövzular, variantlı təkrarlar, senkensiyalı hərəkətlərlə zənginləşir. Hər iki instrumental bölmə girişin əsas mövzusu – leytmotivlə çərçivələnir. Xalq arasında "Yanıq Kərəmi"nin instrumental variantı daha geniş yayılmışdır. Aşıq Ədalət (Nəsibov) virtuoz saz ifaçısı kimi, havanın daxili musiqili-obrazlı məzmununu dərinləşdirərək forma və quruluşuna möhtəşəm tamlıq gətirmiş və mükəmməl səslənməyə nail olmuşdur. Havanın ən yaxşı ifaçısı kimi tarixə daxil olmuşdur. Hava etnomusiqişünaslar T.Məmmədov, İ.İmamverdiyev, K.Dadaş-zadə tərəfindən nota köçürülmüşdür.

Nümumə Kamilə Dadaş-zadəyə məxsus not yazısının foto surətidir

"YANŞAĞIN BİRİDİR" – mənfi məna çalarlarını ifadə edən termindir. Məlum olduğu kimi, "yanşaq" ozana verilən ad variantlarından biridir. Tarixi prosesdə bu termin ozanın-yanşağın şamanist-tanrıçı düşüncəni əks etdirən və islam dünyagörüşünə çox da uyğun gəlməyən "uzun-uzadı danışması" kimi mənalandırılmışdır. "Yanşağın biridir" ifadəsi semantik mahiyyətində uzunçuluğu, çox danışmağı işarələyir. Bu deyim "yanşaqlıq etmək" şəklində də işlədilir.

YANŞAQ – ozana və bəzən də aşığa verilən adlardan biridir. "Yanşaq" böyük ehtimalla "Varsaq" kimi etnonim-tayfa adı olmuşdur. Ayrı-ayrı folklor nümunələrində, yer adlarında öz izlərini günümüzə qədər saxlayıb gətirmişdir. Ancaq hansı zaman müddətində işlək olması ilə bağlı konkret fikirlər yoxdur. Məsələn, "Koroğlu" dastanında "Həmzənin Qıratı aparması" qolunda qarı ilə Koroğlunun söhbətində deyilir: "Qarı soruşdu ki:

– Qonaq, sazından görürəm yanşaqsan. Amma heç bizim yerlərin yanşağına oxşamırsan.

Koroğlu dedi:

– Mən Qafın anrı tərəfindənəm".

"Yanşaq" adı ilə adlanan yer adları da vardır. Kəlbəcər rayonunda Yanşaq kəndi buna nümunədir. Deyilənlərə görə, bu kənddə keçmişlərdə çoxlu aşıqlar olmuşdur. Bütün bunlar "yanşağın" bir termin kimi işləkliyini göstərir.

YEDİCİ: Bax: "Yuğ"

YELƏTMƏ – qopuz havası. Qopuzun oynaq ritmli, qan qaynadan, ilhamlandırıcı havalarından biri. "Kitabi-Dədə Qorqud" dastanlarında yalnız "Yelətləmə" havası xatırlanır. "Qanturalıya qızı götürüb gərdəkdə qoydular. Ozan gəldi, yelətləmə çaldı". "Yelətləmə" - yelləndirmə, coşdurma məzmunu verir. Bu havanın gəlinköçürmə, yaxud da gəlin gərdəyə salma mərasimində çalındığı ehtimal olunur. "Atlandırma" – "Vağzalı" rəqsinin melodiyası qopuzun "Yelətləmə" havasına bağlanır. Qopuz havalarında rəqs ahəngi və oynaq ritmlər mühüm yer tutmuşdur. Bamsı Beyrəyin "ərə gedən qız qalqa, qol saluban oynaya, mən qupuz çalayım" deməsi də bunun göstəricisidir.

"YETİM AYDIN" – arxik məhəbbət dastanlarından biridir. Bu dastan böyük ehtimala XIII-XIV əsrlər arasında yaşamış Aşıq Aydınla bağlı yaranmışdır. Rəmz-məcazi dastanlar qrupuna daxil olan bu epik mətn Aydın adlı bir yetim uşağa ilahi mey badəsi içirildikdən sonra onun öz butası Pərizad xanımın arxasınca səfərə çıxması, yolda bir çox güclü aşıqlarla qarşılaşması, onlarla sənət imtahanına çıxması və qalib gələrək özünün bir Haqq aşığı olduğunu sübuta yetirməsi şəklində ənənəsi qaydada biçimlənir. Onun yolda qarşısına çıxan bir çox maneələri dəf etməsində ilahi aləm tərəfindən himayə olunması mətndə sufidərviş simvolikasına geniş yer verildiyini göstərir. Yetim Aydının Aşıq Urfan və Aşıq Qurbana, eləcə də dərin ustadlar olan Dədə Gözlü, Dədə Qürbət, Dədə Heykəlliyə, habelə Aşıq Camiyə üstünlük gəlməsi də onun Haqq aşıqlığı ilə bağlıdır. Dastanın sonunda o öz batası Pərizad xanıma qovuşur.

Dastan 1987-ci ildə Dərbəndin Rubas kəndində aşıq Niftulla Qocayevdən yazıya alınmışdır.

Əlavə bilgi üçün bax: Aşıq Aydın ocağı.

"YETİM SƏYYAD" – məhəbbət dastanıdır. Səyyad, Əhməd tacirin oğludur. O, dünyaya gələndə Əhməd tacir

uzaq səfərə çıxır. Anası onu hansı müəllimin yanına qoyursa yola getmir. Çox istedadlı və bacarıqlı olur. Bir dəfə müəllimi haqsız yerə onu danlayanda Səyyad ağlayaraq yatır. Yuxuda ona Herat hakimi Fərrux Mirzənin qızı Səadət buta verilir.

Əlavə bilgi üçün bax: "Səyyad və Səadət" dastanı.

YƏHYA OĞLU NAĞI ("ŞAİR NAĞI") (1880, Tovuz rayonu, Yekallar kəndi – 1953) – Tovuz mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Şair Nağı adı ilə tanınmışdır. Aşıq Ələsgərlə məşhur həcvləşməsi söz-sənət aləmində geniş yayılmışdır. Bu həcvin Nağı tərəfindən deyil, onun adı ilə tamamilə başqa bir nəfər tərəfindən qoşulub göndərildiyi söylənilir. Ancaq həcv Nağının adına çıxılmış və onun adı ilə yayılmışdır. Onu yaxından tanlyanlar Şair Nağının tərbiyəli və urvatlı bir sənətkar olduğunu dönə-dönə dilə gətirmişlər. Şeir Aşıq Ələsgərə çatandan sonra o da öz cavabını göndərmişdir.

Şair Nağı zil, şaqraq səsi ilə seçilmişdir. Deyilənə görə, uca qamətli, ciddi baxışlı, şux geyimli bir aşıq olmuşdur.

YOL-ƏRKAN – aşıqlığın dəyər ölçüsüdür. Ustadlar öz sənətlərinin sirlərini şagirdlərinə dərindən öyrətmək məqsədi ilə bu ifadəyə xüsusi diqqət yetirmişlər. Məclisdə ən adi davranışlardan, danışıq tərzindən, müraciət tərzindən yeriş-duruşacan incəliyinə qədər bütün hərəkətlər ustadlar tərəfindən şagirdə öyrədilir. Məclisin ümumi ruhuna uyğun münasibətlərin qurulması, sənətə dərindən bələdlik, lazım gəldikdə müəyyən haşiyəyə çıxmaq və s. aşıqlığın yol-ərkanına daxil olan məsələlərdir. Aşıq Ələsgərin məşhur "aşıq olub tərkivətən olanın, əzəl başdan pür-kamalı gərəkdir" misraları ilə başlayan ustadnaməsi həmin yol-ərkanın ifadəsidir. Ustadnamələrdə, deyişmələrdə, dastanlarda yol-ərkan xatırladan kifayət qədər çoxlu nümunələr vardır. Sənətini kamil bilməyənlər, ustad yanında yarımçıq sənətə yiyələnlər həmişə böyük çətinliklərlə üzləşmişlər. Yol-ərkanın məhz uca tutulmasının nəticəsidir ki, aşıqlara "el anası" demişlər.

"Yol-ərkan" ifadəsi kökü etibarilə təsəvvüf simvolikasına bağlıdır. Sufilərdə yol-ərkan şəriətdən gələnlərin qorunuşu, Haqqa doğru gedilən müəyyən olunmuş yoldur. Bu, mürşid və pirlərin yoludur.

YUĞ – yas mərasimi ilə bağlı toplantıdır. Qədim insanlar adamların dünyasını dəyişməsilə bağlı mərasimdə camaatı bir yerə toplayır və yuğ mərasimi təşkil edirmişlər. Ə.Haqverdiyev həmin mərasimi "Azərbaycanda teatr" adlı məqaləsində təfsilatı ilə vermişdir. Yuğ öz mahiyyətində hüznü, kədəri ehtiva edir. Qədim türklər müəyyən adamların ölümü zamanı xüsusi yuğçular vasitəsilə həmin mərasimi keçirmişlər. Burada yuğçu-ozan dəstəsi də olmuşdur. Əsasən, məclisi yuğçu-ozanlar aparmış, hüznlü mahnılar oxumuşlar. Sonralar bu mərasimi qadın mərsiyəçilər- "yediçi"lər aparmışlar.

YUĞÇU OZAN (YUĞLAMAQ) – yas mərasimi aparan sənətkar. Türk xalqlarının islamaqədərki mərhələdə özünəməxsusluqla keçirilən yas mərasimləri. Yas mərasimində hüzn, kədər dolu mahnılar oxunmuşdur. Bu mahnılar "yuğ" və ya "ağı" adlanmışdır. Yuğ mərasimi xüsusi qabiliyyət sahibi olan adamlar vasitəsilə həyata keçirilmişdir. İslamdan öncə və bir qədər sonrakı çağlarda xüsusi ağıçılar (yuğçu ozanlar)

qopuz çalaraq ölən haqqında oxuyarlarmış. Y.V.Çəmənzəminli də öz araşdırmalarında bu məsələyə diqqət yetirir. "Qədim türklərdə sağucular (ağıçılar) meyit yanında "qopuz" adlı alət çalaraq onun haqqında oxuyarlarmış, burada ölü tərifləndir, onun nöqsanları unudulur, qəhrəman kimi tərifləndir". Ə.Haqverdiyev "Azərbaycanda teatr" adlı məqaləsində yuğ, yuğlama haqqında təfsilatlı məlumat verir: "Qədim Azərbaycanda ölən böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayırdılar. Bu toplantıya "yuq" deyirdilər. (Yuqlama – "ağlama" sözündəndir). Toplantı üçün xüsusi qonaqlıq düzələrdi, xüsusi dəvət edilmiş yuqçular ikisimli qopuz çalardılar. Yuqçu əvvəlcə mərhum qəhrəmanın igidliklərindən danışıb onu tərifləyirdi. Sonra isə qəmli havaya keçib şanlı qəhrəman üçün ağı deyərdi". Yuğçu ozanların bu funksiyası mənbələrdə çox az şəkildə özünə yer tapmışdır. Atillanın, Alp Ər Tonqanın vəfatı ilə bağlı yuğçu ozanların düzüb qoşduqları bu gün həmin mərasmlərin keçirilməsi üçün əsaslı mənbədir. Nəzm halında olan bir çox qəhrəmanlıq dastanlarının ilkin təkan nöqtəsi yuğ mərasimlərində oxunan nəğmələr olmuşdur "Manas" dastanı buna örnək sayıla bilər.

YUM VERMƏ - Ozan oğuznaməçiliyindəki "yum vermə" –alqış-dua etmə aktının funksional semantikası (şübhəsiz ki, "yum vermə" semantemi xeyirxah, yaxşı ruhları çağırıb onların himayəsi altında olmaq məqsəd-məramı daşıyan qam-şaman akt-seansının tərkibindəki əsas ünsürlərdən biridir) burada eynilə davam edir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarında boyların sonunda:

Yum verəyim xanım!
Qarlı qara dağların yıxılmasın!
Kölgəlicə qaba ağacın kəsilməsin!
Qamən axan körklü suyun qurumasın! (qanatların qırılmasın)!
Qadir Tanrı səni namərdə möhtac etməsin!
Çaparkən ağ-boz atın büdrəməsin!
Çalışanda qara polad üz qılıncın kütləməsin!
Ağ saqqallı baban yeri uçmaq olsun!
Ağ birçəkli anan yeri behişt olsun!
Axır-sonu arı imandan ayırmasın!
Amin, amin deyənlər didar görsün!
Ağ alnında beş kəlmə dua qıldıq, qəbul olsun!
Yığışdırsın, duruşdursun,
günahlarını adı görklü Məhəmməd Mustafa üzü suyuna bağışlasın.

Aşığın mərasim qurucusuna (məsələn, toy sahibinə) və məclis iştirakçılarına ünvanlanan xüsusi alqış-duası (bəy tərifi və məclis əhlinin tərifi) ilə məclis özünün "Sonluq-qapanış" mərhələsinə keçir. Bu mərhələ geniş planda elə yum vermə (söz və musiqi magiyası ilə məclisi yummaq-qapamaq) – alqış-dua aktıdır. "Sonluq-qapanış"da aşıq çoxsaylı bədii-poetik nidalardan ibarət olan xeyir-duasını verərək oynaq ritm və şux ovqata malik "Müxəmməs" oxumaqla məclis-mərasimi tamamlayır. Yeri gəlmişkən, qeyd edək ki, mərasim içində mərasim (toy içində toy) kimi çıxış edən dastanların sonluğundakı "Duvaqqapma" (yəqin ki, "dua-qapama" ifadəsinin şəkil dəyişməsidi) ümumən saz-söz məclisinin yekunu olan "Müxəmməs"lə eyni semantik vəzifəni yerinə yetirir. Hər iki halda alqış-dualarla xeyirxah-himayəçi ruhlar çağırılır.

YUMOR – həyatda, mühitdə, ətraf aləmdə olan, görünən gülünc cəhətləri, komik hadisələri və nöqsanları ifadə edən, oxucuda, dinləyicidə gülüş oyadan

epizod, hadisədir. Yumor ədəbiyyatda tənqidin bir formasıdır. Tənqidi gülüş, komik vəziyyət insan xarakterindəki daxili təzaddan doğur və onu ifadə edir. Xalq ədəbiyyatında yumor müxtəlif janrlarda özünü göstərir. Lətifələrdə, məsəllərdə, dastan, nağıl, əfsanə, rəvayət nümunələrində yumoristik epizodlara təsadüf edilir. Bir çox məzəli aşıq rəvayətlərinin mahiyyətində onu üzə çıxaran yumoristik əhvalatla bağlı olur. Yumor aşıq sənətində komik vəziyyətə münasibətin ifadəsidir. Yazılı və şifahi ədəbiyyatda yumordan geniş şəkildə istifadə edilir. Molla Nəsrəddin, Bəhlul Danəndə lətifələri bütün mahiyyəti ilə yumora yüklənmişdir. Aşıq yaradıcılığında, dastan söyləyiciliyində yumor mühüm bir vasitədir. Məclisi, auditoriyanı ələ almaq, onların əhvalında xoş ovqat yaratmaq üçün bu keyfiyyət olduqca vacibdir. Bir çox ustad aşıqlar özünəməxsus incə yumorları ilə seçilmişlər.

YUNİS ƏMRƏ (1240/41, Sivrihasar, Sarıköy – 1320/21, Əskişəhər (indiki Yunis Əmrə köyü) – Türk sufi şeirinin görkəmli nümayəndəsi, xalq şeiri üslubunda yazan şair. Anadoluya Xorasandan gəldiyi guman olunur. Türkman dərvişlərindən olan Yunis Əmrə müəyyən vaxtlarda səyahətlərdə olmuş, öz sufi görüşlərini yaymağa çalışmışdır. Konyada mədrəsə təhsili almışdır. Yunis Əmrənin həyatı haqqında çoxlu əhvalatlar, hadisələr vardır. Ailə həyatı ilə bağlı bu böyük sufi sənətkarın övladının olmadığı bildirilir. Bir versiyada isə ustadı Şeyx Tapdıq Əmrənin qızı ilə evləndiyi və bir oğlu, bir qızı olduğu göstərilir. Anadoluda (Qaraman, Bursa, İspart, Konya, Sivas, Ərzurum və s.) Y.Əmrənin on yerdə qəbri vardır.



Azərbaycanda Y.Əmrənin müxtəlif toplularda şeirləri getmişdir. Yunis Əmrə, Aşıq Veysəl. "İki zirvə" (Bakı, "Yazıçı", 1982), Yunis Əmrə. "Güldəstə" (Bakı, "Yazıçı", 1992) kitabları nəşr olunmuşdur.

Anadolu və Azərbaycan aşıqlarına və divan ədəbiyyatı şairlərinə güclü təsiri vardır. Şah İsmayıl Xətayi, Nəbati, Seyid Nigari ondan təsirlənmişlər.

"YURD YERİ" - Obraz-emosional məzmununa görə lirik havalar qrupuna daxildir. Sazda "Baş pərdə" kökündə ifa olunur. Əsasən şah – orta – baş pərdələr üzərində qurulan məqam - intonasiya özəyi Segah məqamı ilə üst-üstə düşür. "Y. y." havasının müstəqil melodik məzmununa malik olan instrumental girişi sabit, dəyişməz, dəqiq vəznə malik olduğu halda, vokal partiyası sərbəst improvizə üslubunda inkişaf edir. Yığcam ambitusa malik olan melodikası reçitativ-deklamasiya üslubundadır. Melodikası üçün əsas pərdələr üzrə enən hərəkət, çoxsaylı melizmatik bəzəklər (vibrato, zəngulə - trel və s.) xasdır. Havanın ümumi kompozisiyasını kuplet-variant forması ilə müqayisə etmək olar. Ənənəvi olaraq üçüncü bəndi zildən oxunur, istinad pərdəsi yuxarı köçürülür. Hər melobəndin başlanğıcında, melosətirlərin ortasında və sonunda melopoetik əlavələr səslənir. Mətndənkənar seqmentlərin əsas funksiyası havanın emosional təsirini gücləndirməkdən ibarətdir. Poetik mətninin əsasını qoşma təşkil edir. Havanın melosətirləri iki heca qrupuna bölünür (6 + 5).

YURD – aşıq şeirlərinin bağlı olduğu əhvalatdır. Bundan əlavə dastanın "yurd yeri" də vardır. Aşıqlar dastanın müəyyən hissəsini nəql edir. Qəhrəmanın anadan olmasını, dünyaya gəlişini, uşaqlıq dövrünü, məktəb illərini və s. məclisdə olanlara, dinləyicilərə danışır. Dastanlarda nəsrlə nəzmin növbələşməsi var. Müəyyən əhvalatdan, hadisələrin nəqlindən sonra sənətkar musiqiyə keçir. Qəhrəmanın başına gələnləri, əhvalatları, hadisələri şeirlə deyir. Məhz şeirə qədər olanlar dastanın "yurd yeri" kimi qəbul olunur.

YUSİF (QAÇAQ YUSİF) (1875, Ağbaba, Göllü kəndi – 1913) –Ağbaba, Borçalı, Axılkələk, Axıska, Boqdanovka, Qars bölgələrində böyük şöhrət və nüfuz sahibi olan el qəhrəmanıdır. Çar Rusiyasının müstəmləkəçilik siyasətinə və yerli məmurların özbaşınalığına qarşı mübarizə aparmışdır. Qaçaq Yusif el arasında "Dəli Yusif" kimi də tanınmışdır. Daha çox tək-tənha dolanan Qaçaq Yusif haqsızlıqlarla barışmaz olmuş, kazaklarla ölüm-dirim savaşına girmişdir. Mahir atıcı olmuşdur. Dağlarda, qayalarda məskən salmış, kazak dəstələrini pərən-pərən etmişdir. Xalq onu həmişə qorumuş, ən çətin anlarda vəziyyətdən çıxarmışdır. Deyilənə görə, Ağbabada Öysüz kəndinin camaatı onu qonaq edir. Məclis qurulur. Kazaklar bundan xəbər tutub 100-150 nəfərlə onu mühasirəyə alırlar. Qaçaq Yusif qəhrəmanlıqla döyüşüb şəhid olur. Həmin yer xalq arasında "Yusif vurulan yer" adı ilə qalır. Yusifin dəfni xalq mərasiminə çevrilir. Xalq onu Göllü kəndinin qəbiristanlığında dəfn edir. Ağbabalı Aşıq İsfəndiyar onun qəhrəmanlığı ilə bağlı "Dəli Yusif" dastanını yaradır. Qaçaq Yusif haqqında dastan və dastan-rəvayətlər bu günün özündə də Qafqaz və Anadolunu gəzib dolaşmaqdadır. Aşıq Nəsif, Çorlu Məhəmməd, Aşıq İsgəndər Ağbabalı Qaçaq Yusiflə bağlı müxtəlif səpkili nümunələr yaratmışlar. Aşıq Nəsib də "Qaçaq Yusif" adlı dastan düzüb qoşmuşdur. Qars aşıqları arasında "Qaçaq Yusifin Qars səfəri" adlı dastan da geniş yayılmışdır. Qaçaq Yusifin oğlu Məmmədvəli də ermənilərə qarşı mübarizədə (Qarsda) qəhrəmanlıq göstərmiş, atasının igidliyini öz qəhrəmanlığı ilə yaşatmışdır. Aşıq Nəsib Ağbabalı həmin qəhrəmanlığı "Vətən" şeirində tərənnüm etmişdir. Qaçaq Yusifin qəhrəmanlığı xalqın qəhrəmanlıq tarixinin bir hissəsidir. Dastanlaşmış qəhrəmanlardandır.

YUSİFOV QÜRBƏT ŞAHVƏLƏD OĞLU (1955, Qazax rayonu, Qazaxbəyli kəndi – Qazax şəhəri) – Orta məktəbi bitirdikdən sonra Gəncə Politexnik texnikumunda oxumuşdur. Sonradan Gəncə Texnologiya İnstitutunda təhsilini davam etdirmişdir. Uşaq yaşlarından saza həvəs göstərmişdir. Ordudan qayıtdıqdan sonra Qazax mədəniyyət evində və musiqi məktəbində müəllim işləmişdir. Aşıq sənətindən əlavə, gənc yaşlarından sazbəndliyə də maraq göstərmişdir. Sazbəndliyi Ayaz Zülfüqarovdan öyrənmişdir. Yeniyetmələrə, gənclərə sazbəndliyin sirlərini öyrədir. Övladları da bu sənətin sirlərini atalarından mənimsəmişlər. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür (2008).

YUSİFOV İSLAM QARA OĞLU (1893, Göyçə mahalı, Nərimanlı kəndi – 1968, Gəncə) – Ustad aşıq, dastançı, bəstəçi. Əməkdar incəsənət xadimi (1938), Yazıçılar İttifaqının üzvü (1951).



Göyçə və Gəncə mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Atası əkinçiliklə məşğul olmuşdur. Erkən yaşlarından aşıqlığa maraq göstərmişdir. Oğlunun marağını nəzərə alan atası onu 12 yaşı olanda Aşıq Mikayılın (Aşıq Ələsgərin şagirdi olub-red.) yanına gətirmişdir. Sonra Zərzibilli Aşıq Mehralının yanında şagird olmuşdur. Bir neçə il də Şəmkirdə Aşıq Hüseyn Şəmkirlinin oğlu Çobana şagirdlik etmişdir (1911-1914). Bu ustadlardan aşıq sənətini, dastanları mükəmməlliklə öyrənmişdir. On bir il şagirdlik edib aşıqlığın sirlərinə bələd olduqdan sonra müstəqil aşıqlığa başlamışdır. 1918-ci ildə Gəncədə Qafqaz-islam ordusunun qarşısında oxuduğu ruhlandırıcı çıxışına görə Nuru Paşa tərəfindən qızıl saatla mükafatlandırılmışdır. İslam Yusifov Azərbaycan aşıqlar ansamblının yaradıcısı və ilk rəhbəri olmuşdur (1937). Onun rəhbərlik etdiyi Gəncə aşıqlar ansamblı 1961-ci ilə qədər fəaliyyət göstərmiş ölkənin ən müxtəlif yerlərində konsertlər vermiş mükafatlar almışdır. İslam Yusifovun 1938-ci il Moskva dekadasında uğurlu çıxışına görə Ü.Hacıbəylinin təqdimatı ilə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. Gözəl səsə və dərin musiqi duyumuna malik olmuşdur. Klassik Azərbaycan xalq dastanlarının bir çoxu onun ifasında yazıya alınıb antoloji nəşrlərə daxil edilmişdir. İslam Yusifov həm də istedadlı solo-saz ifaçısı kimi məşhurlaşmışdır. Müslüm Maqomayev "Şah İsmayıl" operasının yenidən işlənmiş libretto mətninin əsaslandığı dastanı İslam Yusifovdan qələmə almışdır. "Qəmərcan" saz havasının bəstəçisidir. II və III aşıq qurultaylarının iştirakçısı olmuşdur. On beşə yaxın aşıq yetişdirmişdir.

YUSİFOV ZƏKİ (ZƏKİ İSLAM) İSLAM OĞLU (1939, Göyçə mahalı, Krasnoselsk rayonu, Cil kəndi – 2018, Bakı) – Şişqaya kənd orta məktəbini bitirmişdir (1957). AAB və AYB-nin üzvü. Aşıqlar Birliyi idarə heyətinin üzvü (2008-2018). Anadan olduğu kənddə baş mühasib, kolxoz sədri, sovxoz direktoru işləmişdir (1961-1988). Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun ibtidai metodika fakültəsində qiyabi təhsil almışdır (1968-1973). Ermənilərin işğal siyasəti nəticəsində Göyçəni tərk etmiş, Bakıda məskunlaşmışdır. Bakıda Müstəqil İslam firması yaratmış və ona rəhbərlik etmişdir (1992-1995). Aşıq sənətinin dərin bilicisi kimi tanınmışdır. Şeirləri aşıq repertuarında geniş yer alır. Aşıq şeiri üslubunda yazdığı çoxsaylı şeir kitabları çap olunmuşdur. Seirlərinə dini-ruhani mərasimlərdə də sıx-sıx müraciət olunur.

Z

ZAHİDOV ATABALA KAZIM OĞLU (1929, Masallı – 1994) –Cənub bölgəsinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Səkkizillik təhsil almışdır (1937-1945). Aşıq Qurbanxan Sadıqovu yanında şagird olmuşdur. Sənətin sirlərini öyrənib müstəqil aşıqlığa başlamışdır. Bir müddət Qurbanxanın dəstəsində çalıb-oxumuşdur. "Gözəlləmə" havalarının ustad ifaçısı kimi tanınmışdır. Masallı, Yardımlı, Lerik, Biləsuvar və Lənkəranda toy məclisləri aparmışdır. Aşıq şeirinin müxtəlif biçimlərində nümunələr yaratmışdır. Azərbaycan radiosunda lent yazıları qorunur. Aşıqların III və IV qurultaylarının iştirakçısı olmuşdur.

ZAHİDOV XANIŞ XEYRULLA OĞLU (1932, Qobustan rayonu, Nabur kəndi – 2010) – AAB-ın üzvü (1985).

Şirvan aşıq mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. Erkən yaşlarından saza maraq göstərmişdir. Sənətin sirlərini əmisi Şirsoltandan öyrənmiş, onun yanında şagird durmuşdur. Daha sonra bir neçə il Abbas Söhbətovun şagirdi olmuşdur. 1960-cı illərdən Şirvanda məclis aparmış, sənətkar kimi tanınmışdır. Bir çox aşıq mahnılarının ("Ana", "Şirvana gəl", "Gözəldir" və s.) bəstəçisi olmuşdur. Aşıq şeirinin müxtəlif formalarında nümunələr də yaratmışdır. Dastan, qoşma, gəraylıları aşıqlar tərəfindən məclislərdə oxunur. Şirvan dastan ifaçılığının istedadlı nümayəndələrindən biri olmuşdur. III (1961) və IV (1984) aşıq qurultaylarının nümayəndəsi olmuşdur. Çoxsaylı şagirdlər yetişdirmişdir. Muğam ifaçılığını da dərindən bilmişdir.

ZALOVA GÖZƏL ZALLAR QIZI (1981, Kəlbəcər rayonu, Zallar kəndi-Bakı) – Kəlbəcər mühitinin yetişdirdiyi

qadın aşıqlardandır. "Gözəl Kəlbəcərli" imzası ilə tanınır. Azərbaycan Aşıqlar Birliyinin üzvü (2016). "Aşıq Pəri" məclisinin ən fəal üzvlərindən biridir (2017). Saza-sözə bağlı bir ailədə anadan olmuşdur. Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdir (1998). Ana babası Aşıq Mirağa dövrünün ustad sənətkarlarından olmuşdur. Ata və anası da yaradıcı qabiliyyətləri ilə sayılıb seçilmişdir. Ailədəki sənət ənənəsini G.Zalova uğurla davam etdirir. Yeniyetmələr arasında aşıq müsabiqəsinin (1996), respublika muğam müsabiqəsinin (1997) qaliblərindəndir. Türkiyədə, Rusiyada və s. ölkələrdə Azərbaycan aşıq sənətini layiqincə təmsil etmişdir. 1999-2014-cü illərdə Rusiyada yaşamış və aşıq sənətini təmsil etmişdir. Gözəl saz ifaçılığı və özünəməxsus çalğı-oxu tərzi ilə seçilir. Bir çox aşıq mahnıları bəstələmişdir. VI aşıq qurultayına nümayəndə seçilmişdir (2018).

ZANDAVALİ NİFDİ HÜSEYNQULU OĞLU (1901, Qaradağ mahalı, Əhər, Zenava kəndi – 1970, Əhər) –

Qaradağ saz-söz mühitinin yetişdirdiyi ustad sənətkarlardandır. XX əsr Təbriz-Qaradağda aşıqlıq ənənəsinin inkişafında mühüm rolu olmuşdur. Ustadlardan aşıqlığın sirlərini, saz havalarını, dastanları gənc yaşlarında mənimsəmişdir. Sonra müstəqil aşıqlığa başlamışdır. Təbriz, Qaradağ, Tehran, Kərəc və digər bölgələrdə saz-söz məclisləri keçirmişdir. Sənətini istedadlı gənclərə mənimsətmişdir. Zəngin söz və musiqi repertuarına malik sənətkar kimi tanınmışdır. Repertuarında əlliyə yaxın dastan olmuşdur. "Koroğlu" dastanının ondan çox qolunu sinəsində gəzdirmişdir.

Onun söylədiyi "Abbas və Gülgəz" dastanının tərkibində dörd yüzdən artıq aşıq şeiri yer almışdır.

ZEYNƏLABDİNOV ƏLİ PƏNAH OĞLU (1991, Kəlbəcər rayonu, Zəylik kəndi – Bakı) – Şəmkir rayonunun Yuxarı Çaykənd kəndində orta məktəbi bitirib (2008). Sənəti atasından öyrənib. "Əli Pənahoğlu" imzası ilə tanınır. Ailədəki saz mühiti onun erkən yaşlarından aşıqlığa gəlməsi üçün əsas olmuşdur. Yeniyetmə gəclər arasında Respublika aşıq festivalının iştirakçısıdır (2003). Mühitin sənət ənənələrini uğurla davam etdirir. Türkiyə, Qazaxıstan, İran, Makedonuya, Bolqarıstan, Albaniya və s. ölkələrdə sənəti layiqincə təmsil etmişdir. Diplom və mükafatlara layiq görülüb. Zəngin musiqi və söz repertuarı vardır. Aşıqlar Birliyinin üzvüdür (2014). VI aşıq qurultayının nümayəndəsi olmuşdur (2018).

ZEYNALLI HƏNƏFİ BABA OĞLU (1896, Bakı – 1937) – ədəbiyyatşünas, tənqidçi, folklorşünas, mətnşünas, AYB-nin üzvü (1934). Kiçik yaşlarından atasını itirmiş, anasının himayəsində yaşamışdır. Bakıda 7 nömrəli rus-tatar məktəbini bitirmişdir. Bakıda 3 nömrəli Alekseyev Ali-ibtidai məktəbində, sonra Moskvada Ali Texniki məktəbində təhsilini davam etdirmişdir. Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində təhsil almışdır (1922-1927). Ədəbiyyata güclü meyil göstərir, elmi tədqiqatla məşğul olmuş, mətbuatda tənqidçi kimi çıxış etmişdir. 1930-cu ildə Azərbaycan Dövlət İnstitutunun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında dosent kimi çalışmışdır. 1923-1929-cu illərdə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor, 1930-1935-ci illərdə SSRİ EA-nın Azərbaycan filialı Dil və Ədəbiyyat İnstitutunun ədəbiyyat bölməsində folklor şöbəsinin müdiri işləmişdir. Xalq yaradıcılığının toplanması, nəşri və tədqiqi sahəsində gərəkli

işlər görmüşdür. Mətnşünas, ədəbiyyat nəzəriyyəçisi, tərcüməçi və naşir kimi milli ədəbi-tarixi irsin tədqiq və təbliğində ciddi fəaliyyət göstərmişdir. "Həyat və sənət" (1923), "Ağız ədəbiyyatı", "Azərbaycan el ədəbiyyatı" (1926) adlı araşdırmalarla elmi ictimaiyyət arasında nüfuz qazanmışdır. "Bayatılar" toplusunu, "Azərbaycan atalar sözü və məsəlləri" (1926), "Dastanlar və nağıllar" (1929) kitablarını çap etdirmişdir. Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyətinin folklor komissiyasının sədri kimi fəaliyyət göstərmişdir. "Ədəbiyyatdan iş kitabı"nın (1928) müəlliflərindən biri və redaktoru olmuşdur. Azərbaycan folklorşünaslığının formalaşmasında müstəsna xidmətləri olmuşdur. Xeyli sayda dastanı və aşıq şeirlərini ilk dəfə toplayıb nəşr etdirmişdir. 1937-ci ildə repressiya olunmuş və güllələnmişdir.

ZEYNALOV HƏSƏN (HƏSƏN PƏRVANƏ) (1915, Şəmkir rayonu, Otaqçı Təhnəli kəndi – 1979) – Şəmkir mahalının yetişdirdiyi yaradıcı sənətkarlardandır. Yazıçılar ittifaqının üzvü (1954). 1930-cu illərdə kənd məktəbində oxumuşdur. Həmin illərdə sazda çalıb-oxumağa başlamışdır. Şəmkir rayonunun Seyfəli kəndində Aşıq Hüseynin yanında şagird olmuşdur. İkinci Dünya müharibəsində iştirak etmiş və yaralanaraq geri qayıtmışdır (1943). 1944-1945-ci illərdə Aşıq Hüseyndən sənətin sirlərini daha dərindən öyrənməyə başlamış və bir sənətkar kimi formalaşmışdır. 1950-ci ildən müstəqil aşıqlıq etmişdir. Gədəbəy, Şəmkir aşıq dəstələrinin üç il rəhbəri olmuşdur. "Həsən Pərvanə" adı ilə el arasında ustad kimi məşhurlaşmışdır. Dastançı aşıq kimi tanınmışdır. Bir neçə dastanın müəllifidir. Şeir və dastanları aşıqlar arasında yayılmış və məclislərdə oxunmaqdadır. III aşıq qurultayında iştirak etmişdir (1961).



ZEYNALOV İSMAYIL (KATİB) NOVRUZ OĞLU (1898, Qazax rayonu, Qıraqkəsəmən kəndi – 1938) – Aşıq şeiri üslubunda yazıb-yaratmışdır. İlk təhsilini kənd məktəbində almışdır. Atasının ölümündən sonra bir müddət kənddə çobanlıq etmişdir. Əkinçiliklə məşğul olmuşdur. Papaqçı yanında şagirdlik etmişdir (1913-1920). Moskvada ali partiya məktəbində təhsil almışdır (1931). Zaqafqaziya ölkə komitəsi və MİK-in üzvü seçilmişdir (1922-1932). Tovuz, Lənkəran, Şəki, Sabirabad rayonlarında partiya komitəsinin katibi, icraiyyə komitəsinin sədri işləmişdir. Ağdaş qəza partiya komitəsinin birinci katibi olmuşdur (1932-1934). Azərbaycan Dövlət Nəşriyyatında direktor (1934-1937), Saatlı rayonunda MTS-in direktoru olmuşdur (1937-1938).



Aşıq şeiri üslubunda çoxsaylı və çoxçeşidli şeirləri vardır. Qoşma və

gəraylıları aşıqlar arasında geniş yayılmışdır. Hüseyn Bozalqanlı, Mirzə Bayramov, Əsəd Rzayev kimi ustad aşıqlarla çoxsaylı şeirləşməsi vardır. "Şərq qadını", "Yeni kənd", "El aşıqları" məcmuə və toplularında şeirləri yer almışdır. Azərbaycan Yazıçılar Birliyinin üzvü (1934) olmuşdur.

ZEYNALOV QƏLƏNDƏR NADİR OĞLU (1967, Gədəbəy rayonu, Dəyirmandağ kəndi-Bakı) –

Gədəbəy mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Aşıqlar Birliyinin üzvüdür (1991). Erkən yaşlarından saza maraq göstərmişdir. On yaşında olanda kənddə məclislərdə onu oxutdurmuşlar. İstedadı, bacarığı ilə camaatın diqqətini özünə cəlb etmişdir. Aşıq kimi çox tez tanınmışdır. Sazı sol əli ilə çalır. Aşıq Yusif Quliyevdən ifaçılığın sirlərini öyrənmişdir. Əkbər Cəfərov ifaçılıq məktəbini davam etdirir. Ümumittifaq gənclər festivalının iştirakçısı olmuşdur (1989). Gədəbəy aşıqları arasında istedadlı ifaçı kimi tanınır. Gur, şaqraq və məlahətli səsi vardır. Türkiyə, Rusiya, İran, İraq və Misirdə keçirilən folklor festivallarının iştirakçısıdır. Koroğluxan aşıq kimi tanınır. Gədəbəy "Xalq aşığı" ansamblının üzvüdür. Aşıqların V və VI qurultaylarının iştirakçısıdır. I Beynəlxalq Aşıq festivalının fəxri diplomuna layiq görülmüşdür (2010). Aşıqlar Birliyi idarə heyətinin üzvüdür (2018).

ZEYNALOV MİKAYIL (MİKAYIL AZAFLI) CABBAR OĞLU (1924, Tovuz rayonu, Azaflı kəndi – 1990) – Böyük ilhamla yazıb-yaradan, sağlığında klassikləşən ustad aşıqdır. Erkən yaşlarda «Coşğun» təxəllüsü ilə şeirlər yazan aşıq-şair bir müddət «Əzablı» təxəllüsünü də daşımışdır. Lakin son olaraq doğma kəndinin adı olan «Azaflı»nı özünə təxəllüs götürmüşdür.

Azaflı Mikayıl klassik aşıq ənənələrini layiqincə davam etdirmiş sənətkarlardandır. Onun yaratdığı «Azaflı dübeyti» ("Qoca Qartal"), «Azaflı gözəlləməsi», «Azaflı sənəti», «Azaflı dünyası», «Azaflı gəraylısı», «Azaflı himni», «Mikayılı», «Azaflı dağları», «Azaflı bəhri», «Məzahiri», «Azaflı müxəmməsi», «Azaflı gülü» kimi saz havaları aşıq bəstəçiliyinin ən dəyərli örnəklərindəndir.

Aşıq şeiri şəkillərinin əksəriyyətindən məharətlə istifadə edən ustad sənətkar iki mindən çox şeirin müəllifidir. Onun yaradıcılığında təkcə təcnisin 29 növünə təsadüf edilir. Narınc Xatunla birlikdə yaratdığı «Azaflı və Narınc Xatun» dastanı xalq arasında geniş yayılmışdır.

Şeirlərindəki fikirlər sovet rejiminə qarşı təhlükə hesab edildiyindən 1961-ci ildə «oğurluq və evində silah saxlamaqda təqsirli bilinib» həbs edilmişdir. 1964-cü ilə qədər ağır zindan həyatı keçirmişdir. Lakin zindanda da öz yaradıcılığını davam etdirmiş, rejimə

qarşı üsyankar şeirlər yazmışdır. Onun şeirləri xalq arasında geniş yayılsa da, XX əsrin 80-ci illərinə qədər mətbuat üzünə həsrət qalmışdır. 1984-cü ildə aşıqların IV Qurultayında iştirak etmiş, Aşıqlar Birliyinin sədr müavini seçilmişdir. 1979-cu ildə Novruz bayramı şənliklərində Dədə Qorqud obrazını canlandırmışdır.

1989-cü ilin 19 martında Ümumittifaq Musiqi Cəmiyyəti idarə Heyətinin sədri İ.K.Arxipovanın dəvəti ilə Moskvaya getmiş və Plenumda iştirak edərək Cəmiyyətin rəyasət Heyətinə üzv seçilmişdir. Aşıq sənətinin inkişafında göstərdiyi xidmətlərə görə «Əməkdar mədəniyyət işçisi» fəxri adına layiq görülmüşdür (1989).

İfasında «Koroğlunun Dərbənd səfəri» Moskvada (1989) vala köçürülmüşdür. İlk şeirlər kitabı 1987-ci ildə «Qoca Qartal» adı ilə «Yazıçı» nəşriyyatı tərəfindən buraxılmışdır. Kitab 1988-ci ildə Türkiyədə, 1993-2003-cü illərdə İranda eyni adla dəfələrlə nəşr olunmuşdur.

Türkiyəli folklorçu Əli Kafkasiyalı onun haqqında monoqrafiya yazmış və 1996-cı ildə «Azaflı: Həyatı, Sənəti, Əsərləri» adı ilə çap etdirmişdir.

2008-ci ildə Bakıda yaradıcılığının çox hissəsini əhatə edən «Qoca Azaflıyam», 2010-cu ildə «De kimdən küsüm», 2013-cü ildə «Zindan məktubları» kitabları nəşr olunmuşdur.

2008-ci ildə musiqişünas İlqar Cəmiloğlunun (İmamverdiyev) tərtibatı ilə «Aşıq Mikayıl Azaflının saz havaları» kitabı işıq üzü görmüşdür. Ürək infarktı keçirən aşıq-şair 1990-cı ilin oktyabrında dünyasını dəyişmişdir. Haqqında tele və radio verilişlər hazırlanmış, sənədli film çəkilmişdir.

ZEYNALOV NEMƏT İSMAYIL OĞLU (1959, Gədəbəy rayonu, Daryurd kəndi) – Sazbənd kimi tanınmışdır. Daryurd kənd orta məktəbində oxumuşdur (1967-1977). Bakıda Bədən tərbiyəsi texnikumunda təhsil almışdır (1977-1979). Gədəbəy rayonunun Sarıhəsənli kəndində müəllim işləyir. Sazbənd kimi fəaliyyətə üstünlük vermişdir. 700-dən artıq saz düzəltmişdir.

ZEYNALOV ROMAN (ROMAN AZAFLI) HAKİM OĞLU (1983, Rusiya, Tümen vilayəti, Surqut şəhəri – Bakı) – Mikayıl Azaflı ocağının istedadlı nümayəndələrindəndir. Sənəti babası Mikayıl Azaflıdan və atası Hakim Azaflıdan öyrənmişdir. Mikayıl Azaflı üslubunda çalıb-oxuyur. R.Azaflı həm də güclü solo saz ifaçısıdır. Sazda aşıq havaları ilə yanaşı xalq və bəstəkar mahnılarını da ifa edir. Özünün də bir sıra

bəstələri vardır. Altı yaşında Filarmoniyada M.Azaflının yubileyi keçirilərək "Ruhani" havasını çalmışdır (1989). Orta təhsillidir. Tovuzda Aşıq Əsəd adına Musiqi məktəbində təhsil almışdır. Şəmkirdə Aşıq Şəmşir müsabiqəsinin qalibi olmuşdur (2003). Beynəlxalq festivalların diplomanti kimi mükafatlar almışdır (2010; 2014). V və VI aşıq qurultaylarının iştirakçısıdır.

ZEYNALOVA DİLARƏ (DİLARƏ AZAFLI) MİKAYIL QIZI (1947, Tovuz rayonu, Azaflı kəndi – Bakı, 2005) – ustad sənətkar Mikayıl Azaflının ailəsində anadan olmuşdur. Saza-sözə erkən yaşlarından maraq göstərmişdir. BDU-nun filologiya fakültəsində ali təhsil almışdır (1965-1971). Biləcəri qəsəbəsində 2 saylı Dəmiryol orta məktəbində müəllim işləmişdir. Aşıqlar Birliyinin və "Aşıq Pəri" məclisinin üzvü (1984) olmuşdur. "Duman gəldi dağlarıma" (2005) şeirlər kitabı nəşr olunmuşdur. Mikayıl Azaflı irsinin qorunmasında dəyərli xidmətləri vardır. Azərbaycan aşıqlarının IV qurultayında iştirak etmişdir (1984).

ZEYNALOVA GÜLARƏ (GÜLARƏ AZAFLI) MIKAYIL QIZI (1959, Tovuz rayonu, Azaflı kəndi-Bakı) – Ustad aşıq. Əməkdar mədəniyyət işçisi (2013). Görkəmli aşıq Mikayıl Azaflının ailəsində anadan olmuşdur. Ustad ocağında böyüyən Gülarə Azaflı uşaqlıq illərindən aşıq sənətinə bağlanıb. Gənc ikən Gəncə Redaqoji İnstitutunun nəzdindəki «Çeşmə» folklor ansamblının

bədii rəhbəri olub (1983-1994). 1985-ci ildə gənc ozanların Gəncə şəhərində keçirilən 3-cü Ümumittifq festivalının laureatı adını qazanıb. «Aşıq Pəri Məclisi»nin ilk üzvlərindəndir (1984).

Azərbaycanın bir sıra görkəmli sənətkarları ilə birlikdə İraqda (1989), Almaniyada (1991), Amerikada (2005), Türkiyədə (2016) qastrol səfərlərində olub. Türkiyənin Konya şəhərində keçirilən (1992) Aşıqlar Yarışmasında baş mükafatı alıb. Sonrakı illərdə İran, İraq, Türkiyədə müxtəlif tədbirlərdə və festivallarda iştirak edib. (1995-1996).

1997-ci ildə İraqda Beynəlxalq Babil festivalında və Antaliyada Silifke festivalında laureat olub. Amerikanın San-Fransisko şəhərində keçirilən Dünya Folklor Festivalında (2005) və Dünya Musiqi Festivalında (2011) uğur qazanıb.

2010-ci ildə Bakıda keçirilən I Beynəlxalq Aşıq Festivalının diplomantıdır. Azərbaycan Aşıqlar Birliyinin V və VI qurultaylarında Birliyin İdarə Heyətinin üzvü seçilib (2008). 2016-cı ildən Aşıqlar Birliyində çalışır.

Qadın aşıqlar arasında özünəməxsus yeri olan Gülarə Azaflı həm də 2000-ci ildən 2013-cü ilə qədər «Aşıq Pəri» məclisinə rəhbərlik etmişdir. 2009-cu ildə «Görüşərik yenə biz» adlı şeirlər kitabı çap olunub. «Çeşmə» sazçı folklor qrupunun rəhbəridir (2012-ci ildən).

ZƏNCAN AŞIQ MÜHİTİ – Güneydəki aşıq mühitlərinin ən qaynar nöqtələrindən biri də Zəncan və onun çevrəsindəki Əbhər, Xürrəmdərə, Sultaniyə, Qeydar, Niydəc bölgələrində qərarlaşmışdır. Əsas qüvvələri Xürrəmdərə və Əbhərdə cəmləşən Zəncan aşıq mühitinin ifaçılığı saz, balaban və qaval (dəf) üçlüyü üzərində qurulmuşdur.

Zəncan aşıq mühitinin diqqətçəkici özəlliklərindən biri balabançı və qavalçının da mərasimin uyğun yerində aşıqla bərabər oxumasıdır. Bu mühitdə fəaliyyət göstərən balabançı və qavalçıların əksəriyyəti gözəl səsə malikdir. Onlar da dastanların və aşıq şeirlərinin yaxşı biliciləri kimi tanınırlar. Hətta bəzi balabançı və qavalçılar el-camaatın və sənət adamlarının təhriki ilə sonradan aşıqlıq edirlər.

İfaçılıq biçimi və repertuar yükü buradakı aşıqlığın təkkə kökəninə söykəndiyini göstərir. Mühitdəki çağdaş aşıqların sayı dəfçi və balabançılarla birlikdə iki yüz əllidən çoxdur. Təkcə Xürrəmdərənin Əmilər kəndində otuzdan yuxarı aşıq yaşayır.

Zəncan aşıqlığının təşəkkülündə barələrində dastan qoşulmuş Aşıq Şirin və Aşıq Yusif Camal adlı orta çağ aşıqlarının mühüm xidməti olmuşdur. Zəncan mühitinin əsas aşıq ocaqlarından sayılan Xürəmdərədən çıxmış Aşıq Şirin haqqındakı «Şirin və Birçək xanım» dastanı orta çağ dastançılığına məxsus olan klassik standartlara tam cavab verir. «Yusif Camal" dastanı da öz poetik mükəmməlliyi ilə seçilir. Aşıq Şirin və Yusif Camal ənənəsinin davamçıları olaraq Zəncan və onun çevrəsində Aşıq Nəcəfəli, Aşıq Xanmurad, Aşıq Lütfəli, Aşıq İbrahim Şahsevən, Aşıq Fətullah Rizayi, Aşıq Teyyub, Qulamrza Davudi və digər bu kimi onlarla görkəmli sənətkar el arasında böyük şöhrət qazanmışdır. Bu gün həmin ənənəni Gülabəli Davudi, Teyyub Süleyman, Aşıq Əkbər Zəncani, Aşıq Əmrullah, Aşıq İltifat, Mirzağa Süleymani, Rəsul Əsədi, Pərviz Süleymani kimi saz-söz ustaları ləyaqətlə davam etdirməkdədirlər.

Zəncan aşıqlarının repertuarında qırxa yaxın dastan vardır. Repertuardakı ən işlək dastanlar aşağıdakılardır: «Zəncanlı Qurbani», «Xəstə Qasım», «Əsli və Kərəm», «Abbas-Gülgəz», «Şirin və Birçək xanım», «Qərib-Şahsənəm», «Tahir-Zöhrə» və s. Bu mühitdə «Koroğlu»nun doqquz qoluna rast gəlinir. Repertuardakı əlliyə yaxın saz havasının az qala yarısı regional səciyyəlidir: «Ağabəyi», «Fərzayi», «Farəngoğlu», «Kəllahi" «Xalxal şikəstəsi», «Vəlicani» və s.

Zəncan aşıq mühiti Azərbaycan aşıq sənətinin klassik söz və musiqi repertuarını mühafizə etməklə yanaşı, yerli-regional xüsusiyyətləri əks etdirən özəlliklərə güclü meyil etməsi ilə seçilir. Yaradıcı keyfiyyətin güclü olması səbəbindəndir ki, «Qurbani» dastanının ənənəvi süjeti bu mühitə məxsus sənətkar-

lar tərəfindən köklü şəkildə dəyişdirilmiş və nəticədə dastanın yeni bir versiyası – «Zəncanlı Qurban» ortaya çıxmışdır. «Xəstə Qasım» dastanının Zəncan aşıqlarının repertuarında yer alan variantı da indiyə qədər bilinən süjetdən, habelə poetik mətnlərdən (Xəstə Qasımın şeirlərindən) xeyli fərqlidir.

Zəncan aşıq mühitində də aşıqları çayçı-qəhvədə dinləmək ənənəsi yaşamaqdadır. Zəncan, Əbhər, Xürrəmdərə və Qeydarda çoxsaylı «Aşıqlar qəhvəsi» fəaliyyət göstərir. Təkcə Zəncan şəhərində altı aşıq çayxanası vardır. Bu çayçıların əksəriyyəti aşıqların özlərinə məxsusdur.

ZƏNCİRLƏMƏ – aşıq ədəbiyyatında çox az-az işlənən formalardandır. Zəncirləmədə bənd daxilində hər bir misranın son sözü ya olduğu kimi, yaxud da tərkib halında özündən sonrakı misralarda axır-əvvəl tərzində zəncirlənir:

Aşıqlıq Adəmdən icad olubdur,
Ol Adəm atanın nəvəsiyəm mən.
Nə qədqr dünyaya aşıq gəlibdir,
Küllü aşıqların anasıyam mən.

Aşıq anasıyam, şairlər kökü,
Gəzərəm dünyanı divanə təki.
Mahalım Göynükdür, şəhərim Şəki,
Layısqı kəndinin binasıyam mən.

Binəm Layısqıya düşübdü mehman,
Pədərim Salahdır, madərim Reyhan.
Vələdim Həsəndir, əxim Süleyman,
Familim Molla Oruc ədnasıyam mən...
(Molla Cuma)

Əvvəl-axır zəncirləmənin maraqlı bir örnəyi də şeir boyu bütün misra, beyt, bəndlərdə eyni hərf üstündəki sözləri ustalıqla işlətməkdir. Bu zaman hər bir misra, beyt, bənd tərkibindəki söz hansı hərflə başlayırsa həmin hərflə də bitir.

Dost oldum, bədəsil qaldım namurad,
Dərd hicran canına od olar, od-od.
Davat al əlinə, yazginən bir ad,
Durub mən göstərim, od olar od-od.

Dəstimə veribsən abadə abad,
Dil istər olmağı abadə abad,
Dağıtdı zülflərin abadə abad,
Dünyanın hər yeri od olar, od-od.
(Molla Cuma)

ZƏNCİRLƏMƏ DODAQDƏYMƏZ – aşıq ədəbiyyatında çox az-az işlənən formalardandır. Zəncirləmədə bənd daxilində hər bir misranın son sözü ya olduğu kimi, yaxud da tərkib halında özündən sonrakı misralarda axır-əvvəl tərzində zəncirlənir. Aşıq Ələsgər zəncirləmə dodaqdəyməz divaninin klassik formasını yaratmışdır. Orada bütün misra, beyt, bəndlərdə Aşıq Ələsgər sözləri elə ustalıqla işlətmişdir ki, sait, samit səslər cərgəsi "Divani" saz havası ilə cəngi sədaları axınında güclü harmoniya yaradır. Hər bir misra, beyt, bənd tərkibindəki söz, səs, sanki qarşı tərəfə diktə edir, divan qurur. Burada həm də digər istiqamət dodaqdəyməyən sözlərin seçilməsidir. Bu isə sənətkardan xüsusi bacarıq tələb edir.

Əssalati həşt ərkan əhli-dil, hal cənginə,
Əhli-dil, hal gəldi ərlər, seyr elər ahənginə.
Əhli dil, hal tiri tigi xədənginə, cənginə,
Cənginə, xədənginə, hər rənginə.

Əssəlati şindi, aşıq, endirərsən yelkəni;
Şindi, aşıq, əldə sazın əl çalar gəstirgəni;
Ah edərsən, gəl deyər, getsən sənə yazıq səni;
Yelkəni, gəstirgəni, get səlsəli çal sənginə!

ZƏNGƏBAD RƏZMİ MÖHSÜN ABBAS OĞLU (1957, Təbriz, Zəngəbad kəndi) – Qaval ustası. 1962-ci ildən



ailəsi ilə birgə Zəngəbaddan Təbrizə köçmüşdür. On altı yaşından qaval çalmağa başlamışdır. Ustad qavalçı Mustafa Mustafazadənin şagirdi olmuşdur. Təbriz-Qaradağda ustad aşıqlarla məclislər aparır. Güclü ritmik keyfiyyətlərə malik qavalçıdır. Dəf, nağara və qoşanağara kimi zərb alətlərində də ustalıqla ifa edir. Mühitdə istedadlı qaval ifaçısı kimi tanınmışdır.

ZƏRBİ-MƏSƏL – şifahi xalq ədəbiyyatının janrlarından biri. Xalqın həyatı və məişəti, əmək fəaliyyəti ilə daha sıx bağlı olan formaca kiçik, mənaca geniş janrlardan biridir. Məsəllərdə xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq və təcrübələrin nəticələri ümumiləşdirilir. Zərbi-məsəllərin mahiyyətində bir məcazilik, fikrin dolayı çatdırılması vardır. Ona görə də danışıq dilində ifadələrin daha canlı, sərrast və təsirli olması üçün zərbi-məsəllərdən istifadə olunur. Zərbi-məsəllər folklorun çox qədim janrlarındandır. Bu janr öz mənşəyini lap ibtidai icma dövründən alır. O vaxtdan bəri insanların həyat, təbiət haqqındakı təcrübələri, bilik və sınaqları qısa və bədii şəkildə ifadə edilərək zəmanəmizə qədər gəlib çıxmışdır. Ona görə də məsəllərdə xalq həyatının, xalq tarixinin bütün dövrlərinə aid əlamətlər yaşamaqdadır. Zərbi-məsəllər atalar sözünə çox yaxındır. Bunları bir-birindən ayırmaq çox vaxt çətin olur. Lakin bunları fərqləndirən cəhətlər də vardır. Bu barədə müxtəlif fikirlər söylənmişdir. Bəzi tədqiqatçılar bu fərqləri onların qrammatik quruluşunda görmüş, bəziləri həcmcə kiçik və böyük olmalarında axtarmış, bəziləri isə məsəllərdə daha çox məcaz, idiom, müqayisə və s. işləndiyinə görə atalar sözlərindən seçildiyini qeyd etmişdir.

Məşhur rus dilçisi, ömrü boyu atalar sözü və zərbi-məsəlləri toplayıb öyrənməklə məşğul olan V.İ. Dal göstərir ki, «Məsəl xalq arasında gəzən, ancaq hələ tamam atalar sözü səviyyəsinə yüksəlməyən səlis, qısa danışıqdır. Xalq dilində, ifadələrdə qəbul olunmuş nəsihətlər, şərti danışıq tərzi, adi ifadə üsuludur». Bu tərifə əsaslansaq deməliyik ki, atalar sözü və zərbi-məsəllər forma və zahiri xüsusiyyətlərinə görə deyil, məhz məzmunlarına görə bir-birindən ayrılır. Bu məzmun fərqi olduqca incə və gözəgörünməyən olduğuna görə çox zaman hər iki qisim bir-birinə qarışdırılır. Bu məzmun fərqi isə ondan ibarətdir ki, atalar sözü fikri tam ifadə edir, onlarda ümumiləşdirmə, fikir dərinliyi mühüm yer tutur. Əksinə, məsəllər çox zaman bu və ya digər konkret hadisəyə aid olub, nata-mam fikir ifadə edir. Əgər atalar sözündə mühakimə tam və hərtərəfli isə, zərbi-məsəllərdə hadisəyə işarə edilir, adı çəkilir, onda tamamlanmağa ehtiyac vardır. Zərbi-məsəllər sözgəlişi,

tez-tez deyilən, bəzən naməlum kimi görünən hadisəyə izahat vermək üçün işlənən populyar bir janrdır. Danışıq zamanı «Məsəl var: az aşım, ağrımaz başım» şəklində işlədilir. Diqqət edilsə, atalar sözlərinin hamısında, tam mühakimə, bitmiş fikir, ümumiləşdirmə və nəticə vardır: «Ağac bar verəndə başını aşağı salar», «Hər şey nazikliyindən sınar, insan yoğunluğundan», «Həqiqət incələr, üzülməz», «Ziyanın yarısından qayıtmaq qazancdır», «Zəhmət çəkməyən rahatlığın qədrini bilməz», «İnək su içər – süd olar, ilan su içər – zəhər olar», «Mərdin süfrəsi açıq olar» və s. Məsəllərdə isə bu əlamətlərin əksəriyyəti yoxdur. «Dişsiz ağız – daşsız dəyirman», «Baldız – çuvalduz», «Sənin üzün – dəvənin dizi», «Yaz gününün yağışı – ərarvadın savaşı», «Ayrı qardaş – yad qonşu», «Adamın yerə baxanı – suyun lal axanı» və s. Zərbi-məsəllər hələ çox qədim zamanlardan başlayaraq yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin diqqətini cəlb etmişdir. Qətran Təbrizi, Nizami, Xaqani, Xətayi, Füzuli və başqa sənətkarların əsərlərində bu və ya digər dərəcədə külli miqdarda Azərbaycan zərbi-məsəlləri işlənmişdir.

Aşıq yaradıcılığı, ustadların haqqında olan rəvayətlər, dastanlar zərbi-məsəl nümunələri ilə doludur. Ustadların məclis ədəb-ərkanında da zərbi-məsəllər mühüm yer tutur. Aşıqlar zərbi-məsəllərdən yerli-yerində istifadə etməklə bir növ məclisin ümumi ahənginə, ruhuna xoş ovqat qatmışlar.

ZƏRBİ-MUĞAM – Azərbaycan şifahi ənənəli professional musiqidə vokal-instrumental janr. İrihəcmli, birhissəli, silsiləvarı xüsusiyyətlərə malik sırf milli musiqi janrıdır. Azərbaycan xanəndə və sazəndələri tərəfindən yaradılmışdır. A.Əliverdibəyov "Rəsmli musiqi tarixi" əsərində (əlyazma) yazır: "Tarzən Sadıxcanın təşəbbüsatına görə, "Mənsuriyyə"ni və "Simayi-şəmsi"i dairənin dəm tutması ilə ifa edirlər". Muğam dəstgahlarının zil şöbələrinin "zərb üstə" oxunması nəticəsində formalaşmış və "zərbi-muğam" adını almışdır. Zərbi-muğamın özəl xüsusiyyəti sərbəst ölçülü vokal muğam improvizasiyalarının dəqiq ölçülü instrumental musiqinin (rəngvarı) dəyişməz ritmik formulları fonunda səslənməsidir. Zərbi-muğamların kompozisiya quruluşunda bir-birinə əks olan iki ifadə tərzi müxtəlif melodik, metr-ritmik strukturların, polimetrik və polifonik ünsürlərin yaranmasına gətirib çıxarır. Zərbi-muğam aşağıdakılardır: "Mənsuriyyə" ("Çahargah"), "Simayi-şəms" ("Şur"), "Heyratı" ("Mahur-hindi"). "Mənsuriyyə" və "Səmai-şəms" iki şəkildə oxunur: 1. "Çahargah" və "Şur" dəstgahlarının tərkibində. 2. Müstəqil zərbi-muğam şəklində. Bu musiqi nümunələrinin poetik əsasını qəzəllər təşkil edir. "Arazbarı", "Ovşarı" ("Əfşarı"), "Mani" ("Osmani"), "Heydəri", "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" də zərbi-muğam ünvanlı musiqi nümunələridir. Onlar forma baxımından zərbi-muğam, məzmun baxımından isə aşıq havalarıdır. Poetik mətnin əsasını qoşma və bayatılar təşkil edir. Adları çəkilən bu havalar yüzilliklər boyu formalaşmış əsas klassik aşıq havaları cərgəsində xüsusi yer tutur. Aşıq yaradıcılığında reçitativ-deklamasiya tipli havalar silsiləsi vokal oxumanın improvizasiyalı quruluşu ilə fərqlənir. Vokal melodiya, muğamlarda olduğu

kimi, kiçik məqam-intonasiya kompleksinə malik melodik-ritmik özək üzərində yaranır. Həmin özək üzərində yeni çoxsaylı variantlar əmələ gəlir və inkişaf, əsasən, bir dayaq tonu ətrafında baş tutur. Aşıq havalarının bu tip melodik xüsusiyyətləri təxəyyülə geniş yol açır və xanəndələr üçün yeni improvizasiya imkanları yaradır. Müəyyən qisim məhz reçitativ-intonasiya quruluşu onların xanəndə yaradıcılığına keçməsini şərtləndirmişdir. Məsələn, "Oğuzoğlu" aşıq havası "Mani" ("Osmani") zərbi-muğamının bir guşəsi kimi, "Dərvişi" havası "Rast" muğamında şöbə kimi daxil olmuşdur. XIX əsrin sonlarında "Şüştər" muğamına "Əfşarı", "Heydəri", "Osmani-gərayi", "Manı", "Oğuzoğlu" və b. aşıq havaları daxil olmuşdur (R.Zöhrabov). Aşıq havaları içərisində zərbi-muğamlarda olduğu kimi, zil pərdələr üzərində gəzişmə əsasında yaranan nümunələr də vardır: "Bəhməni", "Heydəri" və s.

ZƏRNƏLİ MƏHƏMMƏD HÜSEYNƏLİ OĞLU (1950, Qaradağ mahalı, Zərnə kəndi–Təbriz) – Təbriz-Qaradağ aşıq mühitində ifaçı aşıqdır. Aşıq Poladın yanında şagird olmuşdur (1968-1971). Sənətin sirlərini ondan öyrənmişdir. Aşıq Hüseyn Cavandan da lent yazısı vasitəsilə faydalanmışdır. Sonrakı dövrdə Aşıq Hüseyn Əsədi ilə sənət yoldaşı olmuşdur. 2004-cü ildə Bakıda Aşıq Ələsgərin 180 illik yubileyində iştirak edib. Hal-hazırda Təbriz şəhərində aşıqlıqla məşğul olur. Koloritli və şaqraq oxu tərzinə malikdir. Türkiyədə və Azərbaycanda aşıq konsertlərində iştirak etmişdir. Aşıq sənətini gələcək nəsillərə öyrətməyin qayğısına da qalır.

ZODLU MƏHƏMMƏD MOLLA TAĞI OĞLU (1830, Göyçə mahalı, Zod kəndi – 1910) – Göyçədə təhsil almış, savadlı, tanınmış ziyalılardan olmuşdur. Dini təhsil almış və aşıq şeiri üslubunda şeirlər yazmışdır. Göyçə məclislərində ustadlar onun şeirlərini oxumuşlar. El şairi kimi tanınmışdır. Molla oğlu olduğundan Aşıq Ələsgərin mollalara yazdığı həcvdən incimiş və ona cavab yazmışdır. Olduqca təbli, həm də zəngin dünyagörüşlü bir şəxs olmuşdur. Şeirləri yüksək sənət nümunəsi kimi maraq doğurur.

ZURNA – nəfəsli milli musiqi aləti. Musiqi alətləri içərisində zurnanın öz yeri vardır. "Kitabi-Dədə Qorqud"da adı "surnay" şəklində təqdim olunur. "Sur"da-qala bürcündə çalınan "nay"-"ney" kimi anlaşılır.

Zurna qədimdə hərbi yürüşlərdə, müxtəlif xalq oyunları və əyləncələrində, zorxanalarda, cıdır meydanlarında, xoruz və qoç döyüşlərində səsləndirilirdi. Zurnasız heç bir toy məclisi olmazdı. Bu musiqi alətindən bütün xalq bayram və mərasimlərində istifadə edilmiş, el-obaya sevinc, xoşbəxtlik bəxş etmişdir. Onun zil səsi insanları coşdurur, onlarda qəhrəmanlıq ovqatı yaradır. Çox güclü və zil səsə malik olan bu musiqi aləti çalğıçıdan möhkəm üfürmə qabiliyyəti, nəfəs tələb edir.

İyirminci əsrin əvvəllərində P.Vostrikov zurna haqqında yazırdı: «Zurna

nəfəsli alətdir və qaboyu əvəz edir, lakin öz quruluşu ilə ondan xeyli fərqlənir. Onun doqquz dəliyi olur. Onlardan səkkizi bir cərgədə gövdənin üst hissəsində, birisi isə altında olur. Zurna, adətən, armud ağacından düzəldilir və qızıl, gümüşlə bəzədilir».

Konus formalı, yəni baş tərəfi dar, qurtaracağından diametri isə böyük olan zurnanın uzunluğu 280-360 mm-dir. Üst tərəfində yeddi, altında olan bir deşik daha işləkdir. Üz tərəfində qıfabənzər hissədə olan kiçik deşikdən isə, adətən, zurnanın köklənməsi üçün istifadə edilir. Zurnanın müştüyü xüsusi şəkildə seçilmiş qamışdan hazırlanır. Bu, yonulmuş iki qamış parçasından ibarət olur. Uzunluğu isə 20-22 mm-dir. Müştüyə sümükdən dairəvi tağalaq bərkidilir.

Zurnalar Azərbaycanla yanaşı etnoareallarda (Anadolu, Türkmənistan, Özbəkistan, Tatarıstan və s.) hazərlanmışdır.

XIX əsrdə və XX əsrin əvvəllərində sümükdən armud ağacından hazırlanan zurna sonralar ərik, tut, qoz ağaclarından da düzəldilmişdir. Zurna məclislərdə dəf, eləcə də balaban və nağara ilə birlikdə ifa olunmuşdur.

Bir çox güclü səsə malik olan aşıqlar, xüsusən də "Koroğluxan" aşıqlar zurna ifası üzərinə oxumağı bacarmışlar.

"ZÜLAL ŞAH" – məhəbbət dastanları silsiləsindəndir. Qazax rayonunun Kəsəmən kəndində Yusif Məmməd oğlundan 1956-cı ildə yazıya alınmışdır. Dastanın üç versiyası vardır. Birincisi "İbrahim və Hürnisə" dastanıdır. Aşıqlar bunu qardaşların adı ilə "Aslanla İbrahim" və bəzən də "İbrahimin nağılı" kimi də qeyd edirlər. Atanın adı ilə "Zülal şah" da adlandırırlar. İkinci versiyanın adı "Təhmiraz"dır. Üçüncü versiya isə "Adıgözəl" dastanı adı ilə danışılır. Birinci versiyada Zülal şahın arvadı ölür. Aslanla İbrahim yetim qalır. Şah yenidən evlənir. Yeni aldığı arvadın İbrahimə gözü düşür. İbrahim analığın bu hərəkətini pis qarşılayır. Arvad hadisəni belə görüb İbrahimi şərləyir. İbrahim sürgün edilir. Aslan da ona qoşulub gedir. İkinci versiyada ata da, ana da ölür. Yetim qalmış iki qardaş bir-birinə qoşulub şəhərdən çıxır. Üçüncü versiyada qoca şahın gözləri kor olur. Dünyagörmüş adamlar deyirlər ki, dəryada Mahı adlı bir balıq var. O balığın əti şahın gözlərinə dərmandır. Mahı balığını çox axtarırlar, çox tor atırlar, nəhayət kiçik oğlu Adıgözəl balığı tutur. Balıq hədsiz dərəcədə gözəl olduğuna görə Adıgözəl ona qıymır, dənizə buraxır. Bunu görən vəzir şaha xəbər verir. O da oğlanlarını sürgün edir.

ZÜLFÜQAROV İZZƏTALI MƏHƏMMƏD OĞLU (1925, Şamaxı rayonu, Şamlı kəndi– 1999, Bakı, Qobustan qəsəbəsi)–ustad balabançı. Əməkdar mədəniyyət işçisi (1971). AAB-in üzvü (1984). Atası Şirvanda dindar bir

şəxs kimi tanınmışdır. Anası Dünyaxanım isə saz-söz bilicisi, sinədəftər qadın olmuşdur. Böyük qardaşı Cənnətalı Məhəmməd oğlu da dini və dünyəvi elmlərə, o cümlədən də aşıq yaradıcılığına dərindən bələd olmuşdur. İzzətalı Zülfüqarov orta məktəbi Şamaxıda bitirmiş və Kənd təsərrüfatı texnikumunda təhsilini davam etdirmişdir (1931-1933). Lakin sənətə olan marağı onu mədəniyyət evində musiqi dərnəyinə gətirib çıxarmışdır. Zurna-balaban ifaçısı kimi tanınmağa başlamışdır (1946). Üç il Ağsulu Əli Kərimovdan (Kalvalı Əlidən) sənətin sirlərini öyrənmişdir. 1949-cu ildən Aşıq Şakirlə birgə uzun müddət məclislər aparmışlar. Etnoqrafik el məclisləri ilə yanaşı ADF-da çoxsaylı solo çıxışları diqqət çəkmişdir. Aşıq Məmmədağa, Aşıq Barat, Aşıq Rza, Aşıq Xanmusa kimi ustad sənətkarlar Şirvanda ən ağır məclisləri məhz İzzətalı Zülfüqarovun balaban müşaiyəti ilə gerçəkləşdirmişlər. Bir sıra nəfəs alətləri ifaçılarının (Mirağa, Ağaverdi, Məhəmməd, Məcid) sənətə gəlişində bu böyük ustadın mühüm əməyi olmuşdur.



İzzətalı Zülfüqarov "Vətən oğlu", "Şirvanda", "Xanəndə oğlan" və s. mahnılar da bəstələmişdir. O, "Almagülü", "Alçagülü" və "Şirvan baharı" rəqs havalarının yaradıcısıdır. Zurnada ifa olunan bir çox oyun havalarının da müəllifi İzzətalı Rüstəmovdur.

Moskvada keçirilən Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə (1959) iştirak etmişdir. On ildən çox Bakının Qobustan qəsəbəsində mədəniyyət evinin direktoru vəzifəsində işləmiş, çoxsaylı saz-söz məclisləri təşkil etmişdir. Ustad sənətkar və bacarıqlı mədəniyyət işçisi kimi tanınmışdır. 20-ci yüzilliyin 60-70-ci illərində Əli Kərimov, Həsrət Hüseynov, Ələsgər Şəkili kimi ustad sənətkarlarla birlikdə milli Azərbaycan nəfəs alətlərini (balaban, zurna) böyük sənətkarlıqla beynəlxalq aləmdə tanıda bilmiş, dünya festivallarında dəfələrlə yüksək səviyyəli mükafatlar almışdır. Onun ifaları Moskva, Sankt-Peterburq və Kiyev konservatoriyalarının arxivlərində qızıl fond kimi qorunur.

Aşıq şeiri biçimində xeyli sayda poetik örnəklər yaratmışdır. Şeirləri antoloji nəşrlərdə çap olunmuşdur.

Azərbaycan aşıqlarının III və IV qurultaylarının iştirakçısı olmuşdur. Dövlət əhəmiyyətli tədbirlərdə yüksək səviyyəli çıxışlarına görə dəfələrlə Mədəniyyət Nazirliyinin fəxri diplomlarına layiq görülmüşdür. Ustadın sənət yolu oğlu Zahir Zülfüqarov tərəfindən uğurla davam etdirilir. İfaları Az.TV-nin və radionun qızıl fondunda qorunur. Ömür və sənət yolu barədə radio və televiziya verilişlər hazırlanmış, kitab və məqalələr yazılmışdır.

ZÜLFÜQAROV AYAZ MUSTAFA OĞLU (1931, Qazax rayonu, Daş Salahlı kəndi – 1982) – Orta məktəbdə dördüncü sinfə qədər oxuyub, sonra peşə məktəbində təhsilini davam etdirmişdir. Neft daşlarında işləmişdir. Saz sənətinə xüsusi maraq göstərmişdir. Aşıqlığı öyrənməyə çalışmış, Aşıq Bəhramın yanında şagirdlik etmişdir (1956-1959). Ayaz saz çalmaqla bərabər, həm də sazbəndliklə də məşğul olmuşdur. Sazbəndliyi məşhur sazbənd Məhəmmədəlidən öyrənmişdir. Sədəfli saz düzəltməyə daha çox meyl göstərmişdir.

ZÜLFÜQAROV NİZAMİ AYAZ OĞLU (1954, Qazax rayonu, Daş Salahlı kəndi). Atası Ayaz Zülfüqarov da aşıq və sazbənd kimi tanınmışdır. Gəncə politexnik texnikumunu bitirmişdir (1979). Erkən yaşlarından saza maraq göstərmişdir. Atasından həm aşıqlığı, həm də sazbəndliyi öyrənmişdir. Qazaxda və ətraf bölgələrdə bacarıqlı sazbənd kimi tanınmışdır. Gözəl saz çalğısı ilə də maraq doğurmuşdur. Aşıq şeiri üslubunda çeşidli poetik örnəklər yazıb-yaradır.

ZÜLFÜQAROV ZAHİR İZZƏT-ALI OĞLU (1964, Bakı, Qobustan qəsəbəsi) – AAB-in üzvü (2016). Şirvan mühitinin yetişdirdiyi istedadlı balabançıdır. Balabanla yanaşı digər nəfəs alətlərinin (zurna, ney, tütək) mahir ifaçısıdır. Uşaq yaşlarından musiqiyə böyük maraq göstərmişdir. Məşhur balabançı İzzətalı Zülfüqarovun ailəsində dünyaya gəlmişdir. Zahirin bir sənətkar kimi yetişməsində atasının böyük rolu olmuşdur. O, gözünü açıb mühitin azman saz-söz ustadlarını öz gözləri ilə görmüş və onların təsiri altında özü də ustad sənətkar kimi yetişmişdir. Yeniyetmə çağlarından məclislərə getmişdir. Əhməd Rüstəmov, Rza Qobustanlı, Xanmusa Musayev, Abbas Musaxanoğlu, Məhəmməd Şirvanlı, İslam Rzaoğlu kimi ustad sənətkarları yüksək səviyyədə müşayiət etmişdir. Zəngin musiqi repertuarına və ritmik ifa tərzinə malikdir. Professional bəstəkarlara məxsus musiqi əsərlərinin notlu ifası və müşayiəti sayəsində öz səriştəli çalğısı ilə seçilir. Rusiya, İran və Türkiyədə folklor festivallarında iştirak etmişdir. Zurnada və balabanda ifa edilən bir sıra oyun havalarını və instrumental musiqiləri bəstələmişdir. Azərbaycan aşıqlarının V və VI qurultaylarının nümayəndəsi olmuşdur.

AŞIQ MUSİQİSİ
(Son söz əvəzi)

Azərbaycan xalqının musiqi tarixində, onun mədəni dəyərlər sistemində ozan-aşıq sənətinin özünəməxsus yeri vardır. Aşıqlar türksoylu xalqlarının ən qədim sənət ənənələrinin daşıyıcılarıdır. Qafqaz və Orta Asiya xalqları arasında, İran Azərbaycanı və Türkiyədə geniş yayılmış aşıq sənətini dünya mədəniyyəti kontekstində aed (Qədim Yunanıstan), skald (Norveç və İslandiya), menestrel (Fransa və İngiltərə) və s. epik ifaçıların yaradıcılığı ilə müəyyən mənada müqayisə etmək olar.

Aşıq sənətini çox vaxt "saz-söz sənəti" adlandırırlar. Bu ifadə iki böyük bədii sənət növünün adını və bu ad altında iki nəhəng mədəni hadisəni özündə cəmləşdirir. Lakin aşıqlıq fenomeni bunlarla da tamamlanmır, digər sənət növlərini də bütöv bir tam halında nizamlayan qovuşuq, müxtəliflikdən doğan mükəmməl birlik kimi üzə çıxır. Artıq bu adın özü aşıq yaradıcılığını sintetik sənət olaraq dəyərləndirir. Hal-hazırda Azərbaycan milli mədəniyyətində aşıq yaradıcılığının doğurduğu və onun həm müstəqil, həm də ayrılmaz tərkib hissəsi olan bir sıra sənət istiqamətləri mövcuddur:

1. *Ədəbiyyat sahəsində:*
   a) aşıq poeziyası;
   b) aşıq nəsr ədəbiyyatı (hekayət, rəvayət, nağıl, lətifə və s.);
   c) aşıq dastan ədəbiyyatı.
2. *Musiqi sahəsində:*
   a) vokal-insrumental aşıq havaları (o cümlədən, aşıq dastan havaları və s.);
   b) aşıq mahnıları;
   a) instrumental aşıq havaları;
   ç) aşıq rəqs havaları.
3. *Teatr sahəsində:*
   a) aşıq dastan ifaçılığı (dastan silsiləvi mono-tamaşa, "bir aktyorun teatrı" kimi);
   b) "Qaravəlli" teatrı ("tamaşa içində tamaşa" kimi);
   c) aşıq havası ifaçılığı (kiçik tamaşa-səhnəcik kimi);
   ç) aşıq məclisləri (mərhələli tamaşa kimi).

Göründüyü kimi, bunların hər biri incəsənətin ayrı-ayrı nəhəng qollarıdır və sintez halında aşıq yaradıcılığında bir-birinə qovuşaraq təzahür edir. Bu bir daha aşıq sənətinin unikallığını – "incəsənət", "sənət növü" anlamından daha yüksəkdə durduğunu, daha ali bir ictimai-tarixi, mifik-fəlsəfi, milli-mənəvi mədəniyyət hadisəsi olduğunu və həyat tərzinin qovuşuğundan yarandığını ifadə edir.

Aşıq yaradıcılığı milli-mənəvi yaddaşın ilkin elementlərini, mifik təsəvvürün hadisə və faktlarını, arxaik mədəniyyəti, mərasim sinkretizmini bir bütöv olaraq

özündə ehtiva edir. Ritual əsasların axtarışları aşıqlıq mədəniyyətinin ən erkən qatlarının açılması üçün çox vacib amildir və universal bir meyardır. Rəqs, musiqi və poeziyanın mərasim sinkretizmindən yarandığını təsdiq edən nəzəriyyələr kifayət qədərdir. Musiqi və ya musiqi ilə bağlı hər hansı bir yaradıcılıq nümunəsi– mahnı, rəqs, ritmik hərəkət və s. həyatın axarı və silsiləviliyi ilə, kollektivin fəaliyyəti ilə sıx funksional əlaqədə olmuşdur. İbtidai sinkretizmdə tədricən pərakəndəliyin müəyyən nizamla əvəz olunması xaosun yaradıcı, kreativ rolu haqqında mülahizələr irəli sürməyə imkan verir. Böyük ehtimalla qeyd etmək olar ki, sinkretik mərasimlərin mikrosəviyyəsində baş verən ani dəyişikliklər (fluktuasiyalar) və sinxronlaşma nəticəsində müəyyən oturuşmuş qəliblər, quruluşlar meydana gəlmişdir. Qədim ayinlərin açıq, qeyri-xətti mühitində, dissipativ proseslərin fonunda müəyyən lokallaşma prosesləri də cərəyan edirdi ki, bu da ayrı-ayrı sənət növlərinin formalaşmasına gətirib çıxarmışdır. Bu zənginləşmədə ozanın, onun sonrakı çağlarda varisi olan aşığın yeri müstəsnalıqdır. Qopuz, saz haqqında dolaşan hekayətlər, rəvayətlər bir istiqamətdə ilkin təsəvvürlərə bağlanır.

Azərbaycan musiqişünas-alimi Əbdülqadir Marağainin (XIV-XV əsrlər) risalələrinə istinadən qopuz alətinin quruluşu haqqında müəyyən təsəvvür yaratmaq olar. "Ozanların qopuzu ayrı-ayrılıqda bağlanan üç simdən ibarətdir. Aşağı simlə orta sim kvarta (zil-ərbəa), orta simlə yuxarı sim isə bir ton (tanini) əmələ gətirir. Bəzi hallarda bir qısa sim də əlavə olunur. Onun çanağı digər simli alətlərin çanaqlarından daha uzundur. Mizrabı ağaçdandır. Bu alətin müşayiəti ilə nəsrlə ifa olunan türk dastanları və ritmik melodiyalar çalınır".

Müəyyən tarixi-ideoloji amillərin nəticəsində sənət meydanında qopuz aləti sazla, ozanlar isə aşıqlarla əvəz olundu. Erkən orta əsrlərdən başlayan və təxminən XVI əsrə qədər sürən bu mürəkkəb mədəni prosesin ilkin mərhələsində ozan və aşıq sənəti bir müddət paralel olaraq inkişaf etmişdir. Ozan sistemindən aşıq sənətinə keçid dövründə yeni təfəkkür tərzinin biçimlənməsinə təsəvvüf ideyaları son dərəcə böyük təsir göstərmişdir. Bu prosesin tarixi-sosioloji səbəblərini səciyyələndirərək qeyd etmək lazımdır ki, müxtəlif sufi təriqətlərinin xalq arasında geniş yayılmasının əsas səbəbi məhz təsəvvüf şairlərinin sadə, anlaşıqlı dildə şeir yazması və əsrlərdən bəri türk mədəni çevrəsində ərsəyə gəlmiş qam-ozan bədii sisteminin digər ifadə vasitələrinin (musiqi, rəqs, teatr ünsürləri) tətbiqi olmuşdur.

Ustad aşıqlar tərəfindən "məclis", yaxud "səmavi" adlanan havalar çox guman ki, məhz təriqət ayinləri ilə bağlı yaranmışdır. Hal-hazırda da aşıqlar tərəfindən ifa olunan "Ürfani", "Baş divani", "Mansırı" və digər havalar məhz səmavi havalar sırasına daxildir. Bu gün aşıqların repertuarında mühüm yer tutan "Dübeyt" havalarının mənşəyi də, çox güman ki, sufi mərasimləri ilə bağlıdır. Həm yazılı, həm şifahi ədəbiyyatda geniş yayılmış dübeyt şeir forması, məlum olduğu kimi, öz yığcamlığı və sadəliyi ilə seçilir. Aşıq-dərvişlərin bu janra mütəmadi olaraq müraciət etməsinin əsas səbəbi də məhz onun sadəliyi ilə izah

edilə bilər. Səciyyəvidir ki, səmavi havaların əksəriyyəti (məsələn, "Şah İsmayılı", "Heydəri", "İbrahimi", "Sultanı", "Baş divani") təsəvvüf dünyagörüşünü dövlət ideologiyası səviyyəsinə qaldıran Şah İsmayıl Xətayinin (1487-1524) adı ilə bağlıdır.

Müasir aşıqların repertuarında təxminən yüzə yaxın ənənəvi havalar və onların variantları mövcuddur. Öz melodik-intonasiya və metr-ritmik zənginliyi ilə seçilən aşıq havalarını tipoloji baxımından üç qrupa ayırmaq mümkündür:

1. Bəhrsiz aşıq havalar – bunlar ən qədim el havaları sırasındandır. Bu havalar lirik-fəlsəfi, epik, dramatik məzmunlu klassik sənət nümunələridir, mənşə etibarilə dastanlarla bağlıdır. Mürəkkəb, improvizasiyalı melodik ifadə tərzi bu qrup havaları səciyyələndirir. Bu havalar iki cür olur: a) sırf improvizasiya xarakterli vokal-instrumental havalar; b) vokal melodiyası bəhrsiz-improvizasiyalı, instrumental partiyası dəqiq ölçülü havalar olub, improvizasiyalı vokal melodiya və dəqiq ölçülü instrumental melodiyaların növbələşməsi əsasında yaranmışdır. "Təcnis", "Qaraçı" ("Dərvişi"), "Zarıncı", "Çoban bayatı", "Yanıq Kərəmi", "Dilqəmi" və s. bu sıradandır.

2. Qovuşuq bəhrli aşıq havaları – bu növ havalar quruluş baxımdan çoxçeşidlidir: a) havaların bir qismində dəqiq ölçülü və reçitativ-deklamasiya tipli melodik bölmələr üzvi surətdə havanın daxili məzmunu ilə bağlıdır, məhz melodiyanın özü xarakter etibarilə qovuşuq bəhrlidir; b) bir qisim havaların melodik strukturuna daxil olan improvizasiyalı bölmələr ifaçı tərəfindən bir qədər sərbəst şəkildə – daha geniş və ya daha məhdud ölçülərdə ifadə olunmaq imkanına malikdir; c) hava həm improvizasiyalı, həm də improvizasiyasız şəkildə ifa olunur, müxtəlif versiyalarda təqdim olunur: "Şah Xətayi divanisi", "Cəngi Koroğlu", "Azaflı gəraylısı" və s. bu sıradandır.

3. Bəhrli aşıq havaları – bu bəndə aid olan havalar da müxtəlifdir: a) mahnı tipli aşıq havalarıdır ki, müxtəlif mətnlərlə oxunur, dəqiq metr-ritmik ölçülərə malikdir. b) aşıq mahnılarıdır ki, "Gilənarı", "Dərbəndi", "Şahsevəni", "Hacalı gözəlləməsi" və s. bu qəbildəndir.

Aşıq havalarının biçimlənmə üsulları arasında başlıca olaraq təkrar və variantlılıq prinsipləri qeyd olunmalıdır. Bir qayda olaraq, aşıq havalarında kuplet forması üstünlük təşkil edir. Bununla yanaşı, havaların biçimində quruluş baxımından üçhissəlilik ünsürləri də göz qabağındadır. Hər bir aşıq havası güclü dramaturji məntiqə söykənən musiqili-poetik kompozisiyadır. Ənənəvi aşıq havaları, adətən, instrumental müqəddimə ilə başlanır və koda ilə bitir, yarımbənd və bəndlər arasında isə intermediyalar çalınır. Bəzi hallarda bəndin sonunda və ya bənd daxilində (misraarası) çox vaxt bayatılarla oxunan "yedək" və ya "cığa" ifa olunur ki, onun da əsas bədii funksiyası havanın emosional təsirini gücləndirməkdən ibarətdir.

Aşıq havalarının melodik xüsusiyyətləri arasında səsin eyni yüksəklikdə təkrarı, ayrı-ayrı musiqi seqmentlərinin rəngarəng variantlar şəklində səslənməsi, sekvensiyalılıq, melodik xəttin aşağı istiqamətdə hərəkəti qeyd olunmalıdır. Aşıq

havalarının məqam xüsusiyyətləri bilavasitə sazın səs düzümü və kök quruluşunun özəllikləri ilə bağlıdır. Aşıq musiqisinin harmonik dilinin zənginliyini təmin edən əsas amillərdən biri ənənəvi havaların müxtəlif köklərdə çalınıb-oxunmasıdır. Ənənəvi aşıq havalarının intonasiya-məqam mündəricəsini müəyyən mənada Şur, Rast, Segah, Bayatı-Şiraz məqamları ilə müqayisə etmək olar. Aşıq havalarının musiqi dilinin özəl cəhətləri birbaşa sazın morfologiyası ilə bağlı olduğu üçün onların təsnifatını sazın kök növlərinə görə də aparmaq mümkündür. Məsələn, sazın orta pərdə kökündə "Quba Kərəmi", "Orta sarıtel", "Hüseyni", "Orta müxəmməs" və s. havalar, baş pərdə kökündə "Baş dübeyt", "Baş sarıtel", "Baş divani" və s. musiqi örnəkləri ifa olunur.

Aşıq havalarının son dərəcə zəngin metr-ritmik şəkilləri müəyyən mənada aşıq şeirinin vəzni ilə bağlıdır. Digər tərəfdən qeyd etmək lazımdır ki, sinkretik səciyyəli aşıq sənətində sazın quruluşu, ənənəvi havaların sintaksisi aşıq poeziyası formalarının biçimlənməsinə də böyük təsir göstərmişdir. Məsələn, aşıq sənəti tarixindən məlum olduğu kimi, divani şeir formasının təşəkkülündə aşıqlar tərəfindən tez-tez oxunan Xətai qəzəllərinin son dərəcə önəmli rolu olmuşdur. Tarixi qaynaqlara əsasən qeyd etmək olar ki, XVI əsrdən etibarən əksər aşıq məclisləri məhz "Baş divani" havası ilə başlamışdır. İfa zamanı on beş hecalı divaninin hər misrası iki hissəyə bölünərək birinci misra səkkiz, ikinci misra isə yeddi hecalı olur. Yeri gəlmişkən qeyd edək ki, müxəmməs şeir forması da sazın müşayiəti ilə ifa olunarkən onun da hər misrası iki yerə bölünərək bir beyt əmələ gətirir. Bu zaman onun "Müxəmməs" havasının metr-ritmik xüsusiyyətlərinə uyğun olaraq birinci misrası yeddi, ikinci misrası isə səkkiz hecalı olur. Aşıqların yaratdığı bu bölğü nəticəsində klassik poetik formanın misraları axıcı şəkildə xalq şeirinə – bayatı və gəraylıya qovuşur.

Aşıq yaradıcılığında sözlə musiqinin üzvi şəkildə vəhdətinin parlaq nümunəsi həm də müəyyən şeir şəkillərini öz adlarında əks etdirmiş ənənəvi havalar ola bilər: "Bayatı", "Gəraylı", "Divani", "Dübeyt", "Təcnis", "Müxəmməs" və s.

Aşıq yaradıcılığının uzunmüddətli tarixi təkamülü nəticəsində hər bir əsas şeir şəklinin quruluşuna uyğun olaraq müəyyən havalar toplusu biçimlənmişdir. Məsələn, aşağıdakı aşıq havalarının poetik əsasını gəraylı şeir forması təşkil etmişdir: "Gəraylı", "Sallama gəraylı", "Şahsevəni", "Baş sarıtel", "Orta sarıtel", "Baş dübeyt", "Koroğlu gözəlləməsi", "Paşa köçdü", "Laçını", "Təbrizi", "Heydəri", "Sulduzu", "Cəngi Koroğlu" və s.

Yeri gəlmişkən qeyd edək ki, aşıq havalarının adlarında onların yaranma məkanı, musiqi dilinin özəllikləri, poetik əsasları, yaradıcıları və s. haqqında dəyərli məlumatlar hifz olunmuşdur. Məsələn, "Əfşarı", "Gəraylı", "Bayatı" kimi havalarda Azərbaycan xalqının etnogenezisində müəyyən rol oynamış etnik qrupların adları; "Hüseyni", "Bəhməni", "Cəlili", "Qəhrəmanı" havalarında – yaradıcı aşıqların isimləri; "Koroğlu", "Kərəmi" havalarında – dastan qəhrəmanlarının; "Dərbəndi", "Naxçıvani", "İrəvan çuxuru", "Dərələyəz gəraylısı", "Şirvan şikəstəsi", "Şirvan gözəlləməsi", "Göyçəgülü" havalarının

adlarında isə toponimlər öz əksini tapmışdır.

Qeyd edək ki, aşıq havalarının adlarında bu sənətin ümdə cəhətlərindən biri, yəni variantlılıq prinsipi parlaq şəkildə təzahür etmişdir. Yalnız "Dübeyt" havasının çoxsaylı ərazi, fərdi variantlarının adları ("Borçalı dübeyti", "Zülfüqar dübeyti", "Şahsevən dübeyti", "Mirzə dübeyti", "Azaflı dübeyti" və s.) deyiklərimizə parlaq nümunə ola bilər.

Aşıq sənətinin sintetik təbiəti daha dolğun şəkildə öz təzahürünü dastanlarda tapmışdır. Dastan aşıq sənətinə xas olan mühüm məsələləri: avazla oxumağı, nəsr hissəsini özünəməxsus üslubda söyləməyi, qaravəllilər danışmağı, aşıq havalarını məharətlə çalmağı, oxumağı və oynamağı özündə birləşdirir. Şübhəsiz ki, dastan ifaçılığında müşahidə olunan müxtəlif sənət növlərinin ifadə vasitələrinin bədii sintezinin kökləri qədim ayinlərin sinkretizmi ilə bağlıdır. Dastanın ifası zamanı müxtəlif ifadə vasitələri tətbiq edilsə də, əsas informasiya, şübhəsiz ki, verbal və musiqi kanalları ilə ötürülür. Dastanın süjet xəttinin fabulasının inkişafını əks etdirən nəsr hissələri qəhrəmanların hisslərini, emosional vəziyyətini ifadə edən nəzm bölmələri və sazın müşayiəti altında oxunan musiqi ilə sıralanır.

Əsrlərdən bəri Azərbaycan aşıq sənətində zəngin ənənələrə malik olan dastançılıq mədəniyyəti formalaşmışdır. Qeyd etmək lazımdır ki, dastançılıq mədəniyyəti eposşünaslıqda xüsusi önəm daşıyan anlayışlar sırasına daxildir. Məlum olduğu kimi, "dastançılıq" anlayışı yalnız dastan mətnlərinin xüsusiyyətləri ilə məhdudlaşmır, o, dastan mədəniyyətini kompleks halında əks etdirir. Dastanın dinləyicilərə müxtəlif aşıqlar tərəfindən özünəməxsus tərzdə çatdırılması, onun musiqi tərtibatı, məclis aparmağın qayda-qanunları, qaravəllilərin lazımı hissələrdə söylənilməsi, dinləyici auditoriyasının tərkibi və səviyyəsinin dastanın biçimlənməsinə təsiri və s. bu kimi məqamlar "dastançılıq" anlayışına daxil olan məsələlərdəndir. Əgər bu problemlər dastançılığı sinxronik (müasir) baxımından səciyyələndirirsə, həmin anlamın, əlbəttə ki, özünəxas diaxronik (tarixi) cəhətləri də mövcuddur. Bu istiqamətdə aparılan tədqiqatlar dastanı bir tarixi kateqoriya kimi işıqlandırmağa imkan verir. Müxtəlif tarixi kəsimlərdə türk xalqlarının mədəniyyət dünyasında, bədii təfəkküründə dastanın xüsusi yeri olmuşdur. "Oğuznamə", "boy", "nağıl", "qissə" və s. adlar altında ayrı-ayrı dövrlərdə intişar tapmış dastan janrı çoxəsrlik tarixə malikdir. Azərbaycan dastanları mövzu etibarilə, əsasən, qəhrəmanlıq, məhəbbət və didaktik dastanlar kimi təsnif edilir. "Kitabi-Dədə Qorqud", "Qara Məlik", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Səttarxan" və d. qəhrəmanlıq dastanlarında xalqın mübarizəsi, tarixi keçmişinin ayrı-ayrı qəhrəmanlıq səhifələri yüksək bədii inikasını tapmışdır.

Azərbaycan qəhrəmanlıq eposunun şah əsəri hesab olunan "Koroğlu" dastanı öz bədii-tarixi əhəmiyyətinə görə "Kitabi-Dədə Qorqud", "Manas", "İqor polku haqqında dastan", "Nart" və b. möhtəşəm epik abidələrlə müqayisə oluna bilər. "Koroğlu" – açıq semiotik sistemə malik nadir epik abidələrdən biridir. O, zaman anlayışı baxımından ən müxtəlif tarixi-mədəni qatların izlərini özündə

ehtiva edən bir əsərdir.

Azərbaycan aşıq sənətində "Koroğlu" dastanının özünəməxsus ənənəvi havaları ("Bozuğu Koroğlu", "Cəngi Koroğlu", "Döşəmə Koroğlu", "Koroğlu müxəmməsi", "Nəfəsçəkmə Koroğlu" və s.) mövcuddur. Yüksək tessiturada zil səslə oxunan "Koroğlu" havalarının mahir ifaçıları xalq arasında "koroğluxan" adlanır. Məşhur ustad aşıq Hüseyn Bozalqanlının (1860-1941) yetirməsi Ələkbər Ələsgərovun məlumatına görə, keçmişdə "Koroğlu" qolları ifa edilərkən yalnız bu dastana məxsus havalar oxunmalı idi. "Koroğlu" havalarının Azərbaycan, türk, türkmən variantlarının musiqi dilinin müəyyən parametrləri üzrə aparılmış müqayisəli təhlili onların tarixi-genetik qohumluğu haqqında fikir yürütməyə imkan verir. Bundan əlavə, qeyd olunmalıdır ki, eposun musiqi dilinin dərin semantik qatlarında türk xalqlarının mifopoetik sisteminin bəzi özəllikləri öz əksini tapmışdır.

Azərbaycan aşıqlarının dastan yaradıcılığının böyük bir hissəsini məhəbbət dastanları təşkil edir. "Əsli və Kərəm", "Novruz-Qəndab", "Tahir-Zöhrə", "Aşıq Qərib" kimi məhəbbət dastanlarının bəzi motivləri "Kitabi-Dədə Qorqud" boylarının ayrı-ayrı səhifələrini xatırladır.

Süjetin inkişafı baxımından məhəbbət dastanlarının eyni funksional sxem üzrə quruluşu onların əsasında duran qədim invariantın mövcudluğunu təsdiqləyir. Heç şübhəsiz ki, sinkretik təbiətə malik olan dastanların musiqi qatı haqqında təsəvvür yaratmaq üçün onun verbal mətnini də nəzərdən keçirmək lazımdır. Məsələn, "Əsli və Kərəm" dastanının mətninin funksional təhlili bu dastana məxsus olan havaların semantik mahiyyətinin təyin edilməsinə yardım göstərir. Nümunə üçün qeyd etmək olar ki, dastanın funksional sxemində "qəhrəmanın qarşısına çıxan maneələrin dəf edilməsi" səhnələrində səslənən "Qürbəti Kərəmi" və "Zarıncı Kərəmi" havalarının sakral məzmunu yalnız təsəvvüf anlayışları kontekstində açıla bilər. Məlum olduğu kimi, təsəvvüf dünyagörüşündə yalnız maneələri dəf edərək kamilləşən insan Tanrıya – Vücuda qovuşa bilər.

Qeyd edək ki, ifaçılıq təcrübəsində də dastanda musiqi ilə verbal mətnlərin sinkretik vəhdətini ifadə edən müəyyən təsəvvürlər mövcuddur. Məsələn, Borçalı aşığı Əhməd Sadaxlının məlumatına görə, özünəməxsus havalara malik yeganə məhəbbət dastanı olan "Əsli və Kərəm"də ənənəvi havalar təhkiyənin müəyyən məqamları ilə bağlı yaranmışdır. Bu baxımdan, məsələn, "Əsli və Kərəm" havası əsas qəhrəmanların ilk dəfə görüşdüyü səhnədə, yəni dastanın ekspozisiyasında, "Yanıq Kərəmi" havası isə sonda, Kərəmin alışıb-yanması səhnəsində səslənməlidir. Təbii ki, dastan havalarının məzmunu son dərəcə zəngin və çoxçalarlı olduğu üçün onlar təhkiyənin digər müvafiq səhnələrində də ifa oluna bilər. Ümumiyyətlə, dastanların ifası zamanı müəyyən ənənəvi havaların seçilməsi həm onların əsrlərdən bəri formalaşmış semantik çalarları, həm də təhkiyənin ayrı-ayrı məqamlarının məzmunu ilə bağlıdır. Hava konkret olaraq dramatik hadisələrin bu və ya digər situasiyasına, hər hansı bir obrazın daxili aləminin

açılmasına, hiss və ovqatın gücləndirilməsinə xidmət edir, məzmunun daşıyıcısına çevrilir.

"Dastançılıq" anlayışının əhatə etdiyi tərəflərdən biri də məclisin başlanğıc məqamı ilə bağlıdır. Dastanı başlamazdan əvvəl aşıqlar, bir qayda olaraq, üç ustadnamə oxuyur. Çox vaxt atalar sözlərindən geniş istifadə olunan nəsihətamiz, didaktik xarakterdə olan ustadnamələrin mənbəyi, tədqiqatçıların fikrincə, "Kitabi-Dədə Qorqud" dastanının müqəddiməsi ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, dastanın başlanğıc məqamında hər bir aşıq məktəbinin müəyyən mədəni-tarixi amillərdən meydana gələn özünəməxsus musiqi qurumu təşəkkül tapmışdır. Belə ki, Göyçə aşıqlarının apardığı məclislər, adətən, ustad aşıqların şeirlərinə oxunan "Divani", "Təcnis", "Dərvişi" havaları ilə başlanır ki, bu da həmin aşıq məktəbinin klassik aşıq sənəti ilə sıx bağlılığına, onun zəngin poetik ənənələrinə malik olmasına dəlalət edir. Gəncəbasar aşıq mühitinin nümayəndələri isə, bir qayda olaraq, ustadnamələri "Divani", "Təcnis" və "Dərvişi" havaları ilə ifa edirlər. Göstərilən aşıq mühitləri ilə müqayisədə Şirvan aşıqları tərəfindən aparılan məclislərin başlanğıcının musiqi düzümü daha çox dəyişkənliyə, variantlılığa malikdir. Belə ki, Şirvan aşıqlarının məclislərində birinci ustadnamə "Pişro" ("Peşrov") havası ilə ifa olunur, ikinci ustadnamə oxunmur, yalnız söylənilir, üçüncü ustadnamədə isə hər hansı bir "Şikəstə" növü istifadə edilir. Şirvan aşıq məktəbinin spesifik janrı sayılan "Pişro" sırf dastançılıq yaradıcılığı ilə bağlı meydana gəlmişdir. Sözün anlamından da (farsca "qabaqda gedən" deməkdir) bəlli olduğu kimi, "Pişro"nun müstəqil hava şəklində istifadə olunmasına baxmayaraq, onun əsas funksiyası məclisin açılışı ilə bağlıdır. Səciyyəvidir ki, klassik türk musiqi növü olan "fasıl"ın də instrumental müqəddiməsi "Pişro" adlanır.

Məhəbbət dastanlarının ifası, bir qayda olaraq, duvaqqapma adlanan bölmə ilə tamamlanır. Duvaqqapma bilavasitə dastanın məzmunu ilə bağlı olmayan müxəmməsdən ibarətdir. Beləliklə, əksər hallarda məhəbbət dastanları məşhur ustad aşıqların şeirlərinə oxunan "Baş müxəmməs" və ya "Orta müxəmməs" havalarının nikbin sədaları ilə bitir.

Aşıq yaradıcılığının ali janrı sayılan dastanda bu sənətə məxsus olan bütün özəl cəhətlər aydın şəkildə təzahür etmişdir. Belə ki, şifahi ənənəyə əsaslanan digər sənət növlərinə xas olan improvizə, kontekst, invariant, variant və digər anlayışlar dastançılıq mədəniyyətinin təməl məfhumları sırasına daxildir. Dastançılıq ənənəsinə aid olan bütün bu anlayışlar "dastançı aşıq" (epos ifaçısı) məfhumu ətrafında cəmləşir.

Eposşünaslıqda aşıqların istedadı, ifaçılıq qabiliyyətinə görə bir neçə təsnifatı mövcuddur ki, onlar, əsasən, "ustad aşıq" və "ifaçı aşıq" anlayışları üzərində qurulur. Şeir və dastan qoşan, yeni havalar yaradan, məharətlə oxuyan və saz çalan aşıqlar ustad və ya yaradıcı aşıq adlanır. Ustad aşıqların şeir və dastanlarını söyləyən, gözəl səslə oxuyan və saz çalan aşıqlara isə peşəkar ifaçı aşıqlar deyilir. Yuxarıda qeyd etdiyimiz kimi, dastançılıq mədəniyyətinin tərkib

hissələrindən biri də "kontekst" anlayışı ilə bağlıdır. Məlum olduğu kimi, yalnız mətnin və onun kontekstinin kompleks halında öyrənilməsi şifahi yolla inkişaf edən mədəniyyət tiplərinin qanunauyğunluqlarını dərk etməyə imkan yarada bilər. Dastançılıq mədəniyyətində "kontekst" anlayışı həm dastançı aşığın yaradıcılıq xüsusiyyətləri ilə, həm də müəyyən sosial-mədəni, coğrafi və s. amillərlə bağlı olan məfhumdur. Dastanın ifası zamanı hər bir yaradıcı aşıq müəyyən amillərin təsiri altında dastanın əsrlərdən bəri biçimlənmiş quruluşuna, mündəricəsinə müəyyən dəyişikliklər gətirərək improvizə qabiliyyətini nümayiş etdirir.

Qeyd etmək lazımdır ki, aşıq yaradıcılığının improvizə təbiəti deyişmədə daha qabarıq şəkildə təzahür edir. Müsabiqə xarakterli aşıq deyişmələri bir neçə mərhələdən ibarətdir ki, onların da kulminasiyası bağlama səciyyəli qıfılbəndlərə təsadüf edir. Deyişmə zamanı aşıqların bədahətən şeir qoşmaq, poetik texnikanın müxtəlif incəliklərindən istifadə etmək qabiliyyəti, müəyyənləşdirilmiş aşıq havalarının metr-ritmik özəlliklərini şeir mətni ilə uzlaşdırmaq bacarığı özünü büruzə verir. Tarixən azərbaycanlılar yaşayan ərazidə epik mədəniyyətinin müxtəlif üslub axınları meydana gəlmişdir ki, bu da Azərbaycan aşıq sənətinin zənginliyini isbat edən ən parlaq dəlillərdəndir. Tarixi, sosial, mədəni amillərin nəticəsi kimi, aşıq sənətində özlərinin repertuarı, ifaçılıq özəllikləri, məclis keçirmə qaydalarına görə bir-birindən fərqlənən aşıq mühitləri meydana gəlmişdir: Göyçə, Borçalı, Gəncəbasar, Ağbaba – Çıldır, Dərələyəz, Şirvan, Güney Azərbaycan mühitləri. Bəzi aşıq mühitlərinin özəllikləri üzərində bir qədər ətraflı dayanaq.

Azərbaycan aşıq sənətinin inkişafında, onun böyük bir coğrafi ərazidə məşhurlaşmasında Göyçə aşıq mühitinin rolu danılmazdır. Bu gün Azərbaycan aşıqlarının aktiv repertuarını təşkil edən bəzi dastanların formalaşması, ənənəvi aşıq havalarının cilalanması və yeni musiqi örnəklərinin bəstələnməsi, klassik poeziyamızın incilərini təşkil etmiş neçə-neçə şeir nümunələrinin yaranması Göyçə aşıqlarının adları ilə bağlıdır. Sənət şəcərəsinin kökləri əslən Güney azərbaycanlıları Miskin Abdal (XVI əsr) və Ağ Aşıq Allahverdi (XVIII əsr) ilə bağlı olan Göyçə aşıq mühitinin ən görkəmli nümayəndələri – Aşıq Alı (1800-1911), Aşıq Ələsgər (1821-1926), Aşıq Məm- mədhüseyn, Aşıq Nəcəf, Növrəs İman, Aşıq Talıb və digərləri olmuşlar. Daha qədim ənənələrə malik olan digər aşıq mühitlərindən bəhrələnən Göyçə məktəbinin nümayəndələri aşıq sənətini yeni mərhələyə yüksəltmişlər. Göyçə aşıq mühiti özünəməxsus musiqi dialekti ilə də seçilir. Bu aşıq məktəbinin nümayəndələrinin səyi nəticəsində klassik aşıq havacatında möhkəm yer tutmuş "Göyçəgülü", "Göyçə gözəlləməsi", "Məm-mədhüseyni" kimi havalar yaranmış və klassik musiqi örnəklərinin yeni ifaçılıq variantları meydana gəlmişdir. Qeyd etmək lazımdır ki, bu ənənə keçən əsrin 80-ci illərinə qədər davam etmişdir. Məsələn, Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi olan Müseyib Nəsibov (1909-1991) tərəfindən "Göyçəgülü" və "Orta sarıtel" ənənəvi havalarının variantları hesab olunan "Müseyibi" və

“Qaragöz” adlanan havalar yaranmışdır.

Göyçə aşıq mühitinin aşıq sənəti tarixində oynadığı rol haqqında danışarkən onun digər aşıq məktəblərinə də təsirini qeyd etmək lazımdır. Bu baxımdan Kəlbəcər dastançı aşıqlarının repertuarında Göyçə aşıqlarının adları ilə bağlı dastanların üstünlük təşkil etməsi bu məktəbin bilavasitə Göyçə mühitinin təsiri altında formalaşmasının təzahürüdür. Azərbaycanlıların 1904-1905, 1916-1920, 1948-1949 və 1988-ci illərdə indiki Ermənistan ərazisindən deportasiyası nəticəsində Göyçə aşıq mühitinin nümayəndələri müxtəlif bölgələrdə məskunlaşmışlar.

Dərələyəz aşıq mühitini XIX əsrin sonu, XX əsrin başlanğıcında Əbdül Əzim, Aşıq Qulu, Aşıq Qəhrəman, Aşıq Cəlil, Aşıq Fətulla Haqverdiyev kimi sənətkarlar təmsil etmişlər. Dərələyəz ifaçılıq üslubunu digər aşıq məktəblərindən fərqləndirən cəhətlər ilk növbədə havacatda və musiqi ləhcəsində özünü göstərmişdir. Ənənəvi aşıq havalarının bir neçəsi Dərələyəz aşıqlarının adları ilə bağlıdır: “Qəhrəmanı” havası – Aşıq Qəhrəmanın, “Bəhmanı” havası aşıq Bəhmanın, “Cəlili” – Aşıq Cəlilin adlarını əks etdirir. Bundan əlavə, Dərələyəz aşıqlarının musiqi irsinə ənənəvi aşıq havalarının ərazi variantları hesab olunan “Dərələyəz gəraylısı”, “Yaməni Keşişoğlu”, “Dərələyəz yurd yeri”, “Dərələyəz qaytarması” havaları daxildir.

Zəngin ənənələri ilə seçilən Ağbaba – Çıldır mühiti Azərbaycan və türk aşıq məktəbləri arasında bağlayıcı funksiyasını yerinə yetirmişdir. Sənət şəcərəsinin qaynaqları Xəstə Həsənin (XVIII əsr) yaradıcılığı ilə bağlı Ağbaba – Çıldır aşıq mühiti Aşıq Şenlik, Aşıq Nəsib, İsgəndər Ağbabalı və digər aşıqların sənətində daha parlaq şəkildə təzahür etmişdir. Aşıq İsgəndər Ağbabalının (1925-1992) verdiyi məlumata əsasən qeyd etmək olar ki, bu aşıq mühiti üçün “Xəstə Həsən”, “Yaralı Məhəmməd”, “Qeys və Məhəmməd”, Aşıq Şenliyin adı ilə bağlı olan dastanlar və rəvayətlər, “Sümmani”, “Şenlik Çuxurobası”, “Dərbədəri”, “Diyarbəkir”, “Sarı gəlin”, “Çalpapaq” havaları səciyyəvidir.

Azərbaycan aşıq sənətində özünəməxsusluğu ilə seçilən ifaçılıq ənənələrindən biri də Gəncəbasar (Gəncə, Tovuz, Qazax, Goranboy, Daşkəsən, Gədəbəy) aşıq mühiti ilə bağlıdır. XIX əsrin sonu, XX əsrin başlanğıcında bu mühitdə yüksək peşəkarlığı və ifaçılıq məharəti ilə seçilən aşıqlar yaşayıb-yaratmışlar: Hüseyn Şəmkirli, Yəhya bəy Dilqəm, Hüseyn Bozalqanlı, Mirzə Bayramov, Qara Mövlayev, İslam Yusifov, Əsəd Rzayev, Vəli Miskinli, Məhəmməd Şıxlı, Mikayıl Azaflı, İmran Həsənov, Əkbər Cəfərov və b. Səciyyəvidir ki, Azərbaycan aşıq sənətində ən məşhur koroğluxanlar (Hüseyn Bozalqanlı, Qaraçıoğlu İbrahim, Əsəd Rzayev, İmran Həsənov, İsfəndiyar Rüstəmov, Aslan Aslanov və b.) məhz Gəncəbasar aşıq mühitinin yetirmələri olmuşlar. Bu mühitə mənsub olan aşıqlar həm də bir sıra ənənəvi aşıq havalarının variantlarının və yeni musiqi örnəklərinin (“Dilqəmi”, “Hüseyni”, “İncəgülü”, “Murad gilənarı”, “Azaflı dübeytisi” və s.) yaradıcılarıdır. Gəncəbasar aşıqlarının məziyyətlərindən biri də onların yüksək ifaçılıq mədəniyyəti və peşəkar saz ifaçılığı ilə bağlıdır. Bu

baxımdan səciyyəvidir ki, müasir saz ifaçılığının ən istedadlı nümayəndələri (məsələn, Ədalət Nəsibov) Gəncəbasar aşıq mühitinin yetirmələridir. Digər tərəfdən, bu aşıq məktəbinin nümayəndələrinin ansambl şəklində, balabanın müşayiəti ilə çıxış etmələri həmin ifaçılıq ənənəsinin səciyyəvi xüsusiyyətlərindən biridir. Yeri gəlmişkən qeyd edək ki, balaban alətinin aşıq ifaçılıq təcrübəsində tətbiqi XX əsrin başlanğıcına təsadüf edir, bu dövrə qədər aşıqlar yalnız sazın müşayiəti ilə çıxış edirdilər.

Digər aşıq mühitlərindən fərqli olaraq, Borçalı aşıqları bugünədək tək sazın müşayiəti ilə məclis aparırlar ki, bu da onların klassik ozan-aşıq ənənələrinə sadiq qalmasından xəbər verir. Borçalı aşıqlarının yalnız sazın müşayiəti ilə oxumaları bu alətin təkmilləşməsinə, yeni simlər, pərdələr və artikulyasiya elementləri ilə zənginləşməsinə təkan vermişdir. Bu baxımdan keçən əsrin ortalarından Aşıq Əmrah Gülməmmədov tərəfindən aparılan islahatlar (simlərin sayının 11-ə, pərdələrin sayının isə 18-ə çatdırılması) çox səciyyəvidir. Borçalı aşıq mühitinin görkəmli nümayəndələri olan Dollu Abuzər, Şair Nəbi, Sadıq Sultanov, Xındı Məmməd, Əmrah Gülməmmədov, Hüseyn Saraclı, Kamandar Əfəndiyev, Əhməd Sadaxlı kimi ustadların yaradıcılığı aşıq ifaçılıq tarixinin parlaq səhifələrini təşkil etmişdir. "Mansırı", "Məmmədbağırı", "Dol Hicranı", "Qürbəti Kərəmi", "Fəxri" kimi havalar Borçalı aşıq havalar toplusunun səciyyəvi nümunələrindəndir.
Azərbaycan aşıq sənətində özünəməxsusluğu ilə seçilən aşıq mühitlərdən biri də Şirvan aşıqlarının yaradıcılığı ilə bağlıdır. Bu aşıq mühitinin ən görkəmli nümayəndələri Xaltanlı Tağı, Mirzə Bilal, Əngəxaranlı İbrahim, Tağlabiyanlı Şamil, Şakir Hacıyev, Məmmədağa Babayev və digərləri olmuşlar. Şirvan aşıq məclislərinin özünəməxsusluğu bir də ondan ibarətdir ki, burada aşıq dəstəsindən başqa xanəndələr də iştirak edir. Şirvan aşıqlarının ifaçılığını digər aşıq mühitlərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri də onların, bir qayda olaraq, iki balaban və iki zərb aləti ilə müşayiət edilməsidir.

Şirvan aşıq mühitinin səciyyəvi janrlarından biri olan şikəstə qarışıq bəhrli havaların ən ilkin və parlaq örnəklərindən biridir. Şirvan aşıqlarının repertuarında bu janr "Sarıtorpaq şikəstəsi", "Bayatı şikəstəsi", "Qobustan şikəstəsi", "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Bakı şikəstəsi" və s. nümunələr ilə təmsil olunmuşdur. Şirvan aşıqlarının ifa etdiyi havalar sırasında "Gərayı", "Güllü qafiyə", "Qara qafiyə", "Şəşəngi", "Pişro", "Şirvan gözəlləməsi" və s. qeyd olunmalıdır.

Təbriz-Qaradağ mühiti aşıqlarının repertuarına 50-yə yaxın dastan daxildir ki, bu da həmin bölgədə güclü epik ənənənin mövcudluğuna dəlalət edir. Bütöv Azərbaycan aşıq sənətinə xas olan ənənəvi saz havaları ilə yanaşı, bu mühitin aşıqlarının repertuarına həmçinin "Qaradağ şikəstəsi", "Doxabəyi", "Narıngı", "Qoca divani" və s. bu kimi özünəməxsus havalar daxildir. Təbriz-Qaradağ mühitinin aşıqları üçün ansambl ifaçılığı (saz, balaban, qaval) xasdır.

Güney Azərbaycanda aşıq sənətinin digər mərkəzlərindən biri olan Urmiya aşıq mühiti öz əski epik ifaçılıq ənənələri ilə seçilir. Əsasən, "Koroğlu" qollarının

ifası ilə məşhurlaşmış Urmiya aşıqlarının repertuarına həmçinin "Baba Lehsan", "Əli şah", "Abdulla xan", "Əhməd-İbrahim" və s. dastanlar da daxildir. Tək saz ifaçılığına üstünlük verən Urmiya aşıqlarının repertuarında "Şah İsmayılı", "Hələbi", "Səmayi", "Taciri", "Urmiya gözəlləməsi" kimi havalar önəmli yer tutur. Heç şübhəsiz ki, aşıq sənətinin müxtəlif mühitlər, rəngarəng üslub axınları, zəngin ifaçılıq məktəbləri şəklində təmsil olunması onun Azərbaycan mədəniyyəti üçün autentik xarakter daşımasına dəlalət edir.

Azərbaycan aşıqlarının əsrlər boyu yaratdığı zəngin musiqili-poetik irs digər musiqi janrlarına da təsir göstərmişdir. Belə ki, bəzi zərbi-muğamlar ("Arazbarı", "Mani", "Kəsmə şikəstə", "Şirvan şikəstəsi", "Əfşarı" və s.), xalq mahnıları ("Yaxan düymələ", "Sarı bülbül", "Qaçaq Nəbi" və s.), bir çox rəqs havaları bilavasitə aşıq musiqisi ilə sıx təmasdan yaranmışdır.

Aşıq musiqisinin Azərbaycan professional bəstəkarlıq məktəbinin təşəkkülü və inkişafında da rolu az olmamışdır. Şifahi ənənəli professional musiqinin öz mühüm qolunu təşkil edən aşıq musiqisinin ifadə vasitələri sistemi ilə, semantik çalarları ilə Ü.Hacıbəylinin, Q.Qarayevin, C.Hacıyevin, S.Rüstəmovun, A.Əlizadənin, F.Əlizadənin, C.Quliyevin və b. Azərbaycan bəstəkarlarının yaradıcılığında aktuallaşması bir daha bu sənətin zəngin potensial imkanlarına dəlalət edir. Azərbaycan professional musiqisinin şah əsəri olan "Koroğlu" operasında Ü.Hacıbəyli aşıq musiqisinin üslub qanunauyğunluqlarını ümumiləşdirərək, onları Avropa bəstəkarlıq texnikası ilə dahiyanə şəkildə uzlaşdırmışdır.

Aşıq sənətinin musiqi-nəzəri problemlərinin sistemli şəkildə araşdırılması XX əsrin 30-cu illərindən başlamış və Ü.Hacıbəylinin, Bülbülün, Ə.Eldarovanın, V.Belyayevin, V.Krivonosovun, M.İsmayılovun, T.Məmmədovun, A.Kərimlinin, İ.İmamverdiyevin, İ.Köçərlinin, K.Dadaş-zadənin və b. alimlərin tədqiqatlarında əks olunmuşdur. Azərbaycan musiqişünaslığında aşıq sənətinin öyrənilməsi dahi bəstəkar və musiqişünas-alim Ü.Hacıbəylinin adı ilə bağlıdır. Ü.Hacıbəylinin ayrı-ayrı məqalələri, Aşıqların I və II Qurultaylarında etdiyi çıxışların mətni aşıq sənəti haqqında dürüst məlumatlarla, aşıq sənətinin bugünkü problemləri ilə səsləşən və mühüm əhəmiyyət daşıyan fikirlərlə zəngindir. Dahi bəstəkar aşıqları "poetik və musiqi baxımından vergili (Allah vergisi – red.) əfsanəvi insanlar" adlandırmış, xalq eposunun daşıyıcıları və ötürücüləri olaraq qeyd etmiş, ən başlıcası, musiqi elmini bu sahənin öyrənilməsinə yönəltmişdir.

Aşıq sənətinin tədqiqatçısı Ə.Eldarovanın bu sahədə xidmətləri isə xüsusilə qeyd olunmalıdır. O, ilk dəfə olaraq, aşıq sənətinin sistemli şəkildə öyrənilməsinə nail olmuş, yaranma və inkişaf tarixini, ideya-estetik mahiyyətini açmış, aşıq havalarının təsnifatı, musiqili-poetik xüsusiyyətləri, sazın quruluşu və bu kimi problemləri araşdırmış, mühüm elmi nəticələr əldə etmişdir. Ə.Eldarovanın "Azərbaycan aşıq sənəti" (Bakı, 1996, rus dilində), "Azərbaycan aşıqlarının ədəbi-musiqi terminləri lüğəti" (Bakı, 1968, rus dilində), "Azərbaycan aşıqlarının musiqi aləti – saz" (Moskva, 1969, rus dilində) və digər əsərləri bu sahədə öz

əhəmiyyətini itirməyən tədqiqat işləridir.

T.Məmmədovun bu sahədə gördüyü tədqiqat işləri də böyük maraq doğurur. Onun mövzuya baxışları XXI əsrin elmi istiqamətləri ilə səsləşir və yeni metodoloji yanaşmaları əks etdirir. Onun "Koroğlu" dastanı üzrə apardığı araşdırmaları, aşıq havalarının toplu halında nota köçürülməsi və s. işləri musiqi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. T.Məmmədovun "Azərbaycan aşıqlarının ənənəvi havaları" (Bakı, 1996, rus dilində), "Koroğlu aşıq havaları" (Bakı, 2010), "Azərbaycan klassik aşıq havaları" (Bakı, 2010) və s. onun elmi axtarışlarının nəticələridir.

N.Bağırovun "Aşıq Qərib dastanı" (Trabzon, 1999, Türkiyə, türk dilində), "Koroğlu" dastanı (Bakı, 2011), Azad Ozanın (Kərimli) "Azərbaycan aşıqlarının Tovuz məktəbi" (Nam. diss. B., 1995, rus dilində), "Çıldır aşıq məktəbi haqqında bilgilər" ("Azərbaycan musiqisi" toplusu. B., 1994), K.Dadaş-zadənin "Dastanın işarə sistemi" (Bakı, 2004, rus dilində), eləcə də F.Xalıqzadənin "Aşıq musiqisinin musiqili-poetik formulları" (Elm və həyat, 1983), S.Tağıyevanın "Azərbaycan və türk aşıq musiqisinin qarşılıqlı əlaqələrinin mənbələri" (Bakı, 2003, rus dilində), İ.Köçərlinin "Aşıq sənəti: sinkretizm və sintez problemləri" (Bakı, 2011) və başqalarının müxtəlif səpkili yazıları aşıq sənətinin öyrənilməsi sahəsində böyük addımlardır.

Aşıq sənəti rus-sovet alimlərinin də daim maraq dairəsində olmuşdur. Bu sahədə V.M.Belyayev, V.Vinoqradov, Krivonosov, S.L.Ginzburq, P.Vostrikov, eləcə də Q.Xubovun, F.Qlikştaynin, və b. xidmətləri böyükdür. Bu alimlər aşıq sənətini ənənəvi rus folklorşünaslığı metodologiyası çərçivəsində tədqiq etmiş və aşıq yaradıcılığı haqqında həqiqəti ehtiva edən fikirlər yürütmüşlər. Aşıq sənətinin sintetikliyi, teatrallığı, improvizasiyalılığı haqqında, aşıqların hərtərəfli, "genetik istedadı", "milli xalq rejissoru" xüsusiyyəti, "Azərbaycan xalqının yaradıcılıq irsinin mühafizəçisi", "xalq dühasının ifadəçisi" kimi qiymətli fikirlər söyləmişlər.

Ümumilikdə, bütün bu elmi axtarışların nəticəsi olaraq Azərbaycanda etnomusiqişünaslığın daha bir sahəsi – aşıqşünaslıq elmi öz yerini almışdır.

Hal-hazırda aşıq musiqisi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Azərbaycan Milli Konservatoriyasında tədris edilir.

Beləliklə, ozan - aşıq mədəniyyətinin tarixi icmalından aydın olduğu kimi, çoxəsrlik inkişaf yolu keçmiş aşıq sənəti Azərbaycan xalqının özünəməxsus etnik-mədəni sisteminin biçimlənməsində önəmli rol oynayan, onun dünya humanitar məkanında bənzərsizliyini təmin edən əsas qaynaqlardan biridir.

İradə Köçərli,
Kamilə Dadaşzadə

ƏDƏBİYYAT SİYAHISI

AZƏRBAYCAN DİLİNDƏ

1. Abbaslı İ. Folklorşünaslıq axtarışları. 2 cilddə, I-II c., Bakı, 2009, 2010.
2. Abdullayeva S. Azərbaycan çalğı alətləri dünyanı valeh edir. Bakı: 2016
3. Allahmanlı M. Aşıq Ömərin yaradıcılığı. Bakı: ADPU, 2008
4. Allahmanlı M. Türk dastan yaradıcılığı. Bakı: Ağrıdağ, 1998.
5. Allahmanlı M. Şaman, ozan və aşıq. Bakı: Ağrıdağ, 2002.
6. Allahmanlı M. Aşıq yaradıcılığının inkişaf mərhələləri. Bakı: Elm və təhsil, 2011.
7. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960.
8. Aşıq Alı. Şeirlər. Tərtib edənlər: Ə.Əmirov, Ş.Əsgərov, M.Həkimov. Bakı: Yazıçı, 1982.
9. Aşıq ədəbiyyatı antologiyası. Aşıq poeziyası. (tərtib edənlər: M.Qasımlı və M.Allahmanlı). Üç cilddə. I. Bakı, Meqa Print, 2017.
10. Aşıq ədəbiyyatı antologiyası. Qəhrəmanlıq dastanları. (tərtib edənlər: M.Qasımlı və M.Allahmanlı). Üç cilddə. I. Bakı, Meqa Print, 2017.
11. Aşıq ədəbiyyatı antologiyası. Məhəbbət dastanları. (tərtib edənlər: M.Qasımlı və M.Allahmanlı). Üç cilddə. I. Bakı, Meqa Print, 2017.
12. Aşıq Ələsgər. I-II kitab. (toplayıb tərtib edəni İ.Ələsgərov). Bakı: Elm, 1972.
13. Aşıq Ələsgər. (tərtib edəni: İ.Ələsgər). Bakı: Şərq-Qərb, 1999.
14. Aşıq Hüseyn Bozalqanlı. Əsərləri. (tərtib edəni: F.Quliyev). Bakı: Nurlan, 2009.
15. Aşıq Hüseyn Şəmkirli. (tərtib edəni Ə.Axundov). Bakı: Gənclik, 1971.
16. Aşıq qadınları antologiyası. (tərtib edəni Yıldırım Maral). Bakı: MBM, 2010.
17. Aşıq Pəri məclisi. Aşıqlar. El şairləri. (tərtib edənlər: N.Xatun, M.Əhmədov, Z.Yaqub). Bakı: Yazıçı, 1991.
18. Aşıq şeirindən seçmələr. (toplayıb tərtib edənlər: H.Arif, M.Həkimov). Bakı: Gənclik, 1984.
19. Aşıqlar. 2 cilddə, I-II c., (toplayanı H.Əlizadə). Bakı: Azərnəşr, 1937, 1938.
20. Aşıqlar. (tərtib edəni: İ.Tapdıq). Bakı: Gənclik, 1970.
21. Azaflı M. Qoca Azaflıyam. (tərtib edənlər: Q.Paşayeva, M.Azaflı). Bakı: Nurlan, 2008.
22. Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, I-II c. (tərtib edəni Ə.Axundov). Bakı: Elm, 1983.
23. Azərbaycan dastanları. 5 cilddə, I-V c. (tərtib edənlər: Ə.Axundov, M.H.Təhmasib). Bakı: Elm, 1965-1972.
24. Azərbaycan etnomusiqişünaslığı üzrə oçerklər. (tərtib edəni İ. Köçərli). Bakı: 2017.
25. Azərbaycan ədəbiyyatı tarixi. Şifahi xalq ədəbiyyatı. 10 cilddə. I c. Bakı:

Elm, 2018.
26. Azərbaycan xalq dastanları. 2 cilddə, I-II c. (tərtib edəni Ə.Axundov). Bakı: Azərnəşr, 1961.
27. Azərbaycan xalq musiqisinin antologiyası. Bakı, 2006-2007, 7 cilddə.
28. Azərbaycan klassik aşıq havaları. Bakı, Əbilov, Zeynalov və oğulları, 2009.
29. Azərbaycan məhəbbət dastanları. (tərtib edənlər: M.H.Təhmasib, T.Fərzəliyev, İ.Abbasov, N.Seyidov). Bakı: Elm, 1979.
30. Bağırov N. Aşıq musiqisi (mahnılar). Bakı, 1987.
31. Bağırov N. Azərbaycan klassik aşıq havaları. Bakı – Trabzon, 2011.
32. Bakıxanov Ə. Azərbaycan ritmik muğamları. Bakı: Azərnəşr, 1968.
33. Bədəlbəyli Ə. İzahlı monoqrafik musiqi lüğəti. Bakı: Elm, 1969.
34. Bülbül. Seçilmiş məqalə və məruzələr. Bakı: Elm, 1968
35. Bülbülün III Aşıq qurultayındakı məruzəsi (1961-ci il) // Musiqi dünyası, 2002, № 3-4
36. Cinaslar. (tərtib edənlər: M.Aslan, E.Məmmədov). Bakı: Yazıçı, 1985.
37. Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası. (hazırlayanı: M.Qasımlı və A.Məmmədli). Bakı: Gənclik, 2019
38. Dadaş-zadə K. Aşıqşünaslığın tarixi və nəzəriyyəsi. Bakı: ADMİU, 2019.
39. Dadaş-zadə K. Azərbaycan aşıq sənəti //Azərbaycan musiqi tarixi (I c.), Bakı: Şərq-Qərb, 2012.
40. El şairləri. (toplayıb tərtib edəni: S.Mümtaz). Bakı: Azərnəşr, 1935.
41. Eldarova Ə. Azərbaycan aşıq sənəti. Bakı: Elm, 1992.
42. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Nurlan, 2013.
43. Əliyeva F. Üzeyir Hacıbəyli - şəxsiyyət və cəmiyyət. Bakı: Şərq-Qərb, 2014
44. Əlizadə H. Azərbaycan el ədəbiyyatı. Bakı: Nurlan, 2013.
45. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. IV nəşr, Bakı: Yazıçı, 1985.
46. Hacıbəyov Ü. Seçilmiş əsərləri. 4 cilddə, II c. Bakı, 1985.
47. Hacıbəyov Ü., Maqomayev M. Azərbaycan türk el mahnıları. Bakı: Musnəşr, 1927.
48. Həkimov M. Azərbaycan aşıq şeir şəkilləri və qaynaqları. Bakı: Maarif, 1999.
49. Həkimov M. Aşıq şeirinin poetikası. Bakı: Səda, 2004.
50. Xəstə Qasım. 46 şeir. Bakı, Gənclik, 1975.
51. Xəstə Qasım dastanı. (nəşrə hazırlayanı M.Qasımlı). Bakı: Uğur, 2018.
52. Xuluflu V. El aşıqları. Bakı: Azərnəşr, 1927.
53. İbrahimov M. Aşıq poeziyasında realizm. Bakı: Elm, 1966.
54. İmamverdiyev İ. Saz havaları antologiyası. Bakı, 2013.
55. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin janrları. Bakı: Azərb. SSR EA, 1960.
56. Kərimi S., Quliyev A., Əliyev M. Saz məktəbi. Bakı, 2007.
57. Kitabi-Dədə Qorqud ensiklopediyası. (I-II). Bakı: Yeni nəşrlər evi, 2000.

58. Koroğlu. (V.Xuluflu nəşri). Bakı: Elm, 1999.
59. Koroğlu. (tərtib edəni: M.H.Təhmasib). Bakı: Gənclik, 1975.
60. Köçərli İ. Aşıq sənəti: musiqili-poetik janrlar. Bakı, 2010.
61. Köçərli İ. Aşıq sənəti: sinktretizm və sintez problemləri. Bakı, 2011.
62. Köçərli İ. Aşıq sənəti. Xalq şeirinə bağlı havalar (bayatı, gəraylı, qoşma, təcnis). Bakı: 2015
63. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011.
64. Qasımlı M. Azərbaycan aşıq ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2019
65. Qasımlı M. Folklor və ədəbiyyat araşdırmaları. Bakı: Elm və təhsil, 2017.
66. Qasımlı M., Allahmanlı M. Aşıq şeirnin poetik biçimləri və çeşidləri. Bakı: Elm və təhsil, 2018.
67. Qasımlı M., Allahmanlı M. İzahlı aşıq ədəbiyyatı sözlüyü. Bakı: Nigar KM, 2019
68. Qəniyev S. Aşıq şeirinin poetikası. Bakı: ADPU, 1999.
69. Qurbanov B. Musiqi – mətn-ifaçılıq baxımından aşıq sənəti. Bakı: Elm və təhsil, 2013.
70. Qurbani. (tərtib edəni: Q Kazımov). Bakı: BDU-nun nəşriyyatı, 1990.
71. Məmmədli E. Təcnis sənətkarlığı. Bakı: Nafta-Press, 1998.
72. Məmmədov T. Aşıq sənəti. Azərbaycan xalq-professional musiqisi. Bakı, 2002.
73. Məmmədov T. Azərbaycan klassik aşıq havaları. Bakı, 2009.
74. Məmmədov T. Koroğlu aşıq havaları. Bakı 2009
75. Məmmədov T. İzahlı saz-söz lüğəti. Bakı: 2015
76. Məmmədova T. Borçalı aşıq mühiti. Bakı: Elm, 1999.
77. Məmmədova T. Türk folklor söyləyiciliyi. Bakı: Elm, 2011.
78. Məmmədova R. Musiqi türkologiyası. Bakı: Elm, 2002.
79. Molla Cuma. (tərtib edəni: P.Əfəndiyev). Bakı: Şərq-Qərb, 2006.
80. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: Yazıçı, 1984.
81. Namazov Q. Aşıqlar. (I kitab). Bakı: Səda, 2004.
82. Nəbioğlu M. Ozan-aşıq dünyası (haqqa qovuşan aşıqlarımız). Bakı: Nurlan, 2010
83. Nəbiyeva A. Qarabağ aşıq mühiti. Bakı: Təknur, 2019.
84. Oğuznamə (Fəzlullah Rəşidəddin). Bakı: Azərnəşr, 1992.
85. Paşayev S. XIX əsr aşıq yaradıcılığı. Gəncə: H.Zərdabi adına GDPİ, 1990.
86. Rüstəmov S. Azərbaycan aşıq mahnıları. 4 dəftər. Bakı: Azmusnəşr, 1938.
87. Rüstəmzadə R. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı: Gənclik, 1984.
88. Sazım, sözüm. (tərtib edəni: M.Şükür). Bakı: Yazıçı, 1978.
89. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983.
90. Seyidov M. Qam-şaman və onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik, 1994.
91. Seyidova S. Qədim Azərbaycan mərasim musiqisi. Bakı: Mars-Print, 1994.
92. Səfərov Y. Naxçıvan aşıq ədəbi mühiti. Naxçıvan, 2009

93. Səfərova Z.Y. Azərbaycan musiqi elmi (XIII-XX əsrlər). Bakı: Elm, 1998.
94. Şirvan aşıqları. tərtib edəni: S.Qəniyev, Bakı: N.Tusi adına ADPU, 1993.
95. Talıbzadə A. İslam mədəniyyətində teatr və teatrallıq. Bakı: Sabah. 2006.
96. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972.
97. Vəkilov Q. XIX əsr aşıq lirikası. Bakı: Maarif, 1993.
98. Vəliyev V. Qaynar söz çeşməsi. Bakı: Yazıçı, 1981.
99. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985.
100. Yunis İmrə. Güldəstə. Bakı: Yazıçı, 1992.
101. Zöhrabov R. Azərbaycan zərbi-muğamları. Bakı: Mars-Print, 2004.

TÜRK DİLİNDƏ

102. Abdulqadir İ. Tarixdə və bu gün şamanizm. Ankara, 1954.
103. Banarlı N.S. Rəsmli türk ədəbiyyatı. I c., İstambul, 1971.
104. Bahəddin Ö. İslamiyyətdən öncə türk kultur tarixi. Ankara, 1962.
105. Bahəddin Ö. Türk mifolojisi. Ankara, 1971.
106. Dizdaroğlu H. Xalq şeirində türlər. Türk dili, türk xalq ədəbiyyatı özəl sayısı. Aylıq dil və ədəbiyyat dərgisi. Ankara, 1968.
107. Doğan K. Türk halk edebiyyatı terminleri sözlüyü. Ankara, 2007.
108. İsmail Hakkı Özkan. Türk musikisi nazariyyatı və usülleri. Kudüm velveleleri. Dördüncü baskı. İstambul Üniversitesi Devlet Konservatuarı Türk Musikisi Bölümü. Öyretim Görevlisi. Ötüken Neşriyyat, İstambul, 1994.
109. Kirzioğlu Fahrettin M. Kars ilinde halk, saz ve oyun havalarının adları. Türk Kültürü 2. Ağustos, 1964.
110. Köprülüzadə F. Ədəbiyyat araşdırmaları. I-II kitab, Türkiyə, İstambul, 1987.
111. Köprülüzadə F. Türk ədəbiyyatında ilk mütəsəvvüflər. Türkiyə: İstambul, 1918.
112. Gazimihal Mahmut R. Ülkelerde kopuz ve tezeneli sazlarımız. Ankara, 1975.
113. Günay Umay. Aşik Tarzi Şür Geleneyi və Rüya Motivi. Ankara, 1986.
114. Qafqaziyalı Ə. İran türkləri aşıq mühitləri. Türkiyə: Ərzurum, 2006.
115. Qaracaoğlan. Tərtib edəni: Sakaoğlu S. Ankara, 2004.
116. Qəfəsoğlu İ. Türk milli kültürü. Türkiyə: İstambul, 1992.
117. Sakaoğlu Saim. Ozan, Aşik, Saz gaizi və halk şairi kavramaları üzerine. Halk musiqi, oyun, tiyatro, eğlence seksion bildirileri. Millətler arası türk halk kültürü konqresi. Ankara, 1997.
118. Sarısözen M. Türk Halk Musikisi Usülleri. Ankara, 1962.
119. Yekta bey Rauf. Türk musiqisi. İstambul, 1986.

RUS DİLİNDƏ

120. Абдуллаева С.А. Народный музыкальный инструментарий Азербайджана, Баку: Елм, 2000.
121. Абезгауз И. Опера «Кероглы» Узеира Гаджибекова. Москва, 1987.
122. Агаева С. Абдулгадир Мараги. Баку: Язычы, 1983.
123. Алексеев Н.А. Шаманизм тюркоязычных народов Сибири. Новосибирск, 1984.
124. Беляев В. О музыкальном фольклоре и древней письменности. Москва: Советский композитор, 1971.
125. Дадашзаде К.Г. Знаковая система дастана. Баку: Нурлан, 2004.
126. Дугоров. Д.С. Исторические корни белего шаманства (из материалов обрядового фольклора бурят). М.: Наука, 1991.
127. Эльдарова Э. Искусство ашыгов Азербайджана. Баку: Ишыг, 1984.
128. Енциклопедия азербайджанский мугама. Баку, 2012.
129. Фрейденберг О.М. Миф и литература древности. М., 1978.
130. Жирмунский В.М. Тюрский героической эпос. Ленинград, 1974.
131. Кёроглу Х.О. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. М., Наука, 1977.
132. Мамедов Т. Песни Кероглу. Баку: Гянджлик, 1984.
133. Мамедов Т. Традиционные напевы азербайджанских ашугов. Баку: Ишыг, 1988.
134. Мифология Древнего мира. М., Наука, 1977.
135. Шушинский Ф. Народные музыканты Азербайджана. Баку: Азгосиздат, 1970.
136. Виноградов В. Узеир Гаджибеков и азербайджанская музыка. Москва, Музгиз, 1938.

İNGİLİS DİLİNDƏ

137. Tariyel Mammadov. Koroglu Turkic epic songs. Baku; 2013
138. Lord A. B. The singer of tales. Cambridge; 1960
139. Başgöz İlhan. The epic tradition among Turkic peoples// Heroic Epic and Saga. An İntroduction to the World`s Great Folk Epics/ Ed. F.J.Oinas. Bloomigton; 1978
140. F. Khaligzadeh. Training system in Azerbaijani Ashig tradition// Sacred knowledge: schools or revelation? Master – System of Oral transmission in the Music of Turkic speaking world. Lambert Academic Publisation. 2009

DİSSERTASİYALAR

141. Allahmanlı M. Aşıq yaradıcılığının inkişaf mərhələləri (folklorşünaslıq üzrə doktorluq dissertasiyası). Bakı, 2008.
142. Xəlilova A. Aşıq rəvayətlərinin təşəkkülü, təsnifi və poetik strukturu. (folklorşünaslıq üzrə dissertasiya). Bakı, 2004.
143. İmamverdiyev İ. Azərbaycan və İran türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri (sənətşünaslıq üzrə doktorluq dissertasiyası). Bakı, 2008.
144. Kərimov A.K. Azərbaycan Tovuz aşıq məktəbi. (sənətşünaslıq üzrə dissertasiya). Bakı, 1995.
145. Kərimov H.V. Azərbaycan aşıq musiqisinin inkişafında Borçalı aşıq ifaçılıq məktəbinin rolu (sənətşünaslıq üzrə fəlsəfə doktorluğu dissertasiyası), Bakı, 2017.
145. Köçərli İ. Aşıq sənətində sinkretizm və sintez problemlərinin tədqiqi. (sənətşünaslıq üzrə doktorluq dissertasiyası). Bakı, 2012.

SAYTOQRAFİYA

146. Azərbaycan ənənəvi musiqi atlası. http://atlas.musiqi-dunya.az
147. Azərbaycan diskoqrafiyası 1900-1940-cı illər online kataloqu. http://diskoqrafiya.musiqi-dunya.az
148. Muğam ensiklopediyası. http://mugam.musiqi-dunya.az
149. Musiqiçinin elektron kitabxanası. http://e-library.musiqi-dunya.az
150. Əfrasiyab Bədəlbəylinin "Musiqi lüğəti". http://lugat.musiqi-dunya.az
151. Üzeyir Hacıbəyli. "Azərbaycan xalq musiqisinin əsasları". http://musbook.musiqi-dunya.az
152. Üzeyir Hacıbəyli İnternet portalı. http://atlas.musiqi-dunya.az

ENSİKLOPEDİYADA YER ALAN AŞIQ VƏ SAZ ŞAİRLƏRİN AD GÖSTƏRİCİSİ

ABBAS TUFARQANLI (XVII əsr, Təbriz, Tufarqan kəndi)
ABBASQULU (1850, Ağdam rayonunun Gülablı kəndi – 1932)
ABBAS OĞLU DAVUD (1979, Qaradağ mahalı, Əhər, Hacıoğlu kəndi – Əhər)
ABBASİ MUSTAFA MAHMUD OĞLU (1940, Qaradağ mahalı, Humay kəndi)
ABBASOV ABBAS RÜSTƏM OĞLU (1908, Naxçıvan MR, Şahbuz rayonu – 1984)
ABBASOV BƏHMƏN (VƏTƏNOĞLU) KALIŞ OĞLU (1932, Kəlbəcər rayonu, Seyidlər kəndi – 2004, Gəncə)
ABBASOV ƏLİ ORUC OĞLU (1931, Tovuz rayonu, Əsrik Cırdaxan kəndi – 2014)
ABBASOV MÜSEYİB MƏHƏMMƏD OĞLU (1934, Tovuz – 2016)
ABBASOV YADULLA ABIŞ OGLU (1928, Astraxanbazar (Cəlilabad), Parkovka kəndi – 1998)
ABBASOVA ƏSKİNAZ VƏLİ QIZI (1933, Tovuz rayonu – 1979)
ABDAL MİSKİN (XVI əsr, Göyçə mahalı, Sarıyaqub ocağı)
ABDAL PİR SULTAN (XVI, Sivas vilayəti, Bikaz kəndi)
ABDALGÜLABLI SƏMƏD (XVII əsrin sonları, Ağdam rayonu, Abdallı kəndi – XVIII əsrin ortaları)
ABDALGÜLABLI VALEH MƏHƏMMƏD OĞLU (1722, Ağdam rayonu, Gülablı kəndi – 1822)
ABDİYEV HACI MƏMMƏDKƏRİM OĞLU (1945, Qazax rayonu, Çaylı kəndi)
ABDİYEV SƏDİ (SƏDİ ULAŞLI) ORUC OĞLU (1940, Borçalı mahalı, Ulaşlı kəndi – 1987, Rustavi)
ABDULLA PADARLI (XVIII əsrin sonu Oğuz rayonu, Padar kəndi – XIX əsrin birinci yarısı)
ABDULLA USTA (1865, Göyçə mahalı, Zod kəndi – 1943, Gəncə şəhri)
ABDULLAHİ ƏHMƏD HƏMDULLAH OĞLU (1976, Qaradağ mahalı, Əhər şəhəri, Xıdırkənd kəndi)
ABDULLAYEV ƏLYAR ƏLİ OĞLU (1936, Tovuz rayonu, Dönük Qırıqlı kəndi – 1988)
ABDULLAYEV İDRİS HÜSEYN OĞLU (1934, Tovuz rayonu, Alakol kəndi) – 2018).
ABDULLAYEV SƏLİM (SƏLİM GÖYÇƏLİ) NƏSRƏDDİN OĞLU (1955, Göyçə mahalı, Basarkeçər rayonu, Qaraqoyunlu kəndi - Gəncə)
ABDULLAYEV ŞAHPƏLƏNG ŞAKİR OĞLU (1930, Şamaxı rayonu, Məlhəm kəndi – 1990)
ABDULLAYEVA SƏADƏT (SƏADƏT BUTA) ÖMƏR QIZI (1951, Borçalı mahalı, Başkeçid, Qızılkilsə kəndi – Bakı)
ADIGÖZƏLOV BAFƏLİ ƏLİ OĞLU (1959, Gürcüstan, Bolnisi rayonu Dəllər kəndi)

ADIGÖZƏLOV QƏRİB ƏLİ OĞLU (1969, Gürcüstan, Bolnisi rayonu, Dəllər kəndi)
AĞA OĞLU HƏMİD (1899, Dəvəçi rayonu, Daşlı Çalqan kəndi – 1969)
AĞACAN BORÇALI (1886, Gümrü – 1951, Sibir)
AĞACANOV ƏZİZ İMRAN OĞLU (1976, Göyçə mahalı, Babacan kəndi – Bakı)
AĞBABALI İSGƏNDƏR (1925, Ağbaba mahalı, Ellərkənd – 1992, Azərbaycan, Şəmkir rayonu)
AĞBABALI NƏSİB BAYRAM OĞLU (1870, Ağbaba mahalı, Güllübulaq kəndi – 1944)
AĞCAQIZ KƏRBƏLAYİ DADAŞ QIZI (XIX əsr, Neftçala rayonu, Hacıimanlı kəndi – 1974)
AĞDABANLI QURBAN (1859, Kəlbəcər rayonu, Ağdaban kəndi – 1934)
AĞKİLSƏLİ NƏCƏF XƏLİL OĞLU (1900, Göyçə mahalı, Ağkilsə kəndi – 1968)
AĞSULU SOLTAN (XVIII əsr, Ağsu rayonu, Bico kəndi)
AXUNDOV ƏDALƏT (LAÇINLI) SADAY OĞLU (1959, Laçın rayonu – 1988)
AXUNDOV MƏZAHİR (BORSUNLU MƏZAHİR) MƏŞƏDİ HƏMZƏ OĞLU (1909, Tərtər rayonu, Borsunlu kəndi – 1979, Gəncə)
AXUNDOV PƏRVİZ (PƏRVİZ AXUND) EYNULLAH OĞLU (1987, Laçın rayonu, Qarakeçdi kəndi - Bakı)
AXUNDOV UMBAY SADIQ OĞLU (1940, Laçın rayonu)
ALÇALI MƏHƏRRƏM (1825, Göyçə mahalı, Alçalı kəndi – 1910)
ALXANOV ATLIXAN XANLAR OĞLU (1954, Laçın rayonu, Ağbulaq kəndi – Tərtər rayonu)
ALI (AŞIQ ALI) MİRZƏ OĞLU (1800, Göyçə mahalı, Qızılvəng kəndi – 1911)
ALI OĞLU ŞƏMİL (1897, Dağ Borçalı, Axta bölgəsi, Qaraqala kəndi – 1976, Marneuli rayonu, Daştəpə kəndi)
ALIYEV AZƏR FƏRMAYIL OĞLU (1974, Gədəbəy rayonu, İnəkboğan kəndi – Bakı)
ALLAHVERDİ (AĞ AŞIQ) (təxminən 1750, Göyçə mahalı, Kərkibaş kəndi – təxminən 1850)
ALLAHVERDİ OĞLU ALMƏMMƏD (təxminən 1800, Göyçə mahalı, Ağkilsə kəndi – 1868)
ALLAHVERDİYEV ALLAHVERDİ (QƏMKEŞ) ƏLİ OĞLU (1932, Kəlbəcər rayonu, Sarılar kəndi – 2002, Gəncə)
ALLAHVERDİYEV DƏRYANUR MƏMMƏDBAĞIR OĞLU (1942, Borçalı mahalı, Qardabani rayonu, Soğanlı kəndi)
ALLAHVERDİYEV ƏHLİMAN MƏHƏMMƏD OĞLU (1956, Kəlbəcər rayonu, Zəylik kəndi – Şəmkir rayonu)
ALLAHVERDİYEV FƏTULLA İBAD OĞLU (1910, İrəvan, Novlar kəndi – 1943)
ALLAHVERDİYEV İBADƏT MƏHƏMMƏD OĞLU (1968, Kəlbəcər rayonu, Zəylik kəndi – Şəmkir rayonu)
ALMƏMMƏD OĞLU MƏHƏMMƏD (ÇOBAN MƏHƏMMƏD) (1857, Göyçə mahalı, Ağkilsə kəndi – 1937)

ASLANOV ASLAN MƏHƏMMƏDHƏSƏN OĞLU (1928, Ağstafa rayonu, Köhnəqışlaq kəndi – 2006)
AŞIQ ABDULLA (təxminən XVII əsr)
AŞIQ AYDIN (təxminən XIII əsr)
AŞIQ CÜNUN – "Koroğlu" dastanındadır.
ATABALA OĞLU MÜRSƏL (1905, Göyçay rayonu, Bəydövül kəndi – 1947)
AVDIYEV AVDI İSƏ OĞLU (AVDI QAYMAQLI) (1910, Qazax rayonu, Qaymaqlı kəndi – 1988).
AVDIYEV SADIQ AVDI OĞLU (1939, Qazax rayonu, Qaymaqlı kəndi-2013)
BABA (təxminən XVII əsrdən əvvəl yaşamışdır)
BABAYEV ƏZİZ (BİLƏSUVARLI ƏZİZ) NİFTULLA OĞLU (1937, Biləsuvar rayonu, Əmənkənd kəndi -2017)
BABAYEV MƏMMƏDAĞA AĞAXAN OĞLU (1933, Şamaxı rayonu, Cəyirli kəndi – 1977)
BABAYİ HƏSƏN İSMAYIL OĞLU (1979, Təbriz şəhəri)
BAĞIROV TURAL VİDADİ OĞLU (1981, Naxçıvan şəhəri) – Naxçıvan Aşıqlar Birliyinin sədri (2016).
BAXŞİ HÜSEYN SİDQİƏLİ OĞLU (1971, Qaradağ mahalı, Əhər çevrəsindəki Ağcaqışlax kəndi)
BALASİYEV HƏŞİM (HƏŞİM QUBALI) SƏFTƏR OĞLU (1946, Quba rayonu, Qonaqkənd)
BAYAT ABBAS (XVI əsr – Dərbənd, Bayat kəndi)
BAYRAMƏLİ QIZI BƏSTİ (təxminən 1838, Kəlbəcər rayonu, Ley kəndi – 1936)
BAYRAMOV HACI ABBAS OĞLU (1931, Göyçə mahalı, Daşkənd kəndi – 2012, Şəmkir rayonu, Çənlibel kəndi)
BAYRAMOV HƏSƏN CƏFƏR OĞLU (1912, Gəncə – 1993)
BAYRAMOV MEHDİ ƏSGƏR OĞLU (1912, Tovuz rayonu, Ağbulaq kəndi – 1984)
BAYRAMOV MƏHƏMMƏD MAHMUD OĞLU (1915, Borçalı mahalı, Başkeçid, Hamamlı kəndi – 1998)
BAYRAMOV MƏHƏMMƏDƏLİ ALI OĞLU (1886, Gədəbəy ra¬yo¬nu, Böyük Qarabulaq kəndi -1980)
BAYRAMOV MƏMMƏD ORUC OĞLU (1912, Şəki rayonu, Baş Layski kəndi – 1984)
BAYRAMOV MİKAYIL (BOZALQANLI MİKAYIL) TAĞI OĞLU (1896, Tovuz rayonu, Bozalqanlı kəndi – 1963)
BAYRAMOV MİRZƏ ƏHMƏD OĞLU (1888, Tovuz rayonu, Cilovdarlı kəndi – 1954)
BAYRAMOV NOVRUZ MAHMUD OĞLU (1935, Borçalı mahalı, Başkeçid, Hamamlı kəndi – 2000)
BAYRAMOV VALEH MƏHƏMMƏD OĞLU (1940, Borçalı mahalı, Başkeçid, Hamamlı kəndi – 2009)
BAYRAMOV VƏLİ (MİSKİNLİ) ALI OĞLU (1894, Gədəbəy rayonu, Böyük

Qarabulaq kəndi – 2001)
BƏDƏLOV NAĞI QULU OĞLU (1880, Göyçə mahalı, Kəsəmən kəndi – 1976, Gəncə şəhəri, Bağmanlar qəsəbəsi)
BƏDƏLOV YANVAR PİRALI OĞLU (1942, İsmayıllı rayonu, Tircan kəndi - 2018)
BƏNDƏLİYEV ƏZİZXAN ALXAN OĞLU (1930, Ağsu rayonu, Birinci Aratkənd – 1990)
BƏYLƏR MİRZƏ KAZIM OĞLU (1837, Göyçə mahalı, Zod kəndi – 1919)
BİMAR İSGƏNDƏR ƏLƏS OĞLU (1877, Tovuz rayonu, Bozalqanlı kəndi – 1979, Tovuz rayonu, Qovlar kəndi)
BİRİYA ÇİNGİZ HÜSEYN OĞLU (1960, Qaradağ mahalı, Ələzin kəndi – Təbriz)
BORÇALI NƏBİ ORUC OĞLU (1873, Borçalı mahalı, Faxralı kəndi – 1945)
BORÇALI NURU (XVIII əsrin sonu, Borçalı mahalı, Levis kəndi – XIX əsrin 80-ci illəri)
BOZALQANLI ƏLƏS ŞİRİN OĞLU (1870, Tovuz rayonu, Bozalqanlı kəndi – 1938)
BOZALQANLI HÜSEYN (1863-1941)
BOZALQANLI İSMAYIL (1951, Tovuz rayonu, Bozalqanlı kəndi)
BOZALQANLI VƏLİ (1880, Tovuz rayonu, Yuxarı Bozalqanlı – 1933)
BUDAQOV İMAMƏLİ QİYAS OĞLU (1980, Borçalı mahalı, Bolnisi rayonu, Kəpənəkçi kəndi – Bakı)
CABBAR QIZI ZƏRNİŞAN (1849, Xızı rayonu, Şıx Xızı–1908)
CABBAR OĞLU ÇIRAQƏLİ (1798, Xızı, Şıxlar kəndi–1896)
CABBAROV CABBAR QASIM OĞLU (1950, Laçın rayonu, Ağbulaq kəndi)
CABBAROVA MƏHSƏTİ MİRZAĞA QIZI (1985, Rusiya, Tümen vilayəti, Koqalım şəhəri – Bakı)
CABBAROVA MİNAYƏ MİKAYIL QIZI (1952, Tovuz rayonu, Azaflı kəndi – Bakı).
CAHANGİRİ MAHMUD ƏYYUB OĞLU (1960, Qaradağ mahalı, Alanıq kəndi – Təbriz)
CAHANİ FƏRİD ƏLİ OĞLU (1946, Qaradağ mahalı, Vərziqan, Purmələk kəndi – Təbriz)
CAVAD OĞLU AĞAMƏMMƏD (1805, Şamaxı rayonu, Şamlı kəndi – 1875)
CAVADOVA NABAT PAŞA QIZI (1914, Şərur rayonu, Parçı kəndi – 1973, Şərur rayonu, Siyaqut kəndi)
CƏBRAYILOV EYNULLA (KÜRDƏMİRLİ) EYNULLA OĞLU (1935, Kürdəmir rayonu, Şüşün kəndi – 1992).
CƏFƏROV AYDIN NƏRİMAN OĞLU (1966, Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonu, Güney Qışlaq kəndi)
CƏFƏROV CAHANDAR ƏKBƏR OĞLU (1971, Tovuz rayonu, Bozalqanlı kəndi)
CƏFƏROV ƏKBƏR ZƏRBALI OĞLU (1933, Tovuz rayonu, Bozalqanlı kəndi – 1990)
CƏFƏROV MƏMMƏD (İRƏVANLI) ƏKBƏR OĞLU (1894, İrəvan quberniyası, Keşişkənd kəndi – 1966, Ağdam rayonu, Qərvənd kəndi)

CƏFƏROV MÜBARİZ BƏŞİR OĞLU (1965, Gədəbəy rayonu, Para kəndi – Bakı)
CƏFƏROV NOVRUZ (NOVRUZ QARATƏHLƏLİ) İSMAYIL OĞLU (1921, Qarayazı mahalı, Qaratəhlə kəndi – 1961)
CƏFƏROV ŞƏRBƏT ALMƏMMƏD OĞLU (1909, Şamaxı, Çarhan kəndi – 1981, Şamaxı)
CƏFƏROV YUSUF (SƏDƏRƏKLİ) (1928, Şərur rayonu, Sədərək kəndi – 1996)
CƏFƏROVA NARINC (XATUN) ƏVƏZ QIZI (1930, Neftçala rayonu, Bankə qəsəbəsi – 2000, Bakı)
CƏHANİ ƏLİ VƏLİ OĞLU (1959, Təbriz, Məzrə kəndi)
CİLOVDARLI YƏHYA (1916, Tovuz rayonu, Cilovdarlı kəndi – 1943) –
ÇƏMƏNİ NOVRUZ ABDULLAH OĞLU (1967, Qaradağ mahalı, Əhər, Babayli kəndi – Təbriz)
ÇILDIRLI BAĞDAD XANIM (XVII-XVIII əsrlər arası, Çıldır mahalı, Pərkəşən kəndi)-
ÇOBANOĞLU MURAD GÜLİSTAN OĞLU (1940, Türkiyə, Qars, Köçköyü kəndi – 2005)
ÇOBANOV YƏHYA NAMAZ OĞLU (1935, Borçalı mahalı, Darvaz kəndi)
ÇORLU MƏHƏMMƏD (təxminən 1860 – təxminən 1940-cı illərin sonu)
DADALOĞLU (MUSA OĞLU (VƏLİ) (1785, Kayseri, Tomarza – 1868, Sivas, Sarkışla əyaləti, Kavaklıpinar kəndi)
DAŞKƏNDLİ MƏMMƏDHÜSEYN (1800, Göyçə mahalı, Daşkənd kəndi – 1884)
DAŞKƏNDLİ NƏCƏF (1860, Göyçə mahalı, Daşkənd kəndi – 1919)
DAŞSALAHLI BƏHRAM ALI OĞLU (1918, Qazax rayonu, Daşsalahlı kəndi – 1991)
DEHQAN MƏMMƏDHÜSEYN QULAM OĞLU (1934, Urmiya)
DEHQANİ BULUT HƏMDULLA OĞLU (1961, Cənubi Azərbaycan, Kələybər mahalı – Təbriz).
DƏDƏ KƏRƏM – dastanlaşmış obrazdır.
DƏDƏ QORQUD – Tarix içindəki türk mənəvi mədəniyyətinin ana axarlarından biri
DƏDƏ YEDİYAR – XVI əsr Gəncə mühitində saz-söz ustadı kimi ad çıxartmış aşıq.
DƏDƏKİŞİ (1878, Naxçıvan, Zeynəddin kəndi – 1946)
DƏMİRÇİ ABBAS (1925, Kəlbəcər rayonu, Ağca kəndi – 2004, Yevlax rayonu, Malbinə kəndi)
DƏMİROV ƏLİPAŞA (FƏĞANİ) (1912, Şəmkir rayonu, Qaracaəmirli kəndi – 1975)
DƏMİROV ƏLİSA (ŞAMAXILI) PİRƏHMƏD OĞLU (1928, Şamaxı rayonu, Çarxan kəndi – 2009)
DƏRGAHQULİYEV HƏSƏN ŞƏMİSTAN OĞLU (1957, Qazax rayonu, Kəmərli kəndi – Bakı şəhəri)
DƏRGAHQULİYEV HÜSEYN ŞƏMİSTAN OĞLU (1960, Qazax rayonu, Kəmərli kəndi)
DƏRGAHQULİYEV ŞƏMİSTAN HƏSƏN OĞLU (1926, Qazax rayonu, Kəmərli

kəndi – 1991)
DƏRGAHQULİYEVA KİFAYƏT ŞƏMİSTAN QIZI (1953, Qazax rayonu, Kəmərli kəndi)
DƏŞƏN İSA MUSA OĞLU (1920, Gəncə – 1994, Əhər)
DIZAXLI MAHMUD (1810, Qarabağ mahalı, Quşçular kəndi – 1881)
DİBRO (1861, Zaqatala rayonu, Aşağı Tala kəndi – 1934)
DİLQƏM YƏHYA BƏY (XVIII əsrin sonu, Şəmkir mahalı, Dəllər-Cəyir eli – XIX əsrin I yarısı)
DİLŞAD (1912, Tovuz rayonu, Xunam kəndi – 1979)
DOLLU ABUZƏR (1856, Urmiya, Dol Dizə kəndi – 1929, Borçalı mahalı, Qaçağan kəndi)
DOLLU MUSTAFA (XIX əsrin ikinci yarısı, Urmiya vilayəti, Dol mahalı – XX əsrin əvvəlləri)
DOSTƏLİYEV ƏHMƏDƏLİ AĞALI OĞLU (1924, Şamaxı rayonu, Ərəbşahverdi kəndi – 1988)
DOSTU ŞİRVANLI (XVI əsrin ikinci yarısı, Şirvan – XVII əsrin əvvəlləri, Təbriz)
DUMAN XIZILI (1809, Xızı rayonu, Dağquşçu kəndi –1851)
EHRAQLI RƏCƏB (1825, Dərbənd mahalı, Ehraq kəndi – 1891)
EYVAZOV CƏFƏR NAMAZƏLİ OĞLU (1927, Qazax rayonu, Çaylı kəndi – 1999)
EYYUBOV ƏZİZ (ŞEYDA ƏZİZ) ƏSGƏR OĞLU (1897, Qazax qəzası, Dərəçiçək mahalı, Kəsik kəndi – 1957, Qazax rayonu, Köçəsgər kəndi)
EYVAZPUR YƏDULLA ƏSƏDULLA OĞLU (1940, Təbriz mahalı, Tufarqan çevrəsi, Usku kəndi)
ƏBDİ VƏLİ BƏHMƏN OĞLU (1944, Qaradağ mahalı, Əhər, Azqan kəndi)
ƏFƏNDİYEV KAMANDAR HƏMİD OĞLU (1932, Borçalı mahalı, Sarvan eli, Kəpənəkçi kəndi – 2000)
ƏFQAN ÇOBAN (ƏLƏKBƏR NAMAZOV) (1866, Ağstafa rayonu, Qıraqkəsəmən kəndi – 1940)
ƏHMƏD OĞLU VƏLİ (təxminən 1854, Göyçə mahalı, Basarkeçər rayonu, Yarpızlı kəndi – 1929)
ƏHMƏDOV BƏKİR (SAZBƏND BƏKİR) İMAM OĞLU (1954, Qazax rayonunun Yuxarı Salahlı kəndi – 2006, Sumqayıt)
ƏHMƏDOV TEYMUR (BİSAVAD TEYMUR) ƏSGƏR OĞLU (1890, Goranboy rayonu, Tap-Qaraqoyunlu kəndi – 1981)
ƏHMƏDOV HƏSƏN QƏHRƏMAN OĞLU (1885, Qarakilsə, Hollavar kəndi – 1962)
ƏHMƏDOV ORUC VƏLİ OĞLU (1920 Göyçə mahalı, Basarkeçər rayonu, Yarpızlı kəndi – 1976, Gədəbəy rayonu, Zəhmət kəndi)
ƏHMƏDOV USRAT İSGƏNDƏR OĞLU (1907, Goranboy rayonu, Dəliməmmədli qəsəbəsi – 1979)
ƏKBƏR OĞLU MƏHƏMMƏD (1950, Tovuz rayonu, Bozalqanlı kəndi)
ƏKBƏROVA AYTƏKİN QƏMBƏR QIZI (1976, Gəncə şəhəri)
ƏLƏKBƏR OĞLU BÖYÜKBƏY (1972, Qaradağ mahalı, Əhər şəhəri)

ƏLƏKBƏROV İSMAYIL HEYDƏR OĞLU (1886, İrəvan quberniyası, İlxı qoruğu kəndi – 1951, Gəncə)
ƏLƏKBƏROV MƏHƏRRƏM İSMAYIL OĞLU (1903, Gədəbəy rayonu, İnəkboğan kəndi – 1978)
ƏLƏSGƏR (AŞIQ ƏLƏSGƏR) ALMƏMMƏD OĞLU (1821, Göyçə mahalı, Ağkilsə kəndi – 1926)
ƏLƏSGƏRLİ XƏTAİ İSLAM OĞLU (1968, Göyçə mahalı, Ağkilsə kəndi – Bakı)
ƏLƏSGƏR OĞLU BƏŞİR (1867, Göyçə mahalı, Ağkilsə kəndi – 1934)
ƏLƏSGƏR OĞLU ƏBDÜLƏZİM (1873, Göyçə mahalı, Ağkilsə kəndi – 1943)
ƏLƏSGƏR OĞLU TALIB (1877, Göyçə mahalı, Ağkilsə kəndi – 1979)
ƏLƏSGƏROV RASİM ƏLİMUSA OĞLU (1947, Şamaxı)
ƏLİBƏYLİ İSMAYIL (1868, Tovuz rayonu, Öysüzlü kəndi – 1940)
ƏLİ MİSKİN (ZEYNALLI) (1881, Qazax – 1949)
ƏLİ OĞLU ƏLİQULU (1752, Xızı rayonu, Sayadlar kəndi –1816)
ƏLİ OĞLU ŞƏMSƏDDİN (1916, Zaqatala rayonu, Tala kəndi – 1943)
ƏLİMƏRDANLI ZEYNƏB (1912, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1978)
ƏLİMƏRDANLI ZÜLFÜQAR (1880, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1947)
ƏLİRZA OĞLU QƏNBƏR (1913, Göyçə mahalı, İnəkdaş kəndi, – 1992, Xanlar rayonu Zurnabad kəndi)
ƏLİYEV ELXAN CƏBRAYIL OĞLU (1958, Astara rayonu, Sım kəndi).
ƏLİYEV ƏHƏD (KOR ƏHƏD) FƏRZƏLİ OĞLU (1893, Bakı – 1942)
ƏLİYEV ƏLİ HƏSƏN OĞLU (1914, Qarabağ mahalı, Məmmədli kəndi – 1993, Gəncə şəhəri)
ƏLİYEV FƏTULLA ƏBDÜLƏZİM OĞLU (1941, Göyçə mahalı, Nərimanlı kəndi – Gəncə)
ƏLİYEV FİRUDİN QASIM OĞLU (1927, Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndi – 1987, Şəmkir rayonu, Keçili kəndi)
ƏLİYEV HÜSEYN (HÜSEYN CAVAN) MİKAYIL OĞLU (1916, Cənubi Azərbaycan, Kərmədüz mahalı, Utu kəndi – 1985, Goranboy rayonu, Dəlməmmədli kəndi)
ƏLİYEV İBRAHİM (QARAÇIOĞLU İBRAHİM) BAXŞALI OĞLU (1873, Gəncə – 1971)
ƏLİYEV MUXTAR İBAD OĞLU (1936, Qazax rayonu, Qırlı kəndi)
ƏLİYEV MÜBARİZ FÜRUDİN OĞLU (1967, Gədəbəy)
ƏLİYEV ŞAHNİYAR MİKAYIL OĞLU (1959, Gədəbəy rayonu, Böyük Qaramurad kəndi)
ƏLİYEV ŞAMİL (QARAÇIOĞLU ŞAMİL) İBRAHİM OĞLU (1910, Tovuz rayonu, Əyyublu kəndi – 1991, Gəncə)
ƏLİYEV ZİYƏDDİN MƏHƏMMƏD OĞLU (1950, Borçalı mahalı, Kürüstü Keşəli kəndi)
ƏLİYEVA MİNAYƏ MUSTAFA QIZI (1966, Dağ Borçalı, Cəlaloğlu rayonu, İlməzli kəndi – Bakı)
ƏLİYEVA SAMİRƏ ZİMİRXAN QIZI (1980, Tovuz rayonu – Bakı)

ƏLİYEVA SONA QARA QIZI (1916, Borçalı mahalı, Başkeçid, Hamamlı kəndi – 1988)
ƏLİZADƏ BÖYÜKAĞA MƏMMƏDAĞA OĞLU (1974, Güney Azərbaycan, Bedostan mahalı, Şəhrək kəndi – Təbriz)
ƏLİZADƏ MƏMMƏDAĞA TAĞI OĞLU (1952, Güney Azərbaycan, Bedostan mahalı, Şəhrək kəndi – Təbriz)
ƏMİNOV MƏMMƏDYAR (1876, Qazax rayonu, Ağköynək kəndi – 1966)
ƏMİRASLANOV CAVİD SƏFARALI OĞLU (1939, İsmayıllı rayonu, Pirəqanım kəndi)
ƏMRAHOV NOFƏL BAXCƏLİ OĞLU (1965, Gədəbəy rayonu, Qaravəllər kəndin – 1998).
ƏRDƏBİLLİ MAHMUD (təxminən XVIII əsrin əvvəli, Ərdəbil – təxminən XVIII əsrin sonları)
ƏRDƏNƏR İSLAM İSƏ OĞLU (1921, Türkiyə, Qars vilayəti, Kümbətli kəndi – 2000)
ƏRƏBOV ƏDHƏM ASLAN OĞLU (1912, Qazax rayonu, Dağkəsəmən kəndi – 1989)
ƏRZURUMLU ƏMRAH (təxminən XVI əsrin sonu, Ərzurum – XVII əsrin əvvəlləri)
ƏSGƏRİ SÖHRAB MÜSLÜM OĞLU (1938, Cənubi Azərbaycan, Zəncan mahalı, Badamistan kəndi)
ƏSGƏRLİ ALXAN QÜDRƏT OĞLU (1933, Biləsuvar rayonu, Ağalıkənd kəndi – 1989)
ƏSGƏROV ƏLƏKBƏR ZEYNALABDİN OĞLU (1905, Tovuz rayonu – 1989)
ƏSGƏROV ƏLİ (BİMAR ƏLİ) İBRAHİM OĞLU (1904, Kəlbəcər rayonu, Sınıqkilsə kəndi – 1952)
SGƏROV ƏLVİZ QİYAS OĞLU (1961, Gədəbəy rayonu, Daqurd kəndi)
ƏSGƏROV ƏSGƏR (XIZILI) ABDULLA OĞLU (1939, Xızı rayonu, Bəhmənyurd kəndi – 1986, Bakı)
ƏSGƏROV HUMAY QÜDRƏT OĞLU (1893, Cəbrayıl rayonu, Daşkəsən kəndi – 1971)
ƏSGƏROV MÜBARİZ BAYRAM OĞLU (1963, Gədəbəy rayonu, Qaradağ kəndi)
ƏTAİ SEVİNC MALİK QIZI (1968, Goranboy rayonu)
ƏTAPUR ƏBÜLFƏZ MEHDİ OĞLU (1966, Cənubi Azərbaycanın Əhər şəhəri)
ƏZİZOV RAMİZ SOLTANMURAD OĞLU (1954, Qobustan rayonu, Nabur kəndi)
FEYRUZ (XVIII əsr, Türkiyə, İstambul)
FEYZULLAHİ ƏLİ VƏLİ OĞLU (1908, Təbriz – 2007)
FƏRƏCOV SURXAY (DİRİLİ SURXAY) BƏYALI OĞLU (1902, Cəbrayıl qəzası, Xudayarlı kəndi – 1945)
FƏRYADİ MAKSUT İSKƏNDƏR OĞLU (1961, Türkiyə, Qars bölgəsi, Daşdərə kəndi)
FƏRZƏLİYEV EYYUB ƏLİBABA OĞLU (1883, Göyçə mahalı, Basarkeçər rayonu, Yarpızlı kəndi – 1955, Gədəbəy rayonu, Daşbulaq kəndi)

FƏRZƏLİYEV QURBAN ƏLİ OĞLU (1914, Gəncə – 1986)
FƏRZƏLİYEV MƏŞƏDİ MƏMMƏD (1872, Şuşa – 1962, İstambul)
FƏRZƏLİYEV ŞAHSUVAR EYYUB OĞLU (1927, Göyçə mahalı, Basarkeçər rayonu, Yarpızlı kəndi – 1997, Gədəbəy rayonu, Daşbulaq kəndi)
FƏTƏLİYEV ŞƏRBƏT CƏNNƏTALI OĞLU (1930, Şamaxı, Talış-Nurlu kəndi - 2017)
FƏTƏLİYEV ŞİRZAD NİZAN OĞLU (1972, Şamaxı) – Əməkdar artist (2011).
FƏZİYEV İSLAM HÜSEYN OĞLU (1909, Qazax rayonu, Qıraq Kəsəmən kəndi – 1979)
GƏNCEYİ SƏDAQƏT MƏMMƏDHÜSEYN OĞLU (1965, Qaradağ mahalı, Xələtbəyli kəndi – Təbriz)
GƏNCƏLİ LƏTİF (1932, Gəncə şəhəri – 2015, Borçalı)
GÖYÇƏLİ QASIM (1880, Göyçə mahalı, Ağkilsə kəndi – 1945, Göyçə mahalı, Cil kəndi)
GÖYÇƏLİ MƏHƏMMƏD QURBAN OĞLU (1825, Göyçə mahalı, Qaraqoyunlu kəndi – 1888, Şəmkir rayonu, Qaraçəmirli kəndi)
GÜLƏLİYEV ABBAS MUSAXAN OĞLU (1954, Şamaxı rayonu, Şıxzərli kəndi)
GÜLİYEV İBRAHİM (ƏNGƏRXANLI) GÜLİ OĞLU (1860, Şamaxı rayonu, Əngərxan kəndi – 1920)
GÜLMƏHƏMMƏDİ SƏTTAR (1941, Qaradağ mahalı, Şücaylı kəndi)
GÜLMƏMMƏDOV ƏMRAH PAŞA OĞLU (1913, Borçalı mahalı, Kəpənəkçi kəndi – 1987)
GÜLMƏMMƏDOV FAXFUR İSGƏNDƏR OĞLU (1956, Çıldır-Ağbaba mahalı, Ellər kəndi – Bakı)
GÜLMƏMMƏDOV ŞƏHADƏT NƏSİB OĞLU (1930, Qazax rayonu, Dağkəsəmən kəndi-2018)
GÜLÜŞOVA RUHİYYƏ ƏLİ QIZI (1979, Zəngilan rayonu, Məmmədbəyli kəndi)
GÜVƏNDİKLİ ƏHMƏD (XIX əsr, Tovuz rayonu, Güvəndik kəndi)
HACIYEV HACALI (ŞAMAXILI) SAHİBCAN OĞLU (1935, Şamaxı rayonu, Quşçu kəndi – 2010)
HACIYEV HƏSƏN (HƏSƏN XƏYALLI) MƏHƏRRƏM OĞLU (1885, Göyçə mahalı, Daşkənd kəndi – 1966)
HACIYEV İLHAM (İLHAM ASLANBƏYLİ) MUSA OĞLU (1965, Qazax rayonu, Aslanbəyli kəndi – Sumqayıt)
HACIYEV MAHMUD MUSTAFA OĞLU (1931, Borçalı mahalı, Başkeçid, Yırgançay kəndi – 1996)
HACIYEV MAQSUD BALA OĞLU (1913, Şamaxı rayonu, Dədəgünəş kəndi – 1986)
HACIYEV MƏHƏRRƏM MƏHƏMMƏD OĞLU (1913, Göyçə mahalı, Ağbulaq kəndi – 2002, Göygöl şəhəri)
HACIYEV ŞAKİR ŞAHVERDİ OĞLU (1922, Ağsu – 1979, Kürdəmir)
HAQVERDİYEV SƏMƏD (CİLOVDARLI SƏMƏD) ABBAS OĞLU (1897, Tovuz rayonu, Cilovdarlı kəndi – 1986)

HEYDƏRİ MƏSUM BƏYAZƏLİ OĞLU (1957, Qaradağ mahalı, Xəlvənsar kəndi – Təbriz)
HƏBİBULLAYEV SİRAC ABUZƏR OĞLU (1933, Şəki rayonu, Baş Layski kəndi – 2010)
HƏMAYIL (XIX əsrin birinci yarısı, Şəmkir rayonu, Dəllər-Cırdahan kəndi – XIX əsrin sonu)
HƏMİDİ ARİF HƏSƏN OĞLU (1974, Qaradağ mahalı, Xudafərin bölgəsi, Mahmudkağı kəndi)
HƏMİDİ ƏHMƏD HƏSƏN OĞLU (1965, Qaradağ mahalı, Xudafərin bölgəsi, Mahmudkağı kəndi – Tehran)
HƏSƏN MİSKİN (1875, Qazax rayonunun Köçəsgər kəndi – 1941)
HƏSƏNOV ABBAS QARA OĞLU (1935, Tovuz rayonu, Cilovdarlı kəndi – 2008, Tovuz şəhəri)
HƏSƏNOV EYVAZ (EYVAZ QƏLƏMÇƏLİ) QASIM OĞLU (1929, Ağstafa rayonu, Köhnə Qışlaq kəndi – 2003)
HƏSƏNOV ƏLİ (GORANBOYLU) ƏMİRASLAN OĞLU (1907, Goranboy – 1979)
HƏSƏNOV ƏLİ (SARAÇLI) HÜSEYN OĞLU (1949, Borçalı mahalı, Saraclı kəndi)
HƏSƏNOV ƏMİR MUXTAR OĞLU (1923, Borçalı mahalı, Bolnisi rayonu, Saral kəndi – 1992)
HƏSƏNOV HÜSEYN (HÜSEYN SARAÇLI) QURBAN OĞLU (1916, Borçalı mahalı, Saraclı kəndi – 1987)
HƏSƏNOV İLQAR (QƏLƏMÇƏLİ) ELBRUS OĞLU (1991, Ağstafa şəhəri)
HƏSƏNOV İMRAN MEHRALI OĞLU (1928, Göyçə mahalı, Ağbulaq kəndi – 2000, Tovuz şəhəri)
HƏSƏNOV MƏHƏMMƏD QƏHRƏMAN OĞLU (1894, Qazax rayonu, Qıraq Kəsəmən kəndi – 1973, Gəncə)
HƏSƏNOV MURAD (NİYAZLI MURAD) BABAXAN OĞLU (1933, Göyçə mahalı, Aşağı Şorca kəndi – 2004, Şəmkir)
HƏSƏNOV MURTUZƏLİ ŞABAN OĞLU (1895, Zaqatala rayonu, Kəpənəkçi kəndi – 1980)
HƏSƏNOV MUSA İMRAN OĞLU (1924, Göyçə mahalı, Qoşabulaq kəndi – 1981, Gədəbəy)
HƏSƏNOV NƏSİB HƏSƏN OĞLU (1909, Borçalı mahalı, Faxralı kəndi – 1973)
HƏSƏNOV VALEH RƏHİM OĞLU (1937, Göyçə mahalı, Şişqaya kəndi –Zaqatala şəhəri)
HƏSƏNOV YUNİS HÜSEYN OĞLU (1932, Tovuz rayonu, Azaflı kəndi – 1989)
HƏZIYEVA ŞƏRQİYYƏ QÜRBƏT QIZI (Zəngilan rayonu –Türkiyə, Əsgişəhər)
HÜMBƏTOVA ƏSKİNAZ (EŞQİ) İSA QIZI (1970, Tovuz rayonu, Böyük Qışlaq kəndi)
HÜSEYN MƏŞƏDİ (1900, Ərdəbil – 1952, Orta Asiya)
HÜSEYN OĞLU ÇOBAN (təxminən 1860, Şəmkir rayonu, Qapanlı kəndi – təx.

XX əsrin 30-cu illəri)
HÜSEYNLİ MƏHƏRRƏM HÜSEYN OĞLU (1959, Tovuz rayonu, Qaradaş kəndi – Bakı)
HÜSEYNOV CAVAD (ŞAİR CAVAD) BAYRAM OĞLU (1879, Daşkəsən rayonu, Qabaqtəpə kəndi – 1967)
HÜSEYNOV ELBRUS HÜSEYN OĞLU (1979, Kəlbəcər rayonu, Zəylik kəndi – Gəncə)
HÜSEYNOV ƏLİ HƏSƏN OĞLU (1885, Tovuz rayonu, Aşağı Quşçu kəndi – 1940)
HÜSEYNOV FİRUDİN QƏDİM OĞLU (1978, Tovuz rayonu, Bozalqanlı kəndi)
HÜSEYNOV HƏSƏN (MÜLKÜLÜ HƏSƏN) HÜSEYN OĞLU (1904, Tovuz rayonu, Mülüklü kəndi – 1994)
HÜSEYNOV HƏSRƏT MUXTAR OĞLU (1927, Kürdəmir rayonu, Muradxan kəndi – 1995)
HÜSEYNOV HÜSEYN (HÜSEYN XALAOĞLU) ƏLİQULU OĞLU (1923, Akstafa rayonu, Yenigün kəndi – 1997)
HÜSEYNOV HÜSEYN (GÖYCƏLİ) ƏZİZ OĞLU (1947, Akstafa rayonu, Göycəli kəndi)
HÜSEYNOV NƏCƏF (ƏLİMƏRDANLI NƏCƏF) ALI OĞLU (1900, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1946)
HÜSEYNOV OKTAY (OKTAY ŞƏMKİRLİ) YUNİS OĞLU (1956, Şəmkir rayonu)
HÜSEYNOV PAŞA MUSA OĞLU (1948, Dilcan dərəsi, Salahlı kəndi – Bakı şəhəri)
HÜSEYNOV TEYMUR SƏFƏR OĞLU (1895, Şəmkir rayonu, Morul kəndi – 1980)
HÜSEYNPUR ƏŞRƏF AĞAMMƏD OĞLU (1948, Təbriz)
XAKPUR CƏFƏR HÜSEYN OĞLU (1976, Təbriz-Qaradağ mahalı, Aslanduz, Ağqışlaq kəndi – Təbriz)
XALTANLI TAĞI (XIX əsrin birinci yarısı, Quba rayonu, Xaltan kəndi)
XANKİŞİYEV ƏVƏZXAN MƏRDAN OĞLU (1949, Şamaxı – Bakı)
XƏLİLİ MƏHBUB POLAD OĞLU (1963, Qaradağ mahalı, Əhər, Uyru kəndi – Tehran)
XƏLİLOV ABBASƏLİ SÜLEYMAN OĞLU (1913, Göyçə mahalı, Daşkənd kəndi – 2007, Bərdə rayonu, Yeni Daşkənd kəndi)
XƏLİLOV AĞAYAR (ZODLU AĞAYAR) XƏLİL OĞLU (1880, Göyçə mahalı, Zod kəndi – 1978)
XƏLİLOV ALQAYIT BAYRAM OĞLU (1940, Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndi – 2013, Bakı)
XƏLİLOV DÜNYAMALI BAYRAM OĞLU (1925, Ağbaba mahalı, Balıqlı kəndi – 1997, Borçalı mahalı, Sarvan eli)
XƏLİLOVA HƏQİQƏT XANKİŞİ QIZI (1962, Gədəbəy rayonu, Düz Rəsullu kəndi – Bakı)

XƏSTƏ HASAN (təxminən 1762, Axıska, Dırqına kəndi – 1866)
XƏSTƏ QASIM (1702, Təbriz-Qaradağ mahalı, Tikmədaş kəndi – 1778)
XƏYYAT MİRZƏ ABBASQULU OĞLU (1885, Tovuz rayonu, Bozalqanlı kəndi – 1922)
XIDIROV VALEH SADIQ OĞLU (1926, Göyçə mahalı, Babacan kəndi – 1998, Tovuz rayonu)
XİRƏDMƏND MƏHƏMMƏD SALEH OĞLU (1978, Qaradağ mahalı, Gümmənd kəndi – Təbriz)
XUDAVERDİYEV SOLTAN İSMAYIL OĞLU (1905, İrəvan, Vedi mahalı, Səhb kəndi – Naxçıvan, 1979, Yenicə kəndi)
XUDAYİ MİRZALI HÜSEYNQULU OĞLU (1940, Zəncan mahalı, Ağcapir kəndi)
XUDAYİ SƏTTAR MİRZƏLİ OĞLU (1960, Zəncan mahalı, Ağcapir kəndi)
XUDİYEV BAYRAMƏLİ (XƏSTƏ BAYRAMƏLİ) ABBASƏLİ OĞLU (1898, Göyçə mahalı, Nərimanlı kəndi – 1952)
İBADOVA ZÜLFİYYƏ ƏLİ QIZI (1970, Tovuz rayonu, Alakol kəndi – Bakı)
İBRAHİM QUŞÇU İSMAYIL OĞLU (1885, Borçalı mahalı, Bolnisi rayonu, Qoşaisə – 1943)
İBRAHİMİ QAFAR DİNVAR CƏFƏR OĞLU (1954, Qaradağ mahalı, Həsənol, Narışda kəndi – 2019, Təbriz)
İBRAHİMOV QƏHRƏMAN İSGƏNDƏR OĞLU (1884, Tovuz rayonu, Hacalı kəndi – 1986)
İBRAHİMOV YUNİS MƏMMƏD OĞLU (1895, Göyçə mahalı, Cil kəndi – 1974)
İMAMVERDİYEV İLQAR CƏMİL OĞLU (1956, Gəncə - Türkiyə, Qazyantəpə)
İSAYEV ŞAİQ MƏDƏD OĞLU (1964, Qazax rayonu, Kəmərli kəndi)
İSGƏNDƏRİ HƏSƏN AĞAXAN OĞLU (1947, Qaradağ mahalı, Kələlə kəndi – Təbriz)
İSGƏNDƏRİ MƏHƏMMƏD HÜSEYN OĞLU (1960, Qaradağ mahalı, Əhər çevrəsindəki Goradərə kəndi – Təbriz)
İSGƏNDƏROV FİRUDİN ABİD OĞLU (1967, Göyçə mahalı, Daşkənd kəndi – Bakı)
İSGƏNDƏROV MEHDİ QƏHRƏMAN OĞLU (1880, Göyçə mahalı, Qanlı kəndi – 1968)
İSGƏNDƏROV NURİDDİN ABİD OĞLU (1956, Göyçə mahalı, Daşkənd kəndi – 2017, Şəmkir şəhəri)
İSGƏNDƏROVA FAMİLƏ (FAMİLƏ GÖYÇƏLİ) QƏDİM QIZI (1982, Qərbi Azərbaycan, Hamamlı eli, Qursalı kəndi – Bakı)
İSMAYIL OĞLU ƏHMƏD (1883, Şəki rayonu, Aşağı Layski kəndi-1946)
İSMAYILOV ABBAS HƏSƏN OĞLU (1932, Tovuz rayonu, Aşağı Öysüzlü kəndi – 1992)
İSMAYILOV ƏBİL (AĞSULU) VƏLİMƏMMƏD OĞLU (1917, Ağsu rayonu, Ləngəbiz kəndi – 1994)
İSMAYILOV HÜSEYN (HÜSEYN QOŞQARLI) HÜMBƏT OĞLU (1937, Daşkəsən rayonu, Xoşbulaq kəndi)

İSMAYILOV İSMAYIL HƏSƏN OĞLU (1870, Gəncə – 1939)
İSMAYILOV İSRAFİL (1895, Göyçə mahalı, İnəkdağı kəndi – 1972, Goranboy)
İSMAYILOV QƏDİR ABBAS OĞLU (1893, Tovuz rayonu, Bozalqanlı kəndi – 1982)
İSMAYILOV MƏHƏMMƏDƏLİ SADIQ OĞLU (1930, Göyçə mahalı, Ardanış kəndi – 2015, Bakı)
İSMAYILOV RAKİF HÜSEYN OĞLU (1956, Qazax rayonu, Tatlı kəndi – Bakı)
İSMAYILOV VALEH SÜLEYMAN OĞLU (1963, Qazax rayonu, Məzəm kəndi – Bakı).
İSMİYEV SAHİB XAQANİ OĞLU (1990, Bakı)
İSRAFİLOV AĞAMURAD (ŞİRVANLI) BALAMURAD OĞLU (1964, Şamaxı rayonu, Mərzəngəli kəndi)
İSRAFİLOV MƏZAHİR ZABİT OĞLU (1929, Şamaxı – 1998)
KAZIM (ŞAİR KAZIM) (1857, Göyçə mahalı, Ağbulaq kəndi – 1937)
KAZIMOV BƏHMƏN (BƏHMƏN GÖYÇƏLİ) İSƏ OĞLU (1960, Göyçə mahalı, Ardanış kəndi - Bakı)
KƏLBƏCƏRLİ NƏBİ KƏRİM OĞLU (1898, Kəlbəcər rayonu, Milli kəndi – 1969)
KƏLEYBƏRLİ HÜMMƏT MƏHƏMMƏD OĞLU (1922, Füzuli rayonu – 2015, Qaradağ mahalı, Kəleybər şəhəri)
KƏRİMİ SƏXAVƏT KƏMSƏLİ OĞLU (1965, Qaradağ mahalı, Davudlu kəndi)
KƏRİMLİ QARACAN (QARACAN BORÇALI) İSA OĞLU (1947, Borçalı mahalı, Sarvan bölgəsi, Təkəli kəndi)
KƏRİMOV ƏLİ ZÜLFÜQAR OĞLU (1874, Ağsu rayonu, Kalva kəndi – 1960)
KƏRIMOV FIRUDIN (FİRUDİN KƏLBƏCƏRLİ) MUSA OĞLU (1951, Kəlbəcər rayonu, Aşağı Ayrım kəndi - 2014, Şəmkir)
KƏRİMOV MEHDİ CƏFƏR OĞLU (1898, Dəvəçi rayonu, Günövşə kəndi – 1977)
KƏRİMOV ŞƏHRİYAR (QARAXANLI) ƏLƏKBƏR OĞLU (1990, Tovuz rayonu, Qaraxanlı kəndi)
KƏRİMOV ŞÖHRƏT ELMAN OĞLU (1987, Kəlbəcər rayonu, Yellicə kəndi – Gəncə)
KOLANLI ZEYNƏB XANIM (1862, Şirvan, Kolanlı kəndi – 1942)
KOSAYEVA SOLMAZ QORÇU QIZI (1955, Qazax şəhəri – Bakı)
QAFAROV ƏHMƏD (1907, Şəki şəhəri, Baş Layski kəndi – 1981)
QARACADAĞİ ƏLİ (XVIII əsr, Qaradağ mahalı)
QARACAƏMİRLİ QASIM HACI ƏLİ OĞLU (1840, Şəmkir rayonu, Qaracaəmirli kəndi – 1916)
QARACAOĞLAN (1606, Muş eli, Çukur obası (indiki Qaracaoğlan kəndi) – 1679)
QARACAYEV HACI BABAKİŞİ OĞLU (1906, Qazax rayonu, Qaymaqlı kəndi – 1976)
QARAÇÖP MUSA (1881, Borçalı mahalı, Qaraçöp bölgəsi, Qazlar kəndi – 1965)
QARADAĞLI İBRAHİM ƏLİ OĞLU (1970, Əhər şəhəri)
QARAXANLI İSA ƏKBƏR OĞLU (1976, Təbriz şəhəri)
QARAŞOV ƏDALƏT (ƏDALƏT DƏLİDAĞLI) HACIBALA OĞLU (1967,

Kəlbəcər reayonu, Yellicə kəndi – Bakı)
QARAYEV BƏHMƏN (NƏRİMANLI) İBRAHİM OĞLU (1901, Göyçə mahalı, Nərimanlı kəndi (əvvəllər Hüseynquluağalı adlanmışdır) – 1980).
QARAYEV RAMİN (RAMİN OĞUZ) İSMİXAN OĞLU (1986, Borçalı mahalı, Sarvan eli, Təkəli kəndi)
QARDAŞƏLİ OĞLU RÜSTƏMƏLİ (1923, Zəncan mahalı, Gərətəpə kəndi – 2012)
QASIMOV MEHBALI MEHRALI OĞLU (1937, Gədəbəy rayonu, Para kəndi)
QASIMOV MƏQSƏD HÜSEYNALI OĞLU (1936, Akstafa rayonu, Tatlı kəndi).
QASIMOV MƏHƏMMƏD (ŞİRVANLI) CƏLAL OĞLU (1952, Ağsu rayonu, Ağalarbəyli kəndi)
QASIMOV NEMƏT YUSİF OĞLU (1972, Gədəbəy rayonu, Kiçik Qaramurad kəndi – Bakı şəhəri)
QAŞKƏNDLİ ABDULLA (XIX əsr, Şamaxı qəzası, Bico kəndi)
QAYABAŞILI MUXTAR NƏSİR OĞLU (1980, Qaradağ mahalı, Böyük Qayabaşı kəndi)
QƏDİROV BƏYLƏR RƏŞİD OĞLU (1914, Salyan rayonu, Çuxanlı kəndi – 1991)
QƏHRƏMANOV CƏLAL MƏHƏMMƏD OĞLU (1928, Qazax rayonu, Kəmərli kəndi – 1978)
QƏHRƏMANOV ŞÖHRƏT CƏLAL OĞLU (1954, Qazax rayonu, Kəmərli kəndi – 2014)
QƏMBƏR GÜLABLI (XVIII əsrin sonu, Ağdam rayonu, Gülablı kəndi – XIX əsrin birinci yarısı)
QƏNBƏRİ AYƏT İBRAHİM OĞLU (1966, Qaradağ mahalı, Əhər, Git kəndi – Təbriz)
QƏNİYEV RZA HÜSEYN OĞLU (1907, Borçalı mahalı, Böyük Muğanlı kəndi – 1964)
QƏRİBLİ ƏHMƏD MUSA OĞLU (1921, Borçalı mahalı, Bolnisi rayonu, Saraclı kəndi – 1997)
QOCAYEV İXTİYAR ŞƏMƏM OĞLU (1970, Göyçə mahalı Çəmbərək rayonu - Şamaxı)
QOCAYEV MƏHƏMMƏD (ŞIXLI) RƏHİM OĞLU (1905, Qazax rayonu, II Şıxlı kəndi – 1989)
QOCAYEV ŞƏMŞİR QURBAN OĞLU (1893, Kəlbəcər rayonu, Dəmirçidam kəndi – 1980)
QUBADOV SOLTANMURAD TƏRLANBƏY OĞLU (1922, Şamaxı rayonu, Sündi kəndi – 1961)
QUL ALLAHQULU (təxminən XVIII əsr, Borçalı mahalı)
QUL MAHMUD (təxminən XVI əsrin ortaları – təxminən 1605)
QUL YUNİS (1912, Göyçə mahalı, Zod kəndi – 1943, İkinci Dünya müharibəsi)
QULİYEV ADİL (ADİL CƏFAKEŞ) ZİYADXAN OĞLU (1966, Laçın rayonu, Şeylanlı kəndi)
QULİYEV ASİF ƏLİŞ OĞLU (1971, Kəlbəcər rayonu – Gəncə)
QULİYEV CAHANGİR SƏNAN OĞLU (1960, Gədəbəy rayonu, Çay Rəsullu

kəndi – Bakı)
QULİYEV ƏLİ (URFAN ƏLİ) ABUZƏR OĞLU (1949, Tovuz rayonu, Əlimərdanlı kəndi)
QULİYEV ƏLİ TAPDIQ OĞLU (1988, Qaradağ rayonu, Qobustan qəsəbəsi)
QULİYEV ƏSGƏR CƏFƏR OĞLU (1859, Gədəbəy rayonu, Kərimli kəndi – 1984)
QULİYEV İLHAM ƏSGƏR OĞLU (1967, Tovuz rayonu, Sofular kəndi – Bakı)
QULİYEV QOCA QURBAN OĞLU (1896, Tovuz rayonu, Bozalqanlı kəndi – 1957)
QULİYEV MÜSEYİB MƏHƏRRƏM OĞLU (1916, Kəlbəcər rayonu, Kilsəli kəndi – 1981)
QULİYEV NAZİM BAHADUR OĞLU (1978, Gədəbəy rayonu, Arabaçı kəndi)
QULİYEV ŞAHNİYAR HÜMBƏT OĞLU (1944, Gədəbəy rayonu, Çayrəsullu kəndi – 2017, Bakı)
QULİYEVA PAKİZƏ (MUSAKÖYLÜ) İSRAFİL QIZI (1948, Qazax rayonu, Musaköy kəndi – Bakı)
QULİYEVA ULDUZ (SÖNMƏZ) ƏSGƏR QIZI (1945, Gədəbəy rayonu, Kərimli kəndi – Bakı)
QULU OĞLU CABBAR (1971, Qaradağ mahalı, Əhər, Çölqışlağı kəndi – Təbriz)
QURBAN MƏLİKBALLI (1790, Göyçay qəzası, Məlikbalı kəndi – 1865)
QURBAN OĞLU MÜSƏLLİM (1880, Qazax rayonu, Canallı kəndi – 1954)
QURBANƏLİ (1893, Borçalı mahalı, Gorarxı (Meçidli Gorarxı) kəndi – 1979)
QURBANİ (XVI əsr, Cəbrayıl rayonu, Diri kəndi)
QURBANİ RƏSUL ABDULLA OĞLU (1930, Qaradağ – 2017, Təbriz)
QURBANOV BƏXTİYAR RAHİM OĞLU (1990, Gədəbəy rayonu, Daryurd kəndi – Bakı)
QURBANOV CAMOY CAMOY OĞLU (1954, Qazax rayonu, Çaylı kəndi).
QURBANOV ƏLİ ABDULLA OĞLU (1928, Göyçə mahalı, Basarkeçər rayonu, Ağkilsə kəndi – 2004, Bakı)
QURBANOV HƏVƏSKAR NURƏDDİN OĞLU (1966, Borçalı mahalı, Qasımlı kəndi)
QURBANOV KAMANDAR LƏTİF OĞLU (1982, Borçalı mahalı, Başkeçid rayonu, Məmişlilər kəndi)
QURBANOV NURƏDDİN YUSİF OĞLU (1939, Borçalı mahalı, Sarvan eli, Qasımlı kəndi – 2010)
QURBANOV PƏNAH ABDULLA OĞLU (1940, Göyçə mahalı, Ağkilsə kəndi – 2011, Bakı)
QURBANOV RİZVAN ŞAHMALI OĞLU (1959, Göyçə mahalı, Nərimanlı kəndi – Bakı)
QURBANOV SAKİT (SAKİT KÖÇƏRİ) MAHMUD OĞLU (1946, Dağıstan Muxtar Respublikası, Axtı rayonu, Xnov kəndi – Şəki rayonu, 2008)
QURBANOV TEYMUR ƏLİ OĞLU (1906, Borçalı mahalı, Qaraçöp bölgəsi, Düzəyrəm kəndi – 1978)
QURBANZADƏ BƏHMƏN NƏRİMAN OĞLU (1971, Kələybər mahalı, Mülük

kəndi – Təbriz)
LƏLƏ (XVII əsr)
LƏZGİ ƏHMƏD (XVII əsrin sonu, Dağıstan, Axtı rayonu, Miqrağ kəndi – XVIII əsrin ortaları)
MAHMUDOV AYDIN XUDAVERDİ (XUDU) OĞLU (1968, Tovuz rayonu, Yanıqlı kəndi – Bakı)
MAHMUDOV FƏRMAN XUDAVERDİ (XUDU) OĞLU (1965, Tovuz rayonu, Yanıqlı kəndi-Bakı)
MAHMUDOV XALIQVERDİ HƏMİD OĞLU (1928, Kəlbəcər rayonu, Zivel kəndi – 2018, Goranboy rayonu)
MAHMUDOV XUDAVERDİ (XUDU) YUSİF OĞLU (1932, Tovuz rayonu, Yanıqlı kəndi – 2004)
MANSUROV MİKAYIL ALMƏMMƏD OĞLU (1908, Goranboy rayonu, Cinli-Borsunlu kəndi – 1981)
MEHDİPUR ÇİNGİZ HƏBİB OĞLU (1961, Qaradağ mahalı, Xudafərin rayonu, Şeyx Hüseynli kəndi – Təbriz)
MEHDİYEV CƏMİL İSGƏNDƏR OĞLU (1907, Gəncə, Bağmanlar kəndi – 1979)
MEHDİYEV ELMAN (ELMAN TALISTANLI) MƏLİK MƏMMƏD OĞLU (1966, İsmayıllı rayonu, Talıstan kəndi)
MEHDİYEV ƏLİ MƏHƏRRƏM OĞLU (1901, Borçalı mahalı, Gorarxı, Təzəkənd kəndi – 1992)
MEHDİYEV HƏMZƏ QƏLƏNDƏR OĞLU (1908, Tovuz rayonu, Bozalqanlı kəndi – 1981)
MEHDİYEV QARDAŞXAN MUSA OĞLU (1935, Kəlbəcər, Zar kəndi – 2015 Bərdə)
MEHDİYEV MANSIR ZEYNALABDİN OĞLU (1939, Tovuz rayonu, İbrahim Hacılı kəndi – 2006)
MEHDİYEV MEHDİ ATƏŞ OĞLU (1923, Zəngibasar mahalı – 1992, Tərtər)
MEHDİYEV SƏMƏD (CAVAN SƏMƏD) İSGƏNDƏR OĞLU (1927, Tovuz rayonu, Köhnəqala kəndi – 1998)
MEHDİYEVA KƏMALƏ (KƏMALƏ QUBADLI) MƏHYƏDDİN QIZI (1978, Bakı)
MEHDİYEVA NARGİLƏ (TİNATİN) NƏBİ QIZI 1980, Gürcüstan, Msxeta rayonu, Ksani kəndi-Tiflis)
MƏFTUN ƏZİZ HƏSƏN OĞLU (1936, Tovuz rayonu, Mülkülü kəndi – 1978)
MƏHƏMMƏD BAĞBAN (təxminən 1835, Cəbrayıl rayonu, Şərikan kəndi – 1914)
MƏHƏRRƏM OĞLU BAYRAM (SARVAN BAYRAM) FAXRALI (1891, Borçalı mahalı, Faxralı kəndi – 1956)
MƏHƏMMƏD OĞLU ŞİRSOLTAN (1924, Şamaxı rayonu, Nabur kəndi – 1988)
MƏHƏMMƏDİ ABBAS TƏRLAN OĞLU (1974, Qaradağ mahalı, Gərməduz, Seyidlər kəndi – Təbriz)
MƏHƏMMƏDİ HƏSƏN BEHBUD OĞLU (1983, Dizmar mahalı, Məzrə kəndi – Təbriz)

MƏHƏMMƏDZADƏ HƏSƏN LƏTİF OĞLU (1961, Əhər mahalı, Havay kəndi)
MƏHƏRRƏMİ CAVAD (PƏRVİZXANLI) DÜNYAMALI OĞLU (1979, Qaradağ mahalı, Dilbilməz kəndi – Təbriz)
MƏHƏRRƏMİ YUSİF TƏRLAN OĞLU (1978, Təbriz)
MƏHƏRRƏMOV AZƏR XANLAR OĞLU (1983, Tovuz rayonu, Əlimərdanlı kəndi – 2018, Bakı)
MƏHƏRRƏMOV XANLAR ƏHMƏD OĞLU (1950, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1998, Bakı)
MƏHƏRRƏMOV İDRİS ŞİRİN OĞLU (1894, Göyçə mahalı, Zərzibil kəndi – 1944, İkinci Dünya müharibəsi)
MƏHƏRRƏMOV MƏHƏMMƏDƏLİ ABBASQULU OĞLU (1893, Naxçıvan, Şərur rayonu, Qorçulu kəndi – 1972, Qazax rayonu)
MƏHƏRRƏMOV YAŞAR MƏHƏR OĞLU (1978, Kəlbəcər rayonu, Zəylik kəndi)
MƏHƏRRƏMOV YOLÇU QASIM OĞLU (1936, Tovuz rayonu, Quşçu kəndi – 2001)
MƏHƏRRƏMOV ZAMAN HÜMMƏT OĞLU (1933, Göyçə mahalı, Qoşabulaq kəndi – 1994)
MƏMİŞOV BARAT (ŞİRVANLI BARAT) ƏHMƏD OĞLU (1918, Şamaxı, Cəyirli kəndi – 1997) –
MƏMMƏD XINDI GÜLABI OĞLU (1896, Borçalı, Böyük Muğanlı (Qaş Muğanlı) – 1968)
MƏMMƏD OĞLU GÜLABI (1950, Borçalı mahalı, Sarvan eli, Böyük Muğanlı kəndi – 2012, Bakı)
MƏMMƏDLİ ALTAY ƏLƏDDİN OĞLU (1972, Gədəbəy rayonu, Düzrəsullu kəndi – Bakı)
MƏMMƏDLİ ELMƏDDİN MAHİR OĞLU (1982, Tovuz rayonu, Əhmədabad kəndi – Sumqayıt şəhəri)
MƏMMƏDLİ SƏRDAR QƏLƏNDƏR OĞLU (1963, Gədəbəy rayonu, Arıqıran kəndi – Bakı).
MƏMMƏDOV BİNNƏT HÜMBƏT OĞLU (1926, Goranboy rayonu, Balakürd kəndi – 1998)
MƏMMƏDOV ƏFQAN ƏVƏZ OĞLU (1975, Kəlbəcər rayonu, Yellicə kəndi – Gəncə)
MƏMMƏDOV GÖYCƏ MƏHƏMMƏD OĞLU (1930, Borçalı mahalı, Qaçağan kəndi – 1996)
MƏMMƏDOV HÜSEYN HEYDƏR OĞLU (1907, Gəncə – 1978)
MƏMMƏDOV İBRAHİM ƏSGƏR OĞLU (1909, Gəncə – 1983)
MƏMMƏDOV İSLAM RZA OĞLU (1978, Bakı şəhəri – 2013)
MƏMMƏDOV İSMAYIL (Bozalqanlı İsmayıl) İBRAHİM OĞLU (1951, Tovuz rayonu, Bozalqanlı kəndi)
MƏMMƏDOV QARA QOCA OĞLU (1911, Göyçə mahalı, Basarkeçər – 1986).
MƏMMƏDOV QƏMBƏR HƏSƏN OĞLU (1872, Şəmkir rayonu, Hüseynalı kəndi – 1952)

MƏMMƏDOV MAHMUD QASIM OĞLU (1935, Göyçə mahalı, Ağbulaq kəndi – Bakı)
MƏMMƏDOV MEHMAN (ZƏKƏRİYYƏ MEHMAN) MƏHƏMMƏD OĞLU (1928, Qazax rayonu, Aslanbəyli kəndi – 1999)
MƏMMƏDOV MƏHƏMMƏD ÇOVDAR OĞLU (1922, Tovuz – 2015)
MƏMMƏDOV MƏHƏMMƏD MAHMUD OĞLU (1934, Qazax rayonu, Kəmərli kəndi)
MƏMMƏDOV MƏHƏMMƏD (SADAXLI) (1930, Borçalı mahalı, Mollaoğlu kəndi – 2016)
MƏMMƏDOV MƏLİK ORUC OĞLU (1947, Gədəbəy rayonu, Arıqıran kəndi – 2006)
MƏMMƏDOV MUĞUM (1903, Göyçə mahalı, Zağalı kəndi – 1978, Şəki, Cəfərabad kəndi)
MƏMMƏDOV RZA BURCALI OĞLU (1976, Şamaxı rayonu, Quşçu kəndi)
MƏMMƏDOV RZA (RZA QOBUSTANLI) ƏLİSA OĞLU (1944, Şamaxı rayonu, Təhlə kəndi – 1989, Qobustan)
MƏMMƏDOV SABİT İSMAYIL OĞLU (1958, Qazax rayonu, Kosalar kəndi)
MƏMMƏDOV ŞAHBAZ GÖYCƏ OĞLU (1968, Borçalı mahalı, Saral rayonu, Qaçağan kəndi)
MƏMMƏDOV VƏLİ (QARAXANLI VƏLİ) KƏRİM OĞLU (1902, Tovuz rayonu, Qaraxanlı kəndi – 1992)
MƏMMƏDOV YƏHYA MUSA OĞLU (1931, Qazax rayonu, Qaymaqlı kəndi – 1994)
MƏMMƏDOV ZAHİD BAXIŞ OĞLU (1959, Şamaxı rayonu, Ərəbqədim – Göydəpə kəndi)
MƏMMƏDOV ZAMƏDDİN BİNNƏT OĞLU (1950, Goranboy rayonu, Balakürd kəndi - 2018)
MƏMMƏDOV ZEYNAL MUXTAR OĞLU (1924, Gəncə – 1986)
MƏMMƏDOVA LƏTİFƏ MÜSLÜM QIZI (1970, Tovuz rayonu, Çeşməli kəndi)
MƏMMƏDOVA SƏNƏM (Balakənli Sənəm) HACI QIZI (1887, Balakən rayonu, Gülüzən kəndi)
MƏMMƏDOVA SVETLANA ƏLABBAS QIZI (1946, Bakı)
MƏRDANOV MƏMMƏD (CANALLI MƏMMƏD) MƏRDAN OĞLU (1880, Qazax rayonu, Canallı kəndi – 1937)
MƏRƏNDİ ƏLƏSGƏR RƏHMAN OĞLU (1940, Mərənd – Təbriz) –
MƏSİMOV MEHDİ MÜSTƏCƏB OĞLU (1973, Kəlbəcər rayonu, Mollabayramlı kəndi – Bərdə)
MƏSUM ƏFƏNDİ (XVIII əsr, Dərbənd)
MƏSİMOV MEHDİ MÜSTƏCƏB OĞLU (1973, Kəlbəcər rayonu, Molla Bayramlı kəndi-Bərdə)
MİKAYILOV AĞALAR MİRZƏ BİLAL OĞLU (1913, Şamaxı rayonu, Qəşəd kəndi – 1979)
MİKAYILOV BİLAL (MİRZƏ BİLAL) MUSTAFA OĞLU (1872, Şamaxı rayonu,

Qəşəd kəndi – 1937)
MİKAYILOV FAMİL ƏHLİMAN OĞLU (1977, Laçın rayonu, Qoşasu kəndi - Bakı)
MİKAYILOV RÜSTƏM AĞACAN OĞLU (1936, Ağsu rayonu, Gəzəli kəndi – 2007)
MİRZALIYEV XASPOLAD SALMAN OĞLU (1919, Ağdam rayonu, Abdal kəndi – 1990)
MİRZƏ SADIQ ƏSƏD OĞLU (1846, Şuşa – 1902)
MİRZƏYEV ASLAN (ASLAN KOSALI) MUSA OĞLU (1929, Borçalı mahalı, Qarayazı, Kosalı kəndi – 2015)
MİRZƏYEV ATABALA XANBALA OĞLU (1929, Şamaxı rayonu, Şamlı kəndi – 2014)
MİRZƏYEV FEYZİ ƏDİL OĞLU (1896, Şamaxı rayonu, Çağan kəndi – 1964)
MİRZƏYEV ZEYNAL MUSEYİB OĞLU (1930, Yevlax rayonu, Nurallan kəndi).
MİRZƏZADƏ SƏYYAD AYDIN OĞLU (1981, Abşeron rayonu, Mehdiabad qəsəbəsi)
MOLLA CUMA (1854, Şəki rayonu, Layski kəndi – 1920)
MÖVLAYEV QARA İMAMVERDİ OĞLU (1894, Göyçə mahalı, Kiçik Məzrə kəndi – 1965, Gəncə)
MÖVSÜMOV İBRAHİM MUSA OĞLU (1909, Tovuz rayonu, Qaradaş kəndi – 1978)
MURAD DƏLLƏK (XVII əsrin ikinci yarısı, Göyçay rayonu, Xəlilli kəndi – XVIII əsrin birinci yarısı)
MURAD OĞLU ƏLİXAN (1898, Zaqatala rayonu, Yengiyan kəndi – 1982)
MUSAYEV AVDI TELMAN OĞLU (1974, Qazax rayonu, I Şıxlı kəndi – Sumqayıt)
MUSAYEV AYDIN (AYDIN ÇOBANOĞLU) ÇOBAN OĞLU (1951, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1993, Bakı)
MUSAYEV BƏKİR ORUC OĞLU (1940, Borçalı mahalı, Qasımlı kəndi – 2009)
MUSAYEV ƏBÜLFƏZ ŞÜKÜR OĞLU (1910, Göyçay rayonu, Şəkər kəndi – 1989)
MUSAYEV XANMUSA MUSAXAN OĞLU (1924, Şamaxı rayonu, Şamlı kəndi – 2017, Qobustan)
MUSAYEV KƏRƏM MƏHƏMMƏD OĞLU (1899, Qərbi Azərbaycan, Vedi mahalı, Göyalsor kəndi – 1974, Ağstafa rayonu, Səməd Vurğun qəsəbəsi)
MUSTAFA (QUL MUSTAFA) (təxminən XVI əsr)
MUSTAFAYEV BƏHLUL ŞİRƏLİ OĞLU (1910, Göyçə mahalı, Yarpızlı kəndi – 1995, Gədəbəy rayonu, Zəhmət kəndi)
MUSTAFAYEV İMAMVERDİ MƏHƏMMƏD OĞLU (1952, Gədəbəy rayonu, Leşkər kəndi)
MUSTAFAYEV MƏHƏMMƏD MUSTAFA OĞLU (1910, Gədəbəy rayonu, Leşkər kəndi – 1978)
MUSTAFAYEVA PƏRVANƏ (Pərvanə Zəngilanlı) HÜSÜ QIZI (1958, Qafan rayo-

nu, Acıbac kəndi-Bakı)
MÜHLİS OĞLU PAŞA (1272-1333)
NAĞIYEV İSMAYIL (İSMAYIL MAHİR) BAHAN OĞLU (1925, Göyçə mahalı, İnəkdağı kəndi – 1995, Gəncə)
NAĞIYEV NƏBİ ƏZİZ OĞLU (1979, Gədəbəy rayonu, Mormor kəndi)
NAMAZOV XALIQVERDİ MƏMMƏDALI OĞLU (1936, Tovuz rayonu, Bozalqanlı kəndi – 2003)
NAMAZOV KƏRƏM BƏKİR OĞLU (1956, Qaraqoyunlu mahalı, Bəryabad kəndi – 2010, Sumqayıt)
NƏBATİ MƏHƏMMƏD BƏHRAM OĞLU (1968, Qaradağ mahalı, Əhər şəhəri, Çay kəndi – 2015, Təbriz)
NƏBİYEV BEHBUD ƏLİ OĞLU (1897, Göyçə mahalı, Qoşabulaq kəndi – 1972)
NƏBİYEV ƏHMƏD (SADAXLI) MUSTAFA OĞLU (1935, Borçalı mahalı, Sadaxlı kəndi – 2006)
NƏBİYEV NİZAMİ (Nizami Səyyad) MÜZƏFFƏR OĞLU (1958, Mingəçevir)
NƏQDİ SÖHRAB ABBASQULU OĞLU (1945, Qaradağ, Kələybər mahalı, Üştibin kəndi)
NƏSİB OĞLU MEHDİ (1870, Göyçə mahalı, Ağkilsə kəndi – 1940, Tovuz rayonu, Qovlar kəndi)
NƏSİBOV ALLAHYAR MUSTAFA OĞLU (1938, Borçalı mahalı, Hacıiskənəd (Gorarxı eli) kəndi – 2000).
NƏSİBOV ƏDALƏT MƏMMƏDƏLİ OĞLU (1939, Göyçə mahalı – 2017, Qazax rayonu)
NƏSİBOV KƏRƏM (İNCƏLİ KƏRƏM) SÜLEYMAN OĞLU (1945, Qazax rayonu, Aslanbəyli kəndi – 1995)
NƏSİBOV MÜSEYİB QASIM OĞLU (1909, Göyçə mahalı, Cil kəndi – 1995, Bakı)
NƏSİBOVA SAVAD AXUND ŞƏFİ QIZI (1885, Göyçə mahalı, Daşkənd kəndi – 1970, Gədəbəy rayonu, Qumlu kəndi).
NİFTALIYEV BƏHLUL ƏMİRXAN OĞLU (1900, Şahbuz mahalı, Kilis kəndi – 1978)
NİFTALIYEV ƏLİXAN ABBASQULU OĞLU (1943, Tovuz rayonu, Aşağı Quşçu kəndi)
NİFTƏLİYEV MAHMUD ƏLƏSGƏR OĞLU (1947, Qobustan rayonu, Şıxzərli kəndi – 2002)
NİFTƏLİYEV VÜQAR MAHMUD OĞLU (1970, Şamaxı, Şıxzərli kəndi – 2018, Bakı)
NOVRUZOV MURAD MƏCİD OĞLU (1928, Qazax rayonu, Çaylı kəndi – 2008)
NÖVRƏS İMAN MƏŞƏDİ SALAH OĞLU (1903, Göyçə mahalı, Ağkilsə kəndi – 1953, Ərdəbil)
NURİ ƏBDÜLƏLİ (1930, Qaradağ mahalı – 1998)
ORDUBADLI ABBAS (XIX əsrin əvvəlləri, Ordubad rayonu, Dəhri kəndi – 1932, Şəmkir rayonu)

ORDUBADLI KƏRİM (təqribən XVII əsr)
ORDUBADLI YUSİF YUNİS OĞLU (1932, Ordubad rayonu, Bilov kəndi – 1991, Zaqatala)
ORUCOV FƏZAİL CƏFƏR OĞLU (1976, Gədəbəy rayonu, Çaldaş kəndi – Bakı)
OVALAR (XVII əsr, Tovuz rayonu)
ÖMƏR ABDULLA GƏNCƏ OĞLU (1621, Krım, Gözləvə şəhəri – 1707)
ÖMƏROV ƏLİXAN (ƏLİXAN QARAYAZILI) QURBAN OĞLU (1909, Qarayazı mahalı, Kosalı kəndi – 1998)
ÖMƏROV MƏDƏT RAMAZAN OĞLU (1934, Zaqatala rayonu, Bəhmətli kəndi - 2010)
ÖYSÜZLÜ ƏLƏSGƏR (təxminən 1886, Tovuz rayonu, Öysüzlü kəndi – 1936)
PAŞA (DƏLLƏK PAŞA) GÜLLÜ OĞLU DƏLİVƏLLİ (1886, Borçalı mahalı, Barmaqsız (indiki Zalqa) bölgəsi, Ərçivan-Sarvan kəndi – 1976, Tiflis şəhəri, Saburtala məhəlləsi)
PAŞAYEV ABBAS (ZƏRGƏR ABBAS) CƏLİL OĞLU (1949, İmişli rayonu, Əlipənahlı kəndi- Sumqayıt)
PAŞAYEV ŞƏMİSTAN (1893, Göyçə mahalı, Canəhməd kəndi – 1973)
PAŞAYİ MƏŞİ HACIHÜSEYN OĞLU (1931, Qaradağ mahalı, Mirzəli kəndi – 2016, Təbriz)
PƏNAHOV PƏNAH ƏLƏSGƏR OĞLU (1926, Salyan şəhəri – 1979)
PƏNAHOV SƏYYAD MƏŞƏDİ OĞLU (1945, Gədəbəy rayonu, Kərimli kəndi - 2019)
PİRİYEV HÜSEYN TALIB OĞLU (1939, Göyçə mahalı, Ağbulaq kəndi – 1996, Qazax rayonu, Qarasannı kəndi)
PİRİYEV ŞAMİL MUSTAFA OĞLU (1900, İsmayıllı rayonu, Tağlabiyan kəndi – 1986)
PİRİMOV QURBAN BƏXŞƏLİ OĞLU (PİRİMOV QURBAN) – (1880, Ağdam rayonu Gülablı kəndi – 1965, Bakı)
PÜNHAN MƏHƏMMƏDƏLİ SADIQ OĞLU (1914, Göyçə mahalı, Babacan kəndi – 1985, Borçalı mahalı, Qarayazı)
RƏHİMOV ƏBÜLFƏT (ZODLU) İSMAYIL OĞLU (1908, Göyçə mahalı, Zod kəndi – 1944, II Dünya müharibəsi)
RƏHİMOV ƏHLİMAN (ŞİRVANLI) RƏHİM OĞLU (1955, Ucar rayonu, Bərgüşad kəndi – Bakı)
RƏHMANOV ƏFQAN ZEYBƏDDİN OĞLU (1982, Balakən rayonu, Həlifə kəndi)
RƏNCİBƏR İSMAYIL QURBAN OĞLU (1973, Əhər, Qorçu kəndi)
RƏSULOV ƏLİ HƏSƏN OĞLU (1906, Göyçə mahalı, Şişqaya kəndi – 1988)
RƏSULOV SƏDAQƏT QOQUŞ OĞLU (1947, Gədəbəy rayonu, Kərgər kəndi)
RÜSTƏMİ GÜLƏHMƏD GÜLMƏMMƏD OĞLU (1961, Cənubi Azərbaycan, Horand mahalı, Korun kəndi – Təbriz)
RÜSTƏMOV ƏDIL TAĞI OĞLU (1898, Gədəbəy rayonu, Gərgər kəndi -1975)
RÜSTƏMOV ƏHMƏD ƏDİL OĞLU (1921, Kürdəmir rayonu, Carlı kəndi – 2008)
RÜSTƏMOV İSFƏNDİYAR ADİL OĞLU (1937, Gədəbəy rayonu, Gərgər kəndi-

2018)
RÜSTƏMOV QƏHRƏMAN (1928, Tovuz rayonu, Qovlar qəsəbəsi – 1992)
RÜSTƏMOV ZAHİD ASLAN OĞLU (1945, Gədəbəy rayonu, Daryurd kəndi)
RZAYEV ƏSƏD ƏHMƏD OĞLU (1874, Göyçə mahalı, Basarkeçər rayonu, Böyük Qaraqoyunlu kəndi – 1951, Tovuz rayonu, Bozalqanlı kəndi)
RZAYEV HÜSEYN (DƏMİRÇİ HÜSEYN) RZA OĞLU (1897, Tovuz rayonu, Bozalqanlı kəndi – 1968)
RZAYEV MƏHƏMMƏD ƏHMƏD OĞLU (1883, Göyçə mahalı, Böyük Qaraqoyunlu kəndi – 1968, Tovuz rayonu)
RZAYEV NAĞI İMAMVERDİ OĞLU (1903, Tovuz rayonu, Düzqırıqlı kəndi – 1969)
RZAYEV VAQİF YUNUS OĞLU (1954, Astara rayonu, Axsanakaran kəndi)
SADIQOV BİLAL QURBANXAN OĞLU (1929, Salyan rayonu – 1989)
SADIXOV HƏSƏNAĞA BİLAL OĞLU (1950, Salyan – 2018, Bakı)
SADIQOV İSMAYIL (İsmayıl Sadıqlı) TAĞI OĞLU (1898, Tovuz rayonu, Cilovdarlı kəndi)
SADIQOV QURBANXAN BILAL OĞLU (1905, Salyan rayonu, Noxudlu kəndi – 1977)
SADIQOV MAİS (MAİS GƏNCƏLİ) İSRAİL OĞLU (1947, Gəncə)
SALLI CƏLİL (1850, Dərələyəz mahalı, Sallı kəndi-1928, Naxçıvan-Şərur rayonu, Dizə kəndi)
SALXANOV HÜSEYN ORUC OĞLU (1890, Zaqatala rayonu, Əliabad kəndi – 1941, II Dünya müharibəsi)
SARI AŞIQ – (XVII yüzilliyin ustad sənətkarı, Laçın)
SARIYEV HÜSEYN BAYRAM OĞLU (1902, Göyçə mahalı, Polad kəndi – 1987, Qazax)
SARIYEV MURAD ƏLİ OĞLU (1952, Borçalı mahalı, Dəllər kəndi)
SAYAT XANIM (1936, Tovuz rayonu – 1961)
SAYILOV ƏLİFAĞA ƏMİ OĞLU (1943, Lerik rayonu, Qışlaq kəndi – Biləsuvar, Xırmandalı kəndi)
SAYİ HÜSEYN HƏMİD OĞLU MAHMUDABAD (1966, Təbriz, Mahmudabad kəndi)
SƏMƏDOV ALAY (CAVAN ALAY) MƏMMƏD OĞLU (1942, Tovuz rayonu, Əlimərdanlı kəndi- 1996)
SEVDALI HƏSƏN BƏBİŞ OĞLU (1934, Biləsuvar rayonu, Ağalıkənd kəndi – 1997)
SEVİL ƏDALƏT (Xıdırova Sevil) FİRUDİN QIZI (1973, Yevlax rayonu, Tanrıqululular kəndi-Bakı)
SEYFƏLİ PƏNAH HƏSƏN OĞLU (1876, Şəmkir rayonu, Seyfəlli kəndi – 1921)
SEYİDOV ABBAS QƏDİR OĞLU (1957, Naxçıvan şəhəri)
SEYİDOV İXTİYAR MİRCƏFƏR OĞLU (1966, Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonu, Kükü kəndi)
SEYİDOVA QƏNDAB HACI QIZI (1935, Dağıstan Respublikası, Rütül mahalı,

Qatrux kəndi – 1985, Quba rayonu)
SƏFƏROĞLU MUSA (1830, Göyçə mahalı, Ağkilsə kəndi – 1912)
SƏFƏROV XOSROV MƏHƏMMƏD OĞLU (1936, Ağdam rayonu, Qalayçılar kəndi – Bərdə rayonu)
SƏFƏROV MƏHƏMMƏD HƏMİD OĞLU (1903, Ağdam rayonu, Qalayçılar kəndi – 1977)
SƏFƏROV MƏSİM İSA OĞLU (1917, Şəmkir rayonu, Keçili kəndi – 1979)
SƏMƏDBƏYLİ BƏŞİR MƏMMƏDHÜSEYN OĞLU (1913, Tovuz rayonu, Əlimərdanlı kəndi – 1989)
SƏMƏD MİRZƏ (1890, Qazax rayonu, Daşsalahlı kəndi – 1981)
SƏMƏD ÖYSÜZLÜ (təxminən 1830, Tovuz rayonu, Öysüzlü kəndi – 1918)
SƏRBAZİ ƏKBƏR BARAT OĞLU (1990, Qaradağ mahalı, Əhər şəhəri – Təbriz)
SOLTANOV FƏRHAD SOLTAN OĞLU (1931, Ucar rayonu, Yuxarı Şilyan kəndi – 2007)
SONA (XIX əsr)
SÖHBƏTOV ABBAS (CƏYİRLİ) AĞABALA OĞLU (1903, Şamaxı rayonu, Cəyirli kəndi – 1966)
SÖHBƏTOV PİRMƏMMƏD YUSİF OĞLU (1903, Kürdəmir rayonu, Ağarzabəyli kəndi – 1997)
SULDUZLU ƏLİ RƏHİM OĞLU (1867, Güney Azərbaycan, Sulduz mahalı, Nagadı kəndi – 1934, Qazax rayonu, Köçəsgər kəndi)
SULTANOV MƏMMƏD HƏSƏN OĞLU (1897, Dərəçiçək mahalı, Qaraçalı kəndi – 1971, Borçalı mahalı, Sarvan eli, Daştəpə kəndi)
SULTANOV SADIQ HƏSƏN OĞLU (1893, Dərəçiçək (Axta) mahalı, Qaraqala kəndi – 1965, Tiflis, Soğanlıq kəndi)
SÜLEYMANOV ALI (DƏRƏÇİÇƏKLİ AŞIQ ALI) (1870, Dərəçiçək (Axta) mahalı, Qaraqala kəndi – 1953)
SÜLEYMANOV ƏLƏDDİN (ƏLƏDDİN GÖYÇƏLİ) MUSA OĞLU (1954, Göyçə mahalı, Sarıyaqub kəndi – Göygöl rayonu)
SÜLEYMANOV QƏHRƏMAN ÖMƏR OĞLU (1925, Dağ Borçalı, Qaraqala kəndi – 2004, Bolnisi rayonu, Qoçulu kəndi)
SÜLEYMANOV QİYAS NİFTALI OĞLU (1941, Göyçə mahalı, Ardanış kəndi – 1998, Sumqayıt)
SÜLEYMANOV MUSA AĞAYAR OĞLU (1931, Göyçə mahalı, Basarkeçər rayonu, Sarıyaqub kəndi – 1991)
SÜLEYMANOV NİFTALI KƏRBƏLAYI İSMAYIL OĞLU (1913, Göyçə mahalı, Ardanış kəndi – 1976)
SÜLEYMANOV SÖHRAB SÜLEYMAN OĞLU (1974, Kəlbəcər rayonu, Ağcakənd kəndi – Yevlax rayonu, Kövər kəndi)
SÜLEYMANOV SÜLEYMAN MEHRALI OĞLU (1946, Kəlbəcər rayonu, Ağcakənd kəndi)
SÜLEYMANOVA MİNAYƏ MUSTAFA QIZI (1966, Dağ Borçalı, Cəlaloğlu rayonu, İlməzli kəndi-Bakı)

SÜMMANİ ÇILDIRLI (1861, Türkiyə, Ərzurum, Samiqala kəndi – 1915)
ŞAHBAZOV BABƏK (BABƏK ŞAKİRLİ) MƏZAHİR OĞLU (1985, Hacıqabul rayonu, Şorbaçı kəndi)
ŞAHNAZİ ƏZİZ MUSA OĞLU (1910, Gəncə – 1994, Əhər)
ŞAHVƏLƏDOĞLU ƏKBƏR (1969, Qaradağ mahalı, Əhər, Pirbulaq kəndi)
ŞAİROV NOVRUZ SÜLEYMAN OĞLU (1929, Göyçə mahalı, Daşkənd kəndi – 2000, Bərdə rayonu, Yeni Daşkənd kəndi)
ŞAMAXILI XANBALA YARBALA OĞLU (1905, Şamaxı rayonu, Şamlı kəndi – 1947)
ŞAMAXILI PƏRİNAZ AZAY QIZI (1860, Şamaxı rayonu, Bağırlı kəndi – 1968)
ŞATIROĞLU VEYSƏL ƏHMƏD OĞLU (1894, Türkiyə, Sivas, Sivrialan kəndi – 1971)
ŞENLİK (HƏSƏN QƏDİR OĞLU) – 1853, Qars vilayəti, Çıldır mahalı, Suxara kəndi – 1912)
ŞƏFİLİ MƏHARƏT HABİL OĞLU (1992, Bakı, Qaradağ rayonu, Qobustan qəsəbəsi)
ŞƏMKİRLİ HÜSEYN (1811, Şəmkir mahalı, Qapanlı kəndi – 1891, Gədəbəy, Ağbulaq yaylağı)
ŞIXLİNSKİ MUSTAFA (MUSTAFA TƏKƏLİ) QARNET OĞLU (1929, Qazax rayonu, Şıxlı kəndi – 2003, Borçalı mahalı, Təkəli kəndi)
ŞIMPIRLI MAHMUD (təxminən XVII əsrin ortaları, Göyçə mahalı, Şımpır obası – Türkiyə)
ŞIMPIRLI SEVGİLİ (təxminən XVII əsr, Göyçə mahalı, Şımpır kəndi)
ŞİRİNOV NİZAMİ ƏMİRASLAN OĞLU (1954, Laçın rayonu, Qarakeçdi kəndi – Ağcabədi rayonu, Taxtakörpü qəsəbəsi)
ŞİRİNZADƏ ŞİRİN MAYIL OĞLU (1982, Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonu, Gömür kəndi)
ŞİRVANLI BABA (XVIII əsrin ikinci yarısı, Ağsu rayonu, Kalva kəndi – XIX əsrin əvvəlləri)
ŞİRVANLI SALEH (XVIII əsrin birinci yarısı, Şirvan)
ŞİŞQAYALI AYDIN RAMAZAN OĞLU (1825, Göyçə mahalı, Şişqaya kəndi – 1915)
TAĞIYEV ƏLƏSGƏR (BOZALQANLI) MİKAYIL OĞLU (1930, Tovuz rayonu, Bozalqanlı kəndi – 2014)
TAĞIYEV İBRAHİM HƏSƏN OĞLU (1910, Daşkəsən rayonu, Qabaqtəpə kəndi – 1985)
TAĞIYEV QƏZƏNFƏR ƏLİ OĞLU (1946, Gədəbəy rayonu, Göyəmli kəndi – 2018, Bakı)
TAĞIYEV SALMAN KAZIM OĞLU (1905, Gəncə, Ağabəyli kəndi – 1969)
TAĞIYEV SƏYYAD (1905, Bərdə rayonu, Düzanlı kəndi – 1979, Goranboy rayonu, Dəliməmmədli)
TAĞIZADƏ İSGƏNDƏR MƏŞƏDİ OĞLU (1874, Şəmkir rayonu, Cırdaxan kəndi – 1943)

TAHİRCANLI ƏMİRƏLİ (1790, Qusar rayonu, Tahircan kəndi – 1846, Quba rayonu, Əmsar kəndi)
TAPDIQOV GÜLBALA LAÇIN OĞLU (1908, Quba rayonu, Tüləkərən kəndi – 1969)
TAŞLIOVA ŞƏRƏF (1938, Çıldır mahalı, Gülyüzlü kəndi- 2014, Türkiyə)
TƏMİROV ƏŞRƏF QƏRİB OĞLU (1964, Borçalı mahalı, İlməzli kəndi - Bakı)
TİRCANLI ORUC (XIX əsr, Şamaxı qəzası, Tırcan kəndi)
TÜRKƏDARİ QULU ƏLİQULU OĞLU (1920, Qaradağ mahalı – 1994).
URMİYALI FƏRHAD FÜZULİ OĞLU (1901, Urmiya – 1970)
ÜMİDİ FƏRZULLAH LÜTFÜLLAH OĞLU (1961, Qaradağ mahalı, Gərməduz çevrəsi, Kirdazaylı kəndi – Tehran)
VAHİDİ ƏLİRZA ƏHMƏD OĞLU (1951, Urmiya mahalı, Sulduz şəhri - 1991)
VAHİDZADƏ DƏRVİŞ FƏRHAD OĞLU (1927, Urmiya – 1994)
VARXİYANLI MƏHƏMMƏD (təxminən 1770, Zaqatala rayonu, Varxiyan kəndi – 1860-cı illərin axırı)
VERDİYEV İSAQ ABDULLA OĞLU (1919, Goranboy rayonu, Rəhimli kəndi – 1978)
VƏLİBƏYLİ İLQAR MƏCİD OĞLU (1958, Qazax rayonu, Kəmərli kəndi – Bakı)
VƏLİYEV DƏMİR ALLAHYAR OĞLU (1972, Gədəbəy rayonu, Arabaçı kəndi)
VƏLİYEV HÜSEYN HƏZRƏTQULU OĞLU (1913, Gədəbəy rayonu, Arabaçı kəndi – 1978)
VƏLIYEV QƏDIR (BABACANLI) ZAL OĞLU (1908, Göyçə mahalı, Babacan kəndi – 1982)
VƏLİYEV QULU HÜSEYN OĞLU (1903, Zəngibasar – 1969)
VƏLİYEV MURAD MƏHƏMMƏD OĞLU (1916, Gəncə – 1974)
VƏLİYEV MUSTAFA QARA OĞLU (1923, Qazax rayonu, Xanlıqlar kəndi – 1987)
VƏLİYEV ŞƏMİDDİN VƏLİ OĞLU (1924, Qazax rayonu, Aslanbəyli kəndi – 1996)
VƏLİYEV TƏBRİZ İSFƏNDİYAR OĞLU (1965, Gədəbəy rayonu, Soyuqbulaq kəndi – Bakı)
VƏLİYEVA AYBƏNİZ (AYBƏNİZ LAÇINLI) SABİR QIZI (1960, Laçın rayonu, Nağdalı kəndi - Bakı)
VƏNYARLI ƏLƏSGƏR HÜSEYN OĞLU (1969, Qaradağ mahalı, Vənyar kəndi – Təbriz)
VİCUDİ BÖYÜKAĞA (PİROĞLU) (1964, Qaradağ mahalı, Mavazxan eli, Kivic kəndi)
YADİGAROV MƏSİM (BƏYAZİTLİ) (1889, Borçalı mahalı, Bəyazit kəndi – 1945)
YƏHYA OĞLU NAĞI (“ŞAİR NAĞI”) (1880, Tovuz rayonu, Yekallar kəndi – 1953)
YUNİS ƏMRƏ (1240/41, Sivrihasar, Sarıköy – 1320/21, Əskişəhər (indiki Yunis Əmrə köyü)

YUSİFOV İSLAM QARA OĞLU (1893, Göyçə mahalı, Nərimanlı kəndi – 1968, Gəncə)
YUSİFOV QÜRBƏT ŞAHVƏLƏD OĞLU (1955, Qazax rayonu, Qazaxbəyli kəndi – Qazax)
YUSİFOV ZƏKİ (ZƏKİ İSLAM) İSLAM OĞLU (1939, Göyçə mahalı, Krasnoselsk rayonu, Cil kəndi – 2018, Bakı)
ZAHİDOV ATABALA KAZIM OĞLU (1929, Masallı – 1994)
ZAHİDOV XANIŞ XEYRULLA OĞLU (1932, Qobustan rayonu, Nabur kəndi – 2010)
ZALOVA GÖZƏL ZALLAR QIZI (1981, Kəlbəcər rayonu, Zallar kəndi- Bakı)
ZANDAVALİ NİFDİ HÜSEYNQULU OĞLU (1901, Qaradağ mahalı, Əhər, Zenava kəndi – 1970, Əhər)
ZEYNƏLABDİNOV ƏLİ PƏNAH OĞLU (1991, Kəlbəcər rayonu, Zəylik kəndi – Bakı)
ZEYNALOV HƏSƏN (HƏSƏN PƏRVANƏ) (1915, Şəmkir rayonu, Otaqçı Təhnəli kəndi – 1979)
ZEYNALOV İSMAYIL (KATİB) NOVRUZ OĞLU (1898, Qazax rayonu, Qıraqkəsəmən kəndi – 1938)
ZEYNALOV QƏLƏNDƏR NADİR OĞLU (1967, Gədəbəy rayonu, Dəyirmandağ kəndi)
ZEYNALOV MİKAYIL (MİKAYIL AZAFLI) CABBAR OĞLU (1924, Tovuz rayonu, Azaflı kəndi – 1990)
ZEYNALOV NEMƏT İSMAYIL OĞLU (1959, Gədəbəy rayonu, Daryurd kəndi)
ZEYNALOV ROMAN (ROMAN AZAFLI) HAKİM OĞLU (1983, Rusiya, Tümen vilayəti, Surqut şəhəri – Bakı)
ZEYNALOVA DİLARƏ (DİLARƏ AZAFLI) MİKAYIL QIZI (1947, Tovuz rayonu, Azaflı kəndi – Bakı, 2005)
ZEYNALOVA GÜLARƏ (GÜLARƏ AZAFLI) MIKAYIL QIZI (1959, Tovuz rayonu, Azaflı kəndi) –
ZƏNGƏBAD RƏZMİ MÖHSÜN ABBAS OĞLU (1957, Təbriz, Zəngəbad kəndi)
ZƏRNƏLİ MƏHƏMMƏD HÜSEYNƏLİ OĞLU (1950, Qaradağ mahalı, Zərnə kəndi – Təbriz)
ZODLU MƏHƏMMƏD MOLLA TAĞI OĞLU (1830, Göyçə mahalı, Zod kəndi – 1910)
ZÜLFÜQAROV AYAZ MUSTAFA OĞLU (1931, Qazax rayonu, Daş Salahlı kəndi – 1982)
ZÜLFÜQAROV İZZƏTALI MƏHƏMMƏD OĞLU (1925, Şamaxı rayonu, Şamlı kəndi – 1999, Bakı, Qobustan qəsəbəsi)
ZÜLFÜQAROV NİZAMİ AYAZ OĞLU (1954, Qazax rayonu, Daş Salahlı kəndi).
ZÜLFÜQAROV ZAHİR İZZƏTALI OĞLU (1964, Bakı, Qobustan qəsəbəsi)

MÜNDƏRİCAT

Q 3
L 78
M 83
N 172
O 196
Ö 214
P 216
R 226
S 244
Ş 288
T 318
U 341
Ü 348
V 349
Y 364
Z 373
AŞIQ MUSİQİSİ (son söz əvəzi).....387
ƏDƏBİYYAT.....399
ENSİKLOPEDİYADA YER ALAN AŞIQ VƏ SAZ ŞAİRLƏRİNİN
AD GÖSTƏRİCİSİ.....405

OZAN-AŞIQ ENSİKLOPEDİYASI
(İki cilddə, II cild)

Texniki redaktoru:	***İlham QƏHRƏMANOV***
Kompüter tərtibatçısı və dzayneri:	***Namiq VƏLİOĞLU***
Mətni yığanlar:	***Könül NƏBİYEVA***
	Nurlana MAHMUDQIZI
	Zahirə HACIYEVA
Korrektorlar:	***Leyla ASLANOVA***
	Xatirə VƏLİYEVA

Yığılmağa verilib: ***30.09.2019***
Çapa göndərilib: ***25.12.2019***
Fiziki çap vərəqi: ***54***
Kağız formatı: ***60x84***
Tiraj: ***2000***

Kitab "Nigar" KM-də yığılmış və çapa hazırlanmışdır.
Ünvan: Bakı, Sabunçu rayonu, Nəsib Məlikov 22/5

Kitab "Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya mətbəəsində ofset üsulu ilə çap olunub.
Ünvan: Bakı şəhəri D.Əliyeva 239/8